AZƏRBAYCAN RESPUBLİKASI
NAXÇIVAN MUXTAR RESPUBLİKASI




## NAXÇIVAN MÜSTƏQİLLİK İLLƏRİNDƏ:



# HƏDƏFLƏR, İNKİŞAF, NƏTİCƏLƏR



**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ**

*Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunur*

105280

# NAXÇIVAN MÜSTƏQİLLİK İLLƏRİNDƏ: HƏDƏFLƏR, İNKİŞAF, NƏTİCƏLƏR

Azərbaycan Milli Kitabxanası

**Naxçıvan - 2016**

Т3 (2А-6На)7,01

*Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin*
*Rəyasət Heyətinin*
*31 mart 2016-cı il tarixli, 3/10 №-li qərarı ilə nəşr edilir*

**Redaksiya heyəti:**

**İsmayıl Hacıyev, Tariyel Talıbov, Hacıfəxrəddin Səfərli,**
**Əbülfəz Quliyev, Hacı Qadir Qədirzadə, Vəli Baxşəliyev**

***Naxçıvan müstəqillik illərində: hədəflər, inkişaf, nəticələr*** *(3-4 dekabr 2015-ci ildə keçirilmiş elmi konfransın materialları). Naxçıvan: "Əcəmi" NPB, 2016, 384 s.*

4700000000
053-2016

© "Əcəmi" 2016.

ARXİV

***Müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qurur hissi ilə bəyan edəcəkdir. Müstəqil Azərbaycan dövləti günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç zaman əldən verməyəcəkdir***

HEYDƏR ƏLİYEV
*Azərbaycan xalqının ümummilli lideri*

# MÜSTƏQİLLİK ƏSL SƏRVƏTDİR: BU SƏRVƏT QORUNMALI VƏ İNKİŞAF ETDİRİLMƏLİDİR

Müstəqil olmaq, müstəqil yaşamaq, öz taleyini özü həll etmək hər bir xalqın ən ümdə arzusudur. Nə etmək olar ki, dünyada mövcud olan xalqların heç də hamısı bu arzuya çatmamışdır.

Azərbaycanlılar da həmişə müstəqillik uğrunda mübarizə aparmış və bir sıra vaxtlarda buna nail olmuşlar. Azərbaycanı müstəqilliyə gətirən yol çox çətin və ağır olub. Ötən əsrin əvvəlində meydana gələn və Yaxın Şərqdə ilk müstəqil demokratik dövlət sayılan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşaya bildi. XI Qırmızı Ordu onu yenidən köhnə imperiyanın tərkibinə qataraq müttəfiq respublikadan birinə çevirdi. Azərbaycanın yeraltı və yerüstü sərvətləri Azərbaycan xalqına yox, SSRİ adlandırılan dövlətə məxsus oldu.

Müstəqillik yalnız yeraltı və yerüstü sərvətlərdən bəhrələnə bilmək deyil, həm də milli və dövləti maraqları əsas tutmaqla düşündüyün və lazım bildiyin formada, azad şəkildə fəaliyyət göstərmək deməkdir.

Azərbaycan 25 il bundan əvvəl dövlət müstəqilliyini bərpa etdi. Lakin müstəqilliyin ilk illəri Azərbaycan üçün çox çətin oldu. Məkrli qonşularımızın Azərbaycana qarşı ərazi iddiaları, daha sonra isə havadarlarının köməyi ilə hərbi yola əl atması ölkəmizi siyasi, iqtisadi və hərbi böhranla üz-üzə qoydu. Səriştəsiz adamların hakimiyyətə gəlməsi isə vəziyyəti daha da ağırlaşdırdı, ölkəmizdə qarşıdurmaya, vətəndaş müharibəsinə gətirib çıxardı. Xalqımızın təkidli tələbi və xahişi ilə Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasında siyasi hakimiyyətə gəldi. Bundan sonra Azərbaycan xalqı təhlükələrdən xilas oldu, azad nəfəs aldı, böhranlar dayandırıldı. Müstəqilliyi əsl sərvət kimi dəyərləndirən görkəmli dövlət xadimi Heydər Əliyev müstəqillik üçün təhlükə yaradan bütün amilləri mərhələ-mərhələ aradan qaldırdı, dövlət müstəqilliyini möhkəmləndirdi və inkişaf etdirdi.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan da 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində çətin vəziyyətlə qarşılaşmışdı. Dağlıq Qarabağ hadisələri Naxçıvanın ictimai-siyasi həyatına mənfi təsir göstərmişdi. Xoşbəxtlikdən Ulu Öndər Heydər Əliyev 1990-cı ilin iyulunda Naxçıvana gəldi, burada yaşayıb fəaliyyət göstərdi. Naxçıvan MSSR-in və Azərbaycan SSR-in ali qanunverici orqanlarına deputat, 1991-ci ilin sentyabrında isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Bununla da Naxçıvanın taleyi həll olundu, muxtar respublika məkrli düşmənlərin işğalından qorundu. "O illər müstəqilliyimiz üçün həlledici illərdir. Çünki mən hesab edirəm ki, müstəqilliyə gedən yol məhz o illərdə Naxçıvandan başlamışdır. Çünki Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı – bizim dövlət bayrağımız Naxçıvanda dövlət bayrağı kimi elan edilmişdir" söyləyən Prezident İlham Əliyev bildirir ki, 1991-1993-cü illərdə Azərbaycanın səriştəsiz rəhbərliyinin, ayrı-ayrı qrupların və şəxslərin mənafelərinə xidmət edən siyasətin dövlətə ağır zərbələr vurduğu dövrdə Naxçıvan MR Ali Məclisinin sədri olan Ulu Öndərin iştirakı ilə keçirilən sessiyalarının hər biri Azərbaycan xalqının gələcəyi naminə atılan addım idi. Azərbaycan Xalq Cümhuryyyətinin üçrəngli bayrağının, himninin, gerbinin bərpası ilə Azərbaycanın suverenliyinin əsasını qoyan, müstəqilliyimizin qarantı olduğunu bildirən Ulu Öndərin təşəbbüsü ilə qəbul olunan qərarlar xilaskarlıq missiyasının tarixini əks etdirir. Sovetlərin bərpa olunması üçün müəyyənləşdirilən referendum oyununa etiraz etməklə Azərbaycanın müstəqilliyini qoruyan Heydər Əliyev sonrakı fəaliyyəti ilə xalqa bələdçilik missiyasını yerinə yetirdi. Hələ Naxçıvanda olarkən daxili düşmənlərin bəd niyyətli, qərəzli əməllərinin qarşısını almaqla da suverenliyimizin əbədiliyini təmin etdi. Heydər Əliyev Naxçıvanı qoruduğu kimi, naxçıvanlılar da bu müdrik, dahi şəxsiyyəti qorudular.

Təməli xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulan yeni həyat quruculuğu xətti uğurla davam etdirildi.

1995-ci ildə Vasif Talıbov yekdilliklə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Vasif Talıbovun Ali Məclisin Sədri seçilməsi ilə Naxçıvanın gələcək uğurlu inkişafının əsası qoyuldu. Çünki, o, Naxçıvan Muxtar Respublikasının problemlərini aydın görür və onun həlli yollarını bilirdi. Qısa müddət ərzində Muxtar Respublikanın həyatının bütün sahələrində əsl canlanma müşahidə olunmağa başlandı. İctimai-siyasi mühit sağlamlaşdırıldı. Quruculuq və abadlıq işləri geniş vüsət aldı. Bütün bunlar Ali Məclis Sədrinin coşğun fəaliyyətinin nəticəsi idi. Sonralar Heydər Əliyev bu barədə danışarkən qeyd etmişdi ki, "Mən məmuniyyətlə demək istərdim ki, son dörd il içərisində (1995-1999-cu illər nəzərdə tutulur – İ.H.) Naxçıvanda işlər lazımı səviyyədə gedib. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq bu dörd il müddətində o sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər də görə bilər".

Heydər Əliyevin dövlətçilik təlimi Ali Məclis Sədrinin fəaliyyətində həmişə rəhbər tutulan konsepsiya olmaqla, həm də bunun qətiyyətlə və ardıcıllıqla həyata keçirilməsi prosesində özünün dolğun həllini tapdı. Bunlar isə idarəetməni mükəmməlləşdirdi, ictimai-siyasi həyata yeni çalalar gətirdi, Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modelini ortaya

qoydu. Naxçıvanın inkişaf və tərəqqisi üçün mükəmməl idarəetmə formulu yaratdı.

Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirdiyi kimi, bölgələrin sosial-iqtisadi inkişafı üçün üç Dövlət Proqramını imzalaması ilə regionların inkişafına nail oldu. Bu sahədə Naxçıvan Muxtar Respublikası xüsusi ilə diqqəti cəlb edir. Ölkə Prezidentinin Naxçıvan Muxtar Respublikasına ondan çox səfəri, əhali ilə, muxtar respublikanın sakinləri ilə səmimi görüşləri, onlarla obyektlərin təməlqoyma mərasimlərində, yaxud istifadəyə verilməsi tədbirlərində iştirakı, tövsiyyə və tapşırıqlarını verməsi yaddaşlarda dərin izlər salmış, Naxçıvanın hərtərəfli inkişafına güclü təkan vermişdir.

Prezident İlham Əliyev Naxçıvana hər səfərindən sonra burada görülən işlərin səviyyəsindən, muxtar respublikada gedən sürətli inkişaf prosesindən, sosial-iqtisadi islahatlardan, quruculuq işlərindən və bu işlərdə Naxçıvan rəhbərliyinin fəaliyyətindən razı qaldığını dönə-dönə bildirmişdi.

Ulu öndərin siyasi kursuna, dövlətçilik təliminə sədaqət, aydın siyasi mövqe, yorulmaz fəaliyyətdən ibarət olan inkişafın Naxçıvan modeli müasir muxtar respublikanın tərəqqisinin əsasını təşkil edir. Respublika mətbuatında Naxçıvanın son illərdəki sosial-iqtisadi inkişafını "Naxçıvan möcüzəsi" adlandırırlar. "Naxçıvan möcüzəsi"nin əldə edilməsini Ali Məclis Sədrinin özü belə xarakterizə edir: "Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".

Müstəqillik illərində muxtar respublika həqiqətən də çox yüksək dinamik inkişafa nail olmuşdur ki, bunlar insanlarda qürur hissi yaradır. İctimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın elə bir sahəsi olmamışdır ki, müsbət inkişaf orada özünü göstərməmiş olsun. Sənayedə, tikinti quruculuq sahələrində, kənd təsərrüfatında, nəqliyyat və rabitədə, elektroenergetikada, təhsildə, elmdə, mədəniyyətdə, səhiyyədə çox böyük kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdir. Bütün bunlar öyrənilməli, araşdırılmalı, tədqiq olunmalı və tədqiqat əsərlərində öz əksini tapmalıdır.

"Naxçıvan müstəqillik illərində: hədəflər, inkişaf, nəticələr" mövzusunda elmi konfransın keçirilməsində də əsas məqsəd müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının ictima-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən yenilikləri, əldə olunana müvəffəqiyyətləri təhlil edib ümumiləşdirməklə bunları geniş ictimaiyyətə çatdırmaqdır.

**İsmayıl Hacıyev,**
AMEA Naxçıvan Bölməsinin sədri



**Famil Seyidov**
Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

Naxçıvan Muxtar Respublikasının son illərdəki sosial-iqtisadi inkişafı böyük inkişaf və tərəqqi illəri, inkişafdan intibaha gedən yol kimi səciyyələndirilir.

1991-2015-ci illər sosial-iqtisadi inkişaf baxımından Naxçıvan Muxtar Respublikasının tarixində mühüm mərhələ təşkil edir. Blokadada olmasına baxmayaraq, muxtar respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, 1995-ci ildən başlanan sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, iqtisadiyyatda müsbət meyllər daha da möhkəmləndirilmişdir.

Muxtar respublikada inkişafın təmin olunmasında regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası mühüm əhəmiyyət kəsb edir. Dövlət Proqramları sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaradılmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında yeni imkanlar yaratmışdır.

Naxçıvan Muxtar Respublikasında ötən müddətdə həyata keçirilmiş iqtisadi islahatlar qısa dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermişdir.

İqtisadi və sosial sahədə bütün makroiqtisadi göstəricilərin yüksəlişi təmin edilmiş, Ümumi Daxili Məhsulun həcmi 1991-ci ilə nisbətən **136,2 dəfə** artaraq **2 milyard 467 milyon 422 min manat** təşkil etmişdir. Hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi **97,1 dəfə** artaraq **5.581,1 manat** olmuşdur.

Muxtar respublikada sənaye sahəsində həyata keçirilən islahatların başlıca məqsədi mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, təbii ehtiyatlardan və əmək resurslarından istifadə əsasında yeni müəssisələrin yaradılmasından, sənaye məhsullarının artan istehsalının təşkilindən, sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarət olmuşdur.

Sənayenin əsas inkişaf istiqamətlərini dövlət mülkiyyətində olan sənaye müəssisələrinin fəaliyyətinin bərpa edilməsi, rəqabətədavamlı və ixracyönümlü istehsal sahələrinin yaradılması, səmərəli kredit mexanizminin qurulması, muxtar respublka əhalisinin tələbatının yerli istehsal hesabına ödənilməsi təşkil etmişdir.

Mövcud resurslardan səmərəli istifadə etməklə hədəflərə yönələn məqsədli dövlət proqramlarının uğurlu icrası yüksək texnologiyalar əsasında mebel, maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı **858** istehsal və xidmət sahəsinin yaradılmasına şərait yaratmışdır.

1991-ci ilin sonuna muxtar respublikada **46** sənaye müəssisəsi fəaliyyət göstərirdisə ötən dövr ərzində bu müəssisələrin sayı **9,6 dəfə** artmış, sənaye məhsulunun həcmi **231,5 dəfə** artaraq **916 milyon 817 min** manatdan çox olmuşdur.

Muxtar respublikada təbii resurslardan səmərəli istifadə, ərzaq təhlükəsizliyinin təmin olunması, ixrac potensialının artırılması və yeni iş yerlərinin açılması istiqamətində tədbirlər davam etdirilmiş, fəaliyyəti bərpa edilmiş və ya yeni qurulmuş müəssisələrdə istehsal olunan məhsulların növü **361-ə çatmış, 343 növdə** məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Blokada şəraitinin yaratdığı çətinliklərə görə energetika sahəsində ciddi problemlərlə üz-üzə qalan muxtar respublikaya uzunmüddətli fasilədən sonra təbii qaz nəqli bərpa olunmuş, Naxçıvan şəhəri və rayon mərkəzlərindəki çoxmərtəbəli yaşayış binaları mərkəzləşmiş qaydada fasiləsiz istiliklə təmin edilmişdir. 1991-ci ilədək muxtar respublikada cəmi **bir** elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, keçən müddət ərzində bu sahədə aparılan məqsədyönlü islahatlar nəticəsində enerji istehsalı müəssisələrinin sayı **8-ə, ümumi gücü 237,4 meqavata** çatdırılmışdır. Hazırda Ordubad rayonunda **36 meqavat** gücündə Su Elektrik Stansiyasının inşası davam etdirilir.

Muxtar respublikamızda ilk dəfə olaraq **20 meqavat** gücündə Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Təkcə 2015-ci il **446 milyon kilovat saat** elektrik enerjisi istehsal edilmişdir ki, bu da 1991-ci ildəki müvafiq göstəricidən **4,8 dəfə** çoxdur.

Bu gün muxtar respublikamız elekrtik enerjisi idxal olunan regiondan elektrik enerjisi ixrac edən regiona çevrilmişdir.

Uzunmüddətli fasilədən sonra təbii qazın nəqlinin bərpa edilməsi ilə əlaqədar olaraq qaz kəmərlərinin tikintisi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi, qaz infrastrukturunun yenidən bərpası nəticəsində muxtar respublikada əhalinin və təsərrüfat subyektlərinin qazla təchizatı **100 faiz** başa çatdırılmış, **83 min 633** əhali abonenti və bütün təsərrüfat subyektləri mavi yanacaqla təmin olunmuşdur.

**Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında kənd təsərrüfatı hər zaman öncül mövqeyini qorumuş,** əhalinin ərzaq məhsullarına, emal müəssisələrinin isə xammala olan tələbatının ödənilməsindəki rolu, həmçinin əhali məşğulluğunun təmin olunmasındakı



əhəmiyyəti nəzərə alınaraq bu sahənin inkişafı diqqət mərkəzində saxlanılmışdır.

Torpaq islahatlarının ilk dəfə ölkə üzrə Naxçıvanda həyata keçirilməsi, torpağın şəxsi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi, burada digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratmışdır.

Aqrar bölmənin normativ hüquqi bazasının, elmi metodiki təminatının və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi, aqrar sahəyə maliyyə dəstəyinin artırılması, maddi texniki bazasının yaxşılaşdırılması, bu sahə üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi, daxili bazarın qorunması, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, ətraf mühitin qorunması, rayonlar üzrə ixtisaslaşmanın aparılması və zəruri dövlət strukturlarının yaradılması kənd təsərrüfatında dinamik inkişafı təmin etmişdir.

2015-ci ilin muxtar respublikada **"Kənd təsərrüfatı ili"** elan edilməsi də təsadüfi deyil. Bu, tarixən formalaşmış təsərrüfatçılıq ənənələrinə malik olan Naxçıvanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, emal müəssisələrinin xammalla fasiləsiz təchizatı, genefondu məhz bu qədim diyara məxsus olan qiymətli kənd təsərrüfatı məhsullarından istifadəyə istiqamətlənmiş növbəti addımdır.

"2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində aqrar sektorun çoxsahəli sabit inkişafına nail olunmuşdur.

Belə ki, 1991-ci illə müqayisədə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi **25,1 min** hektardan **61,4 min** hektara, başqa sözlə **2,4 dəfə** artsa da məhsuldarlığın artırılması hesabına 2015-ci ildə ümumi məhsulun həcmi **13 milyon 885 min 900 manatdan 402 milyon 992 min manata** çatmış və ya **29,0 dəfə** artmışdır. Ən əsası isə odur ki, muxtar respublikada torpaqların məhdud olması nəzərə alınaraq bitkiçilik ekstensiv üsulla deyil, müasir aqrokimyəvi və aqrotexniki tədbirlərə əsaslanan intensiv metodlarla inkişaf etdirilir.

Ümumilikdə 1991-ci illə müqayisədə taxıl istehsalı 3,5 dəfə artaraq 106,3 min tona, kartof istehsalı 112,5 dəfə artaraq 45,0 min tona, meyvə və giləmeyvə istehsalı 27,7 dəfə artaraq 66,5 min tona, tərəvəz məhsulları istehsalı 17,8 dəfə artaraq 82,0 min tona, bostan məhsulları istehsalı 34,5 dəfə artaraq 38,0 min tona çatmışdır.

Aqrar sektorunun inkişafı və əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində xüsusi önəm daşıyan sahələr üzrə dövlət maliyyə

dəstəyi ilə **230** heyvandarlıq, **64** ətlik və yumurtalıq istiqamətində quşçuluq, **95** arıçılıq, 72 bağçılıq və **14** balıqçılıq təsərrüfatı yaradılmışdır.

Əhalinin ərzaq məhsullarına olan tələbatının ilboyu ödənilməsinin təmin edilməsi, kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, məhsulların tədarükü, saxlanması və satışı infrastrukturunun yaradılması məqsədilə yerli investisiyalar əsasında soyuducu anbarların ümumi tutumu **12.730 tona**, tərəvəz məhsullarının yetişdirilməsi üçün istixana komplekslərinin ümumi sahəsi **100 min kv.m-ə**, uzunmüddətli taxıl anbarlarının tutumu **27 min tona**, qısamüddətli taxıl anbarlarının tutumu **43.380 tona**, taxıl emalı müəssisələrinin sayı **17-yə** çatdırılmışdır.

İstər soyuducu anbarlara tədarük edilən meyvə-tərəvəz məhsulları, istər taxıl emalı müəssisələrinə tədarük edilən və emal olunan taxıl məhsulları, istərsə də istixanalarda yetişdirilən məhsullar daxili bazarda qiymət sabitliyinin qorunmasında mühüm əhəmiyyət kəsb edir.

Regionlar üzrə yerli resurslar və iqlim şəraiti nəzərə alınmaqla təbii sərvətlərdən səmərəli istifadə edilməsi, kəndlərdə dayanıqlı istehsal sahələrinin yaradılması və məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə keçən müddət ərzində muxtar respublikanın rayon və kəndlərində **690** emal sənayesi, kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılmışdır.

**Muxtar respublikada həyata keçirilən ekoloji siyasətin əsas məqsədi** indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir.

Ötən müddət ərzində muxtar respublikada ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində müstəqillik dövründə 16 min 541 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 10 milyona yaxın ağac və bəzək kolları əkilmişdir. Hazırda muxtar respublikanın ümumi ərazisinin 12 faizini yaşıllıqlar əhatə edir. 1990-cı ilin əvvəllərində isə bu göstərici 0,6 faiz həddində olmuşdur

**Muxtar respublikada yaranmış sabitlik, iqtisadi sahədə əldə olunmuş nailiyyətlər** həmin dövrdən başlayaraq tikinti-quraşdırma və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır. Yüksək zövqlə, peşəkarlıqla, şərq və qərb memarlıq elementlərindən ustalıqla və yerli-yerində istifadə etməklə tikilən binalar, təmir olunan və yenidən qurulan inzibati və sosial obyektlər, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, zəruri infrastruktur layihələrinin gerçəkləşdirilməsi, yolların bərpası və yenidən çəkilməsi Naxçıvan Muxtar Respublikasında böyük quruculuq və abadlıq işlərinin yüksək səviyyədə görüldüyünün bariz nümunəsidir.



1991-ci ildə muxtar respublika iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi **1 milyon 794 min 900 manat** idisə, bu göstərici ötən müddət ərzində **529,9 dəfə** artaraq **951 milyon 196 min 500 manat** təşkil etmişdir. Ümumilikdə son **20 ildə** muxtar respublika iqtisadiyyatına **6 milyard 699 milyon manat** investisiya yönəldilmişdir.

1991-ci ildən sonrakı dövrdə muxtar respublikada ümumilikdə **11.583** obyekt: **536** inzibati bina, **356** elm və təhsil müəssisəsi, **421** mədəniyyət obyekti, **253** səhiyyə müəssisəsi, **44** idman obyekti, **501** fərdi yaşayış evi, **170** nasos stansiyası, **403** subartezian quyusu, **162** körpü və digər çoxsaylı infrastruktur obyektlər tikilərək istifadəyə verilmişdir. Bu gün muxtar respublikamızda inzibati binalar, elm və təhsil, səhiyyə, mədəniyyət və idman obyektləri demək olar ki, tamamilə yenidən qurulmuşdur.

İdarəetmənin səmərəli təşkili və ucqar yaşayış məntəqələrinin-kəndlərin, qəsəbələrin inkişafı bu müddət ərzində diqqətdə saxlanılmış və son illər ərzində **129** qəsəbə və kənd mərkəzi istifadəyə verilmişdir.

**Nəqliyyat sisteminin** ahəngdar işinin bərpası məqsədilə bu dövr ərzində hava nəqliyyatının işinin gücləndirilməsi, qonşu xarici ölkələrin ərazisindən tranzit istifadə imkanlarının genişləndirilməsi, avtomobil yolları şəbəkəsinin və dəmir yolu infrastrukturunun müasirləşdirilməsi istiqamətində irimiqyaslı layihələrin icrası həyata keçirilmişdir.

Əhalinin rahatlığına və yaşayış səviyyəsinin yüksəlməsinə xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin tərkib hissəsi kimi içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması təmin edilmişdir.

**Müasir dünyada ölkələrin rəqabətə davamlılığı, ilk növbədə, informasiya – kommunikasiya texnologiyalarından** səmərəli istifadə ilə ölçülür. Muxtar respublikanın bütün regionlarında 3-cü nəsil kommunikasiya sistemləri quraşdırılaraq əhalinin istifadəsinə verilmiş, fiber-optik kabel xəttləri çəkilmiş, yaşayış ərazilərinin **98 faizində** genişzolaqlı, **83 faizində** isə simsiz internet xidməti yaradılmışdır. Muxtar respublikada istehlakçıların istifadəsinə veriləcək 4-cü nəsil şəbəkə sisteminin yaradılması başa çatdırılmaqdadır.

**İnkişafın hərəkətverici qüvvəsi sayılan sahibkarlar sinifinin formalaşdırılması** reallaşdırılan iqtisadi siyasətin başlıca istiqamətini təşkil etmişdir. Muxtar respublikada sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə sahibkarlığın hüquqi bazası dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirilmiş, idarəetmənin və iqtisadiyyatın bütün sahələrində mühüm əhəmiyyətə malik normativ hüquqi aktlar qəbul edilmiş, nəticə etibarı ilə Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payı **87 faizi** ötmüşdür.

**Sahibkarlığın inkişafında əsas istiqamətlərdən biri olan dövlət əmlakının özəlləşdirilməsi mühüm əhəmiyyətə malikdir.** Naxçıvan Muxtar Respublikasında dövlət əmlakının özəlləşdirilməsinə dair Dövlət Proqramlarının uğurlu icrası nəticəsində dövlət mülkiyyətində olan müəssisə və obyektlər xüsusi mülkiyyətə verilmiş, dövlət müəssisələri səhmdar cəmiyyətə çevrilmiş, yeni istehsal və xidmət sahələri yaradılmış və ya fəaliyyəti bərpa olunmuş, dövlət əmlakının qorunması və ondan səmərəli istifadə daim nəzarətdə saxlanılmışdır.

Sahibkarların güzəştli kreditlərlə maliyyə təminatının yaxşılaşdırılması diqqətdə saxlanılmış, ötən dövr ərzində muxtar respublikanın bank strukturları və kredit təşkilatları tərəfindən sahibkarlara verilmiş kreditlərin həcmi 1991-ci illə müqayisədə **725,4 dəfə** artaraq **70 milyon 221 min 500 manat** təşkil etmişdir.

2000-ci ildən ötən müddət ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən **1198 layihənin** maliyyələşdirilməsinə güzəştli şərtlərlə **119 milyon 135 min manat** vəsait yönəldilmişdir.

İxrac və investisiya imkanlarının təşviqi, sahibkarların biznes əlaqələrinin genişləndirilməsi və muxtar respublikada istehsal olunan məhsulların tanıdılması məqsədilə ötən müddət ərzində **50 ölkədə keçirilən 239** müxtəlif tədbirdə **1233 sahibkarın**, o cümlədən 2015-ci ildə ölkə daxilində və xaricdə keçirilən **21** tədbirdə **78** sahibkarın iştirakı təmin olunmuşdur.

Muxtar respublikada məşğulluq sahəsində kompleks tədbirlərin həyata keçirilməsi, yeni müəssisələrin yaradılması, səmərəli məşğulluq üçün mühüm layihələrin reallaşdırılması nəticəsində 1995-ci ildən ötən müddət ərzində muxtar respublika üzrə **85.919 yeni** iş yeri yaradılmışdır.

Aparılan məqsədyönlü iqtisadi siyasət muxtar respublikada əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmışdır. Reallaşdırılan səmərəli iqtisadi siyasətin nəticəsi olaraq əhalinin gəlirləri **1 milyard 804 milyon 178 min 600 manat** təşkil etmişdir ki, bu da 1991-ci ildəki göstəricini **152,4 dəfə** üstələyir.

Ötən dövr ərzində məşğulluq səviyyəsinin yüksəlməsi əməkhaqlarının da artımına səbəb olmuşdur. 2015-ci ildə muxtar respublikada bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 1991-ci illə müqayisədə **31,4 dəfə** artaraq **395,6 manat** təşkil etmişdir.

**Muxtar respublikanın xarici ticarət əlaqələri** bu qədim Azərbaycan torpağının özünün tarixi qədər qədimdir. Tarixən mühüm əhəmiyyətə malik ticarət yollarının üzərində yerləşən Naxçıvan diyarı Şərqlə Qərbin arasında mühüm məntəqələrdən biri olmuşdur.

Muxtar respublikanın xarici ticarət dövriyyəsinin artan templə böyüməsi və şaxələnməsi Naxçıvanın dinamik sosial-iqtisadi inkişafı, yerli



istehsal məhsulları ilə yaxın və uzaq ölkələrin bazarlarına yol tapması, xarici ölkələrin sahibkarlarının maraq dairəsinə düşməsi, yerli sahibkarlığın inkişafı ilə müstəqil iqtisadiyyatın formalaşması fonunda baş vermişdir. Bu müddət ərzində muxtar respublikanın xarici ticarət dövriyyəsi 1991-ci illə müqayisədə **224,3 dəfə** artaraq **512 milyon 354 min 500 ABŞ dollarına**, o cümlədən ixracın həcmi **414 milyon 420 min 600 ABŞ dollarına**, idxalın həcmi isə **97 milyon 933 min 900 ABŞ dollarına** çatmışdır ki, bu da xarici ticarətdə yaranmış müsbət saldonun davamlılığını təmin etmişdir.

Muxtar respublikada istehsal olunan məhsulların beynəlxalq aləmdə tanıdılması və təşviqi məqsədilə **Fransa, Almaniya, Polşa, Səduyə Ərəbistanı BƏƏ, Rusiya, Belarus, Avstriya, Macarıstan, ABŞ, İsveçrə, Latviya, Vyetnam, Türkiyə, İran, Gürcüstan, Özbəkistan, Tacikistan, Qazaxistan** kimi ölkələrdə keçirilən beynəlxalq sərgilərdə nümayişi həyata keçirilmişdir.

Bu gün Naxçıvanlı sahibkarların istehsal etdiyi məhsulların sorağı artıq onun hüdudlarını çoxdan aşmışdır. Muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı 51 müəssisədə istehsal olunan ixracyönümlü məhsullar **Türkiyə, Ukrayna, Qazaxıstan, Gürcüstan, Belarus, Polşa, Latviya, Litva, Türkmənistan, Tacikistan, Rusiya** və **İran** kimi ölkələrə göndərilir. Naxçıvandan xaricə ixrac edilən əmtəələr arasında elektrik enerjisindən tutmuş mineral sulara, dekorativ daş məhsullarından avtomobillərə, tikinti materiallarından mebel məhsullarınadək çox sayda hazır məhsul vardır.

**Muxtar respublikada ərzaq təhlükəsizliyinin və istehsal olunan məhsulların xarici bazarlara sərbəst çıxışının təmin edilməsi istiqamətində** həyata keçirilən tədbirlər sırasında ərzaq məhsullarının keyfiyyətinə nəzarət mühüm yer tutur. Bu məqsədlə yüksək maddi-texniki bazaya və kadr potensialına malik müasirtipli laboratoriyalar yaradılmışdır. Keyfiyyətə nəzarət sisteminin təkmilləşdirilməsi məqsədilə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin Mərkəzi Qida Sınaq Laboratoriyası Avropa Birliyi ölkələri tərəfindən Beynəlxalq Akkreditasiyadan keçirilmiş və cəmiyyət tərəfindən verilmiş keyfiyyət sertifikatları ilə ərzaq məhsullarının maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına şərait yaranmışdır.

**Muxtar respublikada turizmin inkişafı, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi diqqət mərkəzində saxlanılmışdır.** Turizmi iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirmək, sosial və ekoloji tələblərə cavab verəcək səmərəli və rəqabətədavamlı müasir turizm kompleksləri yaratmaq istiqamətində aparılan məqsədyönlü tədbirlər öz müsbət nəticələrini göstərməkdədir. Belə ki, 2015-ci ildə muxtar respublikamıza xarici ölkələrdən **390 minə yaxın** turist gəlmişdir ki, bu da 1995-ci

illə müqayisədə **10 dəfə** çoxdur. Muxtar respublikaya turist qismində gələnlərin sayının artımı ilk növbədə iqtisadi fəallığın daha da güclənməsinə müsbət təsir göstərmişdir.

Beləliklə, Naxçıvan Muxtar Respublikası son iyirmi illik intibah tarixini böyük iftixarla, sevinclə, fəxarətlə yaşamaqdadır. Burada həyata keçirilən hər bir tədbir, gerçəkləşdirilən hər bir layihə, salınan yollar, tikilən binalar, çəkilən su kəmərləri, bütövlükdə inkişaf etdirilən iqtisadiyyat, strateji istiqamətləri əhatə etməklə milli iqtisadi inkişafa böyük töhfədir.



**Natəvan Qədimova**
Naxçıvan Muxtar Respublikasının
Mədəniyyət və Turizm naziri, dosent

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MƏDƏNİYYƏTİN İNKİŞAFI

Beşminillik tarixi olan qədim Naxçıvan diyarı Yer üzündə həyatın başlandığı ilk insan məskənlərindən biridir. Bu da bir daha onun qədim tarixi ilə bərabər qədim adət-ənənələrə və zəngin mədəniyyətə malik olduğunu təsdiqləyir. Əsrlər boyu işğallara məruz qalan Naxçıvan torpağı Şərqdə və bütün dünyada ən qədim şəhər mərkəzlərindən hesab olunmuşdur. Qədim şəhər tarixi olan Naxçıvan hər dövrdə mərkəzi şəhər olmaqla yanaşı, ticarət və mədəniyyətin mərkəzi hesab edilmiş və çoxəsrlik dövlətçilik ənənələrinə malik olmuşdur.

Çətin, mürəkkəb, eyni zamanda, şərəfli inkişaf və tərəqqi yolu keçmiş qoca Şərqin mədəniyyət mərkəzi olan ulu Naxçıvan torpağı həmişə özünün zəngin mədəniyyəti, ədəbiyyatı, incəsənəti və xalq yaradıcılığı nümunələri ilə Azərbaycan, ümumən, bəşər sivilizasiyası tarixində əhəmiyyətli rol oynamışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: **"Azərbaycanın iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir."**

Azərbaycan Respublikasının mədəniyyətinin inkişafına daim dəyərli töhfələr vermiş müasir Naxçıvan mədəniyyətinin inkişafı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən başlayaraq muxtar respublikada klub və mədəniyyət müəssisələrinin şəbəkəsi genişləndirilmiş, burada Bəstəkarlar Təşkilatı, Rəssamlar Birliyi, Musiqi Texnikumu, Dövlət Filarmoniyası fəaliyyətə başlamış, muxtar respublikanın bütün rayonlarında muzeylər yaradılmış, uşaq musiqi məktəbləri tikilərək istifadəyə verilmişdir.

Bununla bərabər təəssüflə qeyd etmək lazım gəlir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikada yaradılmış mədəni infrastruktur, qazanılmış uğurlar keçən əsrin 90-cı illərində ölkədə yaranmış özbaşınalıq, xaos nəticəsində tam sıradan çıxmaq təhlükəsi ilə qarşılaşmış və bir çox mədəniyyət obyektləri, tarixi abidələr dağıdılmaqda idi. Bu dağıdıcılığın, xaosun ağrılarını Naxçıvan Muxtar Respublikasında da görmək mümkün idi. Bu dağıdıcılığın, özbaşınalığın qarşısını yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ala bilərdi.

Ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə Naxçıvanın sərhədlərində gedən müharibə və muxtar respublikanın

blokada şəraitində olmasına baxmayaraq teatrların, mədəniyyət müəssisələrinin işi ilə daim maraqlanır, yaradıcı insanlarla görüşürdü. Bu çətin illərdə Naxçıvanda böyük şairmiz Hüseyn Cavidin 110 illik yubileyi qeyd olunmuş, Naxçıvan teatrının yeni tamaşaları hazırlanaraq qastrollar təşkil olunurdu. 1993-cü ilin əvvəllərində Naxçıvan teatrının Bakıda və Türkiyə Respublikasında qastrolda olması dediklərimizi bir daha sübut edir. Maddi və mənəvi sıxıntılara baxmayaraq muxtar respublikamızda mədəniyyət sahəsində müəyyən tədbirlərin keçirilməsi, teatr tamaşalarının hazırlanmasına nail olunurdu. Teatrımızın bu illərdə hazırladığı tamaşaların nümunəsində də bunu görmək olar. Mədəniyyət və sənət adamları da inanırdılar ki, mədəniyyətdə və incəsənətdə yaranmış bu durğunluğu ulu öndərin Azərbaycana hakimiyyətə qayıdışından sonra aradan qaldırmaq mümkün olacaqdır.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə, o cümlədən mədəniyyətin və incəsənətin inkişafında əldə edilən uğurların əsasında ulu öndər Heydər Əliyevin təməlini qoyduğu inkişaf və tərəqqi strategiyası dayanır. Bu gün Naxçıvan Muxtar Respublikasında mədəniyyətin və incəsənətin inkişafında qazanılan uğurlu nəticələr asanlıqla əldə edilməmişdir. Naxçıvan Muxtar Respublikasında müstəqilliyimizin 20 ili ərzində mədəniyyətə, incəsənətə, xalq yaradıcılığına, bu sahədə çalışan insanlara diqqət və qayğı həmişə prioritet məsələ olmuş, mühüm dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir.

1995-ci ildən ötən dövr Naxçıvanın inkişafında əsl inkişaf və tərəqqi dövrüdür. Bu inkişaf və tərəqqinin, intibahın əsasında ümummilli lider Heydər Əliyev yoluna sədaqət, qətiyyətli, düzgün və gələcəyə hesablanmış dəqiq idarəetmə dayanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi bu fikir inkişafımızın bütün parametrlərini dəqiq ifadə edir: **"Naxçıvan Muxtar Respublikasında inkişafın bir yolu var: - bu möhtərəm Heydər Əliyevin yoludur. Ötən dövrlərdə bu yol Azərbaycanı, o cümlədən Naxçıvan Muxtar Respublikasını əsl inkişafa qovuşdurdu".**

Bu gün muxtar respublikamızda 28 muzey və 1 muzeytipli müəssisə, 289 kitabxana, 233 mədəniyyət evi və klub, 3 dövlət teatrı, 5 xalq teatrı, 2 dövlət filarmoniyası, 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi, Dövlət Film Fondu, Turizm-İnformasiya Mərkəzi, kinoteatrlar, 1200-dən çox dövlət tərəfindən mühafizə olunan tarix, mədəniyyət və arxeoloji abidə mövcuddur. Qədim diyarda yaradılan çoxsaylı folklor kollektivləri, Yazıçılar Birliyi, Rəssamlar Birliyi, Bəstəkarlar Təşkilatı, Aşıqlar Birliyi, Xor Cəmiyyəti də bu mədəni yüksəlişə öz töhfələrini verirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun



mədəniyyət və incəsənətimizin bütün sahələrinə diqqət və qayğısı qədim diyarımızda mədəni yüksəlişin hərtərəfli inkişafını təmin etmişdir.

1995-2015-ci illər ərzində mədəni irsimizin qorunması, yeni muzeylərin yaradılması, xalq yaradıcılığının inkişaf etdirilməsi, tarixi abidələrin mühafizəsi və bərpası, görkəmli şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsi və yubileylərinin qeyd olunması sahəsində 100-dən çox fərman və sərəncam imzalanmışdır. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında mədəniyyət sahəsində həyata keçirilən mühüm işlərdən biri də yeni muzeylərin yaradılması və mövcud muzeylərin zövqlə yenidən qurulması olmuşdur. Bir sıra muzeylər üçün yeni binalar inşa olunmuş, bəzi muzey binaları isə təmir edilmiş, onların ekspozisiyaları yenidən qurulmuşdur. Bu inkişafın ilk illərində Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi, Cəlil Məmmədquluzadənin ev-muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, Bəhruz Kəngərli Muzeyi, Xatirə Muzeyi və digər muzeylər fəaliyyətə başlamışdır.

105280

1996-cı ilin oktyabrında Naxçıvanda böyük romantik şair və dramaturq Hüseyn Cavidin məqbərəsinin açılışı, bu təntənəli tədbirdə ulu öndərin iştirakı və nitq söyləməsi mədəniyyət tariximizin ən yaddaqalan səhifələrdən biridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" 15 fevral 2001-ci il tarixli Sərəncamına əsasən görkəmli rəssamın adının əbədiləşdirilməsi istiqamətində tədbirlər görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 fevral 2006-cı il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi yaradılmışdır. Ali Məclis Sədrinin 5 may 2006-cı il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə təsdiq edilmişdir.

Muxtar Respublika rəhbərinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında", "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında", "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" və digər çoxsaylı sərəncamları tarixi abidələrimizə, maddi-mənəvi dəyərlərimizə, inanc yerlərimizə diqqət və qayğının ən gözəl nümunələridir. Bu gün Naxçıvan Muxtar Respublikasında 1202 tarix və mədəniyyət abidəsi rəsmi olaraq qeydə alınmışdır. Son 20 ildə muxtar respublikada 70-ə yaxın tarix və mədəniyyət abidəsi əsaslı şəkildə bərpa və təmir olunmuşdur. Hazırda "Əlincəqala" və "Gülüstan" türbəsində bərpa işləri başa çatmaq üzrədir. Əgər 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey vardısa, hazırda qədim diyarımızda 28 müxtəlifprofilli muzey və 1 Dövlət Rəsm



Azərbaycan Milli Kitabxanası

Qalereyası fəaliyyət göstərir. Hal-hazırda təkcə Naxçıvan şəhərində 12 muzey yerli və xarici vətəndaşların xidmətindədir. Ali Məclis Sədrinin 9 fevral 2010-cu il tarixli Sərəncamı ilə yaradılan Şahtaxtinskilər Muzeyi, 23 oktyabr 2010-cu il tarixli Sərəncamı ilə yaradılan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi qədim yurdun görkəmli şəxsiyyətlərinə ehtiramın ifadəsidir. Son illərin mədəni hadisələrindən biri də muxtar respublikamızda dəniz səviyyəsindən 3700 metr yüksəklikdə "Gəmiqaya" muzeyinin yaradılmasıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", 28 iyun 2013-cü il tarixli "Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında", 22 avqust 2014-cü il tarixli "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında", 17 sentyabr 2014-cü il tarixli "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" sərəncamlarına uyğun olaraq yaradılan yeni muzeylər qapılarını ziyarətçilərin üzünə açmışdır. Bu gün muzeylərimiz daim dəyərli eksponatlarla zənginləşdirilir. Muxtar respublikada fəaliyyət göstərən muzeylərdə hal-hazırda 110 mindən artıq eksponat mühafizə olunur. 2015-ci il noyabrın 16-da Dövlət Bayrağı Muzeyində Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarının keçirilən təqdimat mərasimi hamımızın yadındadır. Naxçıvan xanlığının bayrağının 187 il sonra Naxçıvana qaytarılması və təqdimat mərasiminin keçirilməsi dövlətçilik tariximizdə unudulmaz hadisə kimi dəyərləndirilməlidir.

İntibah dövründə muxtar respublikamızda tarix və mədəniyyət abidələrinə, milli mənəvi dəyərlərə göstərilən diqqət və qayğını xüsusilə qeyd etmək lazımdır. Dədə Qorqud abidəsinin ucaldılması və ətrafındakı meydanın yenidən qurulması, "Əshabi-kəhf" Dini-Mədəni Abidə Kompleksinin abadlaşdırılması, Aza körpüsü, Buzxana, Şərq hamamı, İmamzadə Məscid Kompleksi, Yusif Küseyiroğlu türbəsi, Möminə xatın türbəsi, Qarabağlar və Xanəgah Memarlıq Kompleksləri, Ordubad rayonundakı tarixi abidələrin bərpası və təmiri, Naxçıvan şəhərində Ana dili abidəsinin ucaldılması bu qayğının ən bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 11 fevral 2014-cü il tarixli, "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" 7 oktyabr 2015-ci il tarixli sərəncamları bu sahədə aparılan işlərin ardıcıllıqla davam etdirildiyini göstərir.

Qədim diyarda mədəniyyətin və incəsənətin bütün sahələri qayğı ilə əhatə olunmuşdur. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 40 illiyi dövlət səviyyəsində qeyd edilmiş, 2013-cü ildə Rəssamlar Birliyinin yeni binası və B.Kəngərli adına Sərgi Salonu istifadəyə verilmişdir. Ötən il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey



Kompleksində Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" II Beynəlxalq Rəsm Festivalı keçirilmişdir. 14 noyabr 2015-ci il tarixli Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Rəssamlar Parkının yaradılması haqqında" Sərəncamı təsviri incəsənətimizə diqqət və qayğının göstəricisidir.

Bu gün doğma diyarımızın mədəni həyatının güzgüsünə çevrilən, vətəndaşlarımızın estetik zövqünün formalaşmasında, asudə vaxtının səmərəli təşkilində mühüm rol oynayan teatr sənətimizin inkişafına dövlət qayğısını muxtar respublikamızda fəaliyyət göstərən sənət ocaqlarının timsalında aydın görmək mümkündür. Muxtar respublikamızda teatrın zəngin ənənələrinin qorunması, milli teatr sənətinin davamlı inkişafının təmin edilməsi, teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Ölkə başçısının 31 yanvar 2008-ci il tarixli Sərəncamı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illiyi təntənə ilə qeyd edilmiş, 2012-ci ildə teatrın binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir. Müstəqillik illərində Naxçıvan Dövlət Musiqili Dram Teatrı və M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı beynəlxalq mədəni əlaqələrin yaradılmasında da fəal iştirak etmişlər. Teatrlarımız Türkiyə Respublikasında, İran İslam Respublikasında, Tacikistan Respublikasında bu illər ərzində keçirilən tədbirlərdə uğurlu tamaşalarla iştirak etmişlər. Bu gün Naxçıvan Dövlət Dram Teatrının səhnəsində bir-birindən gözəl və yaddaqalan tamaşalar oynanılaraq teatr sənətimizin şərəfli səhifələri yazılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı ölkəmizdə fəaliyyət göstərən 2 uşaq teatrından biri kimi balaca tamaşaçıların sevimli ünvanına çevrilmişdir. O cümlədən, muxtar respublikamızda xalq teatrlarına da diqqət və qayğı yüksək səviyyədədir. Xalq teatrlarının festivalını keçirmək artıq ənənəyə çevrilmişdir. Son 5 ildə muxtar respublikamızda 2 yeni xalq teatrı – Babək və Şahbuz xalq teatrları yaradılmış və fəaliyyətə başlamışdır.

Son 20 ildə Naxçıvan Dövlət Filarmoniyasının fəaliyyəti də yaddaqalan mədəni hadisələrlə zəngindir. Daim zəngin konsert proqramları ilə çıxış edən filarmoniyanın dövlət qayğısı sayəsində maddi-texniki bazası möhkəmləndirilmiş, filarmoniya üçün səs avadanlıqları, musiqi alətləri, geyimlər alınmışdır. Filarmoniyada hal-hazırda bir neçə kollektiv, o cümlədən, mahnı və rəqs ansamblı, kamera orkestri, estrada orkestri və xor kollektivləri fəaliyyət göstərərək muxtar respublikanın mədəni həyatında yaxından iştirak edirlər. Müstəqillik illərində Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivlərinin müxtəlif xarici dövlətlərə qastrol səfərləri – o cümlədən, Türkiyə Respublikasında, Rusiya Federasiyasında,

Türkmənistan Respublikasında keçirilən müxtəlif tədbirlər uğurla başa çatmışdır. Ötən il "Muxtariyyət ili"ndə Naxçıvan Dövlət Filarmoniyasının musiqiçiləri, o cümlədən "Şərur Xalq Yallı Ansamblı" Polşa Respublikasının Krakov şəhərində muxtar respublikanın 90 illiyinə həsr olunmuş tədbirdə konsert proqramı ilə çıxış etmişdir. Son illər "Şərur Xalq Yallı Ansamblı"nın, filarmoniyanın kamera orkestrinin kompakt-diskləri hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Filarmoniyası Estrada Orkestrinin yaradılması haqqında" 10 yanvar 2012-ci il tarixli Sərəncamı ilə bu mədəniyyət ocağında Estrada Orkestri yaradılmışdır.

Ali Məclis Sədrinin 19 aprel 2010-cu il tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyası da, həmçinin musiqi mədəniyyətimiz tarixində mühüm hadisədir. Naxçıvan Muxtar Respublikasında uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə diqqət və qayğını xüsusi qeyd etmək yerinə düşər. Muxtar respublikada gedən geniş quruculuq işləri bu obyektləri də əhatə etmiş, son illərdə 20-dən çox uşaq musiqi məktəbi üçün yeni binalar tikilərək istifadəyə verilmiş, bir sıra uşaq musiqi məktəbləri isə əsaslı təmir edilmişdir. Elə son il ərzində 3 yeni uşaq musiqi məktəbi tikilərək istifadəyə verilmişdir.

Bu gün Naxçıvan Muxtar Respublikasında Naxçıvan Musiqi Kollecinin və Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən "İncəsənət" fakultəsinin muxtar respublikada mədəniyyətin inkişafında və musiqiçi kadrların hazırlanmasında xüsusi rolunu qeyd etmək istəyirəm. 27 noyabr 2015-ci il tarixdə Ali Məclis Sədrinin Sərəncamı ilə Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyi yüksək səviyyədə qeyd edilmişdir.

Muxtar respublikamızda xalqımızın milli dəyərləri və adət-ənənələrinin yaşadılması və gələcək nəsillərə çatdırılması da daim diqqət mərkəzində olan məsələlərdəndir. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 7 fevral 2009-cu il tarixli Sərəncamı xalq yaradıcılığının müasir dövrümüzdə inkişafına və təbliğinə yeni üfüqlər açmışdır. Bu sərəncam həm də zəngin xalq yaradıcılığı ənənələrini yaşatmaq, gələcək nəsillərə çatdırmaq baxımından dəyərlidir. Bu gün muxtar respublikada xalq yaradıcılığına qayğı öz bəhrələrini verməkdədir. Muxtar respublikada Aşıqlar Birliyi yaradılmışdır. 2009-cu ildən başlayaraq hər il Novruz bayramı ərəfəsində xalq yaradıcılığı günləri keçirilir. Bu şənliklərdə xalq sənətkarlarının əl işləri, Azərbaycan xalqının tarixini özündə yaşadan müxtəlif əşyalar, muzey eksponatları, milli mətbəx nümunələri nümayiş etdirilir, xalq oyunlarını və musiqisini, yallıları, xalq rəqslərini, toy adətlərini, aşıq musiqisini yaşadan folklor kollektivləri çıxış edirlər. Bu gün muxtar respublikamızda folklor kollektivlərinin və



qruplarının, özfəaliyyət kollektivlərinin yaradılmasına xüsusi diqqət yetirilir. Doğma diyarımızda müxtəlif yallı kollektivləri, o cümlədən, "Şərur Xalq Yallı Ansamblı", "Şərur qönçələri" uşaq yallı ansamblı, "Gülümhey" folklor qrupları da fəaliyyət göstərirlər.

Bu gün muxtar respublikamızda xalq sənətkarlığının müxtəlif sahələrinə yeni həyat verilir. 2012-ci il muxtar respublikamızda "Milli dəyərlər ili" kimi yadda qalmışdır. Xalq sənətinin ağacişləmə, xalçaçılıq, papaqçılıq, dülgərlik, toxuculuq, dəmirçilik, zərgərlik, misgərlik sahələrini özündə əks etdirən sahələr inkişaf etdirilir. Müasir dövrümüzdə 200-ə yaxın insan xalq yaradıcılığının müxtəlif sahələrini yaşadır. Naxçıvan Regional Peşə Tədris Mərkəzində davamlı olaraq qədim xalq sənətimizin nümunələrini yaşadan kurslar təşkil olunur, xalq sənətkarlarının əl işləri satış-sərgilərə çıxarılır. 2015-ci il noyabrın 4-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində xalq yaradıcılığı sərgisinin açılışı olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov xalq yaradıcılığı sərgisinin açılışında demişdir: **"Milli dəyərlərə bağlılıq, milli-mədəni irsin qorunmasından başlanır. Biz bu gün tarixi abidələri tədqiq və bərpa etməklə, milli dəyərləri yaşatmaqla, bir tərəfdən keçmişimizə və gələcəyimizə ehtiramımızı bildiririk, digər tərəfdən isə xalqımızın əsrlər boyu formalaşmış sənətkarlıq mədəniyyətini, həyat tərzini, məişətini, bir sözlə milli dəyərlər sistemini yaşadırıq".**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 aprel 2009-cu il tarixli Sərəncamı ilə yaradılan "Naxçıvan mətbəxi" Kulinariya Mərkəzi xalq yaradıcılığının ən qədim və zəngin sahələrindən olan kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi və inkişaf etdirilməsi, milli mətbəx nümunələrimizin təbliği sahəsində müəyyən işlər görmüşdür. Mərkəz Azərbaycan səviyyəsində, eləcə də Çin Xalq Respublikasında, Türkiyə Respublikasında keçirilən tədbir və festivallarda iştirak etmiş və medallar qazanmışdır.

1995-2015-ci illərdə muxtar respublikada gedən mədəni yüksəliş kitabxanalara da öz təsirini göstərmişdir. Muxtar respublikanın bölgələrində inşa olunan 100-dən çox kənd mərkəzində kitabxanalar üçün nümunəvi şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 aprel 2012-ci il tarixli "Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamına uyğun olaraq, burada elektron kitabxana yaradılmışdır. Yüksək zövq və nəfis tərtibatla nəşr olunmuş "Naxçıvan teatrının salnaməsi", "Naxçıvan milli geyimləri", "Naxçıvan tikmələri", "Naxçıvan mətbəxi", "Azərbaycan xalçaları: Naxçıvan qrupu", "Naxçıvan xalçaçıları", "Naxçıvan" (1924-2014), "Naxçıvan-Şərur el yallıları" və başqa kitablar

mədəniyyətimizin, incəsənətimizin təbliği baxımından olduqca dəyərli nəşrlərdir.

Naxçıvan torpağının yetirdiyi görkəmli şəxsiyyətlərin adının əbədiləşdirilməsi və yubileylərinin keçirilməsi istiqamətində də mühüm işlər görülmüşdür. M.T.Sidqinin, M.Şahtaxtlının, B.Şahtaxtinskinin, H.Cavidin, Ə.Cavidin, C.Məmmədquluzadənin, B.Kəngərlinin, M.S.Ordubadinin, İ.Səfərlinin, M.Arazın, C.Naxçıvanskinin, Ə.Şərifin və başqalarının yubileylərinin dövlət səviyyəsində qeyd olunması Naxçıvanda böyük mədəni hadisələr kimi dəyərləndirilməlidir.

Naxçıvan Muxtar Respublikasının geniş turizm potensialı vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər qədim diyarın mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidənqurulması, turizm obyektlərinin inşası, həyata keçirilən abadlıq-quruculuq işləri turizm sahəsinin də inkişafına əsaslı təsir etmiş, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artmışdır.

Naxçıvan Muxtar Respublikasının Duzdağ Fizioterapiya Mərkəzində, Darıdağ Arsenli su Müalicəxanasında müalicə turizmi üçün yüksək şərait yaradılmışdır.

Naxçıvanda dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması, təşkil olunan turizm marşrutları dini dəyərlərimizin dünyaya tanıdılmasında vasitə rolunu oynayır."Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Kompleksi bu gün dünyanın müxtəlif ölkələrindən gələn zəvvarların ziyarətgahına çevrilmişdir.

2012-ci ildə Naxçıvan şəhərindəki XVII əsrə aid Zaviyyə-Mədrəsə binası əsaslı təmir olunmuş və Naxçıvan Turizm İnformasiya Mərkəzi bu tarixi binada fəaliyyətə başlamışdır. 2013-cü ildə Şahbuz rayonunda "Ağbulaq" İstirahət Mərkəzi istifadəyə verilmişdir.

Muxtar respublikamız bu illər ərzində turizmlə bağlı keçirilən 2 Beynəlxalq tədbirə ev sahibliyi etmişdir. Muxtar respublikamız beynəlxalq və daxili turizm sərgilərində fəal iştirak edir. Bu il 42-dən çox ölkənin, 275-ə yaxın şirkətin iştirakı ilə Bakıda keçirilən Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisində Naxçıvan Muxtar Respublikası 6 otel, 1 turizm müəssisəsi ilə təmsil olunmuşdur. Son illər muxtar respublikanın turizm potensialı ilə bağlı çoxsaylı kitablar, xəritələr, albomlar, bələdçi kitabçaları, bukletlər nəşr olunmuş, Naxçıvan Turizm İnformasiya Mərkəzinin internet saytı yaradılmışdır. Bu sahədə işlər bu gün də davam etdirilməkdədir.

Hazırda muxtar respublikamızda əhaliyə 500-dən çox mədəniyyət, incəsənət və turizm müəssisəsi xidmət göstərir. Həmin müəssisələrdə 4500-ə yaxın mədəniyyət, incəsənət və turizm işçisi çalışır. Mədəniyyət və incəsənət işçilərimizin əməyi dövlət tərəfindən daim yüksək qiymətləndirilir. Mədəniyyət, incəsənət, musiqi, xalq yaradıcılığı, teatr, kino, muzey işi,



təsviri-incəsənət, ədəbiyyat ilə məşğul olan 200-dən çox insanın Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident mükafatı və təqaüdünə layiq görülməsi, orden və medallarla təltif olunması bu sahəyə dövlətimizin qayğısının bariz ifadəsidir. Son 25 ildə 295-dən çox mədəniyyət obyektinin istifadəyə verilməsi bu sahədə nəhəng və miqyasa gəlməz işlərin göstəricisidir.

Mədəniyyətimizin sorağı bu gün dünyanın müxtəlif ölkələrindən gəlir. Naxçıvan Muxtar Respublikasının mədəniyyət və incəsənət ustaları ölkəmizin tanıdılmasında fəal iştirak edirlər. Müdiriklərdən biri demişdir. "Dünyaya yol mədəniyyətdən keçir". Mədəniyyət özündə əməkdaşlıq, müxtəlif sivilzasiyalara qarşılıqlı hörmət, mehriban qonşuluq, tolerantlıq, müxtəlif xalqlara ehtiram kimi ümumbəşəri dəyərləri ehtiva edir. Bu gün Naxçıvanda yaranan, inkişaf edən və intibahını yaşayan mədəniyyətimiz bu zəngin milli xəzinənin bir hissəsidir.

2009-cu il oktyabrın 14-də Bakıda keçirilən İslam Ölkələrinin Mədəniyyət Nazirlərinin VI Konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması muxtar respublikamızın nüfuzunun nəticəsi, ona göstərilən etimadın ifadəsidir. Mədəniyyətin inkişaf etdirilməsi həm də qədim diyarımızın regionda tanıdılması və mədəni mərkəz rolu oynamasını şərtləndirir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: **"Xalqımızın incəsənət, mədəniyyət sahəsindəki nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir".**

**İsmayıl Hacıyev**
AMEA Naxçıvan Bölməsinin sədri, akademik
E-mail: ismayil_haciyev@yahoo.com

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ELMİN İNKİŞAFI (1991-2015-ci illər)

XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin sürətlə inkişaf etməsidir. Elmin inkişafının ən məhsuldar dövrü isə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə aiddir.

70-80-ci illərdə Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin böyük təşkilatçılıq istedadı və tələbkarlığı nəticəsində respublikada aparılan elmi tədqiqatlar sahəsində uğurlu nəticələr əldə edilmiş, güclü kadr potensialı və texniki arsenal yaradılmışdı. 1969-1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasında çalışan işçilərin sayı 1,9 dəfə artaraq 7892 nəfərdən 15072 nəfərə, o cümlədən elmi işçilərin sayı 45 faiz artaraq 3431 nəfərdən 4995 nəfərə çatmışdı. Həmin illərdə elmlər doktorlarının sayı 1,5 dəfə, elmlər namizədlərinin sayı 1,6 dəfədən çox artaraq, müvafiq olaraq 285 və 2068 nəfərə çatmışdı.

Lakin 80-ci illərin sonu – 90-cı illərin əvvəlində səriştəsiz insanların respublikaya rəhbərlik etmələri bir sıra sahələrdə olduğu kimi, elm sahəsində də yol verdikləri nöqsanlar və ədalətsizliklər elmin inkişaf səviyyəsinin zəifləməsinə, kadr hazırlığının aşağı düşməsinə, təcrübəli və savadlı elm adamlarının ölkəni tərk etməsinə gətirib çıxardı. Azərbaycan dövlət müstəqilliyini bərpa etsə də səriştəsiz rəhbərlər müstəqilliyin verdiyi imkanlardan istifadə edə bilmədilər. Ona görə də 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində itirilmiş illər hesab olunur [1, s. 113].

Müstəqilliyin ilk illəri Azərbaycan üçün ən çətin, ən ağır dövrə çevrildi. Həmin illərdə mövcud hadisələrin müharibə alovunun fonunda Azərbaycan elminə, təhsil sisteminə də ciddi zərbələr vurmuşdur. Bütün sahlərədə olduğu kimi, elm sahəsində də durğunluq hökm sürürdü.

1993-cü il Azərbaycan tarixində, müstəqil dövlətçilik tariximizdə, respublikamızın ictimai-siyasi fikir tarixində dönüş ili kimi yadda qalmışdır. 1993-cü ilin iyununda Naxçıvandan Bakıya – müstəqil dövlət quruculuğuna qayıdan ulu öndər Heydər Əliyev ilk görüş yeri kimi Elmlər Akademiyasını



seçdi. Bununla o, dövlətçilik ənənələrini sistemli şəkildə davam etdirən görkəmli dövlət xadimi kimi yeni yaratmağa başladığı müstəqil dövlətin bünövrəsinin elmi sütunlar üzərində qurulduğunu, intellektual potensiala arxalandığını ictimai fikrə çatdırdı. Bu bir tərəfdən ümummilli lider Heydər Əliyevin Azərbaycan elminə, intellektinə böyük hörmətinin təsdiqi idisə, digər tərəfdən Azərbaycan ziyallılarının Heydər Əliyev şəxsiyyətinə sonsuz inam və yüksək etimadının bariz nümunəsi idi.

XX əsrin 90-cı illərinin ortalarında ölkə iqtisadiyyatında baş verən müsbət irəliləyişlər elm sahəsində də mühüm dəyişikliklərin baş verməsinə səbəb oldu. Azərbaycan milli elminə həmişə hamilik etmiş ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıdandan sonra elmə dövlət qayğısı artdı. 1997-ci il yanvarın 31-də ulu öndər Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi və aparıcı alimlərin bir qrupu ilə görüşərək elm sahəsində mövcud problemləri müzakirə etdi: "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlandı. Elmlər Akademiyasının Azərbaycan elminə və mədəniyyətinin inkişafında rolu artmağa başladı.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında bir sıra elmi müəssisələr fəaliyyət göstərirdi: Naxçıvan Regional Elmi Mərkəzi, Naxçıvan Kompleks Zona Təcrübə Stansiyası, Naxçıvan "Araz" Elm İstehsalat Birliyi, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Elm və Texnika Mərkəzi, Şamaxı Asrtofizika Rəsədxanasının Batabat Stansiyası. Muxtar respublikanın elmi idarə və müəssisələrində fundamental elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparılmış, faydalı elmi nəticələr əldə edilmişdi. Bununla belə, elmi müəssisələrin maddi-texniki bazalarının məhdudluğu, bütün sahələr üzrə ixtisaslı kadrların olmaması elmi-tədqiqat işlərinin səviyyəsinə mənfi təsir edirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təşəbbüsü və rəhbərliyi ilə 1996-cı ilin iyulunda "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumun keçirilməsi Naxçıvanda elmi mühitin inkişafına əsaslı təsir göstərdi, Naxçıvanın hərtərəfli və elmi cəhətdən öyrənilməsinə təkan verdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin simpozium iştirakçılarına göndərdiyi təbrik məktubunda deyilirdi: "Öz əlverişli coğrafi mövqeyi, təkrarolunmaz mədəniyyət və incəsənət abidələri, istedadlı alim və

ədibləri ilə seçilən bu diyar dünyanın bir çox tarixçi, səyyah və alimlərinin diqqətini cəlb etmiş, onların əsərlərində dərin iz qoymuş və özünəməxsus yer tutmuşdur. Həmin qaynaqların araşdırılması, onlarda Naxçıvan haqqında qeyd olunmuş məlumatların toplanıb tədqiq və nəşr olunması Azərbaycan tarixinin obyektiv, elmi şəkildə işlənib hazırlanması üçün misilsiz əhəmiyyət kəsb edir" [16, s. 3].

Məhz bundan sonra Naxçıvan Dövlət Universitetində, Naxçıvan Regional Elmi Mərkəzində qədim diyarın hərtərəfli araşdırılması, xüsusən tarix və mədəniyyət sahələri üzrə geniş miqyaslı tədqiqatların aparılması sahəsində ciddi dirçəliş və irəliləyiş dövrü başlanmışdır. Qısa müddətdə "Azərbaycan tarixində Naxçıvan", "Naxçıvan tarixinin səhifələri" məqalələr toplularının nəşr olunması, elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsi, çoxsaylı kitabların, elmi məqalələrin meydana çıxması regionda elmin inkişafında böyük potensialın mövcudluğunu aşkara çıxartmışdır. Sonrakı illərdə də beynəlxalq səviyyəli simpozium və konfranslar keçirildi. "Naxçıvanda ilk məktəbin yaranması və maarifçilik hərəkatının inkişafı" (1997), "Uluslararası Dədə Qorqud simpoziumu" (1998, Van Yüzüncü il Universiteti ilə birlikdə), "Yaxın tariximizdə Naxçıvan və Qars" (1999, Qars Qafqaz Universiteti ilə birlikdə), "Naxçıvanda kiçik biznesin və sahibkarlığın inkişafı" (2000, ABŞ-ın Perdu Universiteti ilə birlikdə), "Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan istifadənin səmərəli yolları" (2001, Azərbaycan Respublikasının Elm və Texnika Komitəsi ilə birlikdə) kimi beynəlxalq simpozium və konfranslar elmin müxtəlif problemlərinə həsr edilmiş, elmi əlaqələrin genişlənməsinə səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədrinin elmin, təhsilin və mədəniyyətin inkişafına üstün münasibəti və həmin istiqamətdə regionda apardığı fədakar iş müəyyən olunmuş dövlət siyasətinin uğurla həyata keçirilməsinə səbəb olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası sistemində olan elmi-tədqiqat müəssisələrinin strukturunun təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verildi. AMEA-nın Rəyasət Heyəti Ölkə Prezidentinin tövsiyələrini rəhbər tutaraq Elmlər Akademiyasında islahatların aparılması, onun idarəetmə və təşkilat sisteminin təkmilləşdirilməsi, elmi-tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması, elmi idarə və elmi



xidmət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə bir sıra qərarlar qəbul etdi və tədbirlər həyata keçirdi.

1999-cu ildə yaradılmış Naxçıvan Elm və Texnika Mərkəzində muxtar respublikada yayılmış dərman bitkilərinin toplanması, öyrənilməsi, onlardan dərman pereparatları, tibbdə və məişətdə geniş istifadə edilən cövhər, krem və yağlar, habelə bölgənin mineral xammallarının kimyəvi emalı yolu ilə müxtəlif tərkibli duzlar alınması sahəsində önəmli tədqiqatlar aparılmış, nəticələr əldə olunmuşdur. Elmi kadrlar hazırlanmasına da başlanılmışdı. Bu məqsədlə 1998-ci ildə Naxçıvan Dövlət Universitetndə dörd ixtisas üzrə Dissertasiya Şurası yaradıldı. Bu Dissertasiya Şurası Naxçıvanda yüksək ixtisaslı elmi kadrların hazırlanmasında böyük rol oynadı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvanda elmi qurumların statusunun artırılması, Naxçıvanın hərtərəfli öyrənilməsi üçün yeni elmi müəssisənin yaradılması ilə bağlı ölkə prezidentinə müraciət etmişdi. Müraciət və təklif təqdir olunmuş və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə AMEA Naxçıvan Bölməsi yaradıldı [8, s. 11].

Bu bölmənin yaradılması strateji məqsədlərə hesablanmış və muxtar respublikada elmin daha da inkişaf etməsinə geniş imkanlar açmışdır. Naxçıvan Bölməsinin yaradılmasına sərəncam verən ulu öndər həm də onun qarşısında ciddi vəzifələr qoyaraq demişdir: "Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var. Ona görə ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur" [8, 2002, №54, s. 11].

AMEA Naxçıvan Bölməsinin tərkibində "Tarix, Etnoqrafiya və Arxeologiya", "İncəsənət, Dil və Ədəbiyyat", "Təbii Ehtiyatlar", "Bioresurslar" institutları, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası yaradıldı. AMEA Naxçıvan Bölməsinin yaradılması

Naxçıvanda elmi mühitin canlanmasına və elmin inkişafına əsaslı təsir göstərdi. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinin professor-müəllim heyətinin üzvləri də Naxçıvanda elmin inkişafında, elmi kadrların hazırlanmasında yaxından iştirak edirlər.

Elmin inkişafı bilavasitə yüksək ixtisaslı elmi kadrların səviyyəsindən, onların elmi fəaliyyətindən asılıdır. Naxçıvan Dövlət Universitetində və AMEA Naxçıvan Bölməsində doktorantura və dissertantura yolu ilə elmi kadrların hazırlanmasına diqqət yetirilmişdir. 1998-ci ildən Naxçıvan Dövlət Universitetində 4 ixtisas (Azərbaycan ədəbiyyatı, Vətən tarixi, Dilçilik, Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi) üzrə Dissertasiya Şurasının fəaliyyəti yüksək ixtisaslı elmi kadrların hazırlanmasına öz müsbət təsirini göstərmişdir. 1998-2015-ci illərdə bu Şurada 132 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir [7, s. 228-240].

2006-cı ildən isə AMEA Naxçıvan Bölməsində 3 ixtisas (Vətən tarixi, Müəssisələrin təşkili və idarə edilməsi, Arxeologiya) üzrə Dissertasiya Şurası yaradılmışdır. Fəaliyyəti dövründə bu şurada 75 nəfər fəlsəfə doktoru, o cümlədən 10 nəfər elmlər doktoru dissertasiyası müdafiə etmişdir. 2013-cü ildən həmin şuraya doktorluq Müdafiə Şurası səlahiyyəti verilmişdir. Bu şurada muxtar respublikanın elmi iş aparan tədqiqatçıları da fəlsəfə doktoru və elmlər doktoru dissertasiyasının müdafiəsi həyata keçirilmişdir.

1998-2010-cu illərdə muxtar respublikamızda yaşayan tədqiqatçılardan 102-si namizədlik dissertasiyası müdafiə edərək elmi dərəcə almışlar. 16-sı isə doktorluq dissertasiyası müdafiə etmişdir. Hazırda muxtar respublikada 35 elmlər doktoru, 178 fəlsəfə doktoru fəaliyyət göstərir [17, 2015, 15 mart].

2002-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasının elmi qurumlarında, ali təhsil müəssisələrində və elmi fəaliyyətlə məşğul olan digər aidiyyəti qurumlarda çalışan əməkdaşlardan 223 nəfəri elmi dərəcə, 131-i isə elmi ad almışdır. Elmi dərəcə alanlardan 32-si elmlər doktoru, 191-i isə fəlsəfə doktoru elmi dərəcəsidir. Elmi adlardan 19-u professor, 112-si isə dosent elmi adı olmuşdur [11, s. 14].



Azərbaycan Milli Elmlər Akademiyasına 2003, 2007 və 2014-cü illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 3-ü akademik, 13-ü müxbir üzv seçilmişdir [6, s. 100; 7, s. 215].

Elmi-tədqiqat işlərinin səmərəliliyi onun üçün yaradılmış maddi-texniki baza ilə bilavasitə əlaqədardır. Müasir elm texnika və texnologiyanın ən son nailiyyətlərinə istinad ediləndə uğur qazanıla bilir. Bu cəhətdən həm Naxçıvan Bölməsində, həm də ali təhsil müəssisələrində, xüsusilə Naxçıvan Dövlət Universitetində olan şöbə və laboratoriyaların cihaz və avadanlıqlarla təchizi məsələsi diqqəti cəlb edir. Artıq hər bir elmi işçinin kompüter texnologiyası ilə təmin edilməsi, internet şəbəkəsindən istifadə etməsi ən son istehsal edilmiş cihazlar əsasında tədqiqat aparmaq imkanları reallaşır. Hər il bu məqsədlə xeyli vəsait sərf edilir. Təkcə 2010-cu ilin I yarısında AMEA Naxçıvan Bölməsinin Kimya və Biokimya laboratoriyaları üçün 32 adda cihaz və avadanlıq alınmışdır [3, s. 101-102]. Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin tədqiqatçıları üçün ən yaxşı təchiz edilmiş şöbə və laboratoriyalar qurulmuşdur.

AMEA Naxçıvan Bölməsinin 6 elmi-tədqiqat müəssisəsinin 100-ə yaxın elmi işçisi, ali təhsil müəssisələrinin 420 professor-müəllim heyəti elmi-tədqiqat işləri ilə bu və ya digər səviyyədə məşğuldurlar. Onların apardıqları elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin ən nüfuzlu jurnallarında, ölkəmizin və muxtar respublikamızın elmi jurnallarında, "Xəbərlər"ində dərc edilir. 1995-2015-ci illərdə muxtar respublika tədqiqatçılarının 208 monoqrafiyası, 750-yə yaxın kitabı, 320-dən çox dərslik, dərs və tədris vəsaiti, 18342 məqalə və tezisi nəşr edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təsis etdiyi "Naxçıvan" (ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik) jurnalı, AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar"ı, Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"i və Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərlər" jurnalı həm beynəlxalq kod almış, həm də Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qəbul etdiyi dövri nəşrlər siyahısına daxil edilmişdir. "Naxçıvan" Universitetinin "Elmi əsərləri"nin nəşrinə başlanılmışdır.

Naxçıvanlı alimlər hər il dünyanın müxtəlif nüfuzlu jurnallarında elmi məqalələrini nəşr etdirirlər. Bir sıra jurnalların xüsusi nömrələri Naxçıvana həsr olunur.

1995-2015-ci illərdə Ali Məclis Sədrinin bilavasitə dəstəyi, qayğısı və himayəsi ilə Naxçıvan Muxtar Respublikasının tarixinin, abidələrinin, folklorunun, ədəbi-mədəni mühitinin, biomüxtəlifliyinin, təbii sərvətlərinin öyrənilməsi istiqamətində tədqiqat işləri aparılmış, bir sıra ümumiləşdirici əsərlər, kitab və monoqrafiyalar çap edilmişdir. Naxçıvanlı tədqiqatçıların yaxından iştirakı ilə 2002-ci ildə "Naxçıvan ensiklopediyası" nəşr olundu. Bir neçə ildən sonra AMEA Naxçıvan Bölməsi həmin ensiklopediyaya xeyli əlavələr etməklə yenidən işlədi və iki cilddə işıq üzü gördü. "Naxçıvan abidələri" ensiklopediyası (Azərbaycan və ingilis dillərində), "Naxçıvan: tarixi və abidələri" (Azərbaycan və ingilis dillərində), "Naxçıvanın Tarixi Atlası", "Naxçıvanın Folklor Antologiyası" (üç cilddə), "Naxçıvan teatrının salnaməsi" (1883-2008-ci illər), Naxçıvan Muxtar Respublikası flora və faunasının "Qırmızı kitab"ları (I və II cildlər), "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: mövcud vəziyyəti və perspektivləri", "Naxçıvan dialektləri", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", "Naxçıvan arxeologiyası", "Naxçıvan tarixi" (üç cilddə) və başqaları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Elm və ali təhsil müəssisələrində aparılan elmi-tədqiqat işlərinin nəticələri geniş müzakirə edilir, uğurlar təqdir edilir, "İlin alimi" adına layiq görülən tədqiqatçılar mükafatlandırılır, nöqsanların, çatışmazlıqların aradan qaldırılması yolları müəyyənləşdirilir. İlk dəfə olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiya iclası və AMEA Rəyasət Heyətinin üzvlərinin iştirakı ilə AMEA Naxçıvan Bölməsinin 2008-ci ilin elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına həsr edilmiş hesabat yığıncağı 2009-cu ilin fevralında və AMEA Rəyasət Heyətinin səyyar iclası 2015-ci ilin iyulunda Naxçıvanda keçirilmişdir. Hər iki iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iştirak və proqram xarakterli çıxış etmişdir. AMEA Rəyasət Heyətinin səyyar iclasında çıxış edən Ali Məclis Sədri demişdir: **"Elmi tədqiqatlar o vaxt ideyadan əməli işə keçir ki, onun reallaşmasına şərait yaradılsın. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə**



**ölkəmizdə və onun Naxçıvan Muxtar Respubikasında elm infrastrukturu tamamilə yenidən qurulub. Azərbaycan elmi qabaqcıl dünya təcrübəsi əsas götürülərək inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da elmin iqtisadiyyata tətbiqi dayanıqlı inkişafın əsas şərtidir. Artıq muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar ciddi elmi-nəzəri əsaslara söykənir"** [17, 2015, 7 iyul].

AMEA-nın prezidenti akademik Akif Əlizadə çıxışında qeyd etmişdir ki, son illər Akademiyanın Naxçıvan Bölməsinin maddi-texniki bazasının gücləndirilməsi, strukturunun, elmi prioritetlərinin müəyyənləşdirilməsi sahəsində də kompleks tədbirlər görülmüşdür. Artıq Naxçıvan Bölməsinin elmi nəticələrinin məhsulu olan akademik nəşrləri ölkəmizdə rəğbətlə qarşılanan qiymətli elmi əsərlərdir. Burada elmdən təcrübəyə istiqamətində görülən işlər bir nümunə gücündədir [17, 2015, 7 iyul]. Naxçıvanda elmi mühitin yaranması, yüksək ixtisaslı elmi kadrların formalaşması müxtəlif elm sahələrinin inkişafına səbəb olmuşdur.

Naxçıvan elm adamlarının fəallığı Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası, mədəniyyəti, ədəbiyyatı, dialekt və şivələri, təbii və bioloji müxtəliflikləri, təbii sərvətləri və sair sahələri dərin araşdırmalara cəlb etmişdir. Aparılan ciddi elmi fəaliyyətlər Naxçıvanda tarix, ədəbiyyat, dilçilik, arxeologiya, botanika və başqa sahələrdə məktəblərin formalaşmasına da uyğun töhfələrini vermişdir. Alimlərin ciddi tədqiqatlarının nəticəsidir ki, Naxçıvanın tarixi və arxeologiyası sahəsində daha sanballı nəticələr əldə edilmiş, Naxçıvanın yaşayış tarixi 500-300 min ilə, ilkin şəhər mədəniyyətinin yaranmasının 5 min ildən artıq tarixə malik olması, Naxçıvanın Kür-Araz mədəniyyətinin ilk beşiklərindən biri, boyalı qablar mədəniyyətinin bu ərazidə formalaşması, eləcə də bu mədəniyyəti yaradan tayfaların Naxçıvan ərazisində yaşaması [17, 2015, 26 iyun]. Naxçıvan ərazisində II Kültəpə, Şahtaxtı, Nuhdaban, Oğlanqala və Naxçıvan şəhər dövlətlərinin, Duzdağın mədən üsulu ilə dünyada duz çıxarılan (e.ə.V-IV minillik) ilk duz mədəni, Naxçıvan ərazisində çoxsaylı tarix və mədəniyyət abidələrinin aşkar edilməsi və başqalarını göstərə bilərik. Xüsusilə qeyd etmək lazımdır ki, ulu öndərimizin böyük tarixi məkan hesab etdiyi və həmişə vurguladığı, alimlərə tövsiyə edərək bildirdiyi Gəmiqaya abidələrində alimlərimizin apardığı araşdırmalar, habelə Naxçıvandakı Ovçulartəpəsi, Oğlanqala, Qızqalası, I Kültəpə, Xaraba Gilan,

Duzdağ, Sirab ətrafı və başqa ərazilərdə aparılmış arxeoloji tədqiqatlar zamanı tarixi əhəmiyyət kəsb edən maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Uğurlu tədqiqatlar aparan naxçıvanlı alimlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında", "Naxçıvan şəhərindəki "Əcəmi seyrangahı"nda Açıq Səma Altında Muzey yaradılması haqqında", "Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında", "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" və başqa sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsində mühüm rol oynamışlar.

Naxçıvan ərazisində bizə hələlik məlum olan tarix və mədəniyyət abidələri müəyyənləşdirilmiş, öyrənilmiş və pasportlaşdırılmışdır. Muxtar respublika ərazisində bu günədək 1202 tarix və mədəniyyət abidəsi qeydə alınmışdır [15, s. 15]. Dünya və ölkə əhəmiyyətli 550-yə yaxın abidə əsasında "Naxçıvan abidələri" ensiklopediyası hazırlanmışdır.

Əvvəlki illərdə olduğu kimi, 2001-2015-ci illərdə də beynəlxalq və respublika səviyyəli elmi konfranslar, simpoziumlar keçirilmiş, bu elmi tədbirlərdəki məruzələr toplu halında nəşr edilmişdir. "Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi" (2004), "Azərbaycanda elmin inkişafı və regional problemlər" (2005), "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" (2006), "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik" (2007), "Naxçıvan bu gün: islahatlar, perspektivlər" (2008), "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" (2009), "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" (2011), "Naxçıvan: ilkin şəhər və Duzdağ" (2012), "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" (2014), "Naxçıvanda Dədə Qorqud" (2015) mövzularında keçirilən beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumlar elmin inkişafına, bir sıra fakt və hadisələrin dəqiqləşdirilməsinə təsir etmişdir. Naxçıvanda elmin qayğıkeşi və himayəçisi olan Ali Məclisin Sədri bu simpoziumların keçirilməsinə dəstək verdiyi kimi, həmin tədbirlərin bir çoxunda iştirak etmiş və proqram xarakterli çıxışlar etmişdir. Çıxışlarda əldə olunan uğurlar qeyd edilməklə yanaşı, çatışmazlıqlar da göstərilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Bu çıxışlarda elmi-tədqiqatların faydalı iş əmsalının daha da artırılması, yeni elmi isti-



qamətlərin müəyyənləşdirilməsi, elmi tədqiqatların davamlı və sistemli xarakter alması mühüm vəzifə kimi tədqiqatçıların qarşısında qoyulmuşdur.

Naxçıvanlı tədqiqatçılar beynəlxalq və respublika səviyyəli müsabiqələrdə iştirak edir və qalib gəlirlər. Son illərdə 2 beynəlxalq, Elmin inkişafı Fondunun qrand layihələri müsabiqəsində 15, AMEA-nın keçirdiyi müsabiqədə bir, beynəlxalq müsabiqədə 2 nəfər qalib olmuşdur. Alimlərimiz 39 respublika patenti və 11 müəlliflik şəhadətnaməsi almışlar.

Naxçıvanda elmin inkişafı elmi əlaqələrin də genişlənməsinə səbəb olmuşdur. Naxçıvanın elm adamları dünyanın müxtəlif ölkələrində keçirilən elmi tədbirlərdə, beynəlxalq səviyyəli simpoziumlarda iştirak və çıxış edirlər. Naxçıvanlı alimlərdən hər il 70-75 nəfərə yaxını 60-a yaxın beynəlxalq simpoziumlara qatılırlar. Təkcə belə bir faktı qeyd etməliyik ki, AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından son üç ildə 102 nəfər 142 beynəlxalq səviyyəli elmi simpoziumlara qatılmış və maraqlı məruzələrlə çıxış etmişlər [4, 5, 6]. Bu isə elmi əlaqələrin genişlənməsinə və elmi potensialın inkişafına müsbət təsir göstərir. Son illərdə Naxçıvanda 50-dən çox beynəlxalq səviyyəli simpozium keçirilmiş, həmin simpoziumlarda ABŞ, Rusiya, Ukrayna, Türkiyə, İran, Gürcüstan, Fransa və b. ölkələrdən gələn alimlər iştirak etmişlər.

Müstəqillik illərdə Naxçıvanın maarifçi ziyalıları və elm adamları dövlətimizin göstərdiyi qayğını daim hiss etmişlər. Naxçıvanın bir qrup elm və təhsil işçisi orden və medallarla təltif olunmuş, yüksək fəxri adlara layiq görülmüş, 3 nəfəri Azərbaycan Respublikası Milli Məclisinə,15 nəfəri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdir. 6 nəfər Azərbaycan Respublikasının "Əməkdar elm xadimi", 2 nəfər "Şöhrət" və "Şərəf" ordenlərinə, 1 nəfər Prezident təqaüdünə, onlarla tədqiqatçı "Tərəqqi" medalına və fəxri adlara layiq görülmüşdür.

Muxtar respublikada ziyalılara, elm adamlarına göstərilən dövlət qayğısı elmin, milli ziyalılığın inkişafına öz müsbət təsirini göstərməkdədir.

## ƏDƏBİYYAT


1. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Naxçıvan: "Əcəmi" NPB, 2001, 190 s.
2. Azərbaycan Milli Elmlər Akademiyasının 2014-cü ildəki fəaliyyəti haqqında hesabat. Bakı: "Elm", 2015, 450.
3. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2010-cu ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan: "Tusi", 2010, 106 s.
4. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2012-ci ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan: "Tusi", 2012, 120 s.
5. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2013-cü ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan: "Tusi", 2013, 124 s.
6. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2014-cü ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan: "Tusi", 2014, 112 s.
7. Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: "Elm və təhsil", 2011, 544 s.
8. "Dirçəliş – XXI əsr" jurnalı.
9. "Ədəbiyyat" qəzeti.
10. 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: "Əcəmi" NPB, 2006, 70 s.
11. Mehdiyev A. Naxçıvan Muxtar Respublikasında elmi kadrların hazırlanmasında Ali Attestasiya Komissiyasının rolu / Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Naxçıvan: "Əcəmi" NPB, 2015, s.13-15.
12. Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. "Elm" qəzetinin xüsusi buraxılışı. Bakı: "Elm", 2003, 288 s.
13. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 1996-2011. Naxçıvan: "Əcəmi" NPB, 2012, 536 s.
14. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2014. Naxçıvan: "Əcəmi" NPB, 2015, 158 s.
15. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2012. Naxçıvan: "Əcəmi" NPB, 2013, 80 s.
16. Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı: "ADPU", 1996, 222 s.
17. "Şərq qapısı" qəzeti.




# İQTİSADİYYAT

**Asif Şirəliyev**
Naxçıvan Dövlət Universiteti, professor
E-mail: Asif.Sireliyev@mail.ru

## MÜASİRLƏŞƏN NAXÇIVAN İQTİSADİYYATI

Son iyirmi ildə Ali Məclisin Sədri cənab Vasif Talıbovun məqsədyönlü siyasəti nəticəsində davamlı inkişaf yolu ilə uğurla addımlayan Naxçıvan Muxtar Respublikasında çoxşaxəli iqtisadiyyatın qurulması və inkişafı istiqamətində uzunmüddətli strateji tədbirlər həyata keçirilməkdədir. Bunun nəticəsidir ki, iqtisadiyyatın sahə strukturunda yer alan hər bir sahənin, o cümlədən sənayenin sürətli inkişafı təmin edilmiş və bu, milli iqtisadi potensialın daha da artmasında həlledici rola malik olmuşdur. Sənaye və sənaye istehsalı ictimai istehsalın sosial formasından asılı olmayaraq həmişə olduğu kimi cəmiyyətin sosial-iqtisadi inkişafının irəliyə doğru istiqamətinin, bütünlükdə iqtisadi tərəqqinin başlıca aparıcı sahəsidir və müasir dövrdə də bu sahə öz rolunu nəinki saxlayır, əksinə getdikcə gücləndirir. Yeri gəlmişkən "Sənaye" ərəb sözü olub, dilimizdə "sənət"in cəmi, sənətlər, istehsalın müəyyən sahəsi mənasını verir. Rus sözü olan "promışleınostğ" isə dilimizdə sənaye deməkdir və onun əsas vəzifəsi istehlak şeyləri istehsal etməkdən ibarətdir. Latın sözü olan "İndustriya" isə hərfi mənada "fəaliyyət" deməkdir və sənaye sahəsi olub, əsasən ağır sənaye, maşınqayırma sənayesini təmin edir [7, s. 15].

BMT-nin statistika sistemində bütün iqtisadiyyat 3 iri bölmədə (sektorda) təşkil edilir. Burada sənaye ikinci bölmədə yer almış və bu bölməyə sənaye sahələri, tikinti, emaledici sənaye, energetika aiddir. Bütövlükdə maddi istehsalın, iqtisadiyyatın ikinci bölməsi olmaqla maddi nemətlər istehsalının sükançısı rolunu oynayır.

Həmişə olduğu kimi bazar münasibətləri sistemində də bütünlükdə sənaye iqtisadi inkişafda yenə də öz aparıcı qanun rolunu oynayır və qarşısında duran funksiyaları inamla və normal olaraq yüksək səviyyədə reallaşdırır. Bu qazanılmış etibarı və etimadı yerinə yetirmək üçün ölkəmizdə sənayenin, sənaye istehsalının inkişafı və onun bütünlükdə davamlı mövqeyi daha da möhkəmləndirilmiş, daim qayğı və xüsusi diqqət mərkəzində durması təmin olunur. Məhz buna görə də ölkədə xalq təsərrüfatının, o cümlədən Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın irəliləməsində sənaye tərəqqinin motoru, mühərriki, əsas hərəkətverici imkanı və mənbəyi hesab edilir. Bu sahə cəmiyyətin, istehsalın, bütünlükdə iqtisadiyyatın maddi-texniki bazasının yaradılması, inkişaf etdirilməsi və möhkəmləndirilməsində həlledici rol oynayır. Bu işdə mühüm, başlıca və real imkan kimi çıxış edir. Xalq təsərrüfatının tərkibində çox böyük və



zəruri keyfiyyət dəyişikliklərinin baş verməsini və qərarlaşmasını təmin edir. Sənayenin aparıcı maddi-texniki bazası isə onunla kənd təsərrüfatı arasında nisbəti dəyişdirir, ağır və maşınqayırma sənayesinin inkişafı nəticəsində Ümumi Daxili Məhsulda bu sahələrin məhsullarının xüsusi yer tutmasına imkan yaradır.

Sənaye və sənayeləşdirmənin gerçəkləşdirilməsi, daha doğrusu, həyata keçirilməsi bütünlükdə ölkədə və onun ərazisilərində çox imkanlar, ehtiyatlar formalaşmasına həlledici təsir və köməklik göstərir. Nəhayət, sənaye və onun nəticələri eyni zamanda bölgənin regionlarında yeni şəhərlərin əmələ gəlməsini, ölkənin əhalisinin ümumi sayının xüsusi çəkisində şəhər əhalisinin müntəzəm olaraq artması, çoxalması prosesi güclənir. Daim irəliyə sosial-iqtisadi zəmin yaradır.

Bu sahə daxili quruluşu və miqyasına görə maddi istehsalın ən böyük sahəsidir. İstehsalın digər sahələrindən fərqli olaraq sənayenin sürətli inkişafı, məhsulun çox sürətlə artması imkanına malikdir, əmək məhsuldarlığı daim yüksəltməyə qadirdir. Maddi istehsal əksəriyyətində məhsul və xidmətlər yaradılmasında sənaye sosial-iqtisadi və maddi-texniki roluna görə fərqlənir.

Sənayenin bütün bu maddi və keyfiyyət cəhətləri nəzərə alınaraq ölkəmizdə istehsalın bu sahəsinin inkişafı, möhkəmləndirilməsi və məhsul istehsal etmək potensialının daimi olaraq artması diqqət mərkəzində saxlanılmış, adı çəkilən sahə nailiyyətlər və müvəffəqiyyətlər qazanmışdır.

Muxtariyyətin yaradılmasının 91-ci ilində Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında olduğu kimi sənaye istehsalının yaradılması və onun nəticələrinin çoxaldılması sahəsində çox iş görülmüş, nəzərəçarpacaq nailiyyətlər təmin edilmişdir. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının maddi və sosial sahələrinin inkişafının əsası ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ilin iyul ayının 14-də Azərbaycanda birinci dəfə rəhbər seçilməsi günündən irəli gəlir. Həmin dövrdən başlayaraq bu iqtisadi rayonda xüsusilə, keçən əsrin 70-80-ci illərindən başlayaraq istehsal olunan duz, molibden, sink və başqaları, mineral suların əsas hissəsi, ipək xammalının, tikinti materiallarının, şərabın, meyvə mürəbbəsi konservlərinin xeyli hissəsi muxtar respublikada istehsal olunmuşdur. Onu xüsusilə nəzərə çatdırmaq lazımdır ki, regionun sənayesi əsasən yerli xammala əsaslanır.

Naxçıvan muxtariyyətinin ilk illərində, xüsusilə 1970-1985-ci illərdə iqtisadi irəliləyişdən ötəri 900 milyon manat əsaslı vəsaitdən istifadə edilmiş, bunun nəticəsində isə 783 milyon manatlıq əsas fondlar istifadəyə verilmişdir. İran ilə Azərbaycanın Araz çayı üzərində birgə Elektrik Stansiyasının, tikiş fabrikinin, alt trikotaj fabrikinin, yeni mineral su doldurma zavodu, şüşə qablar zavodu, taxıl məhsulları kombinatı, dəmir

beton məhsulları zavodu yaradılmış, başqa sözlə, böyük Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə işə salınmışdır. Yuxarıda göstərilənlərlə yanaşı, həmin dövrlərdə Naxçıvan MR-də Şahtaxtı daş karxanası, kərpic zavodu istifadəyə verilmiş, bütünlükdə 16 sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Bunlara Naxçıvan Xalça kombinatı, Şərur Konserv Zavodu, Naxçıvan yeni-ikinci dəmir-beton zavodunun tikintisi və istifadəyə verilməsi də daxildir. Bütün bunların nəticəsində 1985-ci ildə 70-ci ilə nisbətən sənaye məhsulu istehsalı 4,3 dəfə, elektrik enerjisi istehsalı 35 dəfə artmış, daş duz istehsalı 2 dəfəyə qədər çoxalmışdır. Təkcə bu faktı qeyd edək ki, Azərbaycanda istehsal olunan məhsulun 2,2 faizi, duzun isə hamısı bu regionun payına düşür. Göstərilən dövrdən sonra da Naxçıvan diyarının sosial-iqtisadi və həmçinin sənayenin inkişafı üzrə milli liderin siyasəti davam etdirilmişdir. Belə ki, 1987-1990-cı illər ərzində və muxtar respublikada həyata keçirilmiş tədbirlər sayəsində 1990-cı ildə ondan əvvəlki beş ilə nisbətən 137,1 faiz (bütün ölkədə isə 99,1 faiz) çoxalmışdır [2, s. 65].

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90-cı ilinə həsr edilmiş yubiley tədbirlərində Ali Məclisin sədri çox hörmətli Vasif Talıbov demişdir: "Naxçıvanın muxtariyyət statusu ötən 90 il ərzində burada inkişafın təmin olunmasına, genişmiqyaslı quruculuq tədbirlərinin aparılmasına şərait yaratmışdır". Bu inkişafı şərti olaraq 5 mərhələyə ayırmaq olar: 1924-1969-ci, 1969-1987-ci, 1982-1983-cü, 1993-2003-cü və 2003-cü ildən sonrakı dövr. Naxçıvan mxutariyyətinin inkişafının belə mərhələlərə bölgüsü real tapıntı və kəşf, düşünülmüş bir ideya diyarın tarixinin müəyyənləşdirilmiş dərin düşüncə kimi qiymətləndirilməlidir. Qeyd edək ki, bu bölgü tarixçilər, iqtisadçılar və sosialoqlara bir istiqamət nümunəsi, tarixə belə düzgün baxış nümunəsidir.

Hələ Naxçıvan muxtariyyətinin ilkin mərhələlərində iqtisadiyyatın aparıcı sahələrindən olan sənayenin dirçəlməsi və qərarlaşması üzrə xeyli iş görülmüş, onun daha çox texniki əsaslar üzərinə keçirilməsinə diqqət artırılmışdır ki, bunun nəticəsində də Ordubad rayonunda konserv zavodu və ipək fabriki işə salınmış, Şərur rayonunda pambıqtəmizləmə yenidən fəaliyyətə başlamış, Naxçıvan şəhərində yeni pambıqtəmizləmə zavodu tikilmiş, duz mədəni bərpa olunaraq istismara verilmişdir. Sənayeni, həmçinin yeyinti və yüngül sənaye müəssisələri təmsil etmişdir.

Muxtar respublikada 1955-ci ildən başlayaraq dağ-mədən sənayesinin inkişafı diqqətə gətirilmiş, Arpaçay, Gümüşlü dağ mədən müəssisələri fəaliyyətə başlamışdır. Onu qeyd edək ki, 1941-ci ildə 126 kilometr uzunluğunda Naxçıvan-Culfa dəmiryol xəttinin istismara verilməsi nəticəsində regionda əvvəlki dövrlərdən fərqli olaraq çox əlverişli nəqliyyat (daşıma) imkanı yaradılmışdır [5, s. 79].



Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafını əhatə edən II mərhələdə də (1969-87-ci illər) çox iş görülmüş və digər sahələrlə yanaşı regionun sənayesinin inkişafı həmişə olduğu kimi diqqət mərkəzində saxlanılmış və bunun sayəsində əsaslı, ciddi müvəffəqiyyətlər əldə edilmişdir. Əvvəllər qeyd edildiyi kimi bütün bunlar xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəyə rəhbərlik bir dövrün nəticəsidir, onunla bir başa bağlıdır, onun davamlı nəticəsi kimi başa düşülür.

Naxçıvan MR-də 1970-79-cu illərdə 13, ondan sonrakı 5 ildə 7, cəmisi 20 iri sənaye müəssisəsi yaradılmış, mövcud sənaye müəssisələrinin isə bir neçəsi əsaslı olaraq yeniləşdirilmişdir. Nəticədə 1985-ci ildə sənayenin ümumi məhsulu ondan əvvəlki 15 illə müqayisədə 4,6 dəfə çoxalmış, elektrik enerjisi 35 dəfə, ipək xammal 2,2 dəfə, konservi 3,5 dəfə, daş duz istehsalı isə 2 dəfə artmışdır [1, s. 133]. Keçən əsrin 70-ci illərində bu diyarın sənayesinin sahə quruluşu da əsaslı olaraq dəyişilmiş, maşınqayırma, tikinti materialları, metal emalı, yeyinti sənayesinin həcmi və xüsusi çəkisi də əsaslı irəliləyişlərə istiqamət götürmüşdür. Eyni zamanda maşınqayırma və metal emalı regionun sənayesinin quruluşunda baş vermiş, 1970-ci ildə bu sahənin payına sənaye məhsulunun 2,1 faizi düşürdüsə, göstərilən dövrdə 6,6 faiz düşür. Muxtar respublika iqtisadiyyatının, əhalinin çoxalan tələbatının və uzaq məsafədən çox kənardan daşınmasının həddindən çox baha başa gəldiyinə görə regionun keçən əsrin 70-80-ci illərdə daha çox sənaye sahəsinə aid olan tikinti materiallarının istehsalı və bundan ötəri yerli tikinti müəssisələrinin formalaşmasına önəm verilmişdir. Yuxarıda göstərdiyimiz müddətdə dəmir-beton zavodu, daha sonra dəmir-beton materialları zavodu, şüşəqablar zavodu, Şahtaxtı travertin blokları karxanası, iripanelli evtikmə kombinatı fəaliyyət başlamışdır. Həmin dövrdə regionda yerli tələbatı ödəyən sənaye sahələrinin və tikililərin inşası və istifadəyə verilməsi də ön planda dayanmışdır.

Muxtar respublika sənayesinin ənənəvi sahələrindən biri kimi yüngül sənayenin, onun məhsulunun əhalinin tələbatını ödəməkdən ötrü belə nümunəli-tipli çoxlu sənaye müəssisələri normal işləməyə başlamışdır. Bununla yanaşı yeyinti məhsulları istehsal edən yeni müəssisələrin yaradılması prosesi daha da gücləndirilmiş, həmin dövr ərzində yeyinti sənayesinin ən yeni texnologiyalara, standartlara cavab verən yeni istehsalların yaradılmasının ön cərgədə dayandırılması da diqqət mərkəzində olmuş, regionun bütün piyvə zavodu, Naxçıvan un dəyirmanı kombinatı, süd, pendir zavodları, Naxçıvan tütün zavodlarının normal fəaliyyəti təmin edilmişdir.

Onu da xüsusilə qeyd edək ki, xalqımızın ümummilli lideri Heydər Əlieyvin bir başa rəhbərliyi və iştirakı ilə görülmüş tədbirlər öz gerçək nəticələrini aşkarlamış, sənayenin inkişafı, onun digər sahələrinin

irəliləyişləri və muxtar respublika əhalisinin keyfiyyətli həyat şəraitinin təmin olunmasına imkan vermişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ümumi iqtisadi durumu və yüksəlişində, bütün istehsal sahə və bölmələrinin tarazlı inkişafında, iqtisadiyyatın əsas və başlıca sahəsi olan, ölkənin maddi tərəqqisində öz yeri və nüfuzu, xüsusi çəkisi olan sənaye sahələrinin irəliləməsində bir dövrü təşkil edən inkişafın və xüsusilə iqtisadi inkişafın üçüncü mərhələsində də (1987-1993-ci illər) bu aparıcı sahədə əsaslı və xeyli müvəffəqiyyətlər qazanılmış və qətiyyətli addımlar atılmışdır. Ona da diqqət vermək lazımdır ki, bütünlükdə ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın davamlı və getdikcə artan sürəti təmin edilmişdir. Lakin müəyyən səbəblər iqtisadiyyatın inkişafının III mərhələsində möhkəm irəliləmə prosesini davam etdirmək mümkün olmamış, keçmiş sovetlər ittifaqının rəhbəri M.S.Qorboçovun düşünülməmiş yenidənqurma siyasəti Azərbaycan və Naxçıvan iqtisadiyyatının çox gəlirli və ixracyönümlü sahəsi olan məhsulu sənaye emalından keçən üzümçülüyün heç bir tutarlı əsas və sübutu olmadan ləğvi ölkənin və Naxçıvan regionunun sənayesinin və xüsusilə emal sənayesinin zəifləməsinə gətirib çıxarmışdır. Belə ki, bütün bu kəskin mənfi maneələr Azərbaycanda sənaye məhsulunun 1985-ci ilə nisbətən ondan əvvəlki 77,6 faizə enmiş, muxtar respublikada üzüm emalı müəssisələrinin öz fəaliyyətlərini tamamilə və ya bütövlükdə dayandırmalı olmuşlar. Bütün bunlara baxmayaraq, 1987-1990-cı illərdə Naxçıvan regionunda ümumi məhsulun miqdarı 1990-cı ildə ondan əvvəlki illə müqayisədə xeyli artmış, lakin dəmir-beton məmulatı, xam ipək istehsalı, daş duz çıxarılması xeyli aşağı düşmüşdür [3, s. 102].

Qürur və cəsarətlə demək olar ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin öz doğma yurduna dönüşü sayəsində bir sıra işlər, o cümlədən sənaye istehsalı da tədricən qaydaya düşmək imkanı qazanmışdır. 1991-ci il oktyabrın 29-da Sədərək rayonunda Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında körpünün açılışı olmuş, hər iki tərəf arasında əməkdaşlıq protokolu imzalanmışdır. 1992-ci ildə İran İslam və Türkiyə Respublikaları arasında keçid məntəqələri açılmış və bu kimi digər münasibətlər qarşılıqlı olaraq tənzimlənmişdir.

Onu da nəzərə çatdırmaq lazımdır ki, milli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri seçilməsindən sonra 3.300 metr olan uçuş-enmə zolağı formalaşdırılmışdır ki, bunun da nəticəsində də Naxçıvana çox iri tutumlu təyyarələrin enməsi təmin edilmiş və o, cümlədən regionda sosial-iqtisadi inkişafın normal və etibarlı təminatından ötəri elmi, texniki və əməli məzmuna əsaslanan tədbirlər işlənib hazırlanmış və həyata keçirilməsi mümkün olmuş, bütün bunlar isə faydalı nəticələrə gətirib çıxarmışdır.



Naxçıvan Muxtar Respublikasının bütün sahələrində və xüsusilə iqtisadiyyatda mühüm rol oynayan inkişafın IV mərhələsinin (1993-2003-cü illər) xeyli müsbət cəhətləri ilə fərqlənir. Çünki, bu mərhələdə xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan Respublikasının Milli Məclisinin Sədri və çox hörmətli Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri seçilməsi dövründə bütünlükdə ölkəmizdə, habelə Naxçıvan Muxtar Respublikasında mərhələlər içərisində seçilən IV mərhələ ərzində iqtisadi inkişafın irəliləməsi və getdikcə sürətlənməsi, sosial-iqtisadi inkişaf və məlumdur ki, onun aparıcı sahəsi kimi sənayenin tərəqqisi üzrə əsaslı işlər görülmüşdür. İdarəetmə, iqtisadi, texnoloji, sosial və sair imkanlar işlənib hazırlanmış və reallaşdırılmasına şərait yaratmışdır. Muxtar respublikada iqtisadi inkişafın və xüsusilə sənayenin müasir tələblərə cavab verən tərəqqisi təmin olunmuş, sənaye sahəsi öz əvvəlki mövqeyini bərpa etmək imkanı qazanmışdır. Bundan da muxtar respublikanın başçısı çox hörmətli Vasif Talıbovun fəaliyyəti, təşəbbüskarlığı və görülən işi və yerinə yetirilən vəzifələrin həm müəllifi, həm də icrasının təşkilatçısı olması xüsusi olaraq nəzər-diqqətə çatdırılmalıdır. Çünki, bu təşkilatçılıq özünün müsbət nəticələri ilə IV mərhələ ərzində görülmüş işlərin həcmini və əzəmətini təcəssüm etdirir. 1995-ci ildən start götürmüş Naxçıvan regionunun iqtisadi inkişafında və sənaye irəliləyişində əsaslı dönüş pilləsi formalaşmağa başlamışdır. Onu da qeyd edək ki, iqtisadi inkişafın bu mərhələsində bütövlükdə 40-a yaxın obyekt muxtar respublikanın hərbi məqsədlərini reallaşdırmaqdan ötrü inşa edilmişdir.

Regionun qarşısında duran uzunmüddətli təməlli vəzifələrin icrasından ötəri əsaslı vəsait qoyuluşları ildən ilə artırılmış, yuxarıda göstərilən müddətdə əsas kapitala yönəldilən vəsaitin həcmi 147 milyon 394 min manata çatdırılmışdır. İnkişafın göstərilən mərhələsində 24 nasos stansiyası, 135 su artezian quyusu, 34 körpü və bu kimi mühüm obyektlər istifadəyə verilmişdir. Onu da qeyd edək ki, 1993-2003-cü illərdə nəqliyyatın formalaşması və əsaslı inkişafına diqqət xeyli artırılmış 1856 km uzunluğunda yeni avtomobil yolları istifadəyə verilmişdir. 1993-cü ilə nisbətən 2003-cü ildə ÜDM 6,8 dəfə, sənaye məhsulunun həcmi 3,4 dəfə, əsas kapitala yönəldilmiş qoyuluş 31,3 dəfə artmış, əhaliyə keyfiyyətli həyat səviyyəsi xeyli yüksəlmiş, pərakəndə əmtəə dövriyyəsi 5,2 dəfə, əhaliyə göstərilən ümumi pullu xidmətlər 6,3 dəfə əhalinin gəlirləri 9,5 dəfə, əhalinin hər nəfərinə düşən pul gəlirləri 9,1 dəfə artmışdır [6, s. 96].

Naxçıvan Muxtar Respublikası inkişafının artıq iyiminci ilini yaşamaqdadır. Keçən müddət ərzində burada iqtisadiyyatın şoxşaxəliliyi təmin edilmiş və əsaslı infrastruktur potensialı formalaşdırılmışdır. Xüsusən aqrar sektorun istehsal potesnialı daha gücləndirilmiş, müasir dövrün

tələblərinə uyğunlaşdırılmışdır. Fikrimizi Heydər Əliyev Su Anbarı istifadəyə verildikdən sonra muxtar respublikada suvarma potensialın yüksək səviyyədə inkişafı da təsdiq etməkdədir. Belə ki, nəticədə Babək rayonunda 4364 hektar, Culfa rayonunda 2311 hektar, Şahbuz rayonunda 244 hektar, ümumilikdə isə 6919 hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Ən mühüm nailiyyət isə ondan ibarətdir ki, artıq bu iqtisadi rayonda su anbarı vasitəsilə suvarılan torpaqların sahəsi 16830 hektara çatdırılmışdır.

Bütün bunların yaratdığı əlverişli mühit nəticəsində MR-də persektiv tədbirlər ciddi diqqətdə saxlanılmış və aqrar siyasətin davamlılığı özünün yüksək inkişaf səviyyəsi ilə seçilmişdir. Belə ki, ötən 2015-ci ilin məhsulu üçün muxtar respublikada 61 min 414 hektar sahədə əkin işləri aparılmışdır. Qeyd edək ki, bu göstərici 1995-ci ilin məhsulu üçün əkilmiş sahədən 2,4 dəfə çoxdur [7, s. 15].

Naxçıvan Muxtar Respublikasında yaradılmış makroiqtisadi nailiyyətlər fonunda ardıcıl hüquqi-iqtisadi tənzimlənmə siyasəti davam etdirilməkdədir. Burada Ali Məclis Sədrinin "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin önəmini xüsusi qeyd etmək lazımdır. Elə bu gün muxtar respublikanın innovativ inkişafının təməlində məhz həmin Sərəncamın düzgün icra mexanizmi dayanmaqdadır. Həmin Cəmiyyətinin xətti ilə 180 ədədi 2015-ci ildə olmaqla, ümumilikdə, 1685 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. Gətirilmiş texnika və avadanlıqlardan 1370 ədədi torpaq mülkiyyətçilərinə nağd və lizinq yolu ilə satılmışdır [8].

Öz iqtisadi gücünü durmadan artıran Naxçıvan Muxtar Respublikası ölkəmizin milli iqtisadi inkişafında müstəsna əhəmiyyəti ilə seçilməkdədir. Əsasən qeyri-neft sektorunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, yerli məhsuldarlığın artırılması, idxaldan asılılığın azaldılması, ixrac potensialının və rəqabət qabiliyyətliliyinin artırılması və s. kimi strateji məqsədlər muxtar respublika iqtisadiyyatının müqavimət gücünün çoxalmasına səbəb olmuşdur. Həyata keçirilməmiş düzgün və məqsədyönlü tədbirlər nəticəsində 2015-ci ildə muxtar respublikada 361 növdə məhsul istehsal olunmuşdur. Bu məhsulların 119 növü ərzaq, 242 növü qeyri-ərzaq məhsullarıdır. 107 növdə ərzaq, 236 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 343 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir [8].

Heç şübhəsiz ki, bütün bunlar ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında səmərəli məşğulluq siyasətinin təminatı və möhkəmlənməsində mühüm əhəmiyyətə malikdir.



Sağlam iqtisadi siyasətin qazandırdığı sosial dayanıqlıq nəticəsində MR-də 1996-cı ildən bu günə kimi 85861 yeni iş yeri açılmışdır ki, bunun da 59090-ı və ya 68,8 faizi daimi iş yerləridir. Qeyd edə bilərik ki, əgər 1995-ci ilin sonuna məşğulluq xidmətlərində rəsmi işsiz statusu alanların sayı 5211 nəfər təşkil edirdisə, hazırda bu göstərici sıfır səviyyəsinə endirilmiş, əmək bazarında sabitlik təmin edilmişdir [8].

## ƏDƏBİYYAT


1. Alıyev İ.A. Azərbaycan Respublikasında aqrar sahədə idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı: Elm, 2003, 315 s.
2. Əliyev M.T. Azərbaycanın iqtisadiyyatı. Bakı: 1998, 219 s.
3. Əhmədov A., Sadıqov M., Əmirova F. Bazar münasibətləri şəraitində kəndin əmək potensialından səmərəli istifadə edilməsi. Bakı: 1996, 165 s.
4. Məhsuldarlıq və rəqabətədavamlılıq. Bakı: İSMAYIL-NPM, 2006, 91 s.
5. Qasımov C.Y. Aqrar sektor və məşğulluğun həlli Naxçıvan MR-in iqtisadi inkişafının həlledici amilidir // İqtisadiyyat və həyat jurnalı. İyun, 2008, Bakı: Qərənfil-MMC, 67s.
6. Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: İrşad, 1995, 141 s.
7. Şirəliyev A.İ. Bazar iqtisadi sistemi və aqrar münasibətləri (dərs vəsaiti). Bakı: Sabah, 2002, 79 s.
8. http://www.statistika.nmr.az/

**Nazim Əhmədov**
Naxçıvan Dövlət Universiteti, professor
E-mail: ahmedov47@mail.ru

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ENERJİ TƏHLÜKƏSİZLİYİ VƏ ONUN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİRİ İMKANLARI

Azərbaycan iqtisadiyyatın bütün sahələri kimi elektroenergetikanın inkişafı da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin birinci hakimiyyəti dövründə ölkədə enerji sisteminin təkmilləşdirilməsi, enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir.

Qeyd edək ki, XX əsrin 70-ci illərinə qədər ölkədə elektrik stansiyalarının ümumi gücü cəmi 2200 meqavat təşkil edirdi və enerjiyə olan tələbat tam ödənilmirdi. Lakin 70-ci illərdə Ümummilli liderimizin səyləri nəticəsində hər birinin gücü 300 meqavatlıq 8 blokdan ibarət olan Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasının istifadəyə verilməsi sayəsində ölkənin enerjiyə olan tələbatı tam ödənilmişdir. Həmin dövrdə İran İslam Respublikası ilə birgə tikilən 22 meqavatlıq Araz Su Elektrik Stansiyası və 330 kilovoltluq Mingəçevir-Abşeron hava elektrik verilişin xətti istifadəyə verilmişdir.

XX əsrdə Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası SSRİ-nin tərkibində olduğu zaman onun elektrik enerjisinə olan tələbatı Zaqafqaziya vahid energetika sistemindən elektrik verilişi xətti ilə ötürülən enerji vasitəsilə təchiz olunmuşdur. Ararat-Babək, Ararat-Şərur və Ararat-Ordubad yüksək gərginlikli elektrik verilişi xətləri muxtar respublikaya Ermənistan ərazisindən ötürülürdü. Araz Su Elektrik Stansiyası da mübadilə sistemi ilə işləyən bu xəttə qoşulmuşdu. Qeyd etmək lazımdır ki, keçən əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikasının elektrik enerjisinə olan tələbatı təqribən 110-120 meqavat təşkil edirdi. Bundan əlavə, həm də o dövrdə muxtar respublikadakı yaşayış məskənlərinin 70 faizə qədəri qazlaşdırılmışdır.

Lakin 1988-ci ildən başlayaraq Dağlıq Qarabağ ətrafında baş verən hadisələr Azərbaycan-Ermənistan münaqişəsi, 1991-ci ildə SSRİ-nin dağılması və bütün bunlar muxtar respublikaya gələn elektrik xətlərinin Ermənistan tərəfindən kəsilməsinə və həmin ilin noyabr ayında qaz nəqlinin də dayandırılmasına gətirib çıxardı. Beləliklə, regionun iqtisadi blokadasının "təməl"i qoyuldu. 6-7 ay sonra muxtar respublikanın energetika və rabitə təsərrüfatları iflic vəziyyətinə düşdü. O illər Naxçıvanda enerji daşıyıcılarına olan tələbat çox az səviyyədə ödənilirdi. Təbii qazın nəqli



dayandırıldıqdan sonra vəziyyət daha da ağırlaşdı. Dəmiryol nəqliyyatında qatarların hərəkətinin kəsilməsi ucbatından odunun, daş kömürün və neft məhsullarının qəhətə çıxması əsas gücü energetika təsərrüfatının üzərinə saldı. Araz çayı üzərində İranla birgə tikilən su-elektrik stansiyası tələbatın yalnız 5-6 faizini ödəyirdi. O da, ilk növbədə, fasilələrlə yaşayış üçün zəruri olan mühüm obyektlərə - çörək zavodlarına, su nasosxanalarına, xəstəxanalara verilirdi.

Keçən əsrin axırlarında SSRİ-nin dağılması və oraya daxil olan ölkələrin, o cümlədən Azərbaycan Respublikasının öz müstəqilliyini əldə etməsi iqtisadi təhlükəsizlik məsələsini vacib məsələ kimi qarşıya qoymuşdur.

Elə o vaxt ölkə qarşısında duran mühüm vəzifələrdən biri iqtisadi təhlükəsizlik sisteminin konseptual əsaslarını işləyib hazırlamaqdan ibarət olmuşdur.

Dünya təcrübəsi göstərir ki, müstəqil dövlət daxilində siyasi sabitlik təmin olunsa da onun iqtisadi inkişaf durumu üçün xarici təhlükələr daim qalmaqdadır. Çünki, heç bir xarici dövlət, beynəlxalq təşkilat və s. başqa ölkəyə maraqsız kömək etmir və hər belə köməyin arxasında mənafelər durur. Məhz bu baxımdan yuxarıda deyilənlər nəzərə alınmaqla ölkəmizin mövcud reallıqlarına cavab verən iqtisadi təhlükəsizlik sisteminin formalaşması konsepsiyasının işlənib hazırlanması xüsusi əhəmiyyət kəsb etdiyindən onun hüquqi bazası yaradılaraq 2004-cü ilin iyun ayında "Milli Təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir.

Müstəqilliyimizin ilk illərindən Heydər Əliyev ölkənin iqtisadi təhlükəsizliyinin tərkib hissəsi olan enerji təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət ayırmağa başladı.

Məhz bu baxımdan ulu öndərin Naxçıvanın xilası uğrundakı fəaliyyətinin əsas istiqaməti muxtar respublikanın energetika və yanacaq problemlərinin həllinə yönəldi. 1991-ci ilin sentyabr ayının 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Heydər Əliyev həmin ilin dekabr ayında Türkiyənin "Aralıq" yarımstansiyasından Naxçıvanın "Sədərək" yarımstansiyasına 31,5 kilovatlıq elektrik verilişi xətti çəkilməsinə nail oldu və düşmənlə üzbəüz dayanan, hər gün ölüm-dirim mübarizəsi gedən sərhəd bölgəsinə 3-4 meqavat həcmində eherji ötürülməyə başlandı [3, s. 227].

Həmin ərəfədə Heydər Əliyevin başçılığı ilə Naxçıvan nümayəndə heyətinin Türkiyəyə səfəri əhəmiyyətli hadisə oldu. 1992-ci ilin mart ayında gerçəkləşən səfər zamanı Türkiyə Cumhuriyyətinin Prezidenti Turqut Özal və Baş nazir Süleyman Dəmirəllə faydalı görüşlər keçirildi. Qardaş ölkədə əsasən Ermənistanın Azərbaycana təcavüzü və Naxçıvanın düşdüyü ağır

vəziyyət müzakirə edildi. Görüşün nəticəsi olaraq, muxtar respublikanın qonşu dövlətlərlə bütün sahələrdə əməkdaşlığının inkişaf etdirilməsi məqsədi ilə Türkiyənin Baş Naziri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri birgə protokol imzaladılar. 13 maddədən ibarət protokolda enerji xətlərinin çəkilməsi, nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi öz əksini tapdı. Eyni zamanda 1992-ci ilin dekabr ayında Türkiyə Respublikasından gətirilərək 220 kilovoltluq "Babək" yarımstansiyası ərazisində quraşdırılmış 4 ədəd – hər birinin gücü 15 meqavat olan və dizel yanacağı ilə işləyən turbin qurğuları istifadəyə verilmişdir. 1993-cü ilin may ayında "İqdir" transformator yarımstansiyasından 87,5 km uzunluğunda 154 kilivatlıq ikidövrəli xəttin çəkilişinin başa çatdırılması məhz aparılan danışıqların nəticəsi idi. Həmin dövrdən etibarən muxtar respublikaya Türkiyədən 55-60 meqavat həcmində elektrik enerjisi ötürülməyə başlandı.

1992-ci ilin avqustunda isə Heydər Əliyev İran İslam Respublikasına ilk səfər etdi. Səfər zamanı müxtəlif sahələrdə əməkdaşlığa dair imzalanmış protokola Naxçıvan MR-in elektrik enerjisinə və təbii qaza olan tələbatını ödəmək üçün yeni xətlərin çəkilməsi bəndləri də salındı. Qısa müddətdə İran tərəfdə - Araz SES-in ərazisində "Araz" yarımstansiyası tikildi, 132 kilovatlıq elektrik enerjisi verilişi xətti çəkildi. Həmin ilin dekabr ayının 3-də istismara verilən bu yüksək gərginlikli elektrik xətti ilə 35 meqavat gücündə enerji ötürüldü. Ondan bir neçə gün sonra isə Culfa-Culfa elektrik verilişi xətti istifadəyə verildi. Bu xətlə Culfa rayonuna 7 meqavat gücündə elektrik enerjisi verilməyə başlandı.

Beləliklə, artıq 1993-cü ilin ortalarında Naxçıvana İran İslam Respublikasından 42, Türkiyədən isə 63 meqavat gücündə elektrik enerjisi daxil olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə gəldikdən sonra müəyyən etdiyi iqtisadi inkişaf strategiyası bu gün də uğurla davam etdirilir.

Heydər Əliyev siyasətini müvəffəqiyyətlə davam etdirən Azərbaycan prezidenti cənab İlham Əliyev elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədilə 2005-ci il mayın 2-də "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır.

Qeyd etmək lazımdır ki, blokada şəraitində yaşayan Naxçıvanın gələcək taleyi ölkə prezidenti cənab İlham Əliyevi daim düşündürdü və o, bu fikirdə idi ki, Naxçıvan maksimum dərəcədə özünü bütün cəhətlərdən təmin edə bilsin. Dövlət başçısı çıxışlarının birində demişdir: **"Naxçıvanın əsas problemlərindən biri elektrik enerjisi məsələsidir. Bilirsiniz ki, buraya elektrik enerjisinin əsas hissəsi xaricdən gəlir. Naxçıvana 140 meqavat həcmində elektrik enerjisi verilir. Onun yalnız 20 meqavatı**



**daxildə istehsal olunur. Qalanı isə Türkiyə və İrandan alınır. Bizim proqramlarımız, planlarımız var. Bu istiqamətdə işlər aparırıq ki, Naxçıvan elektrik enerjisi ilə tam şəkildə təmin etmək üçün layihələr həyata keçirək. Qaz verilməsi məsələsi də gündəlikdədir. Bu istiqamətdə də işlər aparılır".**

Muxtar respublikaya nəhayət 14 illik fasilədən sonra təbii qazın nəql olunması, mənzillərdə və digər obyektlərdə sayğaclaşdırmanın başa çatdırılması, "Alfatek" markalı rəqəmsal elektron avadanlıqların qoyulması, elektrik enerjisindən israfçılıqla və sayğacdankənar istifadə olunmasına qarşı səmərəli təşkilati və texniki tədbirlərin həyata keçirilməsi istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təmin olunması ilə yanaşı tələbatı da kəskin surətdə azaltmışdır. Yəni görülən tədbirlər öz nəticəsini vermiş və artıq qalan 17 meqavatlıq elektrik enerjisi 2009-cu ildə qardaş Türkiyə Respublikasına nəql edilmişdi.

Naxçıvan Muxtar Respublikasında energetika sahəsində əldə olunan uğurlar ilk növbədə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarından irəli gələn vəzifələrin icrası ilə bağlıdır. Ölkə Prezidenti İlham Əliyev muxtar respublikaya ilk səfərləri çərçivəsində keçirdikləri görüşlərinin birində Naxçıvanda həyata keçirilən tədbirlərin başlıca məqsədini belə açıqlayıb: **"Maksimum dərəcədə Naxçıvanın öz resurslarına əsaslanıb elektrik enerjisi potensialına imkan yaratmalıyıq. Əgər iqtisadi potensialı artırmaq istəyiriksə, enerji məsələləri mütləq həll olunmalıdır".**

Ölkə başçısının 2006-cı ilin dekabr ayında muxtar respublikaya səfəri çərçivəsində istifadəyə verilən yeni elektrik stansiyaları regionun elektrik enerjisi ilə təchizatında idxaldan asılılığı aradan qaldırdı. Prezident İlham Əliyev açılış mərasimlərində belə bir amili xüsusi qeyd etmişdir: **"Vaxtilə qaranlıqda, qazsız, işıqsız yaşayan Naxçıvan artıq görülən işlər nəticəsində və orada tikilən və bərpa olunan elektrik stansiyalarının hesabına elektrik enerjisi ixrac edə biləcəkdir"** [1].

Azərbaycan prezidenti İlham Əliyevin yuxarıda göstərilən Sərəncamı muxtar respublikada da çox uğurla yerinə yetirilir. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik stansiyasının təbii qazla işləmə rejiminə keçməsi təmin olunmuş, 220 kilovoltluq "Babək" yarımstansiyasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır.

Muxtar respublikada enerji təsərrüfatında qazanılan mühüm uğurlardan biri də gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyasının inşasıdır. Ən müasir texnoloji avadanlıqlar əsasında quraşdırılan stansiyanın baş podratçısı Finlandiyanın "Vartsila", subpodratçıları isə İsveçrənin ABB şirkəti və "Azərenerji" ASC-nin "Azərenerjitikinti" Məhdud Məsuliyyətli cəmiyyəti idi. Hər birinin gücü 8,7 meqavat olan 10 porşen

tipli aqreqat yüksək iş əmsalına malikdir. Burada 1 kilovat/saat elektrik enerjisinə sərf edilən təbii qazın miqdarı 260 qram olduğundan, iqtisadi baxımdan sərfəlidir. Bu göstəriciyə görə, Modul Elektrik Stansiyalar yalnız SES-lərdən geri qalır. Təsadüfi deyil ki, son illər muxtar respublikanın elektrik enerjisinə olan daxili tələbatı mövcud su elektrik stansiyaları ilə yanaşı, bu stansiya vasitəsilə ödənilir. Təkcə 2009-cu il ərzində stansiyada 370,6 milyon kilovat/saat elektrik enerjisi istehsal olunub. Bu muxtar respublikada istehsal olunan enerjinin 78 faizi deməkdir.

Bu gün fərəhlə demək olar ki, son 20 ildə (1995-2015) muxtar respublikanın enerji təminatı tamamilə daxili istehsal hesabına ödənilir. Elektrik stansiyalarının tikilib istifadəyə verilməsi enerji təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikanın elektrik enerjisinin daxili imkanlar hesabına ödənilməsinin strateji əhəmiyyət kəsb etdiyini bildirərək demişdir: **"Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".**

Naxçıvanda hazırda tam gücü ilə işləyən enerji müəssisələrindən biri də Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1971-ci ildə Araz çayı üzərində tikilib istifadəyə verilmiş su elektrik stansiyasıdır. Stansiyada hər gün rejimlə əlaqədar 20-22 meqavat enerji istehsal edilir. İl ərzində isə burada 93 milyon kilovat/saat elektrik enerjisi istehsal olunur.

Vayxır Su-elektrik Stansiyası da istifadəyə verilmişdir. Onun ümumi gücü bir qədər aşağı – 4,5 meqavat gücündədir. Əvəzində, burada istehsal olunan enerji ucuz başa gəlir. Stansiya Türkiyənin "Cengiz İnşaat Anonim" və "Aksoy" şirkətləri arasında imzalanmış ortaq müqavilə əsasında Heydər Əliyev Su Anbarı üzərində quraşdırılıb. Digər stansiyalardan fərqli olaraq, bu obyektin layihəsi, quraşdırılması, sazlanması və digər xərcləri yerli imkanlar hesabına ödənilib. Dəryaçada su rejimi düzgün müəyyənləşdirildiyindən 2009-cu ildə burada 5,6 milyon kilovat/saat elektrik enerjisi



istehsal olunub. İstehsal olunan enerji Şahbuz rayonunda istehlakçıların tələbatını tam ödəyir.

Artıq makroiqtisadi sabitliyin təmin olunması ilə Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyinin ikinci mərhələsinə start verilmişdir. Bu mərhələdə artıq öz ehtiyatlarımızın səfərbər olunması ilə daxili tələbatın ödənilməsi və gələcəkdə Naxçıvanın enerji ixracatçısına çevrilməsi kimi böyük işlər həyata keçirilib. İnfrastruktur müasir standartlar səviyyəsində yenilənib, davamlı olaraq yeni güclər yaradılıb ki, bu da, son nəticədə, muxtar respublikada enerji təhlükəsizliyinin səmərəli qurulmasını şərtləndirib. Əgər 1996-cı ilə kimi muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə mövcud idisə, aparılan məqsədyönlü islahatlar nəticəsində həmin müəssisələrin sayı 8-ə çatdırılıb. Bu, "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"na və ölkə başçısının "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2005-ci il 2 may tarixli Sərəncamına uyğun olaraq, muxtar respublikamızda həyata keçirilən kompleks tədbirlərin nəticəsidir.

Həyata keçirilən layihələrə nəzər salaq: 2006-cı ilin dekabrında ümumi gücü 87 meqavat olan Modul Elektrik, ümumi gücü 50 meqavat olan Qaz-Turbin Elektrik stansiyaları istifadəyə verilib. Heydər Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 meqavat olan su elektrik və 2010-cu ilin oktyabr ayında Ordubad rayonu ərazisində Gilançay üzərində gücü 22 meqavat, illik elektrik enerjisi istehsalı 80 milyon kilovat/saat olan Biləv Su Elektrik stansiyalarının işə salınması bu istiqamətdə görülən işlərin davamı olub.

Muxtar respublikamızda təbii resurslardan səmərəli istifadə yeni elektrik stansiyalarının tikintisinə geniş imkanlar açıb. 2011-ci ilin fevral ayında Şərur rayonu ərazisindəki Arpaçay üzərində gücü 20,5 meqavat, illik elektrik enerjisi istehsalı 60 milyon kilovat/saat olan "Arpaçay-1" və 2014-cü il aprel ayının 7-də Şərur rayonu ərazisində 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları fəaliyyətə başlamışdır. Hazırda Ordubad rayonu ərazisində Araz çayı üzərində gücü 36 meqavat, illik elektrik enerjisi istehsalı 190 milyon kilovat/saat olacaq derivasiya tipli Ordubad Su Elektrik stansiyalarının tikintisi davam etdirilir.

Qeyd etmək lazımdır ki, Sovet hakimiyyəti illərində cəmi 1 elektrik stansiyası olan, qazlaşdırılması tam başa çatdırılmayan muxtar respublikada bu gün 8 elektrik stansiyası fəaliyyət göstərir. Naxçıvanın ən ucqar dağ kəndlərinə belə qaz xətləri çəkilib.

Muxtar respublikamızın əldə etdiyi bu uğurları yüksək qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: **"Son illər muxtar respublikaya təbii qazın nəqlinin bərpası, yeni elektrik stansiyalarının istifadəyə verilməsi energetika sektorunun inkişafına**

**təminat yaratmış, Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyi təmin olunmuşdur. Bu, energetika sahəsində həyata keçirilən məqsədyönlü fəaliyyətin ən ciddi uğurlarından biridir"** [2].

Muxtar respublikada tikilib istifadəyə verilən elektrik stansiyalarından əlavə bu gün Azərbaycan hökuməti ilə İran İslam Respublikası arasında imzalanmış müqaviləyə əsasən Ordubad rayonunun Dəstə kəndi yaxınlığında Araz çayı üzərində daha bir derevasiya tipli su elektrik stansiyası inşa olunur. Burada hər birinin gücü 12 meqavat olmaqla 3 turbin cəmi 36 meqavat və 3 generator quraşdırılacaqdır. Yeni enerji istehsalı obyektinin normal gücdə işləməsi üçün tələb olunan su sərfi saniyədə 126,6 kubmetrdir. Bu stansiyanın aparıcı beton kanalının uzunluğu 12 kilometr olacaq. Buraya 110 kilovoltluq elektrik verilişi xətti çəkiləcək, transformator yarımstansiyası quraşdırılacaqdır. Hazırda aparıcı kanalda qazıntı və betonlama işləri görülür.

Ümumiyyətlə, elektrik enerjisi sahəsində görülən işlər muxtar respublikanın enerji təhlükəsizliyini tam təmin etməklə yanaşı həm də onun ixrac potensialını artırmışdır. Ordubadda Biləv Su Elektrik Stansiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu istiqamətdə muxtar respublikada həyata keçirilən tədbirləri yüksək dəyərləndirərək demişdir: **"Bu gün Biləv Su Elektrik Stansiyasının açılışı, sadəcə olaraq görülən işlərin yeni mərhələsidir. Bu stansiyanın çox böyük əhəmiyyəti vardır. Düzdür, Naxçıvanın enerji təhlükəsizliyi tam şəkildə təmin edilibdir. Hətta Naxçıvanda enerji potensialının həcmi tələbatdan bir neçə dəfə artıqdır... Bu gün nəinki Naxçıvanın enerji tələbatı tam şəkildə təmin olunur, hətta qonşu İran və Türkiyəyə də enerji nəqlinə imkanlar açılmışdır. Naxçıvan artıq elektrik enerjisi ixrac edən diyara çevrilmişdir".**

Bu gün dünya ölkələrində alternativ enerji mənbələrindən istifadə məsələləri daim diqqət mərkəzində durur. Yuxarıda qeyd edildiyi kimi bu məsələ regionların sosial-iqtisadi inkişafına dair II və III Dövlət Proqramında da öz əksini tapmışdır. Bu baxımdan muxtar respublikanın iqlim şəraiti günəş elektrik stansiyalarının da tikilib-quraşdırılmasına imkan verir. Hazırda Azərbaycan Respublikasında bu layihələrin icrası ilə Bərpa Olunan və Alternativ Enerji Mənbələri Dövlət Şirkəti məşğul olur. Bu Şirkət tərəfindən artıq Naxçıvanda da mühüm layihələr həyata keçirilir. Muxtar respublikada günəşli günlərin üstünlük təşkil etməsi ildə 2600-2800 saat Babək rayonu ərazisindəki Xalxal meşəsi yaxınlığında Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsinə şərait yaratmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2015-ci il 1 dekabrda Naxçıvana səfəri çərçivəsində Günəş Elektrik Stansiyasının açılışı baş tutmuşdur.



20 meqavat gücə malik olan stansiyada işlər Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi ilə Belçika Krallığının "Soltex" şirkəti arasında bağlanmış müqaviləyə əsasən həyata keçirilmişdir. Stansiyada 78 min 684 ədəd ən müasir "şüşə-şüşə" tipli günəş panelləri, onlar üçün dayaqlar və 11 elektrik yarımstansiyası quraşdırılıb. Panellərlə transformator yarımstansiyaları, transformator yarımstansiyaları ilə birləşdirici məntəqə arasında kabel və yüksək gərginlikli elektrik ötürücü, həmçinin yaxınlıqdakı "Xal-xal" yarımstansiyasına qədər 35 kilovoltluq kabel xətləri çəkilib. Tikinti-quraşdırma işlərinin vaxtında başa çatdırılması üçün əraziyə 30-dan çox müxtəlif təyinatlı texnika və 400 nəfərdən çox işçi cəlb olunub. Stansiyanın 5 ayrı-ayrı ərazilərində yerləşən qurğuları hasara alınıb, burada siqnalizasiya və videomüşahidə qurğuları quraşdırılıb. Naxçıvan Günəş Elektrik Stansiyasında il ərzində 30 milyon kilovatt-saatdan çox elektrik enerjisi istehsal olunacaq [4, s. 1-2].

Bundan əlavə hesab edirik ki, muxtar respublikada alternativ enerji mənbələrindən günəş enerjisindən əlavə külək enerjisindən də istifadə imkanları vardır. Culfa ərazisində və digər yerlərdə külək elektrik stansiyalarının tikilməsi və istifadəyə verilməsi məqsədəuyğun hesab edilməlidir.

Məhz bu baxımdan bu gün həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikanın elektrik enerjisinə olan tələbatının su, günəş və külək enerjisi istehsalı hesabına ödənilməsi mümkün olacaq və bu da imkan verəcək ki, yaxın gələcəkdə muxtar respublikamız daha çox elektrik enerjisi ixrac etsin.

## ƏDƏBİYYAT


1. "Şərq qapısı" qəzeti. 2006-cı il, 21 dekabr.
2. "Şərq qapısı" qəzeti. 2010-cu il, 6 oktyabr.
3. Əhmədov N.H. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə. Naxçıvan: "Əcəmi" NPB, 2015, 272 s.
4. "Gömrük xəbərləri" qəzeti № 47 (960), 2015-ci il, 5 dekabr.
5. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: "Səda", 2008, 452 s.

**Mehdi Bağırov**
Naxçıvan Dövlət Universiteti, dosent
E-mail: Dr.mehdi_bagirov@mail.u

# MÜASİR MƏRHƏLƏDƏ AQRAR SAHƏNİN İNKİŞAFI: PROBLEMLƏR, MÜQAYİSƏLƏR VƏ TƏHLİLLƏR

Hal-hazırki vəziyyət, sosial-iqtisadi inkişaf meylləri və istiqamətləri ölkəmizin yüksəlişi sahəsində məqsədyönlü fəaliyyəti şərtləndirən mühüm amillərdəndir. Bu baxımdan hər bir sahənin respublikamızın iqtisadi irəliləməsində oynadığı rol, tutduğu yer və icra etdiyi vəzifələr xüsusi şəkildə araşdırılmalı, onların sistemli və lokal təsir imkanları öyrənilməlidir.

İqtisadi məcmuda özünəməxsusluğu ilə seçilən sahələrdən biri də kənd təsərrüfatı hesab olunur. Bu sahədə aparılan tədqiqatların kompleksliliyinin qorunması məqsədilə ilk növbədə aşağıdakı elementlərin mövcudluğuna diqqət yetirilməlidir:

1. Ölkənin iqtisadi təsərrüfatında sahənin əhəmiyyətinin dəqiqləşdirilməsi;
2. Onun hasil edə biləcəyi məsulun, bu əsasda göstəriləcək xidmətin, və ya görüləcək işlərin ümumi tələbatın hansı hissəsini ödəyəcəyinin müəyyənləşdirilməsi;
3. Aqrar sahənin təşkilati-idarəetmə məsələlərinin real vəziyyətinin öyrənilməsi;
4. Bu sferanın ümumi maliyyələşməsi qaydalarının müşahidəsi və məqsədli investisiyaların yönəldilməsinin tədqiqi;
5. İqtisadi və digər əlaqəli komponentlərin vəziyyətində yaranan dəyişikliklərin kənd təsərrüfatına, onun istehsal potensialının və imkanlarının səviyyəsinə təsirinin öyrənilməsi;
6. "Aqrar sahə - qanunvericilik bazası" tandemində daha mütərəqqi mərhələlərə keçidin təmin olunması;
7. Kənd təsərrüfatı fəaliyyətinin texnika ilə silahlanmasının, texnoloji səviyyəsinin temp və meyllərinin öyrənilməsi;
8. Aqrar infrastrukturun real vəziyyəti və onun imkanlarının genişləndirilməsi sahəsində işlərin görülməsi;
9. Yerli kənd təsərrüfatı imkanlarının beynəlxalq analoqlarla müqayisəli şəkildə nəzərdən keçirilməsi, müxtəlif transformasiya tədbirlərinə müraciət olunması və s.

Sadalanan və bu qəbildən olan digər məsələlər xüsusi əhəmiyyətə malikdir və fərdi qaydada göstərilmiş ardıcıllıqla araşdırılmalıdır.

İlk öncə qeyd olunmalıdır ki, aqrar sahə hər bir ölkənin mühüm sahəsi, ərzaq təhlükəsizliyinin formalaşmasının hasilat bazası, ölkə vətəndaşları və



emal sahələrinin tələbatının ödənilməsində vacib sahədir. O, özünün aşağıdakı mühüm keyfiyyətləri ilə fərqlənir:

- Hasilat çeşidinin həcminin yüksəkliyi;
- Məhsulun təyinatının mühümlüyü;
- İstehlakçı kütləsinin genişliyi və müxtəlifliyi;
- İstehsal həcminin dəyər ifadəsində nisbətən kiçik həcmə malik olması və s.

Verilmiş təsnifat aqrar sahə üzrə istehsalın nəticəsi hesab olunan məhsulların miqdar ifadəsinin kifayət qədər yüksək olmasını vurğulayır. Bu ilk növbədə hər bir fərdin ərzaq məhsullarına olan ehtiyacından irəli gəlir ki, onların da böyük hissəsinin kənd təsərrüfatı hesabına ödənilməsi mümkün olur. Rəsmi statistikaya müraciət etsək görərik ki, muxtar respublikada 2015-ci ildə 402 milyon 991 min 800 manat həcmində (2014-cü ilə nisbətən 12,2 % çox), kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, onun da təqribən 150 milyon manatlıq hissəsi (97 mln. ABŞ dolları) ixraca yönəldilmişdir. Həmin ilin xarici dövriyyəsində ixrac həcmi 414,4 milyon manata bərabərdir, onun tərkibində aqroməhsulların payı isə 36%-dən çox təşkil edir. Muxtar respublika üzrə aqrar sahənin dəyər ifadəsindəki artım göstəricisi respublika üzrə orta göstəricidən də 5,6% çoxdur.

Digər tərəfdən, əhalinin fərdi istəklər məcmusu, onun milli, dini, ərazi və digər amillər baxımından tələbatının öyrənilməsi digər məsələlərlə yanaşı aqrar sahənin "nə?" və "necə?, hansı şərtlər altında?" hasilat prosesinə keçəcəyi ilə bağlı müvafiq planlaşdırma işlərini aparmağa imkan verir.

Bu istiqamətdə bizi maraqlandıran ikinci məsələni aqrar əmtəələrin yerli hasilat imkanlarının qiymətləndirilməsi təşkil etməlidir. Belə ki, bir tərəfdən təbii-coğrafi yerləşmə elementlərinin xassələrinin öyrənilməsi, digər tərəfdən hasilat obyektlərinin məhsuldarlıq, keyfiyyət, səmərəlilik kimi istiqamətlər üzrə nəzərdən keçirilməsi, onların maya dəyərində yerli fəaliyyətin natura və dəyər ifadəsində xüsusi çəkisi, hasilatın baş verməsi üçün xaricdən idxal edilən komponentlərin dəyər ifadəsindəki həcmləri (dolayısı ilə xaricdə asılılıq faktoru) haqqında informasiyanın kompleks qaydada, bəzi hallarda isə (məsələn, "bitkiçilik – heyvandarlıq" tandemində) qarşılıqlı əlaqə və asılılıq şəklində əldə olunması və sistemləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Məsələn, istehsal olunan ümumi kənd təsərrüfatı məhsulunun tərkibində bitkiçilik 63,5%-lik (256,8 mln.manat), heyvandarlıq isə 36,5%-lik (146,9 mln. manat) paya malikdirlər ki, burada da 1,9%-lik hissə bu sahə məhsullarının digər sahədə qarşılıqlı istifadəsinə yönəldilir (məsələn, samanın heyvandarlıqda, təbii gübrənin (peyinin) əkinçilikdə və s.).

Sadalanan təsnifatda istehlakçı kütləsinin genişliyi və müxtəlifliyi mənası altında Azərbaycan Respublikasında, o cümlədən Naxçıvan Muxtar Respublikasında yaşayan əhalinin çoxamilli tərkibi və ondan irəli gələn tələbat sistemləri haqda fikir söyləmək mümkündür. Bu aspektdə ilk milli-dini elementlərin bəhs olunan istiqamətə təsirini səciyyələndirir. Ölkəmizdə çoxmillətlilik və tolerantlıq təməlləri üzərində qurulan bu məsələlər özündə əlaqəli "spesifik çalarları" cəmləyir ki, bu da son nəticədə ümumi istehlakın tərkib rəngarəngliyinə təsir edir. Bəhs olunan istiqamətdə əsas müqayisələrdən birini əhalinin, onun ayrı-ayrı yaş qruplarının artım templəri ilə ərzaq məhsullarının fiziki həcmlərinin artım templərinin qarşılaşdırılması təşkil etməlidir. Ümumilikdə isə qeyd olunmalıdır ki, aqrar sahənin bütün mühüm fiziki parametrləri üzrə irəliləmə müşayət olunmuşdur (ümumi əkin sahəsi, məhsul yığımı və s.)

Eyni zamanda yaddan çıxarılmamalıdır ki, muxtar respublikanın ərazisi əkinçilik təyinatlı "aran" sahələrinə (və yaşayış məkanlarına) malik olmaqla yanaşı, kifayət qədər böyük ölçü ifadəsi ilə seçilən dağlıq məskunlaşma reallıqları ilə seçilir. Belə ki, Ordubad və Şahbuz rayonlarının böyük hissəsi, o cümlədən Culfa, Şərur və Kəngərli rayonlarının bəzi əraziləri coqrafi yerləşmə baxımından məskunlaşma "hündürlüyü" ilə fərqlənir ki, bu da həmçinin onların ərzaq təyinatlı istehlak elementlərində də özünün biruzə verir.

Kənd təsərrüfatı sahəsi üzrə hasil edilən məhsulların həcm və çeşidi özünün kifayət qədər böyüklüyü ilə fərqlənir. Lakin eyni fikirləri digər sahələrin əmtəələrini də vahid müstəviyə cəlb etməklə, onların dəyərləri haqda demək mümkün deyildir. Belə ki, diri çəkidə (kəsilmədən) heyvanların satışı istisna olmaqla, istər əkinçilikdə, istərsə də heyvandarlıqda hasil edilən və mübadilə prosesinə daxil olan məhsulların dəyəri sənaye və tikinti məhsulları ilə müqayisədə kifayət qədər aşağı, istehsal müddətləri isə əksər hallarda (yumurta və s. istisna olmaqla) uzundur.

Aqrar sahə məhsullarına olan tələbatı təklif olunma forması da istehlakın tərkibinə təsir edir. Belə ki, tarladan toplanan pomidorun, xiyarın, bibərin və ya bağlardan əldə olunan almanın, əriyin, armudun, şaftalının xam şəklində istehlakçı ordusuna təklif olunması ilə yanaşı ibtidai emala məruz qalmaqla təqdim olunması da mümkündür. Öz növbəsində bəhs olunan fəaliyyətlər bir tərəfdən aqrar sahibkarların məhsul çeşidini genişləndirir, digər tərəfdən isə kənddə kiçik (bəzi hallarda isə ibtidai) sənaye təyinatlı emal strukturlarını formalaşdırmaqla əhalinin işlə təmin olunmasına təsir edir. Bu məqamda hökümətimiz tərəfindən aparılan və özünün sistemliliyi, çoxşaxəliliyi ilə seçilən və idarəetmə, tənzimləmə, yardım, maarifləndirmə, maliyyələşmə və s. istiqamətləri əhatə edən işlər də yaddan çıxarılmamalıdır.



2015-ci ilin ölkəmizdə kənd təsərrüfatı ili elan edilməsi bu sahənin həmçinin Naxçıvanda kifayət qədər sürətli irəliləməsi ilə nəticələnmişdir. Bununla belə 26 yanvar 2016-cı il tarixdə baş tutmuş və "Regionların sosial-iqtisadi inkişafının III Dövlət Proqramının" (2014-2018-ci illər) ikinci ilinin nəticələrinin müzakirəsinə həsr olunmuş yığıncaqda Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin qeyd etdiyi kimi "... Bizim üçün hər il kənd təsərrüfatı ili olmalıdır. Çünki insanların ərzaq təminatının ödənilməsinin ilk mənbəyi məhz bu sahədir. Onun inkişaf səviyyəsi əhalinin tələbatının ödənilməsi səviyyəsi ilə birbaşa əlaqəlidir. Biz elə etməliyik ki, xalqımızın kənd təsərrüfatı məhsullarına olan tələbatı mümkün qədər ödənilsin." Fikrimizcə, ifadə edilən düşüncə aqrar sahənin təkamülünə öz müsbət töhvələrini verməlidir. Rəqəmlərin araşdırılması aqrar sahə məhsulunun muxtar respublikanın ümumi məhsulunda 16,8% təşkil etdiyini göstərir. Bu siyahıda sənaye öncül mövqeyə malikdir (28,7%).

Müasir mərhələdə aqrar sahənin inkişafını səciyyələndirən mühüm məsələlərdən biri təşkilati-idarəetmə təyinatlı işlərin səviyyəsidir. Haqqında bəhs olunan element çoxsaylı amillərin təsiri altında formalaşır və müxtəlif variantlı təzahür şəkillərinə malikdir. Bu fəqləndirmə diapozonu subyektin malik olduğu ərazi həcmindən və ixtisaslaşma istiqamətindən, regional aidiyyatdan, hüquqi əlaqələndirmədən, maliyyələşmə imkanlarından və aidiyyatı ilə seçilən digər şərtlərdən asılı olaraq formalaşır. Adətən təşkilati-idarəetmə məsələlərinin səmərəli həlli real təsir imkanlarına malik bütün amillərin optimal ölçülərinin müəyyən edilməsi və təcrübi tətbiqi halında mümkündür.

Tədqiqatın həyata keçirilməsində rastlaşdığımız problemlərdən biri də ümumilikdə aqrar sfera üzrə rastlaşdığımız maliyyələşmə-investisiyalaşma fəaliyyəti, onun fərdi qaydada, daxili tərkib istiqamətləri üzrə yönəldilməsidir. Yuxarıda da qeyd olunduğu kimi, kənd təsərrüfatı məhsulları çeşid baxımından genişliyi ilə, dəyər baxımından aşağı səviyyəyə malik qiymətlərlə seçilir. Bu vəziyyət bir çox aqrosubyektlərdə maliyyə vəsaitlərinə olan ehtiyacla müşayət olunur. Aparılmış araşdırmalar göstərir ki, təsərrüfathesablı qaydada mövcudluğunu təmin edən istehsal vahidlərinin əksəriyyəti maliyyə resursları sahəsində çətinliklərlə üzləşir, onların ümumi pul daxilolmaları öz xərclərini ödəməyə kifayət qədər yetmir. Belə vəziyyətdə onların xüsusi vəsaitləri hesabına investisiya qoyuluşlarından isə söhbət etməyə dəyməz.

Düzdür, ölkəmizdə həyata keçirilən sistemli işlər kənd sahibkarının vəziyyətində müsbət meyllərə şərait yaratmışdır. Bu baxımdan 1994-cü ildən başlayaraq 9 vergi növünün 8-dən azad olunma, kənd təsərrüfatı texnikalarının lizinq yolu ilə əldə olunma şərtlərinin yumşaldılması, gübrə, suvarma texnikası, sürtkü materialları satışı sahəsində maliyyə yardımı

xarakterli işlərin həyata keçirilməsi kimi tədbirlər nümunə kimi göstərilə bilər. Lakin yaddan çıxarmaq lazım deyil ki, sadalanan məsələlər özünün əhəmiyyətliliyi baxımından "orta səviyyəli" maliyyə yardımı qrupuna daxildir. Reallıq isə ondan ibarətdir ki, ölkəmizin, o cümlədən muxtar respublikanın aqrar sahəsinin inkişafında köklü addımlar atılmalıdır. Onların sırasında mövcud subyektlərin malik olduğu torpaq həcmlərinin işlənməyən torpaqlar hesabına, bir neçə təsərrüfatın birləşərək (payı bəlli təsərrüfatlar) vahid məcmuda öz işlərini birgə həyata keçirməsi hesabına və ya digər mümkün yol və vasitələrlə öz fəaliyyətini böyütməsidir ki, bu zaman ilk növbədə kompleks xərclərin səviyyəsində geriləmə müşayət olunacaqdır ki, bu da istehsal olunan məhsulun maya dəyərinə özünün müvafiq təsirini təsirini göstərəcəkdir.

Digər tərəfdən, beynəlxalq təcrübədə istifadə olunan mütərəqqi hasilat texnologiyalarının əksəriyyətinin tətbiqi təsərrüfatların ən azı "orta güc" ifadəsində qiymətləndirilməsindən sonra mümkün olur. Fəaliyyəti düzgün təşkil olunmuş iri təsərrüfatlar böyük pul dövriyyəsinə malik olur ki, bu da yeni texnikanın əldə olunmasına, yeni nəqliyyatların sınaqdan çıxarılmasına, seleksiya tədbirlərinin həyata keçirilməsinə imkan yaradır.

Eyni zamanda arzu olunandır ki, kənd təsərrüfatı sahəsində subyektlərin fəaliyyətinin möhkəmləndirilməsi və genişləndirilməsi ilə bağlı xüsusi investisiya Proqramlarının qəbulu üzrə işlərin aparılmasına başlanılsın. Bu yöndə mühüm sayılacaq məsələlərdən biri aqrar sferanın ümumi maliyyələşmə qaydalarının müşahidəsi və məqsədli investisiyaların yönəldilməsinin tədqiqi hesab olunmalıdır. Belə ki, sahə üzrə ümumi təyinatlı zəruri informasiya əldə edilmədən sahəvi xüsusiyyətlər nəzərə alınmadan, çoğrafi imkanlar qiymətləndirilmədən, real istehsal həcmlərinin vəziyyətinə aydınlıq gətirilmədən, hasilat prioritetləri müəyyən edilmədən heç bir investisiyalaşma əməliyyatından söhbət getməməlidir. Əks halda qeyri-səmərəli qoyuluşla rastlaşılacaq ki, bu zaman istifadə olunmuş maliyyə vəsaitlərinin bərpası olduqca çətinləşəcək və ya tamamilə mümkün olmayacaqdır. Onu da qeyd etmək yerinə düşər ki, 2015-ci ildə aqrar sahə üzrə kreditləşmənin səviyyəsi öncəki illə müqayisədə 16,1% artaraq 20,9 milyon manat təşkil etmişdir.

Araşdırmala zamanı iqtisadi, inzibati və digər əlaqəli komponentlərin vəziyyətində yaranan dəyişikliklərin kənd təsərrüfatına, onun istehsal potensialının və imkanlarının səviyyəsinə təsirinin öyrənilməsi özünün əhəmiyyətlilik dərəcəsini qorumaqdadır. Məsələn, aqrar subyektin torpaq sahəsinin həyat keçirilən ölkədaxili və ya beynəlxalq layihənin ərazi parametrlərinin daxilində olması. Sadalanan və bu qəbildən olan məsələlər bir çox halda aqrar sahənin hasilat imkanlarının azalması ilə müşayət olunsa da, digər təyinatlı (yol infrastrukturu, ümumi loqistik və s.) işlərin icrası



mümkün olur ki, bu zaman optimallıq, ümumi və xüsusi səmərəlilik, "itirilən – qazanılan" tarazlığı dərin araşdırmaya məruz qalmalıdır. Nəzərə çatdırmaq yerinə düşər ki, 2015-ci ildə muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə 7 istixana təsərrüfatı, tutumu 480 ton olan 2 soyuducu anbar yaradılmışdır, 62,7 kilometr yol çəkilmişdir və s. .

Aqrar sahə ilə əlaqəli daha bir məqama diqqət yetirməyi məqsədəuyğun hesab edirik. Kənd təsərrüfatı ölkənin vahid iqtisadi sisteminin tərkib hissəsi, maddi istehsal sferasının mühüm elementidir. Onun fəaliyyətinin qurulması, ümumi iqtisadi, sosial, əmək, pul və sair istiqamətlər üzrə işlərin həyata keçirilməsi ümumi və spesifik hüquqi-normativ aktların tələblərin uyğunluğu ilə seçilməlidir. Məhz bu əsasda "aqrar sahə - qanunvericilik bazası" tandemində daha mütərəqqi mərhələlərə keçidin təmin olunması mühüm əhəmiyyət kəsb edir.

Ölkədə aparılan sistemli və kompleks əhatə imkanları ilə seçilən aqrar siyasət özünün geniş toxunma elementləri çoxluğu ilə fərqlənir. Fikrimizcə, haqqında bəhs olunan məsələnin öyrənilməsində aşağıdakı "iştirakçı tərəflərin" fəaliyyətinə nəzər salınması zəruridir:

- həqiqi istehsal imlanları və həcmləri, onların kənd təsərrüfatı məhsulları üzrə bölüşdürülməsi meyarları;
- aqroməhsulların istehlakçı kontingentinin ümumi say və müxtəlif tərkib amilləri üzrə öyrənilməsi;
- istehlakçı tələbatının ödənilməsində real imkanların qiymətləndirilməsi, (əgər vardırsa) idxaldan asılılıq göstəricisinin müəyyən edilməsi:
- aqrar sahənin təşkilati məsələlərinin araşdırılmasında tədqiqat ərazilərinin coğrafi relyef imkanlarının diqqətdə saxlanılması, məhsulların müvafiq şəraitə uyğunluğunun öyrənilməsi;
- istehsalçı tərəfin hər hansı kənd təsərrüfatı məhsulunun istehsal edilməsində maraqlı olması (stimullaşdırma elementləri);
- kənd ərazilərində aqrar sahə hasilatını həyata keçirmək üçün zəruri əmək resurslarının mövcudluğu və s.

Sadalanan amillərlə yanaşı kənd təsərrüfatı fəaliyyətinin texnika ilə silahlanmasının, texnoloji səviyyəsinin temp və meyllərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Müvafiq məsələ reallıqda bir çox onu tamamlayan, bəzi hallarda isə ondan törəyən nyuansların məcmusu kimi çıxış edir. Məsələn, əkinçilik istiqamətində ixtisaslaşma ilk növbədə geniş istifadə imkanlarına malik traktorların əldə olunmasını qarşıya məqsəd kimi qoyur. Bununla belə, həmin texnikanın hansı məqsədlə istifadə edilməsi (səpin, torpağın yumşaldırması, yüklərin daşınması, saman və ot preslərinin

vurulması və s.) digər texniki qoşqu və digər qurğuların əldə olunmasını da şərtləndirir.

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasında sadalanan istiqamətdə xeyli işlər görülmüşdür ki, bunlardan da böyük xüsusi çəki "Aqrolizinq" MMC-nin payına düşür. Fəaliyyətə başladığı 2006-cı ildən cari dövrədək minlərə texniki vasitə kənd zəhmətkeşlərinin istifadəsinə verilmiş, həmin işlər bu gün də muxtar respublika rəhbərliyinin məqsədyönlü fəaliyyəti nəticəsində sistemli və kompleks şəkildə davam etdirilməkdə, genişləndirilməkdədir. Bu zaman birbaşa istehsal sahələrindən saxlanma ünvanlarına, oradan isə istehlakçılara çatdırılma proseslərində istifadə olunacaq texniki vasitə və imkanlar da nəzərdən yayınmamalıdır. Bu sırada ümumi və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, müxtəlif daşıma və yerləşdirmə texnikasının (elevatorlar və s.), qablaşdırma, qısa, orta və uzunmüddətli saxlama üzrə çoxsaylı texniki vasitələrin mövcudluğu zəruridir. Həmin vasitələr cari dövrdə muxtar respublikanın aqrar sahəsində özünün aşağı səviyyəsi ilə seçilən əməyin mexanikləşdirmə səviyyəsinin yüksəlməsinə, əmək məhsuldarlığının artımına, əmtəələrin keyfiyyət ifadələrinin, qablaşdırma üsul və formalarının yaxşılaşdırılmasına və digər əlaqəli məsələlərin həllinə təsir göstərməlidir.

Aqrar sahənin inkişafında aqrar infrastrukturun mövcudluğu, onun hansı səviyyədə bərqərar olması mühüm əhəmiyyət kəsb edir. İnfrastruktur anlayışı kənd təsərrüfatı sahəsi üçün özünün kifayət qədər rəngarəngliyi ilə seçilir və mühüm əhəmiyyətə malikdir. Müvafiq aspektdə meyvə-tərəvəzin orta və uzunmüddətli saxlanmasını təmin edən anbarlar, taxılın orta və uzunmüddətli saxlanmasını təmin edən bunkerlər, heyvanların kəsimi üzrə ixtisaslaşan məntəqələr (subyektlər), ixtisaslaşmış yükdaşımaları həyata keçirən subyektlər, aqrar hasilat subyektlərinin istifadə etdiyi yol, elektrik enerjisi, su və digər infrastruktur növləri nümunə olaraq göstərilə bilər. Sadalananların üzərinə sanitar-epidemioloji, veterenar, aqronomluq və digər (məsləhət və s.) xarakterli obyektlərin fəaliyyətini də əlavə etmək məqsədəuyğun olardı.

İnfrastrukturun inkişafı sahəsində muxtar respublikada həyata keçirilən işlərin böyük həcminə baxmayaraq, hələ də kifayət qədər irimiqyaslı işlərin tamamlanması zəruridir. Fikrimizcə, bu fəaliyyət ilk növbədə yerli xammala əsaslanan məhsul, iş və ya xidmət üzrə icraatı əhatə etməlidir. Digər tərəfdən xüsusilə də tezxarab olan, saxlanma müddəti az olan (ən azı 10 günədək) xam aqrar məhsulların elə təsərrüfatların özündə ilkin emalının təşkili yaxşı olardı. Onu da nəzərə almaq lazımdır ki, qida təyinatlı kənd təsərrüfatı məhsullarının bir hissəsi strateji tələbat qrupuna daxildir, onların emala məruz qalması müasir texnikanın və yüksək texnologiyaların tətbiqini də şərtləndirir.



Mövzu üzrə araşdırılacaq məqamlardan biri də yerli kənd təsərrüfatı imkanlarının beynəlxalq analoqlarla müqayisəli şəkildə nəzərdən keçirilməsindən, müxtəlif transformasiya tədbirlərinə müraciət olunmasından ibarətdir. Açıq bazar, beynəlxalq əmtəə bölgüsündə iştirak kimi məsələlər kənd təsərrüfatı məhsullarına qarşı irəli sürülən tələblərin yüksəldilməsilə də özünün biruzə verir. İdxal olunan əkinçilik təyinatlı məhsullar üzrə toxumlar, meyvəçilik tingləri, çins heyvanlar yüksək reproduktivliklər seçilə bilər, bununla belə daha bir neçə amillin vəziyyətinə aydınlıq gətirilməlidir:

- beynəlxalq tələblərə uyğun olan aqrar məhsul muxtar respublikanın yerli şəraiti ilə nə dərəcədə uyğun gəlir?
- gətirilən bitkiçilik təyinatlı ərzaq məhsulların tərkib etibarı ilə insan sağlamlığına uyğundurmu?
- özünün hasil olunan yerləri ilə müqayisədə kənd təsərrüfatı təyinatlı əmtəələr muxtar respublikada özünün yerləşməsi, mövcudluğu, onlardan istifadə baxımında kənarlaşmalara, kataklizmlərə və digər gözlənilməz situasiyalara yol açmayacaqlar?

Bəhs olunan və ona oxşar bir çox məsələlər müxtəlif xarici ölkələrin təcrübəsində müşahidə olunmuş və əksər hallarda tamamilə qeyri-qənaətbəxş nəticələrə yol açmışdır.

Məqalədə mövzu ilə bağlı toxunulan bəzi məsələlər, onlarla bağlı bildirilən fikirlər müasir mərhələdə aqrar sahənin inkişafında öz sözünü demiş olacaq, bu sfera üzrə fəaliyyətin təşkili, onun tənzimlənməsi, hasilat istiqamətləri üzrə optimal quruluş və ifadələrdən istifadə olunması kimi məqamlara aydınlıq gətirəcəkdir.

## ƏDƏBİYYAT

1. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı". Bakı, 25 avqust 2008-ci il.
2. Bağırov M.S. Kənd təsərrüfatında istehsal vəsatış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan: Qeyrət, 2014, 107 s.
3. Bağırov M.S. Aqrar sahənin inkişafı və marketinq prinsiplərindən istifadə.. Naxçıvan: Qeyrət, 2014, 102 s.
4. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşma-sında rolu. Naxçıvan: Qeyrət, 2014, 130 s.
5. Bağırov E.A. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı: Avropa, 2015, 332 s.
6. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanıniqtisadiyyatı və idarə edilməsi. Bakı: Avrora, 2013, 406 s.

7. İbrahimova N.H. Regionda aqrar sahənin istehsal-iqtisadi əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri. Naxçıvan: İdeya, 2011, 124s.
8. "İqtisadiyyat" qəzeti, № 4 (899), 29.01 – 04.02.2016.
9. www.stat.gov.az
10. www.statistika.nmr.az



**Cavadxan Qasımov**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: Cavadxan.yusifoglu@mail.ru

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİYYATI MÜSTƏQİLLİK İLLƏRİNDƏ: İNKİŞAFDAN MODERNLƏŞMƏYƏ DOĞRU

Azərbaycan Respublikasının müasir müstəqillik tarixinin son iyirmi illik səhifələrində təhlükəsiz, sabit, davamlı inkişaf yolu ilə durmadan, tərəddüd etmədən, daha inamla, böyük stimulla addımlayan Naxçıvan Muxtar Respublikası çoxşaxəli və çoxsahəli, dayanıqlı, etibarlı, güvəncli, bununla da hər kəsin sosial-iqtisadi maraqlarını ifadə edə bilən iqtisadiyyat formalaşdırmış və burada yaşayan əhalinin, eyni zamanda ürəyi Naxçıvan MR-lə birgə döyünən hər kəsin sonsuz qürur mənbəyinə çevrilmişdir. İqtisadiyyatın sahə strukturunda yer alan bütün istiqamətlərdə ardıcıl tədbirlərin həyata keçirilməsi makroiqtisadi göstəricilərin yüksələn dinamikasını təmin etmiş və sağlam iqtisadi mühit formalaşmışdır.

İyirmi il bundan əvvəl, 1995-ci ildən Naxçıvan muxtar respublikası həm siyasi və həm iqtisadi sahədə yeni bir dövrün əsasını müəyyən etməklə, eyni zamanda çevik təşkilati mərhələni başlatmış oldu. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi müdrik siyasi xətt əsasında hərtərəfli inkişaf istiqamətlərini təmin edən muxtar respublika müasir iqtisadi şərait çərçivəsində ən yeni, ən işlək və ən operativ potensialla yola çıxdı. İnkişaf, intibah, qurmaq, yaratmaq hədəflərini üstün tutmaqla, bir o qədər də özündə stimul hiss etməklə, uğurlu addım, fəaliyyət, qabiliyyət, bacarıq təcrübəyə söykənərək bu günə qədər böyük yüksəliş dövrünü keçdi.

Təbii ki, bütün bunlar üçün muxtar respublikada qətiyyətli iradəyə və təcrübəli idarəetməyə söykənən siyasət yeridilməkdədir. Belə ki:

1. iqtisadiyyatın sahə strukturunun yüksək inkişaf vəziyyətinə gətirilməsi;
2. regionların istehsal əhəmiyyətinin artırılması;
3. mezoiqtisadi potensialın və infrastrukturun genişlənməsi;
4. iqtisadiyyatın sahələri arasında faydalı əlaqələndirilmənin təmin edilməsi;
5. məhsul və vaxt itkisinin önlənməsi üçün lazımi tədbirlərin düzgün istiqamətləndirilməsi və s. kimi məsələlər ən ümdə vəzifələr olmaqla keçdiyimiz iyirmi ilin səmərəli iqtisadi nailiyyətlərindən olmuşdur. Heç şübhəsiz ki, əsas məqsəd makroiqtisadi zəmində faydalılığın təmin edilməsindən ibarətdir. Bu mənada, Naxçıvan iqtisadi rayonunun ölkənin strateji hədəflərinə birbaşa xidmət etdiyini qeyd edə bilərik. Məhz aşağıdakı

cədvəldə son iyirmi il ərzində makroiqtisadi göstərici olan Ümumi Daxili Məhsulun illər üzrə artım vəziyyəti də fikrimizi təsdiqləyir.

**Naxçıvan Muxtar Respublikasında son iyirmi ildə əsas makroiqtisadi göstərci olan ÜDM-nin və onun hər bir nəfərə düşən həcminin müqayisəsi**

Cədvəl 1.

| İllər | Ümumi Daxili Məhsulun həcmi (min manat) | Hər bir nəfərə düşən həcmi (manat) |
|---|---|---|
| 1995 | 43721,7 | 131,9 |
| 2000 | 84862,4 | 236,2 |
| 2001 | 98100,9 | 269,9 |
| 2002 | 118211,6 | 321,9 |
| 2003 | 168040,4 | 453,4 |
| 2004 | 232441,6 | 621,3 |
| 2005 | 305796,5 | 807,3 |
| 2006 | 405657,3 | 1059,7 |
| 2007 | 544958,9 | 1407,4 |
| 2008 | 795763,6 | 2016,6 |
| 2009 | 973649,3 | 2437,7 |
| 2010 | 1171305,7 | 2882,9 |
| 2011 | 1786341,6 | 4311,7 |
| 2012 | 2103424,3 | 4973,8 |
| 2013 | 2338927,7 | 5423,0 |
| 2014 | 2391004,2 | 5465,2 |
| 2015 | 2467422,4 | 5581,1 |

Mənbə: http://www.statistika.nmr.az/

Qeyd edək ki, cədvəl 1-də 2015-ci ildə ümumi daxili məhsul istehsalının həcmi (2 milyard 467 milyon 422 min 400 manat) ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz artmışdır [5].

Bu günkü yüksək inkişaf zirvəsindən keçdiyimiz iyirmi illik zaman müddətinə baxanda sözün həqiqi mənasında müasirliyə, sosial-iqtisadi tərəqqiyə, sosial məmnunluğa və inama, yenilikçi, etibarlı və dayanıqlı iqtisadiyyata doğru durmadan addımlayan bir Naxçıvan Muxtar Respublikasını görməkdəyik. Əsrin beşdə birini özündə cəmləşdirən bu müddət özünün strateji əhəmiyyəti, hərtərəfli uğurları, çevik innovativ təşəbbüskarlığı ilə tükənməz vətən sevgisinin, yüksək milli ruhun, böyük dövlətçilik və idarəçilik təcrübəsinin vəhdətinin ən gerçək təsdiqidir, ifadəsidir. Burada əldə olunan hər bir nailiyyət ictimai-siyasi, sosial-iqtisadi və hərbi çətinliklərdən müdrik idarəçiliyə əsaslanmaqla, mərdliklə, cəsarətlə çıxaraq



müasir müstəqillik şəraitində tamamilə yenidən qurulmuş və sürətlə inkişaf etdirilmiş bir Muxtar Dövlətin ümumilikdə ölkəmizə qazandırdığı tərəqqinin bir hissəsidir. Və təbii ki, bütün bunlara nail olmaq üçün qarşıda duran ən ümdə məqsədləri aşağıdakı kimi ifadə etmək olar:

- ✓ müstəqillik yollarında hərtərəfli inkişafı hədəfləmiş Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi müasir iqtisadi şəraitə uyğunlaşdırılmaqla iqtisadi siyasət yeritmək;
- ✓ dayanıqlı, müqaviməqli, bununla da hər kəsin maraq və tələbatını ifadə edəbiləcək iqtisadiyyatı formalaşdırmaq;
- ✓ bazar münasibətlərinin özünə daha da dərin kök salması üçün müvafiq infrastruktur potensialını təmin edə bilmək, bununla da xüsusi mülkiyyətin hökmranlığı əsasında iqtisadi münasibətlərin müasir forma və istiqamətlərini müəyyənləşdirmək;
- ✓ iqtisadiyyatda sosialyönümlülüyü artırmaq və səmərəli məşğulluq siyasətini təkmilləşdirmək;
- ✓ çoxsahəli və çoxşaxəli iqtisadiyyatın stimullaşdırılması və bu sahədə dövlətin fəal siyasətinin təminatı;
- ✓ sadalanan bütün bu amillərlə innovativ inkişafa şərait yaratmaqla yeni mərhələnin əsaslarını yaratmaq və uzaq gələcək üçün möhkəm baza formalaşdırmaq və s.

Naxçıvan Muxtar Respublikasının müasir inkişaf vəziyyətinə uyğun olmaqla, qurduğu iqtisadiyyatının davamlılığı onun yüksək potensialından xəbər verməkdədir. İqtisadi rayonda makroiqtisadi göstəricilərin artım tempi əhəmiyyətli nəticələri ilə xarakterizə edilməkdədir. Aşağıdakı cədvələ diqqət etdikdə qeyd etdiklərimizi açıq şəkildə görə bilərik:

**Naxçıvan Muxtar Respublikasında 2015-1995-ci illərin əsas makroiqtisadi göstəricilərinin müqayisəsi**

Cədvəl 2.

| Müqayisə predmeti | 2015-ci il (min manat) | 1995-ci il üzrə (min manat) | Artım (dəfə) |
|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 2467422,4 | 43721,7 | 56,4 |
| Hər bir nəfərə düşən ÜDM həcmi | 5581,1 | 130,6 | 42,7 |
| Sənaye məhsulunun ümumi həcmi | 916817,9 | 9133,4 | 100,3 |
| Əsas kapitala yönəldilən investisiyalar | 951196,5 | 3049,0 | 311,9 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 402991,8 | 38572,2 | 10,4 |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 15898,3 | 632,6 | 25,1 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 46908,4 | 420, 3 | 111,6 |

| | | | |
|---|---|---|---|
| Pərakəndə əmtəə dövriyyəsi | 1276986,7 | 36511,2 | 34,9 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 195829,5 | 3837,7 | 51 |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 512354,5 | 19024,0 | 26,9 |
| ixracın ümumi həcmi | 414420,6 | 1937,0 | 213,9 |
| idxalın ümumi həcmi | 97933,9 | 17087,0 | 5,7 |
| Əhalinin gəlirləri | 1804178,6 | 31538,9 | 57,2 |
| Hər bir nəfərə düşən gəlirlər, manat | 4080,9 | 94,2 | 43,3 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat | 395,6 | 15,9 | 24,8 |

*Cədvəl statistik göstəricilər əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəl 2-dən də görünür ki, 2015-ci il ərzində muxtar respublikada makroiqtisadi göstəricilər əhəmiyyətli dərəcədə yüksəlmişdir. Bir sıra göstəricilər vardır ki, onların artım həcmi böyük tərəqqiyə söykənməkdədir. Belə ki, tədqiqat dövrü kimi götürdüyümüz 2015-1995-ci illərin müqayisəsində ÜDM-nin istehsalı üzrə artım 57 dəfəyə yaxın təşkil etmişdir. Müvafiq olaraq, bunu sənayeyə və digər sahələrə də aid etmək olar. Təbii ki, sənayedə istehsal olunmuş məhsulların həcmində 100 dəfədən artıq, İnformasiya və rabitə xidmətlərinin həcmində 112 dəfəyə yaxın, əsas kapitala yönəldilmiş investisiyaların həcmində 312 dəfəyə yaxın artım olmuşdur [5].

Burada onu da qeyd edək ki, təkcə ötən il ərzində xarici ticarət dövriyyəsinin həcmi 512 milyon 354 min 500 ABŞ dolları həcmində təşəkkül tapmışdır. Xarici ticarət dövriyyəsinin 414 milyon 420 min 600 ABŞ dollarını ixrac, 97 milyon 933 min 900 ABŞ dollarını idxal təşkil etmişdir. İxracın idxalı üstələməsi nəticəsində 316 milyon 486 min 700 Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranmışdır [5].

Naxçıvan Muxtar Respublikası keçdiyi iyirmi illik dövrdə (1995-2015-ci illər) ölkəmizdə hazırlanan və uğurla icra olunan proqramların, layihələrin hər birini addımba addım izləmiş və çoxşaxəli milli iqtisadiyyata əhəmiyyətli töhvələr vermişdir. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikanın müasir və səmərəli arxitekturası formalaşmış, daha keyfiyyətli obyektlər yer almışdır.

Təkcə bir faktı fikrimizi sübut etmək üçün qeyd edə bilərik ki, 1 yanvar 1995-ci ildən 1 yanvar 2015-ci il tarixə qədər muxtar respublikamızda 10461 obyekt istifadəyə verilmişdir ki, onları da aşağıdakı kimi göstərə bilərik:



Elm və təhsil ocağı 338;
Ondan ümumtəhsil məktəbi 239;
Mədəniyyət obyekti 380;
Səhiyyə obyekti 240;
İdman obyekti 41;
İnzibati bina 511;
Ondan şəhər, qəsəbə və kənd mərkəzləri 113;
Mənzil təsərrüfatı üzrə obyektlər 678;
Kommunal infrastruktur obyekti 377;
Nasos stansiyası 169;
Subartezian quyusu 385;
Körpü 162;
Əlil, məcburi köçkün, qaçqın və şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün ev 491;
İstehsal, xidmət və digər infrastruktur obyektləri 6337 [5].

Naxçıvan Muxtar Respublikası bütün bu potensialla müasir modernləşmənin önündə gedir. Bundan əlavə, bəhs edilən dövrdə göstərilən obyektlər üzrə 6702 obyekt tikilmiş və 3759 obyekt isə yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur.

Bu tarixi nailiyyətlər öz iqtisadi bəhrəsini muxtar respublikanın sosial-iqtisadi inkişafında əhəmiyyətli şəkildə göstərmiş və sözün həqiqi mənasında inkişafın Naxçıvan modelini yaratmışdır. Sağlam düşüncənin, yüksək bacarığın, böyük təcrübənin məhsulu olan bu tərəqqi rəssam incəliyi, memar dəqiqliyi, usta həssaslığı ilə təmin edilmişdir. Atılan hər bir addımın, görülən hər bir işin, gerçəkləşdirilən hər bir məqsədin ən zəruri hədəfi məhz muxar respublikanın tarixi keçmişinin qorunması, müasir dövrünün iftixarı, sabahının və gələcəyinin inamlı, ümidli olmasına hesablanıb. Bu mənada onu da qeyd edək ki, təkcə ötən ilin yanvar-sentyabr ayları ərzində muxtar respublikada 19 inzibati binanın tikintisi və ya yenidən qurulması başa çatdırılmışdır. 18 inzibati binanın tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilir [1, s. 205].

Hər kəsə məlum həqiqətdir ki, müasir müstəqillik şəraitində də milli liderimiz böyük Heydər Əliyevin müəyyən etdiyi siyasi xətt Azərbaycan vətəndaşının ən ali, ən yüksək, ən doğma səviyyə, məqam və münasibətlə əhatə olunmasına xidmət etməkdədir. Ayrılıqda hər bir fərdin, bütövlükdə isə milyonların əhatə olunduğu bu müdrik siyasət özündə geniş mənada xalqla dövlət arasında incilməz, qırılmaz, sarsılmaz, əksinə, möhkəm, dayanıqlı və əbədi tellərin varlığına və daha da inkişafına səbəb olmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikasında həmin siyasətin özünə kök saldığını və daha da möhkəmləndiyini görməkdəyik. İnsan amilinin üstün tutulması, onun sosial firəvanlığının təmin edilməsi, elmi və təhsil

səviyyəsinin yüksəldilməsi dövlət siyasətinin ən mühüm tərkib hissəsini təşkil etməkdədir. Təbii ki, bu istiqamətdə həyata keçiriləcək tədbirlər içərisində bütün tərəfləri ilə yanaşı həmdə innovativ inkişafa nail olmaq da böyük təsirə malikdir. Buna görə də tədrisin keyfiyyətinin yüksəldilməsi, müasir tələblərə cavab verməsi, şagirdlərin dünyagörüşlərinin daha da artması məqsədilə, ümumtəhsil məktəblərində müasir texnika və texnologiyanın tətbiqi, onlardan səmərəli istifadə məsələləri böyük əhəmiyyət daşımaqdadır. Onu qeyd edə bilərik ki, hazırda muxtar respublikanın bütün təhsil müəssisələrində 3801 dəst kompüter quraşdırılmış, hər 12 şagird bir dəst kompüterlə təmin edilmişdir. Şagirdlərin istifadəsində olan 3801 dəst kompüterin 3253-ü və ya 85,6 faizi internetə qoşulmuş, 600-dən çox elektron lövhə quraşdırılmışdır [5].

Sadalanan bu uğurların fonunda keçdiyimiz iyirmi ildə muxtar respublikamızda sağlam iqtisadiyyat üçün güclü potensial yarandığını böyük qürur hissi və qətiyyətlə qeyd edə bilərik. İqtisadi maraqların qorunması, sosial siyasətin təkmilləşdirilməsi, əhalinin rifah halının daha da yaxşılaşdırılmasına xidmət edən sahələrin çevik və işlək mexanizmlərlə daim fəal saxlanılması, güclü infrastruktur potensialının təmin edilməsi, elmin, təhsilin, səhiyyənin, mədəniyyətin, bir sözlə, hərtərəfli inkişafı təmin edəcək bütün sahələrin və orada çalışan insanların, bütün əhalinin səmərəli, faydalı yaşayışını qaranti altına alacaq siyasətin yeridilməsi məhz bəhs edilən dövrün ən mühüm nailiyyətlərindən olmuşdur. Bu gün Naxçıvan muxtar respublikasından böyük quruculuq tədbirləri, yaradıcılıq təşəbbüsləri, təşkilatçılıq qabiliyyətləri ilə regiona və dünyaya ciddi bir mesaj verilməkdədir. Bu da heç şübhəsiz ki, vətən üçün, dövlət üçün, xalq üçün işləmək, çalışmaq, daim yüksək əzmkarlıq nümayiş etdirmək, hər addımda sağlam həyat, firəvan yaşayış, əminəman mühit təmin etmək, sülh tərəfdarı və carçısı olmaq, ölkəyə və onun başçısına sədaqəqlə xidmət etmək, ümummilli liderə və onun ideyalarına layiq olmaqdan ibarətdir.

## ƏDƏBİYYAT


1. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
2. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 100 s.
3. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2004, 87 s.
4. http://stat.gov.az/
5. http://www.statistika.nmr.az/




**Sevinc Cabbarova**
AMEA Naxçıvan Bölməsi, iqtisad üzrə fəlsəfə doktoru
E-mail: sjabbar@mail.ru

# "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASINDA NAXÇIVAN İQTİSADİ RAYONUNUN ƏMƏK EHTİYATLARINDAN İSTİFADƏ VƏ PERSPEKTİV İNKİŞAF MEYİLLƏRİ

Bazar iqtisadiyyatı şəraitində ölkənin əmək potensialından səmərəli istifadə iqtisadiyyatda innovasiyaların yararlılıq səviyyəsindən və iqtisadiyyatın coxsahəli olmasından bir başa asılıdır. XXI əsrin iqtisadiyyatı bazar iqtisadiyyatına əsaslanmaqla dünya ölkələrinin qabaqçıl texnologiyalardan istifadəsi olmadan dayanıqlı və stabil iqtisadi sistem qurmaq mümkün deyil.

Yeni inkişaf mərhələsinin əsas xüsusiyyəti qarşımızda duran məqsədlərin daha yüksək səviyyəli, çoxşaxəli olması və zamanın çağırışlarını nəzərə alınması ilə bağlıdır. Bu məqsədlərə nail olmaq üçün ciddi elmi əsaslara söykənən ən müasir idarəetmə üsullarının tətbiqi tələb edilir, strateji yanaşmaların daha uzunmüddətli dövrü əhatə etməsi zərurəti yaranır [3, s. 5].

Dünya təcrübəsi göstərir ki, innovasiya yönümlü iqtisadiyyatı inkişaf etdirmədən, qabaqcıl texnika və texnologiyalardan istifadə etmədən ölkənin istehsal potensialını artırmaq və xarici investisiyaların cəlb edilməsi mümkün olmadığı kimi, əmək potensialının səmərəli yerləşdirilməsini və optimal inkişafını təmin etmədən də ölkənin beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlüklərini reallaşdırmaq mümkün deyildir.

Bütün bunların həyata keçirilməsində ölkədaxili regional inkişaf proqramlarının hazırlanması böyük rol oynayır. Bu cür proqramlar yerli ehtiyatlardan və potensial imkanlardan maksimum dərəcədə tam və səmərəli istifadə olunması əsasında regionların təsərrüfatlarının düzgün ixtisaslaşmasını və kompleks inkişafını nəzərdə tutur ki, bu da son dərəcədə ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişafının sürətlənməsinə xidmət edir [2, s. 109].

Ölkə regionlarının, o cümlədən Naxçıvan iqtisadi rayonunun davamlı və tarazlı inkişafının təmin edilməsi məqsədilə onlar arasındakı fərqlərin aradan qaldırılması, mövcud potensialdan səmərəli istifadə və əhalinin maddi rifahının yüksəldilməsi vacibdir.

Ölkədə iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafını təmin etmək, əhalinin sosial rifahını yüksəltmək, habelə sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, eləcə də cəmiyyətin bütün istiqamətlərdə tərəqqisini sürətləndirməklə, inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaq Azərbaycan dövlətinin fəaliyyətində mərkəzi yer tutur. Bununla əlaqədar

olaraq, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamına əsasən, müvafiq dövlət orqanlarının, elmi təşkilatların və yüksək ixtisaslı mütəxəssislərin iştirakı ilə, həmçinin ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq şəraitində "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası hazırlanmışdır. Konsepsiya demokratik prinsiplər gözlənilməklə açıq müzakirəyə verilmiş və yekun sənəd olmaqla, maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti təsisatlarının və vətəndaşların çoxsaylı rəy və təklifləri nəzərə alınmaqla ərsəyə gətirilmişdir.

Beləliklə, Konsepsiyanın əsas istiqamətlərinə gəldikdə isə bunlardan biri iqtisadiyyatda innovasiyaların tətbiqinin təmin edilməsi üçün güclü motivasiya mexanizmlərinin yaradılması və inkişaf etdirilməsi zəruri hesab olunur. Müasir və perspektiv inkişaf meyllərini nəzərə alsaq, yeni qəbul olunan konsepsiyaya əsasən ölkənin uzunmüddətli inkişaf çağırışlarını özündə əks edtirir. Tədqiqatlar göstərir ki, yaxın on illikdə dünyada və ölkədə inkişaf meylləri iqtisadi sistemin yeni texnoloji bazasının formalaşmasına istiqamətlənəcəkdir.

Azərbaycan üçün elmi-texniki, tədqiqat potensialının və yüksək texnologiyalı istehsalın mövcudluğu aşağıdakı şərtlərin nəzərə alınmasını və müvafiq şəraitin yaradılmasını zəruriləşdirir:

- ilkin və həlli mümkün olan istiqamətlərdə texnoloji liderliyin təmin edilməsi; - yüksək texnologiyalı komplekslərin, sahələrin yaradılması, beynəlxalq bazarlara daha mütərəqqi elm tutumlu məhsulların çıxarılmasına nail olunması;
- Azərbaycanın yüksək texnologiyalı məhsul və intelektual xidmət bazarlarında iştirak mövqeyinin güclənməsi;
- ənənəvi iqtisadiyyat sahələrinin perspektiv inkişaf istiqamətləri əsas götürülməklə, daxili maliyyə mənbələri və inkişaf etməkdə olan qlobal, beynəlxalq bazarlara uyğunlaşan subyektlərin hesabına modernləşdirilməsi.

Eyni zamanda, son texnologiya nəslinin tətbiqindən və inkişafından geri qalan müəssisələr ümumilikdə ölkənin iqtisadi baxımdan rəqabət qabiliyyətini zəiflətməklə, idxaldan aslılığı yüksəltməklə, artmaqda olan geopalitik rəqabət mühitində mövqelərimizin itirilməsinə gətirib çıxara bilər.

Əmək potensialının siyasi və iqtisadi inkişaf amili kimi cox böyük rol oynayır. Müasir innovasiyalı iqtisadiyyatın rəqabət qabiliyyətinin inkişafı yüksək ixtisaslı və peşəkar kadr potensialının keyfiyyət, kooperativ əlaqə səviyyəsindən əhəmiyyətli şəkildə asılıdır. Müasir inkişaf şəraitində MDB ölkələrində olduğu kimi, Azərbaycan da beynəlxalq iqtisadi mühitdə, bazarlarda kadr və işçi qüvvəsinin keyfiyyət səviyyəsinə görə yüksək mövqe tuta bilmir. Buna daha çox həmin kadr və işçi poten sialının İxtisas səviyyəsinin və əmək qabiliyyə-tinin aşağı olması, ölkədə təhsil və səhiyyə



sisteminin müasir tələblərə cavab veməməsidir. Azərbaycan üçün bu məsələ, çağırış yaxın 3-5 ildə öz həllini tapmalı, bu sahədə olan çatışmazlıqlar aradan qaldırılmalıdır. Bu baxımdan aşağıdakı amillərin nəzərə alınması xüsusi zərurətdən irəli gəlir:

- ənənəvi iqtisadiyyat sahələrində fəaliyyət göstərən işçilərin sayının azaldılması, onların peşə-ixtisas səviyyəsinin artırılması vasitəsilə daha mütərəqqi sahələrdə işlə təmin olunmasına şərait yaradılması;
- yerli kadr və işçi potensialının daxili və xarici bazarlarda rəqabət qabiliyyətli sahələrdə fəliyyət göstərməsinə imkan yaradan zəruri tədbirlər sisteminin həyata keçirilməsi;
- idarəetmə, elm, təhsil və səhiyyə sisteminin işinin beynəlxalq tələblərə uyğun qurulması və bu sahələrdə davamlı inkişafın təmin edilməsi [3, s. 17].

Dövlət proqramının məqsədləri innovasiya inkişafı və ölkə iqtisadiyyatının innovasiya təşkilindən irəli gəlir.

Proqramın 2008-2020-ci illərdə həyata kecməsi ücün aşağıdakı məsələlərin həll edilməsi zəruridir:

- innovasiya inkişafının münasib texnoloji iqtisadi mühitinin formalaşması üçün ganunculuq bazasının yaradılması;
- intellektual mülkiyyətin mühafizəsi və idarə edilməsinin dövlət proqramının təkmilləşdirilməsi;
- 2008-2020-ci illər ücün elmin maddi-texniki bazasının inkişafının dövlət proqramının həyata kecirilməsi.

Bu istiqamətdə Naxçıvanda nə işlər görülür?

"2009-2013 Azərbaycan Respublikasının regionlarının ictimai cəhətdən iqtisadi inkişafı üzrə Dövlət proqramı"nın həyata keçirilməsi nəticəsində nəzərəçarpan nəticələr alınmışdır. Belə ki, Muxtar respublikada 2013-cü ildə 2 milyard 339 milyon manat ÜDM istehsal edilmişdir, və bu əvvəlki illə müqayisədə 10,3% artmışdır [6, s. 4]. "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əhatə etdiyi beş ildə ÜDM-un real həcmi 2,9 dəfə artaraq hər bir nəfərə düşən nominal həcmi 2,7 dəfə artaraq 5 min 432 manat təşkil etmişdir. Muxtar Respublikanın sənayesində 5,2 dəfə, kənd təsərrüfatında isə 2,2 dəfə artıma nail olunmuşdur.

Naxçıvan Muxtar Respublikası bu gün özünün yüksəliş dövrünü yaşayır. Bu yüksəlişin təməlində ötən 20 il ərzində həyata keçirilən tədbirlər müstəsna rol oynamış, iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması, mövcud müəssisələrin fəaliyyətə başlaması təmin edilmişdir ki, bu da, ümumilikdə, muxtar respublikada əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına təkan vermişdir. Qısa zaman ərzində əldə olunmuş uğurlar makroiqtisadi səviyyəni

xarakterizə edən göstəricilərin müəyyən hissəsini deyil, ümumilikdə hamısının pozitiv meyilli yüksəlişini təmin etmişdir. Muxtar respublikada cari ilin yanvar-iyul aylarında ümumi inkişafı əks etdirən ümumi daxili məhsul istehsalı 1995-ci illə müqayisədə 30 dəfə artaraq 1 milyard 294 milyon 428 min manat təşkil etmişdir. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı 22 dəfə artaraq 2936 manata çatmışdır. Bu dövr ərzində sənaye məhsulunun həcmi 62 dəfə, əsas kapitala yönəldilən investisiyalar 183 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 5 dəfə, nəqliyyat sektorunda yük daşınması 13 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 66 dəfə, ixracın həcmi 110 dəfə, bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 25 dəfə artmışdır.

Qeyd etmək lazımdır ki, 2012-ci ildə əhalinin sayı ötən ilə nisbətən 2,1% artmış, 2013-cü ildə 435 min nəfər təşkil etmişdir [6, s. 27].

2013-cü ildə sənaye məhsulunun həcmində 6,3%, kənd təsərrüfatı məhsulunda 6,9%, nəqliyyat sektorun yük daşınmalarında 9,5%, xarici ticarət dövriyəsində 13,5%, həmçinin ixracın həcmində 7,7% artım müşahidə olunmuşdur. Əhalinin gəlirləri 7%, bir işləyənə hesablanan orta aylıq əmək haqqı isə 4,9% artmışdır.

2013-cü ildə Naxçıvan iqtisadi regionunda 862,9 milyon manat məbləğində məhsul istehsal edilmiş və 2012-ci illə müqayisədə bu göstərici 6,3% artmışdır. Sənaye istehsalında 95,6% məhsulların payına, 4,4% isə xidmətlərin payına düşür. Vurğulamaq lazımdır ki, istehsalın 92,6% özəl sektorun payına düşür.

Tədqiqat ərzində, 2005-2012 illərdə muxtar respublikada qüvvədə olan müəssisələrin sayı 39, sənaye məhsulunun həcmi 58285 manat, işçilərin orta sayı 12264 nəfər, orta əmək haqqı isə 239,1 manat artmışdır. 2013-cü ildə muxtar respublikada 592 müxtəlif təyinatlı obyekt tikilmiş və istismara verilmişdi, onlardan 157 obyekt yenidən yaradılmış və əsaslı təmir edilmişdir.

Ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə 2008-ci ildə qəbul olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminata dair Dövlət Proqramı" əhalinin ehtiyaclarının təmin olunmasına yönəldilmiş kompleks tədbirlərindən biri sayıla bilər. Dövlət Proqramının icrası nəticəsində kənd təsərrüfatının məhsulu 2013-cü ildə 2008-ci illə müqayisədə 2,4 dəfə çoxalmış və 223 milyona çatmışdır. Heyvandarlıq sahəsində 114 mln.163min manat təşkil edən göstərici həmin dövr üçün 91,9% artımla təşəkkül tapmışdır.

Əmək potensialının əsasən kənd yaşayış məntəqələrində cəmləşməsi, əlverişli iqlim və torpaq şəraiti tarixən formalaşmış, məşğulluq ənənələrinin mövcudluğu muxtar respublikada əkinçiliyin üstün inkişafını təmin etmiş, əkin sahələrinin həcmi artırılmış, 2013-cü ilin məhsulu üçün muxtar



respublikada 60,127 min hektar sahədə əkin aparılmışdır. Bu istiqamətdə həmçinin "Azərbaycan Respublikasında Məşğulluq Strategiyası (2006-2015-ci illər)" Dövlət Proqramının uğurla həyata keçirilməsini də qeyd etmək lazımdır. Bu strategiya məşğulluq və əmək bazarı sahəsində həyata keçirilən siyasətin iqtisadi islahatlar çərçivəsində təkmilləşdirilməsini, yeni iş yerlərinin açılması üçün institusional mühitin yaradılmasının stimullaşdırılmasına istiqamətlənmiş prioritetlərin müəyyən edilməsini nəzərdə tutur. Bu istiqamətdə Naxçıvan iqtisadi rayonunda nəzərəçarpan nəticələr əldə olunmuşdur. Lakin buna baxmayaraq, regionda yaradılmış ictimai istehsal strukturu, demoqrafik vəziyyət, istehsal mədəniyyətinin səviyyəsi, kadrların hazırlıq dərəcəsi daha da yaxşılaşdırılmalıdır.

Hazırda ölkədə regional inkişafdakı qeyri-bərabərliyin artması, regionların inkişaf səviyyəsində böyük fərqlərin yaranması iqtisadiyyatın struktur cəhətdən yenidən qurulmasının təmin edilməsinin həllini, istehsal və resurs potensialından istifadənin səmərəliliyinin yüksəldilməsini, regionların sosial-iqtisadi inkişafının başlanğıc şərtlərinin bərabərləşdirilməsini vacib edir. Buna görə də kadrların hazırlanma keyfiyyətinə, müasir tələblərə uyğun olaraq onların ixtisaslarının yüksəldilməsinə yeni tələblər irəli sürülür, innovasiyaların insan kapitalına yönəldilməsi və bununla da bütövlükdə, region üzrə əmək potensialından səmərəli istifadənin təmin edilməsi vacib hesab olunur.

Qeyd etmək lazımdır ki, "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramı" icrası nəticəsində 2013-cü ildə meyvələrin istehsalı 3%, tərəvəz istehsalı isə 1% artmışdır.

Tədqiqatlar göstərdi ki, son 2 il ərzində kənd və balıqçı təsərrüfatlarında həm də Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının başqa sahələrində, müsbət dəyişikliklər müşahidə olunur. Muxtar Respublikada kənd təsərrüfatı və ərzaq məhsulunun 332-dən çox növü müxtəlif müəssisələr tərəfindən istehsal olunur. Bunların müsbət cəhəti odur ki, artıq muxtar respublikanın əhalisinin ehtiyacları 106-sı ərzaq və 226-sı qeyri-ərzaq malları olmaqla yerli istehsalın hesabına təmin olunur. Bu sahələrin məhsulları daxili bazarın nizamnaməsində xüsusi rola malikdir, qiymətlərin qalxmasına mane olur və əhalinin ehtiyaclarının tam təmin olunmasına şərait yaradır. Həmçinin, bu sahələrin inkişafı yeni iş yerlərini açmağa və Naxçıvan Muxtar Respublikasında məşğulluq səviyyəsini yüksəltməyə icazə verir. Vurğulamaq lazımdır ki, sənaye məhsulunun böyük hissəsi Naxçıvan sənaye qovşağında cəmlənmişdir. Sosial-iqtisadi inkişaf səviyyəsinə görə vaxtilə uzun müddət regionlar arasında yaranmış böyük fərqlər keçmişdən qalmış çox ağır miras olaraq təbii ki, aradan qaldırmaq üçün xeyli vaxt və məqsədyönlü fəaliyyət tələb edir. Bu

tədbirlərdən biri Naxçıvan Muxtar Respublikasının müxtəlif rayonlarında müvafiq infrastrukturun yaradılmasıdır. Naxçıvan iqtisadi regionunda münasib nəqliyyat infrastrukturunun yaradılması üzrə işlər aparılır. Avtomobil yollarının salınması, dəmiryol nəqliyyatının fasiləsiz işinin təmin olunması istiqamətində işlər aparılır.

Belə ki, 2009-2013-ci illər ərzində 880 km-dən çox magistral və yerli əhəmiyyətli yollar çəkilmiş və ya əsaslı təmir edilmiş, 44 körpü tikilmişdir. 2013-cü ildə, 2012-ci il ilə müqayisədə Muxtar Respublikada yük daşınmaları 9,5%, sərnişindaşınmalar isə 8,9% artmışdır. Yük və sərnişin daşınmalarından alınan gəlir cəmdə 46 mln. 578 min manat təşkil etmişdi ki, bu da 2012-ci ilə nisbətən 8,5% artmışdır.

Muxtar Respublikada son illər ərzində iqtisadi sistemin inkişafına və regionun dinamik inkişafının təminatına yönəlmiş məqsədyönlü işlər sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradır. 2013-cü ildə sahibkarlığa yardım göstərmək üçün, muxtar respublikada biznes mərkəzi yaradılmışdır və müntəzəm olaraq biznes-forumlar, konfranslar keçirilməsi üçün şərait yaradılmışdır. Hal-hazırda bütövlükdə respublika üzrə 24 hüquqi və 1162 fiziki şəxs öz fəaliyyətini inkişaf etdirir.

Qeyd etmək lazımdır ki, iqtisadi islahatların keçirilməsinin nəticəsində muxtar respublikanın əhalisinin maddi rifahı yaxşılaşmış, onun alıcılıq qabiliyyəti yüksəlmişdir. 2013-cü ildə Muxtar Respublikanın istehlak bazarında 289 milyon manatlıq məhsullar realizə olmuş və xidmətlər göstərilmiş və bu 2012 illə müqayisədə 12,7% daha çoxdur. Xidmətlərin göstərilməsinin keyfiyyətini artırılmaq üçün Şahbuz, Şərur, Ordubad və Babək rayonlarında əhaliyə xidmətlərin göstərilməsi məqsədi ilə mərkəzlər tikilmişdir.

Beləliklə, Naxçıvan regionun sosial-iqtisadi inkişafında müşahidə olunan müvəffəqiyyətlər demoqrafik vəziyyətin yaxşılaşmasına və əhalinin maddi rifahının artırılmasına imkan yaratmışdır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edir və onun həyata keçirilməsi məqsədli dövlət proqramları vasitəsi ilə gerçəkləşdiriləcəkdir. Əldə olunmuş sosial-iqtisadi inkişaf səviyyəsini qorumaq və daha da möhkəmləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir.



## ƏDƏBİYYAT


1. Azərbaycan alimlərinin I Qurultayının materialları, Bakı: Elm, 2015, 152 s.
2. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, 312 s.
3. Alıyev İ.H., Məmmədov Y.Ə. "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasının nəzəri-metodoloji əsasları". Bakı: AVR0PA, 2012. 90 s.
4. Cabbarova S.A. Regionun sosial-iqtisadi inkişafının əmək ehtiyatların formalaşmasına təsiri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2014, № 3, s. 259-263.
5. Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı: Elm, 2001, 450 s.
6. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2014, s. 94.

**Mehriban İmanova**
Naxçıvan Dövlət Universiteti, dosent
E-mail: marketing05@mail.ru

## NAXÇIVAN SƏNAYESİ MÜSTƏQİLLİK İLLƏRİNDƏ: İQTİSADİ İSLAHATLAR, NƏTİCƏLƏR VƏ PERSPEKTİV HƏDƏFLƏR

Qədim Azərbaycan torpağı olan Naxçıvan bu gün dinamik inkişaf edən diyardır. Blokada şəraitinin yaratdığı çətinliklərə, iqtisadi resurslara çıxış imkanlarının məhdudluğuna baxmayaraq, Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi modernləşməyə əsaslanmaqla yüksək templə və yaradıcılıqla həyata keçirilən irimiqyaslı islahatlar bütün sahələrdə öz səmərəli nəticələrini göstərməkdədir. Ümumilikdə, son 20 ildə iqtisadi inkişafın və intensiv sosial islahatların aydın xarakteristikası deməyə əsas verir ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi alternativsiz inkişaf yolu muxtar respublikada böyük əzmlə davam etdirilmiş, həyata keçirilən məqsədyönlü siyasət sayəsində Naxçıvan Muxtar Respublikası davamlı sosial-iqtisadi yüksəliş və ictimai həyatdakı nailiyyətlər fonunda yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur. Ötən 20 il muxtar respublika iqtisadiyyatı üçün uğurlu olmuş, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılmasında, infrastrukturun təkmilləşdirilməsində, xarici iqtisadi əlaqələrin genişlənməsində və əhalinin rifahının yüksəlməsində mühüm nailiyyətlər əldə edilmişdir. Makroiqtisadi sabitlik və davamlı inkişaf fonunda bu müddət ərzində əsas iqtisadi göstəricilər üzrə sürətli inkişaf meyilləri xarakterik hal almışdır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası 1995- 2015-ci illər Naxçıvanın inkişaf tarixinə qızıl hərflərlə yazılmış ən qiymətli dövr olmuşdur. Məhz bu illərdə ulu öndər Heydər Əliyevin layiqli davamçısı Vasif Talıbovun rəhbərliyi ilə işıqlı gələcəyə istiqamətlənmiş Naxçıvan iqtisadiyyatının bütün sahələri üzrə prioritetlər və inkişaf strategiyası müəyyənləşdirilmiş, onun rəhbərliyə gəlişi ilə ölkənin bütün sahələrində uğurlu irəliləyişlərə imza atılmışdır. Muxtar respublikada aparılan genişmiqyaslı islahatların nəticəsi olaraq, Naxçıvan Azərbaycan məkanında iqtisadi inkişaf dinamikasına görə birincilər arasında sıralanmışdır. Muxtar Respublikamız ötən 20 ildə məhz prioritet dəyərlərə əsaslanmaqla dinamik inkişaf yolunu keçmiş, ictimai həyatın bütün sahələrində yüksək tərəqqi və intibaha nail olmuşdur. 1995-ci ildən başlayaraq muxtar respublika iqtisadiyyatının əsas sahələrinin, o cümlədən sənayenin, tikintinin, kənd təsərrüfatının, nəqliyyat və rabitənin inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət məhsul istehsalının və



göstərilmiş xidmətlərin həcminin artımında, əhalinin həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdı.

1995-ci il sentyabrın 29-da "1995-1998-ci illərdə Azərbaycan Respublikasında Dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nın qəbul edilməsi Azərbaycanda aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri olmaqla muxtar respublika iqtisadiyyatına öz müsbət təsirini göstərmişdir. 1995-2001-ci illərdə aparılmış məqsədəyönlü tədbirlər nəticəsində muxtar respublika iqtisadiyyatında yaranmış durğunluq tamamilə aradan qaldırılmış, 2001-ci ildə sənayenin ümumi məhsulunun həcmi 1995-ci illə müqayisədə 1,7 dəfə artmışdır. Muxtar respublikanın blokada şəraitində olmasına, xammalın və materialın daşınması sahəsində çətinliklərə baxmayaraq, Alt Trikotaj, Tikiş və Mebel fabriklərinin, emal müəssisələrinin, elektrotexnika zavodunun fəaliyyəti bərpa edilmiş, Badamlı-Vayxır-Naxçıvan mineral su kəmərinin çəkilməsi ilə mineral su istehsalı artmışdır. Şüşə qablar zavodunda energetika sənayesi üçün keramik izolyatorların, dəmirbeton zavodunda beton elektrik dirəklərin, yol kənarına döşəmək üçün beton plitələrin və digər məmulatların istehsalına başlanılmışdır. 1999-cu ildə Ordubad rayonunun Parağaçay və Ağdərə mədən yataqlarının kəşfiyyat və istismarı üzrə Böyük Britaniya şirkətləri ilə bağlanmış müqavilə Naxçıvan MR-də mədən sənayesinin bərpasına təkan vermiş, tikinti materialları, dəmir-beton, kərpic, travertin, mərmər istehsalına başlanmışdır [2, s. 13]. Sonrakı illərdə muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə məqsədli proqramlar hazırlanmışdır.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanının icrasını təmin etmək üçün 09 iyun 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" təsdiq olunmuş və icrası uğurla reallaşdırılmışdır [7]. Proqramın əsas məqsədi Naxçıvan Muxtar Respublikasında yerli təbii sərvətlərdən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaqdan ibarət olmuşdur.

Ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi islahatların davamı olaraq muxtar respublikamızda da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının

2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası nəticəsində ciddi iqtisadi uğurlara nail olunmuş, sürətli inkişaf üçün zəngin potensial formalaşmış, muxtar respublika iqtisadiyyatında həyata keçirilən tarazlaşdırılmış iqtisadi siyasət öz bəhrəsini vermişdir. Qəbul olunmuş iki böyük Dövlət Proqramının həyata keçirilməsi nəticəsində Naxçıvan Muxtar Respublikası da əsaslı inkişaf yolu keçmiş, 2003-2013-cü illər ərzində muxtar respublikada ümumi daxili məhsulun həcmi 13,9 dəfə, adambaşına ümumi daxili məhsul 12 dəfə, sənaye məhsulları istehsalı 49 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 4,7 dəfə, əsas kapitala investisiya qoyuluşu 16,4 dəfə, xarici ticarət dövriyyəsi 13,9 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 12,9 dəfə artmışdır [6]. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası muxtar respublikada sənaye sektorunun davamlı inkişafına, infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Qəbul olunmuş iki böyük Dövlət Proqramının reallaşdırılmasının sənayenin inkişafına təsiri aşağıdakı qarfikdə təsvir olunmuşdur.

Muxtar respublikada gedən sənayeləşmə prosesi məşğulluq probleminin həllinə kömək etmiş, əhalinin sənaye məhsullarına olan tələbatı ödənilmiş, regionlararası və regiondaxili iqtisadi əlaqələr, o cümlədən xarici




Mənbə: Naxçıvan MR DSK



iqtisadi əlaqələr təkmilləşmiş və son nəticədə əhalinin həyat səviyyəsi yüksəldilmişdir. Blokada şəraitinin məlum çətinliklərinə baxmayaraq muxtar respublikanın yerli imkanlar hesabına sənaye potensialının artırılması müxtəlif tədbirlərin həyata keçirilməsi nəticəsində mümkün olmuş, sənaye məhsulu istehsalı üçün köhnə infrastruktur yenilənmiş, əsas magistral yolların əsaslı şəkildə yenidən qurulmuş, biznes mühiti yaxşılaşdırılmışdır. Görülən məqsədyönlü tədbirlər nəticəsində, 2015-ci ildə sənaye ÜDM tərkibində 29%-lik payla ilk yerə sahib olmuş və sənaye məhsulunun həcmi ötən illə müqayisədə 2% artaraq 917 milyon manata yaxın olmuş, istehsal olunan məhsulun 96%-i özəl sektorun payına düşmüşdür [4]

Bu gün sənaye istehsalının artım tempi ilə Ümumi Daxili Məhsulun dinamikası təqribən eyni səviyyədə inkişaf etməsi, sənaye sahəsinin muxtar respublika iqtisadiyyatında lokomativ rol oynadığını bir daha sübut edir. 1995-2014-cü illər ərzində Naxçıvanda sənaye sektoru üzrə əsas göstəricilər inkişafın faizlə deyil, dəfələrlə ölçüldüyünü aydın göstərir:

**Sənaye sahəsi üzrə əsas göstəricilər**

| Müqayisə predmeti | 2014-cü il üzrə | 1995-ci il üzrə | Artma |
|---|---|---|---|
| Sənaye məhsulunun ümumi həcmi, min manat | 891486,4 | 9133,4 | 98 dəfə |
| Sənaye sahəsində işləyənlərin orta sayı, nəfər | 15 549 | 2020 | 7,7 dəfə |
| Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq əmək haqqı, manat | 356,3 | 10,1 | 35,3 dəfə |
| Sənaye müəssisələrinin balansında olan əsas vəsaitlər, min manat | 861440,0 | 6637,2 | 129,8 dəfə |
| Sənaye müəssisələrinin sayı | 439 | 56 | 8 dəfə |

Mənbə: 1 və Naxçıvan MR DSK-nın məlumatları əsasında hazırlanmışdır.

Hazırda Naxçıvan Muxtar Respublikası sənayenin ümumi məhsulunun tərkibində qeyri-dövlət sektorunun xüsusi çəkisinə, sənaye məhsulu istehsalının artım tempinə görə, və hazır məhsul qalığının minimum həddə olmasına görə Azərbaycan Respublikasının 10 iqtisadi rayonu arasında ilk yerdədir [3, s. 54].

Regionlar üzrə sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi 2014-cü ildə Bakı şəhəri (qəsəbələrində) üzrə 79,9 faiz, Abşeron iqtisadi rayonu üzrə 40, 4, Gəncə-Qazax iqtisadi rayonu üzrə 54,2, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 67,5, Lənkəran iqtisadi rayonu üzrə 58,7,

Quba-Xaçmaz iqtisadi rayonu üzrə 33,9, Aran iqtisadi rayonu üzrə 55,5, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 11,3, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 51,2, Naxçıvan iqtisadi rayonu üzrə isə 92,6 faiz olmuşdur [8]. Bu da muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün əlverişli iqtisadi mühitin formalaşmasının əsas göstəricisi olmaqla, sahibkarlığın dövlət tərəfindən himayə edilməsi, yeni müəssisələrin işə düşməsi, fəaliyyətdə olanların isə genişlənməsinə imkan verən vergi, gömrük, kredit dərəcələrinin müəyyən edilməsi, maliyyə dəstəyinin göstərilməsi, müəssisələrin xarici iqtisadi əlaqələrinin və sahibkarlıq infrastrukturunun genişləndirilməsi ilə əlaqədardır.

**Regionlar üzrə sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, faktiki qiymətlərlə, min manat**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bakı şəhəri (qəsəbələrlə)* | 7725 | 13586 | 20327 | 27368 | 20402 | 25251 | 31783 | 30877 | 30225 | 28179 |
| Abşeron iqtisadi rayonu* | 224.7 | 303.8 | 344.7 | 424.4 | 251.6 | 298.6 | 475.9 | 512.8 | 501 | 543.8 |
| Gəncə-Qazax iqtisadi rayonu* | 169.5 | 231.1 | 189.8 | 221.8 | 151.4 | 269.8 | 263.6 | 332.8 | 304.8 | 329.3 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 21006 | 40600 | 41571 | 55522 | 48117 | 60166 | 75686 | 75735 | 74835 | 87246 |
| Lənkəran iqtisadi rayonu | 18170 | 23513 | 34763 | 40983 | 42616 | 49510 | 65920 | 65844 | 65170 | 70995 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 37705 | 39371 | 64872 | 80085 | 60744 | 64006 | 89284 | 77136 | 81720 | 77683 |
| Aran iqtisadi rayonu* | 373,5 | 540,1 | 658,7 | 771,5 | 581,3 | 629,3 | 791,1 | 821,5 | 858,9 | 958,9 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 3728 | 3594 | 8803 | 9094 | 9605 | 10249 | 11640 | 14529 | 18112 | 23913 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 5972 | 12142 | 14120 | 11952 | 10840 | 10265 | 9733 | 13234 | 15039 | 18672 |
| Naxçıvan iqtisadi rayonu* | 41,2 | 70,4 | 122,7 | 164,5 | 212,5 | 318,6 | 680,9 | 799,5 | 862,9 | 891,5 |

*) milyon manat

Mənbə: AR DSK

Cədvəldən də aydın görünr ki, Naxçıvan Muxtar Respublikası blokada şəraitində olmasına baxmayarq, sənaye məhsulunun həcminə görə iqtisadi regionlar arasında Bakı şəhərindən sonra ikinci yerdə durur. Sənaye məhsulunun həcminə görə iqtisadi rayonlar arasında öncül yerlərdən birini tutan Naxçıvanın sürətlə inkişaf edən sənaye sektoru artıq milli iqtisadiyyatımızın yüksək gəlir gətirən perspektivli sahəsinə çevrilmişdir. Naxçıvanda sənayenin bu cür yüksək surətlə inkşaf etməsinə muxtar respublikanın malik olduğu zəngin təbii ehtiyatlar və dövlətin həyata



keçirtdiyi iqtisadi siyasət geniş baza yaratmışdır. Dövlətin iqtisadi siyasətinin əsas istiqamətləri isə yeni sənaye sahələrinin yaradılması ilə keyfiyyətli məhsul istehsal etmək, müasir texnologiyalardan istifadə və məhsul çeşidlərini yeniləməklə onun rəqabətqabiliyyətini artırmaq, həm daxili bazara, həm də xarici bazara inteqrasiyanı təşkil etməkdən ibarət olmuşdur. Aparılan iqtisadi siyasətin davam etdirilməsi və sənayenin modernləşməsi istiqamətində islahatların həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Əsasnamə" təsdiq olunmuşdur [7]. Təsdiq edilmiş Əsasnamə sənaye parkının yaradılması üçün qanunvericilik bazası olaraq, onun idarə edilməsi və bu ərazidə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyərək muxtar respublikada sənayeləşmənin yeni mərhələsinin başlanğıcını qoymuşdur. Sənaye parkının yaradılması özəl sektorun inkişafına daha böyük dövlət dəstəyi olmaqla burada əlverişli infrastrukturun təşkil edilməsi, cəlbedici güzəştlər mexanizmi, müvafiq prosedurların maksimal sadələşdirilməsi, elektron xidmətlərin təqdim edilməsi, idarəedici təşkilat tərəfindən təqdim olunan xidmətlər, layihənin maliyyələşmə imkanları daxili və xarici investisiyaların cəlb edilməsi üçün şərait yaradacaqdır. Sənaye parkının ərazisində ən müasir tələblərə cavab verən infrastruk- yol-nəqliyyat, sosial, mədəni ictimai iaşə, inzibati, mühəndis-kommunikasiya təminatı və sənaye parkının fəaliyyət göstərməsini təmin edən obyektlər kompleksi yaradılaraq sahibkarların istifadəsinə veriləcək. Təsdiq edilmiş Əsasnaməyə görə parkda inhisarçılığa yol verilməməsi və sağlam rəqabət üçün şəraitin yaradılması ilə keyfiyyətli məhsul istehsalına nail olunacaq.

Yeni beşillik proqram növbəti illərdə də sənaye sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olunmasına yönəlmişdir. Bu proqram təkcə yeni sənaye müəssisələrinin yaradılmasını deyil, həm də onların beynəlxalq standartlar və müasir texnologiyalar əsasında qurulmasını tələb edir. Dağmədən sənaye müəssisələrinin fəaliyyətinin bərpası, texnoparkların, sənaye komplekslərinin, sənaye şəhərciklərinin və tibb sənayesinin yaradılması kimi əhəmiyyətli tədbirlərin həyata keçirilməsi də proqramda öz əksini tapmışdır.

Bütün deyilənlər bir daha göstərir ki, gün Naxçıvan Muxtar Respublikasında Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli intibah siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstəyi ilə Ali Məclisin Sədri Vasif Talıbov tərəfindən ardıcıllıqla həyata keçirilməkdədir və bu iqtiadi inkişaf gələcək illərdə də davam edəcəkdir.

## ƏDƏBİYYAT

1. Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan, "Əcəmi" NPB, 2010, 278 s.
2. Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Baki: Qismət, 2002, 168 s.
3. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf, Bakı: Sabah, 2008, 452 s.
4. http://http://statistika.nmr.az/source/industry/index.
5. http://www.nakhchivan.az/portal-1/sanaye.htm
6. http://nakhchivan.preslib.az/az_e2.html
7. http://e-merkez.alimeclis.az/Az/PDFQezet.aspx?id=19
8. http://www.stat.gov.az/source/industry/



**Həsən Məmmədov**
Naxçıvan Dövlət Universiteti, dosent
E-mail: hesenmemmedov@hotmail.com

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DAVAMLI İNKİŞAFINA İNFRASTRUKTUR SİYASƏTİNİN TƏSİRİ (1995-2015-ci illər)

Cəmiyyətdə yüksələn tələbatlarla məhdud resurslardan istifadə arasındakı ziddiyyətlərin artması hesabına, gələcəkdə insanların yaşamının ciddi təhlükə altına alınması ehtimalı ötən əsrin sonundan etibarən daha aydın hiss olunmağa başlamışdır. Dünya ölkələrinin iqtisadçı alimləri bu, qlobal iqtisadi problemin həlli istiqamətində tədqiqatlar apararaq, belə qənaətə gəlmişlər ki, ayrı-ayrı ölkələrdə davamlı inkişafın təmin olunması bu istiqamətdə atılan mühüm addım ola bilər. Ona görə də XX əsrdə dünya alimlərinin diqqətini cəlb edən əsas məsələlərdən biri, məhz, iqtisadiyyatın davamlı inkişaf problemini araşdırmaq və bu sahədə tədqiqatları genişləndirmək olmuşdur [3, s. 90].

Davamlı inkişaf strategiyasının məqsədi bəşəriyyətin əmin-amanlıq şəraitində, uzun müddətli dövr ərzində var olmasını təmin etməkdən ibarətdir. Bunun üçün insanların tələbatının elə şəkildə təmin olunması nəzərdə tutulur ki, təbii sərvətlərdən səmərəli istifadə edilərək, əlavə xammal və enerji mənbələrinin dövriyyəyə cəlb edilməsi hesabına gələcək nəsillərin ehtiyac və tələbatlarının ödənilməsi məhdudlaşdırılmasın.

Davamlı inkişaf bütün sosial-iqtisadi sahələrin inkişafına və ətraf mühitin qorunmasına nail olmaq, təbii resursları talan etmədən, ictimai tərəqqini fasiləsiz bu resurslarla təmin edən inkişaf strategiyasıdır.

Naxçıvan Muxtar Respublikasının davamlı sosial-iqtisadi inkişafı, məhz ötən 20 il ərzində bu inkişaf strategiyasının müxtəlif illərdə ayrı-ayrı təsərrüfat sahələrinə tətbiqi nəticəsində təmin olunmuşdur. Ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi, iqtisadi islahatların vaxtında aparılması, qəbul edilən dövlət proqramlarının icrası, inamla deyə bilərik ki, Naxçıvanda davamlı inkişafın əsasını qoymuşdur [2].

Müdrikcəsinə müəyyənləşdirilmiş bu inkişaf strategiyasının nəticələri ötən 20 ilə nəzər saldıqda muxtar respublikanın iqtisadi həyatında aydın hiss olunmaqdadır. Bu müddət ərzində muxtar respublikanın şəhər və kəndlərinin siması əsaslı surətdə dəyişmiş, onlar arasında fərqlər azalmış, kənd yaşayış məntəqələrində həyat səviyyəsi xeyli yüksələrək, şəhərə yaxınlaşmışdır. Bu gün muxtar respublikanın hər bir sakini gündəlik həyatında sosial-iqtisadi dəyişiklikləri hiss etməkdədir.

Naxçıvan Muxtar Respublikası 1995-ci ilin dekabr ayından etibarən illərdən bəri yığılıb qalmış sosial-iqtisadi problemlərin aradan qaldırılmasında keyfiyyətcə yeni mərhələyə-dayanıqlı sosial-iqtisadi inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması, makroiqtisadi sabitliyin bərqərar olunması, nəticədə muxtar respublika əhalisinin maddi və mənəvi rifah halının, eləcə də həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması istiqamətində dövlət əhəmiyyətli tədbirlərin həyata keçirilməsi həlli vacib məsələlərdən birinə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikasında istehsal, sosial, bazar və ekoloji infrastrukturun yaradılması və yenilənməsi, müasir tipli avadanlıqlarla təchiz edilmiş yeni müəssisələrin qurulması, əlavə iş yerlərinin təşkili istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi siyasəti davamlı inkişaf konsepsiyasının reallaşdırılması mexanizminin əsasını təşkil etmişdir.

Muxtar respublikada aparılan məqsədyönlü infrastruktur siyasəti və ərzaq təhlükəsizliyi proqramının qəbul edilməsi nəticəsində sənaye və kənd təsərrüfatı sahəsində davamlı inkişafın yaranmasına səbəb olmuşdur. Bu illər ərzində muxtar respublikada çoxlu sayda iri sənaye müəssisələri, xeyli quşçuluq, heyvandarlıq və balıqçılıq kompleksləri yaradılmış, taxılçılıq və üzümçülük təsərrüfatları genişləndirilmiş, kənd təsərrüfatı məhsullarının istehsalının həcmi artırılmışdır. Muxtar respublikanın ayrı-ayrı bölgələrində istixana kompleksləri, soyuducu anbar təsərrüfatları yaradılmış, istehsal olunan məhsulların tədarükü, saxlanması, emalı və satışı sahəsində xeyli işlər görülmüşdür. Aparılmış məqsədyönlü tədbirlər nəticəsində bir sıra ərzaq məhsulları üzrə daxili istehsalın davamlı inkişafı xeyli yaxşılaşmışdır. Hazırda muxtar respublikanın ayrı-ayrı bölgələri üzrə əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək, sahibkarlığın inkişafını sürətləndirmək, əhalinin məşğulluğunu artırmaq və yoxsulluq səviyyəsini minumuma endirməklə iqtisadiyyatın davamlı inkişafına nail olmaq Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf strategiyasının başlıca prioritet istiqaməti hesab edilir [3].

Bu istiqamətdə həyata keçirilən hər bir məqsədyönlü tədbir regionların iqtisadi inkişafında mövcud fərqlərin aradan qaldırılmasını və regional tarazlığın əldə olunmasını təmin etməklə, bölgələrdə iqtisadi potensialı artırır və sosial-iqtisadi problemlərin həllini sürətləndirir.

Son zamanlar hökumət tərəfindən muxtar respublikanın regionlarında tarazlı sosial-iqtisadi inkişafı sürətləndirmək üçün bir neçə dövlət proqramları və qərarlar qəbul edilmişdir. Həmin sənədlərdə mövcud resurs potensialından, əlverişli təbii iqlim şəraitindən və inkişafa təsir göstərə bilən kompleks amillər dəstindən səmərəli istifadə etməklə aqrar bölmədə istehsalı artırmaq, həmçinin çoxəsirlik ənənəyə malik emal sənayesinin,



xidmət və digər infrastruktur sahələrinin, eləcə də ölkədə əlverişli imkanlara malik turizm sektorunun inkişaf etdirilməsi nəzərdə tutulur.

Muxtar respublikada 20 il müddətində sənayenin infrastruktur təminatı xeyli yaxşılaşdırılmış, dağıdılmış sənaye sahələri yenidən qurulmuş, rəqabətqabiliyyətli müasir istehsal sahələri yaradılmış və inkişaf etdirilmişdir. Bu müddət ərzində muxtar respublika ərazisində su-kanalizasiya sistemləri yenidən qurulmuş, fasiləsiz enerji-yanacaq təminatı qaydaya salınmış, yol infrastrukturu tamamilə bərpa olunmuşdur. Bununla yanaşı sahibkarlığın inkişafına göstərilən qayğı və dəstək, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi investisiya fəallığının güclənməsinə gətirib çıxarmış, nəticədə muxtar respublikada sənayenin inkişafı üçün stimul yaradılmışdır.

Aparılmış tədqiqatlar bunu deməyə əsas verir ki, bu illər ərzində sənaye sahəsində də uğurlu layihələrin icrası müvəfəqiyyətlə davam etdirilmişdir. Nəticədə Naxçıvanda yaradılan ümumi daxili məhsul 20 il ərzində davamlı olaraq, hər il ötən ilə nisbətən dinamik olaraq artmışdır.

Cədvəldən göründüyü kimi 1995-ci ildən etibarən ötən 20 il ərzində muxtar respublikada ÜDM-in həcmi hər il dinamik surətdə artmış, uyğun olaraq adambaşına düşən ÜDM-in həcmi də yüksəlmişdir. Belə ki, əgər 1995-ci ildə ÜDM 43722,00 min. manat olmuşdursa, muxtar respublikada aparılan məqsədyönlü iqtisadi siyasət nəticəsin də 2015-ci ilin təkcə 10 ayı üzrə ÜDM-in həcmi 44 dəfə artaraq, 1924326,00 min. manat olmuşdur. Bir nəfərə düşən ÜDM isə həmin dövrlərin müqayisəsi nəzərə alınarsa 33 dəfə artaraq, 4357,00 man təşkil etmişdir ki, bunu da əhalinin maddi və mədəni rifah halının xeyli yaxşılaşmasının göstəricisi kimi qiymətləndirmək olar.

**Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məhsulun artım dinamikası (1995-2015-ci illər)**

| İllər | Ümumi Daxili Məhsulun həcmi (min manat.) | Bir nəfərə düşən ÜDM (manat) |
|---|---|---|
| 1995 | 43722,00 | 132,00 |
| 2000 | 84862,00 | 236,00 |
| 2005 | 305797,00 | 807,00 |
| 2010 | 1171306,00 | 2883,00 |
| 2015 (10 aylıq) | 1924326,00 | 4357,00 |

www.statistika.nmr.az

Qeyd etmək lazımdır ki, son 20 ildə muxtar respublikanın inkişaf prioritetləri nəzərə alınmaqla, dövlətin infrastruktur və investisiya siyasəti

ilə biznesin investisiya strategiyaları düzgün əlaqələndirildiyindən iqtisadi və sosial həyatda davamlı və dinamik inkişaf prosesləri, istehsal və xidmət sahələrində qazanılan uğurlarla birlikdə müsbət nəticələrin yaranmasına təkan vermişdir.

Muxtar respublikamızın mərkəzində olduğu kimi, rayonlarımızda, hətta ən ucqar kəndlərimizdə belə, nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaratmışdır. Muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əmək məşğulluğunun artırılmasına və ümumilikdə muxtar respublika iqtisadiyyatının, dinamik inkişafına nail olunmuşdur.

Prinsip etibarı ilə ölkə regionlarının davamlı, sürətli inkişafının reallaşması təkcə iqtisadi deyil, həm də mənəvi məsələdir. Başqa sözlə, burada insan amili öz həlledici təsirini göstərir, insanların sosial-iqtisadi fəallığı və təşəbbüskarlığı mühüm rol oynayır. Buna görə də bölgələrdə yeni iş yerlərinin açılması, onlarca müasir, abad təhsil müəssisələrinin, məktəblərin inşa edilməsi, elm, təhsil sahəsində həyata keçirilən islahatlar hər bir vətəndaşın sosial rifahının təmininə yönəlmişdir.

Naxçıvan Muxtar Respublikası regionlarının tarazlı sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən bu kimi tədbirlər nəticəsində yaradılan yeni iş yerləri hesabına məşğulluğun səviyyəsi yüksəlmiş, iqtisadi fəal əhalinin say tərkibi artmışdır. Regionlarda əhalinin maddi rifahı və güzəranı əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşmışdır. Bu isə onu göstərir ki, son illərdə muxtar respublika iqtisadiyyatının hərtərəfli və şaxələnmiş şəkildə inkişafı öz bəhrəsini verməkdədir.

Davamlı və dayanıqlı sosial-iqtisadi inkişaf strategiyası Naxçıvan Muxtar Respublikasında uzun müddət prioritet olaraq qalacaqdır.

Araşdırmalar göstərir ki, regionların sosial-iqtisadi inkişafı üzrə mərhələli Dövlət Proqramlarının müvəffəqiyyətlə həyata keçirilməsi və burada infrastruktur siyasətinin önə çəkilməsi davamlı sosial-iqtisadi inkişaf üçün zəmin yaratmış, muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan verərək, əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.



## ƏDƏBİYYAT


1. **"HEYDƏR ƏLİYEV** yolu-Azərbaycan inkişafın yeni mərhələsində" **"Azərbaycan" nəşriyyatı, 2007, 862 s.**
2. **"HEYDƏR ƏLİYEV** irsi Azərbaycanın davamlı inkişaf strategiyası" **"Azərbaycan" nəşriyyatı, 2006,783 s.**
3. Alıyev İ.H., Hüseynov S.Y., Əsədov A.M. Milli iqtisadiyyat: Modernləşmə və davamlı inkişaf. Bakı: "Avropa" nəşriyyatı, 2012, 475 s.
4. Alıyev İ.H.. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafını təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı: "ELM", 2007, 400 s.
5. www.statistika.nmr.az

**Asəf Qəribov**
**Naxçıvan Dövlət Universiteti, dosent**
**E-mail: asafqaribov@yahoo.com**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAFI, TƏHLÜKƏSİZLİYİ VƏ İXTİSASLAŞMA İSTİQAMƏTLƏRİ

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xarici iqtisadi siyasətini sərbəst müəyyən etməyə və beynəlxalq iqtisadi münasibətlərdə müstəqil subyekt kimi məqsəd və maraqlarını formalaşdırmağa başlamışdır. Ölkəmizin Asiya və Avropanın kəsişməsində çox əlverişli coğrafi mövqedə yerləşməsi bu siyasətin uğurla həyata keçirilməsinə müsbət təsirini göstərmişdir. Milli iqtisadiyatımızın beynəlxalq əməkdaşlıqda mövqeyinin möhkəmlənməsi və rəqabətqabiliyyətliliyiinin daha da artırılması zərurəti ölkəmizdə müxtəlif mülkiyyət formalarının inkişafı, iqtisadiyyatın yüksək maddi-texniki bazaya malik olması, ixtisaslaşma və kooperasiyasının geniş vüsət almasına şərait yaratmışdır.

Beynəlxalq təcrübə göstərir ki, xarici iqtisadi əlaqələrin inkişafı dünya ölkələrinin milli iqtisadiyyatlarının beynəlxalq təsərrüfat miqyasında inteqrasiyasının genişlənməsi və sürətləndirilməsinin əsas şərtidir. Bu yolla ölkələr iqtisadi inteqrasiya axınlarına qoşularaq istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin ümumi rifah səviyyəsini artırmağa çalışırlar. Dünya ölkələrindən heç biri öz inkişafını xarici ölkələrdən təcrid olunmuş şəkildə təmin edə bilmədiyinə görə öz aralarında beynəlxalq və regional səviyyədə iqtisadi əlaqələr yaratmağa çalışaraq beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum istifadə etməyə, xarici iqtisadi əlaqələrin bütün formalarını intensiv şəkildə reallaşdırmağa üstünlük verirlər.

Xarici iqtisadi əlaqələrin həyata keçirilməsi dövlətlər arasında əməkdaşlığın sadə əmtəə mübadiləsindən texniki iqtisadi məsələlərin birgə həlli, elmi və istehsal kooperasiyasının inkişafı, birgə müəssisələrin yaradılması və digər müştərək təsərrüfat fəaliyyətlərinin həyata keçirilməsi kimi geniş spektrə malik istiqamətlərə yönəldilməsinə imkan yaradır. İqtisadi inteqrasiya və qloballaşmanın güclənməsi şəraitində ölkələrarası xarici iqtisadi əlaqələr, o cümlədən xarici ticarət əlaqələri inkişaf edir və müasir xarakter alır. Lakin hər bir ölkə dünya iqtisadiyyatında baş verən qloballaşma prosesindən yararlanmaqla yalnız öz iqtisadiyyatını xarici iqtisadi təsirlərdən qorunmağa çalışır. Başqa sözlə, xarici iqtisadi əlaqələrin optimallaşdırılması və ondan maksimum səmərə əldə edilməsi dövlətin əsas hədəflərindən birinə çevrilir.



Bu mənada beynəlxalq iqtisadi münasibətlərin subyekti kimi Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisi bütövlükdə ölkədaxili iqtisadi rayonlardan biri kimi qeyd olunur və özünün çoxsahəli strukturu ilə fərqlənir. Belə ki, muxtar respublikanın Azərbaycan Respublikasının əsas ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar burada yerli tələbatı müvafiq istehsal sahələrini inkişaf etdirmək hesabına təmin etmək zərurəti yaranmışdır. Naxçıvan Muxtar Respublikası son illərin makroiqtisadi göstəricilərinin yekun nəticələrinə görə inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır.

Son illərdə həyata keçirilən iqtisadi və sosial təmayüllü islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olmuşdur. Geniş ictimai rəydə "Naxçıvan möcüzəsi" adlandırılan iqtisadi inkişafın Naxçıvan modeli haqqında Ali Məclisinin sədri Vasif Talıbov belə xarakteristika verib: "Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar" [2, s. 59].

Müqayisələr və nəticələr, ötən 20 il (1995-2015-ci illər) ərzində əldə olunmuş uğurlar və nailiyyətlər dəqiq düşünülmüş icra intizamının və Heydər Əliyev yoluna sədaqətin nəyə qadir olduğunun daha bir göstəricisinə çevrilmiş, muxtar respublikamızda iqtisadi və sosial sahədə makroiqtisadi göstəricilər hər il yüksələn xətlə davam etmişdir. Bütün makroiqtisadi göstəricilərin pozitiv meyilli yüksəlişi təmin olunmuş, hazırda ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 38 dəfə, hər nəfərə düşən ümumi daxili məhsulun həcmi 31 dəfə, sənaye məhsulunun həcmi 69 dəfə, əsas kapitala yönəldilən investisiyalar 261 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 7 dəfə, nəqliyyat sektorunda yük daşınması 18 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 90 dəfə, pərakəndə əmtəə dövriyyəsi 20 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 30 dəfə, ixracın həcmi 142 dəfə, dövlət büdcəsinin gəlirləri 26 dəfə, əhalinin gəlirləri 44 dəfə, hər bir nəfərə düşən gəlirlər 35 dəfə, orta aylıq əməkhaqqı isə 21 dəfə artmışdır. Bir sıra əsas göstəricilər baxımından son 20 il ərzində yaradılmış iqtisadi potensial və qazanılmış uğurlar muxtar respublikamızın yarandığı 1924-cü ildən 1995-ci ilədək-yəni 71 illik zaman məsafəsində əldə olunanları xeyli üstələyir [1, s. 114].

Mühüm bir fakt ondan ibarətdir ki, 1924-1995-ci illər ərzində muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrinin maksimum sayı 56-ya bərabər olmuş, ötən 20 il ərzində isə sənaye sahəsində reallaşdırılan islahatların uğurlu nəticəsi kimi əlavə olaraq 373 yeni müəssisə işə başlamış

və hazırda bu göstərici 429-a çatmışdır. Analoji qaydada sənaye məhsullarının sayı üzrə də müsbət meyillər özünü göstərməkdədir. Əgər 1924-1995-ci illərdə muxtar respublikada istehsal olunan sənaye məhsullarının sayı üzrə maksimum göstərici 28-ə bərabər idisə, ötən 20 il ərzində əlavə olaraq 215 yeni sənaye məhsulunun istehsalına başlanılmış və bu göstərici ümumilikdə 243-ə çatmışdır. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur [1, s. 48].

Xarici iqtisadi əlaqələrin təhlili göstərir ki, Naxçıvanın tarixən İran və Türkiyə dövlətləri ilə əlverişli coğrafi mövqedə olması iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərmişdir. Bu əlaqələrin inkişafı və coğrafiyasının genişlənməsində təbii ehtiyatlar, o cümlədən mineral sular, duz ehtiyatları əhəmiyyətli rol oynamışdır. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Naxçıvanın təbii resurslarından olan Duzdağ yataqları Naxçıvan şəhərindən 12 kilometr aralı məsafədə, dəniz səviyyəsindən 1173 metr yüksəklikdə yerləşir. Naxçıvan MR-dakı Duzdağ, Nehrəm və Püsyanın yer təkində bir-birilə birləşən daş duz yataqları çoxdan məşhurdur. Araz zonasının duz-daşıyan hövzəsinin uzunluğu 300 km-ə, eni 15–20 km-ə və qalınlığı onlarca metrə çatır. Naxçıvanda duz ehtiyatı bir neçə milyard tondan çoxdur [4, s. 72].

Qədim dövrlərdən başlayaraq duz ehtiyatları xarici iqtisadi əlaqələrin yaranması və inkişafına təkan vermiş, eləcə də infrastruktur elementlərin formalaşmasında xüsusi yer tutmuşdur.Naxçıvan duz mədənlərində istehsal edilən məhsulların müxtəlif regionların istehlakçılarına göndərilməsi ənənə halını almışdır. Məlumat üçün qeyd edək ki, Duzdağdan aşkar olunmuş maddi-mədəniyyət nümunələri, xüsusilə daş çəkiclər qədim duzdağ mədənlərindən hələ eramızdan əvvəl III-II minilliklərdə geniş istifadə edildiyini göstərir. Primitiv üsulla çıxarılan duz məişətdə istifadə olunmaqla yanaşı, mübadilə vasitəsi kimi Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılmışdır. Duzdağ yatağından sənaye üsulu ilə duz çıxarılmasına ilk dəfə 1927-ci ildə başlanılmış, sovetlər dönəmində bu sənaye müəssisəsində istehsal edilən daş duz İttifaq respublikalarına göndərilmişdir. 90-cı illərdə Naxçıvan duz mədənlərində 100 min tondan çox duz hasil edilərək birbaşa vaqonlara yüklənərək Baş-Başı stansiyası vasitəsi ilə İttifaq Respublikalarına göndərilmışdir [6, s. 211].

Naxçıvanın hərbi-strateji və iqtisadi əhəmiyyəti qədim zamanlardan təbii ehtiyatların iqtisadi əlaqələrə cəlb edilməsi ilə həmdə onu nəqliyyat qovşağına çevirmişdi. XIX-XX əsrin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafına dair tədqiqatın müəllifinin yazdığı kimi "Naxçıvan xanlığından keçən başlıca karvan yolları İrana və Təbrizə doğru uzanırdı. Bu yollar tranzit ticarətində mühüm rol oynayırdı. Azərbaycanın şimal torpaqlarına İran malları, əsasən Naxçıvan vasitəsilə daxil olurdu. Eyni



zamanda xanlığın daxilində də Naxçıvanı və Ordubadı ayrı-ayrı yerlərlə birləşdirən karvan yolları mövcud idi. XIX əsrin başlanğıcında burada daxili ticarətin illik dövriyyəsinin 160.000 manata çatması həmin yolların kifayət qədər işlək olduğunu göstərirdi" [6, s. 124].

Nəqliyyatın vəziyyəti ticarətin inkişafı ilə sıx bağlı idi. Naxçıvanda xanlığın son dövründə baş verən siyasi hadisələr və 1826-1828-ci illər rus – İran müharibəsi ticarət həyatına mənfi təsir göstərmişdi. Bu özünü daxili ticarətdə daha kəskin şəkildə büruzə verirdi. Tədqiqatçıların yazdığına görə "Daxili ticarətdən fərqli olaraq Naxçıvan xanlığında gəlmə tacirlərin hesabına xarici ticarətdə nisbətən canlanma hiss olunurdu. Xarici ölkələrdən, xüsusilə Rusiyadan buraya gələn tacirlər öz ölkələrinə Naxçıvan ustalarının hazırladıqları nəfis ipək parçalar aparırdılar. Təsadüfi deyildir ki, Moskvadakı, Nijni Novqoroddakı yarmarkalarda Naxçıvan və Ordubadda istehsal edilmiş ipək parçalara və müxtəlif rənglərə boyanmış ipək saplara təsadüf olunurdu. Naxçıvan xanlığından bir sıra xarici bazarlara qırmızı və ağ bez parçalar, düyü,duz, şərab və s. məhsullar aparılırdı. Bez əsasən Qarabağ və İrəvan xanlıqlarına, düyü və duz Mərənd, Xoy və Təbriz xanlıqlarına, pambıq parça Bayazid, Qars, Tiflis, Şuşa və digər şəhərlərə ixrac edilirdi" [5, s. 61].

Son illərdə Muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə məqsədli proqramlar hazırlanmışdır. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanının icrasını təmin etmək, Naxçıvan Muxtar Respublikasında təbii sərvətlərdən və yerli şəraitdən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədilə 09 iyun 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" təsdiq olunmuş və icrası uğurla reallaşdırılmışdır.

İqtisadi tərəqqinin davamlılığını təmin etmək, mövcud təbii ehtiyyatlardan və əmək potensialından səmərəli istifadənin təşkilini həyata keçirmək məqsədilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"ları təsdiq edilmiş və həm ikinci, həmdə üçüncü Dövlət Proqramlarında Naxçıvan Muxtar Respublikasının inkişafı ilə bağlı mühüm

tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. 2015-ci ilin nəticələri və muxtar respublikanın sosial-iqtisadi həyatında müşahidə olunan dinamik artım bu Dövlət Proqramının da uğurla yekunlaşacağına təminat verir. Qeyd edək ki, bu istiqamətdə həyata keçirilən tədbirlər, yaradılan sabitlik və iqtisadi inkişaf yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə olunmasına əlverişli şərait yaratmışdır.

Dövlətin apardığı məqsədyönlü iqtisadi siyasətin bir hissəsi olmaqla ticarətin, xüsusilə xarici ticarətin tənzimlənməsi, daxili bazarın qorunması, gömrük prosedurlarının sadələşdirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, bütövlükdə, ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ticarət dövriyyəsinin artmasına, o cümlədən xarici ticarətin genişlənməsinə şərait yaradıb.

Muxtar respublikada xarici ticarət dövriyyəsinin ilbəil artması burada yeni sənaye müəssisələrinin, istehsal sahələrinin yaradılması nəticəsində mümkün olmuşdur. Son 20 il ərzində muxtar respublikada sənaye müəssisələrinin sayı 56-dan 439-a çatmış, artım 7,8 dəfə olmuşdur [9, s. 42]. Yaradılan yeni sənaye müəssisələrində istehsal olunan məhsullar daxili bazarın idxaldan asılılığını xeyli azaltmış, eləcə də yeni ixracyönümlü, rəqabətədavamlı məhsulların ixrac olunmasına rəvac vermişdir.

Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrində 1992-1995-ci illər idxalın həcminin artması, əsasən, gündəlik tələbat mallarının idxalı ilə xarakterizə olunur. Belə ki, əvvəlki iqtisadi əlaqələrin kəsilməsi, muxtar respublikanın blokada şəraitində olması və mövcud sənaye müəssisələrinin öz fəaliyyətlərini əsasən dayandırması bu dövrdə vacib yeyinti məhsullarına olan tələbatın idxal hesabına ödənilməsini labüd etmişdir. Eləcə də bu dövr xarici ticarətdə barter əməliyyatlarının üstünlük təşkil etməsilə, idxalın dəyər və həcminin artması ilə xarakterizə olunur. İdxalın artmasının bir səbəbi də xarici iş adamlarının ticarət əlaqələrinin qurulmasında maraqların artmasından, eləcə də elektrik enerjisinin idxalından ibarət olmuşdur.

1996-2000-ci illər Naxçıvan Muxtar Respublikasında xarici ticarətin formalaşdırılması dövrü kimi səciyyələnir. 2001-ci ildən başlayaraq muxtar respublikada xarici ticarət əlaqələrinin tənzimlənməsi sahəsində qanunvericiliyin yeniləşməsinə, gömrük orqanlarının işinin daha da təkmilləşdirilməsinə, bu orqan strukturlarının texniki təchizatının tam yeniləşməsinə, yerli sahibkarların maraqlarının nəzərə alınmasına, idxalın istehlak yönümlülüyünün istehsal xarakterli məhsullarla yeniləşməsinə başlanılmışdır. Bu dövrdə muxtar respublikanın iqtisadiyyatı ona bilavasitə təsir göstərən xarici ticarət əlaqələrilə paralel surətdə inkişaf etmişdir.



2001-2008-ci illərdə bölgəmizdə xarici ticarət dövriyyəsinin artan dinamikası davam etmişdir ki, bu da muxtar respublikanın sosial-iqtisadi inkişafı, dünyaya açılması, yerli istehsal məhsullarının xarici bazarlara yol açması, xarici iş adamlarının maraq dairəsinə düşməsi, yerli sahibkarlığın daha da inkişaf etməsi ilə səciyyələnir. Statistik məlumatlara görə, müqayisə dövrünün əvvəlində muxtar respublikanın xarici ticarət dövriyyəsi 31,9 milyon ABŞ dolları həcmində olduğu halda, 8 il sonra bu göstərici 3,3 dəfə artaraq 103,7 milyon ABŞ dollarına bərabər olmuşdur [3, s. 59].

2009-cu ildən başlayaraq müasir istehsal avadanlıqları ilə təchiz olunmaqla yaradılan rəqabətədavamlı, ixracyönümlü məhsul istehsal edən müəssisələrin formalaşması ixracın idxalı üstələməsinə imkan vermiş və sonrakı illərdə bu proses artım dinamikası ilə davam etdirilmişdir. Belə ki, 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsi 220 milyon ABŞ dolları olduğu halda, 2013-cü ildə bu göstərici 512 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da 2,3 dəfə artım deməkdir. Bu dövrdə ixracın həcmi 3,6 dəfə artdığı halda, idxalın həcmi cəmi 1,7 faiz artmışdır.

2014-cü ildə xarici ticarət dövriyyəsindəki artım dinamikası davam etmiş və il ərzində 517,4 milyon ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi aparılmışdır. Bu, bir il öncəki göstəricini 1,1 faiz üstələmişdir. İxracın həcmi 1,5 faiz artaraq 408,6 milyon ABŞ dollarını ötmüş və xarici ticarət üzrə 299,9 milyon ABŞ dolları həcmində müsbət saldo yaranmışdır. İxracın tərkibinin 313,5 milyon manatını sənaye məhsulları, 95,1 milyon manatını isə tələbatdan artıq istehsal edilmiş kənd təsərrüfatı məhsulları, xüsusilə meyvə-tərəvəz məhsulları təşkil etmişdir. İdxalın həcmi isə bir il öncəyə nisbətən azalmışdır. Bütövlükdə, son 20 il ərzində Naxçıvan Muxtar Respublikasında xarici ticarət dövriyyəsi 27,2 dəfə, o cümlədən ixracın həcmi iki yüz dəfədən çox artmışdır [3, s. 92].

2015-ci ilin ötən dövründə xarici ticarət dövriyyəsinin həcmi 493 milyon 667 min ABŞ dolları həcmində olmuşdur. Ticarət əməliyyatlarının 412 milyon 920 mini ixracın, 80 milyon 747 mini idxalın payına düşür. İxracın idxalı üstələmə tendensiyası bu il də qorunub saxlanmış, müsbət saldo 332 milyon 173 min ABŞ dolları təşkil etmişdir.

Son illərdə Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrinin coğrafiyası genişlənmiş və dövriyyəsində iştirak edən dövlətlərin sayı 56-ı ötmüşdür. Özəl sektor və fiziki şəxslərin xarici ticarət dövriyyəsindəki payı 2015-ci ilin sonuna 83,2 faiz təşkil etmişdir. Hazırda Naxçıvan Muxtar Respublikasının dünyanın ən inkişaf etmiş dövlətləri olan ABŞ, Fransa, Çin, Türkiyə, Rusiya, Hindistan, eləcə də Gürcüstan, Macarıstan, Bolqarıstan və digər ölkələrlə ticarət əlaqələri mövcuddur. Muxtar respublikada xarici ticarətin inkişaf etdirilməsi və onun əhatə dairəsinin genişlənməsi daxili bazarın qorunması əsas götürülməklə həyata keçirilir və aparılan nəhəng

quruculuq işləri idxalın həcminin müəyyən hədd daxilində artması ilə dövlət büdcəsinə nəzərdə tutulmuş gömrük ödənişlərinin çoxalması ilə müşahidə olunur. Belə ki, dövlət büdcəsinə yığılan gömrük rüsumu və vergilərin həcmi 1992-ci ildə cəmi 7 min 326 manat olduğu halda, bu göstərici 2013-cü ildə 8 milyon 355 min manat olmuş, artım yüz dəfələrlə ölçülmüşdür [8, s. 29].

Bu gün muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət qayğısının və qonşu dövlətlərlə ticarət əlaqələrinin genişlənməsinə yönəlmiş iqtisadi-sosial siyasətin nəticəsidir ki, artıq naxçıvanlı sahibkarlar xarici ticarət dövriyyəsini artırmaqla yanaşı, digər dövlətlərdə Naxçıvan markası altında iri ticarət şəbəkələrinin fəaliyyət göstərilməsinə nail olmuşlar. Xarici ticarət dövriyyəsindəki indiki dinamika daimi xarakter almışdır ki, bu da muxtar respublikada aparılan məqsədyönlü, düşünülmüş, regionun reallıqlarına əsaslanan sosial-iqtisadi siyasətin məntiqi nəticəsidir.

Qeyd edək ki, xarici iqtisadi əlaqələrin dövlət tərəfindən aktiv şəkildə tənzimlənməsi və müəyyən edilmiş strategiyaya uyğunlaşdırılması dövlətin xarici iqtisadi siyasətinin əsas məqsədini təşkil edir. Xarici iqtisadi siyasət ölkənin iqtisadi potensialından tam səmərəli şəkildə istifadə etməklə dünyada baş verən iqtisadi qloballaşma prosesindən maksimum faydalanmaq məqsədi daşıyır. Beləliklə, xarici iqtisadi siyasət dövlətin öz potensialını (siyasi, iqtisadi, hərbi, sosial, ekoloji, elmi-texniki və s.) möhkəmləndirməsi və dünya iqtisadiy-yatında səmərəli iştirak etməsi üçün xarici iqtisadi əlaqələrin formalaşdırılması və istifadəsi üzrə həyata keçirdiyi məqsədəuyğun tədbirlər sistemi kimi, xarici iqtisadi siyasət vasitəsilə xarici ticarət və istehsal amilləri axınının istiqaməti, tərkibi və həcminə təsir göstərmək imkanına malik olur.

Xarici iqtisadi əlaqələrin inkişafı hər bir ölkə və rayonun təbii ehtiyatlarla zəngin olmasından, çoxsahəli istehsalın inkişafından, müasir standartlara uyğun məhsul istehsalından daha çox asılıdır. Ölkənin xarici iqtisadi fəaliyyəti iqtisadi təhlükəsizliyin qiymətləndirilməsi baxımından tədiyyə balansının vəziyyəti, milli valyutanın ehtiyat valyutaya nisbətən sabitliyi göstəriciləri bazasında həyata keçirilə bilər. Bura həmçinin xarici ticarətin həcmi, xarici investisiya, iqtisadi artımın proqnoz parametrləri də daxildir. Məlumdur ki, xarici in-vestorların marağı beynəlxalq maliyyə institutlarının konkret ölkəyə qarşı tutduqları mövqedən və ölkənin kredit reytinqindən birbaşa asılıdır. Kreditorları əsasən riskin dərəcəsi və investisiyanın gəlirliliyi maraqlandırır.

Ölkənin beynəlxalq iqtisadi əlaqələrində qarşılıqlı xidmətlər son illər əsas yerlərdən birini tutur. Azərbaycanda inflyasiyanın aşağı həddə endirilməsi, milli valyutanın məzənnəsinin sabitləşdirilməsi kimi tədbirlər xarici investorların fəallığı üçün ilkin şərait yaratmış, get-gedə möhkəmlənən



siyasi sabitlik ölkənin investisiya mühitinin xarici investisiyaları cəlb etmək baxımından imkanlarını genişləndirmişdir [5, s. 214].

Yuxarıda qeyd olunan tələblər baxımından qarşıda duran vəzifələrin reallaşmasının ən mühüm şərtlərindən biri blokada vəziyyətində yaşayan Naxçıvan Muxtar Respublikasının iqtisadi təhlükəsizlik sisteminin və ixtisaslaşma istiqamətlərinin konseptual əsaslarını işləyib hazırlamaqdan ibarətdir. Bu konsepsiyalar iqtisadi inkişafın müasir pilləsində konkret tarixi əhəmiyyət kəsb etməklə mövcud reallıqlar baxımından yaşadığımız blokada vəziyyətinin ən mühüm problemlərindən biri hesab edilir. Beynəlxalq təcrübəyə görə daxildə siyasi sabitlik təmin olunsa belə, ölkənin iqtisadi inkişaf durumu üçün xarici təhlükələr daim qalır. Çünki heç bir xarici dövlət, beynəlxalq təşkilat, xarici investor başqa ölkəyə maraqsız kömək etmir, hər belə köməyin arxasında mənafelər durur. Ona görə də hər bir xarici kömək mənafelər baxımından qiymətləndirilməlidir.

Müstəqilliyimizin ilk illərində Muxtar respublika müəssisələrinin xarici bazarlarda möhkəmlənməsinin və yeni bazarlar əldə etməsinin ən mühüm prinsiplərindən biri region iqtisadiyyatının xarici iqtisadi əlaqələr sisteminə səmərəli və uğurlu inteqrasiya edilməsindən ibarət idi. İstər daxili və istərsə də xarici bazarlarda regionun maraq və mənafelərin tarazlaşdırılması zəruri məhsullara görə daxili bazarın ehtiyaclarının əsasən xüsusi mənbələr hesabına ödənilməsini, xarici valyutaya olan tələbatın isə ixrac yönümlü fəaliyyət hesabına təmin edilməsini nəzərdə tutur.

Regionun xarici ölkə bazarlarına yüksək rəqabət qabiliyyətinə malik məhsullar ixrac etməsi onun tədiyyə balansında müsbət saldonun yaranmasına, büdcəyə daxilolmaların həcminin artmasına, iqtisadiyyatın kapital və investisiya resurslarına olan tələbatının daxili mənbələr hesabına ödənilməsinə imkan yaradır. Muxtar respublikanın strateji milli maraqlarının qorunması xeyli dərəcədə onun xarici iqtisadi əlaqələr sisteminə inteqrasiya edilməsi dərəcəsindən asılıdır. Məhz bu baxımdan daxili və xarici bazarlarda aparılan səmərəli ticarət siyasəti, yerli əmtəə istehsalçılarının iqtisadi maraqlarının ardıcıl surətdə qorunması və onların iqtisadi cəhətdən stimullaşdırılması muxtar respublikanın iqtisadi təhlükəsizlik sisteminin əsasını təşkil edir.

Son illər muxtar respublikada rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, daxili və xarici ticarət fəaliyyətinin liberallaşdırılması və region iqtisadiyyatın dünya təsərrüfatçılıq sisteminə inteqrasiyası sahəsində mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlər mövcud xarici iqtisadi fəaliyyətin və region iqtisadiyyatının beynəlxalq münasibətlər sisteminə xidmət edir. Təcrübə göstərir ki, inteqrasiyasının iqtisadi səmərəliliyinə xidmət edir. Təcrübə göstərir ki, muxtar respublikada xarici iqtisadi fəaliyyətin səmərəliliyi bu prosesdə regionun maraqlarının qorunması səviyyəsindən asılıdır.

Azərbaycanın müstəqilliyinin ilk dövrlərində iqtisadi təhlükəsizlik siyasətinin mahiyyəti, istiqamətləri, mexanizmləri haqqında əsaslandırılmış yanaşma və təsəvvürlər olduqca səthi olmuşdur. Xalqın tələbi ilə hakimiyyətə gələn ümummilli liderimiz Heydər Əliyev ölkənin təhlükəsizlik problemlərinin həllini prioritet məsələ kimi önə çəkmiş, bu istiqamətdə mühüm addımlar atmışdır. Yalnız 1993-cü ildən başlayaraq ölkə səviyyəsində xüsusi istiqamət kimi, vahid prinsiplərə söykənən milli inkişaf və təhlükəsizlik siyasəti həyata keçirilməyə başlanmışdır. Azərbaycanın milli inkişaf və təhlükəsizliyinin nəzəri və praktiki məsələləri geniş ictimai-siyasi və elmi müzakirəyə çıxarılmış, onun konseptual əsasları müəyyən edilmişdir [8, s. 10]. İlk növbədə ölkə daxilində iqtisadi sabitliyin yaradılması və inkişaf üçün islahatların həyata keçirilməsinə başlanmış, xarici ölkələrlə və beynəlxalq təşkilatlarla milli maraqlarımıza uyğun olan əməkdaşlıq əlaqələri yaradılmışdır.

Enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində məqsədyönlü və strateji fəaliyyətin əsası 1994-cü ildə "Əsrin müqaviləsi" ilə qoyulmuş, 2003-2010-cu illərdə "Energetika haqqında" Azərbaycan Respublikası Qanunu, "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması" üzrə Dövlət Proqramı qəbul edilmiş, neft və qaz ixrac boru kəmərləri şəbəkəsinin yaradılması və şaxələndirilməsi üzrə uğurlu siyasət həyata keçirilmişdir. Elektrik stansiyalarının tikilib istifadəyə verilməsi enerji təhlükəsizliyinin təmin olunmasında son dərəcə əhəmiyyətli rola malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikanın elektrik enerjisinin daxili imkanlar hesabına ödənilməsinin strateji əhəmiyyət kəsb etdiyini bildirərək demişdir: "Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir" [9, s. 14].

Muxtar respublikanın mövcud hidroenerji potensialından səmərəli istifadə olunmaqla ekoloji və iqtisadi cəhətdən daha səmərəli olan su elektrik stansiyalarının tikilib istifadəyə verilməsi də elektrik enerjisi təchizatında mühüm əhəmiyyətə malikdir. 2006-cı ilin dekabrında Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası,



2010-cu ilin oktyabrında isə Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası istismara verilmişdir. Sonrakı dövrdə Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları fəaliy-yətə başlamışdır. Muxtar respublikada bu istiqamətdə işlər davam etdirilir. Hazırda Ordubad rayonu ərazisində 36 meqavat gücündə yeni derivasiyatipli su elektrik stansiyasının tikintisi davam etdirilir. Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin balansında olan 7 elektrik stansiyasından 6-sı müstəqillik illərində istismara verilmişdir. Enerji təhlükəsizliyini daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: "Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk. Son illərdə Naxçıvanda 5 elektrik stansiyası tikilmişdir. Demək olar ki, Naxçıvanın enerji təhlükəsizliyi məsələləri tam şəkildə öz həllini tapmışdır" [9, s. 18].

İqtisadi təhlükəsizliyin təmin edilməsinin hüquqi əsasları 2004-cü ilin 29 iyununda qəbul edilmiş "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununda öz əksini tapmışdır. Qanunda göstərildiyi kimi, Azərbaycan Respublikasının iqtisadi sahədə əsas milli maraqları iqtisadi potensialın artırılmasından, bazar iqtisadiyyatının inkişafı və onun hüquqi əsaslarının təkmilləşdirilməsindən, iqtisadi sabitliyin təmin olunmasından, iqtisadiyyatın inkişafı üçün daxili və xarici investisiyalardan ötrü əlverişli şəraitin yaradılmasından, təbii və maddi sərvətlərin qorunması və səmərəli istifadə edilməsindən, regional və dünya bazarlarının formalaşmasında və fəaliyyət göstərməsində azad və bərabərhüquqlu inkişafın təmin edilməsindən ibarətdir.

İqtisadiyyatımızın inkişafının müasir mərhələsində ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi tədbirləri yeni qlobal çağırışlar kontekstində davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası" dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur [5, s. 327].

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında da qloballaşmanın müsbət amilləri ilə yanaşı mənfi yüklü iqtisadi proseslərin də yayılmasına diqqət çəkilmiş, bu proseslərin ümumdünya təsərrüfat inteqrasiyasına cəlb olunmuş ölkəmiz üçün yaratdığı təhdidlərdən qorunmaq, iqtisadi təhlükəsizliyin daha da gücləndirilməsi, yüksək rəqabət qabiliyyətli iqtisadiyyatın formalaşdırılması, ərzaq, enerji, nəqliyyat, informasiya təhlükəsizliyinin, demoqrafik və ekoloji təhlükəsizliyin yüksəldilməsi üçün gələcək fəaliyyətin konseptual istiqamətləri müəyyən edilmişdir [7, s. 12].

Təcrübə göstərir ki, xarici ticarət fəaliyyətinin iqtisadi inkişafa xidmət etməsi üçün onun tənzimlənməsi vacibdir. Müasir dövrdə belə fəaliyyətin əsas tənzimləyicisi kimi gömrük orqanları çıxış edir. Daxili bazarın yerli istehsal sahələri nəzərə alınmaqla qorunması xaricə valyuta axınının qarşısını alır, məşğulluğu təmin edir, beynəlxalq əlaqələrdən asılılığı aradan qaldırmaqla iqtisadiyyatın davamlı inkişafına münbit şərait yaradır. Gömrük orqanları tərəfindən yerli istehsalçıların mənafeyinin qorunması, daxili bazarda yerli istehsal məhsullarının satışının stimullaşdırılması istiqamətində görülən işlər nəinki muxtar respublikanın ərzaq təhlükəsizliyinin həllinə, habelə ixrac potensialının artmasına da müsbət təsir göstərir. Bu gün Naxçıvan dünyanın 56 ölkəsi ilə ticarət əməliyyatları aparır. Xarici ticarət dövriyyəsində ixrac əməliyyatlarının həyata keçirildiyi ölkələrin miqyasının ilbəil genişlənməsi müşahidə olunan mühüm yeniliklərdəndir.

Muxtar respublika gömrük orqanları hüquq-mühafizə fəaliyyətini də günün tələblərinə uyğun qurur, gömrük sahəsində cinayətlərin qarşısının alınması, aşkar edilməsi, açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi məqsədilə əməliyyat-axtarış fəaliyyətini davam etdirir. Qaçaqmalçılıq və gömrük sahəsində digər hüquqpozma hallarının qarşısının alınması üçün ən mütərəqqi üsullardan istifadə olunur, kinoloji xidmətin keyfiyyəti yüksəldilir, digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyət təmin olunur. Muxtar respublikanın ticarət əlaqələrinin artması, gömrük infrastrukturunun və maddi-texniki bazanın möhkəmlənməsi beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə əlverişli şərait yaradır. 2012-ci ilin oktyabr ayında türkdilli dövlətlərin gömrük xidməti rəhbərlərinin Naxçıvanda keçirilən görüşü bu sahədə aparılan məqsədyönlü işlərin daha bir göstəricisidir. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin qonşu İran və Türkiyənin gömrük xidmətləri ilə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri ticarət və gömrük münasibətlərinin inkişafına öz müsbət təsirini göstərir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi bütün ölkələrin iqtisadiyyatı qarşısında duran ən mühüm və həlli vacib olan iqtisadi problemlərdən



biridir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 1995-ci ildən başlayaraq aqrar islahatların hüquqi əsasları yaradılmış və islahatlara start verilmişdir. Ölkə Prezidentinin 2 mart 2001-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı", 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" ölkəmizin ərzaq təhlükəsizliyinin yüksəldilməsində mühüm rol oynamışdır. Ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Yerli istehsal sahələrinin yenidən qurulması və aqrar islahatların uğurla aparılması bir sıra qida məhsullarının yerli istehsalının artmasına və idxalın azalmasına səbəb olmuşdur. Kənd təsərrüfatının ümumi məhsulu son beş ildə 2,2 dəfə, kartof istehsalı 1,2 dəfə, tərəvəz istehsalı 1,1 dəfə, meyvə istehsalı 1,2 dəfə, üzüm istehsalı 1,1 dəfə artmışdır. Bu müddət ərzində diri çəkidə ət istehsalı 17,2 faiz, süd istehsalı 9,1%, yumurta istehsalı 30,4%, yun istehsalı 9,8% artmışdır [9, s. 10]. Nəzərdən keçirilən dövrdə muxtar respublikada əsas ərzaq malları üzrə tələbatın ödənilməsi mənbələrinin və özünü təminetmə səviyyəsinin təhlili göstərir ki, respublika əhalisinin mal əti və qoyun əti, quş əti, yumurta, süd və süd məhsulları, habelə meyvə və tərəvəzlə təmin olunma dərəcəsi demək olar ki, qənaətbəxşdir.

Bunlardan başqa, nəqliyyat təhlükəsizliyinin təmin edilməsi ilə bağlı proqramlar qəbul edilmiş, beynəlxalq nəqliyyat dəhlizlərində iştirakçılıqda ölkəmizin milli maraqları yüksək səviyyədə təmin edilmişdir. İnformasiya təhlükəsizliyi ilə bağlı bir sıra qanunlar qəbul edilməklə informasiya cəmiyyətinə keçidin qanunvericilik bazası təkmilləşdirilmiş, "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012-ci illər)" və bu sahənin inkişafı ilə bağlı bir neçə dövlət proqramı təsdiq edilmişdir.

Ölkədə mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə olunmasını, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasını və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə uğurla icra olunan dövlət proqramları ölkə başçısının regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsi olmaqla, regionların kompleks inkişafına, o cümlədən infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olmuşdur.

Ötən 20 ilin ümumiləşdirilmiş xarakteristikası ondan ibarətdir ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələr üzrə əsaslı nailiyyətlər qazanılmış, hərtərəfli yüksəliş təmin olunmuşdur. Düzgün təməl üzərində

müəyyənləşən bu inkişaf meyilləri gələcəkdə daha geniş miqyas almaqla intibahın əsas amili olacaqdır. Bu gün muxtar respublikada təmin olunmuş hərtərəfli tərəqqi, heç şübhəsiz ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müasir çağırışlara uğurlu cavabla icrasının məntiqi nəticəsidir.

Muxtar respublika iqtisadiyyatının səmərəli strukturunun formalaşdırılması məqsədilə elmi əsaslara söykənən idxal-ixrac siyasətinin həyata keçirilməsi nəticəsində istehsalyönümlü sahibkarlığın inkişafına, son məhsul istehsalının artırılmasına, daxili bazarın əsasən yerli istehsal məhsulları hesabına təmin edilməsinə, yerli xammal və materiallardan istifadə əsasında istehsal potansialının gücləndirilməsinə, xarici əlaqələrin genişlənməsinə iqtisadi stimul yaradılmışdır. Sosial-iqtisadi inkişafa bu cür kombinə edilmiş yanaşma, elmi nəzəriyyəyə və təcrübəyə, söykənən konsepsiya əsasında həyata keçirilən köklü islahatlar və irimiqyaslı quruculuq proseslərinin nəticələri muxtar respublika iqtisadiyyatında və sosial sahədə əldə edilmiş yüksək inkişaf templərinin qorunub saxlanılmasına və daha da yüksəldilməsinə təminat verir.

## ƏDƏBİYYAT

1. Nuriyev Ə.X. Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri. Bakı: Elm, 2004, 224 s.
2. Əhmədov N.H. Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı: Elm və təhsil. 2010, 148 s.
3. Ölkənin əsas makroiqtisadi göstəriciləri. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. http://www. maliyye. gov.az./ node 940
4. Nağıyev V.N, Məmmədov İ.Ə. Naxçıvan MR-nın faydalı qazıntıları. Bakı: Elm, 2010, 240 s.
5. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri.Bakı: Elm, 2007.469 s.
6. Şahverdiyev Z.Ə.Naxçıvan bölgəsi XIX – XX əsrin əvvələrində. Bakı: Elm, 2008, 264 s.
7. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası.
8. Azərbaycan Respublikasının Statistik göstəriciləri 2013, Bakı – 2014.
9. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2015, 87 s.
10. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı: Səda, 2012, 604 s.



**Dilsuz Qasımov**
"Naxçıvan" Universiteti, dosent
E-mail: qasimov.dilsuz@gmail.com.

# NAXÇIVAN: AQRAR SAHƏDƏ YENİLƏŞMƏ VƏ DİNAMIK İNKİŞAF

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə qədər kənd təsərrüfatının inkişafı sahəsində bir sıra göstəricilər baxımından respublikamız keçmiş müttəfiq respublikalarla müqayisədə axırıncı yerləri tutmuşdur. Lakin Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə respublikamızda əsas növ kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində böyük müvəffəqiyyətlər əldə edilmiş, respublikamız keçmiş ittifaqın mərkəzi şəhərlərinin ərzaq məhsullarına olan tələbatın ödənilməsində əhəmiyyətli rol oynamışdır. Bundan əlavə respublikamızda üzüm emalı müəssisələri, şərab zavodları, pambıqtəmizləmə zavodları, konserv zavodları tikilmiş və bütün bunlar respublikamızda nəinki, kənd təsərrüfatının inkişafı istiqamətində, eləcə də iri miqyaslı aqrar sənaye kompleksinin formalaşmasına bilavasitə təsir göstərmişdir. Məhz bunun nəticəsində də ölkə əhalisinin maddi rifah halının yaxşılaşdırılmasına nail olunmuşdur. [3].

1991-ci ildə Sovetlər İttifaqının dağılmasından və Azərbaycanın müstəqillik əldə etməsindən sonra qarşıda duran həlli vacib problemlərdən biri də yeni torpaq siyasətinin həyata keçirilməsi, torpaq islahatlarının aparılması idi. Sovetlər İttifaqında mövcud olan asılı iqtisadiyyat sisteminin dağılması digər respublikalar kimi Azərbaycanı da ağır iqtisadi böhrana saldı. Respublikanı bu böhrandan çıxarmanın yeganə və düzgün yolu ölkə iqtisadiyyatını qısa bir müddətə yeni iqtisadi əsaslarla bərpa etmək idi ki, bunun da həyata keçirilməsi üçün ilk növbədə torpaq islahatları aparılmalı idi. Müstəqil Azərbaycanın yeni həyata başlaması üçün vacib olan bütün digər məsələlər kimi torpaq islahatlarının aparılması da ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqillik əldə etməsindən əvvəl 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra sessiyadakı ilk çıxışında öz taleyini xalqa tapşırdığını bildirərək deyirdi: "Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm" [3].

Bu baxımdan ulu öndər doxsanıncı illərin əvvəllərində cəmiyyət həyatının bütün sahələrini əhatə edən inkişafın möhkəm əsaslarını yaratmışdır. Azərbaycanda ilk olaraq Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların aparılması, keçmiş planlı təsərrüfat sisteminin yerində bazar iqtisadiyyatına əsaslanan özəl sektorun yaradılması ilə başlanılmışdır. Onun təşəbbüsü ilə 1992-ci il aprel ayının 6-da "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmişdir. 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda ölkədə ilk dəfə olaraq ictimai təsərrüfatlarda islahata başlanılmış və ilk özəl təsərrüfat qurumları yaradılmışdı. Bu təcrübə sonralar 1993-cü ildə Azərbaycan respublikasında aqrar islahatların aparılmasına hazırlıq dövründə nümunə rolunu oynamış və müxtəlif bölgələrdə kəndlilərin birləşdiyi kəndli (fermer) təsərrüfatlarının yaradılmasının əsasını qoymuşdur [1].

Naxçıvan Muxtar Respublikasının yeni inkişaf mərhələsi öz başlanğıcını Ali Məclisin 1995-ci il dekabrın 16-da keçirilmiş sessiyasından götürür. Ötən 20 il ərzində həyata keçirilən məqsədyönlü siyasət sayəsində Naxçıvan Muxtar Respublikası davamlı sosial-iqtisadi yüksəliş və ictimai həyatdakı nailiyyətləri fonunda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

İqtisadi təhlil göstərir ki, muxtar respublikada həyata keçirilən islahatlar aqrar-sənaye potensialından səmərəli istifadə edilməsi üçün zəmin yaratmışdır. Muxtar respublikada ərzaq balansının müsbət meyilliliyini təmin etmək, idxaldan asılı olmayan dayanıqlı ərzaq təminatına nail olmaq üçün bitkiçiliyin inkişafı ötən dövr ərzində prioritet istiqamət kimi diqqətdə saxlanılmışdır.

Muxtar respublikada investisiya potensialından tam və kompleks şəkildə istifadə olunmasını, həm də kənd təsərrüfatının istehsalı, emalı, tədarükü, saxlanması və xidmət müəssisələrinin yaradılmasını, kənddə yeni sosial infrastrukturların yaranması əsasında məşğulluq səviyyəsinin yüksəldilməsinin daha da yaxşılaşdırılması təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın və Naxçıvan Muxtar Respublikasının inkişafın yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb edir. Regionların hərtərəfli tərəqqisi sahəsində 2004-cü ildən başlanmış məqsədyönlü siyasətə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə



"Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və 2009-cu il 28 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Hər iki dövlət proqramının uğurlu icrası nəticəsində muxtar respublikada real sektorun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı və davamlı inkişafa, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına və həyat səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur və bu proses hazırda da uğurla davam etdirilir. Aparılmış tədbirlərin nəticəsidir ki, cari ilin ötən dövrü ərzində bitkiçilik məhsulları istehsalının həcmi 2008-ci ilin yanvar-sentyabr aylarına nisbətən 2,7 dəfə artaraq 204 milyon 430 min manata, heyvandarlıq məhsulları istehsalının həcmi isə 2 dəfə artaraq 93 milyon 424 min manata çatmışdır [1].

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası muxtar respublika iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaradılmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynamaqdadır. Belə ki, məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılmaqdadır. Həyata keçirilən tədbirlərə uyğun olaraq "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 179 ədədi 2015-ci ilin yanvar-sentyabr aylarında olmaqla, cəmi 1684 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq muxtar respublikaya gətirilmişdir. 2015-ci ilin ötən dövrü ərzində 168 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq güzəştli şərtlərlə lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir [2].

Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 aprel tarixli Sərəncamı ilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində və çoxillik əkmələrin aparılmasında istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımın həcmi 25 faiz artırılaraq 50 manata çatdırılmışdır. Ötən dövr ərzində məhsul istehsalçıları 5939,1 ton mineral gübrə ilə təmin olunmuşlar. 2015-ci ilin məhsulu üçün muxtar respublikada 61 min 414 hektar sahədə əkin aparılmışdır ki, bu da 2014-cü ilin məhsulu üçün əkilmiş sahədən 585 hektar çoxdur.

Yüksək istehlak xüsusiyyətləri nəzərə alınaraq muxtar respublikada kartof istehsalına xüsusi önəm verilir. Daxili bazarın kartofla təminatında idxaldan asılılığı azaltmaq, əhali tələbatının keyfiyyətli yerli məhsul

hesabına ödənilməsini təmin etmək məqsədilə reallaşdırılan tədbirlərə uyğun olaraq, kartof əkini üçün əlverişli torpaq sahələri müəyyənləşdirilərək tələbata uyğun olaraq kartofçuluğun inkişafında müsbət dinamika saxlanılaraq 2015-ci ildə 2967 hektar sahədə kartof əkini aparılmış və yüksək məhsul götürülmüşdür.

Aqrar sektorun inkişafında mühüm təsir vasitəsi olan soyuducu anbarların yaradılması istiqamətində 2015-ci ilin ötən dövrü ərzində tutumu 480 ton olan 2 soyuducu anbar istifadəyə verilmiş, soyuducu anbarların sayı 22-yə, ümumi tutumu isə 12 min 730 tona çatdırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər meyvə və tərəvəz istehsalının artımına müsbət təsir göstərmişdir. 2015-ci ilin yanvar-sentyabr aylarında meyvə istehsalının həcmi bir il öncəyə nisbətən 8,2%, tərəvəz istehsalı isə 11,8% artmışdır.

Muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə 2015-ci ilin ötən dövrü ərzində 6 istixana təsərrüfatı yaradılmış, 2 istixana təsərrüfatının yaradılması hazırda davam etdirilir. 1 oktyabr 2015-ci il tarixə 112871 ton dənli və dənli-paxlalılar (qarğıdalısız), 4473,8 ton dən üçün qarğıdalı, 690,2 ton dən üçün günəbaxan, 71275,8 ton tərəvəz, 36049,9 ton ərzaq üçün bostan məhsulları, 37319 ton meyvə, 9552,5 ton üzüm istehsal edilmişdir.

Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı da diqqətdə saxlanılmış, 2 heyvandarlıq təsərrüfatının yaradılması, 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 3 heyvandarlıq təsərrüfatının yaradılması və 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi isə hazırda davam etdilməkdədir

"Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 avqust tarixli Sərəncamı əhalinin heyvandarlıq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması üçün süni mayalanma yolu ilə alınmış hər baş buzova görə 100 manat həcmində subsidiyanın müəyyən olunması bu sahənin inkişafına ciddi təkan verəcəkdir.

Kənd təsərrüfatının mühüm sahələrindən olan quşçuluq və balıqçılığın inkişafı müntəzəm olaraq dəstəklənmiş, ötən dövr ərzində 60 yeni quşçuluq və 11 balıqçılıq təsərrüfatları istifadəyə verilmişdir. Muxtar respublikada quşçuluq təsərrüfatlarının fəaliyyətini əlaqələndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Quşçuluq Birliyi yaradılmışdır [2].



Muxtar respublikada kənd təsərrüfatının perspektivli sahələrindən biri də arıçılıqdır. Bu sahənin inkişafı ilə əlaqədar son illər göstərilən dövlət maliyyə dəstəyinin həcmi artırılmış, balın emalı və qablaşdırılması ilə məşğul olan istehsal sahələri istifadəyə verilmişdir. Arıçılıqla məşğul olan istehsalçıların fəaliyyətinin tənzimlənməsi, bu sahədə təşkilatlanma işlərinin aparılması məqsədilə Naxçıvan Muxtar Respublikası "Arıçılar" İctimai Birliyi yaradılmışdır.

Muxtar respublikada suvarma suyunun itkisiz torpaq mülkiyyətçilərinə verilməsi və su bölgüsü işinin düzgün qurulması məqsədilə 2005-ci ildən başlayaraq sudan istifadəedənlər birlikləri yaradılmışdır. Yeraltı sulardan istifadə dünyanın bir çox yerlərində olduğu kimi, muxtar respublikamızda da böyük əhəmiyyət kəsb edir. Tariximizi özündə əks etdirən kəhrizlər qədim zamanlardan əhalinin içməli və suvarma suyuna olan tələbatının ödənilməsində əsas hidrotexniki qurğu olmuşdur. Muxtar respublikanın relyef quruluşuna uyğun olaraq kəhriz sistemi geniş yayılmış və bəzi yaşayış məntəqələrinin su təminatı yalnız kəhrizlər vasitəsi ilə olmuşdur. Bu sahəyə xüsusi xidmətin vacibliyi nəzərə alınaraq 2003-cü ildə Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin nəzdində Kəhrizlər İdarəsi yaradılmışdır. Ötən müddət ərzində Kəhrizlər İdarəsi tərəfindən 380 kəhriz qeydiyyata alınmış, 9 kəhriz 2015-ci ildə olmaqla cəmi 140 kəhriz bərpa edilərək əhalinin istifadəsinə verilmişdir. Muxtar respublikada yeraltı sulardan həm suvarma, həm də içməli su kimi istifadə olunması nəzərə alınaraq 2015-ci ildə subartezian quyularının tikintisi, subartezian quyusunun bərpası və 6 kəhrizin təmiri davam etdirilir [4].

## ƏDƏBİYYAT


1. "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas yekunları. "Şərq qapısı" qəzeti - 02.09.2014
2. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. "Şərq qapısı" qəzeti -02.09.2014
3. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərs vəsaiti. Bakı.2013.səh 406 səh.
4. 2015-ci ilin yanvar-sentyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi. "Şərq qapısı" qəzeti. 16.10.2015

**Əli Cabbarov**
"Naxçıvan" Universiteti, dosent
E-mail:alijabbarov@yahoo.com

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TURİZM: GETMƏ TURİZMDƏN SOSİAL TURİZMƏDƏK KEÇİLƏN YOL

Turizm müasir dünyada ölkələrin sosial-iqtisadi inkişaf göstəriciləri arasında mühüm yer tutur. O, həm cəmiyyətin ümumi inkişafının nəticəsi, həm də yaradılmış rifahların bölüşdürülməsinin ən əlverişli mexanizmidir [1, s. 17]. Ölkəmizdə və muxtar respublikamızda turizmə verilən diqqət də onun regional inkişaf, tanıtım və sosial məsələlərin həll olunmasındakı xüsusi çəkisi ilə izah olunur.

Turizm sahəsində yüksək nəticələr əldə etmiş ölkələrin təcrübəsi göstərir ki, turizm heç də təkcə zəngin ehtiyatlar hesabına öz-özünə inkişaf edən bir sahə deyildir. Əksinə, turizm hər kəsdən öz töhfəsini gözlədiyi çox həssas bir münasibətlər sistemidir. Buna görə də hər bir regiondakı turizm-rekreasiya kompleksinə ixtisaslaşmış bir sahə kimi yanaşma tələb olunur ki, bu da turizmin sahəsində dərin bilik, bacarıq və yüksək məsuliyyət tələb edir.

Turizm sülh və sabitlik şəraitində inkişaf edən, həm də iqtisadiyyatın bir çox sahələrini inkişaf etdirən, ölkəni tanıdan güclü bir stimuldur. Turizmin bu funkisiyası, ilk olaraq, onun ölkə və region iqtisadiyyatına və cəmiyyətin humanitar inkişafına verdiyi töhfələrdən ibarətdtir. Başqa sözlə, səyahət edən turistlər eyni zamanda ölkəmiz haqqında informasiya ixrac edən xoşməramlı elçilərdir [2, s. 65]. Bu baxımdan, hazırda öz mədəniyyətimizi tanıtmaq turizm strategiyamızın da əsasını təşkil dir. Bu gün Naxçıvan dövlət başçılarının zirvə toplantısı keçirilən bir mərkəz halına gəlmiş və 2018-ci ildə Naxçıvan İslam Mədəniyyətinin paytaxtı elan olunmuşdur.

Müasir dövrdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı öz spesifikası ilə seçilir. Əgər təqribən, on beş-iyirmi il öncəsinə, yəni 1990-cı illərin əvvəlinə nəzər salsaq, görərik ki, muxtar respublikada mövcud olan turizm ehtiyatlarının demək olar ki, istifadədən kənarda qalması müşahidə olunurdusa, hazırda Naxçıvana səyahət edən turistlər üçün çox geniş məzmunlu rekreasiya-tanışlıq imkanları yaradan bir şərait vardır. Turizmin cəmiyyətin ümumi inkişafı ilə ahəngdar olduğunu nəzərə alsaq, son iyirmi il ərzində Naxçıvan Muxtar Respublikasında turizm sahəsində əldə olunan nailiyyətlər bu baxımdan diqqəti cəlb edir. İndi artıq həm muxtar respublikaya xaricdən və ölkəmizin digər yerlərindən turistlərin gəlməsi, həm də naxçıvanlıların öz istirahətini mənalı keçirmək üçün istədiyi turizm mərkəzinə səyahət etməsinə imkanlar yaranmışdır.



Elmi ədəbiyyatlarda turizm gəlmə, getmə və daxili turizm kimi tiplərə bölünür. Özünün gəlirliyinə görə bunlar arasında gəlmə və daxili turizm seçilir [6, s. 34]. Daxili turizm ölkə sərhədləri daxilində turistlərin hərəkətidir. Gəlmə turizm isə ölkə sərhədlərini keçməklə bir ölkədən, başqa bir ölkəyə turistlərin səyahətləridir. Həm valyuta gəlirləri, həm də ölkənin tanıdılması baxımından gəlmə turizm həmişə diqqət mərkəzində olmuşdur.

Müstəqilliymizin ilk dövründə ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında turizmin bu tipləri arasında getmə turizm daha çox önə çıxmışdır. Bunun səbəbləri arasında insanların daha çox səyahət etmə tələbinin artması ilə yanaşı, həm də öz turizm sənayemizin zəif olması göstərilə bilər. Doğrudur, keçmiş sovet dönəmindən turizm infrastrukturu qalsa da onlar xaricdəki analoqları ilə müqayisədə komfortca çox geridə qaldığından insanlar daha çox xaricə meyl edir, gəlmə turizm də öz növbəsində çox zəif inkişaf edirdi [4, s. 170]. O dövrdə Naxçıvan Muxtar Respublikasında dünyada mövcud olan standartlar səviyyəsində mehmanxana təsərrüfatının, yol-nəqliyyat infrastrukturunun olmaması gəlmə turizm üçün ən böyük problemlərdən idi.

Ötən dövrdə Naxçıvanda gəlmə turizmin inkişafı üçün mövcud turizm ehtiyatlarının potensialından istifadəyə imkan verən turizm inrfrastrukturunun yaradılması çoxpilləli və mərhələli keçən bir proses olmuşdur. Muxtar respublikada sosial-mədəni şəraitin, yol-nəqliyyat infrastrukturunun yenilənməsi, müasir komfortlu istrahət mərkəzlərinin yaradılması, bütövlükdə, həyata keçirilən müasir quruculuq və abadlıq işlərinin tərkib hissəsi kimi indi öz əhəmiyyətini açıq göstərməkdədir. Bütün bunlar isə dövlətimzin regional inkişafa və qeyri-neft sektoruna veridyi diqqətlə mümkün olmuşdur. Artıq Naxçvana ölkəmizin digər yerlərindən və xarici ölkələrdən il ərzində səyahət edənlarəin sayı 380 min nəfərdən artıqdır. Naxçıvan ildən-ilə abadlaşıb gözəlləşdikcə buraya səyahət edənlərin də sayı getdikcə artmaqdadır. Söz yox ki, bu, Şərqlə Qərbin qovşağında yerləşən Naxçıvanın ümumi inkişafının nəticəsi olub, Azərbaycanın mədəniyyətini dünyaya tanıtmaq üçün yaxşı fürsətdir. Bu imkanlar isə yaxın keçmişdə olmamış, əksinə, sovet hakimiyyəti dövründə sərhədyanı bir bölgə kimi Naxçıvan Muxtar Respublikasına xarici turistlərin səyahətləri məhdudlaşdırılmış, ölkəmizin digər yerlərindən buraya gələnlər üçün isə xüsusi icazə tələb olunmuşdu. Halbuki Naxçıvan Muxtar Respublikası ümumi halda özünün bütün turizm potensialı ilə turistlərə həm zəngin rekreasiya, həm də mənəvi zənginlik təəssüratı vəd edən nadir bölgələrdən biridir. Naxçıvanda təbiət möcüzələri sanki ahəng qanununa tabe olmuş kimi bir-birini tamalamaqda, dərin məzmuna malik olan mədəni ehtiyatlar isə milli qonaqpərvərlik elementləri ilə bitkinlik təşkil etməkdədir.

Müasir turizmin ən mühüm şərtlərindən biri olan təhlükəsizlik və rahat səyahət şərtləri hazırda Naxçıvan Muxtar Respublikasında ən yüksək dərəcədə təmin olunmaqdadır. Qeyd etmək lazımdır ki, sonuncu faktor hazırda bütün turistləri səyahət etdikləri yerlərdə daha çox düşündürən məsələlərdəndir. Naxçıvanda səyahət edən turistlər isə burada onları tam asayiş, gülərüz otel personalı, sakit, qayda-qanunlu şəhər, nümunəvi taksi və dürüst ticarət xidmətləri gözlədiyindən tam əmindirlər.

Naxçıvan Muxtar Respublikasında geniş ekoturizm potensialı vardır. Muxtar respublikanın təmiz havası, mineral su mənbələri, növbələşən landşaft, bitki örtüyü, qorunan unikal canlılar aləmi ekoturizmin müxtəlif növləri üçün geniş imkanlar açır. Müasir Naxçıvan kəndlərində kənd turizminin inikşafı üçün əlverişli imkanlar vardır. Muxtar respublikamızda özəl sektora verilən dəstək isə xidmət sektorunda yerli əhalinin iştirakına, burada yeni sahələrinin yaranıb inkişaf etdirilməsinə münbit şərait yaradır. Bu baxımından, Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzini xüsusilə qeyd etmək lazımdır [9]. Bu mərkəz təkcə burada təklif olunan rekreasiya xidmətləri ilə məhdudlaşmayıb, muxtar respublikada həyata keçirilən sosial layihələrin də bir mərkəzi halına gəlmişdir. Mərkəz ilin müxtəlif fəsillərində burada öz asudə vaxtını səmərəli keçirən məktəbli gənclərin ekoloji tərbiyəsi və müxtəlif həssas əhali qruplarının zəruri tələbatlarının ödənilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Məqsədinə görə turizmin formalarından biri sosial turizmdir. Sosial turizm adından da göründüyü kimi əhalinin sosial cəhətdən müdafiəyə ehtiyacı olan insanların turizm-rekreasiya tələbatlarının ödənilməsi məqsədini güdür [8, s. 1193]. Burada məktəblilərin, tələbələrin, fiziki imkanları məhdud şəxslərin, əhalinin az gəlirli təbəqələrinin və müalicəyə ehtiyacı olanların mənafeləri ön planda tutulur. Buna görə də kommersiya məqsədli turizmlə yanaşı turizmin sosial gücü daha ağır olan növlərindən istifadə olunması zəruridir. Bu baxımdan, Naxçıvan Duzdağında təşkil olunan müalicə turizmi özünün rekreasiya və müalicə əhəmiyyətinə görə bu coğrafiyada analoquna az rast gəlinən bir yerdir [5]. Burada pulsuz müalicə alan Azərbaycan Respublikası vətəndaşları ilə yanaşı 2012-ci ildən başlayaraq Gürcüstandan da gələn kiçik və orta yaşlı uşaqlar üçün eyni şəraitin yaradılması beynəlxalq turizm üçün tutarlı bir nümunədir [7, s. 5]. Ölkəmiz inkişaf edib, iqtisadi imkanları artdıqca onun beynəlxalq aləmdə imicini möhkəmləndirən belə layihələrin də icrası imkanları genişlənir. Bu isə ilk növbədə turizm və digər sosial-mədəni sahələrdə həyata keçirilən işlərin keyfiyyəti ilə əlaqədardır.

Cəmiyyətin inkişafı ilə müxtəlif sahələrdə, o cümlədən turizm-rekreasiya kompleksində özünü göstərən bu keyfiyyət amili sahənin kadr təminatı olmadan mümkün deyildir [3, s. 256]. Təcrübə göstərir ki, turizm sahəsində keyfiyyətli kadr hazırlığı bu baxımdan daha aktualdır. Çünki, insanlara canlı



xidmət göstərilməsi, turizmin dövlət tənzimlənməsi ilə yanaşı dünyada ciddi tələblər qoyulan peşəkar qonaqpərvərlik şərtlərinə əməl olunması məhz bu sahə üzrə mütəxəssis olanların işidir. Bu baxımdan, sosial turizm sahəsindəki münasibətlərin tənzimlənməsi turistlərə lazım olan xidmətlərin göstərilməsi də kadr hazırlığının qarşısında duran vəzifələrdəndir.

Hazırda muxtar respublika ərazisindəki müxtəlif dərəcəli otellərdə yerləşən turistlərə hər cür komfort səviyyəli xidmətlər təklif olunur. Hazırda muxtar respublikada müxtəlif tutumlu 20-dən artıq mehmanxana vardır. Birdəfəlik tutumu 1500 nəfərdən çox olan bu mehmanxanalarda qonaqların rahat gecələmə, burada işgüzar görüşlər keçirmə, restoranlarımızda hazırlanan ləziz milli yeməklərdən dadması mümkündür. Naxçıvanın "Duzdağ", "Təbriz", "Qrand", "Avtovağzal" otellərində qalan turistlər buradakı xidmətlərdən, göstərilən qonaqpərvərlikdən razı qalırlar.

## ƏDƏBİYYAT


1. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2011, 494 s.
2. Məmmədov C.A., Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişafı yolları. Bakı: Mürtəcim, 2004, 212 s.
3. Rəhmanov F.P. Sosial sfera keçid iqtisadiyyatı şəraitində. Bakı: Gənclik, 2002, 265 s.
4. Cabbarov Ə.X. Turizm infrastrukturu və Naxçıvan Muxtar Respublikasında onun müasir vəziyyəti // "İqtisad elmləri: nəzəriyyə və praktika", rüblük nəzəri və elmi-praktiki jurnal, №1-2 (2005-ci il). İqtisad Universiteti nəşriyyatı, Bakı: 2006, s. 167-173
5. Джаббаров А., Рзаев М., Гурбанлы Г. Дары природы: лечебный туризм в Азербайджане. Опыт и перспективы. Национальный туристский журнал "Туристские фирмы". Выпуск 45(13), май 2008. http://fototraveller.ru/articles/dari-prirodi-lechebnii-tyrizm-v-azerbaidjane-opit-i-perspektivi.html
6. Дурович А.П., Кабушкин Н.И., Сергеева Т.М. и др. Организация туризма. Минск: Новое Знание, 2003. 632 с.
7. Jabbarov A., Zulfugarov Z. Social Tourism in Duzdag, Nakhchivan Autonomous Republic within the Republic of Azerbaijan: Resources, Planning and Development. American Journal of Tourism Management 2015, 4(1): 1-6 DOI: 10.5923 / j.tourism.20150401.01
8. Freya Higgins-Desbiolles. More than an "industry": The forgotten power of tourism as a social force. Journal of Tourism Management 27 (2006) 1192-1208.
9. Cabbarov Ə. Şahbuz-Ağbulaq turizm marşrutu. "Şərq Qapısı" qəzeti. 23 avqust 2013-cü il. 156 (20.810)

**Həvva Adıgözəlova**
Naxçıvan Dövlət Universiteti, dosent
E-mail: eva.alieva.2012@mail.ru

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İQTİSADİ İNKİŞAF VƏ SOSİAL PERSPEKTİVLƏR (1995-2015)

Naxçıvan Muxtar Respublikası hüquqi cəhətdən dövlət statusuna malik, blokada şəraitində bazar iqtisadiyyatı yolu ilə inkişaf edən, Azərbaycanın sosial-iqtisadi inkişafının tərkib hissəsidir, onun iqtisadi əlaqələri büdcə-maliyyə və təhlükəsizlik problemlərinin həllində makro və mikro xüsusiyyətlərə malikdir. İlk növbədə bu xüsusiyyətlər onun resurs potensialı, sənaye, kənd təsərrüfatı, turizm və tranzit inkişaf ehtiyatları ilə səciyyələnir. Naxçıvan üçün xarakterik istehsal potensialı özünün istifadə qaydalarının müxtəlif xüsusiyyətlərinə, meyl və qanunauyğunluqlara malikdir. Ərazimizin sosial inkişafı istehsal, rifat və əhalinin demoqrafik tərkibi ilə müəyyənləşir. Təbii artım səviyyəsi, pul gəlirlərinin mənbələri, xüsusi təsərrüfatçılıq formaları və onlardan istifadə yolları uyğun olaraq infrastruktur obyektlərinin xarakter və məzmununa təsir edir. Naxçıvanın geosiyasi vəziyyəti, şərq-qərb dəhlizində tranzit ölkə olması onun iqtisadi əlaqələrini, biznes fəallığını və yaşamaq üçün zəruri əmtəə və xidmət bazarını formalaşdırır. Diyarımızın tarixi keçmişi, dövlətçilik təcrübəsi və etnik həmçinsliyi onun sosial həyatının əsas əlamət və paramerlərini zəruriləşdirir.

Tarixi inkişafa nəzər saldıqda görərik ki, müstəqillik dövründə Naxçıvan iqtisadiyyatının inkişaf problemləri aşağıdakı istiqamətlərdə həll edilirdi [7, s. 254 ]:

1) regionun iqtisadiyyatının təşkili və idarə olunması sahəsində istisadi idarəetmə strukturlarının işindəki nöqsanların aradan qaldırılması, dövlət tənzimlənməsinin və nizam-intizamın möhkəmləndirilməsi;

2) Naxçıvanın iqtisadi strukturlarında islahatların aparılması, bazar iqtisadiyyatı mexanizmlərinin yaradılması və istifadəsi;

3) xarici iqtisadi əlaqələrin və xarici investisiyanın regiona axınının təşkili və s.

Son dövrlərdə Naxçıvan Muxtar Respublikasında yerli istehsal sahələrinin artırılması, investisiya qoyuluşu ilə bağlı böyük iqtisadi artım potensialı əldə olunmuşdur. Bu artım özünü sosial sferada da göstərmişdir. Sosial sahələrin inkişaf etdirilməsi yolunda görülmüş ilkin tədbirlər infrastruktur imkanlarının yaxşılaşdırılması ilə əlaqədardır. Bu işlər nəinki yeni sosial obyektlərin inşaası və ya təmir olunması, həm də onların fəaliyyətinin səmərəliləşdirilməsi və xidmət standartlarının yüksəldilməsi



məsələlərinin həllini tələb edir. Bu məqsədlə sosial infrastrukturun bütün sahələri dərin islahatlara məruz qalmışdır.

Regionun sosial inkişafının təmin edilməsi böyük ölçüdə sosial infrastrukturun inkişafından asılıdır. Müvafiq sahələrə qoyulan investisiyalar sosial infrastrukturun xidmətlərinin intensivləşdirilməsi və keyfiyyət göstəricilərinin artmasına səbəb olacaq ki, bu da regionda inkişafın əsas hərəkətverici qüvvəsi olan insan kapitalının artması ilə nəticələnməkdədir. İnsan kapitalı inkişafın əsas determinantlarından biri olmaqla, cəmiyyətin istər fiziki gücü, istərsə də elmi fəaliyyətlərində malik olduğu bilik və bacarıq kimi göstərilir. Hər hansı bir ölkədə və ya regionda yüksək keyfiyyətli insan kapitalı istehsal amillərində istifadədə yüksək məhsuldarlıq, istehsalda daima yenilik, yüksək texnologiya deməkdir ki, bu da müasir dövrdə iqtisadi rifahın təməlidir [6, s. 392 ]. Beləliklə, iqtisadi inkişafda insan kapitalının rolu artdığı şəraitdə insan və ona xidmət edən sahələrin də inkişaf etdirilməsi aktuallaşır. İnsanın inkişafı onun təkrar istehsalı ilə bağlı bir prosesdir və bu prosesin keyfiyyəti sosial infrastruktur sahələrinin təhsil, səhiyyə, mədəniyyət, rabitə, nəqliyyat, turizm və s. müəssisələrin xidmətlərini əhatə edən sosial infrastrukturun regional aspektləri də regional siyasətdə əsas istiqamətlərdən birinə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası İran İslam Respublikası və Türkiyə Cümhuriyyəti ilə sərhədyanı ticarət əlaqələri, gömrük sistemi və onun iqtisadi fəaliyyət xüsusiyyətlərini yaradır. Əhalinin istehlak tələbatı, məşğulluğu və xarici vətəndaşlara xidmət sferasının inkişafı bu ərazidə istehlak potensialını artırır. Blokada şəraitində nəqliyyat əlaqələrimizin İranla baş tutması idxal-ixrac əməliyyatlarında xüsusi rejim və qaydaların həlli ilə mümkün olur. Naxçıvan Muxtar Respublikasıda xüsusiyyətlər iqtisadi artım, onun meylləri və ona təsir edən amillərlə əlaqədə inkişaf etdirilir. Bu da öz növbəsində idarəetmənin regional problemlərini ortaya qoyur. Muxtar respublikada son 10 ildə inkişaf dinamikası ölkədə baş verən xüsusiyyətlərə uyğun adekvat dəyişir və inkişaf edir.

Sosial yönümlü siyasət müasir şəraitdə Naxçıvanda bir sıra sosial obyektlərin bazar tələblərinə uyğun, mülkiyyət formasından asılı olmayaraq inkişafı ilə əlaqədardır. Sosial obyektlərin özəlləşməsi, azad rəqabət və tənzimləmə işləri region şəraitində həll olunur.

Muxtar respublikada iqtisadi, sosial və mənəvi dəyərlərin saxlanması, inkişafı və təkrar istehsalı üçün vəsaitlərin toplanması və istifadəsi tədbirləri əsas yer tutur. Son illərdə bu məkanda çoxlu sayda sosial infrastruktur obyekti tikilmiş, o cümlədən xeyli obyekt təmir-bərpa olunaraq istifadəyə verilmişdir.

Naxçıvanın böhrandan çıxarılması tədbirlərinin ilkin bəhrələri – siyasi stabillik, sərhəd rayonlarında atəşkəsə nail olunması, iqtisadi potensialdan

səmərəli istifadə yollarının tapılması və xarici ölkələrlə ticarət əməkdaşlığının və yardım əlaqələrinin genişləndirilməsi idi [1, s. 128 ].

Əhalinin ərzaq məhsulları ilə təminatı aparıcı iqtisadi tədbir olaraq həyata keçirilirdi. Naxçıvan əhalisinin ərzaq, enerji və istiliyə olan tələbatının ödənilməsi, Bakı və digər şəhərlərimizlə gediş-gəlişin intensivləşdirilməsi, Sədərək-İqdir yolunun açılması iqtisadi proqram kimi qarşıya qoyulmuşdu. Muxtar respublikanın ərzaq tələbatının daxili imkanlar, habelə Türkiyə və İrandan gətirilən mallar hesabına ödənilməsi əsas istiqamət kimi müəyyən edilmişdi [3, s. 111].

İran İslam Respublikası ilə müqavilələr bağlanaraq, əhalinin gediş-gəlişinin asanlaşdırılması və bəzi ərzaq məhsullarının gətirilməsinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması üçün mütəmadi olaraq yeni tədbirlər hazırlanır və həyata keçirilməkdədir. Uzun illər muxtar respublikanın enerji tələbatını ödəmək üçün Araz çayı üzərində birgə su elektrik stansiyasının İran İslam Respublikasına mənsub olan turbinin istehsal etdiyi enerjinin bir hissəsinin Naxçıvana verilməsi sazişlə tənzimlənmişdir.

Naxçıvan MR-nın kənd təsərrüfatı resurslarından səmərəli istifadə olunması, bazarların tapılması və hazır məhsulun satışı üçün həmsərhəd ölkələrlə bağlanan müqavilələr mühüm əhəmiyyət kəsb edir. Belə sahələrdən biri 2005-2009-cu illərdən bəri yığılıb qalmış bir sıra məhsulların, o cümlədən şərab məmulatlarının emal və satışının təşkili idi. Bu məqsədlə muxtar respublika ilə Türkiyə Cümhuriyyəti arasında müqavilələr əsas rol oynayır.

Mərkəzlə Naxçıvan arasında gediş-gəlişi asanlaşdırmaq üçün Arazboyu qısa məsafədə İran ərazisi ilə keçən yoldan istifadənin böyük əhəmiyyəti vardır.

1992-ci ildə muxtar respublikada ilk müştərək müəssisə yaradılmışdır. Bu müəssisə ayda 40-45 ton duz istehsal edirdi. Sonradan yaradılan və sərnişindaşıma ilə məşğul olan "Naxçıvan-İqdir" birgə müəssisəsi, rabitə əlaqələrinin genişləndirilməsi əsasında 500 kanallıq xaricə çıxış şəbəkəsinin yaradılması və digər işlər Naxçıvanın həyatında mühüm rol oynamışdır.

Naxçıvanla İran arasında 24 avqust 1992-ci il tarixdə bağlanan müqaviləyə görə illik gücü altı milyon kərpic istehsaletmə olan zavod tikilmiş, Naxçıvan şəhərində plastik kütlədən qablar istehsal edən sex, trikotaj fabriki və xalçaçılıq kombinatı üçün lazım olan vəsait ayrılmışdır.

Bu dövr ərzində muxtar respublika həm erməni təcavüzü qarşısında sipər kimi dayandı, həm daxili qruplaşmalar arasındakı ziddiyətləri həll etdi, həm də iqtisadi cəhətdən inkişaf etdi; son nəticədə, qədim ölkəmizin milli dəyərlərini, sosial-iqtisadi potensialını, onun beynəlxalq normalarda təsbit olunan ərazi bütövlüyünü qoruyub saxladı.



Bu gün muxtar respublikada iqtisadi, sosial və mənəvi dəyərlərin saxlanması, inkişafı və təkrar istehsalı üçün vəsaitlərin toplanması və istifadəsi tədbirləri əsas yer tutur. Son illərdə bu məkanda çoxlu sayda sosial infrastruktur obyekti tikilmiş, o cümlədən xeyli obyekt təmir-bərpa olunaraq istifadəyə verilmişdir. Hazırda muxtar respublikada insanların normal yaşayışı üçün kommunal xidmətlərin səviyyəsi davamlı olaraq yüksəldilir, zəruri infrastruktur layihələri həyata keçirilir, əhali fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz, içməli su ilə təmin olunur. Məhz bu baxımdan son illər iqtisadi inkişafda diqqəti cəlb edən əsas amillərdən biri də ümumi daxili məhsul istehsalında tikinti-quraşdırma işlərinin xüsusi çəkisinin davamlı yüksəlişidir.

Son illərdə muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 78 milyon 178 min 500 manat həcmində investisiya yönəldilmişdir [4, s. 569].

Dövlət idarəetməsinin səmərəli təşkili prosesini sürətləndirən mühüm amil kimi inzibati binaların inşası və yenidən qurulması hər zaman diqqət mərkəzindədir. Muxtar respublikada sosial-iqtisadi sahədə davamlı inkişafı təmin etmək, tarazlı regional inkişafa və əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaq məqsədilə kompleks islahatlar həyata keçirilir. Bu islahatların mühüm bir istiqaməti isə muxtar respublikanın mərkəzi ilə yanaşı, digər yaşayış məntəqələrində, kənd və qəsəbələrdə infrastruktur quruculuğu tədbirlərinin sürətləndirilməsindən, əhaliyə dövlət qayğısının bütün hallarda tam əhatəliliyinin təmin olunmasından ibarətdir. Bu məqsədlə cari ilin ilk rübü ərzində də kənd və qəsəbələrdə ictimai həyatın daha da yaxşılaşdırılması üçün quruculuq tədbirləri həyata keçirilmişdir.

Muxtar respublikada mənzil-kommunal təsərrüfatı sektorunda xidmətlərin səviyyəsinin müasir standartlara uyğunlaşdırılması, kommunal xidmətlər sahəsində restrukturizasiya tədbirlərinin sürətləndirilməsi, mövcud istilik sistemlərinin bərpası, modernləşdirilməsi və yenidən qurulması, etibarlı su təchizatının təşkili, su və kanalizasiya sistemlərinin yenilənməsi üzrə mobil mexanizmlər formalaşdırılmışdır.

Muxtar respublikada ətraf mühitə mənfi təsir edən amillərin qarşısının alınması və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün mühüm tədbirlər reallaşdırılır. Su hövzələrinin, havanın, torpağın təbii keyfiyyətinin qorunması, tullantı sularının təmizlənməsi, çirklənmiş torpaqların rekultivasiyası, meşə və yaşıllıqların salınması fasiləsiz olaraq həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasında perspektiv layihələr, sosial-iqtisadi inkişaf meylləri və məqsədlər həmin regionun sosial-demoqrafik tərkibi ilə formalaşır. Bazar tələbi, onun marketinq quruluşu, yeni istiqamətləri

məəyyənləşdirir və onlardan səmərəli istifadənin yollarının axtarılmasına yönəldilir. Perspektiv istiqamətlərin əsaslandırılmasının nəzəri əsasını diyarımızda resurs potensialının qiymətləndirmə proqnozlarının verilməsi və uyğun meyylərə resurs potensialı təşkil edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası 1991-2001. Azərbaycanın müstəqilliyinin bərpasının 10 illik yubileyinə həsr olunur. Bakı: XXI – Yeni nəşrlər evi, 2001, 360 s.
2. Azərbaycanın statistik göstəriciləri 2008. DSK, Бakı: Səda, 2009, 771 s.
3. Azərbaycanın statistik göstəriciləri 2009. DSK, Бакı: Səda, 2010, 768 s.
4. Azərbaycanın statistik göstəriciləri 2010. DSK, Бакı: Səda, 2011, 773 s.
5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları. 2004-2008-ci illər; 2009-2013-cğ illər.
6. "Azərbaycan Respublikası regionlarının iqtisadi inkişafının aktual problemləri" mövzusunda elmi-praktiki konfransın materialları. Bakı: BDU, 2005. 622 s.
7. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, 304 s.
8. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 431 s.
9. Mehdizadə M.M. İqtisadiyyatın transformsiyası və Naxçıvan MR-in sosial-iqtisadi inkişafının problemləri. Bakı: Elm, 2006, 168 s.




# TARİX

**Fəxrəddin Səfərli**
AMEA Naxçıvan Bölməsi, AMEA-nın müxbir üzvü
E-mail: hacifexreddin@yahoo.com.tr

## NAXÇIVANDA TARİX ELMİ: NAİLİYYƏTLƏR, VƏZİFƏLƏR

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yaradılmasını "tarixi nailiyyət" kimi dəyərləndirdiyi Naxçıvan Muxtar Respublikası son iyirmi ildə çox böyük inkişaf yolu keçmişdir. bu inkişaf elm sahəsində, o cümlədən tarix elmi sahəsində də özünü qabarıq şəkildə göstərir. Məlumdur ki, 1988-ci ildə ermənilər tərəfindən ortaya atılan Dağlıq Qarabağ problemi ilə əlaqədar bütün Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında başlayan güclü böhran həyatın bütün sahələri kimi tariximizlə bağlı aparılan elmi tədqiqatlara da öz mənfi təsirini göstərmişdi. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından və ölkədə ictimai-siyasi sabitliyin bərpasından sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun yeritdiyi məqsədyönlü siyasət nəticəsində bölgədə tərəqqi başladı. 1995-ci ilin dekabrından başlanan bu inkişaf yüksələn xətlə genişlənərək intibaha çevrildi. Muxtar respublika geridə qalmış aqrar ölkədən inkişaf etmiş sənaye, kənd təsərrüfatı, elm, təhsil və mədəniyyət mərkəzinə çevrildi, hətta xaricə məhsul ixrac etməyə başladı. Bu hərtərəfli inkişafın çərçivəsində Naxçıvanda tarix elminin inkişafı diqqəti cəlb edir.

Naxçıvanda tarix elminin inkişafında 1996-cı il dönüş nöqtəsi oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə bu ildə Naxçıvan şəhərində keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumu həmin dönüşün başlanğıcı oldu [9]. Həmin dövrdə ölkədə ictimai-siyasi sabitlik bərpa olunsa da, hələ ölkənin vəziyyəti ürək açan deyildi. Buna baxmayaraq bütün respublikada olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da tarixi tədqiqatlar genişlənməyə başladı. Ümummilli lider Heydər Əliyevin tapşırığı, Ali Məclisin Sədri Vasif Talıbovun xüsusi Sərəncamı ilə 2001-ci ildə Ordubad rayonu ərazisindəki Gəmiqaya abidəsində geniş tədqiqat işləri aparıldı. Bu tədqiqatlar 2002, 2005 və 2010-cu illərdə də davam etdirildi. Nəticədə Gəmiqaya təsvirləri ilə əlaqədar çoxlu məqalələr, kitab və monoqrafiyalar yazıldı.

Muxtar respublikada tarix elminin inkişafında Ali Məclis Sədrinin təşəbbüsü, Ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə 2002-ci ilin avqustunda AMEA Naxçıvan Bölməsinin və onun nəzdində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun yaradılması mühüm rol oynadı. Bununla da ermənilərin Azərbaycana qarşı ərazi iddialarında əsas yer tutan Naxçıvanın tarixinin bütün problemlərinin, həmçinin diyarın



arxeologiyasının, etnoqrafiyasının, epiqrafikasının, ümumiyyətlə maddi-mədəniyyət abidələrinin dərindən, ətraflı və sistemli şəkildə öyrənilməsi üçün münbit şərait yaradıldı, bu sahədə tədqiqatçılara böyük imkanlar və geniş meydan verildi.

Bölgədə tarix elminin inkişafında muxtar dövlətimizin başçısı Vasif Talıbovun imzaladığı bir sıra Sərəncamların əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Əshabi-Kəhf, Gəmiqaya, Açıq Səma altında muzey, Nuh türbəsinin bərpası və s. haqqında imzalanan sərəncamlar bölgədə tarix elminin inkişafı və tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynamışlar. 6 dekabr 2005-ci ildə imzalanan "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq bölgə ərazisində 1202 abidə pasportlaşdırıldı. 825-i elmi dövriyyəyə yeni daxil edilən bu abidələrin 57-si dünya, 485-i ölkə, 660-ı yerli əhəmiyyətlidir. Həmin abidələrdən 555-i əsasında Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri ensiklopediyası" hazırlanaraq nəşr etdirildi, Naxçıvanda ermənilərə məxsus abidələrin olmaması sübuta yetirildi [5].

Etiraf etmək lazımdır ki, yüksək dövlət qayğısı olmasaydı bu cür möhtəşəm və ağır işi qısa müddətdə başa çatdırmaq mümkün olmazdı. Bu məsələ ilə əlaqədar Ali Məclisin Sədri vaxtaşırı işçi qrupu qəbul etmiş, vəziyyətlə tanış olmuş, yaranmış problemləri yerindəcə həll etmiş, işin keyfiyyətinə müsbət təsir edən töfsiyyə və tapşırıqlarını vermişdir. Nəticədə qarşıya qoyulan məqsəd uğurla həyata keçirilmişdir.

Ali Məclis Sədrinin müxtəlif vaxtlarda imzaladığı bir sıra Sərəncamlar əsasında Naxçıvan şəhərində keçirilən beynəlxalq simpoziumlar, o cümlədən "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" (2009), "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" (2011), "Naxçıvan: ilkin şəhər və Duzdağ" (2012) beynəlxalq simpoziumları bölgədə tarix elminin inkişafına mühüm töhfələr verdi. 2014-cü ildə keçirilən "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" beynəlxalq simpoziumu, orada Naxçıvan Muxtar Respublikası tarixinin müxtəlif problemlərinin dərindən təhlil olunması muxtar respublikanın 90 illik yubileyinə çox sanballı bir töhfə oldu. Çox yaxşı haldır ki, muxtar respublika rəhbəri bu elmi məclislərin bir neçəsində iştirak və çıxış etmişdir. Bu sıradan Ali Məclis Sədrinin Gəmiqayada 2001, 2002 və 2005-ci illərdə aparılan tədqiqatların yekunlarına həsr olunan və 2005-ci ildə abidənin özündə keçirilən müşavirədə [11] və 2009-cu ildə Naxçıvan şəhərində keçirilən "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" [10, s. 10-16], 2014-cü ildə keçirilən "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" [8] beynəlxalq simpozimlarında iştirakını və çıxışını xüsusilə vurğulamaq

yerinə düşər. Bütün bunlar isə öz növbəsində bölgədə tarixi tədqiqatların inkişafına öz müsbət təsirini göstərmişdir.

2010-cu ildə işıq üzü görən "Naxçıvan tarixi atlası" [7], Ali Məclis Sərinin 7 fevral 2012-ci ildə imzaladığı "Naxçıvan tarixi çox cildliyinin hazırlanması barədə" Sərəncama uyğun olaraq 2013-2015-ci illərdə hazırlanan 3 cildlik "Naxçıvan tarixi" tarixçi alimlərimizin ən böyük uğurlarındandır [6]. Həmçinin, Naxçıvanda ilkin şəhər mədəniyyətinin 5 min il əvvəl meydana gəlməsi istiqamətində tarixçilərimizin apardığı tədqiqatlar da əldə olunan uğurlar sırasındadır. Son illərdə tarixçi alimlərimizin Naxçıvan tarixinin müxtəlif problemlərinə, arxeologiyasına, etnoqrafiyasına, epiqrafikasına və s. aid bir sıra sanballı əsərləri işıq üzü görmüşdür.

Naxçıvanda yaşayıb yaradan tarixçi alimlər öz fəaliyyətləri ilə Azərbaycan miqyasından kənara çıxaraq, tanınmış alimlərlə əlaqələr saxlayır, bir sıra xarici ölkələrdə keçirilən mötəbər elmi konfrans və simpoziumlarda iştirak və çıxış edir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırlar.

Son 20 ildə keçmiş irsə hörmət və ehtiram, muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələrinə diqqət və qayğı yüksək səviyyədə olmuşdur. İntibah dövrü kimi xarakterizə olunan bu müddətdə bölgədəki bir sıra tarix-mədəniyyət abidələrində, müqəddəs yerlərdə (Əshabi-Kəhf, imamzadələr, xanəgahlar, məscidlər, qalalar, türbələr, hamamlar və s.) bərpa və abadlıq işləri aparılmış, onlara yeni həyat verilmişdir. Ali Məclisin Sədri abidələr bərpa və təmir olunarkən işlərin gedişi ilə yerində tanış olmuş, tövsiyə və tapşırıqlarını vermiş, orijinallığın saxlanmasına və keyfiyyətə xüsusi diqqət yetirmişdir. İndiyədək təxminən 60 tarixi abidə bərpa olunaraq xalqa çatdırılmışdır. Hazırda xalqımızın məğlubedilməzlik simvoluna çevrilmiş Əlincəqalada və Azərbaycan xatirə memarlığının incilərindən olan Gülüstan türbəsində abadlıq işləri aparılmaqdadır. Naxçıvan şəhərində Nuh peyğəmbərin və Hüseyn Cavidin qəbri üzərində möhtəşəm türbələrin ucaldılması tarixi keçmişimizə hörmət və ehtiramın parlaq ifadəsidir.

1996-2015-ci illərdə Naxçıvanda tariximizin müxtəlif dövrlərinə aid maddi-mədəniyyət nümunələrinin qorunub saxlandığı, nümayiş və təbliğ etdirildiyi, həm də elmi tədqiqatlar aparıldığı muzeylər də diqqətdən kənarda qalmamışdır. Muxtar respublikanın Ali vəzifəli şəxsinin tapşırığı ilə bir sıra muzeylərdə təmir-bərpa işləri aparılmış, Naxçıvan Dövlət Tarix Muzeyi yeni binaya köçürülmüş, "Dövlət Xalça Muzeyi" üçün yeni bina inşa edilmiş, xüsusi Sərəncamla Heydər Əliyev Muzeyi, Açıq səma altında muzey, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, "Naxçıvanqala" Tarix – Memarlıq Muzey Kompleksi və bir neçə görkəmli şəxsiyyətin ev muzeyi yaradılmışdır [4].



Bölgədə aparılan elmi tədqiqatların genişləndirilməsinin, keyfiyyətinin yüksək ixtisaslı kadrlardan asılı olduğunu nəzərə alaraq bütün siyasi fəaliyyəti ərzində yeni alim kadrların hazırlanmasına böyük önəm verən Ali Məclisin Sədri Bakıda hazırlanan kadrlarla kifayətlənmədi, Naxçıvanda da tarixçi kadrların hazırlanması sahəsində əvəzolunmaz işlər gördü. Bu məqsədlə o, Naxçıvanda "Filologiya" ixtisası ilə yanaşı "Vətən tarixi" ixtisası üzrə də alimlər hazırlamaq üçün Dissertasiya Şurasının yaradılmasına nail oldu və 1996-cı ildən başlayaraq NDU-da "Vətən tarixi" ixtisası üzrə alim kadrlar hazırlanmağa başlandı [2, s. 69]. 2005-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təşəbbüsü, Azərbaycan Respublikasının Prezidenti, ulu öndər Heydər Əliyev kursunun layiqli davam etdiricisi İlham Əliyevin razılığı ilə AMEA Naxçıvan Bölməsində "Vətən tarixi" ixtisası da daxil olmaqla üç ixtisas üzrə ("Vətən tarixi", "Arxeologiya", "İqtisadiyyat") namizədlik dissertasiyalarının müdafiəsi keçirilən Dissertasiya Şurası fəaliyyətə başladı. 2013-cü ildən etibarən bu Dissertasiya Şurası elmlər doktoru və fəlsəfə doktoru hazırlayan şura kimi fəaliyyət göstərir.

Naxçıvanda yüksək ixtisaslı tarixçi kadrların yetişdirilməsində bu Dissertasiya Şuraları nəzdində təşkil olunmuş Birdəfəlik Dissertasiya Şuralarının böyük rolu olmuşdur. Naxçıvanda "Vətən tarixi" ixtisası üzrə müxtəlif vaxtlarda təşkil olunmuş Birdəfəlik Dissertasiya Şuralarında, hazırda AMEA Naxçıvan Bölməsinə uğurla rəhbərlik edən, İsmayıl Hacıyev 4 sentyabr 1999-cu ildə "Naxçıvan Muxtar Respublikası Azərbaycan milli dövlətçilik tarixində" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. Onun ardınca AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru vəzifəsində çalışan Fəxrəddin Səfərli 25 sentyabr 2004-cü ildə "Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər" mövzusunda, həmin institutun direktor müavini, Qadir Qədirzadə 4 dekabr 2004-cü ildə "Ailə və məişətlə bağlı adətlər, inamlar və etnogenetik əlaqələr" mövzusunda Birdəfəlik Dissertasiya Şurasında uğurlu doktorluq dissertasiyası müdafiəsi etmişlər. İnstitutun şöbə müdiri, Vəli Baxşəliyev 2005-ci ilin 27 mayında Bakı şəhərində "Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsinə laiq görülmüşdür. Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasının müdiri Zəhmət Şahverdiyev, NDU Həmkarlar İttifaqı Komitəsinin Sədri, mərhum Həmzə Cəfərov, Naxçıvan Muxtar Respublikası Arxivlər İdarəsinin rəisi Fəxrəddin Cəfərov da AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərən Dissertasiya şurasında dissertasiya müdafiə edərək tarix üzrə elmlər doktoru elmi dərəcəsi almışlar. Naxçıvanda yaşayan tarixçi alimlərdən İsmayıl Hacıyev AMEA-nın həqiqi üzvü,

Fəxrəddin Səfərli, Qadir Qədirzadə, Vəli Baxşəliyev və Zəhmət Şahverdiyev Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişlər. Naxçıvanda fəaliyyət göstərən tarixçi alimlərin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə bir nəfər (İsmayıl Hacıyev) "Şöhrət" ordeni, üç nəfər (Qadir Qədirzadə, Vəli Baxşəliyev, Musa Quliyev) "Tərəqqi" medalı ilə təltif olunmuş, iki nəfər (İsmayıl Hacıyev, Hacıfəxrəddin Səfərli) "Əməkdar elm xadimi", iki nəfər (Zəhmət Şahverdiyev, Zeynəb Quliyeva) Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

Ulu öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqət və qayğısı sayəsində, Naxçıvan Muxtar Respublikasında yaradılan yüksək münbit şəraitin nəticəsi olaraq Naxçıvanda 1996-cı ildən bəri 7 tarix elmləri doktoru, 30-a yaxın tarix üzrə fəlsəfə doktoru hazırlanmışdır. Bu göstərici Azərbaycan üzrə orta göstəricidən çox yüksəkdir. Çox fərəhli haldır ki, artıq Naxçıvanda hazırlanan tarixçi kadrların içərisində həm də diyarın arxeologiyası, etnoqrafiyası, epiqrafikası, numizmatikası ilə məşğul olan tədqiqatçılar da yetişmişdir.

Burada bir cəhəti xüsusilə vurğulamaq lazımdır ki, Naxçıvanda fəaliyyət göstərən Dissertasiya Şuraları təkcə Naxçıvan MR-sı üçün deyil, hətta Azərbaycanın məşhur elm və ali təhsil ocaqları üçün də tarixçi kadrlar hazırlayır. Məsələn, Bakı Dövlət Universitetinin prorektoru Sani Hacıyev, Azərbaycan MEA "Elm tarixi" institutunun direktoru Məryəm Seyidbəyli, AMEA Milli Azərbaycan tarixi muzeyinin direktor müavini Nərgiz Əliyeva, keçmiş millət vəkili Həvva Məmmədova və başqaları AMEA Naxçıvan Bölməsində uğurlu doktorluq dissertasiyası müdafiə etmişdir. Bu siyahıya Türkiyə Cümhuriyyətindən, İran İslam Respublikasından və Azərbaycanın bir sıra şəhərlərindən gələrək Naxçıvanda dissertasiya müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almış digər tədqiqatçıları da əlavə etmək olar.

Aparılan uğurlu və məqsədyönlü siyasət öz bəhrəsini vermiş, nəticədə Naxçıvanda böyük tarixçilər ordusu formalaşmışdır. Qeyd etmək yerinə düşər ki, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxelologiya İnstitutu 2003-cü ilin yanvarında 1 nəfər tarix elmləri doktoru, 3 nəfər tarix elmləri üzrə fəlsəfə doktoru və bir neçə dissertantla fəaliyyətə başlamışdır. Hazırda İnstitutda 4 nəfər tarix elmləri doktoru (onlardan biri akademik, üçü müxbir üzvdür), 8 tarix üzrə fəlsəfə doktoru çalışmaqdadır.

Naxçıvanda yetişən tarixçi alimlər bütün Azərbaycan üçün tarixçi kadrların yetişdirilməsi sahəsində uğurlu fəaliyyət göstərirlər. Artıq Naxçıvanda yaşayıb işləyən alimlər Azərbaycanın digər şəhərlərində çalışan



tədqiqatçılara, hətta türk tədqiqatçılarına elmi rəhbərlik edir, Bakıya opponent kimi dəvət olunur, AMEA Naxçıvan Bölməsi və NDU müxtəlif Dissertasiya Şuraları tərəfindən aparıcı müəssisə kimi seçilir, Bakıda, Gəncədə və digər şəhərlərdə, habelə Türkiyədə, İranda, Rusiyada çalışan tarixçi alimlər əsərlərini Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tanınan və yüksək qiymətləndirilən AMEA Naxçıvan Bölməsinin Xəbərlərində və NDU-nun elmi əsərlərində nəşr etdirməyə üstünlük verirlər.

Tarixçi kadrların hazırlanmasında və yetişdirilməsində Naxçıvanda fəaliyyətinə ümummilli liderimiz Heydər Əliyev tərəfindən xeyir-dua verilmiş "Qeyrət", "Əcəmi", "Tusi", "Təhsil" və s. bu kimi nəşriyyatların, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvan" ictimai–siyasi, ədəbi–bədii, elmi–publisistik jurnalının AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Müəllimlər İnstitutunun Xəbərlərinin, Naxçıvan Dövlət Universitetinin əsərlərinin, "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının da xüsusi rolu olmuşdur. Naxçıvanda çalışan tarixçi alimlər Bakıda fəaliyyət göstərən nəşriyyatlarda, elmi yurnal və məcmuələrdə olduğu kimi, əsərlərini adları yuxarıda qeyd olunan bu nəşriyyat və elmi jurnallarda da nəşr etdirirlər.

Naxçıvanda yaşayıb yaradan tarixçi alimlər öz fəaliyyətləri ilə Azərbaycan miqyasından kənara çıxaraq, bir sıra xarici ölkələrdə keçirilən mötəbər elmi konfrans və simpoziumlarda iştirak və çıxış edir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırlar.

Yüksək dövlət qayğısı nəticəsində indi AMEA Naxçıvan Bölməsində və NDU-da doktorantura və dissertantlıq yolu ilə tarixçi kadrların hazırlanmasına başlanmışdır. Bundan əlavə ümummilli liderimizin tövsiyyə və tapşırıqlarına uyğun olaraq AMEA-nın Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutları da Naxçıvanda yaşayıb işləyən gənclərin doktorantura və dissertantlıq yolu ilə yüksək ixtisaslı tarixçi kadr kimi yetişdirilməsi üçün öz yardım və köməklərini əsirgəmirlər. Bütün bunlar isə öz müsbət səmərəsini verməkdədir.

Bütün bunlar heç də asanlıqla əldə olunmamış, Ali Məclis Sədrinin yorulmaz, dönməz, ardıcıl və məqsədyönlü fəaliyyəti, ümummilli lider Heydər Əliyevin işləyib hazırladığı inkişaf strategiyasının uğurla həyata keçirilməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində başa gəlmişdir. 16 dekabr 1995-ci ildə muxtar respublikaya rəhbər seçilərkən "Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm" [3, s. 6] – deyən Vasif Talıbovun xalq tərəfindən haqlı olaraq "intibah dövrü" kimi dəyərləndirilən son 20 illik

zaman kəsiyində həyata keçirdiyi möhtəşəm işlər, yaratdığı möcüzələr, bütövlükdə şah əsəri olan müasir Naxçıvan bir daha təsdiq edir ki, ulu öndər Heydər Əliyevin işləyib hazırladığı, Azərbaycan Prezidenti İlham Əliyevin və ümummilli liderin ən yaxın silahdaşı Vasif Talıbovun şəraitə uyğun olaraq yaradıcılıqla inkişaf etdirdiyi inkişaf strategiyası bütün zamanlar üçün alternativi olmayan və ölkəmizi daha işıqlı gələcəyə aparan mükəmməl bir təlimdir.

Naxçıvanda yaşayıb çalışan tarixçi alimlər əldə olunan uğurlarla kifayətlənmir, ulu öndər Heydər Əliyevin tövsiyyə və tapşırıqlarını, xüsusilə onun AMEA Naxçıvan Bölməsinin yaradılması münasibəti ilə 2002-ci ilin avqustunda Naxçıvan MR Ali Məclisində keçirilən müşavirədə tarixçi alimlərin qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsi, göstərilən etimadı doğrultmaq üçün öz bilik, bacarıq və qüvvələrindən maksimum istifadə edirlər. Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan tarixçilərinin qarşısında çox şərəfli və məsuliyyətli bir vəzifə qoymuşdur: "Vaxt gəlib çatıb ki, müstəqillik dövrünə həsr edilən sanballı elmi əsər yaradılsın. Gələn il biz müstəqilliyimizin 25 illiyini qeyd edəcəyik. Hesab edirəm ki, o vaxta qədər əgər belə sanballı elmi əsər yaradılarsa, bayramımıza çox yaxşı töhfə ola bilər" [1, s. 4]. Bu vəzifənin yerinə yetirilməsi çərçivəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının da müstəqillik dövrü tarixinin yazılması naxçıvanlı tarixçilərin qarşısında aktual bir vəzifə kimi durur. Həmçinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamına və tövsiyyəsinə əsasən AMEA Naxçıvan Bölməsində aid tədqiqatçıların daxil olduğu "Gülüstan türbəsi" və "Əlincəqala" tədqiqat qrupları yaradılmışdır. Tədqiqat qruplarının qarşısında Orta əsr Azərbaycan memarlığının əm möhtəşəm nümunələrindən biri olan Gülüstan türbəsinin və Azərbaycan xalqının məğlubedilməzlik rəmzi olan Əlincəqalanın bərpasının elmi əsaslarla aparılmasını təmin etmək, bu abidələrin tədqiqini həyata keçirmək və onların hər biri haqqında ayrıca kitab hazırlanması kimi məsul vəzifə qoyulmuşdur. Ona görə də tarixçi alimlərimiz bu vəzifələrin uğurlu həllinə nail olmaq üçün səylə çalışırlar.

## ƏDƏBİYYAT


1. "Elm" qəzeti. 20 noyabr 2015-ci il (№22 (1139)).
2. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının misilsiz inkişaf yolu. "İntibahın 15 ili" kitabında, s. 29-88. Naxçıvan: "Əcəmi" NPB, 2010, s. 29-88.
3. Həbibbəyli İ. Yeniləşən Naxçıvanın möhtəşəm hesabatı. "İntibahın 15 ili" kitabında, s. 5-28. Naxçıvan: "Əcəmi" NPB, 2010, 280 s.





4. "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı. "Şərq qapısı" qəzeti, 26 oktyabr 2010-cu il, sayı: 200 (20114).
5. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: "Əcəmi" NPB, 2008, 521 s.
6. Naxçıvan tarixi. 3 cilddə. Naxçıvan : "Əcəmi" NPB, 2013-2015.
7. Naxçıvan tarixi atlası. Bakı: 2010, 56 s.
8. Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. 04-05 iyul 2014-cü ildə keçirilmiş beynəlxalq konfransın materialları. Naxçıvan : "Əcəmi" NPB, 2015, 328 s.
9. Naxçıvan tarixinin səhifələri. "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları. Bakı: ADPU-nun mətbəəsi, 1996, 222 s.
10. "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusunda keçirilən beynəlxalq simpoziumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı. Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2010, 300 s.
11. "Şərq qapısı" qəzeti. 22 iyul 2005-ci il, sayı 139 (17.815).

**Qadir Qədirzadə**
AMEA Naxçıvan Bölməsi, AMEA-nın müxbir üzvü
E-mail: hqadirzade@yahoo.com.tr

# MİLLİ DƏYƏRLƏRİMİZ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

Məsələyə keçməmişdən öncə milli dəyər anlayışına yığcam halda nəzər yetirməyi məqsədəuyğun sayırıq. Milli dəyər öncə özünü millət kimi dərk etmək, tarixin alt qatlarında yaranmış, uzun illərin sınağından keçərək sintez olunmuş mədəniyyət məcmuna sahib çıxmaq, onu müasir tələblər daxilində zənginləşdirmək və nəsillərdən-nəsillərə ötürərək yaşatmaqdan ibarətdir. Milli dəyər maddi və mənəvinin vəhdəti və ya mənəvinin maddidə təzahür formalarından biri olmaqla özündə tarixi keçmişi, ilkin münasibətlərin milli münasibətlərə çevrilməsi prosseslərini qoruyub saxlayan şərtlər sayılır ki, buradan da milli mədəniyyətin formalaşması yaranır. Milli mədəniyyət anlayışının əsas şərtlərindən biri də mənəvinin maddidə təcəlləsidir. İnsan maddi və mənəvinin ən kamil numunəsi olduğundan hər ikisinin inkişafı ondan asılıdır. İnsanın yaratdığı, çalışaraq düzəltdiyi, fiziki əməyinin məhsulu olan hər şeyi maddi mədəniyyətə aid etmək olar. Təbii ki, butun maddi geniş anlamda müəyyən düşüncənin nəticəsidir. Sadədən-mürəkkəbə tikililər, sənətkarlıq nümunələri, məşğuliyyət sahələri və s. insan düşüncəsinin təzahür formasıdır. Deməli, insanın yaratdığı hər maddinin mayasında mənəvilik, dünyabaxışı, təbii-coğrafi amillər, regionallıq, ənənəvilik dayanmaqla, sonda təklərin, ayrıların vəhdətindən millilik meydana gəlir. Bu baxımdan mənəvinin yuksək təsiri olmadan millinin təzahuru mümkun deyil. Millət anlayışına uyğun olaraq milli dəyərlər müəyyən zaman və məkan daxilində, ümumi dil, mənəvi-psixoloji, tarixi-coğrafi əraziyə, uzun illər boyu formalaşmış adət-ənənəyə uyğun olaraq yaranmış mədəniyyətdir [3, s. 8].

Ulu öndərimiz Heydər Əliyev milli-mənəvi dəyərlərin cəmiyyətin, xalqın həyatında mühüm rol oynadığını, bu dəyərlərdən məhrum olan xalqların məhvə məhkum olduğunu birmənalı şəkildə vurğulayırdı: "Milli ideologiyamızın əsas hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz". Hər xalqın milli dəyərləri həmin xalqın milli təfəkkürünün məhsulu hesab edilir və xalq onları qoruyub saxlamaqla var olur. Bu sözlər ümummilli lideri Heydər Əliyevin aşağıdakı kəlamında öz əksini tapmışdır: "...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı-



Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" [2, s. 245].

Milli dəyərləri qorumaqla bağlı xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmış kurs Naxçıvanda uğurla davam etdirilərək onların qorunub saxlanılması, hərtərəfli tədqiqi ilə əlaqədar ardıcıl işlər görülməkdədir. "Naxcıvan Azərbaycanın ayrılmaz bir hissəsidir, gözəl bir diyarıdır və Azərbaycan ərazisində ən qədim insan məskənlərindən biridir. Naxcıvanın gözəl təbii abidələri var. Gəmiqaya dunyada məşhur bir yerdir. O, bizim boyuk sərvətimizdir. Gəmiqaya daşlarında Qobustan qayalarındakı kimi rəmzlər var. Orada insanın qoyduğu izlər var. Bu, bizim, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixidir. Bunlarla məşğul olmaq lazımdır" tövsiyəsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 26 aprel 2001-ci il, "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" və 28 iyun 2006-cı il "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarustu turbəsinin bərpa edilməsi haqqında" sərəncamları Gəmiqaya abidəsinə, Nuh peyğəmbər və Dunya Tufanı məsələlərinə yeni nəfəs verdi. Bu sahədə araşdırmaları sözün həqiqi mənasında yeni, dinamik inkişaf yoluna yönəltdi. Məhz bu sərəncamlara uyğun olaraq 2001-2003, 2005-ci illərdə Gəmiqayaya geniş tərkibli, beynəlxalq səviyyəli ekspedisiyalar təşkil edildi. Bu möhtəşəm abidə özünun əsl tədqiqini tapdı. Cox sayda kitablar, məqalələr nəşr edildi. Məsələ bununla bitmədi. Tarixdə və yaddaşlarda qorunub saxlanan, Naxcıvanı bəşəriyyətin ikinci beşiyi səviyyəsinə qaldıran Nuh (ə.s.)ın məzarının bərpası dunyaya yeni bir mesaj göndərdi: - Bəşərin ikinci atası tarixən burada olub, bu gun də buradadır!

Naxçıvan MR Ali Məclisi Sədrinin "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında"kı sərəncamı (28 iyun 2006-cı il) əsasında həyata keçirilən tədbirlər böyük əhəmiyyətə malikdir. Abidə tarixi qaynaqlardan əldə edilmiş məlumatlara və Naxçıvanın çoxəsrlik memarlıq ənənələrinə istinad edilməklə bərpa edilib. 2008-ci ildə ucaldılmış Nuh türbəsi həm də Naxçıvan diyarının böyük sivilizasiyanın beşiyi olduğunu bir daha təsdiqləyir.

Milli dəyərlərə böyük önəm verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: "Tarix sübut edir ki, hər bir xalqı yaşadan onun milli dəyərləri-dili, adət-ənənələri, mədəniyyətidir". Bəli, xalq onda var olur ki, onun min illər boyu yaradıb el süzgəcindən keçərək qorunan və milli dəyərinə çevrilən maddi və mənəvi sərvətləri vardır. Milli dəyərlər onda dayanıqlı olur ki, xalqın onu qoruması, yaşatması ilə yanaşı, onlara dövlət qayğısı yüksək səviyyədə olur. Son 20 ildə bu sahəyə diqqət artırılmaqla ciddi tədbirlər görülüb, 2012-ci il muxtar respublikamızda "Milli dəyərlər ili" elan olunub. Təbii ki, buna qədər

muxtar respublikada milli dəyərlərin, milli irsin tədqiqi, qorunub saxlanması, təbliği ilə əlaqədar bir sıra tədbirlər reallaşdırılıb. Bu sahədə ciddi dönüş 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" Beynəlxalq Simpoziumu ilə başlayıb və sonralar ardıcıl olaraq çox sayda sərəncamlar verilməklə bir müsahibədə ifadəyə deyil, cildlərlə kitablara sığmayacaq nəticələr əldə edilib. Hər bir məsələnin yetişməsinə, tədrici inkişafına xüsusi önəm verilməklə onun zamanında həll edilməsi, dövlət səviyyəsində tədbirlər görülməsi gündəmə gətirilir. Eyni vəziyyəti biz "Milli dəyərlər ili"nə qədərki tədbirlərdə də görürük. Naxçıvanda elm, təhsil, mədəniyyətlə bağlı ardıcıl sərəncamlar verilir, tədbirlər həyata keçirilir və bütün bunlar yeni bir tədbirin həyata keçirilməsinə hərtərəfli şərait yaradır. Bunları nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 7 fevral 2009-cu il tarixdə "Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncam imzaladı. Həmin Sərəncamda milli-mənəvi dəyərlərimizin digər sahələri ilə yanaşı, milli geyimlərin, milli mətbəxin öyrənilməsinə və təbliğinə də xüsusi diqqət yetirmək əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. Sərəncamda deyilir ki, "Milli geyim və milli mətbəx xalq yaradıcılığının ən mühüm sahələrindən biridir. Naxçıvanda bu sahələr daha qədim dövrlərdən yaranmış, təbii-coğrafi şəraitə uyğun olaraq formalaşmış, inkişaf etmiş, hər əsrdə özünəməxsus milli cəhətlərlə daha da zənginləşmişdir". Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığının inkişafı və onun qorunub saxlanması istiqamətində bir sıra işlər görülmüş, folklor kollektivlərinin və xalq teatrlarının fəaliyyəti gücləndirilmiş, onlar milli geyim dəstləri ilə təmin olunmuşlar. Hal-hazırda muxtar respublikada 50 folklor kollektivi mövcuddur. Bu kollektivlərin 600-ə yaxın üzvü xalq yaradıcılığının bu və ya digər sahələrini qoruyub yaşatmaqdadırlar. Bundan əlavə 2009-cu il 7 fevral tarixli Sərəncamına uyğun olaraq, Naxçıvan Aşıqlar Birliyi fəaliyyətə başlayıb. Eyni zamanda "Naxçıvan tikmələri", "Naxçıvan mətbəxi" adlı kitab nəşr edilmiş, bu kitablarda qədim tikmə sənətimiz, tikmə sənətimizin müxtəlif növləri barədə, mətbəx mədəniyyəti, çeşidli milli yeməklərimiz haqqında geniş məlumat verilmişdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin birgə layihəsi ilə xalq yaradıcılığının ən qədim nümunələrini özündə əks etdirən Şərur yallılarından ibarət "Yallı" kompakt diski hazırlanmışdır. Bu cür kompakt diskinin hazırlanması yallılarımızın təbliği və gələcək nəsillərə ötürülməsi baxımından mühüm və əlamətdar hadisə olmuşdur. Həmçinin uşaq və gənclər xalq sənəti sahələrinə cəlb olunmuşdur. Ümumiyyətlə, Sərəncamda maddi və mənəvi mədəniyyətimizin aparıcı sahəsi olan xalq yaradıcılığının, el sənətkarlığının əsaslı şəkildə öyrənilməsi,



bununla bağlı etnoqrafik və folklor materiallarının yenidən toplanması, sistemləşdirilməsi və elmi şəkildə araşdırılması ciddi vəzifə kimi qarşıya qoyulur. Bəli, bu kimi tədbirlər nəticəsində xeyli sayda sanballı kitablar, əsər və məqalələr yazılmışdır [5 dekabr 2012].

Milli dəyərbrimizin ən zəngin sahələrindən biri tarixi-memarlıq abidəbridir ki, Naxçıvan bölgəsi bu sahədə diqqət çəkən xüsusiyyətə-Naxçıvan memarlıq məktəbinə malikdir. Bu memarlığın özünəməxsusluqlarından biri Türk-İslam düşüncə tərzinin vəhdətində, simmetriya və harmoniya məsələlərindədir. Möminə Xatın türbəsi bunun ən parlaq nümunələrindən biridir. Bütövlükdə tikililər maddini təmsil etsələr də onlar hər şeydən əvvəl bir düşüncənin, mənəvinin maddi formada təzahürüdür. Bu maddi ayrıca olaraq millini təmsil edə bilməz. Onun milliliyi türbənin tikiliş məqsədində, memarlığında, ornamentlərin simmetriya və harmoniyasmda, geniş anlamda türk memarlığının, düşüncə tərzinin İslami dəyərlərlə vəhdətindədir. Burada varislik, ənənəvilik, o dövr üçün müasir sayılan islamçılıq məsələlərinin vəhdətinə əməl edilərək gələcək nəsillərə ötürülərək yaşadılan məktəb yaradı lmışdır. Sonralar milli dəyərlərimizi qiymətli nümünələri olan bir sıra tarixi-memarlıq abidələri bu məktəbin təsirindən meydana gəlmişdir. Hazırda da Naxçıvanda bu məktəb milliliyin və müasirliyin vəhdəti halında davam etdirilməkdədir.

Milli dəyərlərimizdən biri də geyimdir. Geyim insan həyatı üçün zəruru olan və onu fərqləndirən əsas amillərdən biridir. Uzunmüddətli araşdırmalara söykənərək demək olar ki, geyim insan hayatının ən zəruru şərtlərindən biridir. İlk insan geyimdən isti-soyuqdan qorunmaqdan çox ayıbını gizlətmək məqsədi ilə istifadə etmişdir. Bu öz əksini qədim təsvirlərdə də tapmışdır. Bəziləri geyim mədəniyyətini daha çox təbii-coğrafi amillərlə səciyələndirsə də onun etik tərəfi əsas götürülməlidir. Problemdən danışarkən bir məsələni də qeyd etmək gərəkdir ki, bütövlükdə umummilli olan milli dəyərlərimizin hər birində regional xüsusiyyətlər ayrıcalıq təşkil edir. Nümunə olaraq biçmə, tikmə, bəzək və rəng baxımından fərqli cəhətlərə malik olan Naxçıvan, İrəvan, Borçalı, Qarabağ, Gəncə-Qazax, Bakı, Güney Azərbaycanın müxtəlif bölgələrini və s. zonaları göstərmək olar ki, bu da etnoqrafik baxımdan qanunauyğun haldır. Təbii ki, bu məsələlərdə əhalinin məşğuliyyət sahələri də ciddi rol oynayır [4, s. 64-65].

Geyimlərin milli xüsusiyyət daşımasında əsas şərtlərdən biri də onların bəzədilməsi və müxtəlif bəzəklərdən istifada edilməsidir. Araşdırmalar sübut edir ki, bu məsələdə cinsə, yaşa, mövsüm və mərasimlərə ciddi əməl edilmiş, simmetriya və harmoniya qorunub saxlanmışdır. Kişilər sadə və səliqəli geyinməklə qurşaqlar, kəmər, vəznəli çuxa istisna olmaqla zəngin bəzəklərdən istifadə etməzdilər. El dili ilə desək "kişi kimi geyinərdilər". Qadınlara gəlincə geyimləri ilə yanaşı istifadə etdikləri bəzəklər çoxsahəli

və zəngin olmuşdur. Uşaqlar isə cinslərinə və yaşlarına uyğun olaraq böyüklər kimi geyinərdilər. Bu məsələ ilə əlaqəli tarixilik və elmlik baxımdan S.S.Dünyamalıyevanın araşdırmaları diqqəti cəlb edir [1].

Milli dəyərlərimiz içərisində daha çox mənəvi dünyamız, daxili aləmimiz, yüksək insani keyfiyyətlərimizlə bağlı olanı "Qonaqpərvərlik adəti"dir. Qədim zamanlardan qonaq qəbul etmək, süfrə açmaq türk xalqının ən yüksək mənəvi cəhətlərindən olmuşdur. Məhz, bu yolla insani xüsusiyyətlərimizi, zəngin mətbəx və süfrə mədəniyyətimizi, milli yeməklərimizi dünyaya çatdırmışıq. Türklərdə, o cümlədən Azərbaycan türklərində qonaqpərvərlik əminamanlığa, qardaşlıq və barışa xidmət etmiş, çörək kəsmək, süfrə açmaq mərdlik, kişilik simvolu sayılmışdır.

Ustad Şəhriyar demişkən:

Mənim atam süfrəli bir kişiydi,
El əlindən tutmaq onun işi idi [5, s. 250].

Təbii ki, bu gün milli dəyərlərimizə dövlət səviyyəsində qayğı yüksəkdir. Lakin ümumi sərvətimiz olan milli dəyərlərimizin hər kəs tərəfindən, ailələrin fərdi üzvlərindən başlamış məhəllə, kənd, şəhər, nəhayət, ümumrespublika səviyyəsində qorunması gərəkdir. Milli dəyərlərimizi, adət-ənənələrimizi yad ünsürlərdən qorumasaq, onları milli mentalitetimizə uymayan hallarla zədələsək, bizə əmanət olunanı zənginləşdirərək gələcək nəsillərə çatdırmasaq, etnik kimliyimizi təhlükəyə ata bilərik. Məncə, ailə-məişət, nikah münasibətlərinə, ənənəvi tərbiyə məsələlərinə ciddi önəm verilməlidir. Gənc qızlarımız evdarlığı, ev peşəsini, uşaq tərbiyə etməyi, ailədaxili münasibətləri, oğlanlarımız kişiliyi, ən çətin anda belə, yaşlılarımızın "kişi ol" sözlərini yaddan çıxarmasınlar. Unutmayaq ki, bu vətən, bu dövlət, bu millət ən böyük milli dəyərimizdir.

## ƏDƏBİYYAT


1. Dünyamalıyeva S. Azərbaycan geyim mədəniyyəti tarixi. Bakı: Elm, 2003.
2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 45 cilddə, 18 c., Bakı: Azərnəşr, 2006.
3. Qədirzadə H. Milli-mənəvi dəyərlərimiz: Bayramlar, mərasimlər, adətlər, münasibətlər. Naxçıvan: "Əcəmi" NPB, 2012.
4. Qədirzadə H. Maddi və mənəvinin vəhdəti -milli dəyərlər // Naxçıvan ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal, №25, 2012, s. 61-70
5. Məmmədhüseyn Şəhriyar, seçilmiş əsərləri, Bakı: Yazıçı, 2004.
6. "Şərq qapısı" qəzeti.




**Vəli Baxşəliyev**
AMEA Naxçıvan Bölməsi, AMEA-nın müxbir üzvü
E-mail: velibahshaliyev@mail.ru

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVANDA ARXEOLOJİ TƏDQİQATLAR

Azərbaycan Respublikası 1991-ci ildə müstəqillik qazandıqdan sonra Azərbaycan xalqının milli-mənəvi dəyərinin tərkib hissəsi kimi tarix və mədəniyyət abidələrinin tədqiqi ön plana çıxarılmış, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tövsiyyəsi ilə Azərbaycan tarixi milli konsepsiya əsasında yenidən işlənmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisini Sədri, hörmətli Vasif Talıbovun arxeoloji abidələrin öyrənilməsinə qayğısı bu sahədə mühüm işlərin görülməsinə səbəb olmuşdur. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" simpoziumunun keçirilməsi Naxçıvan tarixinin milli konsepsiya əsasında yenidən yazılmasının başlanğıcını qoymuşdur. Dünyanın müxtəlif ölkələrindən gələn tədqiqatçıların məruzələrində Naxçıvan tarixinin açılmamış səhifələrinə diqqət yetirilmişdir. Bu simpoziumdan keçən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri abidələrimizin tədqiqini və Naxçıvan tarixinin yeni qaynaqlar əsasında yazılmasını diqqət mərkəzində saxlamış, tariximizin tədqiqi ilə bağlı əldə edilən uğurlar haqqında Naxçıvanda və xarici ölkələrdə keçirilən simpoziumlarda məruzələr edilmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixi abidələri, nəinki Azərbaycan tarixinin, həmçinin bütün Yaxın Şərq və Cənubi Qafqazda baş verən tarixi-mədəni prosesləri izləmək baxımından olduqca əhəmiyyətlidir. Bu ərazidə olan tarixi abidələrimizi və tariximizi saxtalaşdırmağa, özgəninkiləşdirməyə çalışan bədxah fikirli çızmaqaraçıların Nuh əfsanəsi və Gəmiqaya təsvirləri ilə bağlı irəli sürdükləri yanlış iddialar yeni araşdırmaların aparılmasını zəruri etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2001-ci ilin aprelində "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" sərəncam imzalamış və buna uyğun olaraq Azərbaycan alimlərindən ibarət ekspedisiya yaradılmışdır. 2005-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təşəbbüsü ilə Gəmiqaya abidəsinə yeni beynəlxalq elmi ekspedisiya təşkil edilmişdir. Ekspedisiyanın tərkibində AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin əməkdaşları, Azərbaycanın tanınmış alimlərindən İsa Həbibbəyli, İsmayıl Hacıyev, Vəli Əliyev, Nizami Cəfərov, Yaqub Mahmudov, Hacıqadir Qədirzadə, Hacıfəxrəddin Səfərli, Abbas Seyidov, Əjdər Fərzəli, yazıçı Anar, Rusiya Federasiyasından yazıçı-

publisist Murad Acı və digər görkəmli şəxslər iştirak etmişlər. Ekspedisiyanın tərkibində Gəmiqaya abidəsinin geologiyasını, bioresurslarını, toponomiyasını, arxeologiyasını, habelə bu abidə ətrafında yerləşən yaşayış məntəqələrindəki etnoqrafik və folklor materiallarının toplanması üçün xüsusi dəstələr yaradılmışdı. Ekspedisiyanın apardığı uğurlu tədqiqat işi nəticəsində Gəmiqaya haqqında onlarla monoqrafiya, yüzlərlə elmi məqalə yazılaraq əsassız erməni yalanları rədd edilmiş, bu əsrarəngsiz abidənin qədim Azərbaycan xalqına aid olduğu sübut edilmişdir.

Uzun illər erməni vandalları tərəfindən dağıdılan qoç heykəllər, qəbirüstü abidələr və daş üzərində oyma sənəti nümunələrinin qorumaya alınaraq gələcək nəsillərə çatdırılması məqsədilə 2002-ci ilin iyulunda Ali Məclis Sədrinin xüsusi sərəncamı verilmiş, açıq səma altında muzey yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında" 06 dekabr 2005-ci il sərəncamından sonra Naxçıvanda bu sahəyə diqqət daha da artırılmış, tarix və mədəniyyət abidələri qısa müddət ərzində yenidən qeydiyyata alınaraq pasportlaşdırılmışdır. Tədqiqat işlərinin nəticələri onlarla monoqrafiya və yüzlərlə məqalədə öz əksini tapmışdır. Tarix və mədəniyyət abidələrinin, o cümlədən arxeoloji abidələrin tədqiqi Azərbaycan tarixinin bir sıra mühüm məsələlərinə yenidən nəzər salmağa imkan vermiş, tariximizin qaranlıq səhifələri üzə çıxarılmışdır.

2006-cı ildən başlayaraq Naxçıvanda ondan artıq arxeoloji ekspedisiya fəaliyyət göstərir ki, onların ikisi beynəlxalq ekspedisiyadır. Beynəlxalq ekspedisiyaların fəaliyyəti Azərbaycan, o cümlədən Naxçıvan abidələri haqqında həqiqətlərin dünya elmi ictimaiyyətinə çatdırılmasında mühüm əhəmiyyətə malik olmuşdur. Beynəlxalq ekspedisiyaların səmərəli işləməsinin əsas səbəblərindən biri onların dövlət qayğısı ilə əhatə olunması olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iki dəfə 2008 və 2015-ci illərdə Azərbaycan-ABŞ arxeoloji heyətinin fəaliyyəti ilə tanış olmuş, abidələrimizin tədqiqi ilə bağlı öz tövsiyyələrini vermişdir. Naxçıvanın qədim tarixinin öyrənilməsində beynəlxalq ekspedisiyaların işlədiyi I Kültəpə, Ovçulartəpəsi, Duzdağ, Qızqala və Oğlanqala abidələrinin xüsusilə böyük əhəmiyyəti olmuşdur.

Qədim arxeoloji mədəniyyətlərin stratiqrafik ardıcıllığının öyrənilməsində xüsusi rolu olan I Kültəpə yaşayış yeri Azərbaycanın fundamental abidələri sırasında ilkin yerlərdən birini tutur [1]. Naxçıvançay vadisində yerləşən bu qədim yaşayış yerinin əhəmiyyəti elm aləminə ötən əsrin 50-ci illərindən bəlli olsa da, son dövrlərdə burada aparılan arxeoloji qazıntılar bu zəngin xəzinənin çox hissəsinin hələ də torpaq altında qaldığını



göstərməkdədir. Onların üzə çıxarılması Naxçıvanın qədim tarixinin yeni səhifələrinin yazılmasına, eyni zamanda "Qafqazın Mesopotamiyası" adlandırılan Naxçıvançay və Sirabçay vadisində xeyli miqdarda Neolit və Eneolit abidəsinin aşkar edilməsinə zəmin yaratmışdır. Məlum olduğu kimi, vaxtilə Cənubi Qafqazda Eneolit mədəniyyəti I Kültəpə yaşayış yerində aparılan araşdırmalar zamanı ilk dəfə olaraq elmi dövriyyəyə çıxmışdı. Bu abidənin alt təbəqələrinin Neolit, yaxud Eneolit dövrünə aid olması ilə bağlı xeyli fikirlər söylənsə də məsələ tamamilə həll olunmamışdı. Bu məsələləri, həmçinin Kültəpənin Eneolit mədəniyyətini, Naxçıvanın digər abidələrindən aşkar olunan Eneolit mədəniyyəti ilə qarşılaşdırmaq üçün 2013-cü ildə yenidən bu abidənin tədqiqinə başlandı. Yoxlama qazıntıları zamanı mədəni təbəqənin toxunulmamış sahələri müəyyənləşdirildi və 2014-2015-ci illərdə A, D, E, F və G sahələrində geniş qazıntı işləri aparılmaqla, mədəni təbəqənin dərinliyini müəyyənləşdirmək üçün C şurfu qoyuldu. Yaşayış yerindən götürülən kömür analizləri qalınlığı 8-9 m arasında olan mədəni təbəqənin e.ə. VII minilliyin ikinci yarısı və VI minilliyin birinci yarısına aid olduğunu göstərdi (e.ə. 6070-5400). Bu isə Cənubi Qafqaz arxeologiyasında Neolit dövrü kimi qəbul olunmuşdur [8, s. 21-36].

I Kültəpə, Uçan Ağıl, Uzunoba, Şorsu, Yeni yol, Zirinclik kimi abidələrdə aparılan arxeoloji tədqiqat işləri zamanı Naxçıvanda Eneolit mədəniyyətinin inkişaf ardıcıllığını müəyyən etmək mümkün olmuşdur. Cənubi Qafqazda indiyədək aparılan araşdırmalar zamanı Neolit və Son Eneolit arasındakı məsafəni müəyyən etmək indiyədək mümkün olmamışdır. Bu baxımdan Naxçıvan abidələri nəinki Azərbaycanın və Naxçıvanın, həmçinin bütün Cənubi Qafqaz arxeologiyasının problem məsələlərini öyrənmək üçün əhəmiyyətlidir. Bu cür böyük əhəmiyyətə malik olan işlər məhz Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin abidələrimizin öyrənilməsinə göstərdiyi diqqət və qayğının nəticəsində mümkün olmuşdur.

Naxçıvan tarixinin öyrənilməsi üçün Ovçulartəpəsində aparılan araşdırmaların mühüm əhəmiyyəti olmuşdur. Ovçulartəpəsində aparılan araşdırmalar burada insanların e. ə. V minilliyin ortalarından başlayarak məskunlaşdığını göstərir [3, s. 4-9]. Arxeoloji qazıntılar zamanı başlıca olaraq bir-birindən tamamilə fərqlənən iki tikinti dövrü aşkar edilmişdir. Birinci dövr üçün yarımqazma tipli evlər, ikinci dövr üçün isə dördkünc formalı təkotaqlı və çoxotaqlı evlər xarakterikdir. Birinci dövrə aid evlər təpənin yamacı düzəldilərək yer səviyyəsindən 20-40 cm dərinlikdə dördkünc formada inşa edilmişdir. Onlar tam qalmadığından yerüstü hissələri ilə bağlı müəyyən fikir demək çətindir. İkinci dövrə aid evlər daş təməl üzərində inşa edilmiş kərpic evlərdən ibarət olmuşdur. Onların bəzisi (12-ci və 14-cü kvadratlar) təpənin yamacında inşa edildiyi üçün dəstək

divarlar inşa edilmişdir. Ümimiyyətlə, bu dövrə aid binalar təpənin yamacında axmanın qarşısını almaq üçün dəstək divarlara birləşik şəkildə inşa edilmişdir Evlərin dördkünc formalı olması və dəstək divarların inşası hər iki dövr üçün xarakterikdir. 2011-ci ilin araşdırmaları göstərir ki, bu dövrün evləri geniş həyətlərin ətrafında toplanan məişət-təsərrüfat komplekslərindən ibarət olmuşdur. Həyətlərdə anbarlar, ocaqlar, iş yerləri və təsərrüfatla bağlı digər maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. İkinci dövrün evləri mükəmməl arxitekturası ilə birincidən fərqlənir. Ovçulartəpəsinin dördkünc arxitekturası Cənubi Qafqazın, o cümlədən Naxçıvanın Eneolit dövrünün erkın mərhələsinə aid dairəvi evlərdən tamamilə fərqlənir. Ovçulartəpəsindəki evlərin arxitekturası Azərbaycanın və Şərqi Anadolunun həmdövr abidələrindən aşkar olunan evlərlə uyğundur. Bu yaşayış yerində həm texnoloji, həm də morfoloji baxımdan fasiləsizliyin olduğu keramika məmulatında izlənilir. Ovçulartəpəsinin saman üzlü və saman qarışıq sarı, ya da qırmızı rəngli keramikası Cənubi Qafqaz və Naxçıvanda Neolit və Eneolit dövrünün erkən mərhələsindən mövcud olmuşdur. Son illər Sirab yaxınlığında aşkar olunan mövsümi yaşayış yerləri Eneolit dövründə bu tip keramikanın istehsalında fasiləsizliyin olduğunu göstərir. Lakin Eneolit dövrünün orta mərhələsi Naxçıvanda kifayət qədər yaxşı öyrənilməmişdir. Ovçulartəpəsində az miqdarda olsa da boyalı keramika məmulatı aşkar olunmuşdur. Ehtimal ki, bu tip keramika yaşayış yerinin Cənubla, xüsusilə Ubeyd mədəniyyəti ilə əlaqələrini göstərir. Son illər Xalac, Şortəpə və Sirabdan aşkar edilən Eneolit dövrünə aid keramika məmulatı da belə əlaqələrin olduğunu göstərir [4, s. 21-25]. 2011-ci ildə Ovçulartəpəsindən aşkar olunan Ubeyd mədəniyyətinə aid idxal olunmuş keramika parçası bunu bir daha təsdiq edir.

Ovçulartəpəsi yaşayış yeri Qafqaz arxeologiyasının problem məsələlərindən biri olan Eneolit mədəniyyəti ilə Kür-Araz mədəniyyətinin əlaqələrini öyrənmək baxımından da olduqca əhəmiyyətlidir. Ovçulartəpəsi yaşayış yerinin tədqiqi nəticəsində Naxçıvanın Kür-Araz mədəniyyətinin formalaşdığı əsas regionlardan biri olduğu təsbit olunmuşdur.

Naxçıvan şəhəri yaxınlığında yerləşən Duzdağ mədənlərinin tədqiqi Ovçulartəpəsi arxeoloji ekspedisiyasının əsas tədqiqat obyektlərindən biri olmuş, tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Duzdağ mədənləri dünyanın ən qədim mədənləridir.

Cənubi Qafqaz arxeologiyasında diskussiyaya səbəb olan məsələlərdən biri də boyalı qabları ilə fərqlənən Orta Tunc dövrü mədəniyyəti idi. Şərur rayonunun Dizə kəndi yaxınlığında yerləşən Qızqala yaşayış yerində aparılan araşdırmalar zamanı Orta Tunc dövrünə aid 2,5-3 m qalınlığında mədəni təbəqənin varlığı müəyyən olunmuşdur. Bu Naxçıvanda I Kültəpə II Kültəpə və Qızılburundan sonra dördüncü mühüm abidədir [5, s. 120-130].



Bu yaşayış yeri boyalı qablarla fərqlənən Orta Tunc dövrü mədəniyyətinin Naxçıvanla bağlı olduğunu bir daha təsdiq edir. Qızqala yaşayış yerində, həmçinin Bəzəkli, Qazançıqala, Qurddağ, Göynük qalası və digər abidələrdə müdafiə divarlarının aşkar olunması Orta Tunc dövründə Naxçıvanda böyük hərbi potensiala malik olan tayfaların yerləşdiyini təsdiq edir. Bu tayfaların bir qismi oturaq, digər bir qismi yarım köçmə maldarlıqla məşğul olmuşdur. Qızqala ətrafındakı kurqanlardan skelet qalıqlarının aşkar olunması isə boyalı keramika ilə seçilən Orta Tunc dövrü mədəniyyətinin mənsubiyyəti və onun yaradıcıları haqqında yeni fikirlər deməyə imkan verəcəkdir. 2015-ci ilin ikinci yarısında bu abidələrin tədqiqi zamanı yeni faktlar aşkar olunmuşdur. İnsan skeletlərinin dişlərindən götürülən izotopların analizi zamanı müəyyən olunmuşdur ki, Arpaçay vadisində məskənləşən qədim tayfaların məskəni Naxçıvan olmuşdur. Onlar yaz və yayda Arpaçay vadisi ilə indiki Ermənistana ərazisinə doğru hərəkət edərək yaylaqlardan istifadə etmiş və geri dönərək bu vadidə - Qızqala yaşayış yerində yaşamışlar. E.ə. II minilliyin ortalarında Yaxın Şərq və Cənubi Qafqazda baş verən ictimai-siyasi proseslər, tayfalararası ziddiyyətlərin artması Arpaçay vadisində, Şərur düzündə yaşayan tayfaları müdafiə mövqeyi tutmağa məcbur etmiş, yaşayış yerində iri daşlardan inşa olunmuş qala divarları inşa olunmuşdur. Bu tip qala divarlarına Cənubi Qafqazın digər Orta Tunc dövrü yaşayış yerlərində rastlanmaması Naxçıvanda yaşayan taffaların regionun siyasi həyatında mühüm rol oynadığını göstərir.

Şərur raronunun Oğlanqala kəndi yaxınlığında yerləşən Oğlanqala yaşayış yerində 2008-2011-ci illərdə arxeoloji araşdırmalar davam etdirilmişdir. Tədqiqat işləri başlıca olaraq sitadeldə, qismən isə onun kənarında aparılmışdır. 2010-cu ildə araşdırmalar xeyli genişləndirilmiş, on iki kvadrat və dörd şurfda davam etdirilmişdir. Araşdırmalar Oğlanqalanın hələ Erkən Dəmir dövründən məskunlaşdırıldığını göstərir. Bu baxımdan 2010-cu ildə şimal qala bürcündə aparılan araşdırmaların mühüm əhəmiyyəti oldu.

Belə nəticəyə gəlmək olar ki, Oğlanqala şəhəri və onun hakimiyyətində olan ərazilər xarici işğalçılara qarşı müttəfiqlərlə birlikdə mübarizə aparmışlar [2, s. 12-15; 7, s. 39-65]. Assirioloq alimlərdən Paul Zimanski, Mirjo Salvini, Eccart Dolenoro, Eccart Frahm Oğlanqaladan və Naxçıvan şəhərindən aşkar olunan mixi yazıları oxumuş və onların Urartu yazıları olmadığını təsdiq etmişlər. E.ə. 8-ci yüzilliyin əvvəllərində Ağrı və Horom düzənliyində xeyli Urartu qalaları tikilmişdir, ancaq araşdırmalar təsdiq edir ki, Oğlanqala Urartu şəhəri olmamışdır. Buradan aşkar edilmiş arxitektura qalıqları, komplesin planı, gil qabların özünəməxsuluğu göstərir ki, Oğlanqala Şərur düzənliyini əhatə edən kiçik, yerli krallığın mərkəzi olmuşdur. Urartular heç vaxt bu ərazini işğal etməmişlər. Çünki burada

Urartu qalalarının tikilməsi haqqında heç bir epiqrafik və arxeoloji dəlil yoxdur.

Urartunun sərhədləri yaxınlığında yerləşən Oğlanqaladan tapılan keramika və digər nümunələr Oğlanqalanın Urartu ilə, həmçinin İran və Gürcüstanın digər cəmiyyətləri ilə ticarət əlaqələri saxladığını təsdiq edir. Saraydan tapılan və üzərində mixi işarələr olan təsərrüfat küpünün parçaları Oğlanqalanın özünəməxsus yazı sistemi olduğunu təsdiq edir. Həmçinin Oğlanqalanın tədqiqi buradakı tikintilərin başlıca olaraq Orta Dəmir dövrünə və Atropatena dövrünə aid olduğunu göstərir. Bundan başqa Orta əsr və müasir dövrdə də burada müvəqqəti yaşayış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvanın tarixi abidələrinin kompleks şəkildə öyrənilməsinə xüsusi diqqət göstərilmiş, qədim abidələrimizlə yanaşı Orta əsr abidələrinin öyrənilməsinə də qayğı göstərilmişdir. Qeyd etmək lazımdır ki, bu abidələr yalnız Azərbaycan tarixinin öyrənilməsi üçün deyil həmçinin ümumdünya tarixinin öyrənilməsi üçün də əhəmiyyətlidir. Bununla belə, muxtar respublika ərazisində olan hər bir abidə xalqımızın milli-mədəni sərvətidir. Belə abidələrdən biri də Culfa rayonunda olan Əlincəqala abidəsidir. 11 fevral 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" sərəncam imzalanmışdır. Sərəncamda deyilir: "Əlincəqala" tarixdə Azərbaycan xalqının əyilməzlik və mübarizlik rəmzi kimi böyük şöhrət qazanmış, 1387-1401-ci illərdə, 14 il ərzində Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərmişdir".

Bənzərsiz və özünəməxsus müdafiə sistemi olan "Əlincəqala"nın bərpası həmçinin tariximizin də bərpası deməkdir. Qala divarları və yaşayış binaları bir başa qayanın üzərində inşa olunduğundan seysmik baxımdan olduqca davamlı və təlükəsizdir. Divarların inşasında istifadə olunan inşaat materialları onların tarixin müxtəlif mərhələlərində bərpa olunduğunu təsdiq edən maddi sübutdur. Azərbaycanın və Yaxın Şərqin müxtəlif hakim sülalələrin istinadgahı olan "Əlincəqala" monqolların və teymurilərin zamanında xüsusilə dağıntıya uğramış və yenidən bərpa olunmuşdur.

8 oktyabr 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən Culfa rayonunda yerləşən "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" sərəncamın imzalanması da tarix və mədəniyyət abidələrimizə diqqət və qayğının ifadəsidir.

Mədədəni irsimizin öyrənilməsindəki bu uğurlar muxtar respublika rəhbərliyinin uğurlu və məqsədəuyğun sosial-iqtisadi siyasətinin nəticəsidir. Heç şübhə etmirik ki, yaxın illər ərzində minillik tariximizdən xəbər verən abidələrimiz bərpa ediləıək milli-mədəni irsimizə qovuşdurulacaqdır.



## ƏDƏBİYYAT


1. **Абибуллаев О.А.** Энеолит и бронза на территории Нахичеванской АССР.
2. **Бахшалиев В.Б.** Оглангала столица государства утиев // Ирс, 2012, № 3 (57), с. 12-15.
3. **Baxşəliyev V., Marro C., Aşurov S.** Ovçulartəpəsi. Bakı: Elm, 2010, 156 s.
4. **Baxşəliyev V. Novruzov Z.** Sirabda arxeoloji araşdırmalar. Bakı: Elm, 2010, 156 s.
5. **Baxşəliyev V., Ristvet L., Gopnik H.** 2014-cü ildə Qızqala və onun ətrafında arxeoloji araşdırmalar // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2015, № 3, s. 120-130.
6. **Baxşəliyev V., Marro C. Hammon C., Alıyev N., Dessaint Ph., Sanz S.** Duzdağın qədim duz mədənləri. Naxçıvan: "Əcəmi" NPB, 2012, 80 s.
7. **Ristvet L., Gopnik H., Baxşəliyev V., Aşurov S.** Oğlanqalada Azərbaycan-Amerika qazıntıları // Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2012, s. 39-65.
8. **Simon Konnor and Antonio Sagona.** Enviroment and society in the late prehistory of Southern Georgia, Caucasus / Le cultures du Caucase. Sous la direction de Bertille Lyonet. Paris, 2007, p. 21-36.

**Bəhlul İbrahimli**
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, dosent
E-mail: ibrahimlib@mail.ru
**Toğrul Xəlilov**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: x.togrul@gmail.com

## XARABA GİLAN ƏTRAFINDA APARILAN ARXEOLOJİ TƏDQİQATLAR (1991-2015-ci illər)

Azərbaycan tarixinin öyrənilməsində Naxçıvan arxeoloji abidələrinin xüsusi əhəmiyyəti vardır. Onlar həm yazıya qədərki, həm də yazının meydana çıxmasından sonrakı tarixinin tədqiqində əvəzsiz mənbələrdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətinin 1993-cü ildən başlayan ikinci dövründə, ölkəmizin bütün bölgələrində olduğu kimi Naxçıvanda da bu sahəyə xüsusi diqqət yetirilmişdir. Ulu öndərin siyasi kursunun layiqli davamçılarından olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov cənabları tərəfindən bu sahəyə göstərilən yüksək diqqət və qayğı nəticəsində abidələrimiz dərindən öyrənilir, qorunur və təbliğ olunur. Naxçıvan Muxtar Respublikasının bir çox abidələrində arxeoloji tədqiqatlar aparılır. Belə tədqiqatlardan birini Xaraba Gilan ətrafında aparılan arxeoloji araşdırmalar təşkil edir.

Xaraba Gilan ətrafındakı ərazi arxeoloji abidələrlə zəngindir. Bu ərazidə olan Muncuqlutəpə, Mərdangöl, Xalı Keşan, I, II, III Plovdağ nekropolları, Plovdağ, Sumbatan-Dizə yaşayış yerləri, Dəlmə qalası arxeoloji abidələri tunc dövründən orta əsrlərə qədər uzun bir xronoloji dövrü əhatə edir. Müxtəlif dövrə aid abidələrin kiçik bir ərazidə kompakt şəkildə yerləşməsi arxeoloji turizm üçün də mühüm əhəmiyyəti vardır. Bu abidələrdən bir qrupu (Mərdangöl, Muncuqlutəpə, Xalı Keşan) əvvəlki dövrlərdə öyrənilsə də bir qrup abidələr (Plovdağ yaşayış yeri, I, II, Plovdağ nekropolları və s.) müstəqillik dövründə elmə məlum olmuş və sistemli şəkildə öyrənilmişdir [3, s. 31-32; 4, s. 91-93; 5, s. 155-157; 6, s. 55-61]. 1995-2015-ci illərdən Xaraba Gilan ətrafındakı Plovdağ yaşayış yeri, I, II Plovdağ nekropolları və digər abidələri Bəhlul İbrahimlinin rəhbərliyi ilə Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən öyrənilir. Hər bir tədqiqat dövründə nəinki Azərbaycan, həmçinin dünya arxeologiyasında özünəməxsus yer tutan, Naxçıvanın qədim və zəngin tarixini sübut edən maraqlı arxeoloji materiallar, mühüm elmi nəticələr əldə olunur (Şəkil 1, 2).

II Plovdağ nekropolunda aparılan arxeoloji tədqiqatlar zamanı 2010-cu



ildə nekropolun mərkəzi hissəsindən və şərq tərəfindən öyrənilmiş kurqanların altından Erkən Tunc dövrünə aid yaşayış yerinin qalıqları və bu dövrə aid keramika məmulatlar, gil ocaqlar və daş əmək alətləri aşkar edilmişdir [8, s. 119-125].

2012-cü ildə Plovdağ dağının şərq tərəfində 1,5 hektar sahəni əhatə edən yeni bir abidə-III Plovdağ nekropolu ilk dəfə qeyda alınaraq elmi dövriyyəyə daxil edilmişdir. 2012-ci ildə aşkar edilmiş III Plovdağ nekropolunda aparılan araşdırmalar zamanı əvvəlki dövrün tədqiqatlarından fərqli olaraq yeni qəbir tipləri, maraqlı arxeoloji materiallar aşkar edilmişdir. Bu abidədəki kurqanların kromlexləri I və II Plovdağ nekropolundakı kurqanlardan fərqli olaraq iki sıra daşla divar kimi işlənmişdir. 2013-2015-ci tədqiqat illərində də bu və digər abidələrdə arxeoloji tədqiqatlar sistemli şəkildə davam etdirilərək Naxçıvan Muxtar Respublikasının qədim və zəngin tarixinin daha dərindən öyrənməsi sahəsində maraqlı elmi nəticələr əldə olunmuşdur. 2013-cü tədqiqat ilində III Plovdağ nekropolunda aparılan arxeoloji qazıntı zamanı əldə olunmuş maraqlı arxeoloji materiallardan biri 4 №li qəbirdən tapılan sümükdən hazırlanmış ürək formalı muncuqlardır. Muncuqların hamarlanmış üz tərəfində, yuxarı hissədə iki, aşağıda isə bir ədəd ortasında nöqtə olan dairələr cızma üsulu ilə çəkilmişdir. Bu dairələr astral simvollar olsa da ümumu görünüşünə görə antropomorf formalıdır. Boyunbağı bəzəkdən daha çox rəmzi məna daşıyan talismana oxşayır. Bu tip muncuqlar Xaraba Gilan ətrafındakı arxeoloji abidələrin hələlik heç birindən tapılmayıbdır. III Plovdağ nekropolundakı 4 №li qəbirdən tapılan maraqlı arxeoloji materiallar içərisində iki ədəd silindirik möhür də var. Onlar yumşaq daş və fayans üzərində yonma üsulu ilə hazırlanmışdır. Birinin uzunluğu 2,3 sm, diametri 0,9 sm-dir. Möhürlərin üzərindəki təsvirlərin kompazisiyası qədim Şumer mifləri ilə bənzərdir [11, s. 73-75]. Möhürhlərin tapılmasının ən mühüm elmi əhəmiyyətlərindən biri ondan ibarətdir ki, onların hər biri Naxçıvan ərazisinsdə e.ə. II minillikdə əmlak bərabərsizliyinin inkişaf etməsinin, sinifli cəmiyyətin və dövlətin yaranmasının əsas göstəricilərindən biridir. Gilançay vadisi abidələrindən əvvəlki dövrlərdə də silindir formalı möhürlər tapılıbdır.

II Plovdağ nekropolunda 2014-cü ildə aparılan arxeoloji tədqiqatlar zamanı Erkən Tuncdan Orta Tunc dövrünə keçidi öyrənməyə imkan verən qəbirlər də aşkar edilmişdir [12, s. 49-50].

2015-ci tədqiqat ilində II Plovdağ nekropolunda II və V qazıntı sahələrində arxeoloji tədqiqatlar davam etdirilmişdir. II qazıntı sahəsində -100 kv.m sahədə 50-70 sm orta tunc dövrü mədəni təbəqəsi altında fərdi yaşayış evi, plitə daşlardan qurulmuş dördbucaqlı formada, dağıdılmış uşaq qəbri və təsərrüfat quyusu aşkar edilmişdir. Diametri 4,2 m olan yaşayış evinin cənub tərəfində iki ocaq yeri, ilk tunc dövrünə aid keramika və bir

neçə daş alət tapıldı. Yaşayış evi divarının arxa tərəfinin olmaması (yəni düzgün formada işlənməməsi), müxtəlif həcmli daşların parakəndə şəkildə düzülməsi evin yarımqazma şəklində işləndiyini sübut edir. Qeyd etmək lazımdır ki, bu ənənə orta və son tunc dövründə də davam etmişdir.

II Plovdağ nekropolunun ikinci qazıntı sahəsində - 200 kv.m sahədə 7 kurqan tipli qəbir aşkar edilmişdir. Bu qəbirlərdən üçü uşaq, üçü kişi, biri isə qadın qəbridir. Maraqlıdır ki, uşaq qəbirlərində bir ədəd, kişi və qadın qəbirlərində isə iki ədəd gil qab aşkar edildi. Yalnız 67 və 68 saylı qəbirlərdə bəzək əşyaları tapıldı. 67 saylı qəbirdə - ölünün sağ qulağında bir ədəd tuncdan hazırlanmış həlqə formalı sırğa və iki ədəd gil qab aşkar edildi. Qablardan biri geniş ağızlı kasa, o biri isə tək qulplu miniatür qabdır. Skelet, oval formalı qəbir çuxurunda, başı şərq istiqamətində, yarım bükülü vəziyyətdədir.

Qəbirlərin içərisində ən maraqlısı və zəngini 68 saylı qəbirdir. Daş qutu formalı bu kurqanaltı qəbirdə gənc qadın, başı şərq istiqamətində yarımbükülü vəziyyətdə dəfn edilmişdir. Qadının sol əlinin çeşələ barmağında müxtəlif mucuqlardan hazırlanmış üzük, həmin qolun biləyində isə əqiq və pasta muncuqlardan hazırlanmış bilərzik aşkar edildi. Boynunda muncuqlardan hazırlanmış boyunbağı, qulaqlarında isə yenə də həmin muncuqlardan hazırlanmış sırğası var idi. Kəllə sümüyünün qarşısında müxtəlif muncuqlardan hazırlanmış bir alınlıq tapıldı. Alınlığın ortasında bir iri həcmli, qara rəngli silindr formalı muncuq salınmış, onun hər iki tərəfinə pasta muncuqlar düzülmüşdür. Qəbirdə aşkar edilmiş iki ədəd qara-boz rəngli, qısa silindrik boğazlı, sıxılmış şar gövdəli, çiyin hissəsində kannelyur naxışları olan qablar ilk tunc dövründən orta tunc dövrünə keçid mərhələsinə aiddir. Silindr formalı boğazı gövdəyə yaxın nisbətən genişlənir. Bu tip qablar daha çox Urmiya gölü ətrafı abidələrdən, xüsusən, Barton Braunun tədqiq etdiyi Göytəpə abidəsində tapılmışdır. Barton Braun bu qabları ilk tunc dövrünün sonlarına aid edir. Lakin II Plovdağ nekropolunun materialları onların orta tunc dövrünün əvvəllərinə aid olduğunu göstərir.

Nekropoldakı Son Tunc dövrünə aid qəbirlər Ota Tunc dövrü qəbrlərindən fərqli olaraq kurqan tipli düzəldilibdir. Onlar kromlex daşlarının düzülüşünə, ölçülərinə və avadanlığına görə fərqləniər. Kurqanların bəzilərinin diametri 10 m-ə çatmışdır. Qəbirlərin kameraları sərdabə tipi deyil, daş qutu formasında düzəldilmişdir. Onların divarları müxtəlif ölçülü daşlarla işlənmiş, üstü iri həcmli sal daşlarla örtülmüşdür. Ətrafina dördbucaqlı planda sal daşlar düzülmüşdür. Bəzi kurqanlarda qurbangahların qəbirə şərq tərəfdən işlənməsi qaydası gözlənilməmişdir. Qurbangahlar qəbirin həm cənub, həm də qərb tərəfində olmuşdur.

Qəbirlərdən aşkar olunmuş maddi-mədəniyyət nümunələri gil qablardan, tunc bəzək əşyalarından, ox uclarından və heyvan sümüklərindən (xırdabuynuzlu və quş sümükləri) ibarət olmuşdur. Gil qabların bir çoxu sadə, bəziləri isə boyalıdır.



Plovdağ nekropollarında aparılan arxeoloji tədqiqatlar zamanı əldə olunan elmi nəticələr Naxçıvanın Tunc dövrü qəbirlərinin tiplərini, kurqan tipli qəbirlərin xronoloji ardıcıllığını və bu dövrün dəfnetmə adətini ətraflı öyrənməyə imkan verir. I və II Plovdağ nekropollarındakı qəbirlər əsasən qurbanğahlıdır. Qurbangahlar qəbirə şərq tərəfdən işlənmişdir. Orta Tunc dövrünə aid kurqanlar dördbucaqlı və beşbucaqlı plandadır. Onların əksəriyyətinə ancaq gil qablar qoyulmuşdur. Qurbangahlar arxeoloji ədəbiyyatlarda "əlavə qəbir kamerası", ritual kamera", "ehsan kamerası" və digər adlarla adlandırılmışdır. Plovdağın ətəyindəki yaşayış yeri və nekropollardan xeyli miqdarda arxeoloji materiallar- gil qablar, bəzək əşyaları, əmək alətləri, silahlar və s. aşkar olunmuşdur. Gil qablar boyalı və boyasız olmaqla iki qrupa bölünür. Bu qablardan mətbəx və təsərrüfatda istifadə olunmuşdur. Boyalı qablar əsasən həndəsi ornamentlərlə naxışlanmışdır. Naxışlar sadə və mürəkkəb kompazisiyalı olmaqla bir neçə qrupa bölünür. Plovdağ nekropolundakı qəbirlərdə bir qayda olaraq kişilər sol, qadınlar isə sağ yanı üstə dəfn edilmişlər. Dəfn zamanı ölü və ona məxsus arxeoloji materiallar (bəzək əşyaları, silahları, gil qablar, müxtəlif heyvan skletləri və s.) qəbirə şərq tərəfdən yerləşdirildikdən sonra giriş dikinə qoyulmuş sal daşlarla örtülərək palçıqla bərkidilmişdir. Nekropollardakı qəbirlərdən qədim dəfnetmə adətimizlə bağlı maraqlı faktlar aşkar olunmuşdur. Belə faktlardan biri Plovdağ nekropolunda aşkar olunmuş sağ əlində piyalə və ya kiçik həcmli çanaq olan insan skletləridir. Plovdağ nekropollarında tədqiq olunmuş dörd kurqanaltı torpaq qəbirdə əlində cam (kasa) olan dəfn edilmiş insan skleti aşkar edilmişdir. Naxçıvanda bu adətin kökü eneolit dövründən başlayır. I Kültəpə abidəsinin Eneolit dövrü təbəqəsindən bu tip dəfnetmə adəti aşkar edilmişdir [1, s. 48]. Bu tip dəfnetmə adəti Güney Azərbaycanda, Mesopotomiyada, Altaylarda, Şərqi Avropada, Mərkəzi Asiyada məlumdur. Bu adət Naxçıvan və Güney Azərbaycanda gil kasalarla, digər yerlərdə isə metal camla yerinə yetirilmişdir [9; 3, s. 166, 178, 180; 12, s. 247].

Plovdağ nekropolunun tədqiqi zamanı əldə olunmuş maraqlı arxeoloji materiallardan birini döyüşçü qadın skleti təşkil edir. Onun sol çiynində dəridən düzəldilmiş içərisində on dörd ədəd ox olan ox qabı asılmışdı. Oxlar 60 sm uzunluğunda qarğıdan, ucluqları isə dəvəgözü və çaxmaqdaşından düzəldilmişdir. Müəyyən olunmuşdur ki, bu tip dəfnetmə adəti qədim türk etnoslarının (prototürklərin) yaşadığı ərazilərdə geniş yayılmışdır. Mərkəzi Asiya, Volqoboyu, Qafqaz bölgəsindəki qəbirlərdən bu tip dəfn edilmiş insan skletləri kifayyət qədər aşkar edilmişdir. Mənbələrdə də qeyd olunan məsələ ilə bağlı məlumatlar vardır. "Kitabi Dədə Qorqud dastanı"nda oğuz türklərinin qadınlarının döyüşlərdə kişilərlə bərabər iştirak etməsi, at

çapması, ox atması haqqında da xeyli maraqlı elmi məlumatlar vardır [2, s. 197]. II Plovdağ nekropolunda aparılan arxeoloji tədqiqatlar zamanı maraqlı tapıntılardan birini ana ilə uşağın birlikdə dəfn olunduğu qəbir təşkil edir [2, s. 197]. Aparılan araşdırmalardan məlum olur ki, bu tip dəfnetməni tarixi Naxçıvanda Eneolit dövründən başlamışdır. I Kültəpə abidəsinin Eneolit dövrü təbəqəsindən bu tip dəfnetmə ana və iki əkiz uşağın birlikdə dəfn edildiyi qəbir (64 №li qəbir) aşkar edilmişdir [1, s. 48]. Müqayisələr zamanı məlum olmuşdur ki, Mərkəzi Asiya, Altay, Tuva, Qazaxıstan və türk xalqlarının yaşadıqları digər ərazilərdən də bu tip dəfnlər aşkar edilmişdir. Plovdağ nekropollarında aşkar edilmiş maraqlı arxeoloji materiallardan biri dəfn olunmuş insanların başının altına ya daş, ya da torpaq yığılmasıdır [7, s. 120-125]. Bu tip dəfnetmə I Kültəpə abidəsinin Eneolit dövrü təbəqəsindəki torpaq qəbirlərdən aşkar edilmişdir [1, s. 48]. Bizə elə gəlir ki, bunun yeganə səbəbi, yanı üstdə bükülü vəziyyətdə dəfn edilmiş ölünün dəfn zamanı və sonradan, yumşaq toxumalar çürüyərkən başının aşağı düşməməsi olmalıdır. Qəbirlərdəki toxunulmamış skeletlərdə kəllə sümüyünün və onurğanın yuxarı fəqərələrinin düzgün vəziyyətdə aşkar edilməsi bunu bir daha təsdiq edir. Belə məlum olur ki, ölünün qəbrə hansı vəziyyətdə qoyulması hələ qədim zamanlardan dəfn adətinin çox ciddi əməl olunan tərəfi olmuşdur.

I və II Plovdağ nekropolundan əldə olunmuş gil qablar boyalı və boyasız olmaqla iki qrupa bölünür. Bu qablardan müxtəlif məqsədlərlə istifadə olunmuşdur. Boyalı qabların üzəri əsasən həndəsi ornamentlərlə naxışlanmışdır. Naxışlar sadə və mürəkkəb kompozisiyalı olmaqla bir neçə qrupa bölünür.

Plovdağdağ yaşayış yerində aparılan arxeoloji qazıntılar Naxçıvandakı tunc dövrünə aid yaşayış evlərinin və yardımçı tikililərin planı və interyeri haqqında məlumat əldə etməyə imkan veribdir [12, s. 48-50]. Oradakı yaşayış evləri orjinal planlı olub, özünəməxsus tikinti texnikası ilə fərqlənir. Planlı surətdə tikilmiş otaqlardan bir qrupu yaşayış üçün istifadə edilmiş, bəzilərində ərzaq saxlanılmışdır. Yaşayış yerindəki tikililər dairəvi və dördbucaqlı plandadır. Erkən Tunc dövrünə aid kiçik həcmli tikililərin, evlərin özülü daşla, yuxarı hissəsi isə möhrə (palçıq) və çiy kərpiclə tikilmişdir. Bu tip tikililər I Kültəpə, Ovçulartəpəsi, I Maxta, II Kültəpə və digər abidələrdən aşkar edilmişdir. I Maxtada abidəsində olduğu kimi Plovdağ yaşayış yerində də Erkən Tunc dövrünə aid dairəvi və dördkünc evlər yanaşı tikilmişdir. Plovdağ yaşayış yerinin Erkən Tunc dövrünə aid təbəqəsindən aşkar edilən elmi ədəbiyyatlarda "camış dərisi rəngli" keramika adı ilə tanınan qara-boz rəngli qabların bənzərləri Naxçıvanın həmdövr abidələri ilə yanaşı Giyan, Mussiana və Suzda geniş yayılmışdır [11, s. 167]. Erkən Tunc dövrünə aid maraqlı arxeoloji materiallardan biri Plovdağdakı 25 № li kurqandan əldə olunmuş boğaz hissəsi ilə gövdəsi arasında kəskin keçid



olan və üzəri metal parlaqlı qablar və 18 № li kurqandan əldə olunmuş qara rəngli iri həcmli küpədir. Aparılan tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, 25 № li kurqandan əldə olunmuş qabların bənzərləri Kvaçxelebini Erkən Tunc dövrünə aid B təbəqəsindən, 18 № li kurqandan tapılmış iri həcmli küpün bənzəri isə Çalipiraqorebi qəbirlərində aşkar edilmişdir [7, s. 29].

Müstəqillik illərində Xaraba Gilan ətrafında öyrənilən arxeoloji abidələrin hər birindən əldə olunmuş maddi-mədəniyyət nümunələri və mühüm elmi nəticələr Naxçıvanın qədim və zəngin tarixindən xəbər verir. Tariximizin daş yaddaşı olan bu abidələrdə aparılan arxeoloji araşdırmalar zamanı onlardan əldə olunan nəticələr Gilançay vadisinin Naxçıvanın qədim yaşayış yerlərindən biri olduğunu sübut edir. Bu ərazidəki arxeoloji abidələrin hər biri Azərbaycan arxeologiyasında mühüm yer tutur. Onlar Tunc və Dəmir dövründə Naxçıvanda yaşamış qədim əkinçi-maldar tayfaların maddi və mənəvi mədəniyyətini, məişətini, təsərrüfat həyatını, qonşu tayfalarla qarşılıqlı iqtisadi, mədəni əlaqələrini kompleks şəkildə öyrənməklə yanaşı Naxçıvan Muxtar Respublikasının turizm potensialını artırmaq sahəsində də mühüm əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
2. Baxşəliyev V.B., Seyidov A.Q., Qədirzadə Q.İ., İbrahimli B.İ. Qədim Ordubad, Naxçıvan, "Əcəmi" NPB, 2014, s. 312 s.
3. İbrahimov B.İ. Plovdağ II nekrpolu / 2003-2004-cü illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı: Elm, 2005, s. 31-32.
4. İbrahimov B.İ. Yuxarı Gilançay hövzəsindən aşkar edilmiş Tunc dövrü qəbirlərinin xarakterik xüsusiyyətləri / AMEA-nın 60-illiyinə həsr edilmiş konfransın materialları. Mingəçevir: Oğuz, 2006, s. 91-93.
5. İbrahimov B.I. Plovdağ I nekropolu dəfn adətinin bəzi xüsusiyyətləri haqqında // Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı: Nafta-Press, 2005, s. 155-157.
6. İbrahimli B.İ., Qədirzadə Q.İ. Plovdağda arxeoloji qazıntılar // Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı: Xəzər Universiteti, 2008, s. 55-61.
7. İbrahimli B.İ. Orta Tunc dövrü kurqanlarının dəfn adəti haqqında (Birinci və İkinci Plovdağ nekropollarının arxeoloji materialları əsasında), Azərbaycan arxeologiyası və etnoqrafiyası, Bakı: Nafta Pres, 2009, s. 19-36.
8. İbrahimli B, Xəlilov T., Qədirzadə T. Plovdağda aparılmış arxeoloji qazıntılar / Azərbaycanda arxeoloji tədqiqatlar. (2009), Bakı: Xəzər Universiteti, 2010, s. 119-125.

9. İbrahimli B.İ. Etnomədəni əlaqələrin öyrənilməsində qəbir abidələrinin rolu //AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Naxçıvan, 2011, s. 86-97.
10. İbrahimli B.İ., Qədirzadə Q.İ., Xəlilov T.F., Qədirzadə T.Q. Plovdağ yaşayış yerində aparılmış arxeoloji qazıntı işləri // Azərbaycanda arxeoloji tədqiqatlar (2011), Bakı: Xəzər Universiteti, 2012, s. 161-170.
11. İbrahimli B.İ., Qədirzadə Q.İ., Qədirzadə T.Q., Xəlilov T.F. II və III Plovdağ nekropolunda aparılmış arxeoloji qazıntılar. Azərbaycanda 2013-cü ildə aparılmış arxeoloji və etnoqrafik çöl-tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları (25-26 dekabr 2014-cü il), Bakı, 2014, s. 73-75.
12. İbrahimli B.İ., Qədirzadə Q.İ., Xəlilov T.F. Plovdağ yaşayış yeri və nekropolunda arxeoloji tədqiqatlar. Azərbaycanda 2014-cü ildə aparılmış arxeoloji və etnoqrafik çöl-tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları (24 aprel 2015-ci il), Bakı, 2015, s. 48-50.



Şəkil 1. II Plovdağ nekropollarından aşkar edilmiş dəfnetmə tipləri (1, 2, 3 (2015), 4 (2003))





Şəkil 2. Plovdağ ətrafındakı abidələrdən tapılan arxeoloji materiallar (1-5-bəzək əşyaları; 6-8-gil qablar)

**Musa Quliyev**
AMEA Naxçıvan Bölməsi, fəlsəfə doktoru
E-mail: kuliyevm@yandex.ru

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN XATİRƏLƏRİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏ KEÇİRİLƏN TƏDBİRLƏR

Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra müasir dövlətimizin qurucusu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin tarixi xidmətləri, siyasi uzaqgörənliyi nəticəsində güclü inkişaf yoluna istiqamətlənən ölkəmiz, bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksəklərə ucalıb. Ümummilli liderimizin Azərbaycan mədəniyyətinə, humanitar sahənin yaradıcılarına olan dərin rəğbəti və sənət sevgisi onun siyasi kursunu davam etdirənlərin fəaliyyətlərində özünün təzahürünü tapmaqdadır.

Müstəqillik illərində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Sədrinin müxtəlif sahələrdə tarixi əhəmiyyət daşıyan sərəncam və tapşırıqları çox sayda lazımi işlərin həyata keçirilməsinə şərait yaratmışdır. Belə mühüm tarixi işlərdən biri də muxtar respublikada görkəmli şəxsiyyətlərin xatirələrinin əbədiləşdirilməsi ilə bağlı keçirilən tədbirlərdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 24 mart 1996-cı il sərəncamı ilə "Uluslararası qaynaqlarda Naxçıvan" mövzusunda iyul ayında 3 günlük simpozium keçirilmişdir.

Həmin simpoziumda Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri demişdir: "Əslində son illərdə Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev cənabları tərəfindən Azərbaycan dilinin dövlət dili statusu alması, görkəmli ədəbiyyat və incəsənət xadimlərinin dövlət səviyyəsində yubileylərinin keçirilməsi, bir çox tarixi hadisələrin geniş qeyd olunması sahəsində ardıcıl həyata keçirilən tədbirlər sistemli şəkildə müstəqillik düşüncəsinin dərinləşməsinə və qüvvətlənməsinə xidmət göstərir."

Azərbaycan xalqı Ümumdünya tarixinin nadir şəxsiyyətlərindən biri olan Heydər Əliyevin adını geniş miqyasda əbədiləşdirmişdir. Anadan olduğu Naxçıvan şəhərində Heydər Əliyevin büstü hələ onun sağlığında – 1983-cü ildə Əcəmi seyrəngahında ucaldılmışdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli, 21-01/S nömrəli sərəncamına əsasən Heydər Əliyev Muzeyi Naxçıvan şəhərində yaradılmış, 1999-cu il mayın 10-da fəaliyyətə başlamışdır. Muzeydə ümummilli lider Heydər Əliyevin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, Naxçıvan Muxtar



Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə (1991-93) aid şəxsi sənəd və materiallar, imzaladığı məktublar, qərarlar, sərəncamlar və digər sənədlər toplanmışdır. Muzeyin zəngin kitabxanası vardır. Muzeyin kitabxanasında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar saxlanılır [6, s.227].

Naxçıvan Muxtar Respublikasının bütün rayon, şəhər, böyük qəsəbə və kəndlərində Heydər Əliyev bağ və parkları, meydanları salınmış, bulaq-abidə kompleksləri, pannolar inşa edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli sərəncamı ilə C.Naxçıvanski adına hərbi liseyin filialı Naxçıvan şəhərində yaranmışdır. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 27 fevral tarixli sərəncamı ilə Naxçıvan filialının bazasında müstəqil hərbi lisey yaradılmış və ona ümummilli lider Heydər Əliyevin adı verilmişdir [6, s. 226]. Həmçinin Naxçıvan şəhərində 2004-cü ildə inşa edilən orta ümumtəhsil məktəbinə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı verilmişdir. Məktəbin qarşısında Heydər Əliyevin abidəsi ucaldılmışdır (müəllif heykəltaraş, akademik Ömər Eldarov) [6, s. 226].

1984-cü ildə Naxçıvan şəhərində tikilib istifadəyə verilmiş saraya ümummilli lider Heydər Əliyevin adı verilmişdir. Sarayın uzunluğu 110 m, eni 45 m-dir. Səhnə fırlanan döşəməyə malikdir. Səhnəsinin eni 16 m, dərinliyi 25 m, hündürlüyü 12 m, texniki avadanlıqların işlədiyi hissədə isə hündürlüyü 36 m-dir. İşıqlanma sistemi müasir tələblərə uyğundur. İki zalı var. Böyük zal iki hissədən ibarətdir. Alt hissə 675, loja 365 yerlidir. Kiçik zalda yerlərin sayı 340-dır. Sarayda qonaq otağı da daxil olmaqla 50-yə qədər məşq otağı vardır. Burada müxtəlif dövlət tədbirləri keçirilir, qastrol tamaşaları, konsertlər, müsabiqələr təşkil olunur [6, s. 226].

Şahbuz rayon ərazisində dəniz səviyyəsindən 1059 m hündürlükdə, Babək rayonunun Vayxır kəndi yaxınlığında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə su anbarının (qeyd edək ki, bu su anbarının tikintisinə 1981-ci ildə başlansa da, sonradan tikinti işləri yarımçıq qalmışdı) tikintisi yenidən bərpa olunmuş, birinci növbəsi 1999-cu ildə başa çatdırılmışdır. Su anbarı 2005-ci ildə tamamilə istifadəyə verilmişdir. 16830 ha əkin sahəsini suvarmaq qabiliyyətinə malik olan su anbarı Heydər Əliyevin adını daşıyır [6, s. 227-228].

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə Sədərək yaxınlığında salınan qəsəbə Heydərabad adlanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2000-ci il 23 mart tarixli qərarı ilə Heydərabad müstəqil inzibati vahidə-qəsəbəyə çevrilmişdir [6, s. 228].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin sərəncamları ilə ümummilli lider Heydər Əliyevin 75, 85, 90 illik yubileyləri yüksək səviyyədə muxtar respublikada keçirilmişdir [1, s. 20-23, 305; 3, s. 7].

Akademik Zərifə Əziz qızı Əliyevanın xatirəsinin əbədiləşdirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 23 avqust 2005-ci il tarixli Sərəncamında deyilir: "Akademik Zərifə Əliyeva ilk dəfə olaraq görmə üzvünə peşə xəstəlikləri törədən amillərin zərərli təsirini, yaşayarıcı yollar xəstəliklərini və şəkərli diabet zamanı göz xəstəliklərini tədqiq etmiş, elmə yeni istiqamət vermiş, ölkəmizdə görmə üzvünün patologiyası və peşə xəstəliklərini öyrənən laboratoriya yaratmışdır. Fədakar elmi-praktik fəaliyyəti ilə akademik Zərifə xanım Əliyeva peşə oftalomogiyasının bu gün də aktuallığını saxlayan elmi və praktiki istiqamətlərini formalaşdıran nadir şəxsiyyətlərdəndir."

Görkəmli alimin fədakar fəaliyyəti yüksək qiymətləndirilmiş və Kəngərli rayonunun Şahtaxtı kənd orta məktəbinə akademik Zərifə Əziz qızı Əliyevanın adı verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə görkəmli akademik Zərifə Əziz qızı Əliyevanın 75, 80 illiyi muxtar respublikada təntənə ilə qeyd edilmişdir. Qeyd edək ki, Naxçıvan şəhər poliklinikası da akademik Zərifə Əziz qızı Əliyevanın adını daşıyır [1, s. 25-26, 133, 170-171; 3, s. 27; 6, s.190].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1 iyul 2002-ci il tarixli Sərəncamı ilə Naxçıvan Olimpiya İdman Kompleksinə İlham Heydər oğlu Əliyevin adı verilmişdir [1, s. 117].

Azərbaycanın görkəmli dövlət və elm xadimləri Əziz Məmmədkərim oğlu Əliyev və Həsən Əlirza oğlu Əliyev Azərbaycan naminə fəaliyyət göstərmişlər. Onların dövlətçilik tariximizdə və elm aləmində əvəzsiz xidmətləri vardır. 2007-ci ildə Naxçıvan Muxtar Respublikasında Azərbaycanın görkəmli dövlət və elm xadimləri Əziz Əliyevin 110, Həsən Əliyevin 100 illik yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxışında demişdir: "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" və "Akademik Həsən Əliyevin 100 illik yubileyi haqqında" Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyevin 2006-cı il 5 dekabr və 2007-ci il 1 fevral tarixli sərəncamları ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan elmin himayə olunması, xalqımızın görkəmli dövlət və elm xadimlərinin elmi və nəzəri irslərinin yaradılması yolunun müasir şəraitdə davam etdirilməsinin əyani təzahürü, yüksək dövlət qayğısının daha bir ifadəsidir.

İstər akademik Həsən Əliyev, istərsə də professor Əziz Əliyev keçdikləri həyat yolları ilə nəsillərə nümunə olan, milli tariximizə öz imzalarını qoyan görkəmli şəxsiyyətlərdir" [1, s. 266-267].

Naxçıvan şəhərində Mərkəzi Uşaq Xəstəxanası Əziz Əliyevin adını daşıyır. Həmçinin Naxçıvan şəhərində görkəmli dövlət xadiminin adını daşıyan küçə də vardır.



Görkəmli şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) yaradıcılığında türkçülük və turançılıq ideyalarının təbliği öz əksini tapmışdır. Onun poeziyası yüksək bədii sənətkarlığı, dərin emosionallığı və fəlsəfi ideyası ilə seçilir.

Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında Hüseyn Cavidin anadan olmasının 125 və 130 illik yubileyləri geniş qeyd olunmuşdur [1, s. 247-248; 2, s. 10-11].

Naxçıvan şəhərində və Kəngərli rayonunun Şahtaxtı kəndində Hüseyn Cavidin ev-muzeyləri yaradılmışdır. 100 illik yubileyi ərəfəsində cənazəsi İrkutsk vilayətindən Naxçıvana gətirilib, buradakı ev muzeyinin yaxınlığında dəfn olunmuşdur. 1996-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə şairin qəbri üzərində möhtəşəm məqbərə tikilmişdir. Qeyd edək ki, sonralar şairin həyat yoldaşı Müşkünaz xanım, övladları Ərtoğrul və Turan Cavidlər də bu məqbərədə dəfn edilmişdir.

Hüseyn Cavidin oğlu Ərtoğrul Cavid (22.10.1919. Bakı ş.-14.10.1943, Naxçıvan ş.) istedadlı bəstəkar olmuşdur. Şeirləri, pyesi və rəsmləri var. İlk böyük musiqi əsəri fortepiano üçün yazılmış "Doqquz variasiya"dır. O, bu əsəri 1941-1942-ci illərdə yazaraq Üzeyir Hacıbəyova ithaf etmişdir. Digər romans və mahnılar da bəstələnmişdir.

142-ci ildə tələbə olmasına baxmayaraq, ordu sıralarına çağırılmış, "Xalq düşməni"nin oğlu olduğu üçün cəbhəyə deyil, Gürcüstanda yerləşən fəhlə batalyonuna işləməyə göndərilmişdi.

Professional musiqinin və bədii sənətkarlığın inkişafında Ərtoğrul Cavidin özünə məxsus xidmətlərini əsas götürərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 19 oktyabr 2002-ci il tarixli Sərəncamı ilə Naxçıvan Şəhər Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinə Ərtoğrul Cavidin adı verilmişdir [1, s. 121].

1854-cü ildə Ordubadda anadan olan Məhəmməd Tağı Sidqi maarifçilik fəaliyyəti dövründə məktəbdarlıq, ədəbiyyat teatr və mətbuat sahələrində əvəzsiz xidmətlər göstərmiş, təkcə Azərbaycanda deyil, Yaxın Şərq ölkələrində də tanınmışdır.

Azərbaycan ümummilli lideri möhtərəm Heydər Əliyev Naxçıvan mühitinin formalaşmasında Məhəmməd Tağı Sidqinin fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur" [1, s. 141].

Məhəmməd Tağı Sidqinin Azərbaycan realist ədəbiyyatının inkişafındakı müstəsna rolunu, məktəb, teatr və mətbuat sahəsindəki xidmətlərini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 11 mart 2004-cü il tarixli Sərəncamı ilə görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı

Sidqinin 150 illik yubileyini keçirilmiş və xatirəsi əbədiləşdirilmişdir. Həmin Sərəncama əsasən Naxçıvan Dövlət Kukla Teatrına Məhəmməd Tağı Sidqinin adı verilmişdir [1, s. 141].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20 avqust 2014-cü il tarixli Sərəncamı ilə görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilmiş [4, s. 24] və 17 sentyabr 2014-cü il tarixli Sərəncam ilə görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin Ordubad şəhərində ev-muzeyi yaradılmışdır. Bu, Sidqinin həyat və yaradıcılığına verilən yüksək dəyər və qiymətdir.

Azərbaycan ictimai-siyasi həyatında, diplomatiya və dövlətçilik tarixində özünəməxsus yeri və rolu olan Behbud ağa Şahtaxtinski həmişə Naxçıvanın taleyi ilə bağlı məsələlərdə əsl vətənpərvərlik mövqeyi nümayiş etdirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 21 fevral 2011-ci il tarixli Sərəncamı ilə görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi muxtar respublikada geniş qeyd edilmişdir.

Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və Beynəlxalq Qars müqaviləsinin 90-cı il dönümü münasibətilə keçirilən konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: "43 illik mübarizələrlə dolu qısa, lakin mənalı həyatında Behbud ağa Şahtaxtinski heç nə etməsəydi belə, xalqımızın tarixi taleyində mühüm rol oynayan Moskva və Qars beynəlxalq müqavilələrinin imzalanmasında göstərdiyi vətənpərvərlik və siyasi uzaqgörənlik onun adını Azərbaycanın görkəmli şəxsiyyətləri ilə bir sırada qoymağa tamamilə əsas verir. Qars müqaviləsi dünən olduğu kimi, bu gün də, gələcəkdə də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir" [1, s. 509].

Qeyd edək ki, Azərbaycanda milli dövlətçilik tarixində, eləcə də elmin, mədəniyyətin, təhsilin, səhiyyənin parlamentarizmin, dövlət quruculuğunun və hərb sənətinin inkişafında Şahtaxtinskilərin əvəzsiz xidmətləri vardır.

Şahtaxtinskilər Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın xoşbəxt gələcəyi uğrunda fədakarlıq göstərmişlər. Şahtaxtinskilərin tariximizdə keçdikləri şərəfli yolun vətənpərvərlik tərbiyəsində böyük təsir gücünə malik olmasını əsas götürərək Naxçıvan Muxtar Respublikası Sədrinin 9 fevral 2010-cu il tarixli Sərəncamı ilə Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilər muzeyi yaradılmışdır [1, s. 474].

Azərbaycanda ictimai fikrin, maarifçiliyin, mətbuatın və dilçilik elminin inkişafında öz mənalı ömrünü əsirgəməyən böyük şəxsiyyətlərdən biri də Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtlıdır. Şərq



tarixinə dair araşdırmaları və əlifba islahatı böyük alimin fəaliyyətində yer tutur.

XX əsrin ilk Azərbaycan qəzeti olan "Şərqi-Rus" qəzetinin nəşri onun ən böyük xidmətlərindən biridir. Çünki bu qəzetin nəşri məşhur "Molla Nəsrəddin" jurnalı üçün ciddi əsas yaratdı.

Görkəmli ictimai xadim, publisist, maarifçi və dilçi-şərqşünas Məhəmməd ağa Şahtaxtlının da xidmətləri Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 27 fevral 2006-cı il tarixli Sərəncamı ilə Məhəmməd ağa Şahtaxtlının anadan olmasının 160 illiyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd olunmuşdur. Naxçıvan şəhərindəki Kitab evinə onun adı verilmişdir. Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində və Cəlil Məmmədquluzadənin ev muzeyində Məhəmməd ağa Şahtaxtlının həyat və fəaliyyətini əks etdirən guşə yaradılmış, simpozium keçirilmiş, seçilmiş əsərləri çap edilmiş və "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii və elmi-publisitik jurnalının bir nömrəsi Məhəmməd ağa Şahtaxtlıya həsr edilmişdir [1, s. 204-205].

Realist portret və mənzərə rəsm yaradıcılığının əsasını qoyan Bəhruz(Şamil) Şirəlibəy oğlu XX əsr Azərbaycan rəsm sənətinin görkəmli nümayəndələrindən biridir.

Görkəmli rəssamın yaradıcılıq fəaliyyəti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 fevral 2001-ci il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonu Bəhruz Kəngərli adına Sərgi Salonu adlandırılmış, və 22 may 2001-ci il sərəncam ilə Bəhruz Kəngərli muzeyi yaradılmışdır. Məqamındaca qeyd edək ki, ümummilli lider 2002-ci il 18 iyun tarixində muzeyin açılışında iştirak etmiş və nitq söyləmişdir [1, s. 106, 114; 6, s. 85].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 aprel 2008-ci il tarixli Sərəncamı ilə görkəmli ədəbiyyatşünas alim, yazıçı və ali məktəb müəllimi kimi çoxcəhətli fəaliyyəti olan Mir Cəlal Paşayevin anadan olmasının 100 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilmişdir [1, s. 326].

Azərbaycan tarixi roman məktəbinin banisi, görkəmli yazıçı M.S.Ordubadinin xatirəsi Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasında da layiqincə əbədiləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 aprel 2012-ci il tarixli Sərəncamı ilə Məmməd Səid Ordubadinin 140 illik yubileyi ilə bağlı poçt marka və zərfləri buraxılmış, məqalələr toplusu nəşr olunmuş, 5 clddən ibarət "Seçilmiş əsərləri" çap edilmiş, yazıçının Ordubaddakı ev-

muzeyində, onun adını daşıyan Naxçıvan Muxtar Respublika Kitabxanasında, muxtar respublikanın digər mədəniyyət müəssisələrində M.S.Ordubadinin əsərlərindən ibarət sərgilər və oxucular konfransı keçirilmişdir [2, s. 13-14].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 yanvar 2013-cü il tarixli Sərəncamı ilə Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında mühüm rol oynamış İslam Səfərlinin 90 illik yubileyi keçirilmişdir [3, s. 4-5].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 iyun 2013-cü il tarixli Sərəncamı ilə Müasir Azərbaycan ədəbiyyatının inkişafında özünə məxsus yeri və rolu olan görkəmli xalq şairi Məmməd Arazın (İnfil oğlu İbrahimovun) anadan olmasının 80 illik yubileyi muxtar respublikada təntənəli keçirilmişdir. Xalq şairi Məmməd Arazın 80 illik yubileyi ilə əlaqədar olaraq elmi konfrans keçirilmiş, "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bir nömrəsi onun yubileyinə həsr olunmuş, şairin 80 illiyi ilə bağlı poçt markası buraxılmış və Naxçıvan şəhərindəki küçələrdən birinə şairin adı verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 28 iyun 2013-cü il tarixli Sərəncamı ilə Şahbuz rayonunun Nursu kəndində xaq şairi Məmməd Arazın ev muzeyi yaradılmışdır və 1 dekabr 2014-cü ildə muzeyin təntənəli açılışı olmuşdur [3, s. 12-13, 16; 4, s. 140-141].

Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvanın Kəngərli xanlarının da mühüm xidmətləri olmuşdur. Elə bu səbəbdən də dövlətimiz tərəfindən onların fəaliyyətləri yüksək qiymətləndirilmişdir.

Naxçıvan xanlığının siyasi tariximizdə oynadığı mühüm rolu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev demişdi: "Azərbaycanın xanlıqlara bölünən dövründə ... Naxçıvan xanlığı yaranıbdır. Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar."

Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan xanlığının tutduğu xüsusi mövqeyini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 23 oktyabr 2010-cu il tarixli Sərəncamı ilə I Kalbalı xanın və varislərinin yaşadığı sarayda "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi yaradılmışdır [1, s. 482].

2013-cü ildə Naxçıvan Muxtar Respublikasında görkəmli xadim tam süvari generalı Hüseyn xan Naxçıvanski-Kəngərlinin anadan olmasının 150 illik yubileyi də geniş qeyd edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 2 aprel tarixli Sərəncamını təmin etmək məqsədi ilə Naxçıvan Muxtar Respublikası Ali



Məclisi Sədrinin 9 aprel 2015-ci il tarixli Sərəncamına əsasən "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar olaraq Tədbirlər Planı" təsdiq edilmişdir və böyük sərkərdənin muxtar respublikada yubileyi təntənəli surətdə keçirilmişdir [1, s. 482].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sərəncamları ilə görkəmli pedaqoq Lətif Hüseynzadənin anadan olmasının 100, elmi-pedaqoji fəaliyyətinin 80 illiyi, görkəmli alim akademik Yusif Məmmədəliyevin 100 illiyi, görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illiyi, məşhur dövlət xadimi Nəriman Nərimanovun 145 illiyi, bəstəkar Qənbər Hüseynlinin 100 illiyi, Abbasqulu ağa Bakıxanovun 220 illiyi və digər görkəmli şəxsiyyətlərin yubiley tədbirləri muxtar respublikada keçirilmiş və xatirələri əbədiləşdirilmişdir [1, s. 119, 186; 5, s. 4, 41, 92].

## ƏDƏBİYYAT


1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər. 1996-2011. Naxçıvan: 2012, 526 s.
2. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər 2012. Naxçıvan: 2013, 77 s.
3. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər. 2013. Naxçıvan: 2014, 76 s.
4. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər. 2014. Naxçıvan: 2015, 158 s.
5. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər. 2015. Naxçıvan: 2016, 119 s.
6. Naxçıvan ensiklopediyası. Naxçıvan: 2005, 2 cilddə, I cild, 356 s.

**Zeynəb Quliyeva**
AMEA Naxçıvan Bölməsi, fəlsəfə doktoru
E-mail:zeyneb_guliyeva@yahoo.com

# NAXÇIVANIN NEOLİT VƏ ENEOLİT ABİDƏLƏRİNDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR (1991-2015-ci illər)

Mesopotamiya-Şərqi Anadolu-Cənubi Qafqaz üçbucağında mövcud olmuş qədim mədəniyyətlərin əlaqələndirilməsində mediator rola malik olan Naxçıvan diyarında son illərdə aparılan tədqiqatlar bu regionun ilkin əkinçilik mədəniyyətinin formalaşma mərkəzlərindən biri kimi xüsusi əhəmiyyətini ortaya qoymuşdur. Bu sahədə Naxçıvanın əlverişli iqlimə malik olması ilə bərabər yerləşdiyi tarixi-coğrafiyanın da mühüm təsiri olmuşdur. İlkin əkinçiliyin başlıca istinadgahı olan Ön Asiya ilə yaxınlıq, o cümlədən qarşılıqlı mədəni-iqtisadi əlaqələr zəminində burada formalaşan əkinçilik mədəniyyətinin izləri əsasən Neolit və Eneolit dövrünə aid qədim insan düşərgələrində izlənilməkdədir. Daimi və mövsümi xarakter daşıyan "qədim insan düşərgələri" termini əsasən Daş dövründən Tunc dövrünə qədər olan böyük bir zaman kontekstində mövcud olmuş yaşayış məskənlərinə aid edilir və yerləşmə mövqeyindən asılı olaraq bir neçə tiplə nümayiş olunur: mağaralar, dağlıq ərazilər, meşə əraziləri və ***vadilərdə*** olan düşərgələr hansı ki, əsasən Neolit dövrü üçün xarakterikdirlər [8, s. 48]. Bunlardan sonuncusu-*vadilərdə salınan yaşayış düşərgələri* Naxçıvanın Neolit və Eneolit dövrü abidələrinin xarakterik xüsusiyyətlərindəndir. Onların öyrənilməsində ilk addımlar ötən əsrin ikinci rübündə atılmış, lakin geniş miqyaslı olmamışdır.

Müstəqillik illərindən başlayaraq Azərbaycanın digər bölgələri kimi, Naxçıvan bölgəsi də əsil inkişaf dövrünə qədəm qoymuşdur. Bu sahədə **2001**-ci il 26 aprel tarixdə Ümummilli lider Heydər Əliyev tərəfindən verilmiş "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncamın, **2005**-ci il 6 dekabr tarixdə Naxçıvan MR Ali Məclis Sədri Vasif Talıbov tərəfindən verilən "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamın xüsusi əhəmiyyəti olmuşdur [18, s. 11-12]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən **2008**-ci ildə verilən Sərəncamdan sonra isə arxeoloji tədqiqatlar daha intensiv xarakter almışdır. Belə ki, Azərbaycanın Neolit dövrünə aid (e.ə. VII-VI m.) Həsənsu (Ağstafa), Göytəpə (Tovuz), Kamiltəpə (Ağcabədi), Eneolit abidələrindən Polutəpə (Cəlilabad), Əhədtəpə (Ağdam), Kamiltəpə (Ağcabədi) kimi abidələri [21, s. 8] ilə bərabər, Arpaçay vadisində yerləşən Ovçulartəpəsi, Sədərək [22, s. 15], Naxçıvançay vadisində yerləşən Şorsu,



I Kültəpə [6, s. 135], Yeni yol [5, s. 46] və digər abidələrdə apxeoloji tədqiqatlar məhz bu Sərəncamdan sonra reallaşdırılmışdır. Bununla da XXI əsrin əvvəllərindən başlayaraq aparılan arxeoloji tədqiqatlar nəticəsində Naxçıvanın Neolit və Eneolit dövrü tarixinin öyrənilməsi ilə əlaqədar yaranmış fasilə aradan qaldırılmağa başlayır.

Naxçıvanın Neolit və Eneolit abidələrinin kompakt halda qeydə alındığı vadiləri nəzərə alaraq, ərazi əlamətini əsas meyar kimi götürsək, aparılan tədqiqatları iki istiqamətdə təhlil etmək olar:

- Arpaçay vadisində aparılan arxeoloji tədqiqatlar (Şəkil 1);
- Naxçıvançay vadisində aparılan arxeoloji tədqiqatlar (Şəkil 4).




Şəkil 1. Arpaçay vadisində Neolit və Eneolit mədəniyyətinə aid materialların aşkar edildiyi abidələr.

***Arpaçay vadisində aparılan tədqiqatlar.*** Birinci qrupa daxil olan abidələrdən Sədərək və Ovçulartəpəsi yaşayış yerlərində geniş tədqiqat işləri aparılmış, Xələc, Ərəbyengicə, Aşağı Daşarx, Şortəpə kimi çoxtəbəqəli abidələrin isə bəzi materiallarında Eneolit dövrünə aid xüsusiyyətlər izlənilmişdir (Şəkil 1). Sədərək yaşayış yerinin Eneolit dövrünə aid keramikası vaxtı ilə V.H.Əliyev [10, s. 61-67] tərəfindən nəşr edilmişdir. 2010-cu ildə bu abidənin Heydərabad muzeyində saxlanılan arxeoloji materialları arasında Neolit dövrünə aid üç əmək aləti aşkar olunmuşdur [7, Şəkil 1, Şəkil 2] hansı ki, bənzərlərinə Cənubi Qafqaz [1, Şəkil IV, 1] və Şərqi Avropanın [3, Şəkil 238] Neolit dövrü arxeoloji abidələrində rast gəlinir. Bu tapıntı Naxçıvanın Neolit mədəniyyətinin Naxçıvançay vadisindəki abidələrlə məhdudlaşmadığını göstərir.

Arpaçay vadisində Eneolitin final mərhələsi Ovçulartəpəsi yaşayış yerində aparılan geniş arxeoloji qazıntılar nəticəsində öyrənilmişdir. Abidədə 2002-ci ildə başlanmış arxeoloji qazıntılar 2006-cı ildən Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyası tərəfindən genişləndirilmişdir [21, s. 45]. E.ə. 4350-4000-ci illərə aid edilən [22, s. 23] bu abidənin yarımqazma evləri, yardımçı tikililəri, evlərin interyerindəki özəllikləri, dairəvi ocaqlar, həmçinin əsasən zoomorf xarakterli relyef ornamentasiya Eneolit mədəniyyətinin Arpaçay vadisi üçün xarakterik olan cəhətlərini əks etdirir. 2013-cü ilədək abidədə aparılan qazıntıların ən mühüm göstəricilərindən biri müəyyən zaman kontekstində Eneolit mədəniyyəti və Kür-Araz mədəniyyətinin paralel olaraq mövcud olduğunu təsdiq edən maddi-mədəniyyət nümunələrinin aşkar edilməsi olmuşdur [22, s. 18]. Abidədən üzə çıxarılan qalın divarlı, yumurta şəkilli oturacaqlı qablar Tümen dən Ural dağlarının şərq yamaclarınadək yayılan və Son Neolit-Eneolit dövrlərini əks etdirən Andreyeva arxeoloji mədəniyyətinə aid [8, Şəkil 3] qablarla oxşarlıq təşkil etməsi həmin dövrün spesifik xüsusiyyətlərini nümayiş etdirir. Bəzi qabların üzərində



Şəkil 2. Arpaçay vadisinin Eneolit küpələri (1-2) üzərindəki zoomorf təsvirlərin Gəmiqayadakı paralelləri (3-4).

yapma üsulla tətbiq edilmiş zoomorf ornamentasiyanın Urmiya gölü hövzəsində yerləşən sinxron abidələrin materialları, eyni zamanda Gəmiqaya təsvirləri ilə oxşarlıq yaratması isə bəhs edilən dövrdə bu regionlarda mövcud olmuş mədəniyyətin eyni mənbədən qaynaqlandığını biruzə verir (Şəkil 2).

Müstəqillik illərində Arpaçay vadisinin digər abidələrində də Eneolit dövrünə aid maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. 2008-ci ildə



Ərəbyengicə, 2009-cu ildə Xələc yaşayış yerlərində qeydə alınan keramika nümunələrinin bir qismi məhz Eneolit dövrünün istehsalı olmuşdur. 2010-cu ildə Şərur rayon Tarix-Diyarşünaslıq muzeyindəki Şortəpə materialları arasında aşkar edilən Ubeyd tipli boyalı kasa [16, s. 39; 21, s. 16] Arpaçay vadisində Eneolit dövrü mədəniyyətinin formalaşmasında Mesopotamiya izlərinin göstəricilərimdən biri olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin dəstəyi ilə təşkil edilən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yerli ekspedisiyasının 2013-cü ilin sentyabr-oktyabr aylarında Ərəbyengicə abidəsində apardığı arxeoloji qazıntılar[1] abidənin əvvəlki illərdə tapılan maddi-mədəni bazasını daha da zənginləşdirən yeni arxeoloji materialların üzə çıxarılması ilə nəticələnmişdir. Aşkar edilən keramika nümunələrinin bir qisminin Son Eneolit dövrünə aid olması iki arxeoloji mədəniyyət arasındakı əlaqənin öyrənilməsində Arpaçay vadisində yerləşən Ovçulartəpəsi və digər abidələrlə bərabər Ərəbyengicə yaşayış yerinin də xüsusi əhəmiyyətini ortaya çıxarmışdır.

***Naxçıvançay vadisində arxeoloji tədqiqatlar.*** Bu ərazidə Neolit və Eneolit dövrünə aid ilk tapıntılar ötən əsrin 50-60-cı illərində tədqiqat obyektinə çevrilən I Kültəpə yaşayış yerindən üzə çıxarılmışdır [1]. Buradan aşkar edilən 4 mədəni təbəqədən əsasən Eneolit və Tunc dövrünə aid, ən alt təbəqədən isə Neolit dövrünüə aid maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Bu tapıntılara əsaslanan bəzi tədqiqatçılar I Kültəpə yaşayış yerini vaxtilə Cənubi Qafqaz abidələrinin Naxçıvan-Mil-Muğan ərazi qrupuna aid etmişlər [15, s. 93-131]. Ayrıca olaraq Ia təbəqəsindən aşkar edilən tapıntılar əsasında I Kültəpə bütün Qafqazda "Neolit inqilabı"nın ilk abidəsi kimi xarakterizə edilmiş [13, s. 48], lakin Eneolit və Erkən Tunc dövrünə aid arxeoloji materialları çoxluq təşkil etdiyindən onların daha dərindən araşdırılması fonunda Neolit dövrü arxa planda qalmışdır.

Müstəqillik illərindən başlayaraq Azərbaycanın digər abidələri kimi, Naxçıvançay bölgəsində yerləşən abidələr də geniş tədqiqata cəlb olunmuşdur. 2013-2015-ci illərdə I Kültəpənin alt qatlarının daha dərindən öyrənilməsi məqsədi ilə yeni arxeoloji tədqiqatlar başlanmış[2] və nəticədə Naxçıvanın Neolit və Eneolit dövrü mədəniyyətinə aydınlıq gətirmək baxımından xüsusi əhəmiyyətə malik olan xeyli miqdarda yeni abidələr qeydə alınmışdır ki, onların da içərisində Şorsu, Yeni yol, Sürümcək və digərlərini göstərmək olar [4, s. 8-12].

---

[1] Ərəbyengicə abidəsində arxeoloji qazıntılar AMEA-nın müxbir üzvü V.Baxşəliyevin rəhbərliyi ilə AMEA NB-nin bir qrup əməkdaşı o cümlədən bu sətirlərin müəllifinin də daxil olduğu yerli ekspedisiya tərərfindən aparılmışdır.

[2] I Kültəpə və ətrafında aparılan arxeoloji tədqiqatlar AMEA-nın müxbir üzvü V.Baxşəliyevin rəhbərliyi altında AM EA Naxçıvan Bölməsinin xüsusi arxeoloji ekspedisiyası və Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının birgə layihəsi ilə həyata keçirilmişdir.

Naxçıvançay vadisində salınmış Neolit-Eneolit abidələri içərisində fundamentallığı ilə yerli və beynəlxalq miqyasda diqqəti cəlb edən I Kültəpə qədim yaşayış düşərgəsində aparılan qazıntılar bəhs edilən dövrün öyrənilməsi üçün xüsusi töhfələr vermişdir. Burada bəzən mübahisəli görünən bir nüansa aydınlıq gətirmək yerinə düşər. Bəziləri Neolit təbəqəsinin vaxtı ilə O.Həbibullayev tərəfindən 22,5 m dərinlikdə üzə çıxarılmasını əsas gətirərək, 2013-2015-ci illərdə aparılan qazıntılar zamanı eyni təbəqənin təqribən 1-2 m dərinlikdən qeydə alınmasına şübhə ilə yanaşırlar. Ortaya çıxan sualları müxtəlif aspektdən cavablandırmaq olar.

*Birinci aspekt* Kültəpə yaşayış yerinin 1951-ci ildə çəkilmiş şəklinin müasir qazıntı ərazisi ilə müqayisəsin dən aydın olur. Belə ki, həmin şəkildə ən hündür ağac belə qazıntı aparılan təpənin yamacında qalmışdır [11, 2-ci şəkil]. Qeyd etmək lazımdır ki, Kültəpə kəndinin yaşlı sakinləri də bu faktı edir. Həmin təpənin çox hissəsi sonralar kürünərək düzləşdirilmiş və yerində məscid inşa edilmiş, qalan hissəsinin isə torpağından yerli sakinlər tikinti materialı kimi istifadə etmişlər. Bu fikri qazıntılar zamanı qonşu evlərin sakinlərinin həyətlərindən tapdıqları qədim keramika nümunələri haqqında verdikləri məlumatlar təsdiq edir. Son illərdə qazıntı aparılan ərazi əvvəlki illərdə tədqiq edilən ərazidən 70-100 metr cənub-qərb tərəfdə və ondan daha aşağıda yerləşir. Yerli sakinlərin dediyinə görə buradakı təpə hazırda həmin ərazidə tikilmiş məscidin minarəsindən də hündür olmuşdur (Şəkil 3).



Şəkil 3. I Kültəpə yaşayış düşərgəsinin B (2013) və D (2014) qazıntı sahələrinin kənd məscidin fonunda görünüşü.

*İkinci aspekt* müasir elmiin və texnologiyanın verdiyi imkanlara əsaslanan kömür analizlərinin nəticəsi faktorudur. 2014-cü ildə D sahəsindən



götürülüən radiokarbon analizlərin nəticəsi e.ə. 6100-5200-cü illəri göstərmişdir. Həmin tarix isə Neolitin final mərhələsini əks etdirir.

*Üçüncü aspekt* abidəni araşdırmış arxeoloqların əsərləridir. Belə ki, O.Həbibullayev əsərlərindən birində I Kültəpənin 1a təbəqəsini Son Neolitə [11, s. 9], 1b təbəqəsini isə Eneolitə aid etsə də, sonralar hər iki təbəqənin Eneolitlə bağlı olduğunu qeyd etmişdir [1, s. 24]. Son illərin qazıntıları, xüsusilə 2015-ci ildə götürülən radiokarbon analizlərin nəticələri isə aşkar edilən arxeoloji tapıntıların Neolit dövrünü əks etdirdiyini sübüt etmişdir [6, s. 135]. Bu fakt abidənin tapıntılarının həmdövr abidələrlə müqayisəsində də öz təsdiqini tapmaqdadır. Bu dövrün özünəməxsus xüsusiyyətləri daha çox arxitektura quruluşunda və keramika qalıqlarında əks olunmuşdur. Buna görə də Naxçıvanın Neolit mədəniyyətinin xarakterik cəhətləri və inkişaf mərhələlərini izləmək üçün I Kültəpədə aparılmış son 3 ilin tədqiqatlarına diqqət çəkmək yerinə düşər.

***2013-cü ildə*** I Kültəpədə əvvəlki illərdə aparılmış qazıntı sahəsindən bir qədər aralıda, cənub-qərb istiqamətində şərti olaraq A və B adlandırılan sahələrdə arxeoloji qazıntılar aparılmışdır (Şəkil 4).



Şəkil 4. I Kültəpədə qazıntı sahələrinin planı.

Birinci sahədə aparılan qazıntılar zamanı ocaq yerləri, sümük və çaxmaqdaşı qalıqları üzə çıxarılmış, təqribən 2 m dərinliyədək qazılan B sahəsinin alt qatlarından isə cənub-şərq, şimal-qərb istiqamətində olan bir neçə divar qalığı, Neolit dövrünə aid saxsı məmulatı, sümük və daş alətlərin qalıqları qeydə alınmışdır. Buradan üzə çıxarılan saxsı məmulatının bir qismində rast gəlinən yuvarlaq konusvari, yaxud yastı qabarıq bəzəmələr

(Şəkil 9, 4) başlıca olaraq Neolit keramikası üçün xarakterik olmaqla, əvvəllər də abidənin "1a" və "1b" təbəqələrində aşkar olunmuşdur [11, Şəkil 19-25].

***2014-cü ildə*** isə A, B sahələrində qazıntı davam etdirilməklə bərabər, D və G adlandırılan yeni sahələr də açılmışdır (Şəkil 4). Qazıntılar zamanı aşkar edilən keramika, təsərrüfat alətləri, sümük, obsidian qalıqları və digər artefaktlar içərisində tikili qalıqları xüsusi yer tutur. Neolit arxitekturası əsasən yuvarlaq formalı tikili qalıqları və arakəsmə divarlarla təmsil olunurdu. D sahəsindən üzə çıxarılan bütöv bir yaşayış kompleksi bu cəhətdən diqqətə layiqdir. Bu kompleksin qalıqları insanların həyat tərzini əks etdirən maraqlı bir mənzərəni ortaya qoyur. Cənub-şərqdən qərbə doğru uzanan iri ölçülü ümumi qəbilə divarının (eni-55-60 sm) interyerində 2 ovalvari ev, onlara birləşən düz formalı arakəsmə divarları, həmçinin dairəvi formalı bərk təbəqələrin üst-üstə yolu ilə tikilmiş təndir və ocaqlar kvadratın cənub hissəsinin yaşayış yeri olduğunu göstərirdi. Şimal yarısında isə 4 iş yerinin, müxtəlif əmək alətlərinin, xeyli miqdarda çaxmaqdaşı və müxtəlif rəng çalarlarında obsidianların üzə çıxarılması buranin emalatxana kimi istifadə edildiyini nümayiş etdirirdi (Şəkil 5, 1).




Şəkil 5. 2014-cü ildə I Kültəpənin D sahəsindəki evdən aşkar edilən daş döşəməli ocağın (1-2) Türkiyənin Körtiktəpə (3) Neolit düşərgəsindəki paraleli [20, Şəkil 8].

Neolit yaşayış yerlərində iş yerlərinin mühüm yer tutması Sibirin Neolit düşərgələrində də özünü biruzə verir. Onlar evlərin içərisində deyil, yanında olan belə iş yerlərindən xeyli miqdarda daş əmək alətləri, bəzən istehsal prosesi başa çatdırılmamış obsidian, çaxmaqdaçı qalıqları alətlər



tapılmışdır [14, s. 444]. I Kültəpənin D sahəsində də bu xüsusiyyət izlənilirdi. Əsasən daş alətlərin yığıldığı bu cür iş yerlərinin bənzərlərinə Rusiya Federasiyasının Sverdlovsk vilayəti və ətrafında yerləşən Neolit düşərgələrində də rast gəlinir [8]. Yalnız buradakı iş yerləri Uralın təbii daş yataqları ilə əlaqələndirildiyi halda, I Kültəpədəki iş yerlərindən aşkar edilən iri ölçülü daş alətlər yerli istehsalın, müxtəlif növ obsidian və çaxmaqdaşları isə qonşu regionlarla mədəni-iqtisadi əlaqələrin nəticəsi kimi dəyərləndirilir.

Bu dövrün arxitekturasında diqqəti cəlb edən məqamlardan biri mərkəzdə olan oval şəkilli tikili idi. İki hissəyə bölünən bu tikilinin qərb hissəsində qırmızı gildən tikilmiş dairəvi ocağın ətrafı küllə dolmuşdu, şərq hissədə isə döşəmədə basdırılmış qırmızı rəngli eyni qaba aid keramika fraqmentləri qeydə alındı. Tikilinin xüsusi quruluşu, həmçinin mərkəzdə yerləşməsi onun ***ritual məqsədli*** olması ehtimalını yaradır. Digər maraqlı nüans qərb tərəfdə olan ovalvari evin divarına bitişik dəyirmi və kiçik ölçülü ***daşlar döşənmiş ocaq yeri*** idi (Şəkil 5, 2-3). Bu cür daşlarla döşənmiş daha bir ocaq 2015-ci ildə I Kültəpənin E sahəsində qeydə alınmışdır (Şəkil 6, 2-3).




Şəkil 6. I Kültəpənin E sahəsindən üzə çıxarılan boyaq qabı (1), daş döşəməli ocağın (2) İraqın Tell Nader (3) Neolit düşərgəsindəki paraleli.

İstər D sahəsində aşkar edilən təqribən 220 ədəd müxtəlif rəngli yuvarlaq şəkilli daşlardan ibarət olan ocaq, istərsə də E sahəsində qeydə alınan eyni formalı ocaq Türkiyənin Neolit abidələrindən olan Körtik təpə abidəsində, həmçinin Mesopotamiyadakı Tell Nader yaşayış yerində öz paralellərini tapır

(Şəkil 5, 2-3; Şəkil 6, 2-3 ). Qeyd etmək lazımdır ki, ikinci ocaq da eyni ilə digəri kimi, ovalvari evin divarının interyerində şimal-şərq küncündə və küllə qarışıq olaraq aşkar edilmişdir. Həmin evin cənub-şərq divarı yaxınlığında aşkar edilən boyaq qabı 2015-ci ilin maraqlı tapıntılarından biridir (Şəkil 6, 1). Qazıntı sahəsinin cənub divarının şərq qurtaracağında qeydə alınan qab (KT-15, 158) silindir formalı olub diametri 15-16 sm-ə çatırdı. Onun içərisindən tünd qırmızı rəngli boyaq maddəsinn qalıqları götürüldü. Buradan üzə çıxarılan saxsı məmulatının bir qismində də eyni rəngdə boya izlərinə rastlanmışdır. Qeyd etmək lazımdır ki, həmin sahənin yaxınlığında, lakin bir qədər üst təbəqədə aşkar edilən ocaq yerində narıncı rəngli oxra da qeydə alınmışdır (KT-15, E-128) ki, bu da qədim Kültəpə sakinlərinin boyaq hazırlama və tətbiq etmə sahəsində zəngin təcrübəyə malik olduqlarının göstəricilərindən sayıla bilər. Dəfn prosesində, qabların, divar və döşəmələrin boyanmasında oxradan istifadə edilməsi müəyyən mənada ideoloji mahiyyət daşıyırdı. Bu element bəzi arxitekturaya da yansımışdır. Bunu E sahəsindən aşkar edilən ***nalşəkilli tikili*** qalığının timsalında görmək olar (Şəkil 7).



Şəkil 7. 2015-ci ildə I Kültəpənin E sahəsindən üzə çıxarılan nalşəkilli tikili qalığı.

2015-ci il qazıntıları zamanı üzə çıxarılan bu tikili orjinal xüsusiyyəti ilə diqqəti cəlb edir. Tikilinin şərq divarına bitişik gil platforma üçkünc



formalı olub tam qalmamışdı. Onun altında bütün evi əhatə edən kül qarışıq döşəmənin qalıqları izlənilirdi. Mərkəz hissədə isə dairəvi formalı yastı daşlarla örtülmüş daha bir ocaq yeri qeydə alınmışdır

Diqqət çəkən məqamlardan biri də evlərin içərisində və divarların arasında basdırılmış insan skeletləri idi. 2014-2015-ci illərdə I Kültəpədən aşkar edilən 4 insan skeletindən ikisi A sahəsində, biri E, digəri isə F sahəsində qeydə alınmışdır. Ölülərin dəfn edilmə forması qədim Naxçıvan tayfalarının Son Neolit dövrünə aid ideoloji görüşləri haqqında müəyyən təsəvvür yaradır. Burada ilkin olaraq iki nüans diqqəti cəlb edir: ölənlərin yanına məişət əşyalarının qoyulması və bükülü halda dəfn etmə adəti. Burada qeydə alınan bükülü halda dəfn etmə adətinə Türkiyənin Körtik təpə [20, Şəkil. 3], Birləşmiş Ərəb Əmirlikləri əzazisindəki Cəbəl əl-Buhais [24, BHS-85] kimi Neolit düşərgələrində, həmçinin Cənub-Qərbi Sibirin Neolit-Eneolit mədəniyyətinə aid Ust-İşi [15, s. 30] və Ön Asiyanın Mallah kimi [19, Şəkil 3] həmdövr abidələrində rast gəlinmişdir (Şəkil 8).



Şəkil 8. 2015-ci ildə I Kültəpədə qeydə alınan bükülü dəfn etmənin (1) Şərqi Anadolu (2), Sibir (3) və Ön Asiyanın (4) Neolit düşərgələrindəki paralelləri.

Qərbi Sibirdə bu dövrə aid bükülü dəfn etmə iki tiplə nümayiş olunur: arxası üstə və dizləri bükülmüş halda və sağ yaxud sol böyrü üstə bükülü halda [15, 30]. Körtik təpədə də hər iki xüsusiyyət izlənilir. I Kültəpədən istər əvvəlki illərdə (11, 13-cü şəkil), istərsə də son dövrlərdə aşkar edilmiş qəbirlərdə yuxarıda qeyd edilən xüsusiyyətlərin izlənilməsi bu

regionlar arasındakı qarşılıqlı əlaqələrin mövcudluğunu nümayiş etdirən faktorlardan hesab edilə bilər. Digər oxşarlıq dəfn zamanı skeletlərin yanına müəyyən əşyaların qoyulmasında özünü büruzə verir. 2015-ci ildə F sahəsində aşkar edilən skeletlərdən birinin baş tərəfində 1 ədəd kasa qoyulması və digər oxşarlıqlar bu regionlar arasındakı əlaqələrin göstəricilərindəndir. Bu əlaqələrin daha çox əks olunduğu keramika nümunələri aid olduqları dövrün sənətkarlığı, incəsənəti, həmçinin dəfn adətinin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. 2014-2015-ci illərdə I Kültəpədən aşkar edilən keramika nümunələri saman tərkibli, qalın divarlı, daban şəkilli və düz oturacaqlı, banka tipli olmaları, qəhvəyi-qırmızı, narıncı rəng çalarları, qurşaq şəkilli və dairəvi yapmalar, bəzən də novşəkilli ornamentləri ilə diqqət çəkir (Şəkil 9, 1-6).




Şəkil 9. 2013-2015-ci illərdə Naxçıvançay vadisindən aşkar edilmiş keramika nümunələri.

Bu tapıntılar Şomutəpə [2. Şəkil. XVIII, 4-5], I Aruxlo [12, Şəkil. 10] və digər yaşayış yerlərinin Neolit keramikası ilə analogiya yaradır. 2015-ci



ildə I Kültəpənin A sahəsindən qeydə alınan qısa lüləkli qab fraqmentinin Cənubi Azərbaycanın Yanıqtəpə keramikası [25, s. 618], E sahəsindən aşkar edilən banka tipli, silindirik oturacaqlı qabların Hacı Firuz keramikası ilə [26, Şəkil. 73; Şəkil. 91] oxşarlıq yaratması və digər əlamətlər bəhs edilən dövrdə Azərbaycanın istər şimalı, istərsə də cənubunda Neolit və Eneolit mədəniyyətinin eyni zaman kontekstində formalaşdığından xəbər verir.

**Nəticə**

Naxçıvanda Neolit və Eneolit abidələri XX əsrin ortalarında qeydə alınsa da, onların sistemli şəkildə tədqiqi müstəqillik illərində həyata keçirilməyə başlamışdır. Məhz bu illərdə aparılan arxeoloji qazıntılar nəticəsində Eneolit dövrünə aid qeydə alınan abidələrin sayı 23-ə çatmış, yalnız I Kültəpə ilə təmsil edilən Neolit dövrünə aid isə 10-a yaxın sayda yeni abidələr silsiləsi aşkar edilmişdir.

Tədqiqatlar Naxçıvanın Neolit və Eneolit abidələrinin coğrafi əlaməti üçün çay vadilərinin xarakterik olduğunu göstərir. Bunu Arpaçay və Naxçıvançay vadilərində kompakt halda aşkar edilmiş abidələrin timsalında izləmək olar. Naxçıvançay vadisindəki I Kültəpə, Şorsu, Yeni yol və digər abidələrin arxeoloji materialları Naxçıvanın Neolit mədəniyyətinin sistemli şəkildə öyrənilməsi üçün zəngin baza yaratmışdır. Arpaçay vadisində yerləşən Ovçulartəpəsi, Xələc, Ərəbyengicə, Şortəpə kimi abidələrin alt qatlarından üzə çıxarılan materiallar isə Eneolit dövrünün final mərhələsini və qonşu regionlarla mədəni-iqtisadi əlaqələri öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Hələlik sual altında qalan orta mərhələyə aid Şortəpə abidəsindən tapılan ubeyd tipli kasa Naxçıvanda Eneolitin ilk və son dövrləri arasında əlaqənin qırılmadığını təsdiq edən qiymətli faktlardan biridir. Bu ardıcıllığı izləmək üçün arxeoloji tədqiqatlar məhz yuxarıda qeyd edilən çay vadilərinə genişləndirilmiş və aşkar edilən materiallar Naxçıvanın bu vaxtadək arxa planda qalmış Neolit mədəniyyətinin və tək-tək elementlər halında tədqiq edilmiş Eneolit mədəniyyətinin sistemli və kompleks halda öyrənilməsi üçün zəngin baza yaratmışdır.

Bu mədəniyyətlərin xarakterik xüsusiyyətləri əsasən tikili qalıqları və saxsı məmulatlarında nümayiş olunmaqdadır. Naxçıvanın Neolit arxitekturası üçün əsasən dairəvi və yardımçı tikililər xarakterik olmuşdur. Bununla yanaşı az miqdarda künclərdə dəyirmiləşdirilmiş kvadrat şəkilli tikililərə də rast gəlinir. 2013-2015-ci illərdə I Kültəpədən aşkar edilən iş yerləri, təsərrüfat çuxurları, müxtəlif ocaq tipləri, ovalvari evlər və onları əhatə edən ümumi divar qalıqları Naxçıvanın Neolit dövrü tayfalarının məişəti, təsərrüfat həyat və ideologiyasının bütöv bir mənzərəsini yaratmaq baxımından xüsusi dəyərə malikdir.

Neolit və Eneolit abidələrindən üzə çıxarılan maddi-mədəniyyət nümunələri üzərindəki ornamentlərin Gəmiqayadakı bəzi təsvirlərlə analogiya yaratması eyni dövrü əks etdirməklə sonuncunun stratiqrafiyasının daha qədim tarixə söykənməsi fikinə stimul verir. Bununla yanaşı bu abidələrdə Azərbaycanın digər regionlarındakı sinxron abidələrlə də (Şomutəpə, Hacı Firuz, Yanıqtəpə və s.) ortaq xüsusiyyətlərə rast gəlinir ki, bu da onların eyni mədəniyyətdən qaynaqlandığını göstərir.

Naxçıvanın Neolit və Eneolit abidələrində aparılan tədqiqatlar bu regionun geosiyasi əhəmiyyətinin üzə çıxarılması üçün də əhəmiyyətli faktlar vermişdir. Aşkar edilən artefaktlarda Cənubi Qafqazın I Aruxlo, Çox yaşayış yerləri, Şərqi Anadolunun Körtik təpə yaşayış yeri, həmçinin Ön Asiyanın Tell Nader, Mallah, Cəbəl əl-Buhais Neolit dövrü abidələri ilə ortaq xüsusiyyətlərin izlənilməsi onlar arasındakı qarşılıqlı əlaqələrinin mövcudluğunu nümayiş etdirir.

Beləliklə, müstəqillik illərində muxtar respublikanın Neolit və Eneolit abidələrində aparılan arxeoloji tədqiqatlar bu regionda hələ daş dövründən başlayaraq formalaşmağa başlayan və Azərbaycanın digər əraziləri ilə sıx bağlı olan qədim mədəniyyətlərin mənşəyi, inkişaf mərhələlri, lokal xüsusiyyətləri və Ön Asiya-Şərqi Anadolu-Qafqaz regiondakı yerinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
2. Археология Венгрии (Каменный век). Ответственные редакторы: Титов В.С. и Эрдели И. Москва: Наука, 1980. 420 с.
3. Ахундов Т.И. У истоков Кавказской цивилизации. Неолит Азербайджана. Шомутепе. Баку: Наука, 2012, 386 с.
4. Baxşəliyev V., Novruzov Z. Sirabda arxeoloji araşdırmalar. Bakı: Oskar, 2010, 160 s.
5. Baxşəliyev V., Quliyeva Z., Rzayeva R. Yeni yol yaşayış yerində arxeoloji araşdırmalar. // Beynəlxalq İpək yolu konfransı. Naxçıvan Universiteti, 16-17 oktyabr, 2015-ci il, s. 46-47.
6. Бахшалиев В. Новые материалы эпохи Неолита на территории Нахчывана. / Российская Археология, 2015, №2, с. 135-144.
7. Bakhshaliyev V., Seyidov A. New Findings from the Settlement of Sadarak (Nakhchivan-Azerbaijan) // Anatolia Antiqua, XXI, 2013. P. 1-21.
8. Берс Е.М.Археологические памятники Свердловска и его окрестностей. Свердловское книжное издательство. 1963, 93 с.





9. Черлёнок Е.А. Археология Кавказа (мезолит, неолит, энеолит): Учебно-методическое пособие. СПб.: Санкт-Петербургский государственный университет, 2013, 54 с.
10. Əliyev V.H. Sədərək eneolit yaşayış yeri //Azərbaycan SSR EA Xeberleri, 1985, № 2. s. 61-67.
11. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1959. 134 s.
12. Hansen S., Mirtskhulava G. and Bastert-Lamprichs K. Neolithic Settlement Mound in the Caucasus. // Neo-Lithics 1/07, 52 s.
13. İsmayılzadə Q. Neolit inqilabı və Naxçıvan. // Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları) Naxçıvan: "Əcəmi" NPB, 2013, s. 47-51.
14. История древняя Сибирь. С древнейших времен до наших дней. В пяти томах. Том первый, Наука, 1968, 722 с.
15. Кирюшин Ю.Ф. Энеолит и ранняя бронза юга Западной Сибири: Монография. – Барнаул: Изд-во Алт. ун-та, 2002. – 294 с.
16. Quliyeva Z. Şortəpə qədim yaşayış yeri. // Azərbaycan arxeologiyası və etnoqrafiyası, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, № 2, Bakı, 2009, s. 39-42.
17. Мунчаев Р.М. Энеолит Кавказа // Археология СССР. Энеолит СССР.М.: Наука, 1982, с. 93-131.
18. Naxçıvan tarixi. Üç cilddə, I cild. Naxçıvan: "Əcəmi" NPB, 2013, 452 s.
19. Неолит и энеолит Ближнего Востока и Азии. 58 с. pdf.
20. Özkaya V., Coşkun A. Körtik Tepe. // The Neolithic Turkey. Vol. 1. Archeolojy and Art Publications, İstanbul, 2011, pp. 89-127.
21. Rəhimova M. Azərbaycanın erkən əkinçilik dövrü abidələri (son tədqiqatlar), Bakı, 2011, 70 s.
22. Seyidov A., Baxşəliyev V., Məmmədov S., Aşurov S., Qədim Şərur. Bakı, 2012, 466 s.
23. Seyidov A., Baxşəliyev V. Şortəpə (İbadulla). Bakı, 2013, 200 s.
24. Uerpmann H., Uerpmann M. and Jasim S.A. The Archaeology of Jebel Al-Buhais.Sharjah, United Arab Emirates. Printed in Germany 2006, 48 s.
25. Voigt M. Relative and absolute chronologies for İran between 6500 and 3500 cal BC. 1987, 646 s.
26. Voigt M. Haji Firuz Tepe İran: The Neolothic settlement. The University Museum of Pennsylvania. Philadelphia, 1983, 267 s.

**Asəf Orucov**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: aseforucov@yahoo.com

# NAXÇIVAN ŞƏHƏRİNDƏ SOSİAL-MƏDƏNİ MÜNASİBƏTLƏR YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

Qədim dövlətçilik tariximizdə mühüm yer tutan Naxçıvan şəhərinin inkişafı hələ ötən əsrin 70-ci illərində möhtərəm Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründən başlamışdır. Naxçıvan XX əsrin 80-ci illərinin sonlarında Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində blokadaya salınmış, 1991-ci ildən qaz xətti kəsilmiş, 1992-ci ildən dəmir yolu bağlanmış, elektrik enerjisinin verilməsi iflic vəziyyətinə düşmüşdür. Ancaq buna baxmayaraq Naxçıvan yenidən inkişaf etməyə başlamışdır. Hələ 1996-cı ildə keçirilən müşavirələrin birində "Yaxşı bəhanə tapıblar, hər nöqsanı, hər çatışmazlığı və özlərinin fəaliyyətsizliyini blokada ilə əlaqələndirirlər", - deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov blokadanın inkişaf üçün əngəl olmadığını açıq-aydın bəyan etmişdir.

Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Ümumi ərazi hazırda 191,51 kv km-dir. 4 dekabr 2001-ci il Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasının bəzi rayonlarının inzibati ərazi bölgüsünə qismən dəyişiklərin edilməsi haqqında" Qanuna əsasən Naxçıvan Muxtar Respublikası Babək rayonunun Əliabad inzibati dairəsi Naxçıvan şəhərinin tərkibinə verilmişdir. 2002-ci ildə Əliabad qəsəbəsi (166 hek.sahə) və Xətai məhəlləsi (81 hek.sahə), 2009-cu ildən Tumbul (874,6 hek.sahə), Hacıniyyət (96 hek.sahə), Qaraxanbəy (619,7 hek.sahə), Qaraçuq (1440 hek.sahə), Bulqan (163,3 hek.sahə) kəndləri də şəhərərin baş planına daxil edilmişdir. Şəhərin mərkəzi 166 hek. sahədə yerləşir. Naxçıvan şəhərinin ərazisi 2000-ci ildə 1955 hek. sahəni əhatə edirdisə, 2010-cu ildən 191,51 hektar sahəni əhatə edir. 1 yanvar 2016-cı il tarixinə olan məlumata görə Naxçıvan şəhərində əhalinin ümumi sayı 91,1 min nəfərdir. Naxçıvan şəhərinin qəsəbələrin sayı 1, kənd 5, inzibati-ərazi dairəsi 3-dür [4].

Qədim türk yurdu, oğuz yurdu olan Naxçıvan şəhərində müstəqillik qazandıqdan sonra başqa sahələrlə yanaşı sosial mədəni münasibətlərdə yeni inkişaf mərhələsinə qədəm qoymağa başladı. Şəhərsalma prinsiplərinə uyğun qurulan qədim Naxçıvan bu gün tarixilik, millilik və müasirliyin vəhdətində daha füsunkar görünür. Muxtar respublika paytaxtında hər il yeni yaşayış binaları tikilir, park və xiyabanlar salınır, şəhər infrastrukturu tamamilə yeniləşdirilir. Naxçıvan şəhərində salınan park və xiyabanlar,



müasir istirahət kompleksləri şəhərə xüsusi görkəm verməklə yanaşı, həm də sakinlərin və turistlərin mənalı istirahətinə, asudə vaxtının səmərəli təşkilinə xidmət edir. Bu işlər çərçivəsində Naxçıvançay vadisində "Əyləncə adası" istirahət parkı istifadəyə verilib. Bütün bunlar insanların sosial vəziyyətlərinin yaxşılaşdırılmasına gətirib çıxarmışdır [7].

Bu sahədə, yəni sosial-mədəni münasibətlərin inkişafı sahəsində bir sıra işlər görüldü ki, bunlardan biri də əhalinin mənzil şəraitinin yaxşılaşdırılması məsələsi idi. Beləki, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzil yaşayış binası və fərdi evlər tikilib istifadəyə verildi. 2014-2015-ci illərdə şəhərin Atatürk, Kazım Talıblı, Əziz Əliyev küçələrində yaşayış binaları tikilib, sakinlərin mənzil təminatı yaxşılaşdırılıb. Həmçinin mövcud binalarda əsaslı təmir və yenidənqurma işləri aparılıb, bir neçə binanın dam örtüyü və fasadı dəyişdirilib, Atatürk küçəsindəki 5 nömrəli ictimai yaşayış binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib. Yeni yaşayış binalarının tikintisi gənclərin mənzil şəraitinin yaxşılaşdırılmasına geniş imkanlar açıb. 2014-cü ilin may ayında Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində 3 beşmərtəbəli binadan ibarət yeni yaşayış kompleksi istifadəyə verilib. Binalardakı 80 mənzilin ipoteka şərtləri ilə satışa çıxarılması gənc ailələrin mənzil təminatında mühüm əhəmiyyətə malik olub. Sözügedən küçədə geniş bir ərazini əhatə edən daha bir yaşayış kompleksinin "Gənclər şəhərciyi"nin tikintisi isə davam etdirilir. Gənclərə göstərilən diqqət və qayğıdan söz düşmüşkən, qeyd edək ki, onların asudə vaxtının səmərəli təşkili və fəallığının artırılması məqsədilə də ardıcıl işlər görülüb, Naxçıvan şəhərində müasir tələblərə cavab verən Gənclər Mərkəzi tikilib istifadəyə verilib [6, 2016, 26 yanvar]. Hazırda binada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu yerləşir və aid təşkilatlarla birlikdə gənclərin fəallığının artırılması, onların qüvvə və enerjisindən, bilik və bacarığından səmərəli istifadə olunması istiqamətdə uğurla fəaliyyət göstərir [3, s. 377].

Bir məsələni də qeyd edim ki, demək olar ki, hələ beş il bundan öncə Naxçıvan şəhərində mövcud olan mənzil yaşayış binalarının hamısı dövlət hesabına istilik sistemi ilə tam təmin edilmişdir. 1995-ci ildə heç bir qazanxana işləmədiyi halda, 2001-ci ildə15-dən artıq qazanxana təmir edilib istifadəyə verilmiş və daimi su xətlərinə qoşulmuşdur.

Əhalinin rahatlığına və yaşayış səviyyəsinin yüksəlməsinə xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin tərkib hissəsi kimi içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması muxtar respublikamızda irriqasiya sahəsində görülən əsas işlərdəndir. Naxçıvan şəhərdə əhalinin içməli su ilə təchizatı məsələsinə xüsusi əhəmiyyət verilmişdir."Şəhər su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində Naxçıvan şəhərinin içməli su və

kanalizasiya sistemləri yenidən qurulmuşdur. Beləki, Naxçıvan şəhərində Su anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilmiş, 1 yanvar 2015-ci il tarixə Naxçıvan şəhərində 219.040 metr uzunluğunda kanalizasiya və 224,4 kilometr məsafədə içməli su xətləri çəkilmişdir. 21.207 ev birləşməsində sayğaclaşma işləri görülüb. Şəbəkə üzərində 905 yanğın hidrantı quraşdırılıb. Bununla da Naxçıvan şəhər əhalisinin içməli suya tələbatı 100 faiz təmin olunub [6, 2015, 22 yanvar]. Naxçıvanda şəhərdaxili su və kanalizasiya şəbəkəsinin tikintisi Azərbaycanla Asiya İnkişaf Bankı arasında kredit sazişinə əsasən həyata keçirilib. 2015-ci il dekabrın 1 tarixində Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan şəhərdaxili su şəbəkəsinin istifadəyə verilməsi mərasimində iştirak edib.

Azərbaycanda səhiyyənin inkişafı ilə bağlı islahatlarda dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən biridir. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə aparılan siyasətin əsas prioritetləridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov öz çıxışlarında dəfələrlə vurğulamışdır: dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır. Məhz bu prinsip üstün tutulmaqla əhalinin sağlamlığının qorunması, tibbi profilaktika işinin genişləndirilməsi, tibbi xidmətlərin keyfiyyətinin artırılması, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası səhiyyə sahəsində reallaşdırılan mühüm islahatlardandır [2, 2015, 27 avqust]. 1995-ci ildən 2013-cü il sonuna olan dövr ərzində Duzdağ Fizioterapiya Mərkəzi, Doğum Mərkəzi, Diaqnostika-Müalicə Mərkəzi, Onkoloji Mərkəz, Əlillərin Bərpa Mərkəzi, Uşaq Bərpa Mərkəzi, Kardioloji Mərkəz yaradılmışdır. 2014-cü ilin ötən dövrü ərzində də səhiyyə sahəsinin inkişafı diqqətdə saxlanılmış, yenidən qurulması davam etdirilən Naxçıvan Muxtar Respublika Xəstəxanasının müasir tibbi avadanlıqla təchiz olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 9 milyon manat vəsait ayrılmışdır. Artıq Naxçıvan şəhər sakinləri əməliyyat olunmaq məqsədilə qonşu ölkələrə getmək məcburiyyətində deyil [10].

Uzunmuddətli fasilədən sonra muxtar respublikada istehlakçıların, ən əsası isə əhali təsərrufatlarının təbii qazla təminatı həyata keçirilir. Artıq əhalinin və təsərrufat subyektlərinin qazla təchizatı prosesi basa çatdırılmıs, 01 dekabr 2011-ci il tarixə 78 min 888 əhali abonenti mavi yanacaqla təmin olunmus, butun mənzillərə pulsuz olaraq mətbəx sobaları və qaz sayğacları quraşdırılmışdır. Naxçıvan şəhərində qaz və elektrik sayğaclarının daha



təkmil olan Smart sayğaclarla dəyişdirilməsinə başlanmışdır. Poçt bölmələrində həmin kartların yüklənməsi işi təşkil olunmuşdur. Bunun üçün Naxçıvan şəhərində 10 poçt bölməsi yeni kompüter, kart oxuyucu ilə təmin edilmişdir [9].

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada bütün yaşayış məntəqələrində sabit rəqəmsal telefon xidməti göstərilir. Naxçıvan şəhərində və bütün rayon mərkəzlərində asinxron rəqəmsal istifadəçi xətləri üzərindən genişzolaqlı internet və lokal şəbəkə xidmətləri fəaliyyət göstərir. Həmçinin 3 GSM mobil operatoru və 1 CDMA simsiz rabitə şəbəkəsi yaşayış ərazilərini keyfiyyətli mobil rabitə ilə təmin edir. Bu gün artıq muxtar respublikada yaşayış məntəqələrinin 83 faizdən çoxunu əhatə edən simsiz rabitə şəbəkəsi istifadəyə verilmiş, "Naxtel" abunəçilərinin sayı 5 mini ötmüşdür. Həmçinin bu şəbəkə üzərindən simsiz internet xidməti yaradılmış, muxtar respublika əhalisinin sürətli internetə çıxışı təmin olunmuşdur. "Naxtel"in 90 ədəd 4G LTE 4-cü nəsil baza stansiyası qurulub istismara hazır vəziyyətə gətirilmişdir. Bundan əlavə, "Naxtel"in Billing sistemi üçün əsas və ehtiyat server avadanlıqları Naxçıvana gətirilmiş və quraşdırılmışdır [3, s. 443]. Muxtar respublikada əhaliyə müasir tələblərə uyğun poçt xidmətinin göstərilməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 30 iyul tarixli "Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" Sərəncamı bu sahədə görüləcək işlərin miqyasını daha da genişləndirmiş, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlamışdır. Hazırda muxtar respublika ərazisində 8 poçt filialı və 157 poçt bölməsi fəaliyyət göstərir. Poçt filiallarında telefon haqlarının yığılması, beynəlxalq və ölkədaxili pul baratlarının göndərilməsi və qəbulu, kommunal xidmət haqlarının yığılması, teleqramların göndərilməsi və qəbulu tamamilə elektron qaydada həyata keçirilir [9].

Mədəniyyətin inkişafına qayğı göstərmək, milli-mədəni irsimizin qorunması sahəsində ümummilli liderimizin böyük səyləri olmuşdur. Bu illərdə muxtar respublikada mədəniyyət sahəsində mühüm işlərdən biri yeni muzeylərin yaradılması, mövcud olanlarının yenidən qurulması olmuşdur. Bir sıra muzeylər üçün yeni binalar inşa olunmuş, muzeylərin bəziləri yeni binalara köçürülmüş, təmir olunmuş, ekspozisiyaları yenidən qurulmuşdur. Ötən dövr ərzində Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi, C.Məmmədquluzadənin ev-muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, Bəhruz Kəngərli Muzeyi, Açıq Səma Altında Muzey, Xatirə Muzeyi fəaliyyətə başlamışdır. C.Məmmədquluzadənin ev-muzeyinin və Bəhruz Kəngərli Muzeyinin açılışında ulu öndər iştirak etmiş və geniş nitq söyləmişdir [1, s. 135]. 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılan "Xan Sarayı"

Dövlət Tarix-Memarlıq Muzeyi qədim yurdun görkəmli şəxsiyyətlərinə ehtiramının ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 10 yanvar tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyası musiqi mədəniyyətimizdə mühüm hadisədir. Yeni yaradılan filarmoniyada xalq çalğı alətləri ansamblı, kamera orkestri, mahnı və rəqs ansamblı, xor kollektivi istedadlı uşaqları öz ətrafında birləşdirmişdir. Müstəqillik əldə etdikdən sonra Naxçıvanda Şahmat məktəbi, Olimpiya İdman Kompleksi, Üzgüçülük Mərkəzi tikilmişdir. Heydər Əliyev parkı, Əcəmi, Dədə Qorqud seyrəngahları salınmışdır.

17 fevral 2011-ci il xalqın maddi mədəniyyətinin yaxşılaşdırılması ilə bağlı verilmiş sərancamların sırasına bir sərəncam da əlavə edildi. Ali Məclisinin Sədri həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi kitabxanasının və Naxçıvan Muxtar Respublikası kitabxanası "Naxçıvanşünaslıq" bölməsinin bazasında "Naxçıvanşünaslıq Mərkəzi"nin yaradılması haqqında Sərəncam imzalanmışdır. Bu sərəncam Naxçıvan tarixinin, mədəniyyətinin, arxeologiyasının, folklorunun və s.öyrənilməsi və təbliği sahəsində atılan növbəti və çox böyük bir addımdır [5, s. 156].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 19 aprel tarixli "Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar burada elektron kitabxana yaradılmışdır. Muxtar respublikada kitabxana işinin müasir standartlar səviyyəsində qurulması və elektron kitabxanaların yaradılması sahəsində işlər davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində, eləcə də Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidməti yaradılmışdır.

Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər sırasında ünvanlı dövlət sosial yardımlarının verilməsini də vurğulamalıyıq. Bundan əlavə Naxçıvan şəhərində qeyri-məşğul əhalinin məşğulluğuna nail olunması üçün ötən dövrdə bir sıra işlər görülüb. Bu ilin, yəni 2015-ci ilin 6 ayı ərzində işsiz kimi qeydə alınmış 391 nəfərdən 291-i işlə təmin edilib, bunlardan 86 nəfəri qadındır. 30 nəfər isə ictimai işə cəlb olunub, 2 nəfər kvota (norma) yerlərinə göndərilib, 52 nəfər peşə hazırlığı kursları keçib [8].

2010-ci ildə Naxçıvan şəhərində "Məişət xidməti" MMC yaradılmışdır. Bu məişət xidmətində paltarların, xalçaların yuyulması, kimyəvi təmizlənməsi, yorğan-döşək salınması, gəlinlik paltarlarının təmizlənməsi və s. işlər həyata keçrilir. Bir sözlə bu cəmiyyət xalqa 54 növ üzrə xidmət verməkdədir.



Bu gün də Naxçıvan şəhərində ictimai mədəni xidmət obyektlərinin inşasına xüsusi diqqət yetirilir. Beləki, 2015-ci il dekabrın 17-də şəhərin "Atabəylər" məhəlləsində Şərq hamamı tikilərək sakinlərin istifadəsinə verilib. Burada göstərilən xidmətlərdən saatda 100 nəfər istifadə edəcəkdir. Hamam qadınlar və kişilər üçün nəzərdə tutulan iki ayrı bölmədən ibarətdir. Həmçinin burada hamam ləvazimatlarının satışı mağazası və çay evi də fəaliyyət göstərir.

Son olaraq qeyd edim ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunan və icrası uğurla başa çatdırılan "2014-2015- ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" Naxçıvan şəhərində bir çox istiqamətdə həyata keçirilən tədbirlərə, xüsusən sosial-mədəni münasibətlərin inkişafına stimul vermişdir.

## ƏDƏBİYYAT


1. Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası-90. Naxçıvan: "Əcəmi" NPB, 2014, 184 s.
2. "Xalq qəzeti".
3. Naxçıvan tarixi Üç cilddə, III cild. Naxçıvan: "Əcəmi" NPB, 2015, 560 s.
4. Naxçıvan Statistika İdarəsi
5. Səfərli F. Heydər Əliyev irsi-əbədiyaşar təlim. Naxçıvan: "Əcəmi" NPB, 2014, 200 s.
6. "Şərq qapısı" qəzeti
7. http://azertag.az/xeber / Naxchivan şeherinin sosial iqtisadi inkisafi istiqametinde ugurlu neticelerle elde olunub
8. naxcivanxeberleri.com / Naxçıvan şəhərində abadliq quruculuq isləri genis vusət alıb. html
9. http://rytn.nakhchivan.az/news.php.
10. http://president.az/articles

**Emin Şıxəliyev**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: emin.amea@yahoo.com

## TÜRKİYƏ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNDƏ NAXÇIVANIN YERİ (1991-2015-ci illər)

Dünyanın siyasi xəritəsinə nəzər yetirildiyi zaman Naxçıvanın bu xəritədə çox kiçik bir yeri təşkil etdiyini görmək olar. Xəritədə zərrə qədər görünsə də, geosiyasi mövqeyi baxımından böyük bir əhəmiyyət kəsb edən bu diyar bütün Türk Dünyasını bir-birinə bağlayan bir koridor və əlaqələri təmin edən bir körpü vəzifəsini ifa edir. Dahi Atatürkün ifadəsilə Naxçıvan "Türkün qapısı"dır. Bu qapının açıq olması Türk Dünyasının beynəlxalq siyasətdə güc qazanması deməkdir, Türk Dünyasını formalaşdıran dövlətlərin güclü olması deməkdir. Məhz bu baxımdan "Türk qapısı"nı aradan qaldırmağa çalışan böyük güclər ermənilərə hərtərəfli hərbi və maddi yardım göstərərək bölgədəki türk izlərini silməyə çalışmışlar. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqları, bu kontekstdə onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanla bağlı planları "tarixi Şərq məsələsi"nin ayrılmaz tərkib hissəsi kimi xarakterizə olunmalıdır. İnkaredilməz faktdır ki, tarixən hər bir böyük güc öz imperialist siyasətini həyata keçirərkən müxtəlif bəhanələrdən və amillərdən istifadə etmişdir. Hal-hazırda dünyada baş verən hadisələrdə, böyük güclərin geosiyasi maraqlarında da bu amilləri müşahidə etmək mümkündür. XIX əsrin əvvəlləri və sonlarında, eyni zamanda XX əsrin əvvəllərində Rusiyanın, İngiltərənin və ABŞ-ın istər Osmanlı coğrafiyasında, istərsə də Cənubi Qafqazda öz geosiyasi maraqlarını həyata keçirməsində başlıca rol oynayan amillərdən biri də məhz ermənilər idi. Qeyd etmək lazımdır ki, ermənilər bu dövlətlərin geosiyasi maraqlarının icrasına çevrilsələr də, öz növbəsində dünyanın bu böyük güclərindən gələcəkdə qurulması planlaşdırılan "Ermənistan Dövləti" üçün öhdəliklər tələb etmişdilər. Yəni böyük güclərlə ermənilər arasındakı əlaqələrə bir növ "qarşılıqlı istifadə və faydalanma" münasibətləri çərçivəsində yanaşıla bilər [bu barədə ətraflı bax: 9, s. 9-22].

Müxtəlif dövrlərdə ermənilərdən faydalanaraq qarşılıqlı əməkdaşlıq çərçivəsində formalaşan böyük güclərin siyasətləri Qafqazdakı Azərbaycan türkləri, o cümlədən naxçıvanlılar üçün fəlakət mənbəyi olaraq ortaya çıxmış və minlərlə azərbaycanlının ermənilər tərəfindən soyqırımına məruz qalmalarına səbəb olmuşdur. Hətta Naxçıvan iri dövlətlərin təhriki və dəstəyi sayəsində ermənilərə peşkəş də çəkilmişdi. Lakin xalqın əzmli müqaviməti və Türkiyənin yardımı sayəsində Naxçıvanın ermənilərə verilməsinin qarşısı alındı. Bu kimi məsələlərin mahiyyətinin araşdırılması və təhlil edilməsi son dərəcə elmi, siyasi əhəmiyyət kəsb edir. Sonrakı



dövrlərdə Naxçıvan Sovet Rusiyası ilə Türkiyə arasında müzakirə obyektinə çevrilmiş, onun taleyi Moskva və Qars müqavilələrinə əsasən həll edilmişdir. Bu barədə detaylara enmək niyyətində deyilik. Qeyd olunan mövzuya dair kifayət qədər materiallar mövcuddur [3; 4]. Sadəcə olaraq onu qeyd etməyi vacib hesab edirik ki, Naxçıvan Türkiyənin və Azərbaycanın, o cümlədən Naxçıvanın məşhur siyasi xadimləri və dahi siyasətçiləri sayəsində "türk qapısı" kimi mövcudiyyətini qoruyub saxladı. Sovetlər İttifaqının dağılmasından sonra isə Naxçıvan bu dəfə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi uzaqgörənliyi nəticəsində varlığını mühafizə etdi. Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində işlədiyi dövrlərdə ümummilli liderimizin 1992-ci ilin mart ayında Türkiyəyə səfəri zamanı Qars müqaviləsinə yenidən baxılmış, 1921-ci ildə Rusiya ilə bağlanmış və heç kim tərəfindən ləğv edilməyən Moskva və Qars müqavilələrinə əsasən *"Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır"* fikri bir daha vurğulanmışdır [2, s. 54].

Ölkəmiz müstəqillik qazandıqdan sonra Naxçıvan MR Azərbaycan-Türkiyə siyasi, iqtisadi, mədəni əlaqələrində öz coğrafi şəraitinə görə, eyni zamanda düşdüyü blokada vəziyyətinə görə mühüm rol oynamağa başladı. O dövrdə iqtisadi blokada şəraitində yaşayan muxtar respublikada iqtisadi vəziyyət həddindən artıq gərgin idi. Dəmir yolunun işləməməsi, muxtar respublikaya qazın verilməməsi, elektrik enerjisinin kəsilməsi mövcud böhranı tamamilə dərinləşdirmişdi. Blokada şəraitinin ən ağır təsiri əhalinin zəruri ərzaq məhsulları, birinci növbədə çörəklə təminatının pisləşməsinə səbəb olmuşdu. Tələbat minimum səviyyədə ödənilirdi. Əhalinin yaşayış tərzi dözülməz vəziyyətə düşmüşdü. Naxçıvanın daxili imkanlarının məhdudluğu bu vəziyyəti yaxşılaşdırmağa imkan vermirdi. Məhz belə bir dövrdə Heydər Əliyev bölgənin məhdud daxili imkanlarından maksimum istifadə etmiş, qonşu dövlətlərlə – Türkiyə və İranla iqtisadi əlaqələrin inkişafı üçün zəruri tədbirlər həyata keçirmişdir. Naxçıvanın o ağır dövrdə qurduğu beynəlxalq əlaqələr Muxtar Respublikanın mövcudluğu üçün yeganə vasitəyə çevrildi. Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci ilin mayın 28-də açılmış "Sədərək-Dilucu" körpüsü mühüm mərhələ oldu. Naxçıvan torpağı həqiqətən də həmin gün bayram əhval-ruhiyyəsi yaşadı. 1992-ci ilin iyulunda keçirilmiş Muxtar Respublika Ali Məclisinin Rəyasət Heyətinin iclasında körpünün istifadəyə verilməsi böyük tarixi hadisə kimi qiymətləndirilmiş, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, mədəni, humanitar əlaqələrin genişlənməsinə, Türkiyə və Azərbaycan xalqının bir-birinə yaxınlaşmasına xidmət edəcəyi bildirilmişdir. Naxçıvan-Türkiyə əlaqələrinin inkişafında Heydər Əliyevlə Süleyman Dəmirəl arasındakı dostluq münasibətləri də xüsusi rol oynamışdır. Dahi öndər o dövrdə Naxçıvanda yaranmış vəziyyətlə, Ermənistanın hərbi təcavüzü ilə bağlı

Türkiyə rəhbərlərini məlumatlandırmış, 1992-ci ilin mayında da Türkiyə hökuməti Ermənistanın Naxçıvana təcavüzü ilə bağlı bəyanat qəbul etmiş, özünün söz sahibi olduğunu bütün dünyaya bəyan etmişdi [6, s. 116].

Ardıcıl olaraq növbəti səfərlərdə və görüşlərdə Naxçıvan MR-ə yardım məsələsi də müzakirə edilmiş, açılmış kreditin 10 milyonundan istifadəsi barədə protokol imzalanmış, Naxçıvanda Türkiyənin konsulluğunun açılması məsələsi də öz həllini tapmışdı. MR-in qonşu Türkiyə vilayətləri ilə də – İqdir, Qars, Ağrı, Ərzurum, Van ilə əlaqələri yaranmış və möhkəmlənmişdi. Xüsusilə İqdir və Qarsla əlaqələr sürətlə, yüksələn xətt üzrə inkişaf edirdi. Bir faktı da qeyd edək ki, İqdirə vilayət statusunun verilməsində də ulu öndərin böyük rolu olmuşdur [5, s. 86]. Növbəti səfərlər zamanı ərzaq yardımı ilə bağlı məsələlər barəsində də razılıq əldə olunmuşdu. Qısacası, Naxçıvanın çətin vəziyyətdən çıxmasında və bu günlərə gəlməsində Naxçıvan-Türkiyə əlaqələrinin müstəsna rolu olmuşdur.

Ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə Naxçıvanın daim onun diqqət mərkəzində olmuş, hazırda da möhtərəm prezidentimiz cənab İlham Əliyev tərəfindən bu siyasət davam etdirilir. Muxtar Respublika hazırda yüksələn xətt üzrə dinamik sürətli inkişafa nail olmuş, Azərbaycanın xarici siyasəti kontekstində xarici əlaqələri və diplomatiyası xeyli inkişaf etmiş və etməkdədir. Naxçıvan MR Ali Məclisinin sədrinin dəfələrlə xarici ölkələrə rəsmi səfərləri Azərbaycan Respublikasının xarici siyasətinin tərkib hissəsi kimi artıq Naxçıvan diplomatiyasının da formalaşdığını sübut etməkdədir. Gerçəkləşən rəsmi səfərlər həm muxtariyyətimizin müasir dövrdə diplomatik yollarla möhkəmləndirilməsinə, həm də Naxçıvanın sözün əsl mənasında "türk qapısı" kimi əhəmiyyətinin qabardılmasına xidmət edir [1]. Bütün bunlar Naxçıvan MR-in beynəlxalq mövqeyinin və siyasi-iqtisadi potensialının gücləndirilməsinə səbəb olan uğurlu, çoxşaxəli siyasətin nəticəsidir.

Son illərdə xarici ölkələrin Bakıdakı diplomatik nümayəndələrinin və bir çox beynəlxalq təşkilatların rəhbərlərinin, xarici şirkət nümayəndələrinin də Naxçıvana mütəmadi səfərləri muxtar respublikanın strateji əhəmiyyətinin göstəricisinə çevrilmişdir. İranın, Türkiyənin, Gürcüstanın dövlət və hökumət başçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşlərinin, eyni zamanda 2009-cu ilin oktyabr ayında türkdilli dövlətlərin IX Zirvə toplantısının məhz Naxçıvanda keçirilməsi muxtar respublikanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə böyük töhfə olmuşdur [7, s. 19].

Təbii ki, burada bəzi müəyyən əhəmiyyətli amilləri də qeyd etmək lazımdır. Məlumdur ki, ermənilər tarixən Naxçıvana ərazi iddiaları ilə çıxış ediblər və edirlər. Şübhəsiz ki, bu məsələlər sadəcə Ermənistanın deyil, Qərb dövlətlərinin də dini və siyasi maraqları daxilində aktuallaşmaqdadır



ki, bunun da mahiyyətini həmin motivlərin birləşərək, pərdəarxasında gizlənən antitürk və antiislam psixologiyasında axtarmaq lazımdır. Səbəbi eyni zamanda Naxçıvanın strateji coğrafi ərazidə yerləşməsində də axtarmaq lazımdır. Bu amil dövlətlərin bölgəyə olan marağının daha da artmasına gətirib çıxarmışdır. Əvvəla, Naxçıvan Türkiyə ilə Türk Dünyası arasında körpü vəzifəsini icra edir. Bu qapının açıq olması Türk Dünyasının beynəlxalq siyasətdə güc qazanmaq üçün gələcəyinin parlaq olması deməkdir. Bölgə siyasi və mənəvi əhəmiyyətə sahibdir. Bu baxımdan 2009-cu ilin oktyabr ayında türkdilli dövlətlərin Naxçıvanda keçirilən Naxçıvan sammiti bir çox cəhətlərdən əlamətdar olmuşdur. Həqiqətən də əsrlər boyu çoxşaxəli mədəni, dini və milli tellərlə bir-birinə bağlı olan Azərbaycan, Türkiyə və Orta Asiyanın türk dövlətləri yaratdıqları inteqrasiya cəmiyyətini yaxın perspektivdə beynəlxalq siyasətin nüfuzlu mərkəzlərindən birinə çevirmək istəklərini ortaya qoymuşdur.

Sammitin təşkili üçün Naxçıvanın seçilməsi xüsusi əhəmiyyət daşıyan məqamlardan biri idi və bu, sammitin keçirildiyi qədim torpağın türk sivilizasiyasına məxsusluğunu təsdiqləyib. Sammitdəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin sözlərinə xüsusilə diqqət yetirmək lazımdır: *"Naxçıvan Azərbaycanın Türkiyə ilə həmsərhəd olan yeganə bölgəsidir. Vaxtilə Azərbaycanın tarixi, qədim torpağı olan Zəngəzurun ondan ayrılaraq Ermənistana birləşdirilməsi ilə demək olar ki, böyük Türk Dünyası coğrafi baxımdan parçalanıb. Yəni Türk Dünyasının vahid ailə kimi fəaliyyəti onillər boyunca dayandırılıb. Lakin qəbul edilmiş qərarlar və atdığımız addımlar bu gün bizim əlaqələrimizi daha da möhkəmləndirir. Doğrudur, bu gün coğrafi baxımdan bizim aramızda qədim Azərbaycan bölgəsi olan və hazırda Ermənistanın tərkibindəki Zəngəzur yerləşir. Amma Türk Dünyasının mənəvi, siyasi birliyi, onun iqtisadi layihələrin reallaşdırılmasındakı yekdilliyi və vahid qüvvə kimi çıxış etməsi bugünün reallığıdır. Bu reallığı biz yaradırıq və bunun davam etməsi, möhkəmlənməsi və xalqlarımız üçün yeni imkanlar açması bizdən asılıdır"* [7, s. 19-20].

Naxçıvanın yalnız Azərbaycan üçün əhəmiyyət daşımadığını Türkiyənin sabiq Prezidenti Abdulla Gül də qeyd edib: *"Naxçıvan Azərbaycan üçün olduğu qədər, Türkiyə üçün də doğma və dəyərlidir. Azərbaycanla Türkiyə arasında Naxçıvanda yerləşən sərhəd fiziki baxımdan kiçik olsa da, siyasi anlamda bu 10-12 km-lik sərhədin böyük mənası var. Bizim bu sərhədimiz coğrafi baxımdan Türkiyəni türk respublikaları ilə birləşdirən rəmzi sərhəddir"* [7, s. 20].

Sammitin başlıca əhəmiyyəti bundan ibarət idi ki, ilk dəfə perspektivdə türk cəmiyyətinin dünya siyasətinin güc mərkəzlərindən birinə çevrilməsinə dair rəsmi səviyyədə təşəbbüs səslənib. Bu, eyni zamanda türk məkanında inteqrasiyanın formalaşdırılmasının əsas mərhələlərindən biri

kimi xarakterizə oluna bilər. Bu baxımdan Naxçıvana qarşı iddiaların, kənar güclərin bölgə ilə bağlı planların bu qədər sıx-sıx gündəmə gəlməsi hər halda aydındır.

Digər bir fraqment: Məlumdur ki, 04 iyun 2014-cü ildə Türkiyənin o zamankı Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşü keçirildi. Görüşdə Azərbaycan və Türkiyənin birgə qlobal layihələri uğurla həyata keçirmələrinə dair, həmçinin iki ölkənin beynəlxalq təşkilatlarda bir-birini tam dəstəkədyi, regional əməkdaşlıqda fəal iştirak etdiklərinə dair məsələlər, o cümlədən iki ölkə arasında olan əməkdaşlıq məsələləri, beynəlxalq vəziyyət, Bakı-Tiflis-Qars dəmir yolu layihəsinin tikintisi, Naxçıvan MR ilə Türkiyə arasında bir sıra iqtisadi və enerji layihələrinin həyata keçirilməsinə dair məsələlər müzakirə olundu. Eyni zamanda Naxçıvanın Bakı-Tiflis-Qars dəmir yolu xətti layihəsinə qoşulması və Bakı-Ərzurum-Qars qaz kəməri layihəsinə qoşulması da müzakirə olunan məsələlər arasında idi. Cənab İlham Əliyev Azərbaycan və Türkiyənin iştirakı olmadan bölgədə heç bir layihənin reallaşmasının mümkün olmadığını bəyan etmiş, Naxçıvana ilk dəfə səfər etdiyini bildirən baş nazir Rəcəb Tayyib Ərdoğan isə Azərbaycan Prezidenti ilə Muxtar Respublikada keçirdiyi görüşü və apardığı müzakirələri müsbət dəyərləndirərək, Azərbaycan və Türkiyənin bütün məsələlərlə bağlı mövqelərinin üst-üstə düşdüyünü qeyd etmişdir. Ölkə başçıları arasında keçirilən görüşdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına da toxunulmuş, xüsusilə Rəcəb Tayyib Ərdoğanın münaqişənin həlli ilə bağlı Türkiyənin mövqeyinin dəyişməz olduğunu qeyd edərək, rəsmi Ankaranın problemin nizamlanması ilə bağlı hər zaman Azərbaycanın mövqeyini dəstəklədiyini bildirmişdir[8].

Əldə olan məlumatlara görə, hazırda Türkiyə Azərbaycanda qeyri-neft sektoruna 5 milyard dollara yaxın sərmayə qoymuşdur. Yaxın illər ərzində iki ölkə arasında mal dövriyyəsinin həcminin 3 milyard dollara çatması da proqnozlaşdırılır. Günümüzdə Naxçıvanın ən çox ticarət dövriyyəsi Türkiyə ilədir və mal dövriyyəsinin həcmi 40 milyon dollardır [8].

Hal-hazırda Azərbaycan və Türkiyə strateji müttəfiq dövlətlərdir. Türkiyə həm BMT-də, həm də digər beynəlxalq təşklatlarda Azərbaycanın mövqeyini hər zaman müdafiə etməkdə, bununla yanaşı Naxçıvan Muxtar Respublikasının blokadadan çıxarılmasında da köməklik göstərməkdədir.

Türkiyə olan əməkdaşlıq, Türkiyənin Naxçıvana verdiyi önəm həqiqətən də Naxçıvan insanı üçün çox vacibdir. Həqiqətən də Naxçıvan Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərdə xüsusi yerə sahibdir. Hər şeydən əvvəl oan görə ki, bu tarixi diyar "türk qapısı" kimi öz mövcudiyyətini qoruyur. Azərbaycan üçün, Türkiyə üçün, xüsusilə Naxçıvan və ümumilikdə Türk Dünyası üçün ən vacib məsələ budur.



## ƏDƏBİYYAT


1. Azərbaycan-Türkiyə bir millət, iki müstəqil dövlətdirlər. http://pda.azertag.com
2. Hacıyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 162 s.
3. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı. Naxçıvan: "Əcəmi" NPB, 2011, 272 s.
4. Hacıyev İ. Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: "Əcəmi" NPB, 2013, 296 s.
5. Məmmədov M. Siyasətdə Naxçıvan dərsləri. Bakı: Araz, 2009, 416 s.
6. Məmmədov M. Naxçıvan: Dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı. Bakı: Şirvannəşr, 2011, 302 s.
7. Nazimoğlu N. Naxçıvan mərhələsi // Region plus. Analitik baxış, 2009, № 20 (88), s. 18-21.
8. Naxçıvanda görüş. İlham Əliyevlə Ərdoğan bəyanatla çıxış ediblər. "Şərq qapısı" qəzeti, Naxçıvan, 2014, 05 iyun.
9. Şıxəliyev E. İngiltərənin Cənubi Qafqaz siyasətində erməni amili və Naxçıvan məsələsi (XX əsrin əvvəlləri) // Strateji təhlil. Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq münasibətlərə dair analitik jurnal, 2014, say: 4 (11), s. 9-22.

**İlhami Əliyev**
AMEA Naxçıvan Bölməsi, fəlsəfə doktoru
Email: ilhamialiyev@yahoo.com.tr

## TARİXİ ABİDƏLƏRİN BƏRPASI VƏ MÜHAFİZƏSİ SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

Tarixi abidələr aid olduğu dövrün günümüzədək gəlib çatan əvəzedilməz maddi mənbələrindən biridir. Mənsub olduğu xalqın tarixi keçmişini yaşadan bu abidələr dünyanın bir çox ölkələrində ciddi şəkildə qorunur və gələcək nəsillərə çatdırılır. Düzdür, dünyada hələ də bir sıra müharibə ocaqları olan ölkələr vardır ki, orada insanların öldürülməsi azmış kimi tarixi abidələr də məhv edilir. Azərbaycanın işğal altında olan bölgələrindəki tarix-mədəniyyət abidələrinin ermənilər tərəfindən vəhşicəsinə dağıdılması bunun bariz nümunələrindən biridir.

Müstəqillik əldə etdikdən sonra dinamik inkişafda olan Azərbaycan Respublikası ərazisində tarixi abidələrin bərpası və mühafizəsi sahəsində dövlət tərəfindən indiyədək bir çox vacib qanunlar qəbul edilmiş, əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. "Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir", – deyən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə bu sahədə dövlət siyasətini həyata keçirmək üçün zəngin qanunvericilik bazası yaradılmışdır. Görülən işlərin nəticəsidir ki, abidələrə göstərilən qayğı Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsində öz əksini tapmışdır. "Tarix və mədəniyyət abidələrinin qorunması" adlanan bu maddədə göstərilir ki, tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur.

1997-ci ildə Azərbaycan Respublikası Avropa Mədəniyyət Konvensiyası və Tədqiqi Mərkəzinin üzvü seçilmişdir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1998-ci ildə qəbul edilən, 8 fəsil, 32 maddədən ibarət "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununda tarixi abidələrin qorunmasının dövlət təminatı, tədqiqi, mühafizəsi, qanunvericiliyin pozulmasına görə məsuliyyət öz əksini tapmışdır [10]. 1999-cu ildə isə Azərbaycan Respublikası "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına qoşulmuşdur.

Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən tarixi abidələrimizin bərpası və qorunması sahəsində bu günədək mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Son illər tarix və mədəniyyət abidələrimizin bərpasına diqqət və qayğının artırılması nəticəsində onların bir çoxu YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına salınmışdır. Ölkə Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nda tarixi abidələrin qorunması, bərpası, öyrənilməsi və təbliği üzrə konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.



Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarı min illərin tarixini özündə yaşadan qədim yaşayış yerləri, tarixi abidələr ilə zəngindir. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinin qorunması və tədqiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Ali Məclisin Sədri cənab Vasif Talıbovun 2001-ci il aprelin 26-da imzaladığı "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncamından sonra Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilmiş, bu mövzuda onlarla elmi məqalə və kitablar yazılmışdır. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilmiş, Gəmiqaya ətrafındakı arxeoloji abidələrdə tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanmışdır.

Muxtar respublika rəhbərinin 11 iyul 2002-ci ildə qəbul etdiyi Sərəncamla yaradılan "Açıq səma altında muzey" xalqımızın dekorativ tətbiqi sənətinin ən yaxşı nümunələrindən olan daşdan yonulmuş mədəniyyət abidələrinin mühafizəsi, öyrənilməsi və təbliği sahəsində atılan uğurlu addımlardan biri olmuşdur [3, s. 118]. Bu muzeyin yaradılması daşdan yonulmuş qədim qoç heykəllər, qəbirüstü abidələr, daş üzərində oymalar və s. mədəniyyət nümunələrinin dağılması və itib-batmasının qarşısını almışdır. 2 fevral 2015-ci il tarixindən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma altında Muzey kompleksi yardılmışdır.

Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamı [3, s. 172-176] isə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin tədqiqində yeni mərhələnin başlanğıcını qoymuşdur. Sərəncamdan irəli gələn vəzifələri yerinə yetirmək üçün AMEA Naxçınan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutun əməkdaşları Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun və Naxçıvan Dövlət Universitetinin bir qrup əməkdaşı ilə birlikdə muxtar respublikanın bütün yaşayış məntəqələrinə səfərlər etmiş, həmin yerlərdə olan tarix və mədəniyyət abidələrini qeydə almış, ilkin şəkildə tədqiq etmişlər [9, s. 6]. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 21 noyabr 2007-ci il tarixli qərarı ilə muxtar respublika ərazisindəki daşınmaz tarix və mədəniyyət abidələrinin dünya, ölkə və yerli əhəmiyyət dərəcələrinə görə bölgüsü təsdiq edilmişdir [7, s. 9-78]. 2006-2015-ci illərdə muxtar respublika ərazisində 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır [8, s. 16]. Pasportlaşmanın həyata keçirilməsi

həm bir sıra yeni abidələrin tapılmasına, həm də onların rəsmi şəkildə qorunmasına imkan yaratmışdır.

Muxtar respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması ilə yanaşı, onların bərpası da diqqət mərkəzində saxlanılır. Ali Məclisin Sədri tərəfindən 07 dekabr 1999-cu ildə Naxçıvan MR-da "Tarixi abidələrin bərpası fondu"nun yaradılması haqqında sərəncam imzalanmışdır [3, s. 94-95]. Sərəncamda qeyd edilir ki, Oğlanqala, Govur qalaları, Əshabi-Kəhf, Daşqala mağarası, Külüs qalası, Fərhad evi, Buzxana, Xaraba Gilan abidələri, Əcəmi Naxçıvaninin ucaltdığı Yusif Küseyir oğlu türbəsi və Mömünə Xatın məqbərəsi, Gülüstan və Qarabağlar türbə kompleksləri, Nəiminin məqbərəsi, İmamzadə məscid və məqbərə kompleksi, Aza körpüsü, Xan evi kimi təkrarsız memarlıq nümunələri və arxeoloji abidələr bu diyarın tarixin səhifələrinə vurduğu özünütəsdiq möhürü və daş pasportudur. Tarixi abidələrimizin qorunması, mühafizəsi və onların yenidən bərpası təkcə dünənki tariximizə deyil, bütünlüklə gələcəyimizə olan diqqət və qayğının mühüm əlamətidir.

Həyata keçirilən əməli tədbirlər nəticəsində Mömünə Xatın türbəsi, Qarabağlar Memarlıq Kompleksi konservasiya edilmiş (2003-cü il), "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılmış (1998-ci il), Yusif Küseyiroğlu və Nuh peyğəmbər türbələri (2006-ci il), Naxçıvan şəhər İmamzadəsi (2004-cü il), Naxçıvan şəhərindəki Buzxana (2001-ci il), "Came" məscidi (2007-ci il), Zaviyyə mədrəsəsi (2008-ci il), İsmayılxan hamamı, Xan sarayı (2010-cu il), Culfa rayonundakı Xanəgah Abidə Kompleksi (2003-cü il), Ordubad rayonundakı Aza körpüsü (1997-ci il), Qeysəriyyə, Naxçıvanqala (2014-cü il) və digər tarixi abidələr təmir və ya əsaslı bərpa olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 28 iyun tarixində "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında", 2010-cu il 23 oktyabr tarixində "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında", 2011-ci il 17 fevralda "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında", 2013-cü il 05 iyunda "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", 2014-cü il 11 fevral tarixində "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında", 2015-ci il 07 oktyabr tarixində "Culfa rayonunun Gülüstan kəndi yaxınlığında yerləşən Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" [6, s. 39] imzaladığı Sərəncamlar tarixi-mədəni irsimizin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malik olan sənədlərdir.

Muxtar respublika rəhbərliyi tərəfindən həyata keçirilən abidələrin təmir-bərpası və yenidənqurma işləri xeyli zəhmət, vaxt və vəsait hesabına



başa gəlmişdir. Naxçıvanqalanın bərpasına 2010-cu ildən başlanılmışdır. Aparılan əsaslı elmi bərpa işlərindən sonra qalanın əvvəlki görkəmi özünə qaytarılmışdır. "Naxçıvanqala" Tarix Memarlıq Muzey Kompleksinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 5 iyun 2013-cü il tarixdə Sərəncam imzalamışdır [4, s. 10-11]. Yaradılan "Naxçıvanqala" Tarix Memarlıq Muzey Kompleksi ekspozisiya zalından, Nuh Peyğəmbərin məzarüstü türbəsindən, yeraltı sığınacaq mağara hissəsindən ibarətdir. Ətrafı möhkəm qala divarları və bu divarların içərisində otaqlarla əhatə olunmuşdur. 2014-cü il aprel ayının 7-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin açılışı olmuşdur. Açılışda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir.

Əlincəqalanın bərpası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən başlanılmışdır [5, s. 15-16]. Həmin Sərəncamdan sonra Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və AMEA Naxçıvan Bölməsi abidənin elmi-bərpa layihəsini hazırlamış, bərpa işlərinə də məhz bundan sonra başlanılmışdır. Bərpa işləri zamanı gediş-gəlişin rahat və təhlükəsizliyi üçün qalanın zirvəsinə yol çəkilmiş, oradakı qədim yaşayış evləri, təsərrüfat binaları, qala divarları, mühafizə istehkamları, bürclər, su hovuzları bütün incəlikləri ilə tədqiq olunmuş, onların forması müəyyənləşdirilmiş və tarixi görkəmi saxlanılaraq bərpa edilmişdir. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılmış, qala divarlarındakı bürclərdə və zirvəyə gedən yol boyunca işıqlandırma sistemləri quraşdırılmışdır. Əlincə dağının ətəyində iş otaqları və ekspozisiya zalından ibarət olan "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi tikilmişdir ki, o, qalanın tarixi görkəmi ilə ahəngdarlıq təşkil edir.

Ümumiyyətlə, müstəqillik illərində muxtar respublika ərazisində 70-ə yaxın tarix və mədəniyyət abidəsində əsaslı şəkildə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilmişdir. Hazırda Əlincə qalasında və Gülüstan türbəsində bərpa işləri sona çatmaqdadır.

Qeyd edək ki, Naxçıvanın tarixi abidələri bu qədim yurdun tarixi keçmişini özündə yaşatmaqla bərabər, həm də müasir dövrdə turizm potensialının artmasına xidmət edir. Bu gün Naxçıvan tarixi abidələr və görməli yerlər üzrə səyahət turizminin ən ideal məkanlarından biridir. Naxçıvana səfər edən hər bir qonaq buradan xoş təəssüratlarla ayrılır. Muxtar respublikada tarixi abidələrin bərpası, geniş tədqiqi və təbliği turistlər tərəfindən də rəğbətlə qarşılanır.

Muxtar respublikada tarixi abidələrin tədqiqi və beynəlxalq miqyasda təbliği istiqamətində həyata keçirilən ardıcıl tədbirlər artıq öz bəhrəsini

verir, Naxçıvan dünyada ilk yaşayış məskənlərindən biri kimi qəbul edilir. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan", 2009-cu ildə "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", 2011-ci ildə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", 2012-ci ildə "Naxçıvan: ilkin şəhər və Duzdağ", 2014-cü ildə "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzularında beynəlxalq simpoziumların keçirilməsi bu mənada mühüm əhəmiyyətə malikdir. Bu simpoziumlar alimlərimizin xarici ölkələrin aparıcı elmi müəssisə və mütəxəssislərinin iştirakı ilə Naxçıvan tarixi, etnoqrafiyası, arxeologiyası və folkloruna dair tədqiqatlar aparmasına, ekspedisiyaların təşkil olunmasına, müxtəlif mövzularda kitab, monoqrafiya, dərslik və elmi məqalələrin nəşr edilməsinə əsaslı təkan vermiş, beş min illik tarixə malik Naxçıvan şəhər mədəniyyəti tədqiqat mövzusuna çevrilmişdir. Aparılan elmi tədqiqatların nəticəsi olaraq 2008-ci ildə "Naxçıvan abidələri ensiklopediyası" nəşr olunmuşdur [2]. Bu ensiklopedik əsər Azərbaycanın mədəniyyət tarixində mühüm əhəmiyyət daşımaqla yanaşı, həm də Azərbaycan abidələrinin ensiklopedik nəşrinin hazırlanmasına bir nümunədir. Son illər çap olunan "Naxçıvan tarixi atlası", "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Naxçıvan tarixi" çoxcildliyi və digər əsərlər də Naxçıvan tarixi ilə yanaşı, həm də bu qədim diyardakı abidələrin öyrənilməsi baxımından əvəzolunmaz elmi mənbələrdir.

Beləliklə, hər bir xalqın tarixi keçmişinin öyrənilməsində abidələr xüsusi əhəmiyyət daşıyır. Buna görə də tarixi və mədəni irsi qorumaq hər birimizin vətəndaşlıq borcudur. Bu mənada babalarımızın əziz yadigarlarını bərpa etmək və keçmişi qorumaq, dünənin ən yaxşı ənənələrini sabaha aparmaq deməkdir.

## ƏDƏBİYYAT


1. Mahmudov Y.M. Şükürov K.K. Naxçıvan: tarixi və abidələri. Bakı: Təhsil, 2007, 216 s.
2. Naxçıvan abidələr ensklopediyası. Naxçıvan: Bakanlar Medya, 2008, 522 s.
3. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədlər. (1996-2011). Naxçıvan: "Əcəmi" NPB, 2012, 537 s.
4. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər. (2013). Naxçıvan: "Əcəmi" NPB, 2014, 80 s.
5. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər. (2014). Naxçıvan: "Əcəmi" NPB, 2015, 159 s.
6. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi. Rəsmi sənədlər. (2015). Naxçıvan: "Əcəmi" NPB, 2016, 119 s.
7. Naxçıvan Muxtar Respublikası ərazisindəki dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri. Naxçıvan: Qızıl dağ, 2009, 81 s.
8. Naxçıvan 90 il. Bakı: Sərbal Group MMC, 2014, 96 s.





9. Səfərli H.F. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: MBM, 2009, 192 s.
10. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, s.

**Sevinc Abbasova**
Naxçıvan Dövlət Universiteti, dosent

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İCTİMAİ-SİYASİ VƏ MƏDƏNİ HƏYATINDA QADINLARIN İŞTİRAKI

Vətəndaş cəmiyyətinin ən mühüm atributlarından biri qadınların həmin cəmiyyətin siyasi sistemində layiqli yer tutmaları, onların ictimai-siyasi proseslərə cəlb olunmasıdır. Cəmiyyətin humanistləşməsi, demokratikləşməsi qadının sosial fəallığından bilavasitə asılıdır.

Bunu çox gözəl bilən mərhum prezidentimiz Heydər Əliyevin imza etdiyi bir sıra sərəncam və fərmanlar qadınlarımızın ictimai-siyasi fəallığının artmasına ciddi təkan vermişdir. Bu gün qadına münasibətdə dövlət siyasətinin əsas mahiyyəti qadınların öz imkanlarını gerçəkləşdirmələri üçün onlara lazımi şəraitin yaradılmasından ibarətdir. 1993-cü ildən başlayaraq ictimai hərəkatda əksəriyyət təşkil edən qadınlarımız öz hüquq və azadlıqlarını əldə etmiş, demokratiya, istiqlaliyyət arzularına nail olmuşlar. Pekin konfransının qətnamə və qərarları bu gün Azərbaycan dövlətinin qadın siyasətinin əsas prinsipləridir. Konfransın "Qadınlar və yoxsulluq", "Qadın və səhiyyə", "Qadınların təhsili və peşə hazırlığı", "Qadınlar və hərbi münaqişələr", "Qadınlara qarşı zorakalıq", "Qadınların insan hüquqları", "Qadınların qanunvericilik orqanlarının işində və qərar qəbul edilməsi prosesində iştirakı" kimi müddəaları bu gün ölkəmizdə ardıcıl surətdə həyata keçirilir.

Bu sahədə mühüm əməli addımlardan biri Azərbaycan prezidentinin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə "Qadın problemləri üzrə Dövlət Komitəsi"nin yaradılması oldu. Müharibə şəraitində, iqtisadi-sosial çətinliklərin mövcud olduğu bir ölkədə qadınların problemləri ilə məşğul olacaq dövlət qurumunun yaradılması nəinki ölkəmizin ictimai hayatında, həm də dünya qadın hərəkatında geniş əks-səda doğurmuşdur.

1998-ci ilin sentyarbrında keçirilmiş Azərbaycan qadınlarının V qurultayı müstəqil dövlətdə qadın hərəkatının ilk böyük məclisi idi. Qurultayda çıxış edən ölkə başçısı Heydər Əliyev respublikamızda qadın hərəkatının tarixini, müasir vəziyyətini təhlil edib qiymətləndirmiş, onun gələcək vəzifələrini, qarşıda dayanan problemləri tutarlı faktlar, dəlillərlə izah etmişdir. O, qeyd etmişdi ki, bu qurultay XX əsrdə Azərbaycan tarixində ən böyük tarixi hadisələrdən biridir. Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda gələcək qadın hərəkatının, qadınların cəmiyyətdə fəallığının, cəmiyyət və dövlətin həyatında iştirakının əsasını qoyurlar [1, s. 37].

Azərbaycan qadın hərəkatının inkişafında "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Prezidentin



6 mart 2000-ci il tarixli fərmanı mühüm rol oynadı. Fərmanda nəzərdə tutulmuş konkret tədbirlər, həqiqətən, qadınlarımızın ölkənin siyasi, iqtisadi, sosial, mədəni hayatında rolunu gücləndirmək, onların idarəçilik sistemində, müxtəlif qurumlarda, qərar qəbuletmə prosesində layiqincə təmsil olunması üçün böyük imkanlar yaradır.

Fərmanla Azərbaycan Respublikasının bütün dövlət təşkilatlarına, bütün səlahiyyətli orqanlara fəaliyyət növü nəzərə alınmaqla qadınlara rəhbərlik səviyyəsində kişilələ bərabər imkanlarının təmin edilməsi tapşırılmışdır.

Son 20 ildə qadın məsələsi ilə bağlı atılmış addımlar qadınlarımızın hüquqlarının qorunması, onların cəmiyyətdə özlərinə layiq yer tutmaları, sosial fəallıqlarını artırmaları üçün münbit şərait yaratdı.

Bu gün ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın dirçəldilməsində, mənəvi-mədəni mühitin yaxşılaşdırılmasında qadınların roluna, onların cəmiyyətdəki sosial mövqeyinə ciddi əhəmiyyət verilir. Əlamətdar haldır ki, müstəqillik dövründə muxtar respublikada qadın hərəkatı daha da genişlənmişdir.

Naxçıvan MR-də qadınlarla əlaqədar dövlət siyasəti beynəlxalq norma və ölçülər nəzərə alınmaqla, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tövsiyə və məsləhətlərinə uyğun həyata keçirilir. Artıq Pekin Bəyannaməsinin müddəalarının həyata keçirilməsi istiqamətində lazımi addımlar atılmışdır. BMT-nin İnkişaf Proqramının köməyi ilə muxtar respublikada qadınların işlə təmin edilməsi sahəsində konkret işlər görülməkdədir [2, s. 61].

Azərbaycanda qadınların ideoloji, dini, siyasi, iqtisadi görüşlərinə görə ictimai təşkilatlarda birləşməsi getdikcə daha çox vüsət alır. Hazırda ölkəmizdə 20-dən çox müxtəlif qadın cəmiyyətləri fəaliyyət göstərir. Azərbaycan Qadınlarının Milli Komitəsinin yaradılması bu prosesə yeni təkan vermişdir. Bu isə cəmiyyətdə qadınların sosial-siyasi fəallığının artmasının, onların demokratikləşmə prosesində yaxından iştirak etmələrinin əyani nümunəsidir. Lakin respublikamızın paytaxtından fərqli olaraq muxtar respublikada qadınlar sıx birləşərək öz hərəkatlarının parçalanmasına yol vermədilər.

O dövrdə istər fəaliyyətinin çoxcəhətliliyinə, istər məzmun keyfiyyətinə, istərsə də miqyaslılığına görə "Sevil" Azərbaycan Qadınları Məclisi seçilirdi. 1995-ci ilin avqustun 7-də Şəhriyar adına klubda öz təsis konfransını keçirərək, tezliklə o dövrün önəmli ictimai amilinə çevrilmiş bu təşkilat yarandığı gündən Azərbaycanın siyasi, işgüzar, mədəni və ictimai həyatında qadınların yaxından və fəal iştirakını təmin etmək, cəmiyyətdə onların rolunu yüksəltmək, səhiyyə, ana və uşaqlara yardım sahəsində geniş sosial proqramların həyata keçirilməsinə kömək göstərmək kimi geniş diapazona malik vəzifələr güdürdü. Məclisin "Sevil" adını daşımasının dərin

simvolik mənası var idi; bununla da o Azərbaycanda qadın emansipasiyası ideallarına və ənənələrinə sadiqliyini nümayiş etdirmiş olurdu. Cəmiyyətə Sevil Heydər qızı Əliyeva kimi ziyalı qadının rəhbərlik etməsi onun fəaliyyətinin sistemli xarakter kəsb edəcəyindən xəbər verirdi [2, s. 78].

Qısa bir zamanda Məclis demək olar ki, ölkəmizin bütün regionlarında öz fəaliyyətini qura bildi – qurumun paytaxtda 15 və rayonlarda 50 şöbəsi təşkil olundu. Faktiki olaraq sözügedən Məclis qeyri-hökumət səciyyəli olsa da, bir müddət dövlət və qadınlar arasında lazımi kommunikativ funksiyanı layiqincə yerinə yetirirdi. Ölkəmizdə 1998-ci ilin yanvarında Qadın problemləri üzrə Dövlət Komitəsi təsis edilənə kimi, hətta Komitə fəaliyyətə başladıqdan sonra "Sevil" Azərbaycan Qadınları Məclisi birbaşa müvafiq dövlət instansiyaları ilə ünsiyyətə girir, bu və ya digər qadın problemlərinin həllinə nail olur, dövlətin gender strategiyasının ayrı-ayrı istiqamətlərinin işlənib hazırlanmasında iştirak edirdi. Məclisin yerlərdə fəaliyyət göstərən şöbələri çox vaxt qadınların yeganə ümidgahına çevrilirdi. Rayon şöbələri qadınların ərizə və şikayətlərini diqqətlə dinləyir, ehtiyacı olanlara hər cür köməklik göstərir, qadınların problemlərini müvafiq hökumət qurumlarının diqqətinə çatdırırdı [2, s. 78].

Məclisin fəaliyyətində maariflənmə istiqamətinə böyük önəm verilirdi. Təhsil ocaqlarında, Məclisin rayon bölmə təşkilatlarında tematik mövzulara həsr olunmuş görüşlər, məruzələr və yubileylər keçirilirdi. Qadınların və yeniyetmə qızların hüquqlarını qoruyan müasir proqramlar haqqında informasiya verilir, qadınların iqtisadi müstəqilliyi haqqında məruzələr oxunur və konfranslar təşkil olunurdu.

Eyni zamanda 1990-cı illərin ikinci yarısı Məclisin fəal və məzmunlu xarici əlaqələr qurduğu dönəmdir. Bu təşkilat 1996-cı ilin yayında Türkiyə Qadınlar Birliyi ilə əməkdaşlıq haqqında saziş imzalamışdı. Saziş hər iki ölkə qadınlarının bir sıra sahələrdə fəaliyyətlərinin koordinasiyasını nəzərdə tuturdu. Əməkdaşlıq üçün yetərincə geniş fəaliyyət sahəsi göstərilirdi; bura hər iki ölkənin qadınlarının sosial-siyasi və ictimai vəziyyətinin monitorinqindən tutmuş onların sosial müdafiəsi kimi geniş məsələlər spektri daxil idi.

"Sevil" Qadınlar Məclisinin dəvəti ilə 1997-ci ilin oktyabrında Aysel Göksoyun rəhbərliyi altında Türkiyə Qadınlar Birliyinin nümayəndə heyəti Azərbaycana səfər etmişdi. Türkiyəli qonaqlar Naxçıvanda olmuş və orada "Azərbaycan qadını XXI əsrin astanasında" mövzusunda beynəlxalq konfransa qatılmış, eləcə də Sabirabad, Saatlı, İmişli, Beyləqan rayonlarında qaçqın düşərgələrinə baş çəkmiş, Lənkəran, Astara, Masallı, Yardımlı, Lerik rayonlarının qadın ictimaiyyəti ilə görüşlər keçirmişdilər. Nəhayət, oktyabr ayının 14-də onları Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənabları qəbul etmişdi [2, s. 86].



Yeri gəlmişkən, "Sevil" Azərbaycan Qadınları Məclisinin Naxçıvanda təşkil olunmuş bölməsi də fəaliyyəti ilə seçilirdi. Naxçıvan Qadınlar Məclisinə muxtar respublikanın baş nazirinin müavini Sevil Zeynalova başçılıq edirdi. Məclis üzvləri tez-tez sərhəd bölgələrində əsgərlərə baş çəkir, şəhid ailələrinə, əlillərə, aztəminatlı ailələrə maddi və mənəvi kömək göstərirdilər. Məclis xətti ilə Naxçıvan qadınlarının Türkiyə və İran qadın cəmiyyətləri ilə əlaqələri genişlənmişdi. Onlar Türkiyənin İstanbul, Qars, Ərzurum, İranın Urmiya, Xoy, Təbriz, Tehran şəhərlərində keçirilmiş müxtəlif tədbirlərdə fəal iştirak etmişdilər.

"Sevil" Azərbaycan Qadınları Məclisinin xətti ilə 1997-ci ilin oktyabrında Naxçıvan şəhərində keçirilən "Azərbaycan qadını XXI əsrin astanasında" mövzusunda beynəlxalq konfrans muxtar respublikada həm qadın hərəkatının inkişafında yeni səhifə açdı, həm də bölgə qadınlarının beynəlxalq əlaqələrinin daha möhkəmlənməsinə əlverişli zəmin yaratdı. Konfrans ərəfəsində "Sevil" Qadınlar Məclisinin Naxçıvan şöbəsinin ofisi istifadəyə verilmiş, burada qadınların istirahəti, müxtəlif görüş və tədbirlər keçirməsi üçün hər cür şərait yaradılmışdı.

Naxçıvanlıların "Zaviyyə məscidi" kimi tanıdıqları binada yerləşən ofisdə qadınların istirahəti, müxtəlif görüşlərin, tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır.

Konfransın işində müxtəlif dövlətlərdən gəlmiş qadınların iştirakı muxtar respublika qadınlarının beynəlxalq qadın təşkilatları ilə daha sıx iş birliyinin yaradılmasına təkan verdi.

Konfransda muxtar respublikanın qadınlarını düşündürən bir çox problemlər, o cümlədən qadınların yoxsulluğu, təhsil problemi, qadınların, ana və uşaqların sağlamlığının qorunması, gənclərin tərbiyəsi ilə bağlı başqa problemlər geniş müzakirə edildi, Naxçıvanda qadın hərəkatının inkişafı ilə bağlı digər məsələlərin həlli sahəsində qarşıda duran konkret işlər müəyyənləşdirildi.

Qadının sosial fəallığını şərtləndirən, onun ictimai-siyasi həyatda fəal iştirakını təsdiqləyən mühüm göstərici qadınların idarəetmə strukturunda təmsil olunmasıdır. Qadınların idarəetmədə iştirakı, sosial fəallığın çox vacib sayılan amillərindən biridir. Savadı, səriştəsinə görə Naxçıvan qadınlarının idarəetmədə iştirak etmək baxımından imkanları qeyri-məhduddur. Bir çox ölkələrdən fərqli olaraq, Azərbaycanda qadınların hüquqlarını məhdudlaşdıran qanun yoxdur, əksinə onların fizioloji xüsusiyyətlərini, reproduktiv funksiyalarını nəzərə alaraq xüsusi imtiyazlar verilmişdir. Ağır fiziki işlərdə, digər ağır şəraitdə işləyən, hamilə qadınlar üçün xüsusi güzəştlər verilir. Lakin gender bərabərliyini təmin edən qanunlar olsa da, təəsüf ki, onlara lazımi dərəcədə əməl olunmur.

Muxtar respublikada qadınların siyasi fəallığına təsir edən mühüm amillərdən biri də onların siyasi partiyalar və ictimai təşkilatların tərkibində fəaliyyət göstərmələridir. Lakin 90-cı illərin əvvəllərindən fərqli olaraq qadınların siyasi partiyalarda təmsilçiliyi çox aşağıdır. Muxtar respublikada fəaliyyət göstərən siyasi partiyaların yerli şöbələrindən yalnız YAP və AXCP-də qadınların fəaliyyəti hiss olunur. Bir sıra partiyalarda hətta qadın təşkilatları olsa da, onlar formal xarakter daşıyırlar. Qadınlar partiyaların rəhbər orqanlarında da cüzi sayda təmsil olunurlar. Ümumiyyətlə, Azərbaycanın paytaxtından fərqli olaraq, əyalətlərdə qadınların siyasi proseslərdə iştirakı, siyasi təşkilatlarda təmsil olunması çox aşağıdır. Naxçıvan da bu sırada istisna deyil. Oxşar vəziyyət ictimai təşkilatlar, xüsusən qadın təşkilatlarına da aiddir. Cəmiyyətin demokratikləşməsi istiqamətində gedən ümumi hərəkatda qadınların ilkin siyasi və sosial iştirakı hazırda öz ifadəsini qadın hüquqları təşkilatlarının və ümumi siyasi, sosial, professional və humanitar istiqamətlərdə işləyən qadın təşkilatlarının fəaliyyətində tapmaqdadır[2, s. 34].

Ona görə də qadınların öz arzularına uyğun müxtəlif ictimai qurumlar yaratmaq istəyi təqdir edilməli və hər cür dəstəklənməlidir. Zənnimizcə, bu muxtar respublikada qadın hərəkatının inkişafına yeni təkan verə bilər.

Muxtar respublikada qadın məsələsinin həlli istiqamətində aparılan işlərdən biri də burada qadın problemlərinin müəyyənləşdirilməsi ilə bağlı tədqiqatların aparılmasıdır. Məlumdur ki, 90-cı illərin ikinci yarısında Azərbaycanda cəmiyyətdə qadın-kişi sosial münasibətlərini araşdıran sahə - genderşünaslıq inkişaf etməyə başlamışdır. 1997-ci ildə BMT İnkişaf Proqramı və Azərbaycan hökuməti arasında imzalanmış razılaşma əsasında "Gender İnkişafı" layihəsi fəaliyyətə başlayıb. Ötən 18 il müddətində gender tədqiqatları sahəsində mühüm işlər görülmüşdür. BMT İnkişaf Proqramı "Gender inkişafda" layihəsinin xətti ilə Azərbaycanın bölgələrində gender mərkəzləri fəaliyyətə başlayıb. 1999-cu ildə müvafiq mərkəz Naxçıvan MR-də açılmışdır. [5, s. 52]

Artıq layihəyə uyğun olaraq burada konfrans və seminarlar, xüsusi kurslar təşkil edilmişdir. Nəticədə muxtar respublikada cinslər arasında münasibətlərin elmi şəkildə araşdırılması üçün zəmin yaranmışdır. Gender sahəsində bölgədə müəyyən işlər aparılsa da, bu hələ azdır, fundamental tədqiqatlara ehtiyac duyulur. Əsas məqsəd muxtar respublikada qadınlar və kişilərin eyni hüquqlu və bərabər vətəndaşlar kimi cəmiyyətin inkişafında fəaliyyətini təsbit etmək, ayrı-seçkiliyin qarşısını almaq, siyasi və ictimai həyatda qadınların fəallığını yüksəltməkdən ibarət olmalıdır.

BMT-nin ailənin planlaşdırılması və reproduktiv sağlamlıq proqramına uyğun Naxçıvanda 1995-ci ildə müvafiq mərkəz açılmışdır.



Son dövrlərdə qadınların Muxtar Respublikanın sosial-mədəni həyatında fəal iştirakına nail olunması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Qadınlar əlamətdar günlərin, yubileylərin keçirilməsində fəal iştirak edirlər. Şəhər və kəndlərdə müntəzəm olaraq qadınlar məclisləri, qadınların əl işlərindən ibarət sərgilər, şer və mahnı müsabiqələri keçirilir. Əlillər, ahıllar günündə ağbirçək analara, əlil qadınlara, kimsəsiz uşaqlara hədiyyələr verilir [2, s. 54].

**Naxçıvan Muxtar Respublikasında bəzi demoqrafik göstəricilərə dair statistik məlumatlar**

Cədvəl 1.

| | 2000 | 2005 | 2010 | 2013 |
|---|---|---|---|---|
| Əhalinin sayı (ilin sonuna, min nəfər) | 361,5 | 382,1 | 410,1 | 435,3 |
| Təbii artım | 3869 | 4239 | 8072 | 7762 |
| Nikahlar | 2088 | 3727 | 3397 | 3512 |
| Boşanmalar | 165 | 236 | 333 | 314 |

muxtar respublikada qadınların sayında da artım qeydə alınmaqdadır.

**Naxçıvan Muxtar Respublikasında qadınların sayı haqqında məlumatlar (ilin əvvəlinə)**

Cədvəl 2.

| | 1999 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|
| Naxçıvan MR-da yaşayan qadınların sayı | 179607 | 195533 | 202134 | 205871 | 210493 | 214696 | 218821 |
| 18 yaşından yuxarı olan qadınların sayı | - | - | 138658 | 139257 | 142455 | 145349 | 148104 |
| 18 yaşınadək olan qadınların sayı | - | - | 63874 | 66614 | 68038 | 69347 | 70717 |

Naxçıvanda qadınların mədəniyyətə, incəsənətə geniş cəlb edilməsində, Naxçıvan Dövlət Universitetində açılmış kitabxanaçılıq, incəsənət,

musiqi ixtisaslarının, Konservatoriyanın mühüm rolu olmuşdur. Fərəhli haldır ki, bu ixtisarlarda təhsil alanların çoxu qızlardır.

Naxçıvan Muxtar Respublikasında təbii artım üzrə statistik göstəricilər 2000-2013-cü illərdə müsbət dinamikanı nümayiş etdirir.

Yeri gəlmişkən, 2000-ci illərin ortalarında sosioloji tədqiqatlar zamanı fokus qruplarda keçirilən müzakirələr "qadın" peşələri haqqında təsəvvürlərin nə qədər geniş yayıldığını göstərirdi. "Qadın üçün ən ideal peşələr həkimlik və müəllimlikdir, çünki qadın – anadır, o, öz uşaqlarına vaxt ayırmalıdır. Kişi isə ən müxtəlif işlərdə işləyə bilər". Digər tərəfdən, qızların daha aşağı ödənişli ixtisas sahələrini seçmələri müəyyən mənada iqtisadiyyatdakı gender seqreqasiyası ilə əlaqələndirilə bilər.

Azərbaycan hökuməti tərəfindən sözügedən stereotiplərlə mübarizəyə qadın və qızların qeyri-ənənəvi sahələrdə təhsil almalarının təşviqinə yönəlik bir sıra əməli addımlar atılmışdır ki, bu da onların iqtisadiyyatın sürətlə inkişaf edən sahələrinə girişini təmin etməlidir. Həmin tədbirlər çərçivəsində BMT-nin Əhali Fondu və "İnkişaf" Sosial və İqtisadi Araşdırmalar İctimai Birliyi ilə birgə AQUPDK təhsildə gender stereotiplərinin aradan qaldırılması məqsədilə regionlarda maarifləndirici səciyyəli mütəmadi təlimlər keçirməkdədir[6, s. 48].

Ali təhsil ocaqlarında oxuyanların gender tərkibindən söz düşmüşkən belə bir məqama toxunmaq istərdik. Özəl təhsil müəssisələrində oxumaq böyük maddi vəsait tələb edir. Dövlətin təhsil müəssisələrində də ödənişli təhsil almaq ucuz başa gəlmir. Çox zaman valideynlər seçim qarşısında qaldıqda, oğlan uşaqlarının təhsilinə pul ayırmağa üstünlük verdiklərindən, qızlar ikinci planda qalırlar. Həm bu hal, həm də oğlan və qız abituriyentlərin peşə seçimlərindəki fərqlər, əmək bazarında mövcud olan gender seqreqasiyasını gücləndirir. Valideynlərin maddi imkanları məhdud olduqda çox vaxt seçim qarşısında qalırlar: uşaqlardan hansı təhsilini davam etdirməlidir? Valideynlərin seçiminə gender stereotipləri, eləcə də oğlan və qızlar üçün bir birindən fərqlənən həyat strategiyası modelləri təsir göstərir. 2005-2006-cı illərdə həyata keçirilmiş sosioloji tədqiqat çərçivəsində fokus qrupu müzakirələri göstərdi ki, kişilərin və qadınların çoxu oğlanlarına gələcək çörək qazananı və qocaldıqları zaman, ata-ananın dayağı kimi baxırlar. Ali təhsilin isə oğulların sosial inkişafı üçün daha geniş imkanlar açacağını düşünürlər. Fəqət son illərdə tələbələrin cins bölgüsündə qadınların pay çəkisinin artması sözügedən stereotiplərinin tədricən zəifləməsindən xəbər verir.

Ümumiyyətlə, 2013-cü ildə ölkədə 1680 məktəbəqədər təhsil müəssisəsi, 4505 ümumtəhsil məktəbi, 85 lisey, 15 gimnaziya, 17 xüsusi və internat məktəbləri, 112 ilk peşə-ixtisas təhsili müəssisəsi, 58 orta ixtisas təhsili müəssisəsi, 52 ali təhsili müəssisəsi (onlardan 17 dövlət, 15 qeyri-dövlət) fəaliyyət göstərirdi.



Yeri gəlmişkən, müstəqilliyin 20 ili ərzində Naxçıvan Muxtar Respublikasında 77 min 814 şagird yerlik 193 orta məktəb binası, 191 səhiyyə müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasında tədris müəssisələrində təhsil alanların gender mənzərəsi də ötən dövr ərzində önəmli dəyişikliklərlə əlamətdar olmuşdur (Cədvəl 3.).

**Naxçıvan Muxtar Respublikasında tədris müəssisələrinin şagird və tələbələrin 1999-cu il və 2009-cu il siyahıyaalınmalarının məlumatlarına görə sayı**
**(yekuna görə; cins bölgüsü, faizlə)**

Cədvəl 3.

| | 1999 | | | | 2009 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | | Qadınlar | | Cəmi | | Qadınlar | |
| | Nəfər | Yekuna görə faizlə | Nəfər | Yekuna görə faizlə | Nəfər | Yekuna görə faizlə | Nəfər | Yekuna görə faizlə |
| Tədris müəssisələrində oxuyanlar, cəmi | 95387 | 100 | 45817 | 100 | 91507 | 100 | 43270 | 100 |
| Ali təhsil müəssisələrində | 5686 | 5,96 | 2184 | 4,77 | 7708 | 8,4 | 3412 | 7,9 |
| Orta ixtisas təhsil müəssi-sələrində | 1122 | 1,18 | 569 | 1,24 | 715 | 0,8 | 380 | 0,9 |
| İlk peşə-ixtisas təhsil müəssisələrində | - | - | - | - | 353 | 0,4 | 157 | 0,4 |
| Ümumi təhsil müəssisələrində | 87645 | 91,88 | 42666 | 93.12 | 82456 | 90.1 | 39180 | 90,5 |
| Digər təhsil müəssisələrində | 934 | 0,98 | 398 | 0,87 | 275 | 0,3 | 141 | 0,3 |

Naxçıvan Muxtar Respublikasında son illərdə ümumtəhsil məktəblərində təhsil alan qızların sayında xoşagəlməz tendensiya müşahidə olunmaqdadır: muxtar respublikada ümumən 18 yaşınadək qadınların sayı artdığı halda, məktəblərdə oxuyan qızların sayında azalma qeydə alınmaqdadır. Belə ki, məsələn, əgər 2010-cu ilin əvvəllərində ümumtəhsil məktəblərində 24353 nəfər qız təhsil alırdısa, 2014-cü ilin yanvarın 1-nə olan məlumatlara əsasən, bu rəqəm 20600 nəfərədək azalmışdır. Yuxarı siniflərdə məktəblərdə qızların davamiyyətinin kəskin şəkildə aşağı düşməsindən xəbər verən belə tendensiya

muxtar respublikada son illərdə yaşanan sosial-iqtisadi inkişaf fonunda təəssüf doğurmaya bilməz.

Gender siyasətinin həyata keçirilməsi məqsədi ilə 1998-ci il yanvarında Qadın problemləri üzrə Dövlət Komitəsi təsis olunmuş, 2000-ci ilin martın 6-da respublikamızın bütün dövlət strukturlarında qadın və kişilər arasında bərabərliyin təmin olunmasını, müvafiq dövlət proqramlarının hazırlanması ilə qaçqın və məcburi köçkün qadınların işlə təmin olunması, gender nöqteyi-nəzərindən qanunvericiliyə yenidən baxılmasını nəzərdə tutan "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi" haqqında fərman imzalanmışdır.

Heydər Əliyev kursunun layiqli davamçısı Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu sahədə dövlətimiz yeni nailiyyətlər əldə etmişdir. 2006-cı il fevralın 6-da Respublika Prezidentinin Fərmanı ilə ləğv edilmiş Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında daha çox səlahiyyətlərə malik olan yeni dövlət strukturu – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi təşkil olundu. Ölkəmizdə gender bərabərliyinin təşviqi sahəsində atılmış mühüm addımlardan biri 2006-cı ilin oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununu olmuşdur. Heydər Əliyevin müəyyən etdiyi dövlət qadın siyasətinin strateji prinsiplərinə uyğun olaraq, qanunun əsas məqsədi kimi kişi və qadınların ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması təsbit edilmişdir [7, s. 34].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanına müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 2007-ci il 25 oktyabr tarixli Fərmanı ilə Komitənin Əsasnaməsi və ştat sayı təsdiq olunmuşdur. Komitə 2009-cu il mart ayından fəaliyyətə başlamışdır. O öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən yerli icra hakimiyyətləri, nazirliklər, dövlət komitələri və digər orqanlarla işini əlaqələndirir.

Sözügedən qurum qadının cəmiyyətdə rolunun artırılması, dövlətin qadın siyasəti, erkən nikahların yolverilməzliyi, cəmiyyətdə və ailədə davranış qaydaları, qadın və mənəviyyat, gender bərabərliyi və s. mövzularda mütəmadi



olaraq KİV-də fəal çıxışlar təşkil edir, müxtəlif televerilişlərə qatılır. Bizim hesablamalarımıza görə, ümumilikdə Komitə əməkdaşlarının kütləvi informasiya vasitələrində 2010-2013-cü illərdə 112 televiziya, 101 radio verilişi yayımlanmış, 105 televiziya verilişinin layihəsi hazırlanmış, 19 məqalə və 4 müsahibəsi mətbuatda dərc olunmuşdur. Həmçinin Komitə tərəfindən keçirilən hər bir tədbir kütləvi informasiya vasitələrində işıqlandırılmışdır [2, s. 67].

Bundan əlavə, Komitə bir çox mövzuda beynəlxalq və tarixi günlərin qeyd olunmasını diqqət mərkəzində saxlayır, yuxarıda sadalanan məsələlər üzrə müntəzəm şəkildə konfranslar, seminarlar, müsabiqələr, tədbirlər keçirir. 2010-cu ildə qadınlarla bağlı dövlət siyasətini həyata keçirmək məqsədilə Komitə təşkil etdiyi Muxtar Respublikanın Səhiyyə Nazirliyinin və Ali Məhkəməsinin əməkdaşlarının iştirakı ilə "Qadınların cəmiyyətdə özünüreallaşdırma ideyası: bərabər hüquqlar, real imkanlar" mövzusunda muxtar respublikanın bütün rayonlarında konfranslar təşkil etmişdir. Komitə sədrinin müavini R.Seyidova "Naxçıvan Muxtar Respublikasında qadın məsələsi: reallıqlar və perspektivlər", Muxtar Respublikanın Ali Məhkəməsi Aparatının baş məsləhətçisi T.İsmayılova "Qadın hüquqları insan hüquqlarının tərkib hissəsi kimi", Naxçıvan Doğum Mərkəzinin həkim ginekoloqu G.Əliyeva "Qadın sağlamlığı və ailə planlaşdırılması sağlam cəmiyyətin əsasında duran amildir" mövzusunda çıxışlar etmişlər. 7 rayonda keçirilmiş konfransda 1090 fəal qadın və qız maarifləndirilmişdir [2, s. 83].

2011-ci il sentyabrın 28-də Komitə təşkilatçılığı ilə "Azərbaycan Respublikasının müstəqilliyinin 20 ili – Azərbaycan qadınının keçdiyi yol" mövzusunda konfrans keçirmişdir. Həmçinin qurum həmin il ölkəmizin müstəqilliyinin 20 illiyi ilə bağlı müxtəlif tədbirlərdə fəal iştirak etmişdi.

2013-cü ilin mayın 3-də Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan qadını" mövzusunda konfrans keçirilmişdir. Orada 357 qadın iştirak etdi. Konfransda "Heydər Əliyev və Azərbaycan qadınının keçdiyi yol" adlı film nümayiş olunmuş, Ulu Öndərin gender bərabərliyinin təminatı istiqamətində həyata keçirdiyi tədbirlər, qadın hüquqları haqqında çıxışlar olmuşdur.

2013-cü il fevralın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "2012-ci ilin yekunları və qarşıda duran vəzifələr" mövzusunda keçirilmiş müşavirədə Ali Məclis sədri Komitəyə xüsusi tapşırıqlar verdi. Onların yerinə

yetirilməsi məqsədilə Komitə əməkdaşları tərəfindən xüsusi qayğıya ehtiyacı olan 22 tənha, ahıl, əlil qadına, 83 aztəminatlı, sağlamlıq imkanları məhdud olan ailəyə lazımi kömək göstərilmiş, onların sosial problemlərinin həlli ilə bağlı zəruri işlər görülmüşdür.

Naxçıvan MR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları muxtar respublikanın ali hakimiyyəti tərəfindən təşkil olunan bir çox tədbirlərə dəvət olunurlar ki, bu, dövlətimizin bu quruma verdiyi önəmin bariz sübutudur.

Bu gün qadınların idman və bədən tərbiyəsi sahəsində iştirakına böyük diqqət yetirilir. Bir neçə idman obyekti, o cümlədən respublika stadionu yenidən qurulmuş, şahmat məktəbi üçün yeni bina tikilmişdir. Muxtar respublikanın paytaxtında yeni olimpiya kompleksi inşa edilmişdir. Muxtar respublikanın şahmat məktəblərində 805 nəfər qız məşğul olur. Müxtəlif tədris müəssisələrində qızlardan ibarət voleybol komandaları fəaliyyət göstərir. Qadınlar arasında voleybol, yüngül atletika, şahmat üzrə yarışlar keçirilir. Qadın komandaları tez-tez İran və Türkiyə qadınları ilə dostluq görüşləri keçirirlər.

Azərbaycan qadınlarının V qurultayından, mərhum prezident Heydər Əliyevin qadınlarla bağlı qərarlarından sonra Muxtar Respublikada qadınların məsul vəzifələrə irəli çəkilməsi sürətlənmişdir. Belə ki, son illərdə bir neçə gənc qadın dövlətin idarə olunması işlərinə irəli çəkilmiş, onlarla müəllim, həkim, mədəniyyət işçisi fəxri adlara layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikasınm bugünkü həyatının hər hansı bir sahəsini qadınlarsız təsəvvür etmək mümkün deyil.

Azərbaycana qarşı davam edən təcavüzün ağrı-acılarına, iqtisadi və sosial çətinliklərə baxmayaraq, Naxçıvan qadınları bütün Azərbaycan qadınları kimi öz analıq və qadınlıq borçlarını ləyaqətlə yerinə yetirir, vətənimizin və xalqımızın iqtisadi, siyasi, mədəni-mənəvi cəhətdən inkişaf edib, çiçəklənməsi naminə öz fəaliyyətlərini davam etdirirlər.

## ƏDƏBİYYAT


1. Abasov Ə., Qasımova Y. Genderin aktual problemləri (Azərbaycan və rus dillərində). Bakı: AREAT Mərkəzi, 2002, 117 s.
2. Abbasova S. Naxçıvan MR-da qadın hərəkatının inkişaf tarixi. Bakı, Elm və təhsil 2014, 228 s.





3. Azərbaycan Gender İnformasiya Mərkəzi ötən ilin ən fəal təşkilatlarındandır // Vətəndaş cəmiyyəti, 2009, №3 (6), s.62-63
4. Azərbaycan Qadın və İnkişaf Mərkəzi // "Genderşünaslıq" jurnalı, 2000, №3, s.41
5. Azərbaycan Respublikasında qadınların vəziyyəti haqqında Hesabat. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı. Bakı: Caspian Communications LTD, 1999, 80s.
6. Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti // "Genderşünaslıq" jurnalı, 2000, №1, s.28
7. Əlizadə M. Əsas məqsədimiz qadınların cəmiyyətdə rolunun artırılmasına yardım etməkdir // Vətəndaş cəmiyyəti, 2013, №2 (53), s.44-45
8. Hasilova X. Cəmiyyətdə qadının vəziyyəti o ölkənin səviyyəsi ilə ölçülür // "Azərbaycan qadını", 1993, №5-6, s.10-11

**Xəzər Hüseynov**
Naxçıvan Dövlət Universiteti, dosent
E-mail: xezerhuseynov@gmail.com

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI (1991-2015-ci illər)

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının uğurlu inkişafı Azərbaycan xalqının ümummilli lideri, Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır.

Məlum olduğu kimi 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqillik əldə edəndə ölkədə ictimai həyatın bütün sahələrində islahatların aparılması vacib və zəruri bir problem kimi qarşıya qoyulmuşdur. Bunun əsas səbəbi kimi uzun illər ərzində qurulmuş ittifaqdaxili sabit istehsal-təsərrüfat əlaqələrinin dağılması, dövlətin yeni şəraitdə, xüsusilə də aqrar sahə üzrə öz tənzimləmə funksiyalarını lazımi şəkildə yerinə yetirə bilməməsi, kəskin sosial-siyasi böhranlar, ölkəmizin bir sra mühüm kənd təsərrüfatı rayonlarının düşmən işğalına məruz qalması, ölkə daxilində sahələrarası iqtisadi əlaqələrin qırılması və s. göstərmək olar. Nəticədə aqrar sahədə istehsal kəskin aşağı düşmüş, bir sıra aqrar sahə müəssələri dağıdılmış, kənd təsərrüfatı məhsulları daxili bazarda aşağı səviyyəyə düşmüşdür [15, s. 7].

Belə gərgin dövrdə Naxçıvan Muxtar Respublikasını dərin-iqtisadi böhrandan çıxarmaq üçün dahi bir dövlət xadimi Heydər Əliyevə böyük ehtiyac var idi. Ümummilli lider Heydər Əliyevin Azərbaycana, xüsusilə Naxçıvana qayıdışı blokada şəraitində yaşayan, Azərbaycanın digər ərazilərindən təcrid olunan Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafına güclü təsir göstərmişdi.

1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Culfa rayonunda ilk dəfə olaraq ictimai təsərrüfatda islahata başlamış və yeni özəl təsərrüfat qurumları yaradıldı. 1992-ci il aprel ayının 6-da "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında" qanun qəbul edildi.

Bu qanun bir daha göstərir ki, Naxçıvan Muxtar Respublikası hələ 90-cı illərdə bütövlükdə Azərbaycanda həyata keçirilməyə başlayan iqtisadi islahatların beşiyidir. Onun ideya istiqamətlərinin müəyyən edilməsində aparıcı yer tutur.

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə rəhbərliyi və iştirakı ilə hazırlanan geniş və hərtərəfli müzakirə edilən, "Aqrar islahatın əsasları haqqında" və



"Sovxoz və kolxozların islahatı haqqında" (1995-ci il), "Torpaq islahatı haqqında" (1996-cı il), "Lizinq xidməti haqqında", "Torpaq icraiyyəsi haqqında", "Torpaq bazası haqqında" və şair qanunların çox böyük əhəmiyyəti olmuşdur.

Aqrar islahatların aparılması ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təşkilatı, siyasi və digər tədbirlər tezliklə öz bəhrəsini verdi, aqrar sahədə dönüş yarandı.

Muxtar respublikada 1996-cı ildən başlayaraq kənd təsərrüfatı məhsulları istehsalında 1991-ci ildən davam edən tənəzzülə son qoyulmuş və ildən-ilə artım əldə edilmişdir. Bu inkişaf muxtar respublikanın aqrar sahəsində son 20 ildə özünün ən yüksək mərhələsinə çatmışdır.

Həyata keçirilən aqrar islahatlar nəticəsində muxtar respublikada 1995-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 117 mlrd. manat olduğu halda, 2000-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 269 mlrd. manat olmuşdur. 2000-ci ildə bütöv təsərrüfat kateqoriyaları üzrə 54428 min ton (1999-cu ildəkindən 13 ton, yaxud 26,5% çox) taxıl, 42723 ton (1999-cu ildəkindən 89,4% çox) bostan məhsulları, 13454 ton (1999-cu ildəkindən 26,8% çox) kartof, 28444 ton (1999-cu ildəkindən 12,5% çox) meyvə, 14015 ton (1999-cu ildəkindən 6,7% çox) üzüm, 45499 ton (1999-cu ildəkindən 17,7% çox) şəkər çuğunduru, 28,2 min ton tütün istehsal edilmişdir.

2000-ci ildə 1995-ci ilə nisbətən 13,5 min ton çox kartof, 33 dəfə çox tərəvəz, 83,3 dəfə çox bostan məhsulları, 129 dəfə çox meyvə istehsalı olunmuşdur [12, s. 121-122].

Muxtar respublikada 2000-ci ildə 73480 baş (1999-cu ildəkindən 10628 baş çox) iri buynuzlu, 425359 baş (1999-cu ildəkindən 400045 baş çox) xırda buynuzlu olmuşdur. Bu illərdə ət, süd, yumurta və yun istehsalı üzrə də xeyli artım olmuşdur. 2000-ci ildə həmin məhsullar 1993-cü ildəkinə nisbətən ət üzrə 20,0%, süd üzrə 2,2 dəfə, yumurta üzrə 2 dəfə, yun üzrə 2,3 dəfə çox istehsal olmuşdur [12, s. 124].

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan MR-in 75 illiyi münasibətilə keçirilən yubiley təntənələrində çıxış edərək demişdir: "İndi deyəndə ki, ət süd, yağ, pendir artıqlaması ilə istehsal olunur, başına qalır, satmağa imkan yoxdur, çünki çıxarıb başqa yerdə satmaq mümkün deyildir, - mən buna nə qədər sevinirəm. Nə qədər sevinirəm ki, o vaxt biz özəlləşdirməni Azərbaycanın hər yerindən tez başladıq və Naxçıvan bu işə hamıdan qabaq nail oldu, muxtar respublikanın o qara günləri qurtardı" [1, s. 278].

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan aqrar siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı ölkə iqtisadiyyatının inkişafında kənd təsərrüfatının əhəmiyyətini qeyd edərək demişdir: "Kənd

təsərrüfatının inkişafına maksimum dərəcədə diqqət göstərməliyik. Bu həm təhlükəsizlik, həm iqtisadi, həm də sosial məsələdir. Çünki Azərbaycan əhalisinin yarısı kənd təsərrüfatı bölgəsində yaşayır" [16, 30 yanvar 2013].

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş kənd təsərrüfatının strateji planına uyğun olaraq XX əsrin 90-cı illərində olduğu kimi, XXI əsrin əvvəllərində Naxçıvan Muxtar Respublika kənd təsərrüfatının inkişafında da böyük uğur olmuşdur.

Aqrar sektorda istehsalçıların zəruri kənd təsərrüfatı texnikası ilə təchizatını yaxşılaşdırmaq, keyfiyyətli məhsul yetişdirməklə yanaşı onun itkisiz yığılmasını təmin etmək zəruri məsələlərdən hesab edilir. Məhz aqrar bölmənin müasir texnika ilə təchizatı məsələlərinin çevik şəkildə tənzimlənməsini təmin etmək və "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Naxçıvan iqtisadi rayonu üzrə nəzərdə tutulmuş tədbirlərin icrasının sürətləndirilməsi məqsədilə 28 yanvar 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzalamışdır. Bu sərəncamın icrası ilə əlaqədar ötən dövr ərzində xeyli kənd təsərrüfatı maşın və mexanizmləri muxtar respublikaya gətirilmiş və istehsal prosesinə cəlb olunmuşdur. Ümumilikdə 2000-2005-ci illər ərzində 227 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası, o cümlədən 54 ədəd traktor, 40 ədəd kotan, 24 ədəd taxılsəpən, 16 ədəs otbiçən, 10 ədəd gübrəsəpən, 8 ədəd torpaqhamarlayan, 6 ədəd ot və küləşpresləyən, 4 ədəd kultivator, 3 ədəd çalaqazan, 2 ədəd kartofçıxaran, 2 ədəd kartofəkən, 2 ədəd toxumtəmizləyən, 1 ədəd çiləyici və 1 ədəd mala muxtar respublikaya gətirilərək istifadəyə verilmişdir [6, s. 49].

Muxtar respublika rəhbərliyinin taxılçılığa mühüm əhəmiyyətli sahə kimi yanaşması nəticəsində bu sahədə yüksək artıma nail olunmuşdur. Tədqiqat nəticəsində aydın olmuşdur ki, 1995-ci ildə 23,6 min ton, 1997-ci ildə, 43,2 min ton, 1999-cu ildə, 43,0 min ton, 2001-ci ildə 59,0 min ton [13, s. 41], 2003-cü ildə 81,4 min ton, 2005-ci ildə 93,2 min ton, 2009-cu ildə 94,7 min ton taxıl yığılmışdır. Hər il olduğu kimi 2011-ci ildə də strateji əhəmiyyəti nəzərə alınaraq taxılçılıq üstün mövqeyə çıxarılmış, 2010-cu illə müqayisədə 797 hektar çox, yəni 34 min 751 hektar sahədə taxıl əkini aparılmış, taxıl zəmilərindən 101 min ton məhsul toplanmışdır [7, s. 7].

2008-ci il sentyabrın 17-də təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət Proqramı" nın icrası ilə bağlı görülən tədbirlər nəticəsində taxılçılıq sahəsində də müəyyən nəticələr əldə edilmişdir. Muxtar respublikada taxıl zəmilərindən 2012-ci ildə 101 min 848 ton, 2013-cü ildə 102 min 960 ton məhsul toplanmışdır. 2013-cü ildə taxıl zəmilərindən toplanmış taxıl 2012-ci illə müqayisədə 1112 ton çoxdur [9, s. 8].



2014-cü ildə taxılçılıq əsas əkinçilik sahəsi kimi diqqət mərkəzində saxlanılmışdır. 2014-cü ilin məhsulu üçün 35749,7 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 26274,1 hektarını buğda, 9475,6 hektarını isə arpa təşkil etmişdir. Bir il öncəyə nisbətdə taxıl əkini sahələrinin həcmi 10425,7 hektar artmışdır. Taxıl zəmilərindən 103 min 70 ton məhsul toplanmışdır ki, bu da 2013-cü illə müqayisədə 110 ton çoxdur [10, s. 8].

Muxtar respublikada taxılçılıqla yanaşı kartofçuluğun inkişafına da xüsusi diqqət yetirilmişdir. Belə ki, 1995-ci ildə 0,1 min ton, 2001-ci ildə 15,2 min ton, 2005-ci ildə 26, 3 min ton, 2009-cu ildə 37,4 min ton, 2011-ci ildə 38,3 min ton, 2013-cü ildə 41 min tondan çox məhsul götürülmüşdür. 2014-cü ildə 2962 hektar sahədə kartof əkini aparılmış və sahələrdən 41405,5 ton kartof yığılmışdır ki, bu da bir il öncəki göstəricini 109 ton üstələyir [10, s. 9]. Ümumiyyətlə, görülən tədbirlər nəticəsində muxtar respublikasında kartof əkinindən əldə edilmiş mahsuldarlıq ilbə il artmışdır.

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatının inkişafında heyvandarlığında xüsusi əhəmiyyəti vardır. Bu sahəyə maraq həmişə diqqət mərkəzində olmuşdur. Muxtar respublika rəhbərliyinin apardığı məqsədyönlü tədbirlər nəticəsində heyvandarlığın inkişafı sahəsində də böyük nailiyyətlər əldə edilmişdir. 1992-ci illə müqayisədə 1997-ci ildə əhalidə iri buynuzlu heyvanların baş sayı 86,1 faiz və xırda buynuzlu heyvanların baş sayı 2 dəfə artmışdır [11, s. 18-19].

İqtisadiyyatın başqa sahələrində olduğu kimi, heyvandarlığın da perspektiv inkişafını məhz ümummilli liderimiz Heydər Əliyev islahatların aparılmasında görürdü. Tarix göstərir ki, ulu öndər Heydər Əliyev öz seçimində yanılmamışdır.

Ümummilli liderimiz Heydər Əliyev 1999-cu ildə Naxçıvana səfəri zamanı demişdir: "Biz Azərbaycanda ilk dəfə 1992-ci ildə burada islahatlara başladıq. Mən gördüm ki kolxozlar mal - qaranı onsuz da dağıtır. Biz mal-qaranı güzəştli qiymətə camaata satdıq. Beləliklə mal - qara özəlləşdi. İndi deyirlər ki, nə qədər artıbdır. Bu qədər nə iribuynuzlu mal, nə də xırdabuynuzlu mal muxtar respublikanın tarixində, hətta mənim Azərbaycana rəhbərlik etdiyim o inkişaf dövründə də Naxçıvanda olmayıbdır" [1, s. 247].

2003-cü ildə muxtar respublikada heyvandarlığa göstərilən qayğı nəticəsində heyvandarlığın baş sayında və heyvandarlıq məhsullarının istehsalında artıma nail olunmuşdur. 2003-cü ilin sonuna muxtar respublikada 81202 baş iribuynuzlu mal qara, 474898 baş xırdabuynuzlu mövcud olmuşdur ki, bu da 1993-cü ilin sonuna olan göstəriciləri müvafiq olaraq 1,7 dəfə və 1,9 dəfə üstələyir [2, s. 70].

Muxtar respublikada heyvandarlığın inkişafını yaxşılaşdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin 2005-ci il 30 noyabr tarixli Fərmanı ilə Dövlət Baytarlıq xidməti yaradılmışdır.

Dövlət Baytarlıq Xidməti müəssisəsinin yaradılması muxtar respublikada heyvandarlığın inkişafına müsbət təsir göstərmişdir. Statistikanın vermiş olduğu məlumata görə 01 yanvar 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikasında mal-qaranın sayı xeyli artmışdır. Belə ki, iri buynuzlu mal-qaranın sayı 84089 baş, xırda buynuzlu heyvanların sayı isə 504583 baş təşkil etmişdir. Heyvandarlığın sayında müşahidə olunan artım heyvandarlıq məhsulları istehsalına da əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Belə ki, 2003-cü illə müqayisədə 2004-cü ildə ət istehsalı 7,8 faiz, süd istehsalı 5,4 faiz, yumurta istehsalı 5,8 faiz, yun istehsalı 1,9 faiz artmışdır [4, s. 38].

2006-cı il yanvar ayının 1-dək muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında iribuynuzlu mal-qaranın sayı 100 min 974 baş, xırdabuynuzlu heyvanların sayı isə 601 min 912 baş olmuşdur. 2005-ci ildə 2004-cü illə müqayisədə iribuynuzlu mal-qaranın sayı 16 min 885 baş, xırdabuynuzlu heyvanların sayı isə 97 min 329 baş artmışdır.

Muxtar respublikada mal-qaranın baş sayının artımı heyvandarlıq məhsullarının istehsalını artırmağa da imkan vermişdir. 2005-ci il ərzində diri çəkidə 14 min 601 ton ət, 64 min 818 ton süd, 830 ton yun istehsal edilmiş və 2004-cü ilin göstəricilərinə nisbətən ət istehsalı 5 faiz, süd istehsalı 3,4 faiz, yun istehsalı isə 2,7 faiz artmışdır [5, s. 26].

Muxtar respublikada heyvandarlıq məhsullarının istehsalını artırmaq üçün mütərəqqi təsərrüfatçılıq metodları təşkil olunmuş, müasir tələblərə cavab verən 2 yeni heyvandarlıq təsərrüfatı yaradılmışdır. Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq və damazlıq sahələrini inkişaf etdirmək məqsədilə 2012-ci ildə 321 baş, 2013-cü ildə isə 337 baş, ümumilikdə isə son beş ildə 1678 baş cins mal-qara muxtar respublikaya gətirilərək lizinq yolu ilə fermerlərə verilmişdir [16, 29 dekabr 2013].

Kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafının davamlı olaraq dəstəklənməsi iribuynuzlu mal-qaranın və xırdabuynuzlu heyvanların baş sayının, ət və süd məhsulları istehsalının həcminin artmasına öz təsirini göstərmişdir. 2014-cü ilin doqquz ayı ərzində 3 heyvandarlıq təsərrüfatının yaradılması, 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, hazırda 1 heyvandarlıq təsərrüfatının yaradılması üzrə işlər davam etdirilir. 2014-cü ilin yanvar-sentyabr aylarında heyvandarlıq təsərrüfatlarında 5694 baş inək və düyə süni yolla mayalandırılmışdır. Əvvəlki ildə mayalandırılmış inək və düyələrdən 4833 baş sağlam buzov alınmışdır. Bununla yanaşı, yüksək məhsuldarlıq göstəricilərinə malik olan mal-qaranın xüsusi çəkisi də davamlı olaraq artmışdır. 1 oktyabr 2014-cü il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın



sayı 109 min 822 baş, qoyun və keçilərin sayı isə 668 min 933 baş olmuşdur ki, bu da 1 oktyabr 2013-cü il tarixə olan göstəriciləri müvafiq olaraq 1,6 və 1,8 faiz üstələmişdir [16, 21, oktyabr 2014].

Muxtar respublikada maldarlıq və qoyunçuluqla yanaşı quşçuluğun da inkişafı istiqamətində müvafiq tədbirlər görülmüşdür. 1995-2010-cu illər ərzində quşçuluq sahəsində 26 təsərrüfat subyekti fəaliyyətə başlamış, 2 quşçuluq təsərrüfatının yaradılması istiqamətində işlər davam etdirilmişdir. 01 yanvar 2010-cu il tarixə muxtar respublikada 828,6 min baş kənd təsərrüfatı quşları mövcud olmuşdur ki, bu da 01 yanvar 1996-cı ilə nisbətən 4,8 dəfə çoxdur [3, s. 122].

Muxtar respublikada quş əti və yumurtaya olan tələbatın daha dolğun şəkildə ödənilməsi, bu sahədə idxaldan asılılığın aradan qaldırılması məqsədilə son illər quşçuluğun inkişafına da xüsusi diqqət yetirilir, yeni quşçuluq təsərrüfatlarının yaradılması üçün müvafiq işlər həyata keçirilir. 2012-ci ildə quşçuluğun inkişafı məqsədilə sahibkarlıq subyektlərinə 2 milyon 647 min manatdan çox kredit verilmişdir. Görülmüş tədbirlər nəticəsi olaraq 2012-ci ildə 9 yeni quşçuluq təsərrüfatıfəaliyyətə başlamış, beləliklə son illər istifadəyə verilən quşçuluq təsərrüfatlarının sayı 46-ya çatmışdır [8, s. 9].

Daxili bazarda quş əti və yumurtaya olan tələbatın tam şəkildə yerli istehsal hesabına ödənilməsi tədbirlərinə uyğun olaraq, 2013-cü ildə 14 yeni quşçuluq təsərrüfatı yaradılmış, quşçuluq təsərrüfatlarının ümumi sayı 60-a çatdırılmışdır. Bundan əlavə, muxtar respublikada fəaliyyət göstərən quşçuluq təsərrüfatının fəaliyyətini əlaqələndirmək üçün Naxçıvan Muxtar Respublikası Quşçuluq Birliyi yaradılmışdır [9, s. 10].

Muxtar respublikanın kənd təsərrüfatında son 20 ildə güclü maddi-texniki baza formalaşmış kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə məhsul istehsalının səviyyəsi dəfələrlə artmışdır. Bütün bunlar isə günbəgün yeniləşən Naxçıvan Muxtar Respublikasının daha da parlaq gələcəyindən xəbər verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır" [3, s. 3].

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafın Dövlət Proqramı"nda müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 aprel tarixli Sərəncamı ilə Azərbaycan

Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 5 milyon manat vəsait ayrılmışdır.

Əldə olunmuş sosial-iqtisadi inkişaf səviyyəsini qorumaq və daha da möhkəmləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir [10, s. 5].

2014-cü il dekabr ayının 27-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bütün bunları nəzərə alaraq deyib: "Biz bu gün 2014-cü ilə yekun vurduq. 2015-ci ildə muxtar respublikada tarixən formalaşmış təsərrüfatçılıq ənənələri inkişaf etdirilməli, əhalinin ərzaq məhsulları ilə təminatı davamlı xarakter almalı, emal müəssisələri xammalla fasiləsiz təchiz edilməlidir. Muxtar respublikanın ərzaq təhlükəsizliyi və meyvə-tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarının icrası da kənd təsərrüfatına xüsusi diqqət yetirilməsini tələb edir. Qeyd olunanlar nəzərə alınaraq, 2015-ci il Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan edilir". Bu isə o deməkdir ki, aqrar sahəyə qayğı, onun inkişafını diqqətdə saxlamaq davamlı xarakter alıb və bu, naxçıvanlıların genefondu məhz qədim diyara məxsus olan qiymətli kənd təsərrüfatı məhsullarından istifadəsinə istiqamətlənmiş növbəti addımdır... [16, 7 yanvar 2015].

Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi üzrə həyata keçirilən tədbirlər "Kənd təsərrüfatı ili" elan edilmiş 2015-ci ilin ötən dövrü ərzində də diqqətdə saxlanılmışdır. Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı yaxşılaşdırılmışdır. Həyata keçirilən tədbirlərə uyğun olaraq "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 179 ədədi 2015-ci ilin yanvar-sentyabr aylarında olmaqla, cəmi 1684 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq muxtar respublikaya gətirilmişdir. 2015-ci ilin ötən dövrü ərzində 168 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq güzəştli şərtlərlə lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir.

Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 aprel tarixli Sərəncamı ilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində və çoxillik əkmələrin aparılmasında istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımın həcmi 25 faiz artırılaraq 50 manata çatdırılmışdır.



2015-ci ilin məhsulu üçün muxtar respublikada 61 min 414 hektar sahədə əkin aparılmışdır ki, bu da 2014-cü ilin məhsulu üçün əkilmiş sahədən 585 hektar çoxdur. 1 oktyabr 2015-ci il tarixə 112871 ton dənli və dənli-paxlalılar (qarğıdalısız), 4473,8 ton dən üçün qarğıdalı, 690,2 ton dən üçün günəbaxan, 71275,8 ton tərəvəz, 36049,9 ton ərzaq üçün bostan məhsulları, 37319 ton meyvə, 9552,5 ton üzüm toplanmışdır.

Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı da diqqətdə saxlanılmış, 2015-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada diri çəkidə 17024 ton ət, 67511,8 ton süd istehsal olunmuşdur ki, bu da 2014-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə müvafiq olaraq 13,7 və 1,7 faiz çoxdur.

Cari ilin ötən dövrü ərzində kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə ümumilikdə 17018,9 min manat məbləğində kreditlərin verilməsi təmin olunmuşdur ki, bu da bir il önceki müvafiq göstəricidən 28,8 faiz çoxdur. 2015-ci ilin yanvar-sentyabr aylarında 2014-cü ilin müvafiq dövrünə nisbətən 9,1 faiz çox, yəni 297 milyon 854 min manat həcmində kənd təsərrüfatı məhsulları istehsal edilmişdir.

Ümumiyyətlə, bütün bunlar onu deməyə əsas verir ki, Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan aqrar islahatlar bu gün Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir və öz bəhrəsini verir.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 46 ciliddə, 22-ci cild. Bakı: Azərnəşr, 2007, 528 s.
2. Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası-90. Naxçıvan: "Əcəmi" NPB, 2014, 184 s.
3. Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: "Əcəmi" NPB, 2010, 279 s.
4. 2004-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları haqqında. Naxçıvan: "Əcəmi" NPB, 2005, 75 s.
5. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2006, 48 s.
6. 2000-2005-ci ildə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: "Əcəmi" NPB, 2006, 70 s.
7. 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2012, 87 s.
8. 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2013, 88 s.
9. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2014, 96 s.

10. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2015, 71 s.
11. 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı haqqında. Naxçıvan: "Əcəmi" NPB, 1998, 32 s.
12. Naxçıvan Muxtar Respublikası (Akademik C.Quliyevin redaktorluğu ilə) Bakı: Elm, 2001, 222 s.
13. Naxçıvan Muxtar Respublikası. 1991-2001-ci illər ərzində. Naxçıvan: "Əcəmi" NPB, 2001, 97 s.
14. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s.
15. Rüstəmov A.A., Quliyev Ə.G., Qasımov D.Q., Aqrar sahənin inkişafının regional problemləri (Dərs vəsaiti). Bakı: "Avropa", 2013, 173 s.
16. "Şərq qapısı" qəzeti.



**Emin Məmmədov**
Naxçıvan MR Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi
E-mail: emammadov87@hotmail.com

## NAXÇIVANIN ŞƏRUR BÖLGƏSİNDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR (1995-2015)

Naxçıvan Muxtar Respublikasının tarixi-arxeoloji abidələrinin tədqiqi təkcə Azərbaycan arxeologiya elminə deyil, hətta Cənubi Qafqaz və dünya arxeologiya elminə dəyərli töhvələr qazandırmışdır. Ən qədim zamanlardan bu diyarda yaranıb formalaşan maddi mədəniyyətlər azərbaycan xalqının milli sərvəti olmaqla yanaşı qədim tariximizin və zəngin mədəniyyətimizin daşıyıcısıdır.

Tədqiqatçıların fikrincə Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji tədqiqatların tarixi üç mərhələdən ibarət olmuşdur. Bura Çar Rusiyası dövrü, Sovet dövrü və Müstəqillik dövründə aparılmış arxeoloji tədqiqat işləri aid edilir [1, s. 150]. Müstəqillik dövrünə kimi muxtar respublika ərazisində aparılmış arxeoloji tədqiqat işləri əsasən kəşfiyyat və talançılıq xarakteri daşımış və nəticədə xalqımızın min illər ərzində yaratmış olduğu qədim və zəngin mədəniyyət başqa yerlərə daşınmışdır. Lakin Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkə həyatının bir çox sahələrində olduğu kimi elmi sahədə də ciddi inkişaf özünü göstərməyə başladı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təsis edilməsi ilə bağlı verdiyi qərar muxtar respublikada elmi-tədqiqat işlərinin dahada genişlənməsinə, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası, təbii sərvətləri və digər elmi sahələrinin daha dərindən öyrənilməsinə şərait yaratdı. Bütün bunların nəticəsində tarixi abidələrimizin tədqiqi və təbliği istiqamətində ötən dövr ərzində çox böyük işlər görülmüşdür.

Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan əlverişli coğrafi şərait ən qədim zamanlardan burada insanların məskunlaşmasına və zaman-zaman onların öz qədim mədəniyyətlərini yaratmalarına imkan vermişdir. Bu baxımdan Naxçıvanın qədim Şərur bölgəsi də tarixin bir çox dövrlərini əhatə edən zəngin arxeolji abidələri ilə Azərbaycan və dünya arxeologiya elminə öz töhvəsini vermişdir. Adı hələ "Kitabi-Dədə Qorqud"

dastanında "Şəruk" kimi göstərilən Şərur rayonu ərazisindən axan Arpaçayı vadisində, həmçinin düzənlik və dağlıq ərazilərdə Daş, Tunc, Dəmir, Antik dövrləri və Orta əsrlərə aid çox sayda zəngin maddi mədəniyyət nümunələri ilə təmsil olunan arxeoloji abidələr aşkar edilmişdir. Bu abidələr içərisində qədim yaşayış yerləri, qalalar, kurqanlar və s. göstərmək olar. Həmçinin Şərur rayonu ərazisində metal və qeyri metal yataqlarının olması qədim əkinçi-maldar tayfaların burada erkən məskunlaşmasına şərait yaratmışdır [9, s. 9].

Müstəqillik illərində Şərur bölgəsində aparılmış arxeoloji tədqiqat işləri qədim Naxçıvan diyarının, eləcə də Azərbaycanın qədim dövr tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Bu illər ərzində arxeoloji abidələrimiz həm yerli, həm də xarici arxeoloqlar tərəfindən hərtərəfli şəkildə öyrənilərək dünya miqyasına çıxarılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 6 dekabr 2005-ci il tarixli Sərəncamından sonra Naxçıvanda bu sahəyə diqqət daha da artırılmış, tarix və mədəniyyət abidələri qısa müddət ərzində yenidən qeydiyyata alınaraq pasportlaşdırılmışdır. Beləliklə Şərur rayonu ərazisində də yeni arxeoloji abidələr qeydə alınmış və sonrakı illərdə aparılan davamlı və mütəşəkkil arxeoloji tədqiqatlar Azərbaycan arxeologiyasında Eneolit və Tunc dövrü kimi mühüm əhəmiyyət kəsb edən tarixi dövrlərə yenidən nəzər salmağa imkan vermişdir.

Ümumiyyətlə son 20 il ərzində qədim Naxçıvan diyarının tarixi və mədəniyyətinin tədqiqi və təbliği sahəsində çox ciddi işlər görülmüşdür. Şərur rayonu ərazisində Oğlanqala, Ovçulartəpəsi, I Maxta, Qızqalası, Ərəbyengicə, Xələc, Aşağı Daşarx, Şortəpə və s. yaşayış yerləri, həmçinin Dizə kurqanları və Qarabulaq nekropolunda arxeoloji tədqiqat işləri həyata keçirilmişdir.

2006-cı ildə Azərbaycan-Amerika birgə arxeoloji ekspedisiyası tərəfindən Şərur rayonu ərazisində arxeoloji tədqiqatlar təşkil olundu. AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin rəhbərliyi ilə hər il aparılan bu tədqiqatlar hələdə davam etməkdədir. Bu illər ərzində Dəmir və Antik dövrlərə aid Oğlanqala və Orta tunc dövrünə aid Qızqala abidələrində geniş



araşdırmalar aparılmış və qeyd olunan dövrlərə aid zəngin maddi-mədəniyyət nümunələri və tikili qalıqları aşkar edilmişdir.

Oğlanqala abidəsi demək olar ki, Naxçıvan Muxtar Respublikasında Dəmir dövrünün dərindən tədqiq edildiyi abidədir. Abidə Şərur rayonunu eyni adlı kəndi ərazisində, Arpaçayın sağ sahilində yerləşir [6, s. 32]. Oğlanqala kəndində hündürlüyü 140 metr olan Qaratəpə dağında nəhəng qala divarları ilə əhatə olunmuş bu qala tipli yaşayış yerində aparılan arxeoloji tədqiqatlar nəticəsində Tunc dövrünün son mərhələsinə aid keramika məmulatı da aşkar olunmuşdur.

AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, AMEA-nın müxbir üzvü V.Baxşəliyevin "Şərq qapısı" qəzetinin 28 aprel 2011-ci il tarixli nömrəsində dərc edilmiş yazısında Oğlanqala abidəsi haqqında geniş məlumat verilmişdir. Burada müəllif qeyd etmişdir ki, Oğlanqala abidəsi hələ XX əsrin 20-30-cu illərindən tədqiqatçıların diqqətini cəlb etmişdir. Yazıda həmçinin Azərbaycanın görkəmli tədqiqatçılarından Ə.Ələkbərov, V.Əliyev, D.Axundovun bu qalada kəşfiyyat xarakterli araşdırmalar aparmaları qeyd olunmuşdur. Sonralar V.Baxşəliyevin özü də bu abidədə 1988-1989-cu illərdə qazıntı işləri həyata keçirmiş və keramika məmulatının və arxitektura qalıqlarının özünəməxsus xüsusiyyətlərinə əsaslanaraq bu qalanın Urartu qalalarından fərqləndiyini və yerli hökmdarlara məxsus olduğunu qeyd etmişdir.

Müstəqillik illərində aparılan araşdırmalarla Oğlanqala abidəsi yenidən geniş tədqiqatlara cəlb edildi. Bu dəfə artıq uzunmüddətli qazıntı işlərinin nəticəsində təkcə azərbaycanlı alimlər yox, həm də Amerikanın Pensilvaniya və Emori universitetlərinin mütəxəssisləri də Oğlanqala abidəsinin tarixi ilə bağlı fikirlərini söylədilər. Bir sıra mötəbər konfrans və elmi nəşrlərdə Oğlanqala abidəsinin Urartu şəhəri olmadığı və onun Şərur düzənliyini əhatə edən kiçik bir dövlətin paytaxtı olması təsdiq olunmuşdur.

Qədim Şərur bölgəsinin çoxtəbəqəli yaşayış yerləri qədim tariximizin öyrənilməsi üçün dəyərli mənbədir. Aparılan araşdırmalar göstərir ki, erkən əkinçilik və maldarlıq mədəniyyətlərinin formalaşmasında, həmçinin Azərbaycanın Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrində bu bölgədə yerləşən abidələrin böyük əhəmiyyəti olmuşdur. V.Baxşəliyevin fikrincə Eneolit dövrünün sonunu və Kür-Araz mədəniyyətinin başlanğıcını əks etdirən abidələr başlıca olaraq Şərur rayonu ərazisində toplanmışdır. Bu

abidələrin tədqiqi uzun illərdən bəri dünya tədqiqatçılarını düşündürən problemlərin həll olunması üçün, xüsusilə Kür-Araz mədəniyyətinin mənşəyinin araşdırılması üçün olduqca əhəmiyyətlidir.

Qeyd edilən abidələrdən biri də Ovçulartəpəsi yaşayış yeridir. Bu yaşayış yeri də Arpaçay vadisində yerləşən ən möhtəşəm və geniş tədqiq olunan arxeoloji abidələrimizdəndir. Burada əvvəllər də araşdırmalar olmuşdur. Lakin sistemli şəkildə 2006-cı ildən başlayaraq ciddi işlər görülmüşdür. Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyası tərəfindən 2006-2013-cü illərdə təşkil olunan arxeoloji tədqiqat işləri zamanı Eneolit və Tunc dövrlərinə aid zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Tədqiqatlar zamanı aşkar olunan dairəvi və dördkünc formalı evlərin qalıqları [5, s. 21], paleobotaniki və osteoloji qalıqlar, mis və qurğuşun filizinin qalıqları mütəxəssislər tərəfindən öyrənilmiş və aydın olmuşdur ki, Erkən Tunc dövrünə aid evlər Son Eneolit evləri üzərində qurulmuş və bu dövrlərdə əkinçilik və maldarlıq, həmçinin metal və metallurgiya qədim sakinlərin həyatında mühüm rol oynamışdır. Ovçulartəpəsində qazıntı işləri zamanı həmçinin Alt Paleolit dövrünə aid daş əmək alətləri aşkar olunmuşdur ki, bu da insanların bu ərazidə 500-300 min il bundan əvvəl məskunlaşdıqlarını göstərir. Bütün bunlar Ovçulartəpəsi yaşayış yerinin nəinki Azərbaycanda, hətta dünyada ən qədim yaşayış yerlərindən biri olduğunu göstərir.

Son illər Ovçulartəpəsi yaşayış yerində aparılan arxeoloji tədqiqatlar nəticəsində arxeologiya elmində mübahisəli bir məsələyə də aydınlıq gətirmişdir. Belə ki, tədqiqatlar nəticəsində Eneolitdən Kür-Araz mədəniyyətinə keçidin izlənməsi və mədəni təbəqənin qalınlığı Naxçıvanın Kür-Araz mədəniyyətinin əsas vətənlərindən biri olduğunu təsdiq etmişdir.

Bəhs olunan dövrdə tədqiq olunan digər abidələr – Xələc, Ərəbyengicə, Aşağı Daşarx, Şortəpə, I Maxta abidələrində aparılan tədqiqatlarla bölgənin Eneolit, Tunc və Erkən Dəmir dövrünə aid dəyərli maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Əldə olunan keramika məmulatına əsasən Naxçıvanın Yaxın Şərq ölkələri ilə, xüsusilə də Urmiya və Şərqi Anadolu bölgələri ilə qarşılıqlı əlaqələri araşdırılmışdır [11, s. 58]. Məlum olmuşdur ki, Naxçıvanın qədim mədəniyyətləri Yaxın Şərq ölkələri ilə qarşılıqlı əlaqələr şəraitində inkişaf edib formalaşmışdır.



2014-2015-ci illərdə Qızqalası arxeoloji abidəsində qazıntı işləri həyata keçirilmişdir. Bu abidə də Azərbaycan-Amerika birgə arxeoloji ekspedisiyası tərəfindən aparılmışdır. Qazıntı nəticəsində Orta Tunc dövrünə aid zəngin maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

Müstəqillik illərində Şərur rayonu ərazisindəki arxeoloji abidələrdə araşdırma aparan arxeoloqlardan V.Baxşəliyev, A.Seyidov, S.Aşurov, H.Gopnik, L.Ristvet, K.Marro və başqaları tərəfindən Şərurun qədim tarixi ilə bağlı kitablar yazılmış, mətbuatda və beynəlxalq jurnallarda yazılar dərc olunmuşdur. "Naxçıvanda arxeoloji tədqiqatlar", "Qədim Şərur", "Ovçulartəpəsi", "Xələc", "Ərəbyengicə", "Aşağı Daşarx", "Şortəpə" kimi kitablarda Şərur abidələri, bütövlükdə Şərurun qədim dövr tarixi geniş şəkildə verilmişdir.

1996-cı ildə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan", 2009-cu ildə "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan", 2011-ci ildə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" və digər beynəlxalq tədbirlərdə qədim Şərur bölgəsində aparılan arxeoloji tədqiqatlar, abidələrin qədim tarixi və zəngin mədəniyyəti haqqında həm yerli, həm də xarici elm adamlarının çıxışları dinlənilmişdir. Bütün bu qeyd olunanlar müstəqillik illərində Naxçıvan, o cümlədən Azərbaycan arxeologiyasının uğuru kimi qiymətləndirilir və fəxrlə dünya ictimaiyyətinə təqdim olunur.

Son illər ölkəmizin hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da geniş vüsət alan arxeoloji tədqiqatlar nəticəsində muxtar respublika ərazisində qədim mədəniyyətlərin izləri aşkar edilib və bu iş bu gündə davam etdirilir. Demək olar ki, hər il muxtar respublika ərazisində yeni-yeni arxeolji abidələr qeydə alınır. Bu arxeoloji abidələr qədim tarixə malik olmaqla demək olar ki, bütün tarixi dövrləri əks etdirir və bu dövrlər arasında arasıkəsilməz bir əlaqə mövcuddur. Tanınmış tədqiqatçılar tərəfindən Naxçıvan arxeoloji abidələrinin digər ölkələrlə, xüsusilədə Yaxın Şərq ölkələri ilə əlaqələri araşdırılır və tədqiqatlara cəlb edilir.

Müstəqillik illərində muxtar respublika ərazisində, xüsusilədə qədim Şərur bölgəsində aparılan arxeoloji tədqiqatlar nəticəsində dünya, ölkə və yerli əhəmiyyətli abidələr öyrənilmiş və bu abidələr tariximizin, mədəniyyətimizin zənginləşməsinə səbəb olmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan arxeologiyası. Bakı: Xəzər Universiteti, 2010, 197 s.
2. Baxşəliyev.V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
3. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. Bakı: Elm, 2007, 238 s.
4. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 301 s.
5. Baxşəliyev V., Marro C. Ashurov S. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 156 s.
6. Baxşəliyev.V.B., Ristvet L., Gopnik. H., Aşurov. S.H. Naxçıvan Arxeoloji Tədqiqatlar (II Kültəpə, I Maxta Kültəpəsi, Oğlanqala və digər abidələrdə aparılan tədqiqatların ilkin nəticələri). Naxçıvan: "Əcəmi" NPB, 2010, 119 s.
7. Baxşəliyev V.B., Seyidov A.Q. Aşağı Daşarx. Bakı 2012, 186 s.
8. Bakhchaliyev V., Marro C., The Archaeology of Nakhichevan: Ten years of new discoveries. Istanbul: Ege, 2009, 118 s.
9. Seyidov A.Q., Baxşəliyev V.B., Məmmədov S.M., Aşurov S.H. Qədim Şərur. Bakı: Elm, 2012, 466 s.
10. Seyidov A.Q., Baxşəliyev V.B. Ərəbyengicə, Bakı: Nurlan, 2009, 160 s.
11. Seyidov A., Baxşəliyev V. B. Xələc. Bakı: Elm, 2010, 220 s.
12. Seyidov A.Q., Baxşəliyev V.B. Şortəpə. Bakı: Elm, 2013, 200 s.




# MƏDƏNİYYƏT

**Əbülfəz Quliyev**
AMEA Naxçıvan Bölməsi, AMEA-nın müxbir üzvü
E-mail: ebulfezamanoglu@yahoo.com

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNİN ÖYRƏNİLMƏSİ MƏSƏLƏLƏRİ

Azərbaycan dili dünyanın zəngin dillərindn biri olmaqla uzunmüddətli tarixi inkişaf yolu keçmiş,bu dil uzaq keçmişdə xalqımızın ictimai həyatında böyük nüfuz qazanmış, şair və yazıçılar tərəfindən təkmilləşdirilərək bu günkü vəziyyətə gəlib çıxmışdır. Müəyyən dövrlərdə çox ciddi təzyiqlərə məruz qaldığından dövlət dili anlayışı ancaq müstəqillik dövründə real məzmun kəsb etməyə başlamışdır. Müstəqillik dövründə dövlət dili səviyyəsinə yüksəlmiş ədəbi dilimizin hərtərəfli fəaliyyəti üçün geniş imkanlar yaradılmış, onun tətbiqi və inkişafı dövlət qayğısı ilə əhatə olunmuşdur. Müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsində Azərbaycan prezidenti ümummilli lider Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanı tarixi rol oynamışdır.Dilimizin qorunması və inkişaf etdirilməsi sahəsində ölkə prezidentinin 9 aprel 2013-cü il tarixdə təsdiq edib imzaladığı "Azərbaycan dilininin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət proqramı" haqqında dövlət sənədi mühüm siyasi və elmi əhəmiyyətə malikdir.

Məlumdur ki, dialekt faktları dilin tarixinin canlı nümunələridir. Eyni zamanda milli ədəbi dilimizin formalaşmasında yerli dialekt və şivələrin də öz rolu vardır. Ona görə də Azərbaycan dilinin dialekt və şivələri hələ XIX əsrdə elm adamlarının diqqətini cəlb etmiş,görkəmli Azərbaycan alimi Mirzə Kazımbəy ilk dəfə 1839-cu ildə Kazan şəhərində nəşr olunmuş "Türk-tatar dillərinin ümumi qrammatikası" əsərində Azərbaycan dilinin dialekt və şivələrindən də bəhs etmiş,burada Quba və Dərbənd dialektlərindən bəzi nümunələr vermişdir.Azərbaycan dilinin dialekt və şivələrinin tədqiqinə həsr olunmuş ayrıca tədqiqat əsərini isə N.Aşmarin 1926-ci ildə nəşr etdirmişdir.Belə ki,onun "Nuxa şəhəri türk şivələrinin ümumi icmalı" adlı əsəri dialektoloji tədqiqatların tarixində ilk monoqrafik əsər sayılır. Aşmarinin ümumi rəhbərliyi altında yerlərə göndərilən proqram və təlimat əsasında 1930-cu ilə qədər Naxçıvan bölgəsi də daxil. Azərbaycanın müxtəlif dialekt və şivələrinə aid 60 minə yaxın leksik vahid toplanmışdır. Toplanan materiallar əsasında "Azərbaycan türk xalq şivələri lüğəti" adlı əsərin birinci cildi (A hərfi) 1930-cu ildə,ikinci cildi (B hərfi) 1931-ci ildə nəşr olundu. Bundan sonra XX əsrin 30-cu illərində ilk elmi dialektoloji tədqiqat aparan İdris Zaman oğlu Həsənovun fəaliyyəti diqqəti cəlb



edir.Amma o 1937-ci il repressiyasına qurban getdiyi üçün bu iş yarımçıq qalmışdır. Azərbaycan elminə böyük zərbə vuran 37-ci il hadisələrindən sonra bu sahədə bir müddət sakitlik olmuş,elmi tədqiqat aparılmamış, 1943-cü ildə akademik M.Şirəliyev "Bakı dialekti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyasının təşkil olunması və ondan az sonra Dil və Ədəbiyyat İnstitutunun yaradılması dialektologiya sahəsində elmi tədqiqatların canlanmasına səbəb olmuşdur.

Bu elmi araşdırmalar fonunda 50-ci illərdə Azərbaycan respublikasının dialektoloji baxımdan zəngin bölgələrindən biri olan cənub qrupuna daxil olan Naxçıvan Muxtar Respublikasının dialekt və şivələri də elm adamlarının diqqətini çəkmişdir. 1950-55-ci illərdə əsasən akademiyanın dilçi alimləri tərəfindən ekspedisiya yolu ilə bölgənin dialekt və şivələrinə aid külli miqdarda dil materialı toplanmışdır. Təfsilata varsaq 1950-ci ildə B.M.İbrahimov, K.T.Ramazanov, T.B.Həmzəyev, H.A.Bayramov, A.Ə.Aslanov və E.M.Əlibəyzadə Ordubad rayonunun Aza, Bist, Biləv, Vələver, Vənənd, Dəstə, Dırnıs, Əylis, Kələki, Kotam, Gənzə, Nüsnüs, Sabirdizə, Tivi və yenə həmin ildə B.M.İbrahimov, K.T.Ramazanov T.B.Həmzəyev, H.A.Bayramov, A.Ə.Aslanov və E.M.Əlibəyzadə Culfa rayonunun Bəyəhməd, Bənəniyar, Qazançı, Qızılca, Əbrəqunus, Ərəfsə, Ərəzin, Kırna, Saltaq, Ləkətağ, Milax, Noraşen (Göydərə), Teyvaz, Xanağa (Xanəgah), Camaldın, Yaycı şivələrini, 1951-ci ildə K.T.Ramazanov, T.B.Həmzəyev Noraşen (Şərur) rayonunun Alışar, Axura, Qarabağlar, Qıvraq, Dəmirçi, Dizə, Yengicə, İbadulla, Kürçülü, Maxta, Püsyan, Sədərək, Xanlıqlar, Çərçiboğan, Yaycı şivələrini, 1953-cü ildə R.Ə.Rüstəmov, B.M.İbrahimov, K.T.Ramazanov T.B.Həmzəyev və R.Ə.Süleymanov Şahbuz rayonunun Aşağı Qışlaq, Badamlı, Biçənək, Əzizbəyov, Keçili, Kolanı, Kənd Şahbuz, Kulus, Kükü, Mahmudoba, Məzrə, Nurs, Remeşin, Sələsüz, Tırkeş, Şada şivələrini, 1954-cü ildə R.Ə.Rüstəmov, B.M.İbrahimov, K.T.Ramazanov, T.B.Həmzəyev Naxçıvan rayonunun (Babək) Qaraçuq, Qoşadizə, Didivar, Nehrəm, Cəhri, Çeşməbasar, Sirab, Şəkərabad, Naxçıvan (şəhər) şivələrini öyrənmişlər. 1955-ci ildə professor. M.Ş.Şirəliyevin, R.Ə.Rüstəmov, B.M.İbrahimov, K.T.Ramazanov, M.İ.İslamovun iştirakı ilə yekunlaşdırıcı ekspedisiya Naxçıvan Muxtar Respublikasında çalışmışdır.

Dialektoloji tədqiqatlardan aydın olur ki, Azərbaycan,o cümlədən Naxçıvan dialekt və şivələri uzun müddət üç istiqamətdə öyrənilmişdir:

1. Azərbaycan, həmçinin Naxçıvan dialekt və şivələrinin monoqrafik tədqiqidir ki, bu sahədəki işlər prof. M.Şirəliyev, R.Rüstəmov və K.Ramazanov tərəfindən tərtib olunmuş və 1956-cı ildə çapdan çıxmış "Azərbaycan dili dialekt və şivələrinin monoqrafik tədqiqinə aid proqram" əsasında aparılmışdır.

2. Azərbaycan və Naxçıvan Muxtar Respublikasının dialekt və şivələrinin dilçilik coğrafiyası əsasında öyrənilməsidir ki, bu sahədəki işlər prof. M.Şirəliyev və R.Rüstəmov tərəfindən tərtib olunan və 1958-ci ildə çapdan çıxmış "Azərbaycan dilinin dialektoloji atlasının tərtibi üçün toplanmış materialların proqramı" əsasında aparılmışdır.

3. Azərbaycan, o cümlədən Naxçıvan MR dialekt və şivələrinin lüğətinin tərtib olunmasıdır ki, bu istiqamətdə də xeyli işlər görülmüşdür.

Bu proqram və metodik göstərişlər, tədqiqat üsulu ilə tədqiqat işlərini quran elm adamları təkcə 5 ildə Naxçıvan dialekt və şivələrinə aid material toplamaqla kifayətlənməmiş, bu tədqiqatın nəticələri ayrı-ayrı elmi məqalələrdə öz əksini tapmışdır. Dialekt materialları ümumiləşdirilib kitab halına salınanadək dialektoloqlarımızın bu istiqamətdə çap etdirdikləri məqalələrin bəzilərini nəzərdən keçirək: prof. M.Şirəliyevin "Naxçıvan dialekti (ümumi qeydlər)" [1], yenə onun "Şahbuz şivələrinin fonetikası" [2], T.B.Həmzəyev "Ordubad rayonu dialektinin fonetik xüsusiyyətləri" [3], yenə onun "Ordubad dialektinin leksikası haqqında qeydlər" [4], yenə onun "Ordubad dialektinin morfologiyasına aid bəzi qeydlər" [5], K.T.Ramazanovun "Noraşen rayonu şivələrinin bəzi xarakterik morfoloji xüsusiyyətləri haqqında" [6], R.Ə.Süleymanovun "Ordubad və Culfa rayon şivələrinin leksik xüsusiyyətləri" [7], R.Rüstəmovun "Şahbuz şivələrinin sintaksisi" [8], A.Həsənovun "Ordubad dialektinin bəzi xarakterik leksik və morfoloji xüsusiyyətləri" [9] adlı məqalələdi və s.

Həmin dövrdə yuxarıda göstərilən elmi məqalələrin nəşri Naxçıvan dialekt və şivələrinin geniş tədqiqi istiqamətində atılan əməli addımlar idi. Məhz bu araşdırmaların ümumi yekunu olaraq 1962-ci ildə M.Şirəliyevin redaktorluğu ilə "Naxçıvan MSSR-in dialekt və şivələri" adlı elmi monoqrafiya işıq üzü gördü [10]. Həmin monoqrafiyada Naxçıvan qrupuna daxil olan dialekt və şivələrin fonetik, leksik, qrammatik xüsusiyyətlərinə dair elmi araşdırmalar öz əksini tapmışdır. Müqayisəli-tarixi üsuldan istifadə edilərək yazılan bu monoqrafiya Azərbaycan dialektologiyasının tarixində yeni bir mərhələ təşkil edir. Bir çox materiallar qohum dillərin faktları, türk dillərinə aid qədim yazılı mənbələr, Azərbaycan klassik ədəbiyytının materialları ilə müqayisə edilmişdir. Onu da qeyd etmək lazımdır ki, əsər kollektiv əməyin nəticəsi olaraq meydana çıxmışdır. Belə ki, əsərin ayrı-ayrı hissələri prof. M.Şirəliyev (fonetika), K.T.Ramazanov (morfologiya), R.Ə.Rüstəmov (sintaksis və Şahbuz şivələrinin mətnləri), B.M.İbrahimov (leksika, A-K hərfləri, mətnlər), A.H.Vəliyev (leksika, L-Ş hərfləri, terminlər) tərəfindən işlənib hazırlanmışdır.

Sonrakı dövrlərdə də Naxçıvan dialekt və şivələrinin tədqiqi ilə bir sıra alimlər məşğul olmuş, bu mövzuda nonoqrafiya və namizədlik dissertasiyası yazmışlar. Bunlardan T.Həmzəyev, K.İmamquliyeva, Ə.Quliyev,



M.Zeynalov, M.Əhnədovun xidmətini xüsusilə qeyd etmək lazımdır. Belə ki, T.Həmzəyev Ordubad dialektini [11], Ə.Quliyev Şahbuz şivələrini [12], M.Zeynalov dialekt və şivələrimizin məişət leksikasını [13], K.İmamquliyeva Şərur rayon şivələrini [14], M.Əhmədov Naxçıvan bölgəsinin dialekt leksikasını [15] tədqiq etmişlər.

Ümummilli liderimiz Heydər Əliyevin 7 avqust 2002-ci ildə imzaladığı sərəncamla AMEA-nın Naxçıvan Bölməsi təşkil olunmuşdur. Naxçıvan regionunun maddi və mənəvi sərvətlərini daha effektli şəkildə öyrənmək bölmənin 6 elmi-tədqiqat müəssisəsi qarşısında bir vəzifə olaraq qoyulmuşdur. Bu elmi-tədqiqat institutlarından biri də İncəsənət, Dil və Ədəbiyyat İnstitutudur. 7 şöbəsi olan bu institutun Dilçilik şöbəsinin plan işininin mövzusu Naxçıvan dialekt və şivələrini əsaslı surətdə yenidən elmi şəkildə tədqiq etməkdən ibarətdir. Keçən müddət ərzində 4 elmi işçisi olan şöbənin əməkdaşları vaxtaşırı əraziyə elmi ekspedisiya təşkil etmiş, müəyyən miqdarda dialekt materialı toplamış, bu materialları kameral şəkildə öyrənmişlər. Artıq bu tədqiqatın bəzi nəticələri məqalə şəklində nəşr edilmişdir [16]. Eyni zamanda "Naxçıvan dialekt və şivələri" adlı türkcə monoqrafiya (Nahçıvan ağzı) şöbənin əməkdaşı, müxbir üzv Əbülfəz Quliyev tərəfindən Ankaradakı Türk Dil Qurumu nəşriyyatında iri həcmdə nəşr edilmişdir [17]. Əbülfəz Quliyev Türkiyədə eyni zamanda "Nahçıvan ağızlarının söz varlığı" kitabını da nəşr etdirmişdir [18]. Şöbənin əməkdaşı Nuray Əliyeva elmi-tədqiqatlarını başa çatdırıb 2010-cu ildə "Azərbaycan dilinin Şahbuz şivələri" mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. O eyni zamanda" Şahbuz şivələri" adlı monoqrafiya nəşr etdirmişdir [19]. Bunan əlavə, N.Əliyevanın Almaniyada rus dilində "Naxçıvan şivələrinin frazeologiyası" adlı monoqrafiyası da nəşr olunmuşdur [20]. Şöbənin digər əməkdaşı Rəşad Zülfüqarov Ordubad və Culfa rayonlarının dialekt və şivə xüsusiyyətlərinin tədqiqi ilə məşğuldur. Rəşad Zülfüqarov bu sahədəki araşdırmalarını başa çatdıraraq filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün 28.11.2015-ci il tarixdə NDU nəzdindəki Dissertasiya şurasında müvəffəqiyyətlə dissertasiya müdafiə etmişdir [21]. Bundan əlavə, şöbə əməkdaşı Əbülfəz Quliyev Nəsimi adına Dilçilik İnstitutunun əməkdaşları ilə birlikdə "Naxçıvan dialekt və şivələrinin atlası" kitabını nəşr etdirmişdir [22].

Müstəqillik dövrü Azərbaycan dilçiliyi üçün bir hadisə səciyyəsi daşıyan bu atlas haqqında bir qədər ətraflı bəhs etmək istəyirik. Qeyd etmək lazımdır ki, Azərbaycan dili dialektlərinin dilçilik coğrafiyası üsulu ilə öyrənilməsinə XX əsrin təxminən 50-ci illərində başlanmışdır. Belə ki, 1958-ci ildə "Azərbaycan dilinin dialektoloji atlasının tərtibi üçün toplanan materialların proqramı" çap edilir və bu proqrama uyğun olaraq dilimizin Azərbaycan respublikası ərazisindəki bütün şivələrini əhatə edən atlasın

tərtib edilməsi üçün material toplanması işi başlayır. Ulu öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi ilə respublikada elm və mədəniyyət məsələlərinə diqqət artırılmışdı. Bunun əyani ifadəsi kimi 1970-ci ildə Elmlər Akademiyasının tərkibində yenidən müstəqil Dilçilik institutunun fəaliyyətə başlamasını göstərə bilərik. Bu kontekstdə dialektoloji atlas işi də sürətləndirilmiş və bu elmi müəsssisədə 1975-ci ildə 128 xəritədən ibarət olan Azərbaycan dilinin dialektoloji atlasının tərtibi işi başa çatdırılmışdır. Heydər Əliyevin mərkəzə işə göndərilməsi ilə əlaqədar bu layihə üzərində iş uzanmış və nəhayət, 1990-cı ildə "Azərbaycan dilinin dialektoloji atlası" işıq üzü görə bilmişdir. Azərbaycan dilçiliyinin parlaq bir səhifəsini təşkil edən bu əsər türkologiyada dialektoloji atlasın ilk nümunəsini təşkil edirdi. Həmin atlas ölkə prezidenti İlham Əliyevin "Azərbaycan diində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı əsasında 2008-ci ildə "Şərq-Qərb" nəşriyyatında təkrar nəşr olunmuşdur.

Məlum olduğu kimi, ölkə prezidentinin 9 aprel 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda da Azərbaycan dilinin müxtəlif dialektlərinin müasir dövrün tələblərinə uyğun olaraq öyrənilməsinin təmin edilməsi nəzərdə tutulmuşdur. Bu baxımdan AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu əməkdaşlarının Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu əməkdaşları ilə birgə hazırladığı 2015-ci ildə işıq üzü görmüş(yenidən işlənib təkmilləşmiş nəşri 2016-cı ildə həyata keçirilmişdir)"Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" dilçiliyin inkişafına dair Dövlət Proqramının yerinə yetirilməsi istiqamətində mühüm bir nailiyyət kimi dəyərləndirilə bilər. Ə.Quliyev, Z.Xasiyev, K.İmanquliyeva, K.Əliyeva, Q.Qəmbərova, M.Məmmədov tərəfindən tərtib edilmiş, 151 yaşayış məntəqəsindən toplanmış dialektoloji material əsasında hazırlanmış və 250 xəritəni əhatə edən bu dialektoloji atlasın diqqətəlayiq cəhətlərindən biri də 4 dildə (azərb,türk,rus və ingilis dillərində) tərtib olunmasından ibarətdir. Şübhəsiz ki, bu cəhət atlasın istifadə dairəsinin daha geniş olmasına əyani şərait yaradacaqdır.

Haqqında bəhs olunan dialektoloji atlasın quruluşu belədir: material toplanmış yaşayış məntəqələrinin siyahısı və xəritələrdəki kodu, proqramda və xəritələrdə istifadə olunmuş şərti işarələr, atlasın tərtibi üçün toplanan materialların proqramı, dialektoloji xəritələr (250 xəritə), yaşayış məntəqələri üzrə informatorların siyahısı, atlas qrupu üzvlərinin fəaliyyətinə və informatorlara aid şəkillər, informatorların səsi yazılmış kompakt disk. Bunlardan başqa, dialektoloji atlasda Naxçıvan Muxtar Respublikasının təbiətinə, tarixi abidələrinə,etnoqrafiyasına aid çoxlu şəkillər də öz əksini tapmışdır.



Dil faktlarının xəritələrdə verilməsində müxtəlif rəngli dairəciklərdən istifadə olunmuşdur. Xəritələrdə, bir qayda olaraq, ədəbi dillə iyğun gələn formalar qara rəngli dairəciklərlə işarələnmişdir. Dialekt fərqləri isə qırmızı, göy, yaşıl, sarı, bənövşəyi, qəhvəyi dairəciklərlə işarələnmişdir. Dialektoloji atlasda Naxçıvan dialekt və şivələrinin bütün xüsusiyyətləri deyil, bir şivəni digərindən fərqləndirən, izoqlos təşkil edən, dilimizin tarixi üçün əhəmiyyətli olan fonetik,qrammatik və leksik xüsusiyyətlər əks olunmuşdur. Atlasda 64 xəritə fonetik xüsusiyyətlərə, 111 xəritə morfoloji xüsusiyyətlərə, 19 xəritə sintaktik, xüsusiyyətlərə, 56 xəritə isə leksik xüsusiyyətlərə aiddir. Dialektoloji atlasda dilin inkişafının müxtəlif dövrlərinə aid olan dil hadisələri (izoqloslar) əks olunur. Xəritələr müasir dialekt və şivələrin qədim tayfa dilləri ilə əlaqəsini, ayrı-ayrı dil hadisələrinin etnik mənsubiyyətini müəyyənləşdirməyə, bu və ya digər əlamətin müəyyən bir ərazidə əmələ gəlməsinin səbəbini aydınlaşdırmağa,yeni elmi nəticələr çıxarmağa kömək edir. "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası"nda leksikaya aid xəritələr dilimizin lüğət tərkibinin zənginliyi, onun tarixi inkişafı, başqa dillərlə qədim əlaqələri, leksik vahidlərin yaranma yolları haqqında mövcud təsəvvürləri daha da genişləndirir ."Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" kitabının digər bir üstün məziyyəti ondan ibarətdir ki,1990-cı ildə nəşr olunmuş "Azərbaycan dilinin dialektoloji atlası"nda material toplanmış yaşayış məntəqələrinin adları kodların sırasına uyğun bir şəkildə deyil, əlifba sırası ilə verilmişdir ki, bu da kodun hansı yaşayış məntəqəsinə aid olduğunu tapmaqda xeyli çətinlik törədirdi. Bu yaxşı haldır ki, "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası"nda bu qüsur aradan qaldırılmış, yaşayış məntəqələrinin adları kodların sırasına uyğun bir şəkildə verilmiş və beləliklə, atlasdan istifadədə heç bir çətinlik qalmamışdır [23, s. 137].

Sonda onu da qeyd edək ki, şöbənin qarşısında gələcəkdə Naxçıvan Muxtar Respublikasının qonşuluğundakı Cənubi Azərbaycana aid dialekt və şivələri öyrənmək vəzifəsi də dayanmaqdadır.

Azərbaycanın "sarsılmaz və dönməz" (Heydər Əliyev) olan siyasi müstəqilliyi həyatımızın bütün sahələrində yüksəliş üçün mühüm zəmin olduğu kimi milli mədəniyyətimizin, elmimizin inkişafında da yeni və geniş üfüqlər açmışdır.

## ƏDƏBİYYAT


1. Şirəliyev M. Naxçıvan dialekti (ümumi qeydlər) // Azərb.SSR EA "Xəbərləri", 1949, №5
2. Şirəliyev M. Şahbuz şivələrinin fonetikası // Ədəbiyyat və Dil İnstitutunun əsərləri, NO:VIII,1957
3. Həmzəyev T.B. Ordubad rayonu dialektinin fonetik xüsusiyyətləri // Azərb. SSR EA "Xəbərləri", 1953, NO:7

4. Həmzəyev T.B. Ordubad dialektinin leksikası haqqında qeydlər // Azərb. SSR EA "Xəbərləri" (ictimai elmlər seriyası), 1958, NO: 2
5. Həmzəyev T.B. Ordubad dialektinin morfologiyasına aid bəzi qeydlər // S.M.Kirov adına ADU-nun "Elmi əsərləri", 1958, NO:4
6. Ramazanov K.T. Noraşen rayonu şivələrinin bəzi xarakterik morfoloji xüsusiyyətləri haqqında // Ədəbiyyat və Dil İnstitutunun əsərləri, 1953, V cild
7. Süleymanov R.Ə. Ordubad və Culfa rayonu şivələrinin leksik xüsusiyyətləri // Ədəbiyyat və Dil İnstitutunun əsərləri, 1953, V cild.
8. Rüstəmov R.Ə. Şahbuz şivələrinin sintaksisi // Ədəbiyyat və Dil İnstitutunun əsərləri, NO:VIII, 1957
9. Həsənov A. Ordubad dialektinin bəzi xarakterik leksik və morfoloji xüsusiyyətləri // S.M.Kirov adına ADU-nun "Elmi əsərləri", dil və ədəbiyyat seriyası, 1957, NO:6
10. Naxçıvan MSSR-in dialekt və şivələri. Bakı: Azərb. EA nəşriyyatı, 1962
11. Həmzəyev T.B. Ordubad dialekti, namizədlik dissertasiyası. Bakı, 1962
12. Quliyev Ə.M. Şahbuz şivələrinin leksikası, namizədlik dissertasiyası, Bakı, 1984
13. Zeynalov M.Ə. Məişət leksikası (Naxçıvan qrupu dialekt və şivələrinin materialları əsasında), namizədlik dissertasiyası, Bakı, 1983
14. İmamquliyeva K.H. Şərur rayon şivələri, namizədlik dissertasiyası, Bakı, 1987
15. Əhmədov M. Naxçıvan şivələrinin lüğəti, Atalar sözləri, Bakı: Atilla, 2001
16. Quliyev Ə.A. Naxçıvan dialekt və şivələrinin bəzi leksik xüsusiyyətləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Humanitar və ictimai elmlər seriyası, 2006, №4; İsmayıl Z. Naxçıvan dialekt və şivələrində qohumluq terminləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Humanitar və ictimai elmlər seriyası, 2006, №4; Yenə onun. Babək rayonunda bəzək və naxış adı bildirən terminlər // NDU-nun Elmi əsərləri, 2008, №4 (24), s. 221-226; Yenə onun. Babək şivələrində toxuculuq alətlərinin adını bildirən terminlər // Filologiya məsələləri, 2009, №1, s. 196-204; Yenə onun. Babək şivələrində toxuculuq terminləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Humanitar və ictimai elmlər seriyası, 2009, №1, s. 189-195; Yenə onun. Cəlil Məmmədquluzadə yaradıcılığında dialektizmlərdən istifadə // Cəlil Məmmədquluzadə: taleyi və sənəti. Bakı: Elm və Təhsil, 2010, s. 175-182; Əliyeva N.Y. Şahbuz şivələrində səs əvəzlənmələri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Humanitar və ictimai elmlər seriyası, №4; Zülfüqarov R. Ordubad dialektində səs dəyişmələri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Humanitar və



ictimai elmlər seriyası, 2007, №1; Yenə onun. Ordubad dialektində yabanı göyərti, ot adları // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Humanitar və ictimai elmlər seriyası, 2010, №1; Yenə onun. Ordubad dialektində əlamətlərinə görə heyvanlara verilən adlar haqqında // AMEA NB Xəbərləri. Humanitar və ictimai elmlər seriyası, 2013, №3, s.140-146
17. Gülensoy T, Quliyev E., Küçüker P. Nahçıvan ağzı, Ankara: TDK yayınları, 2010
18. Guliyev E. Nahçıvan ağızlarının söz varlığı, Ankara: Kültür ve Turizm Bakanlığı yayınları, 2011
19. Əliyeva N. Şahbuz rayon şivələri, Bakı: Elm və təhsil nəşriyyatı, 2013
20. Əlyeva N. Naxçıvan şivələrinin frazeologiyası (rus dilində). Berlin, 2015
21. Zülfüqarov R.Ə. Naxçıvan dialekt və şivələrinin terminoloji leksikası (Ordubad və Culfa rayonlarının materialları əsasında), filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün tədim edilmiş dissertasiyanın avtoreferatı, Naxçıvan, 2015
22. Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası, Bakı: Elm və təhsil, 2015
23. Əzizov E. Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası, "Türkologiya" j. 2015, NO:3

**Adil Bağırov**
AMEA Naxçıvan Bölməsi, AMEA-nın müxbir üzvü
E-mail: bagirovadil@yahoo.com

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVANDA YER ADLARININ TƏDQİQİ

Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərpasından sonra xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında mühüm hadisələr baş verdi. Həyatımızın bütün sahələrində olduğu kimi, doğma dilimizin inkişafı, saflığı və qorunması istiqamətində yeni bir mərhələnin başlanğıcı oldu. Bu dövrdə dilimizin təkmilləşdirilməsi istiqamətində xeyli işlər görüldü, dilimiz və dilçiliyimizin inkişafına dövlət qayğısı artırıldı.

Müstəqillik illərində ilkin olaraq latın qrafikalı əlifbaya keçilməsi haqqında qərar qəbul edildi. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili kimi təsbit edildi. Azərbaycan Respublikası Prezidenti, ulu öndərimiz Heydər Əliyev 2001-ci ildə (18 iyun) "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", 2001-ci ildə (9 avqust) "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" tarixli fərmanlarını imzaladı, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü ildə (12 yanvar) "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamlar verdi. Prezident 2012-ci ildə (23 may) "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında", 2012-ci ildə (29 may) "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi texniki bazasının gücləndirilməsi haqqında" tarixi sərəncamları imzaladı. Bu sərəncamlar və sərəncamlardan irəli gələn vəzifələrlə əlaqədar xalqımızın tarixi, dili, coğrafiyası, etnogenezi və etnoqrafiyası, dil tarixi, dialektologiya sahəsində fundamental əsərlər meydana çıxdı. Dilçiliyimizin gənc sahəsi olan onomastikanın elmi-nəzəri problemlərinin bütün kateqoriyaları üzrə öyrənilməsi, onomastik vahidlərin regionlar üzrə toplanılıb qruplaşdırılması, elmi-linqvistik şəkildə tədqiqi, unudulub sıradan çıxmış adların bərpası, xalqımızın milli mənəviyyatı ilə bağlı yeni adların yaradılması, keçmiş dövlət qurumlarının ideologiyası ilə bağlı verilmiş adların dəyişdirilməsi, yer-yurd adlarının elmi-linqvistik şəkildə tədqiqi və digər sahələrdə çox əhəmiyyətli və dəyərli işlər görüldü.



Müstəqillik illərində Azərbaycan onomastik vahidlər sisteminin tərkib hissəsi olan Naxçıvan toponimlərinin əsaslı və elmi şəkildə öyrənilməsi öz axarına düşdü. Məlumdur ki, Azərbaycan dilində yer-yurd adlarının öyrənilməsinə keçən əsrin 1960-1970-ci illərindən başlanılsa da, 1990-cı ilə qədər Naxçıvan Muxtar Respublikası ərazisindəki onomastik vahidlər haqqında ara-sıra məqalələr yazılmış, bu söz qrupları bütün kateqoriyaları üzrə xüsusi tədqiqat obyektinə çevrilməmiş və sistemli şəkildə öyrənilməmişdir. Ancaq Azərbaycan Respublikasında müstəqillik bərpa olunduqdan sonra dilçiliyimizin bütün sahələrində olduğu kimi, onomastik vahidlər sisteminin tədqiqi istiqamətində də mühüm işlər görüldü. Bu illər ərzində Naxçıvan onomastik vahidlər sistemi kompleks şəkildə elmi-linqvistik tədqiqata cəlb olundu. Odur ki, indiyə qədər Naxçıvan onomastik vahidlərinin öyrənilməsini 1990-cı ilə qədərki və 1990-cı ildən sonrakı dövrlərə ayırmaq olar.

Birinci dövrdə tanınmış dilçi alim A.Həsənov "Coğrafi adlarda tarixin izləri" [34, s. 19-27], "Dərəşam toponimi haqqında" [35, s. 60-66], "О некоторых ойконимах Нахичеванской АССР" adlı məqalələrində [40, s. 11-13] Naxçıvan ərazisindəki toponimlərin tədqiqinin bünövrəsini qoymuş, xeyli yer-yurd adlarının etimoloji təhlilini vermişdir. Görkəmli dilçi alim A.Axundov "Torpağın köksündə tarixin izləri" adlı kitabında xalqımızın təşəkkülü, dili, tarixi üçün maraqlı olan toponim və hidronimləri dil mənsubiyyətinə görə qruplaşdırmış, Naxçıvan, Əlincə, Qarabağlar, Küngüt (Günnüt- A.B.), Muğan, Muğanlı, Muğancıq Mehrab, Muğancıq Müslüm, Yengicə, Keçəldağ, Bağırsaqdərə, Salvartı, Axura çayı, Araz çayı və digər toponim və hidronimlərin mənşəyini linqvistik və tarixi baxımdan araşdıraraq qiymətli fikirlər söyləmişdir [2]. Müəllif "Naxçıvan sözünün mənşəyi" adlı məqaləsində toponim haqqında söylənilən fikirləri saf-çürük etmiş, bu adın kökünü başqa xalqların dili ilə bağlayanlara layiqli cavab vermiş və belə nəticəyə gəlmişdir ki, Naxçıvan sözünün mənşəyi elamlara mənsub allah adı (Nahhunte) ilə bağlı yaranmışdır. Bu şəhərin ilkin adı Nahhuntevan olmuş və yerli türk əhalisi Naxçıvan şəklinə salmışdır [1, s. 46-50].

Azərbaycan onomastika məktəbinin banisi A.Qurbanovun təşəbbüsü və rəhbərliyi ilə respublika ərazisindəki onomastik vahidlər toplanılıb tədqiqata cəlb edilmiş, Azərbaycan onomastikası problemlərinə həsr olunmuş elmi-nəzəri konfranslar keçirilmiş, bu sahədə fundamental işlər görülmüşdür. Onun xeyli sayda məqalələri və "Azərbaycan dilinin onomalogiyası" (Bakı, 1988) adlı fundamental əsəri onomalogiyanın elmi-nəzəri problemlərini şərh etmək baxımından çox qiymətlidir [46]. A.Qurbanovun müstəqillik illərində çap etdirdiyi "Azərbaycan onomalogiyasının əsasları" adlı ikicildlik monoqrafiyasında onomalogiyanın ümumnəzəri məsələləri,

elmi əsasları izah edilmiş, müasir onomastikanın tərkib hissələri şərh olunmuş, onomastik vahidlərin orfoqrafik və orfoepik problemlərinin aktual məsələləri öz təhlilini tapmışdır [47; 48]. Tarixçi-alim Q.Qeybullayev Azərbaycan toponimləri, xüsusilə etnotoponimlərinin elmi əsaslarla öyrənilməsində çox böyük xidməti olan bir alimdir. Onun müstəqillik illərindən əvvəl və sonra yazdığı sanballı monoqrafiya və məqalələrində Azərbaycanın, o cümlədən Naxçıvanın toponimlərinin bir qisminin yaranma tarixi, yayılma arealları, məna açımı və dil mənsubiyyətlərini elmi şəkildə təhlil etmişdir [41, s. 28-29; 42, s. 80-88; 43, s. 12-14; 44].

Göründüyü kimi müstəqillik illərinə qədər Naxçıvanın yer adlarının öyrənilməsi fraqment xarakter daşımış, müxtəlif səpkili yazılarda yer-yurd adlarının toplanılması, növləri üzrə qruplaşdırılması, dil mənsubiyyətinin aydınlaşdırılması, məna açımının təhlili və digər məsələlər sistemli şəkildə tədqiq olunmamışdır. Ancaq bundan fərqli olaraq 1990-cı ildən sonrakı dövrdə tədqiqatçılar yeni arqumentlər əsasında əvvəlcədən başladıqları yaradıcılıq işlərini davam etdirmiş və milli mənəviyyatımız, tarixi adlarımızın öyrənilməsində dəyərli kitab və monoqrafiyalar yazmışlar. Bu baxımdan B.Budaqovun "Türk uluslarının yer yaddaşı" [24], Q. Qeybullayevlə birlikdə yazdığı "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" adlı tədqiqat əsərləri diqqəti cəlb edir. Müəllif bu əsərlərdə ümumtürk, ümumazərbaycan toponimləri içərisində Naxçıvanla bağlı toponim və hidronimlərin mənşəyini tədqiqata cəlb etmiş, Naxçıvan bölgəsinin siyasi və etnik tarixi ilə yanaşı, bölgənin coğrafi arealına daxil olan yer-yurd adlarınının yaranma tarixi, yerləşmə coğrafiyası və elmi izahını verilmişdir [25]. Toponimçi-alim T.Əhmədoun "El-obamızın adları" kitabında 300-ə yaxın yaşayış məntəqə adlarının yaranma və formalaşma yolları izah edilmiş, struktur-semantik xüsusiyyətləri tədqiq olunmuşdur. Əsərdə Naxçıvanla bağlı *Alışar, Baş Dizə, Qazançı, Qaraqala, Qarğabazar, Qarxun, Qoşadizə, Dizə, Zeyvə, Yamxana, Keçili, Keştaz, Gömür, Nehrəm, Ordubad, Xanəgah, Xələc, Xəlilli, Xok, Çərçiboğan, Şada* və digər oykonimlərin yaranma və formalaşma yollarını elmi əsaslarla təhlil etmişdir [27]. Müəllif Azərbaycanın müstəqilliyinin ilk illərində (1991-ci ildə) nəşr etdirdiyi "Azərbaycan toponimikasının əsasları" adlı dəyərli monoqrafiyasında Azərbaycan toponim və hidronimlər sisteminin elmi-nəzəri məsələləri, tədqiqi tarixi, yaranma və təkamül yolları, leksik-semantik və qrammatik xüsusiyyətlərin etimoloji-tarixi aspektdən şərh edilmişdir. T.Əhmədov Naxçıvan ərazisindəki *Xələc, Qazançı, Xanəgah, Badamlı, Sirab, Araz çayı, Böyükdüz dağı, Qapıcıq dağı, Təknədağ, Qabaqdağ, Kırna, Əbrəqunus, Disər, Behrud, Düdəngə* və digər toponim və hidronimlərin mənşəyi ilə bağlı yeni arqumentlərlə çıxış etmiş, bu oykonimlərin etimologiyası ilə bağlı fikirlərini bölüşmüşdür [28].



Respublikamızada yer-yurd adlarının öyrənilməsi məsələsi V.Əliyevin elmi yaradıcılığının tərkib hissələrindən birini təşkil edir. Müəllif bir sıra məqalələri və 1999-cu ildə nəşr etdirdiyi "Azərbaycan toponimləri" adlı dərs vəsaitində Azərbaycan toponimiyasının mənbələri, tədqiqi, mənşəyi, quruluşu, əmələ gəlmə və yaranma yollarını araşdırmış, *Naxçıvan, Arbatan, Didivar, Xalxal* və digər coğrafi adlarla bağlı dəyərli fikir və mülahizələr irəli sürmüş, Cənubi Azərbaycan və Qərbi Azərbaycan toponimlərinin lüğətini vermişdir [29].

Azərbaycan toponimlərinin tədqiqi sahəsində coğrafiyaşünas alim N.Məmmədovun tədqiqatları da mühüm yer tutur. Onun müxtəlif məqalə və monoqrafiyalarında "Azərbaycanın yer adları", "Azərbaycan Respublikasının oronimləri" və digər əsərlərində *Saltaq, Teyvaz, Abdal dağı, Biçənək aşırımı, Boyəhməd dağı, Əlincə dağı, Kəngərli düzü, Kolanı dağı, Xələc dağı, İlandağ, Qapıcıq, Salvartı, Batabat təpəsi, Kömürlü dağ, Qaraçal dağı, Vəlidağ, Qızılboğaz, Qılıncyurd dağı, Dibəkli dağı* və s. kimi coğrafi adları müsbət və mənfi relyef formalarına, dil mənsubiyyətlərinə, nominasiyalarına görə təsnif edilmiş və məna açımı haqqında tarixi və etimoloji analiz verilmişdir [49; 50].

Azərbaycanın müstəqillik qazandıqdan sonra N.Əsgərovun da elmi fəaliyyətində yer-yurd adlarının öyrənilməsi xüsusi yer tutmuşdur. O, "Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri" adlı monoqrafiyasında Azərbaycan ərazisindəki etnotoponimlərin türklər yaşayan ərazilərdəki areallarını araşdırmış və belə qənaət gəlmişdir ki, türk əraziləri üçün xarakterik sayılan *Alban, Alpan, Bayat, Bolqar, Dəmirçi, Əfşar, Xalac, Kəngər, Qaraqoyunlu, Quşçu, Lək, Oğuz, Salur* və digər türk etnonimlərinin izləri Naxçıvanda da yaşamaqdadır [30]. Müəllifin respublikamızın şəhər və rayon adlarının öyrənilməsinə həsr etdiyi "Azərbaycanın makrotoponimləri" adlı dəyərli elmi əsərində isə *Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur* rayonlarının yaranma tarixi, coğrafi ünvanı, adlarının əmələ gəlmə və yaranma yolları tarixi-linqvistik baxımdan təhlil olunur [31, s. 304-350].

Tədqiqat sübut edir ki, müstəqillik illərində Naxçıvanın yer adlarının sistemli və ardıcıl şəkildə öyrənilməsi, yeni faktlar əsasında müasir toponimik səviyyədə tədqiqi, çox sayda monoqrafiya, kitab və məqalələrin yazılması, bölgənin yer adlarının beynəlxalq qurultay, konfrans və simpoziumlarda təbliği və digər məsələlər birbaşa Naxçıvanda yaşayan tədqiqatçıların adı ilə bağlı olmuşdur. Bu illər ərzində Naxçıvanda həyatımızın bütün sferaları, o cümlədən dilçiliyimizin inkişafı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yaradıcı ziyalılara göstərdiyi yüksək qayğı, yaratdığı elmi mühit tədqiqatçılar üçün geniş imkanlar yaratmış, monoqrafiya və kitablar nəşr edilmişdir. Bunun nəticəsidir ki, 1990-cı ildən bu günə kimi

Naxçıvanın onomastik vahidlər sisteminin öyrənilməsinə həsr olunmuş 2 doktorluq (A.Bağırov, A.İmanlı), 5 namizədlik (F.Rzayev, Q.Hacıyeva, İ.Hüseynov, A.Zeynalova, A.Abbasova) dissertasiyası müdafiə olunmuş, xeyli sayda kitab və məqalələr nəşr edilmiş, bir neçə gənc tədqiqatçı bu işə cəlb olunmuşdur.

Müstəqillik illərində bu sahədə ilk addım tanınmış coğrafiyaşünas S.Babayev tərəfindən atılmışdır. Naxçıvanın təbiətinə, dağ, dərə, çay, göl, bulaq, meşə və səhrasına, flora və faunasına yaxından bələd olan S.Babayevin bölgənin toponimlərinin öyrənilməsində böyük xidmətləri olmuşdur. Onun müstəqillik illərinə qədər yazdığı məqalələri, nəşr etdirdiyi kitab və monoqrafiyalarında Naxçıvanın coğrafi adları haqqında zəngin və maraqlı məlumatlar vardır. Müəllifin 1985-ci ildə yazdığı "Naxçıvanın bəzi etnotoponimləri"adlı məqaləsi (iki məqalə) dilçilik baxımından maraq doğurur. Müəllif hər iki məqalədə tədqiqata cəlb etdiyi coğrafi obyektin məkanını göstərməklə bərabər, həmin yer adının mənşəyi haqqında fikir və mülahizələrini də söyləmişdir. S.Babayev birinci məqaləsində Biçənək toponiminin mənşəyinin Peçenek, Vənənd, Qazançı, Qazan yaylağı toponimlərinin mənşəyinin türkdilli Bolqar tayfalarının adı ilə bağlı olduğunu, Qaraçuq toponiminin "Dədə Qorqud" dastanı ilə bağlı yarandığını, Dəmirçi adının türkdilli Dəmirçilər tayfa adı, Əlincə toponiminin mənşəyinin isə "əlini çək" ifadəsi ilə bağlı olduğunu yazır [13, s. 20-21]. Müəllif eyniadlı ikinci məqaləsində Qaraxanbəyli oykonimi və Əlixanlı məhəllə adlarınınn mənşəyini Kəngərli tayfaları ilə, Xələc oykoniminin mənşəyini Kalac türk qəbiləsinin adı ilə, Kərki toponiminin mənşəyini İraqda yaşayan kərküklərlə, Muğan toponimini isə "muğ və mağ"larla əlaqələndirir [14, s. 26-27].

S.Babayev müstəqillik illərində yazdığı "Naxçıvan Muxtar Respublikasının coğrafiyası" adlı kitabını yeni arqumentlər əsasında ərsəyə çatdırmışdır. Monoqrafiya Naxçıvan toponimlərinin coğrafi baxımdan öyrənilməsində mühüm mənbələrdən biridir. Kitabda Naxçıvan MR-in landşaftın tipoloji təsnifatı, geoloji quruluşu, bölgənin oroqrafiyası, hidroqrafiyası, bitki örtüyü, heyvanat aləmi haqqında elmi araşdırmalar aparılmış və bölgənin dağ və dərələri, su obyekt, flora və faunası ilə bağlı külli miqdarda yer-yurd adları haqda məlumat vermişdir [15]. Müəllif "Əfsanələr diyarı" adlı kitabında "Naxçıvan" sözünün mənşəyi və mənası, diyarın təbiət abidələri, *Üstüpir, Gəlim-gülüm, Daş qala, Qırx qız abidəsi, Qaranquş dağı, Ağ qaya, İlandağ-Haçadağ, Əlincə dağı, Qızlar bulağı, Yeddi bulaq, Asnı bulağı, Gəlin bulaq, Göy-göl* və digər toponim və hidronimlərin mənşəyi ilə bağlı xalq arasında yaşayan əfsanələrə müraciət edir, bəzi toponimlərin mənşəyinin xalq etimologiyası ilə bağlı olduğunu yazır [11].



Müstəqillik illərində S.Babayevin yazdığı ən mükəmməl əsər "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" adlı monoqrafiyasıdır. Müəllifin dastanın ayrı-ayrı boylarında adı çəkilən *Ağ qaya, Altuntaxt, Qara dərə, Qaraçuğ, Qaraquc, Qara dağ, Dərbənd, Dərəşam, Dərəşam suyu, Əlincə qalası, Köksü gözəl, Günortac, Salaxan qayası, Şərur (Şaruk), Göyçə dənizi (Göygöl), Göyçə dağı Qazangöldağ, Qazangöl aşırımı, Qazanköç yaylağı, Qazan yurdu, Qazangöl, Qazan dağ, Qazançı çökəyi, Qazan yoxuşu, Qazan çuxuru, Qazancı kəndi, Böyük düz, Buğa çeşmə, Qara çoban düzü, Dana qalası, Göy dağ, Sarı ağıl, Sarı bulaq, Xanbulağı, Xan yurdu* kimi toponim və hidronimlərin birbaşa dastanla bağlı olduğunu yazır və bəzi toponimlərin mənşəyi ilə bağlı fikirlərini bölüşür [12, s. 83-132].

Elmi fəaliyyətində etnogenez məsələlərinə diqqət yetirən F.Rzayev Naxçıvan ərazisindəki oykonimlərin tədqiqi ilə bağlı əldə etdiyi nəticələri "Əlincə çayı vadisi toponimlərində türk layı" adlı namizədlik dissertasiyasında ümumiləşdirir [51]. O, "Qədim Şərur oykonimlərinin mənşəyi" adlı monoqrafiyasında Şərur ərazisindəki paleotoponimləri yaradan əski türk tayfalarının tarixdəki yeri, yayılma arealını tarixi-filoloji baxımdan tədqiq edir [52]. F.Rzayev "Naxçıvan əhalisinin etnogenezi tarixindən" adlı monoqrafiyasında Naxçıvan əhalisinin etnogenezi, ərazidəki protoazərbaycan tayfalarının (e.ə. VI-III minilliklər) tarixdəki yeri və bu tayfa adlarının daşıdığı mənalar, onların mifik inancları, əraziləri, əski salnamələrdəki yeri tədqiqata cəlb olunmuşdur [53].

Gənc tədqiqatçı Q.Hacıyevanın Cənubi Azərbaycan toponimiyasının tədqiqinə həsr etdiyi "Güney Azerbaycanın doğusundakı yer adları" monoqrafiyasında Cənubi Azərbaycanın *Almalı, Məscidli, Pişıklı, Çiçəkli, Laləli, Aşıqlı, Çapanlı, Çıraqlı, Qaraağaclı, Şəkərli, Günlü, Mollalı, palıdlı, Fındıqlı, Gəbəli, Dovşanlı, Xəlifəli, Şamlı, Aslanbəyli, Əhmədabad, Əşrəfabad* və s kimi şəhər, qəsəbə və kənd, *Ovluq, Erşed, Curu, Başdağ, Qaflan, Mişov, Mazuk, Menber, Murov, Oğlan, Buzdağı, Çaldağ, Cam dağı, Divan, Əlincə qala, Bəzz qalası* və s. kimi dağ və qala, *Dibsiz, Göl, Daş çeşmə, Qanlı bulaq, Qoşa bulaq, Asma bulaq, Salyanlı çayı, Buğcul çayı, Gümüşqışlaq çayı, Aydoğmuş çayı, Sis çay, Sınıq çay* və s. kimi çay, göl və bulaq adları tarixi-linqvistik planda təhlil olunmuşdur [32]. Müəllif "Dilimiz, tariximiz, yaddaşımız" adlı kitabında isə Naxçıvan toponimiyasında qədim türk etnonimlərinin (Biçənək, Türkeş, Külüs, Keçili, Kolanı) izləri, Güney Azərbaycanda farslaşdırılmış qədim türk toponimləri, "Kitabi-Dədə Qorqud" dastanında Güney Azərbaycan toponimləri və digər yer-yurd adlarının məna və mənşələrinin araşdırılmasına xüsusi diqqət yetirmişdir [33].

A.İmanlının "Şərur düzünün toponimləri" adlı kitabında Şərur düzünə daxil olan oykonimlərin etimologiyası, leksik-semantik xüsusiyyətləri,

yaranma yolları, linqvistik əlamətləri araşdırılmışdır [38]. Müəllifin "Şərur və İğdır bölgələrinin yer adları" adlı monoqrafiyasında da Şərurun dağlıq, dağətəyi, Kəngərli, Sədərək bölgələrinin və Türkiyə Cümhuriyyətinin İğdır bölgəsinin ərazilərinə daxil olan oykonimlərin mənşəyi araşdırılmış, onların leksik-semantik xüsusiyyətləri təhlil olunmuşdur [39]. A.İmanlı "Onomastika məsələləri" adlı kitabında indiyə qədər dediklərini ümumiləşdirmiş və bölgənin türk mənşəli toponimik adlarını elmi-linqvistik tədqiqata cəlb etmişdir [37].

Tədqiqat sübut edir ki, müstəqillik illərində Naxçıvan toponimlərinin tədqiqinə maraq xeyli dərəcədə artmış, tədqiqatçılar müxtəlif səpgili kitab və məqalələrində bölgənin yer-yurd adları, xüsusən də ayrı-ayrı yaşayış məntəqə adları, eləcə də Araz çayı, Arpaçay, Qanlı göl kimi hidronimlərin mənşəyinə müasir toponimik səviyyədə yanaşmış, toponimlərin mənşəyi ilə bağlı maraqlı konsepsiyalar irəli sürmüşlər. Bu baxımdan Q.Budaqovanın "Naxçıvan Muxtar Respublikasının toponimləri" [26] Ə.Quliyevin "Naxçıvan sözünün mənşəyi haqqında" [45, s. 27-30], L.Hüseynzadənin "Nəxcir əfsanəsi" [36, s.139-140], İ.Hüseynovun "Ordubad rayonunun etnonimlərilə bağlı onomastik vahidləri" [7, s. 51-54] və digər monoqrafiya və məqalələrdə, eləcə də dilimizin onomastikası problemlərinə həsr olunmuş elmi konfranslarda [3; 4; 5; 6; 7; 8; 9; 10] Naxçıvanın yer-yurd adları ilə bağlı dəyərli fikirlər söylənilmiş, maraqlı linqvistik təhlillər aparılmışdır.

Yuxarıdakı xülasədən aydın olur ki, qeyd etdiyimiz kitab və məqalələrdə Naxçıvanın, ancaq bir zonasının xüsusi adlarının bir qismi tədqiqata cəlb edilmiş, bu məsələyə müxtəlif prizmalardan yanaşıldığı üçün bölgənin onomastik xəritəsi haqqında tam təsəvvür yaradılmamışdır. Digər tərəfdən həmin müəlliflərin əsas tədqiqat obyekti ancaq toponim və hidronimlər olmuş, onomastik leksikanın antroponim, etnonim, zoonim, fitonim, kosmonim və ktematonim kimi növləri, həmçinin toponimlərin tərkib hissələri olan xoronim, oronim, urbanonim, dromonim kimi söz qrupları, demək olar ki, diqqət mərkəzindən kənarda qalmış, bu haqda mütəxəssis sözü deyilməmişdir.

Bunu nəzərə alaraq bu sətirlərin müəllifi 1990-cı ildən üzü bəri Naxçıvan MR-in onomastik vahidlər sistemini müstəqil tədqiqat obyekti seçmiş, bu söz qruplarını bütün kateqoriyaları üzrə kompleks şəkildə, tarixi-linqvistik planda öyrənməyi qarşıya məqsəd qoymuş, bu sahədə 100-ə yaxın məqalə və bir neçə monoqrafiyada fikir və düşüncələrini ümumiləşdirmişdir. Bu məqsədlə 1995-2000-ci illər arasında Naxçıvanın çay, göl, bulaq, kəhriz, arx və su anbarlarının adları toplanılıb növləri üzrə qruplaşdırılmış, onların əmələ gəlmə və yaranma yolları, struktur-semantik xüsusiyyətləri təhlil olunmuş və bir qisminin sözlüyü tərtib edilmişdir [16].



Müstəqillik illərində xalqımızın tarixi, dili, coğrafiyası haqqında etibarlı məlumat verən toponimlərin tədqiq məsələsi ön plana çəkilmiş, onların əmələ gəlmə və yaranma yolları, dil mənsubiyyət, striktur-semantik xüsusiyyətləri, məna açımı haqqında "Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri" [17], "Naxçıvan Muxtar Respublikası onomastik vahidlərinin tarixi- linqvistik təhlili (Toponimlər və hidronimlər)" adlı doktorluq dissertasiyası) [19], "Naxçıvan Muxtar Respublikasının onomastik vahidlər sözlüyü" [18], "Naxçıvanın oykonimləri" [20] adlı monoqrafiyalarda təhlil aparılmışdır.

İkicildlik "Onomalogiya problemləri" monoqrafiyası Naxçıvanın onomstik vahidlər sistemi haqqında geniş təsəvvür yaradır. Əsərdə ilk dəfə olaraq Naxçıvanın onomastik vahidlər sisteminin ümumi mənzərəsi yaradılmış, onomalogiyanın antroponim, etnonim, toponim, hidronim, zoonim, fitonim, kosmonim və ktematonim kimi söz qruplarının dildəki yeri və mövqeyi zəngin dil materialları əsasında təhlil edilmişdir [22, 23].

Bir faktı qeyd etmək lazımdır ki, indiyə qədər fitonimlərin yaranma yolları, dildəki yeri və mövqeyinə toxunulmamış, daha çox apelyativ məna daşıdığından nəzəri dilçilik ədəbiyyatlarında onomalogiyanın ayrıca bir sahəsi kimi qəbul olunmamışdır. Ancaq faktlar sübut edir ki, qədim zamanlardan hər bir bitkiyə, ağaca və meyvəyə növünə, sortuna görə ad verilmiş, bu adlar tarixi inkişaf yolu keçərək günümüzədək gəlib çatmış, dilimizdə fitonimlərin zəngin material bazası yaranmışdır. Bunu nəzərə alaraq monoqrafiyada fitonimlər ayrıca söz qrupu kimi təqdim olunmuş və bu adlar əsasında yaranan yer-yurd adları tədqiqata cəlb olunmuşdur [23, s. 239-263]. Müstəqillik illərində Naxçıvanın oronimlər sistemi [22, s. 221-331] və urbanonimləri də ayrıca monoqrafik tədqiqata cəlb edilmişdir [21].

Yekun olaraq qeyd edək ki, yuxarıda adları çəkilən monoqrafiya və kitabların nəşrindən keçən dövr ərzində muxtar respublika ərazisindən xeyli materiallar toplanılmış, tarixi mənbə və qaynaqlarda əksini tapan toponimlər tədqiqat müstəvisinə çıxarılmış, toponimlərin etimologiyası ilə bağlı yeni arqumentlər meydana çıxmışdır. Hazırda bu istiqamətdə iş davam etdirilir.

## ƏDƏBİYYAT


1. Axundov A. Naxçıvan sözünün mənşəyi // Naxçıvan tarixinin səhifələri (Uluslararası qaynaqlarda Naxçıvan beynəlxalq simpoziumunun materialları), Bakı: 1996, s. 46-50.
2. Axundov A. Torpağın köksündə tarixin izləri. Bakı: Gənclik, 1983,136 s.
3. Azərbaycan onomastikası problemləri. IV elmi-nəzəri konfransın materialları. Bakı: ADPU- nun nəşri, 1993, 243 s.

4. Azərbaycan onomastikası problemləri. V elmi-nəzəri konfransın materialları. Bakı:ADPU-nun nəşri, 1995, 167 s.
5. Azərbaycan onomastikası problemləri.VI elmi-nəzəri konfransın materialları. Bakı: ADPU-nun nəşri, 1996, 151 s.
6. Azərbaycan onomastikası problemləri. VII elmi-nəzəri konfransın materialları. Bakı:ADPU- nun nəşri, 1999, 157 s.
7. Azərbaycan onomastikası problemləri. VIII elmi-nəzəri konfransın materialları. Bakı: ADPU- nun nəşri, 2000, 148 s
8. Azərbaycan onomastikası problemləri. IX elmi-nəzəri konfransın materialları. Bakı: ADPU-nun nəşri, 2000, 152 s.
9. Azərbaycan onomastikası problemləri. X elmi-nəzəri konfransın materialları. Bakı: ADPU- nun nəşri, 2002, 137 s.
10. Azərbaycan onomastikası problemləri / XI elmi-nəzəri konfransın materialları. Bakı: ADPU-nun nəşrı, 2001, 288 s.
11. Babayev S.Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı: Yeni nəşrlər evi, 1999, 224 s.
12. Babayev S. Naxçıvanın bəzi etnotoponimləri // "Elm və həyat" jurnalı, 1985, № 7, s. 20-21
13. Babayev S. Naxçıvanın bəzi etnotoponimləri // "Elm və həyat"yurnalı, 1985, № 8, s. 26-27.
14. Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası.Bakı: Elm,1999, 298 s.
15. Bağırov A.Naxçıvanın hidronimləri. Bakı: Elm, 2000. 92 s.
16. Bağırov A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2002, 288 s.
17. Bağırov A. Naxçıvan Muxtar Respublikasının onomastik vahidlər sözlüyü. Bakı: Nurlan, 2003, 232 s.
18. Bağırov A. "Naxçıvan Muxtar Respublikası onomastik vahidlərinin tarixi- linqvistik təhlili (Toponimlər və hidronimlər)" adlı dokt., diss., avtoreferatı, Bakı: 2005, 36 s.
19. Bağırov A. Naxçıvanın oykonimləri. Bakı: Nurlan, 2008, 336 s.
20. Bağırov A. Naxçıvanın urbanonimləri. Bakı: ADPU-nun nəşri, 2014, 172 s.
21. Bağırov A. Onomalogiya problemləri. I c., Bakı: Elm və təhsil, 2010, 436 s.
22. Bağırov A. Onomalogiya problemləri. II c., Bakı: Elm və təhsil, 2012, 416 s.
23. Budaqov B. Türk uluslarının yer yaddaşı, Bakı: Elm, 1994, 272 s.
24. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 453 s.
25. Budaqova Q. Naxçıvan Muxtar Respublikasının toponimləri. Bakı: Hafta-Press, 1998, 148 s.





26. Əhmədov T. El-obamızın adları. Bakı: Gənclik,1984, 128 s.
27. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı: Bakı Universiteti, 1991, 312 s.
28. Əliyev V. Azərbaycan toponimləri. Bakı: Nurlan, 1999, 278 s.
29. Əsgərov N. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri, Bakı: Elm, 2005, 485 s.
30. Əsgərov N. Azərbaycanın makrotoponimləri. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2009, 488 s.
31. Gültekin G. Güney Azerbaycanın doğusundakı yer adları. İstanbul: 2001,189 s.
32. Hacıyeva Q. Dilimiz, tariximiz, yaddaşımız. Bakı: Araz, 2008, 198 s.
33. Həsənov A. Coğrafi adlarda tarixin izləri // ADU-nun Elmi əsərləri, dil və ədəbiyyat seriyası, 1966, N -3, s.19-27.
34. Həsənov A. Dərəşam toponimi haqqında // ADU-nun Elmi əsərləri, dil və ədəbiyyat seriyası, 1976, № -4, s. 60-66.
35. Hüseynzadə L. Nəxcir əfsanəsi // NDU-nun Elmi əsərləri (xüsusi buraxılış), 1999, № -5, s.139-140,
36. İmanlı A. Onomastika məsələləri. Naxçıvan: Məktəb, 2011, 314 s.
37. İmanlı A. Şərur düzünün toponimləri (oykonimlər), Bakı: Nurlan, 2008, 116 s.
38. İmanlı A. Şərur və İğdır bölgələrinin yer adları. Naxçıvan: Qeyrət, 2008,159 s.
39. Гасанов А.Г., Гейбуллаев Г. А. О некоторых ойконимах Нахичеванской АССР // Azərbaycan SSR Ali və Orta İxtisas təhsili nazirliyinin "Elmi əsərləri". Dil və ədəbiyyat seriyası, 1979, № 5, s. 11-13.
40. Qeybullayev Q.,1973 Azərbaycan toponimiyasında bəzi etnonimlər haqqında // Azərbaycan toponimiyasının öyrənilməsinmə həsr edilmiş elmi konfransın materialları. Bakı: Elm, 1973, s. 28-29.
41. Qeybullayev Q., I, 1976. Azərbaycan toponimiyasında ərəb təbəqəsi haqqında // Azərbaycan SSR EA-nın Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1976, № 1 s. 80-88.
42. Qeybullayev Q. Naxçıvanın bəzi oykonimləri haqqında // "Elm və həyat" jurnalı, 1977, № 6, s.12-14.
43. Гейбуллаев Г. Топонимия Азербайджана. Баку: 1986, 191 s.
44. Quliyev Ə. Naxçıvan sözünün mənşəyi haqqında // "Naxçıvan" jurnalı, 2000, № 2 s.27-30
45. Qurbanov A.Azərbaycan dilinin onomalogiyası Bakı: Maarif, 1988. 596 s.
46. Qurbanov A.Azərbaycan onomalogiyasının əsasları. 2 clddə, I c., Bakı: Nurlan, 2004, 340 s.
47. Qurbanov A.Azərbaycan onomalogiyasının əsasları. 2 cilddə, II c., Bakı: Nurlan, 2004, 504 s.

48. Məmmədov N. Azərbaycan Respublikasının oronimləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, 302 s.
49. Məmmədov N. Azərbaycanın yer adları. Bakı: Azərnəşr, 1993, 184 s.
50. Rzayev F. Əlincə çayı vadisi toponimlərində türk layı. Namiz.,diss., avtoref., 2003, 25 s.
51. Rzayev F. Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Nurlan, 2006, 242 s.
52. Rzayev F. Naxçıvan əhalisinin etnogenezi tarixindən. Naxçıvan: "Əcəmi", NPB, 2014, 448 s.



**Fərman Xəlilov**
AMEA Naxçıvan Bölməsi, elmlər doktoru
E-mail: Fermanhalilov@yahoo.com

## NAXÇIVAN ƏDƏBİ VƏ MƏDƏNİ MÜHİTİNİ ÖYRƏNƏN ELMİ MƏRKƏZ

Qədim dövrlərdən bu günədək Azərbaycanın ədəbi-bədii və ictimai-fəlsəfi fikir tarixində, həmçinin ədəbi-mədəni mühitinin formalaşması və inkişafında müstəsna xidmətləri olan alim, filosof, söz sənətkarları və incəsənət xadimlərinin fəaliyyətinin araşdırılması humanitar elmimizin qarşısında duran aktual problemlərdən olmuşdur. Həmin problemlərin içərisində Naxçıvanın elmi-ədəbi və mədəni mühiti, bu mühitin yetişdirdiyi şəxsiyyətlərin taleyi, sənəti və çoxşaxəli fəaliyyətinin öyrənilməsi xüsusi yer tutur. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin (bölmə yaradılandan bu günədək onun sədri AMEA-nın həqiqi üzvü, tarix üzrə elmlər doktoru, professor İ.Hacıyevdir) İncəsənət, Dil və Ədəbiyyat İnstitutu bu çətin və şərəfli vəzifəni yerinə yetirmək üçün AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Ə.Quliyevin rəhbərliyi ilə 12 ildən artıqdır ki, fəaliyyət göstərir. İnstitutun qarşısında qoyulan əsas problem Naxçıvanda ədəbi mühitin öyrənilməsidir. Bu istiqamətdə elmi tədqiqat işlərinin aparılması beş şöbənin üzərinə düşmüşdür:

1. Musiqi və teatr şöbəsi (Şöbə müdiri: 2003-2004 – J.Əliyeva, 2004-2005 – sənətşünaslıq üzrə fəlsəfə doktoru Ə.Ələkbərova, 2005-ci ildən bu günədək sənətşünaslıq üzrə fəlsəfə doktoru Ə.Qəhrəmanov)
2. Dilçilik şöbəsi (Şöbə müdiri: 2003-cü ildən AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Ə. Quliyev)
3. Onomastika şöbəsi (Şöbə müdiri: 2003-2006 – filologiya üzrə fəlsəfə doktoru F.Rzayev, 2007-ci ildən bu günədək AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru A.Bağırov)
4. Ədəbiyyatşünaslıq şöbəsi (Şöbə müdiri: 2003-2013–AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, professor İ.Həbibbəyli, 2013-cü ildən bu günədək filologiya üzrə elmlər doktoru F.Xəlilov).
5. Folklorşünaslıq şöbəsi (Şöbə müdiri: 2004-2013 – filologiya üzrə elmlər doktoru, professor M.Cəfərli, 2013-cü ildən 1915-ci ilin oktyabrınadək filologiya üzrə fəlsəfə doktoru, dosent R.Babayev)

Hazırda İnstitutda, 3 nəfər elmlər doktoru (bunlardan ikisi AMEA-nın müxbir üzvüdür), 9 nəfər fəlsəfə doktoru, 5 nəfər elmi işçi tədqiqat işləri ilə məşğul olur.

Məlumdur ki, sovet dövründə tədqiqatçılar, xüsusilə humanitar

elmlər üzrə fəaliyyət göstərən araşdırıcılar o zamanın şəriksiz hakim siyasi qüvvəsi olan Kommunist partiyasının ideoloji tələblərindən yan keçə bilməmişlər. Nəticədə çoxəsrlik ədəbiyyat və mədəniyyət tariximiz və onun yaradıcıları haqqında tam obyektiv elmi araşdırmaların aparılması mümkün olmamışdır. Lakin Azərbaycan müstəqillik əldə etdikdən sonra meydana çıxan yeni ictimai-siyasi şərait tədqiqatçıların həmin təzyiq və ideoloji basqılardan yaxa qurtarmasına əlverişli imkan yaratmışdır. Buna görə də İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşları 12 illik fəaliyyəti dövründə öz araşdırmalarını azərbaycançılıq ideologiyası mövqeyindən aparmağa nail olmuşlar.

İnstitutun **Musiqi və teatr** şöbəsinin elmi-tədqiqat işlərinin əsasını 130 illik yaradıcılıq yolu keçmiş Naxçıvan teatrının tarixi, bu teatrın formalaşması və inkişafında Azərbaycan ziyalılarının rolu, Naxçıvanda yaradılan Cavid Poeziya Teatrı və Kukla teatrlarının, həmçinin Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı regionlarında təşkil olunan xalq teatrlarının fəaliyyəti, Naxçıvanda musiqi mədəniyyətinin öyrənilməsi məsələləri təşkil etmişdir. Şöbə əməkdaşlarından Əli Qəhrəmanov, Cəlil Vəzirov, Jalə Əliyeva, Əqidə Ələkbərova, Yaqut Quliyeva və Ələkbər Qasımovun gərgin əməyi nəticəsində Naxçıvan teatrı və musiqi mühitinin təşəkkülündə və formalaşmasında böyük xidmətləri olan aktyor, bəstəkar, dirijor və müğənnilərlə bağlı müxtəlif arxiv və kitabxanalardan, teatr və musiqi xadimlərinin şəxsi arxivlərindən xeyli mətbu və qeyri-mətbu materiallar – məqalələr, xatirələr, nadir fotoşəkillər, proqram və afişalar toplanılaraq sistemləşdirilmiş və tədqiq olunmuşdur. Əli Qəhrəmanovun "Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram teatrı" (Bakı: MBM, 2004), "Naxçıvan teatrı intibah yollarında" (Bakı: MBM, 2008), "Naxçıvan teatrı müstəqillik illərində" (Bakı: MBM, 2008), Cəlil Vəzirov və Jalə Əliyevanın "Sözlü, nəğməli Naxçıvan" (Bakı: Sabah, 2003), Cəlil Vəzirovun (H.Eyvazlı ilə birlikdə) "Naxçıvan teatrı dünən və bugün" (Naxçıvan: Məktəb, 2007), Yaqut Quliyevanın "Bülbül vokal məktəbinin naxçıvanlı davamçıları" (AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2007, № 1, s. 230-235), "Naxçıvanda şərq üçlüklərinin yaranması və inkişafı" (AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2009, № 1, s. 277-281), Ələkbər Qasımovun "Naxçıvan teatrı 1918-1920-ci illərdə" (AMEA Naxçıvan Bölməsinin Xəbərləri İctimai və humanitar elmlər seriyası, 2009, №1, s. 282-288), "C.Məmmədquluzadə və Naxçıvan teatrları" (Naxçıvan jurnalı, 2009, № 20, s. 59-63) adlı məqalə, kitab və monoqrafiyaları səmərəli elmi araşdırmaların nəticəsi kimi meydana çıxmışdır.

Naxçıvan MR Ali Məclisinin "Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyinin keçirilməsi



haqqında" 6 fevral 2008-ci il tarixli sərəncamında nəzərdə tutulan tədbirlər planına uyğun olaraq 2010-cu ildə 45 ç.v. həcmində çap olunan və 1883-2008-ci illəri əhatə edən "Naxçıvan teatrının salnaməsi"nin hazırlanmasında əsas müəlliflərdən biri Ə.Qəhrəmanovun böyük əməyi olmuşdur.

On iki il ərzində İnstitutun **Dilçilik şöbəsinin** də fəaliyyəti səmərəli olmuşdur. Naxçıvan Muxtar Respublikasının dialekt və şivələrinin öyrənilməsi həmin şöbənin qarşısında duran əsas problemlərdən biri olmuşdur.

Tədqiqat mövzuları ilə əlaqədar olaraq şöbə əməkdaşlarından Əbülfəz Quliyev, Zülfiyyə İsmayıl, Nuray Əliyeva, Rəşad Zülfüqarov və Səyyar Məmmədov Naxçıvan MR-in müxtəlif şəhər və kəndlərində əhali ilə söhbətlər aparmış, toplanılan dialekt materiallarını sistemləşdirərək Azərbaycan və digər türk dillərinin dialekt və şivələrinə aid mətnlərlə və klassiklərin əsərləri ilə müqayisəli şəkildə tədqiq etmişlər. Dil materialları üzərində aparılan tədqiqatlar onların fonetik, leksik və qrammatik xüsusiyyətlərinin öyrənilməsini əhatə etmişdir. Naxçıvan, Ordubad, Şahbuz, Şərur və Babək rayonlarının dialekt və şivələrində fonetik hadisə və qanunlar, alınma sözlər, əkinçilik, bitkiçilik və heyvandarlıqla bağlı terminlər, morfoloji xüsusiyyətlər, sintaktik fərqlər bu tədqiqat işlərinin əsas mövzusu olmuşdur. Bu araşdırmalar Azərbaycan dilçilik elmini zənginləşdirməklə yanaşı, türk və bir sıra Avropa dillərinin öyrənilmə prosesində bəzi məsələlərin aydınlaşdırılması üçün də müəyyən nəzəri-təcrübi əhəmiyyətə malikdir.

Haqqında bəhs olunan araşdırmaların nəticələri müxtəlif elmi jurnallarda və kitablarda öz əksini tapmışdır. Bu baxımdan AMEA-nın müxbir üzvü Ə.Quliyevin türk müəllifləri prof. Tuncer Gülensoy və dosent Paki Küçükerlə birlikdə hazırladığı və çap etdirdiyi "Naxçıvan ağzı" (Ankara: Türk Dil Kurumu Yayınları, 2009), "Naxçıvan ağızları söz varlığı" (Ankara, 2010), filologiya üzrə fəlsəfə doktoru N.Əliyevanın "Azərbaycan dilinin Şahbuz şivələri" (Bakı: Elm və təhsil, 2012) adlı kitabları nəinki təkcə Azərbaycan dilçiləri, həm də xarici ölkə türkoloqları üçün də qiymətli elmi məxəzlərdir.

2012-2013-cü illərdə Naxçıvanda "Əcəmi" nəşriyyatı tərəfindən çap olunan Mövlana Cəlaləddin Ruminin üç cildlik "Məsnəvi" əsəri isə Azərbaycan türkoloqlarının istifadəsinə verilən ən sanballı bədii-fəlsəfi mənbədir. Əsəri türkcədən Azərbaycan dilinə çevirən AMEA-nın müxbir üzvü Ə.Quliyevin oxuculara kömək məqsədi ilə bəzi sufi terminlər, müxtəlif coğrafi adlar və şəxs adlarına aid yazdığı izah və qeydlər xüsusi elmi əhəmiyyət daşıyır. (Həmin kitab 2015-ci ildə Türkiyədə Konya Şəhər Bələdiyyəsi tərəfindən yenidən altı cilddə Azərbaycan dilində çap

edilmişdir).

Şöbənin böyük elmi işçisi filologiya üzrə fəlsəfə doktoru Z.İsmayılın "Azərbaycan dilində qeyri-təyini ismi birləşmələr" adlı monoqrafiyası isə (Bakı: Elm və təhsil, 2012) dilçiliyimizdə az öyrənilən bir mövzuya həsr olunmuşdur. Monoqrafiyada qeyri-təyini ismi birləşmələrin Azərbaycan ədəbi dilində keçdiyi tarixi təkamül yolu tədqiq edilmişdir.

İnstitutun **Onomastika şöbəsinin** elmi araşdırmalarının əsas istiqaməti Naxçıvan Muxtar Respublikasında onomastik vahidlərin öyrənilməsi olmuşdur. 2003-cü ildən başlanan bu işlər Naxçıvanın tarixi və müasir ərazilərindən antroponim, etnonim, toponim, hidronim, zoonim, fitonim, kosmonim və ktematonimlərin toplanılması və sistemli şəkildə tədqiq olunması ilə nəticələnmişdir. Çöl tədqiqatları zamanı, eləcə də bir sıra tarixi qaynaqlarda, bədii mətnlərdə, xalq danışıq dilində, xəritələrdə və yol qeydlərində öz əksini tapmış zəngin materiallar və məlumatları əldə etmələri şöbə əməkdaşları AMEA-nın müxbir üzvü Adil Bağırov, filologiya üzrə fəlsəfə doktoru Firudin Rzayev və Elmar Hüseynova imkan vermişdir ki, öz elmi mülahizələrini konkret faktlara əsaslanmaqla irəli sürsünlər. Bunun nəticəsində də tədqiqatçılar istər onomastik vahidlərdəki etnogenezi məsələləri tarixi-coğrafi yöndən araşdırarkən, istər onların leksik-semantik və qrammatik xüsusiyyətlərini müəyyənləşdirərkən, istərsə də həmin vahidlərin mənşəyini aşkara çıxararkən dəyərli elmi qənaətlərə gəlməyə müvəffəq olmuşlar. Bu baxımdan şöbə əməkdaşlarının Naxçıvan şəhəri, Şərur, Şahbuz, Ordubad, Babək rayonları və onların tərkibinə daxil olan müxtəlif kəndlərdən qeydə alınmış Qaraoş, Noxud dağ, Sarı dağ, Qaraçuq, Qırmızı torpaq, Naxçıvan duzu və s. kimi oronimlər, musiqi əsərləri, kinofilm, teatr tamaşaları, nəşriyyat, qəzet, jurnal, bədii əsər adları və s. kimi ideonimlər, Şirak, Çul, Peçeneq, Sak, Xələc, Kəngər, Yuti (Yuşi), As, Tal, Kuti, Türükkü, Hürri və s. kimi tayfa adlarına aid mülahizələri mühüm elmi əhəmiyyət kəsb edir.

Onomastik vahidlərdən bir qisminin leksik-semantik xüsusiyyətlərinin Orxon-Yenisey abidələri, "Oğuznamə"lər və M.Kaşqarlının "Divan"ından seçilən nümunələrlə müqayisəli kameral elmi tədqiqi isə şöbə əməkdaşlarının yüksək peşəkarlığı və səriştəsinin göstəricisidir.

Şöbədə aparılan tədqiqat işlərində elmi maraq doğuran və yeniliyi ilə diqqəti cəlb edən orijinal mülahizələr, təkziblər, qətiyyətli hökmlər çoxdur. Bu tədqiqatların nəticələrini əks etdirən A.Bağırovun "Naxçıvanın oykonimləri" (Bakı: Nurlan, 2008), "Oronimlərin linqvistik xüsusiyyətləri" (Naxçıvan Muxtar Respublikası materialları əsasında) (Bakı: Elm və təhsil, 2011), "Onomalogiya problemləri" (Naxçıvan Muxtar Respublikası materialları əsasında) (Bakı: Elm və təhsil, I c., 2010; II c., 2012), "Naxçıvan urbanonimləri" (Bakı: ADPU, 2014), F.Rzayevin "Qədim Şərur



oykonimlərinin mənşəyi" (Bakı: Nurlan, 2006), "Naxçıvan əhalisinin etnogenezi tarixindən" (Naxçıvan: Əcəmi, 2014, 448 s.) monoqrafiyaları Azərbaycan dilçilik elmini nəzəri-təcrübi cəhətdən zənginləşdirməkdə özünəməxsus əhəmiyyətə malikdir.

Onomastik vahidlərin tarixi-linqvistik istiqamətdə öyrənilməsinin həm də mühüm siyasi və dövləti əhəmiyyəti vardır. Bu baxımdan şöbə əməkdaşlarının yuxarıda göstərilən adlara aid tədqiqatlarında tutarlı faktlarla sübuta yetirilmiş müddəalar əsrlər boyu Azərbaycan torpaqlarına və maddi-mədəniyyət abidələrinə göz dikən erməni işğalçılarını ifşa etmək üçün təkzibedilməz elmi əsaslar verir.

Ötən 12 il ərzində İnstitutun **Ədəbiyyatşünaslıq şöbəsi** də akademik İ.Həbibbəylinin rəhbərliyi ilə bir sıra elmi nailiyyətlər əldə etmişdir. Naxçıvanın ədəbi-mədəni mühiti və yerli sənətkarlara məxsus olan klassik və müasir ədəbi irsi araşdırıb öyrənmək, təbliğ etmək, unudulmuş və tədqiqatdan kənarda qalmış bədii, publisistik və elmi əsərləri aşkara çıxarıb çap etdirmək şöbə əməkdaşlarının əsas diqqət mərkəzində olmuşdur. Onlar müxtəlif dövlət arxivləri, dövri mətbuat, kitabxana və şəxsi arxivlərdən xeyli qiymətli məlumat və sənədlər toplayıb tədqiqata cəlb etmiş, elmi-nəzəri və bədii materiallar üzərində araşdırmalar aparmışlar. Həmin araşdırmaların nəticələri müxtəlif illərdə çap olunmuş məqalə, kitab və monoqrafiyalarda öz əksini tapmışdır. Bu baxımdan "Taleyi və sənəti" seriyasından olan M.T.Sidqi, C.Məmmədquluzadə, E.Sultanov, M.Şahtaxtılı, M.S.Ordubadi, H.Cavid, Ə.Qəmküsar, M.C.Cəfərov və M.Araza həsr edilmiş kitabların böyük elmi əhəmiyyəti vardır. Həmin kitablarda əsasən şöbə əməkdaşları və bəzi yerli ədəbiyyatşünasların Azərbaycanda ictimai-siyasi və elmi fikrin, maarifçilik hərəkatının, realizm və romantizm ədəbi cərəyanlarının yuxarıda adları çəkilən nümayəndələrinin həyatı, mühiti, çoxcəhətli fəaliyyəti, taleyi və sənətinə aid dəyərli elmi məqalələri toplanmışdır.

Şöbə əməkdaşlarından N.Sadıqzadənin "XX əsrdə Naxçıvanda ədəbiyyatşünaslığın inkişafı" (Bakı: Elm, 2009), F.Kazımovanın "Professor Abbas Zamanovun həyatı və yaradıcılığı (Bakı: Mütərcim, 2012), R.Qasımovun "Cəlil Məmmədquluzadənin yaradıcılığında "kiçik" adam obrazlarının ictimai-bədii funksiyası" (Bakı: Elm və təhsil, 2012) adlı monoqrafiyaları isə uğurla müdafiə etdikləri namizədlik dissertasiyalarının nəticələrini əks etdirir. 2015-ci ildə şöbənin əməkdaşları Ə.Həşimovun "Tarixi nəsrdə Naxçıvan mövzusu: mərhələlər, problemlər, şəxsiyyətlər", A.Orucovanın "Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı" mövzularında müdafiə etdikləri fəlsəfə doktorluğu dissertasiyaları ədəbiyyatşünaslığımıza gətirdiyi yeniliklərlə diqqəti cəlb edir. Kiçik elmi işçi Nərgiz İsmayılovanın "XIX-XX əsrlər Naxçıvan ədəbi mühitində Şərq və Qərb meyilləri",

filologiya üzrə fəlsəfə doktorları R.Qasımovun "Azərbaycan ədəbiyyatında tənqidi realizm: mərhələləri və poetikası", N.Sadıqzadənin "Məmməd Araz yaradıcılığının poetikası" mövzularında filologiya üzrə fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiyalar üzərində işləmələri də şöbənin elmi yaradıcılıq istiqamətlərinin necə geniş bir dairəni əhatə etdiyini göstərir. Buraya akademik İ.Həbibbəyli, filologiya üzrə elmlər doktoru F.Xəlilov, filologiya üzrə fəlsəfə doktorları F.Kazımova, R.Qasımov və N.Sadıqzadənin müəllifliyi, tərtibçiliyi və elmi redaktorluğu ilə çap olunan M.Sidqi. Əsərləri (Bakı: Çaşıoğlu, 2004), Cəlil Məmmədquluzadə. Biblioqrafiya (Bakı: Elm, 2005), Ə.Qəmküsarın ədəbi-tənqidi görüşləri (Bakı: Elm, 2007), Ə.Şərif. "Molla Nəsrəddin" necə yarandı (Naxçıvan: Əcəmi, 2009), M.C.Cəfərov. İnsanlar və talelər (Naxçıvan: Əcəmi, 2009), Azərbaycan ədəbiyyatının "Cüvəllağı"sı (Bakı: Mütərcim, 2012), Y.Axundlu. İstiqlalın əzablı yolları (Bakı: Adiloğlu, 2013), Y.Axundlu. Seçilmiş əsərləri. Üç cilddə (Naxçıvan: Əcəmi, 2013), Y.Axundlu. Ədəbi estafet (Bakı: Adiloğlu, 2013), Məhəmməd Taqı Sidqi: taleyi və sənəti (Naxçıvan: Əcəmi, 2014), Naxçıvan teatrının tarixi. Məqalələr, xatirələr (Naxçıvan: Əcəmi, 2014), Hüseyn Razi. Biblioqrafiya (Naxçıvan: Əcəmi, 2015) adlı kitab və monoqrafiyaları da əlavə etsək, şöbənin apardığı tədqiqat işlərinin səmərəli elmi nəticələri haqqında daha dolğun təsəvvür əldə edə bilərik. Şöbə əməkdaşlarının araşdırmalarını gələcəkdə bu istiqamətlərdə aparılacaq geniş tədqiqatlar üçün ilkin elmi zəmin hesab etmək olar. Həmin araşdırmalarda XX əsrin əvvəllərində Naxçıvanda ictimai-mədəni mühit tarixi və ədəbi faktlar əsasında öyrənilmiş, bu regionda ədəbi cərəyanların formalaşmasının tarixi kökləri, ictimai-siyasi qaynaqları və mahiyyəti aydınlaşdırılmışdır. Azərbaycan satirik mətbuatının bayraqdarı "Molla Nəsrəddin" jurnalının ətrafında birləşən sənətkarların – mollanəsrəddinçi şairlərin klassik ənənələrə sadiq qalmaqla yanaşı, yeni inqilabi satirik poeziyanın təməlini qoymaları və bu istiqamətdə yaratdıqları əsərlərin həm mövzu, həm ideya-məzmun, həm də bədii xüsusiyyətlərinə aid orijinal mülahizələr irəli sürülmüş, C.Məmmədquluzadənin nəinki təkcə mollanəsrəddinçilər, həm də XX əsrin əvvəllərində yaşayıb-yaratmış bir çox şairlərə yol göstərən yeni şeir üçün zəruri hesab etdiyi ideya-estetik tələbləri konkret ədəbi-bədii materiallarla əsaslandırılmışdır. Ə.Qəmküsarın ədəbi-tənqidi görüşləri tədqiq olunmuş, M.Şahtaxtlının yaradıcılığı və ədəbi-ictimai fəaliyyəti yeni tədqiqat materialları əsasında öyrənilmiş, Şeyx Məhəmməd Rasizadənin mühiti və müasirləri mövzusunda ilk araşdırmalar aparılmışdır. Yerli yazıçı Ə.Abbasovun əsərlərinin mövzu dairəsi müəyyənləşdirilmiş, bədii keyfiyyətləri aşkara çıxarılmış, həmçinin publisistik əsərləri təhlil olunaraq onların öz dövrü üçün ictimai-siyasi əhəmiyyəti dəyərləndirilmiş, şair Hüseyn Razinin



"Biblioqrafiyası" hazırlanmış, xalq yazıçısı H.İbrahimovun "Əsrin onda biri" əsərinin Azərbaycan tarixi romanının inkişafındakı rolu, əsərdə Naxçıvanın tarixi və ədəbi mühiti ilə bağlı məqamlar araşdırılaraq üzə çıxarılmış – bir sözlə, ədəbi-ictimai fəaliyyəti və yaradıcılığı XIX-XX əsrlərə təsadüf edən naxçıvanlı şair, yazıçı, ədəbiyyatşünas və filosofların Azərbaycanın ədəbi və elmi fikir tarixindəki yeri və rolu öz həqiqi elmi qiymətini almışdır.

Şöbənin ən uğurlu elmi nailiyyətlərindən biri akademik İ.Həbibbəylinin rəhbərliyi ilə çapa hazırlanan "Hüseyn Cavid Ensiklopediyası"dır. Nəşri yaxın zamanlarda gözlənilən bu fundamental əsər müasir Azərbaycan ədəbiyyatşünaslığının ən sanballı elmi nailiyyətlərindən biri olacaqdır.

XIX əsrin sonu və XX əsrin əvvəllərindən Naxçıvan ərazisində folklor materiallarının toplanılması və öyrənilməsi sahəsində müəyyən təcrübə və ənənə olsa da, bu işlərin akademik səviyyədə həyata keçirilməsi İnstitutun **Folklorşünaslıq şöbəsinin** adı ilə bağlıdır. Şöbə ötən 12 ildə dörd əsas istiqamətdə fəaliyyət göstərmişdir.

1. Muxtar Respublikanın ərazisindən folklor materiallarının toplanılması, qeydə alınması və sistemləşdirilməsi
2. Toplanılan folklor nümunələrinin nəşr etdirilməsi
3. Naxçıvan folklorunun müasir ədəbiyyatşünaslıq elminin tələblərinə uyğun olaraq tədqiq edilməsi
4. Folklorşünaslığın tarixi və nəzəri məsələləri ilə bağlı araşdırmaların aparılması.

Bölgələrə xüsusi ekspedisiyalar zamanı şifahi xalq ədəbiyyatının lirik, epik və dramatik növünün müxtəlif janrlarına aid (bayatı, layla, nazlama, oxşama, ağı, qoşma, gəraylı, əfsanə, rəvayət, nağıl, dastan, xalq tamaşaları, uşaq oyunları) nümunələrin toplanılmasında və tədqiqində şöbə əməkdaşlarından filologiya üzrə elmlər doktorları, professor M.Cəfərov, Y.Səfərov, R.Babayev, M.İsmayıl və Ə.Hüseynzadənin təqdirəlayiq xidmətləri olmuşdur.

Şöbədə aparılan elmi-tədqiqat işlərinin mövzuları da öz aktuallığı ilə diqqəti cəlb edir: nağılların genezisi və transformasiya məsələləri; atalar sözləri və məsəllərin poetik-semantik xüsusiyyətləri; aşıq yaradıcılığı; layla, nazlama, oxşama janrlarının ifadə xüsusiyyətləri; Bektaşilik və onunla bağlı adət-ənənə və mərasimlər; inanclarda, yuxuyozmalarda və sınamalarda mifoloji-poetik xüsusiyyətlər; əfsanə və rəvayətlərin yaranma səbəbləri və mahiyyəti; Əshabi-Kəhflə bağlı mətnlərin Naxçıvan folklor mühitində yeri və əhəmiyyəti; E.Sultanovun folklorşünaslıq irsi; "Şərq qapısı" qəzetində folklor materiallarının nəşri və tədqiqi və s.

Bu tədqiqat işlərində muxtar respublika ərazisindən toplanan folklor nümunələrinin xalq ədəbiyyatının ənənəvi xüsusiyyətlərini əks etdirməklə yanaşı, regional özünəməxsusluğa malik olması da öyrənilib aşkara

çıxarılmışdır.

Şöbə əməkdaşlarının çoxillik elmi araşdırmalarının nəticələri haqqında daha dolğun təsəvvür əldə etmək üçün onların çap etdirdiyi müxtəlif antologiya, kitab və monoqrafiyaların siyahısına nəzər salmaq kifayətdir: "Yol gələr Qarabağa". Tərtib edənlər: M.Cəfərli, R.Babayev. (Naxçıvan: Əcəmi, 2005); "Xalq yaddaşının izləri". Tərtib edən: M.İsmayıl. (Bakı: Elm, 2005); "Naxçıvan folkloru". Tərtib edənlər: M.Cəfərli, R.Babayev. (Bakı: MBM, 2007); "Naxçıvan əfsanələri". M.İsmayıl. (Bakı: Elm, 2008); R.Babayev. "Naxçıvan folkloru:bəşərilik, türklük, regionallıq". (Bakı: Elm, 2008); "Naxçıvan bayatıları". Tərtib edənlər: M.Cəfərli, V.Fətullayeva (Bakı: Nurlan, 2009); Y.Səfərov. "Naxçıvan aşıq ədəbi mühiti". (Bakı: Elm, 2009); M.Cəfərli. "Azərbaycan dastanlarının struktur poetikası". (Bakı: Elm və təhsil, 2010); M.Cəfərli. "Aşk konulu Azerbeycan halk hikayelerinin şiirsel yapısı". (Ankara: Kültür Ajans Yayınları, 2010); "Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru". Tərtib edənlər: M.Cəfərli, R.Babayev. Üç cilddə, (Naxçıvan: Əcəmi, I c., 2010, II c., 2011, III c., 2012); "M.Təmasib. Seçilmiş əsərləri". İki cilddə. Tərtib edən: M.Cəfərli. (Bakı: Mütərcim, I c., 2010, II c. 2011); "El sözü, yurd yaddaşı" (folklor toplusu). Tərtib edən: M.İsmayıl. (Bakı: Elm, 2010); "Naxçıvan nağılları". Tərtib edənlər: M.Cəfərli, R.Babayev. (Təbriz: Yazar, 2011); M.Cəfərli. "Azərbaycan şifahi xalq ədəbiyyatı" (dərslik). (Bakı: ADPU, 2012); R.Babayev. Janrın iddiası və imkanları. (Bakı: ADPU, 2014); R.Babayev. İnancların poetikası. (Bakı: ADPU, 2015).

Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişaf Fondunun 2013-cü ildə keçirdiyi qrant layihəsi müsabiqəsində şöbə müdiri R.Babayevin rəhbərliyi ilə "Naxçıvan folklorunun toplanılması, tədqiqi və nəşri" mövzusunda təqdim edilən layihə qalib gəlmiş və bu istiqamətdə işlər uğurla başa çatdırmışdır.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşları araşdırmalarının nəticələrini respublikanın "Naxçıvan", "Elm və həyat" "Qobustan", "Azərbaycan" jurnalları, "Axtarışlar", "Filologiya məsələləri" AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, BDU və NDU-nun, həmçinin Türkiyə, Rusiya, Bolqarıstan, Fransa, Pakistan universitetlərinin "Elmi əsərləri", habelə xarici ölkələrin "Türkiyyat araştırmaları" (Türkiyə), "Kültür evreni" (Türkiyə), "Yol" (Türkiyə), "Kardeş kalemler" (Türkiyə), "Varlıq" (İran), "Yapraq" (İran) "Mejdunarodnıy nauçnıy jurnal" (Rusiya), "Aktualnıye problemı qumanitarnıx i yestestvennıx nauk" (Rusiya), "Molodoy uçyonıy" (Rusiya) kimi elmi və ictimai-ədəbi jurnallarında çap etdirməyə nail olmuşlar. Bu da həmin tədqiqat işləri ilə nəinki təkcə Azərbaycan, həm də xarici ölkə alimlərinin yaxından tanış olmasına imkan yaratmışdır. İnstitut əməkdaşlarının Bakı, Naxçıvan, Şamaxı, Təbriz, Tehran, Maku, Çanaqqala,



Manisa, Ankara, İstanbul, İsparta, Samsun, Mahaçqala, Aşqabad, Bişkek, Astana, Budapeşt, Milan, Sarayevo, Moskva və Sank-Peterburqda keçirilən konfrans və simpoziumlarda iştirakı və əsasən Naxçıvan ədəbi mühitinə aid məruzələrinin isə Naxçıvanın və ümumən Azərbaycanın ədəbiyyat və mədəniyyətinin təbliğində mühüm əhəmiyyəti olmuşdur. Bu istiqamətdə İnstitutun 2011-ci ildən nəşrə başlayan "Axtarışlar (folklor, dil, sənətşünaslıq və tarix)" adlı jurnalının da özünəməxsus rolu vardır.

İnstitut 12 illik fəaliyyəti dövründə AMEA Folklor İnstitutu, Ədəbiyyat İnstitutu, Memarlıq və İncəsənət Universiteti, Bakı Dövlət Universiteti, Qazi Universiteti (Ankara), Qafqaz Universiteti (Qars), Naxçıvan Dövlət Universiteti və digər elmi-tədqiqat və mədəni-maarif müəssisələri ilə səmərəli əməkdaşlıq etmişdir.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutu ədəbiyyatşünas, dilçi və sənətşünasların hazırlanması sahəsində də səmərəli fəaliyyət göstərmişdir. İnstitutun ayrı-ayrı şöbələrində müxtəlif aktual mövzulara həsr olunmuş filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün dissertasiyalar yerinə yetirilmiş və müvəffəqiyyətlə müdafiə edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında AAK-in tələblərinə uyğun olaraq müxtəlif müəlliflərin məqalə, kitab, monoqrafiya və elmi-tədqiqat işlərinə rəylərin hazırlanmasında ayrı-ayrı vaxtlarda İnstitutun elmi katibi işləyən Ə.Qəhrəmanov (2005-2007), C.Vəzirov (2008), F.Yunisov (2009-2012) və R.Qasımovun (2013-cü ildən) böyük əməyi olmuşdur.

Varlığının 12 ili ərzində səmərəli və məhsuldar fəaliyyəti ümid etməyə imkan verir ki, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu gələcəkdə daha uğurlu elmi nailiyyətlərə imza atacaqdır.

## ƏDƏBİYYAT

1. Hacıyev İ. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi. Bakı: Nurlan, 2005.
2. Quliyev Ə., Xəlilov F. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan: Qızıl Dağ, 2014.

**Əli Qəhrəmanov**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: a.qehremanov@yahoo.com

# NAXÇIVAN TEATRI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

Yarandığı gündən ciddi təqiblərlə, soyuq münasibətlərlə, gərgin mübarizələrlə üzləşən Naxçıvan teatrının yaradıcılıq yolu heç də hamar olmayıb. Eynəli bəy Sultanov, Cəlil Məmmədqulqzadə, Məhəmməd Tağı Sidqi, Baxşəli ağa Şahtaxtlı, Qurbanəli Şərifov, Mirzə Əlməmməd Xəlilov, Nəsrulla və Fərəculla Şeyxov qardaşları, Paşa ağa Sultanov, Mirzə Ələkbər Süleymanov, Mirzə Məmməd Zamanbəyov, Sadıq Xəlilov, Ələsgər Şeyxov, Hüseyn və Məmməd Xəlilovlar, Mirzə Məmməd Hüseynov, Mirzə Sadıq Qulubəyov, Məmmədqulu bəy Kəngərli, Böyükxan Naxçıvanski və başqaları Naxçıvanda teatr sənətinin formalaşması və inkişafı ilə yanaşı yeni üsulda məktəblərin, kitabxanaların, digər maarif və mədəniyyət ocaqlarının yaradılması uğrunda mübarizə aparmışlar. Zəngin və şərəfli bir inkişaf yolu keçən Naxçıvan teatrının ilk tamaşası Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyası ilə 1883-cü ilin mayında, Hacı Nəcəf Zeynalovun evində həyata vəsiqə alıb [5, s. 28], milli peşəkar teatrımızın tarixində mühüm sənət hadisəsinə çevrilib.

Cəlil Məmmədquluzadə teatrın yarandığı ilk illərdə gənc ziyalıları bu sənət məbədinə cəlb etmiş özü isə M.F.Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah", "Molla İbrahim Xəlil kimyagər", "Vəziri-xani Sərab", N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", Ə.Haqverdiyevin "Dağılan tifaq", E.Sultanovun "Tatarka" və özünün "Çay dəstgahı" tamaşalarında həm rejissor, həm də aktyor kimi iştirak etmiş, M.F.Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah", komediyasında Müsyö Jordan, "Molla İbrahim Xəlil kimyagər" əsərində Molla İbrahim Xəlil, "Vəziri-xani – Sərab"da Vəzir rollarında oynamışdır. Teatrlarımızın bu günkü səviyyəyə çatmasında onun misilsiz xidmətləri olmuşdur. Görkəmli dramaturqun qələmindən çıxan "Çay dəstgahı", "Kişmiş oyunu", "Kamança", "Qurbanəli bəy", "Anamın kitabı", "Ölülər", "Dəli yığınsağı" əsərləri müxtəlif illərdə, ayrı-ayrı rejissorlar tərəfindən uğurla tamaşaya qoyulmuş və Azərbaycan teatr sənətinin inkişafında mühüm rol oynamışdır.

Naxçıvanda muxtariyyət əldə edildikdən sonra Naxçıvan teatrın repertuarında M.F.Axundzadənin pyesləri ilə yanaşı N.Vəzirovun, Ə.Haqverdiyevin, N.Nərimanovun, C.Məmmədquluzadənin, S.S.Axundovun, H.Cavidin, C.Cabbarlının, S.Vurğunun, S.Rəhmanın, İ.Əfəndiyevin əsərlərinə geniş meydan verildi. Bunlarla yanaşı dünya dramaturgiyasının nümunələrinə, klassik və eləcə də, çağdaş dramaturqların əsərlərinə



aktyorlar dönə-dönə müraciət etdi, teatr öz ağuşunda onlarla görkəmli səhnə ustaları yetirdi.

Naxçıvan teatrının müstəqillik illərindəki qaynar fəaliyyətindən, yaradıcılıq uğurlarından bəhs edərkən kəmiyyət etibarı ilə keyfiyyət amilini də nəzərə alsaq gözlərimiz önündə böyük bir sənət panoramı canlanır. Məhz müstəqillik illərində Naxçıvan teatrı milli dramaturgiyanın klassik nümunələrinə geniş meydan verməklə, qan yaddaşımıza, soy kökümüzə, milli şüurun formalaşmasına qayğı ilə yanaşdığının, görülən hər bir işin yalnız milli mənafeə xidmət etdiyinin şahidi oluruq.

Müstəqilliyin ilk ilində (3 sentyabr 1991) möhtərəm Heydər Əliyevin Muxtar Respublikanın Ali Məclisinə Sədr seçilməsi ilə Naxçıvanda bir çox sahələr kimi mədəni mühitdə də ciddi bir canlanma, dönüş yarandı. Bu qədim sənət ocağına xüsusi rəğbət bəsləyən ulu öndər Naxçıvan teatrını da düşdüyü burulğandan xilas edib onun dirçəlməsi və inkişafı qayğısına qalaraq hər cür şəraitin təmin olunmasına çalışırdı. Məhz bunun nəticəsində Əsgər Əsgərovun hazırladığı "Şəhidlər" (R.Səməndər, 19 yanvar 1991) pyesi dövrün diktəsindən irəli gələn mühüm amil idi. Tamaşanın ideya mərkəzində günahsız şəhidlərimizin faciəli taleyi təsvir olunurdu. Həmin rejissorun uğurla tamaşaya qoyduğu "Xeyir və Şər" (İslam Səfərli) pyesi ictimai-sosial mahiyyəti ilə fərqlənir. Tamaşanın premyerası 1991-ci ilin iyul ayının 2-də teatrsevərlərə təqdim olundu [3, s. 23]. 1992-ci il yanvarın 3-ə tamaşaya qoyulan C.Məmmədquluzadənin "Anamın kitabı" ozunun uğurlu səhnə həlli ilə xüsusi diqqət çəkdi. Gənc rejissor Vaqif Əhmədov müəllifin qarşıya qoyduğu ali məqsədi- azərbaycançılıq, bütöv Azərbaycan ideyasını ön plana çəkməklə tamaşanın təsir qüvvəsini, əxlaqi və etik dəyərlərini bir daha qüvvətləndirirdi. Tamaşanın finalında müstəqil Azərbaycanın üç rəngli bayrağının əzəmətlə dalğalanması birliyimizin sarsılmazlığına xidmət edirdi. 1992-1993-cü illərdə teatr bir sıra maraqlı tamaşalar hazırlayaraq qonşu Türkiyə Respublikasının şəhərlərinə uğurlu səfərlər etdi.

Naxçıvan teatrının müstəqillik illərindəki qaynar fəaliyyəti, yaradıcılıq uğurları istər-istəməz tamaşaçılarda qürur hissi doğurur. Aparılan tədqiqatlardan məlum olur ki, 1991-2015-ci illərdə Naxçıvan teatrında səksənə yaxın əsər (həmin tamaşalardan qırxa yaxını ilk dəfə) uğurla tamaşaya qoyulub, müsbət səhnə həllini tapıb. Məhz bu illərdə Naxçıvan teatrı milli dramaturgiyanın klassik nümunələrinə geniş meydan verməklə, qan yaddaşımıza, soy kökümüzə, milli şüurun formalaşmasına qayğı ilə yanaşmış, atılan hər bir addım yalnız milli mənafeyə xidmət etmişdir. Bunun bariz nəticəsidir ki, Naxçıvan teatrı bu illərdə M.F.Axundzadə, H.Cavid, N.Nərimanov, C.Məmmədquluzadə, C.Cabbarlı, İ.Əfəndiyev dramaturgiyasına yenidən müraciət etmiş və yaradıcılığında özünün müsbət səmərəsini göstərmişdir.

Müstəqillik illərində tamaşaya qoyulan əsərlər içərisində Nəriman Nərimanovun "Nadir şah" pyesi özünün uğurlu səhnə həlli ilə xüsusi diqqət çəkdi. Bakıdan dəvət olunmuş gənc rejissor Elçin Mirzəbəyli dramaturgiyamızda ilk tarixi faciə olan Nəriman Nərimanovun "Nadir şah" pyesini (14 avqust 1997) tamaşaçılara təqdim etdi. "Nadir şah" müxtəlif illərdə ayrı-ayrı rejissorlar tərəfindən Naxçıvan teatrında tamaşaya qoyulmuşdur. Müstəqillik illərində "Nadir şah" tamaşası teatrın uğurlu addımı kimi qiymətləndirilməlidir. Rejissor təqdimində milli dəyərlər uğrunda mübarizə aparan Nadir şahın arzu və düşüncələri, azadlıq ideyaları ön plana çəkilmişdi.

Azərbaycan Milli Akademik Dram Teatrının rejissoru Mərahim Fərzəlibəyovun müstəqillik illərində Naxçıvan teatrı ilə yaradıcılıq əlaqəsi bu qədim sənət məbədində ciddi dönüş yaratdı. O, Nəriman Həsənzadənin "Atabəylər" (10 may 1999) və "Pompeyin Qafqaza yürüşü" (16 aprel 2002) pyeslərini tamaşaya qoydu və bu teatrın yaradıcılıq imkanlarını bir daha aşkarladı. "Atabəylər", "Pompeyin Qafqaza yürüşü" tamaşalarında xalqımızın qəhrəmanlıq səhifəsi, yadellilərə qarşı apardığı mətin mübarizə tərənnüm olunurdu [3, s. 68]. Bədii vüsətli şeiriyyət, güclü dramatizm, zəngin və dolğun xarakterlər, hər iki pyesin ictimai-siyasi mahiyyətini bir daha qüvvətləndirirdi. Hər iki tamaşa quruluşçu rejissorun yozumunda özünün layiqli səhnə həllini tapmışdı. "Atabəylər" tamaşası yenidən bərpa olunaraq teatrın repertuarına salındı və (14 may 2004) tamaşaya qoyuldu. Bu tamaşa Naxçıvan Muxtar Respublikası yaradılmasının 80 illiyinə əsl mənada layiqli sənət töhfəsi idi [3, s. 68-69].

Tamaşada Kamran Quliyev – Qızıl Arslan, Həsən Ağasoy – Nizami, Elmira Kərimova – İnanc xatın, Rza Xudiyev – Toğrul bəy, Rövşən Hüseynov – Ayəba, Şirzad Abutalıbov – Abuşər, Tofiq Mövləvi – Yad adam, Xəlil Hüseynov – Əcəmi, Vidadi Rəcəbli – Əbülfəz, Yusif Allahverdiyev – Bağban, Bəhruz Haqverdiyev – Ruz, Vüsal Rzayev – Mahmud, Günay Qurbanova – Gülaçar, Kəklik Novruzova – Rəqqasə, Nazlı Hüseynquliyeva – Kəniz rollarında uğurla çıxış edirdilər [3, s. 69].

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və yubiley iştirakçıları tamaşaya baxmışlar.

Qədim sənət ocağı soy kökümüzə, milli qan yaddaşımıza, milli şüurun oyanmasına xidmət etməklə, azərbaycançılıq ideyasının yayılmasına, milli mənəvi dəyərlərə üstünlük verilməsini diqqət mərkəzində saxlayır. Bütün bu müsbət keyfiyyətlər Azərbaycanda yaranmış sağlam mənəvi iqlimin, sosial-ictimai sabitliyin yaranması nəticəsində meydana gəlmişdir. Bu uğurlar



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin apardığı prinsipial, sağlam mənəviyyatlı siyasi kursun bəhrələridir.

Naxçıvan teatrı əvvəlki dönəmlərdə ancaq respublikanın rayonlarında və eləcə də qonşu respublikalarda qastrolda olmuşdusa, müstəqillik illərində isə Türkiyə Cümhuriyyətinin və İran İslam Respublikasının müxtəlif şəhərlərində qastrolda olmuş, Azərbaycan mədəniyyətini, incəsənətini geniş şəkildə tərənnüm və təbliğ etmişdir [5, s. 29].

Müstəqillik illərində Cavid dramaturgiyasına qayıdış milli oyanışın qələbəsi idi. Qədim sənət ocağında ölməz söz ustadının iki şedevr əsəri- "Topal Teymur" və "İblis" teatrın repertuarına daxil edildi. "Topal Teymur"un (29 dekabr 2002), "İblis"in (10 iyul 2003) tamaşaya qoyulması teatrın keçmiş şöhrətinin bərpasına, eyni zamanda milli oyanışın dirçəlişinə xüsusi zəmin yaratdı. Hər iki tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının xalq artisti Kamran Quliyev zəngin mənəviyyatlı bir tamaşa yaratmağa nail oldu. Bu tamaşalar romantik pafosu, yaddaqalımlı rəssam, bəstəkar işi və ilhamlı aktyor oyunu ilə Cavid irsinə dərin məhəbbətin rəmzinə çevrildi [4, s. 110]. Teatrda milli ruh, milli düşüncə hökm sürdü. Fərəhli haldır ki, bütün bu müsbət addımlar yalnız müstəqilliyin, demokratiyanın sənətə gətirdiyi azadlıq və səadətin bəhrəsi idi. Ulu öndər Heydər Əliyev deyirdi: "Naxçıvan teatrı köklü, əsaslı bir teatrdır. Yaxın Şərqin ən qocaman sənət ocaqlarından biri olan Naxçıvan teatrı böyük bir yaradıcılıq yolu keçmişdir. Teatr bu ənənəni bu gün də qoruyub saxlayır".

N.Nərimanovun "Nadir şah" (14 avqust 1997), N.Həsənzadənin "Atabəylər" (10 may 1999), "Pompeyin Qafqaza yürüşü" (16 aprel 2002), C.Məmmədquluzadənin "Qurbanəli bəy" (23 sentyabr 2000), "Dəli yığıncağı" (2 aprel 2005), Elçinin "Mənim ərim dəlidir" (23 mart 2001), "Dəlixanadan dəli qaçıb" ("Mənim sevimli dəlim"-22 oktyabr 2001)), "Ah, Paris, Paris" (18 iyun 2009), S.Vurğunun "Fərhad və Şirin" (28 oktyabr 2002), H.Cavidin "Topal Teymur" (22 dekabr 2002), "İblis" (10 iyul 2003), "Afət" (9 fevral 2005), "Səyavuş" (24 oktyabr 2007), "Şeyx Sənan" (24 oktyabr 2012), M.F.Axundzadənin "Lənkəran xanının vəziri" (12 oktyabr 2004), İ.Əfəndiyevin "Hökmdar və qızı" (30 mart 2004), N.Xəzrinin "Atillanın atlıları" (20 yanvar 2005), Mir Cəlalın "Dirilən adam" (5 aprel 2006), Ü.Hacıbəyovun "Arşın mal alan" (18 sentyabr 2006), K.Ağayevanın "Məhsəti" (17 fevral 2007), H.Arzulunun "Əlincə qalası" (4 aprel 2007), E.Həbibin "Sahilsiz çaylar" (22 noyabr 2005), H.Eyvazlının "Araz sahilində doğan günəş" (10 aprel 2008), A.Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" (10 may 2008), Şəmil Sadiqin "Qana qan qarışdı" (24 dekabr 2009), Müzəffər Nəsirlinin "Qönçəbəyim nəğməsi" (7 aprel 2010), Şəfaət Mehdiyevin "Mirzə Fətəli", İslam Səfərlinin "Göz həkimi" (2 aprel 2013), Əli Əmirlinin "Ağa Məhəmməd şah Qacar" (18 fevral 2014) kimi əsərləri

qədim sənət ocağının müstəqillik illərindəki zəngin repertuar mənzərəsindən xəbər verir.

Naxçıvan teatrı həmişə gözəlliyə, mübarizəyə can atmış, ümumi inkişafa mane olan eybəcərliklərə qarşı ictimai nifrət hissi oyatmışdır. Teatr özünün 125-ci mövsümündə Həsənalı Eyvazlının "Araz sahilində doğan günəş" və Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" əsərlərinə müraciət etdi. 2008-ci ilin aprel ayının 10-da tamaşaya qoyulan "Araz sahilində doğan günəş" əsəri mövzu aktuallığı baxımından diqqəti cəlb edir. Tarixi hadisələrdən götürülmüş mövzu bu günümüz üçün daha aktualdır. Mövzu düzgün seçilmiş, səhnə formalarından uğurla istifadə edilmişdir. Məharətli aktyor oyunu da tamaşaya uğur qazandırır. Tamaşanın əsas qayəsi odur ki, torpaq bizə ata-baba əmanətidir. Onu qoruyub gələcək nəsillərə çatdırmaq isə hər kəsin vətəndaşlıq borcudur.

Adil Babayevin Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş "Koroğlunun Çənlibelə qayıdışı" əsərinin ilk tamaşası Naxçıvan teatrının yaradılmasının 125 illik yubiley ilində – Ulu öndərin anadan olduğu gün, may ayının 10-da sənətsevərlərə təqdim olundu. Tamaşada 1990-cı illərdə Azərbaycanın düşdüyü ağır vəziyyətdən və dahi şəxsiyyət Heydər Əliyevin ölkəni həmin fəlakətdən xilas etməsindən bəhs olunur. Hər iki tamaşaya quruluşu Kamran Quliyev, bədii tərtibatı Əbülfəz Axundov və Hüseynqulu Əliyev vermişdi.

Müstəqillik Naxçıvan teatrına milli düşüncə, milli oyanış gətirdi və nəticədə tamaşaların ideya mərkəzində milli maarifçilik prinsipləri dayandı. Naxçıvan teatrının müstəqillik illərindəki mənzərəsinə nəzər salanda tariximiz, milli qan yaddaşımız və soykökümüzlə bağlı tamaşalara üstünlük verildiyinin şahidi oluruq. Vətənimiz müstəqilliyə qovuşduqdan sonra həyatımızın müxtəlif sahələrində olduğu kimi, mədəniyyət və incəsənət sahələrini öyrənmək, tədqiq etmək sahəsində də geniş şərait yaradıldı. Bu gün fəxrlə deyə bilərik ki, muxtar respublikanın tarixinin, mədəniyyətinin, ədəbiyyat və incəsənətinin öyrənilməsi elmi əsaslara söykənir. Bütün bu müsbət keyfiyyətlər ölkəmizdə bərqərar olan sağlam iqlimin, sosial-ictimai sabitliyin nəticəsi kimi qiymətləndirilir. Bu uğurlar müstəqil Azərbaycan dövlətinin yaradıcısı əvəzolunmaz dahi şəxsiyyət Heydər Əliyevin apardığı prinsipial, sağlam fəaliyyətin nəticəsidir. Heydər Əliyevin siyasi kursunun uğurlu davamçısı, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev teatr sənətinə böyük önəm verərək 2008-ci ilin yanvar ayının 31-də Azərbaycan teatr sənətinin inkişafında özünəməxsus yeri olan, xalqımızın mədəni və ictimai həyatında mühüm rol oynayan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyinin geniş şəkildə qeyd olunması üçün sərəncam imzaladı. Sərəncamda xüsusi olaraq vurğulanır: "Naxçıvan Dövlət Musiqili Dram Teatrı bütün fəaliyyəti boyu



maarifçilik düşüncəsinin daha da geniş yayılmasına çalışmış, xalqın mədəni intibahı, milli oyanışı və gənclərin milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyəsi işinə layiqli töhfələr vermişdir. Naxçıvan teatrı yüksək hazırlığa malik kadrları ilə ölkəmizdə teatr ənənələrinin daha da zənginləşməsi işində yaxından iştirak etmiş və mədəniyyətin ümumi tərəqqisi naminə diqqətəlayiq xidmətlər göstərmişdir".

Ölkə Prezidentinin, eyni zamanda Muxtar Respublika Ali Məclisi Sədrinin imzaladıqları 25 sentyabr 2008-ci il tarixli sərəncamlarla teatrın bir sıra aktyorları Prezident təqaüdü və mükafatına layiq görüldü, fəxri adlarla təltif olundu. Bu teatra göstərilən dövlət qayğısının növbəti bariz nümunəsi idi. Teatrın 125 illik yubileyi 2008-ci ilin sentyabr ayının 27-də təntənə ilə qeyd olundu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov teatrın yubileyindəki məzmunlu məruzəsində demişdir: "Dünya ədəbi fikrinə qüdrətli təsir göstərən ölməz mütəfəkkirlərin zəngin ənənələri ilə bağlı olan Naxçıvan teatrı daim yeniliyə can atmış, mədəni inkişafın carçısı olmuş, geniş mənada maarifçilik işi görmüş, cəhalət və geriliyi damğalayaraq muxtar respublikada mədəni-ictimai fikrin formalaşmasına öz təsirini göstərmişdir. Bu teatr bir tərəfdən ədəbi mühiti canlandırmışsa, ikinci tərəfdən istedadlı aktyor, rejissor və teatr rəssamlarının yetişməsinə səbəb olmuş, ildən-ilə təkmilləşərək imzasını Azərbaycan səhnə yaradıcılığı tarixinə əbədi həkk edə bilmişdir".

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin 2007-ci il 19 fevral tarixli "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" Sərəncamı teatrlarımıza göstərilən diqqət və qayğının bariz nümunəsi idi. Ölkə Prezidentinin teatr sənətinin inkişafı ilə bağlı 2009-cu il 18 may tarixli Sərəncamına əsasən "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı hazırlandı. Bu proqramda Azərbaycan xalqının ictimai-siyasi həyatında, milli mədəniyyətimizin inkişafında əhəmiyyətli rol oynayan Azərbaycan teatrlarının maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq imkanlarının inkişaf etdirilməsi, habelə teatr sisteminin daha da yaxşılaşdırılması məqsədilə tədbirlərin hazırlanıb həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Dövlət Proqramının həyata keçirilməsi işinin tərkibinə Bakıda, respublikanın bütün bölgələrində, eləcə də Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət teatrı binalarının təmir-bərpa və yenidənqurma işlərinin aparılması, zəruri tədbirlərin görülməsi, musiqi alətləri ilə, nəqliyyatla təmin olunması, yüksək səviyyəli nəşr və reklam məmulatlarının, dekor və geyimlərin hazırlanması işinin təşkilinin təkmilləşdirilməsi kimi vacib məsələlər daxildir.

Dövlət Proqramı çərçivəsində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrlarda xeyli sayda layihələr gerçəkləşdirildi, əhəmiyyətli işlər görüldü. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin ardıcıl qayğısı sayəsində Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının binası əsaslı surətdə yenidən qurularaq ictimaiyyətin ixtiyarına verildi.

2012-ci il fevralın 3-də əsaslı yenidənqurmadan sonra teatr binasının açılışında Ali Məclisin Sədri kollektivi təbrik etmiş və onların qarşısında duran vəzifələri xatırlatmışdır: "Bu gün istifadəyə verilən bina teatrın həyatında yeni dövrün başlanğıcıdır. Ona görə də kollektiv Yaxın Şərqin ən gözəl memarlıq abidələrindən biri olan teatr binasında bundan sonra da insanların mədəni səviyyəsinin yüksəlməsinə xidmət etməli, teatrda yeni ənənələr başlamalı, rayonlardakı mədəniyyət ocaqlarında, hərbi hissələrdə vətənpərvərlik mövzularında tamaşalar göstərməli, teatr tamaşaçı hörməti qazanmalıdır".

Milli dramaturgiyamızın banisi Mirzə Fətəlinin anadan olmasının 200 illik yubileyinə respublikanın bütün teatrları kimi Naxçıvan Dövlət Musiqili Dram Teatrı da öz töhfəsini verərək dramaturqun "Xırs quldurbasan" komediyasını (2011) və böyük mütəfəkkirin həyatından bəhs olunan Şəfaət Mehdiyevin "Mirzə Fətəli" dramını (10 mart 2012) tamaşaya qoydu. Hər iki tamaşanın quruluşçu rejissoru xalq artisti Rövşən Hüseynovdur. Mirzə Fətəli Axundzadənin həyat və yaradıcılığından bəhs edən tamaşada böyük ədibimizin parlaq obrazı yaradılmışdır. Görkəmli dramaturqun təhsil illəri, gəncliyi, üzləşdiyi çətinliklər tamaşada öz əksini tapmış, böyük mütəfəkkirin xalqın maariflənməsi yolundakı yorulmaz fəaliyyəti ön plana çəkilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "İslam Səfərlinin 90 illik yubileyinin keçirilməsi haqqında" 18 yanvar 2013-cü il tarixli Sərəncamına əsasən, şair-dramaturqun yubileyi muxtar respublikamızda geniş qeyd olundu. İslam Səfərlinin 90 illik yubileyinin keçirilməsi ilə əlaqədar təsdiq edilmiş Tədbirlər Planında dramaturqun "Göz həkimi" əsərinin də tamaşaya qoyulması nəzərdə tutulmuşdu. Tədbirlər Planına uyğun olaraq Naxçıvan teatrı İslam Səfərlinin "Göz həkimi" pyesi ilə teatr mövsümünü aprelin 2-də açdı. Tamaşaya quruluşu xalq artisti Rövşən Hüseynov, bədii tərtibatı Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Səyyad Bayramov vermiş, musiqi tərtibatını isə bəstəkar Azərbaycan Respublikasının əməkdar artisti Elman Əliyev hazırlamışdı.

Qeyd etmək lazımdır ki, "Göz həkimi" pyesi ilk dəfə 28 mart 1955-ci ildə Naxçıvan teatrının səhnəsində tamaşaya qoyulmuşdur. O zaman İslam Səfərli ilk tamaşaya baxmışdır. Həmin tamaşanın quruluşçu rejissoru Səftər Turabov, rəssamı Məmməd Qasımov idi.



Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında 14 yanvar 2014-cü il tarixdə Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev Sərəncam imzaladı. Sərəncamda deyilir: "Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır. Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri isə 2014-cü ili Muxtariyyət ili elan etdi. Muxtariyyət ilinin ilk günlərində fevralın 18-də Naxçıvan teatrında ilk dəfə yazıçı-dramaturq Əli Əmirlinin "Ağa Məhəmməd şah Qacar" tarixi dram əsəri səhnəyə qoyuldu. Əsər gərgin dramatik səhnələr üzərində qurulmuşdu. Yazıçı təxəyyülünün süzgəcindən keçən Qacar obrazı bacarıqlı sərkərdə və dövlət başçısı kimi daha çox diqqəti cəlb edirdi. Tamaşada Qacar həm də tarixilikdən çıxaraq öz taleyinin girdabında əzab çəkən, bitib-tükənmək bilməyən suallara cavab axtaran bir insan obrazı kimi təsvir olunurdu. Qacar obrazı tamaşaçıya yalnız qəddar və zalım hökmdar deyil, həm də bütün fəaliyyətini xalqının xoşbəxt gələcəyinə həsr edən siyasi xadim kimi təqdim olundu. Azərbaycan Respublikasının xalq artistləri Yasəmən Ramazanova və Rza Xudiyevin, əməkdar artistlər Əli Əliyev, Əbülfəz İmanov, Bəhruz Haqverdiyev və Xəlil Hüseynovun, Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Səməd Canbaxşıyevin yaratdıqları obrazlar tamaşaçı alqışı ilə qarşılandı. Bu alqışlar həm müəllif üçün, həm rejissor üçün, həm də aktyorlar üçün ən böyük tamaşaçı hədiyyəsi idi.

Tamaşanın ərsəyə gəlməsində quruluşçu rejissor Azərbaycan Respublikasının xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Azərbaycan Respublikasının xalq rəssamı Hüseynqulu Əliyev, musiqi tərtibatçısı isə Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi İmanqulu Əhmədov, baletmeyster Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Tamerlan Bağırov xüsusi səy göstərmişlər. Tamaşada diqqəti cəlb edən obrazlardan biri xalq artisti Yasəmən Ramazanovanın xüsusi təravətlə yaratdığı Ceyran xanım surətidir. Ceyran xanım oğlunun hökmranlıq

taleyini və şəxsi əzablarını duyan, onu ruhdan düşməyə qoymayan mətin bir qadındır. Tamaşada hökmdarın anası ilə dialoqlarında, başqa obrazlarla söhbətlərində səsləndirilən fəlsəfi fikirlər, mükalimələr, həyat və ölüm, hakimiyyət və qəddarlıq haqqındakı düşüncələr tamaşaçının diqqətini cəlb edən məqamlardandır.

Tamaşada iştirak edən müəllif tamaşa haqqında fikrini belə ifadə edib: "...baş rolu ifa edən Səməd Canbaxşıyev gənc olmasına baxmayaraq, bu rolun öhdəsindən bacarıqla gəldi. O, bu rolu özünəməxsusluqla ifa etdi. Səməd Canbaxşıyevin yaratdığı Qacar mənim Bakıda gördüyüm Qacardan xeyli fərqli idi. Mənim üçün maraqlı olan o oldu ki, bu tamaşalar bir-birindən fərqli idi. Naxçıvan teatrı təlqin etməmişdi, əsərə yeni bir baxış ortaya qoymuşdu" [6].

Avropa dramaturgiyasında sosial-psixoloji dramın banisi kimi tanınan Norveç dramaturqu Henrix İbsenin (1828-1906) ilk dəfə olaraq yaradıcılığına teatrda müraciət olundu və ədibin "Kuklalar evi" dramı teatrın 131-ci teatr mövsümündə (27 iyun 2014, quruluşçu rejissor Tofiq Seyidov, quruluşçu rəssam Əbülfəz Axundov, musiqi tərtibatçısı Fətəli Axundzadə, məsləhətçi Ələkbər Qasımov, rejissor assistenti Bəhruz Haqverdiyev) səhnəyə qoyuldu. Əsərdə cəmiyyətdə qadının mövqeyi, qadın azadlığı, ailə xoşbəxtliyi, yalan və həqiqət kimi məsələlər ön plana çəkilməklə yüksək bəşəri problemlər qaldırılır. Tamaşaçılar vəkil Helmer və onun arvadı Noranın simasında bir ailənin həyat dramı ilə tanış oldular.

Şair-publisist Taleh Həmidin "Yəhya və Dilqəm" pyesi 2015-ci ilin 9 yanvarında tamaşaya qoyuldu. Aşıq Dilqəm kimi tanınan Yəhya bəyin həyat və yaradıcılığından bəhs edən bu tamaşada hadisələr XIX əsrdə Şəmkir mahalında baş verir. Tamaşada dövrün digər hadisələri– çar Rusiyası ağalığına qarşı mübarizə, milli dəyərlərin yaşadılması və xalqın bu uğurda mübarizəsi ön plana çəkilmişdi. Eyni zamanda teatr İxtiyarın "Qurtuluş dastanı" (15 iyun 2015), N.Nərimanovun "Nadanlıq və ya qəfil telefon zəngi" (17 oktyabr 2015), Tüncər Cücənoğlunun "Rəngsaz" əsərlərinə müraciət etdi.

Naxçıvan teatrının müstəqillik illərində əldə etdiyi nailiyyətlər böyükdür. Bu illər Naxçıvan mədəniyyətinin, incəsənətinin, teatrının baharı olmuşdur. Teatrın nailiyyətləri onun qarşısında yeni üfüqlər açır. Görkəmli alim, sənətşünaslıq doktoru Cəfər Cəfərov Azərbaycan teatrının inkişafında Naxçıvan teatrının tutduğu mövqeyi qiymətləndirərək yazmışdı: "Müstəqil olaraq meydana gələn Naxçıvan teatrı Azərbaycanın başqa şəhərlərində yaranan teatr mərkəzlərindən daha güclü idi və Azərbaycan teatr sənətinin inkişafına daha səmərəli təsir göstərirdi. Naxçıvan Azərbaycan teatrına E.Sultanov, M.T.Sidqi, C.Məmmədquluzadə, B.Kəngərli, H.Cavid,



Ə.Qəmküsar, K.Ziya, R.Təhmasib kimi görkəmli dramaturq, aktyor və teatr təşkilatçıları vermişdir [1, s. 312].

Naxçıvan teatrı axtarış yolundadır. O, yüksək yaradıcılıq zirvələrinə doğru inamla irəliləyir, zəhmətkeşlərin etik və estetik cəhətdən formalaşmasında, gənclərdə vətənpərvərlik hislərinin güclənməsində mühüm rol oynayır. Daha uğurlu nəticələr əldə etmək üçün teatr Azərbaycan teatrları ilə yanaşı, dünya teatrlarının da son nailiyyətlərini diqqətlə izləyərək repertuarının coğrafiyasını daha da genişləndirir, müasirlik və sənətkarlıq mövqeyini daha da inkişaf etdirir.

## ƏDƏBİYYAT


1. Cəfərov C. Əsərləri. 2 c-də, I c. Bakı: Azərnəşr, 1968, 364 s.
2. Qəhrəmanov Ə., İbrahimov S., Cəfərov F. Naxçıvan teatrının salnaməsi. Naxçıvan: "Əcəmi" NPB, 2008, 936 s.
3. Qəhrəmanov Ə. Naxçıvan teatrı müstəqillik illərində. Bakı: MBM, 2008, 92 s.
4. Vəzirov C., Eyvazlı H. Naxçıvan teatrı: dünən, bu gün. Naxçıvan: Məktəb, 2007, 206 s.
5. Vəzirov C., Qəhrəmanov Ə. Окно в 125-летие Нахчыванского театра. // Москва: Наследие (Международный Азербайджанский журнал), 2007, №- 3. s. 28-29.
6. "Şərq qapısı" qəzeti, 21 fevral 2014.

**Ramiz Qasımov**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: ramizasef@yahoo.com.tr

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ NAXÇIVANDA YARANAN ELMİ MƏKTƏBLƏR

Özündə çoxminillik yaşayış, mədəniyyət, dövlətçilik tarixini daşıyan Naxçıvanda elmin inkişafı qədim ənənələrə dayanır. Fəzlullah Nəimi, Nəsirəddin Tusi, Kəmaləddin Naxçıvani, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani və başqalarının timsalında Naxçıvan elm-mədəniyyət yurdu olduğunu təsdiqləmişdir. Məhz bu kimi özünəməxsus ənənələrə dayanaraq Naxçıvan Muxtar Respublikasında elm bu gün də inkişafını davam etdirir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məqsədyönlü siyasəti və zəngin siyasi kursu sayəsində Naxçıvan Muxtar Respublikasında daha da böyük uğurların əldə olunmasına nail olunmuşdur. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında böyük inkişaf yolu keçən elmin özünəməmxsus inkişaf tarixi və nailiyyətləri vardır. "Qədim dünyanın müdrik insanları deyirdilər ki, siyasət aqillərin çiynində və elmin üzərində dayananda uzun ömürlü olur. O siyasət irəli gedir ki, onun elmi kökü var. Tarix o şəxsiyyətləri yaşadır ki, onlar elmə siyasət kimi yox, siyasətə elm kimi baxır, bunu dövlətçilik təcrübəsində həyata keçirməyi bacarırlar" [4, s. 451] – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbovun ulu öndər Heydər Əliyevin dövlətçilik və idarəçilik ənənələrini uğurla davam etdirməsi sayəsində Naxçıvanda elm ciddi və razılıq doğuran bir inkişafa nail olmuşdur.

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan elm sahəsində həmişə öz istedadı ilə ölkəmizi bütün dünyada müvəffəqiyyətlə təmsil etmişdir. Onun qazandığı uğurlar, dünya elminə verdiyi töhfələr məhz burdakı inkişafın nəticəsidir. Naxçıvanda elmin inkişaf etdirilməsi və elmi potensialın məqsədə düzgün yönləndirilməsi dövlətimizin ən ali məqsədlərindən biridir. Çünki Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin siyasi varisi, böyük siyasətçi İlham Əliyevin: "Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan... Naxçıvanın tarixinin hələ tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir" [3], - deyə Naxçıvanda elmin inkişaf etdirilməsini, bu vasilə ilə Naxçıvanın tarixinin, mədəniyyətinin, ədəbiyyatının, təbii sərvətləri, flora və faunasının, yeraltı və yerüstü



təbii ehtiyatlarının və s. öyrənilməsini ciddi vəzifəyə Naxçıvanın bir ordu qədər müdafiəsini təmin edən xüsusi əhəmiyyətə malik mühüm amillərdən birinə çevrilmişdir. Dahi lider Heydər Əliyev də Naxçıvanda elmin inkişafı strategiyasını müəyyənləşdirərkən demişdir: "...Vaxtilə Sovet İttifaqı yarananda, müttəfiq respublikalar yarananda, onların arasında sərhədlər qoyulanda Azərbaycan torpaqlarının bir qismi Ermənistana verilibdir və bunun nəticəsində də Naxçıvan Muxtar Respublikası ərazicə Azərbaycanın əsas torpağından aralı düşübdür. Bunların hamısı Naxçıvanın çox ətraflı öyrənilməsini tələb edir" [2, s. 241-242]. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında elmə göstərilən qayğı yalnız elmi inkişaf etdirmək məqsədi daşımır, həm də ümumilikdə beynəlxalq əhəmiyyətə və xüsusi geostrateji imicə malik olan Naxçıvan Muxtar Respublikasının hərtərəfli öyrənilməsini, onun tarixinin, ədəbiyyatının, mədəniyyətinin və digər sahələrinin tədqiq edilməsini başlıca zərurətə çevirir. Buna görə də razılıqla demək olar ki, "Ölkədə elmin regional inkişafının bu mühüm istiqamətinin ilk növbədə blokada şəraitində olan Naxçıvanda həyata keçirilməsinin həm də dövlətçiliyimizin, ərazi bütövlüyümüzün möhkəmləndirilməsi baxımından da müstəsna əhəmiyyəti vardır" [6, s. 111].

Naxçıvanda elmin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi həm də bu sahələrdə məktəblərin formalaşmasına gətirib çıxarmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadənin: "Əminliklə deyə bilərəm ki, bu gün Naxçıvanda nəinki elm inkişaf edir, həm də elmi məktəblər yaranmaqdadır. Bu, böyük əlamətdar bir hadisədir. Çünki elmi məktəblər olmasa, elmi mühit olmasa, elm inkişaf edə bilməz. Naxçıvanda isə belə bir elmi mühit formalaşıb və elmi məktəblər yaranmaqdadır. Bu, özü bir göstəricidir" [5], – deyə bildirməsi də Naxçıvanda elmi mühitini ciddi inkişaf yolu keçdiyi və sanballı nailiyyətlər əldə etdiyinin rəsmi şəkildə etirafıdır. Aparılan ciddi elmi fəaliyyət Naxçıvanda ədəbiyyat, tarix, dilçilik və başqa elm sahələrində məktəblərin formalaşmasına uğurlu töhfələrini vermişdir. Tarix elmi sahəsində naxçıvanlı alimlərin apardığı tədqiqatlar, çap etdirilən çoxsaylı elmi əsərlər Naxçıvan tarixçilik məktəbinin yaranmasını şərtləndirmişdir. Ciddi elmi tədqiqatılar nəinki tarixşünaslıq elminin inkişafına şərt olmuş, həmçinin tarixşünaslıq elminin müxtəlif sahələrinin – arxeologiya, etnoqrafiya, müasir tarix sahələrinin inkişafı üçün də stimul yaratmışdır. Elmi inkişaf nəticəsində həm də bu elmin inkişafına qüvvələrini sərf edən AMEA-nın həqiqi üzvü, tarix üzrə elmlər doktoru, professor İsmayıl Hacıyev, AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru Vəli Baxşəliyev, AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor Hacı Qadir Qədirzadə, AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor Fəxrəddin Səfərli, AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor Zəhmət Şahverdiyev və başqalarının adı tarixşünaslıq

məktəbinin formalaşması və inkişafında xüsusi mövqeyə malikdir. "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan", "Qədim Şərur", "Naxçıvan və naxçıvanlılar", "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan", "Naxçıvanın epiqrafik abidələri" və sair kimi əsərlər Naxçıvan tarixçilik məktəbinin səciyyəvi cəhətlərini özündə təcəssüm etdirən ciddi elmi əsərlərdir. Ali Məclis Sədrinin sərəncamı ilə hazırlanan "Naxçıvan tarixi" çoxcildliyi də Naxçıvan elm adamlarının konkret uğurlu hesabatı kimi qiymətləndirilə bilər. Bundan başqa naxçıvanlı alimlərin və digər ölkələrdən – Amerika Birləşmiş Ştatları, Fransa, Türkiyə və b. ölkələrdən qatılan elm adamlarının apardığı ciddi tədqiqatların nəticəsi olaraq Naxçıvanda Duzdağ mədəniyyətinin aşkarlanmasını, dünyanın ən qədim duzçıxarma sənəti və mədəninin məhz Naxçıvanda olması faktının təsdiqini tapmasını düzgün elmi tədqiqatların və Naxçıvan tarixşünaslığının nailiyyəti kimi razılıqla qeyd etmək olar.

Naxçıvanda ədəbi mühit, folklor və ədəbi irsin toplanması, öyrənilməsi və nəşri baxımından ədəbiyyatşünaslıq və folklorşünaslıq elmlərinin mühüm xidmətlər göstərməsilə bərabər diqqəti cəlb edən inkişaf yolu keçməsini də deməyə imkan verir. Azərbaycan ədəbiyyatşünaslığı sahəsində müstəqillik illərində yaranan yeni məktəblərdən biri kimi Naxçıvan ədəbiyyatşünaslıq məktəbinin yaranmasını uğurlu inkişafın nəticəsi kimi razılıqla qeyd etmək olar. Görkəmli elm adamı AMEA-nın həqiqi üzvü İsa Həbibbəylinin bilavasitə rəhbərliyi altında Naxçıvanda çoxsaylı ədəbiyyatşünas alimlərin yetişdiyi və Naxçıvan ədəbiyyatşünaslıq məktəbini formalaşdıran ənənələrin davam etdirilməsini təmin etdiklərini qeyd etmək yerinə düşər. Çoxsaylı tədqiqatların sayəsində görkəmli publisist, alim, poliqlot, naşir, Azərbaycanın ilk professorlarından biri, ictimai xadim Məhəmmədağa Şahtaxtılının həyatı və yaradıcılığı ilə bağlı əsaslı materialların əldə edilməsi və çapı, Məhəmmədağa Şahtaxtılının əsərlərinin nəşr edilməsi, böyük ustad Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığı istiqamətində yeni tərcümeyi-hal və yaradıcılıq məhsullarının tapılması, yeni bədii əsərlərinin nəşr edilməsi, görkəmli pedaqoq-yazıçı Məhəmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi və digər çoxsaylı şəxsiyyətlərlə bağlı maraqlı yeni məsələlərin ortaya çıxarılması nailiyyət kimi qiymətləndirilməlidir. Naxçıvan folklor mühiti ilə bağlı yeni elmi tədqiqatların aparılması, "Naxçıvan folklor antologiyası" kitabının 3 cilddə nəşr edilməsi, Naxçıvan folklor mühitini tədqiq və təhlil edən digər çoxsaylı elmi əsərlər folklorşünaslıq sahəsində əldə edilən nailiyyətlər kimi diqqəti cəlb edir.

Naxçıvanda bu inkişafdan təkan alan və özünəməxsus inkişafı təmin edən digər elm sahələri sırasında folklorşünaslıq, dilçilik, sənətşünaslıq və başqa elm sahələri də vardır. Bunu da qeyd etmək lazımdır ki, elm sahələri



arasında daha çox diqqəti cəlb edən və özünəməxsus nailiyyətlərlə səciyyələnən ictimai-humanitar elmlər aparıcı mövqedə gəlir. Dilçiliyin bir elm kimi inkişafını səciyyələndirən mühüm amillərdən biri bu sahədə AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, filologiya elmləri doktoru, professor Sevindik Vəliyev, AMEA-nın müxbir üzvü Adil Bağırov, filologiya elmlər doktoru Akif İmanlı, filologiya elmləri doktoru Sədaqət Həsənova və başqa alimlərin dilçilik elmində tanınması, çoxsaylı dilçi kadrların formalaşması ilə bağlıdırsa, digər tərəfdən mövzu-problem məsələsi ilə bağlı əhatə dairəsi, habelə dilçilik elminin tərkibində onomalogiya elminin fərqlənməsi və ayrılması prosesini şərtləndirən xüsusi inkişaf məsələsi və digər faktlarla bağlıdır. Naxçıvan Muxtar Respublikasının dialekt və şivələri yeni müstəvidə, yeni səviyyədə və tələblər çərçivəsində məhz bu dövrdə öyrənilmiş, yeni toplama işləri aparılmış, daha təkmil dialekt sözlüyü hazırlanmışdır. Elə Naxçıvanla bağlı yer və yurd adlarının da öyrənilməsi bu mənada xüsusilə diqqətəlayiqdir. Naxçıvanın və Naxçıvanla bağlı digər yer adlarının etimologiyası, habelə digər elmi faktlar sayəsində alimlərin Nuh peyğəmbərin dünya tufanı zamanı məhz Naxçıvanda quruya enməsi və burda məskunlaşması barədə fikirləri maraqlı olduğu qədər də Naxçıvanın tarixi ilə bağlı əhəmiyyətli fakt deməkdir. Tədqiqatların nəticəsini işıqlandıran beynəlxalq konfransların, simpoziumların keçirilməsi, xeyli monoqrafiya və tədqiqat əsərlərinin çapı da elmin və təşkilati işlərin uğurlarından xəbər verir.

Naxçıvanda elmlə iqtisadiyyatın və elmlə istehsalatın əlaqələndirilməsi aktual məsələlərdən biridir. Bu baxımdan Naxçıvanın bioresursları ilə bağlı aparılan elmi tədqiqatları və elmi nəticələri də ən böyük töhfə hesab etmək olar. Taxılçılığın inkişafı bölgəmiz üçün nə qədər əhəmiyyətlidirsə, o sahədə aparılan tədqiqatlar da bir o qədər genişmiqyaslıdır. Bu məqsədlə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda taxıl sortları ilə bağlı aparılan tədqiqatlar və əldə edilən uğurlu nəticələr düzgün qurulmuş elmi istiqamətdən xəbər verir. Bundan başqa bioresursların tədqiqi istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada həyata keçirilən bir sıra dövlət proqramlarının, o cümlədən ərzaq ehtiyatı yaradılması, taxılçılığın, meyvəçilik və tərəvəzçiliyin inkişafı və başqa bu kimi proqramların gerçəkləşdirilməsi işinə də öz töhfələrini verir.

Naxçıvanda formalaşan elmi məktəblərin nailiyyətlərini "Naxçıvan abidələri ensiklopediyası" (Azərbaycan və ingilis dillərində), iki cilddə "Naxçıvan Ensiklopediyası", "Naxçıvanın tarixi atlası", "Naxçıvanın Folklor Antologiyası" (3 cilddə), "Azərbaycan xalçaları Naxçıvan qrupu", "Naxçıvanın Teatr Salnaməsi", Naxçıvanın flora və faunasına aid iki kitabda "Qırmızı kitab", "Naxçıvanın arxeoloji abidələri", "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan", "Qədim Şərur", "Naxçıvan və naxçıvanlılar",

"Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan", "Azərbaycan Respublikası şənlik-mərasim nəğmələri", "Naxçıvan ağızları" (türk dilində), "Naxçıvan tarixi" çoxcildliyi və başqa qiymətli əsərlər uğurla təqdim və nümayiş etdirir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. "Azərbaycan" qəzeti, 2002, 7 avqust
2. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə nitqi // Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar). 40-cı kitab. Bakı: Azərnəşr, 2012, 512 s.
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışı. "Xalq qəzeti", 2009, 5 avqust
4. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin hesabat yığıncağında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı // Rəsmi sənədlər (1996-2011). Naxçıvan: "Əcəmi" NPB, 2012, 536 s.
5. Əlizadə A. Naxçıvanda elmin inkişafı elə bir səviyyəyə çatıb ki, burada artıq elmi məktəblər yaranmaqdadır (müsahibə) // "Şərq qapısı" qəzeti, 08 iyul, 2014-cü il
6. Hacıyev İ., Həbibbəyli İ. Heydər Əliyev və Naxçıvanda elmin inkişafı // Azərbaycan Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq ("Elm" qəzetinin xüsusi buraxılışı). Bakı: Elm, 288 s.
7. Hacıyev İ. Naxçıvanda elmin inkişafı: tarixi ənənələr və müasirlik // "Dövlət və din" jurnalı, 2010, № 2 (16)
8. Həbibbəyli İ. Naxçıvanda ədəbiyyat, ədəbiyyatda Naxçıvan // NDU-nun Elmi əsərləri, 2005, № 16.
9. Xəlilov F. Muxtariyyətin ilk illərində Naxçıvanda elmin inkişafı. / Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Beynəlxalq konfransın materialları. Naxçıvan: "Əcəmi" NPB, 2015, 328 s.
10. İsmayıl Z., Qasımov R. Naxçıvan Muxtar Respublikasında elmin inkişafı (1995-2013). / Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Beynəlxalq konfransın materialları. Naxçıvan: "Əcəmi" NPB, 2015, 328 s.
11. Naxçıvan tarixi. Üç cilddə, I c., Naxçıvan: "Əcəmi" NPB, 2013, 452 s.
12. Naxçıvan tarixi. Üç cilddə, II c., Naxçıvan: "Əcəmi" NPB, 2014, 528 s.
13. Naxçıvan tarixi. Üç cilddə, III c., Naxçıvan: "Əcəmi" NPB, 2015, 560 s.





14. Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Beynəlxalq konfransın materialları. Naxçıvan: "Əcəmi" NPB, 2015, 328 s.
15. Qasımov R. Yeni tədqiqatlar və uğurlu fəaliyyət. "Azərbaycan" qəzeti, 2015, 13 avqust
16. Qasımov R. AMEA-nın Naxçıvan Bölməsi ulu öndər Heydər Əliyevin yadigarıdır. "Xalq qəzeti", 2015, 11 avqust

**Firudin Rzayev**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: firudinrzayev@gmail.com

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVANDA PROTOTÜRKLƏRLƏ BAĞLI OYKONİMLƏRİN TƏDQİQİ İSTİQAMƏTLƏRİ

Müstəqilliyimiz əldə olunandan sonra müxtəlif siyasi proseslərin əhatəsində öz muxtariyyatını qazanmış qədim Naxçıvan torpağındakı tarixi inkişaf, təkcə səhiyyə, mədəniyyət, yeni abadlıq işləri və yaşıllaşdırma ilə məhdudlaşmamışdır. Qeyd edək ki, muxtar respublika ərazisindəki elmi mərkəzlərə aid ədəbiyyat, onomastika, tarix, arxeologiya, epiqrafika, etnoqrafiya, folklor kimi elm sahələrində də 20 il ərzində qeyri-adi yüksəlişlərə nail olunmuşdur. Aparılmış tədqiqatlar zamanı bütün bu sahələr geniş araşdırmaların əsl obyektinə çevrilmiş, dilimiz, tariximiz, xalqımızın mənşəyi, inancı və s. istiqamətdə xeyli yeni elmi nəticələr əldə olunmuşdur. Qətiyyətlə demək olar ki, sovetlər dövrü təhrif olunmuş milli kimliyimizlə bağlı bir çox sahələr, yenidən tədqiq olunmuş, bu araşdırmaların elmi nəticələri və tarixi faktları sayəsində bir çox həqiqətlər öz yerini tapmışdır.

Bu baxımdan Naxçıvan əhalisinin etnogenezi məsələsi və onlarla bağlı etnooykonimlər-məntəqə adları da kütləvi tədqiqata cəlb olunmuş, bu istiqamətdə nəinki Naxçıvan, eləcə də Bütöv Azərbaycan dili, tarixi, etnoqrafiyasına dair yeni elmi nəticələr üzə çıxarılmışdır.

Yazılan elmi məqalə və monoqrafiyalarda sovetlər dönəmində adlarda öz izlərini qoyan bu tayfalar, eləcə də onların adı ilə bağlı oykonimlərin əsasən hansı istiqamətdə tədqiq edildiyinə dair məlumatlar verilmiş, təhrif olunmuş tarixi kimliyimizin müəyyən bir qismi yeni tarixi faktlar müqabilində bərpa olunmuşdur. Qeyd edək ki, sovetlər birliyi dönəmində muxtar respublikanın bir çox əraziləri zorla bu torpaqdan qoparılaraq erməni və gürcülərin ərazilərinə qatılmışdır. Müəyyən bir dövrdən sonra bu məntəqə adları tamamilə dəyişdirilərək "erməniləşdirilmiş", "iranmənşəli", "gürcü dilli" hesab edilmiş, buradakı tarix və dil ünsürləri əsasən əcnəbilərə, kiçik xalqlara aid edilmişdir. Təkcə onu qeyd etmək istərdik ki, inqilabdan əvvəl və sovetləşmədən az sonra ermənilərə verilmiş Azərbaycan ərazilərində 195, 1920-2000-ci ilə qədər isə 668 məntəqə adı dəyişdirilərək (cəmi 863 məntəqə adı) "erməniləşdirilmişdir" [34, s. 43-64]. Eyni hadisə Azərbaycanın Naxçıvan qəzasından qoparılaraq fars rejimi altına salınmış Maku nahiyəsi, eləcə də Urmiya ərazilərindəki 193 məntəqə adlarından da kənarda qalmamış, onların da adları dəyişdirilərək farslaşdırılmışdır [2, № 61]. Bütün bu siyasi proseslərdən təbii olaraq bir sual ortalığa çıxır. **Əgər bu ərazi rus, fars siyasəti əsasında qaynaqlara düşən "ermənimənşəli" "iranmənşəli" tayfaların mövcud olduqları ərazilərdisə və buradakı adlar da onlara aiddirsə, o zaman bu adlar nəyə görə dəyişdirilirdi? Əlbəttə ki, bunların ərəb, fars, erməni və s. dillərlə heç bir əlaqəsi olmamış, adlar bütövlükdə qədim türk-Azərbaycan dilində olmuşdur.**



Lakin bu adlara yiyələnən fars və erməni müəlliflərinin əsərlərində oykonimlərdəki qədim tayfa adlarımız və türk dili leksik vahidləri əsasən erməni və fars, ərəb dillərinə aid edilmiş, adlarda yaşayan dilimiz və tariximiz təhrif olunmuşdur. Xeyli antik mənbələrdə istənilən qədər tarixi faktlar mövcuddur ki, bu adları yaradan tayfalar prototürk-Azərbaycan tayfaları olmuş, onlar əzəli Azərbaycan, o cümlədən Naxər-Naxçıvan torpaqlarında avtoxton-yerli sakinlər olmuş, bu ərazilərdən isə ətraf ölkələrə yayılmaqla onlara əski türk mədəniyyətini yaymışlar. Bütün bunlara baxmayaraq məntəqə adları-oykonimləri yaradan prototürklər-protoazərbaycanlılar, Arratta, Mitan, Manna, Midiya, Atropatena, Albaniya dövlətlərimizin tarixinə dair yazılardan silinməmiş, Assur, Hett, Axiyava, Urartu və s. qədim dövlətlərin yazılı salnamələrində öz izlərini qoruyub saxlamışlar. Lakin hələ də ərazilərimizin iddiasında olan xalqlar və onları dəstəkləyən böyük gücə malik dövlətlər bütün bu torpaqlardakı qədim tayfalarımızı başqa millətlərə aid etməklə bu gün belə bu siyasi xətti davam etdirməkdədirlər. Bu tədqiqatçıların əsərlərində As, Turukku, Kuti, Hürri və s. boylar m.ö. II-I minilliklərdə "yox oldular", "yoxa çıxdılar", "tamamilə məhv oldular" ifadələri bir elmi nəticə kimi göstərilir. Göstərilən prototürklərin dili isə "zaqro-elam", "kuti-qafqaz", "kuti-lulubi", "kaspi", "subar-hürrü", "hürrü-lulubi", "elam-kaspi", "şimali-qafqaz" dillərinə parçalanmaqla yüzlərlə kitablarda yer alıb beynəlxalq ictimaiyyətə müxtəlif dillərdə təbliğ edilməkdədir (-F.R.). Hazırda L.Məmməd, S.Qabiev, M.Ömərov, A.Qazıyan, M.Xaçikyan, Q.Qiorqadze kimi yüzlərlə erməni, fars, bəzən də gürcü, kürd, talış, ləzgi müəllifləri Rusiyada, onun paytaxtı Moskvada, Fransada, Amerikada, qədim Azərbaycan şəhəri Dərbənddə belə xüsusi "elmi mərkəzlər" yaradaraq "Dünya dilləri", "Dostani", "Yujdaq" və s. jurnallar təsis edib, burada Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixi, qədim tayfaları və toponimik sistemini tədqiqat obyektinə çevirirlər. Onların yazılarında Azərbaycan türklərinin Kuti, Hürri, Turukki, Kassi, Aratta, Mitan, Manna, Midiya və s. çarlıq və dövlətlərinin tarixi kiçik xalqların "dövlətləri" kimi təbliğ edilməkdədir. Bu xalqın etnogenezinin iştirakçıları olmuş **As, Kuti, Hürri, Turukku (Türk), Kassi, Lulubəy, Subartu, Şu, Bulqar, Koman, Turdi, Tus, Doray, Tal, Pala** və s. türk boyları o zaman tarix səhnəsində izi belə olmayan bu azlıqların "ulu babaları" kimi təqdim olunur, yer adlarımız-oykonimlər onların adı ilə bağlanır, xalqımızın tarixi əsaslı şəkildə təhrif olunmaqla oğurlanır. Belə

uydurma yazı-tarix oğurluğu A.S.Kaziyan, V.A.Xaçaturyan, M.Xaçikyan, kimi erməni tarixçilərinin əsərlərində dünya ictimaiyyətinə təqdim olunmaqdadır [14, s. 168-184; 17, s. 65-71; 18, s. 35-37]. **Onlar bu uydurmalarla** kifayətlənməyərək qədim İkiçayarası mədəniyyəti və etnogenezi erməni tarixi kimi "tədqiq edərək" şumer tarixində hürrit boylarının ərazisinin "Subir", akkadlar tərəfindən "Subaru, Subar, Subarti" adlandırdıqlarını əsas götürərək ərazi və tayfaları Cənub Ermənistan adlandırırlar. Onlar Mitan-Hürrü dövlətlərini də qədim erməni dövləti olduğunu iddia edirlər [38; 39]. Biz bir yazımızda da qeyd etdik ki, **Ermənilərin SUBƏR tarixinə sahiblənmək qəsdləri gələcəkdə ŞUMER-SUMƏR-SUBƏR tarixinə də sahib olmağın başlanğıcıdır (-F.R.)!...** Bununla bərabər "kürd tarixçisi" L.Məmməd kutilərin məskun olduğu tarixi ərazilərimizi "Kürdüstan", gürcü Q.Qeorqadze, Q.Melikişvili, N.Yankovski isə Manna, Hürrü-Mitan ərazilərini "Nairi" adında Gürcüstan ərazisi kimi təbliğ edirlər [28, s. 220-227]. Təbii ki, bütün elm adamlarımız, əsasən də bu sahələrin mütəxəssisləri əsl tarixi üzə çıxarmaqla onu dünya ictimaiyyətinə çatdırmağı qarşıya əsas məqsəd kimi qoymalı, yazılan məqalələri dünya elmi ictimaiyyətinə çatdırmalıdırlar.

Təəssüflə qeyd edək ki, sovetlər dönəmində dilimiz və tariximizi özündə yaşadan adlar sistemi bu siyasətə uyğun tədqiq edildiyindən, Azərbaycan alimlərinin də bir qrupu öz tədqiqatlarında bu mənbələrə istinad etmişlər. Bu səbəbdən də Naxçıvan MR ərazisində haliyədə mövcud olan şəhər, qəsəbə, kənd adlarından Culfa, Noraşen, Muğancıq Müslüm, Muğancıq Mehrab, Behrud, Kırna, Disər, Ərəfsə, Xanağa, Zeyvə və s. kimi xeyli sayda etnooykonimlər "ərəb, fars, erməni" mənşəli kimi izah edilmişdir [1, s. 27-30; 3, s. 26-29; 7, s. 74]. Belə istinadlarda Gil türk tayfa adlı Gilan məntəqə adı Giran kimi təhrif edilərək, fars çarı Kirin adına bənzədilmiş [26, s. 16-23], yüzlərlə bu cür adlar yerli müəlliflər tərəfindən də təsdiq olunmuşdur. Belə yanlış izahlara Sak, Çul, Kol, Maq, Subi, Şirak türk boylarının adını daşıyan Ərəfsaq (Ərəfsə)-"Sak ərlərinin evi", Culfa-"Çul bəyləri", Kilit-"Gil yurdu", Muğancıq Mehrab, Muğancıq Müslüm, "Muğ/manqların qalası", Sirab-"Şir/şirakların evi", Zeyvə-"Sas bəyi"(saspirlər) kimi məntəqə adlarında da rast gəlirik. Qeyd edək ki, burada Muğancıq adlarına qoşulan "mehrab", "müslüm" sözləri ərəb işğalından sonra adlara əlavə olunan sözlərdir. Bu adlar İ.Dyakonov, E.Murzayev kimi əcnəbi alimlərlə yanaşı yerli elm adamlarımız tərəfindən də Ərəfsə-"Üç ərəb", Culfa- "Pambıqatan", Zeyvə-" zaviyyə", Xanağa -"Xanə gah, guşə, ibadətgah" və s., kimi ərəb, fars dillərinə aid edilmişdir [6, s. 185; 7, s. 76-120, 170; 15, s. 103-104; 19, s. 57]. Əlimizdə qədim türk dili sözlükləri olduğu halda bu adların yad dillərə aid edilməsi, ərazilərimizə iddiada olan rus, fars, erməni və digər xalqlarla bağlı mövcud problemləri bir qədər də çətinləşdirir, onların iddiaların dəstək verir, siyasi



fikirlərinə yardım edir. Xüsusi olaraq qeyd etmək istərdik ki, bu cür təriflər As, Türükkü, Kuti, Lulubəy, Hürrü, Naxər, Subər, Şu, Koman, Tus, Turdi və xeyli sayda prototürklərin tarixi və mənşəyi ilə bağlı yüzlərlə tədqiqatda yer alırdı.

Bəs son 20 ildə istər Azərbaycan, istərsə də onun bir parçası olan Naxçıvan elmi birliklərində hansı araşdırmalar aparılmış və bütün bu problemlərə necə aydınlıq gətirilmişdir? Qeyd edək ki, ərazinin xeyli sayda məntəqə adları, istər tayfa adları ilə bağlı, istərsə də mifik təfəkkürün fövqündə yaranmış adlar, qaynaq və mənbələr əsasında müqayisəli təhlil edilmiş, elmi cəhətdən xüsusi əhəmiyyətə malik nəticələr əldə edilmişdir.

Tədqiqatlara diqqət etdikdə son 20 ildə yerli elm adamlarının araşdırmalarında müəyyən etnooykonimlər hələlik tədqiqatdan yayınsa da belə, erməni, gürcü, kürd, talış və s. millətlərin tarixçilərinə yetərincə elmi təkziblər verilmişdir. Aparılmış tədqiqatlarda xeyli sayda tayfa adlarını daşıyan etnooykonimlərin qədim prototürklərlə bağlı olduğu dil, tarix və mənşə baxımından elmi faktlarla əsaslandırılmışdır.

Bu istiqamətdə tədqiqatlarını quran Naxçıvan elmi mühitinin nümayəndəsi A.Bağırovun təkcə son 15 ildə Naxçıvanla bağlı dərc olunmuş "Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri", "Naxçıvan oykonimləri", 2 cilddə yazılmış "Onomalogiya problemləri" və s. kimi elmi əsərləri Naxçıvan toponimik sisteminin tədqiqi istiqamətində elmi cəhətdən xüsusi əhəmiyyətə malik əsərlərdir. Göstərilən monoqrafiyalar respublika, rayon adları-xoronimlər, məhəllə adları-urbanonimlər, dağ, dərə, qaya, zirvə adları-oronimlər kimi ayrı-ayrı bölümləri ilə yanaşı xeyli sayda prototürklərlə bağlı oykonimlərin tədqiqini də özündə cəmləşdirmişdir [4, s. 26-35, 97-120]. Onun Naxçıvan ərazisi daxilindəki oykonimlərin tədqiqini özündə əks etdirən başqa bir monoqrafiyasında Kəngər, Didivar, Xalxal, Ərəfsə, Keçili, Sələsuz, Türkeş, Yurdçu, Bəydili, Əyrək, Xələc və s. adlar ayrıca olaraq ətraflı araşdırılmaqla, əski tədqiqatlardakı yerinə nəzər salınmış, müqayisəli təhlillər aparılmışdır. Nəticədə bu etnooykonimlərin türk tayfaları Türük, Kəngər, Sak, oğuzların Bayat və s. prototürk boyları tərəfindən yaranmasına dair yetərli elmi faktlar göstərilmişdir. Burada bu tayfaların tarixi dövrü və dili, onlarla bağlı oykonimlərin tədqiqi istiqamətləri, yaranma yolları qruluşu və s. problemlər geniş təhlil edilmişdir [3, s. 47, 65-88, 100-111].

Naxçıvan oykonimlərinin tədqiqi istiqamətində digər bir alimin, A.İmanlının araşdırmalarında da bu problemlə bağlı xeyli yeni elmi fikir və nəticələrlə rastlaşırıq. Onun təkcə son illərdə nəşr olunmuş "Şərur və İğdır bölgələrinin yer adları", "Şərur düzünün toponimləri", "Onomastika məsələləri" monoqrafiyaları da xüsusi elmi əhəmiyyət daşıyır. Qeyd edək ki, istər A.Bağırovun, istərsə də A.İmanlının monoqrafiyaları ilə yanaşı

50-dən yuxarı elmi məqalələri də toponimik sistemin, eləcə də etnooykonimlərin tədqiqinə istiqamətlənmiş, Naxçıvanda mövcud olmuş prototürklərlə bağlı oykonimlər araşdırılmış və yeni elmi nəticələr ortalığa çıxarılmışdır.

Qədim dövrlərdən Naxçıvana aid olan Şərur və Sürməli nahiyələrindəki oykonimlərin etimoloji izahlarına toxunan müəllif, onların tədqiqi istiqamətlərinə xüsusi diqqət yetirməklə, yranma yolları və leksik-semantik qruluşlarının izahını vermişdir. Monoqrafiyalarda Şərur, Siyaqut, Axura, Billəva, Danzik, Günnüt, Gümüşlü, Havuş, Xətai, Oğlanqala, Yaycı kimi 50-dən artıq oykonimi tədqiq edən və izahlarını verən müəllif, müxtəlif tayfa adlarını göstərməklə xeyli sayda mənbələrə müraciət etmiş, yeni elmi faktlar göstərmişdir [12, s. 13-45, 94-101, 140-149; 13, s. 17-53].

Akademik İ.Hacıyevin son dövrlər yazdığı elmi məqalələrində Naxçıvan adının mənşəyinə, onu yaradan tayfalara dair fikirləri 2009-cu ildə Naxçıvanda keçirilən beynəlxalq simpoziumda xeyli sayda müəllifin məruzələrində də səslənmişdir. Daha sonra onun Naxçıvan bölgəsinin etnik tarixinə dair yazıları, burada Maq, Bulqar, Peçeneq, Kanq-Kəngər, Abdal, Hun, Quşçu, Gorus, Yaycı, Bəkdilli, Xələc tayfaları haqqındakı yeni elmi faktları da əhəmiyyətli elmi nəticələrlə zəngindir. Bu araşdırmalarda Vənənd, Qafan, Qarabağ, Ərəfsə, Xalxal, Qaraxanbəy, Yaycı, Quşçu, Gorus kimi xeyli sayda məntəqə adlarının yuxarıda qeyd olunan tayfa qolları adından yaranmasına dair göstərilən elmi faktlar, ərazidə protoazərbaycanlıların avtoxton-yerli sakinlər olduğunu təsdiq edir [8, s. 5-12; 9, s. 303-312].

Bu problemlə bağlı tərəfimizdən aparılan araşdırmalarda prototürklərə dair mənbələrə diqqət edilməklə, Azərbaycan adında öz adını yaşadan As türklərinin tariximizdə xüsusi yeri, onların Asər adlandığına dair məlumatların müqayisələri verilmiş, bu istiqamətdə təhlillər aparılmışdır. Herodotun məlumatlarında o dövr türk boylarının yaşadığı **Azərbaycan** ərazilərinin **Asiya** adlandırması bunun **Asər** türkləri ilə bağlılıqları və onların böyük güc olduqları elmi cəhətdən əsaslandırılmışdır. Bununla bərabər Naxçıvan oykonimlərində öz izlərini yaşadan asların varisləri **tus, etrusk, turdetan, bastul-turdetan, qiksos (gök As)** və **qarqarların** olduğu, Araz çayı boyunda ayrıca **Azar-Asər** ölkəsinin olması, turdilərin **As birliyində** fəaliyyəti Strabonun məlumatlarına istinadən elmi cəhətdən əsaslandırılmışdır. Y.Yusifovun eləcə də A.Dovatur, D.Kallistov, İ.Şişovanın yazılarında da bu türk boyları yaşayan ərazilərin hələ m.ö. XXVII-IX əsrlər **Ön, Kiçik və Orta Asiya** adlandıqları elmi cəhətdən təsdiq olunmuşdur. Asların m.ö. VIII əsrdə Assur çarı II Sarqon dövründə **Azari-"As əri"** adlı şəhəri və burada Lulu, Turuk, Zəngi, Koman türklərinin yaşaması, **Turdetan** ölkəsinin Dörd As tayfalarının yurdu olması, Asər boylarının m.ö. VI minillikdə əlifbaya sahibliyi elmi faktlarla



təsdiqlənmişdir. Naxçıvan ərazisi olmuş Nüvədi ərazilərində As əlifba işarələrinin mövcudluğu isə Arazboyu ərazilərdə asların yerli sakinlər **Azər** sözünün ayrıca ölkə adı da olduğu faktlar əsasında elmi təsdiqini tapmışdır. Bütün bunlarla yanaşı təkcə As türkləri ilə bağlı Naxçıvan ərazisində 51 məntəqə adı tədqiqata cəlb edilmiş, etimoloji mənaları açıqlanmışdır. As tayfa adını daşıyan Astabad, Aseçe, Asti, Asqəmər, Asnabert, Ərdalas, Asayaş, Astün, Asaxan, Akaras, Azərku, Asni, Asak, Aştarak kimi məntəqə adlarının bu tayfalarla bağlılığı tarixi və dil faktları ilə tam olaraq təsdiq edilmişdir [27, 53-92].

Son dövr tədqiq olunan, lakin sovetlər dövrü təhrif olunub qeyri millətlərin adına yamanan tayfalardan biri də Nuh adını daşıyan, mənbələrdə "Naxçıvan ölkəsi və vilayəti" adında öz izlərini qoyan Naxər türkləri olmuşdur. Lakin Naxər tayfa və Naxarina ölkə adı kimi m.ö. XVI əsrdə, Misir fironu III Tutmosun (m.ö. 1504-cü il) salnaməsində Mitan ölkəsi kimi qeyd olunan bu əyalət, ölkə adı da [37, s. 223-235] türk alimləri tərəfindən tədqiq edilməmişdir. Bu problem istiqamətində də ilk olaraq tədqiqat aparan əcnəbilər olmuş, onların tərəfindən tədqiq olunan naxərlər, As türklərinin "azər" şəklində farslara aid edildiyi kimi, bu tayfalar da qeyri xalqlara aid edilmişdir. Naxçıvanda son dövrlər aparılmış araşdırmalarda mənbə yazıları, salnamə və tarixi qaynaq məlumatlarına əsasən tədqiq olunan bu tayfaların prototürk-Azərbaycan tayfaları olduğu xarici jurnallarda da elmi cəhətdən əsaslandırılmışdır [30, s. 132-136; 31, s. 132-136].

Bütün bu tədqiqatlarla yanaşı xüsusi qeyd etmək istərdik ki, Naxçıvan Muxtar Respublikasında son 20 ildə bu istiqmətdə keçirilən beynəlxalq simpozium və konfranslar da Naxər türkləri, eləcə də digər prototürklərlə bağlı əsaslı elmi əhəmiyyətli nəticələrlə yadda qalmaqdadır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun ciddi səyi ilə Naxçıvanda keçirilən bu cür simpozium və konfranslarda iştirak edən Türkiyə, Amerika, İngiltərə, Almaniya, Fransa, Rusiya, İran və s. ölkələrdən gəlmiş alimlərin də iştirakı bu problem ətrafında xeyli naliyyətlərlə yekunlaşmışdır. Ərazinin tarixi, arxeologiyası, etnoqrafiyası, folkloru və digər mövzularıyla yanaşı əhalinin etnogenezi məsələləri də bu simpozium və konfranslarda geniş tədqiqat obyektinə çevrilmiş, təkcə Naxçıvan deyil, Bütün Azərbaycan tarixi, eləcə də dünya tarixi ilə bağlı yeni elmi nəticələr əldə edilmişdir.

2006-cı ildə Naxçıvanda keçirilən "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" beynəlxalq simpoziumunda məruzə edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri V.Talıbov, "naxçıvanşünaslıq" məsələsini önə çəkməklə yanaşı xeyli problemlərin öz həllini gözlədiyini də xüsusi vurğulamışdır [23, s. 7-15]. Məruzələrdə İ.Həbibbəyli, İ.Hacıyev, Ə.Quliyev, F.Səfərli, Q.Qədirzadə, V.Baxşəliyev və

b. tarix arxeologiya, folklor, etnoqrafiya və qədim yazılardan, eləcə də Naxçıvan etnooykonimləri və m.ö. dövrlərdə yaşamış tayfalardan da bəhs etmişdilər (yenə orada, s. 334-360). Burada əcnəbi alimlərindən M.Aci, Y.Kalafat, X.İvgin, G.Öz, N.Tan, T.Öcal və b. məruzələrində qədim Naxçıvan ərazisi ilə bağlı yeni elmi faktlar üzə çıxmışdır.

2008-ci ildə bu qədim diyarda keçirilən "Naxçıvan bu gün: islahatlar perspektivlər" adlı növbəti beynəlxalq simpoziumda Ali Məclisin sədri V.Talıbov xeyli sayda problemlərin hələ də öz həllini gözlədiyi barədə yetərli faktlar göstərmişdir. Simpoziumun məruzələrində xüsusi əhəmiyyətli problemlərlə yanaşı A.Bağırov, A.İmanlı eləcə də tərəfimizdən Naxçıvan oykonimləri əsasında etnogenez məsələlərinə toxunulmuş, S.Qaşqay, B.İbrahimov, H.Həsənov, E.Arif və b. məruzələrində isə etnoqrafiya, arxeologiya, eləcə də erməni məsələləri ilə yanaşı Naxçıvan əhalisinin etnogenezi məsələlərinə dair fikirlər də söylənilmişdir [20, s. 12-14, 69-71, 242-250, 295-300 və s.].

Bu cür yadda qlan beynəlxalq əhəmiyyətli elmi toplantılardan biri də 2009-cu ildə Naxçıvanda keçirilən "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumu olmuşdur. Bu elmi simpoziumda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri V.Talıbovun məruzəsində Nuhla bağlı adlar sadalanmış, Naxçıvan Nuhun saldığı şəhər olaraq elmi və tarixi faktlarla əsaslandırılmışdır. Ali Məclis sədri m.ö. II yüzillikdən qaynaqlara düşən bu adın "Naksuana", "Nəqşi-cahan", "Nəşəva" kimi yazılışlarını, ərazinin və buradakı əhalinin çox qədim dövrlərə aid olduğunu iştirakçıların diqqətinə çatdırmışdır [25, s. 10-16]. Simpoziumda akademik İ.Həbibbəyli, İ.Hacıyev, Y.Mahmudov, N.Cəfərov, Ə.Quliyev, F.Səfərli, A.Bağırov, Q.Qədirzadə, V.Baxşəliyev və b. 30- yaxın yerli elm adamları, eləcə də Y.Kalafat, X.İvgin, G.Öz, N.Tan, T.Öcal kimi türk alimləri etnogenezlə bağlı xeyli elmi faktlar üzə çıxarmaqla Naxçıvan ərazisinin qədim türk-Azərbaycan yurdu olmasını tarixi faktlarla təsdiq etmişlər. Burada qədim Şumər əfsanəsinin Naxçıvanla bağlılığı və tarixi gerçəkliyi ərazidəki Gəmiqaya təsvirləri, piktoqrafik yazı nümunələri, toponimik adlar sistemi və prototürklərlə bağlı yeni faktlar əsasında öz təsdiqini tapmışdır [25].

2012-ci ildə isə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" beynəlxalq simpoziumu elmi cəhətdən daha əhəmiyyətli nəticələr ortalığa qoymuşdur. Ali Məclisin sədri V.Talıbovla yanaşı İ.Həbibbəyli, İ.Hacıyev, Y.Mahmudov, V.Əliyev N.Cəfərov, Ə.Quliyev, F.Səfərli, A.Bağırov, Q.Qədirzadə, V.Baxşəliyev, R.Babayev, Q.İsmayılzadə, B.İbrahimov kimi alimlərin 33 məruzəsi dinlənilmişdir. Burada ilk şəhr mədəniyyəti ilə yanaşı ərazinin etnogenez məsələlərinə də toxunulmuş, yeni elmi fikirlər irəli sürülmüşdür [22, s. 187-196, 300-308]. Bununla bərabər O.Bəlli Y.Kalafat



T.Öcal, M.İşıklı kimi türk alimləri, Vitali Otraşenko, Katherino Marro, Lauren Ristvet, Hilariy Gopnik, İştvan Erdeli, Bəhram Ajoroloo, Remi Berthon, Zsofia Eszter Kovacs, Vim Van Neer kimi rus, alman, fransız, ingilis alimlərinin də Naxçıvanın qədimliyinə və ərazi mədəniyyətini yaradan əhaliyə dair məruzələri dinlənilmişdir [ətraflı bax, 22].

2013-cü ildə "Naxçıvan: ilkin şəhər və Duzdağ" beynəlxalq simpoziumunda da digər mövzularla yanaşı etnogenez məsələləri ilə bağlı məruzələrlə də yadda qalmışdır. Bu simpoziumda da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri V.Talıbov ərazini tarixilik, müqəddəslik, yeni həyatın başlandığı yer kimi səciyyələndirmiş, ən qədim duz yatağının məhz bu ərazidə mövcudluğuna dair elmi faktlar göstərmişdir [21, s. 6-8]. Buradakı məruzələrdə bu mədəniyyəti yaradan tayfalarla bağlı Azərbaycan alimləri ilə yanaşı türk, iran, rus, alman, fransız, ingilis alimlərinin birlikdə 55 məruzəsi dinlənilmiş və etnogenez məsələləri bu toplantıda da əsas problem kimi səslənmişdir [yenə orada, s. 102-112].

Simpoziumlardakı məruzəçilərin yazılarında qədim qaynaq və yazılı mənbələrə əsasən Naxçıvan əhalisinin as, türükkü, hürrü, kuti, lulubəy, koman, şu, şubar kimi boylardan ibarət olduğu, hələ m.ö. II minilliyə aid yazılarda Naxçıvanın "NAXAR"ain yazılışında Mitan ölkəsi, Urartu yazılarında isə MÂTU NAKRU-"Naxru ölkəsi" kimi Lulubəy türkləri ilə ittifaqda olması elmi cəhətdən əsaslandırılmışdır. Y.Vahabovun yazılarına istinadən m.ö. III minillikdə Nax tayfalarının Naxçıvan ərazisindən İrak, Çeçen yurdlarına yayıldığı, Nax dilindən sarmat dilinin yarandığı da [35, s. 174-182] elmi faktlarla sübut olunmuş və yeni elmi faktlar ortalığa qoyulmuşdur. Bu məruzələrdə Naxçıvan ərazisinin və burada yaşamış Naxər türklərinin ölkə xalq kimi bu tarixlərdən xeyli qabaq mövcudluğu tamamilə yeni elmi mənbələrlə təsdiqlənmişdir [29, s. 300-308].

Biz bir neçə elmi məqalədə Naxçıvan ərazilərində hələ m.ö. IV minillikdən Naxər türkləri ilə bərabər **Türk** boylarının da yerli sakinlər olmasına dair mənbələrə istinadən tarixi faktlar göstərmiş [36, s. 310, 480, 514; 37, s. 338], lakin bu tarixin də əcnəbi alimlər tərəfindən təhrif edilfiyinə dair məlumat vermişik [28, s. 220-227]. Qeyd etmək istərdik ki, Herodot, Strabonun m.ö. VI minilliyə dair məlumatlarında **tirsen, tirit, Turas və turdetan** kimi tayfalar türklərin ulu babaları hesab edilmiş, Assur-Babil mənbə və yazılarında m.ö. II minillikdə **Turukki** ölkə və tayfa adı olaraq **mât tu-ru-ki-i, tu-ru-ki-i** kimi göstərilmişdir. Qaynaqlara **türükkü, turukku** şəklində düşən bu tayfaların Tarxan nəslindəki Tarku-Türki tanrı adından gələn, turdi varisləri etrüsklarla bağlandığını, sovetlər dövrü bu tanrının ermənilərə aid edilməsi haqda ətraflı məlumat vermişik. Bu məlumatlarda Azərbaycanımızın Urmiya gölü ətrafında m.ö. III minillikdə Quti dövlətinin süqutundan sonra Turukku,Tük boylarının kiçik çarlıqları

olması və burada onların yerli sakinlər olduqları, L.Delaporte və N.Quterbokun yazılarında m.ö. III minillikdə akkadlarda Q.Dossi və C.Çarlzın yazılarında isə m.ö. II minillikdə assurlarda çəkildiyi göstərilir. Onlar I Adadnerarinin yazılarında bu ərazidəki siyasi hadisələrdə kas, kuti, lulubi, naxərlərlə birgə iştirak edirlər. Bu fakt isə onların böyük güc olduqlarını sübut edir [27, s. 129-149].

Son 20 ildə əski türk tayfalarının adını daşıyan etnooykonimlərin bir qrupunun elmi cəhətdən tədqiqinə, eləcə də qədim tayfalarla bağlı yeni fikirlərə Naxçıvan elmi mühitindəki elm adamlarının elmi məqalələrii və monoqrafiyalarında da rast gəlirik. Bu yazılarda etimoloji izahlarla yanaşı əcnəbi alimlərinin uydurmalarına əsaslı elmi təkziblərlə də qarşılaşırıq. Naxçıvan elmi mühitində İ.Həbibbəyli, İ.Hacıyev, Ə.Quliyev, F.Səfərli, Hacı Qadir Qədirzadə və b. "Naxçıvan" sözünün mənası və onun qədim türk tayfası Naxç, Naxər, yazılışları ilə tarixi qaynaqlara düşən tayfa adının Nuh adından gəlməsinə dair göstərdiyi elmi faktlar da bu istiqamətdə xüsusi elmi əhəmiyyət daşıyır.

Akademik İ.Həbibbəylinin elmi məqalələrində Naxçıvan şəhərinin qədimliyi ilə yanaşı "Naxçıvan" sözünün mənşəyi onun Nuhla bağlılığı və Naxər türk adının buradan gəlməsi fikri elmi cəhətdən əsaslandırılır. Bu tayfa adı ilə bağlı Nehrəm, Nəhəcir, Nuhdaban kimi adların etimoloji izahları da yeni faktlarla əsaslandırılır. Eyni istiqamətdə Ə.Quliyevin araşdırmaları adın Nuhla bağlılığı və Naxç tayfa adının buradan gəlməsi kimi yeni elmi faktlar son dövrün elmi nailiyyətləridir [11, s. 20-28; 16, s. 27, 30, 24, s. 104-140].

Naxçıvanın Nuhla bağlılığı istiqamətində F.Səfərlinin "Tarixi mənbələrdə Nuh peyğəmbər", eləcə də "Gəmiqaya abidələri" məqaləsi də elmi baxımdan gərəkli faktlarla zəngindir. Burada ayrıca olaraq Nuh tufanı motivlərinə toxunulmuş, Naxçıvan, Nəhəcir, Nehrəm kimi məntəqə və şəhər adının Nuhla bağlılığına dair faktlar göstərilmişdir. Burada eyni zamanda Nuh və övladları, onlarla bağlı deyimlər, yer adları da geniş yer alır ki, bu da Naxçıvanın Nuhla bağlılığı məsələsində xüsusi elmi əhəmiyyətə malik olub ərazinin qədimliyini və türklərə məxsusluğunu bir daha sübut edir [32, s. 46-49; 33, s. 32]. Bu mövzu Hacı Qadir Qədirzadənin "Nuh peyğəmbər dünya tufanı və Naxçıvan" monoqrafiyasında da genişliyi ilə yer alır. Monoqrafiyada Nuh tufanının başvermə səbəbləri, müddəti, oturduğu yer, Gəmiqaya və Naxçıvan mövzusu tədqiq edilmişdir. Nuh əfsanəsinin tarixi həqiqət olması Naxçıvan şəhərinin ilk yaranışı və buradakı adətlər və inancların əski türklərə mənsubluğu kimi xeyli sayda problem məsələlər tarixi və etnoqrafik faktlar müqabilində öz geniş elmi şərhini tapmışdır [10, s. 57-66, 89-92, 96-101].

Eyni motiv və tədqiqat istiqamətinə son 20 ildə nəşr olunmuş



V.Baxşəliyevin "Gəmiqaya təsvirlərinin poetikası" monoqrafiyasında da rast gəlirik. Burada Şumer əfsanəsinin təhlili, Gəmiqaya rəsmlərinin məzmunu ilə yanaşı Nuhun gəmisinin Naxçıvanda yerə enməsinə dair əfsanə və rəvayətlər, buradakı həqiqət və qeyri-reallıq motivləri geniş və müqayisəli təhlil edilmişdir [5, s. 10-16]. Bütün bunlar isə son 20 ildə Naxçıvan elm adamlarının gərgin və ağır zəhmət tələb edən elmi fəaliyyətinin göstəriciləridir.

Nəticə olaraq deyə bilərik ki, ümumilikdə götürülərsə, son 20 ildə istər etnogenez, istərsə də Nuh Naxçıvan bağlılığına dair Naxçıvanda elm adamlarının 200-dən yuxarı elmi məqaləsi, 40-a qədər monoqrafiyaları bu problemlərə istiqamətlənmiş, xeyli sayda elmi nəticələr əldə edilmişdir. Xüsusi olaraq qeyd etmək istərdik ki, ümum Azərbaycan və onun bir parçası olan Naxçıvanda elm adamları əcnəbi alimlərin hər cür təhdidlərinə də elmi faktlar əsasında cavab vermiş, bu baxımdan Rusiya, Türkiyə, Amerika, Almaniya, Ukrayna və s. ölkələrdə 80 - dan yuxarı elmi məqalə dərc olunmaqla burada etnogenez məsələsi elmi cəhətdən əsaslandırılmışdır. Lakin bu cavablara baxmayaraq, məqalələr onların dünya dövlətlərinə yaydıqları uydurma tarix kitablarına tam olaraq yetərli cavab vermir. Fikrimizcə, bu problemlərlə bağlı xüsusi elmi mərkəzlər yaradılmalı və bu problemi əks etdirən dərc olunmuş kitablar dünya dövlətlərinə yayılmalıdır. Yalnız bu halda belə siyasi uydurmaların qarşısı alınar və əsl tariximiz, etnogenezimiz tarixdəki layiqli yerini ala bilər.

## ƏDƏBİYYAT


1. Allahyarov K.A. Naxçıvan sözünün mənşəyi və mənası // Naxçıvan: NDU, Qeyrət, 2002, № 14, s. 27-30.
2. Azərbaycanın səsi-Nəvadi Azərbaycan qəzeti, Urmiya, 2006, avqust № 61
3. Bağırov A.N. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 333 s.
4. Bağırov A.N. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2002, 288 s.
5. Baxşəliyev V.B. Gəmiqaya təsvirlərinin poetikası Bakı: Elm, 2002, 128 s.
6. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва: Наука, 1956, 485 s.
7. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı: Universitet nəşr., 1991, 312 s.
8. Hacıyev İ.M. Naxçıvan bölgəsinin etnik tarixinə dair // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai Humanitar elmlər seriyası, 2009, №1, s. 5-12.
9. Hacıyev İ.M., Rzayev F.H. Bir daha "Naxçıvan" sözünün etimologiyası haqqında // Tarix və onun problemləri. Bakı: AMEA, 2007, № 2, s. 303-312

10. Hacı Qadir Qədirzadə. Nuh peyğəmbər dünya tufanı və Naxçıvan. Naxçıvan: Qızıldağ, MMC nəşri, 2008, 192 s.
11. Həbibbəyli İ.Ə. Naxçıvan şəhərinin yaşı-5 min il / Naxçıvan Muxtar respublikasını yaranması: tarix və müasirlik. Bakı: Nurlan, 2007, s. 20-28, 406 s.
12. İmanlı. A. K. Şərur və İğdır bölgələrinin yer adları. Naxçıvan: NDU Qeyrət, 2008, 159 s.
13. İmanlı A.K. Şərur düzünün toponimləri. Bakı: Nurlan, 2008, 116, s.
14. Казиян А.С. Хаттский язык // Языки мира: Древние реликтовые языки Передней Азии / РАН. Институт языкознания. Москва: Academia, 2010, s. 168-184.
15. Гейбуллаев Г.А. К этногенезе азербайджанцев. Т. I, Баку: Элм, 1991, 548 s.
16. Quliyev Ə.A. "Naxçıvan" sözünün mənşəyi haqqında// Naxçıvan jurnalı, Naxçıvan: "Əcəmi" NPB, 2000, №2, s. 27-30
17. Лятиф Маммад. Кардуена –колыбель кюрдского народа // Дружба (Dostani). Москва: Админинстратор, 2003 г., № 22, s. 70-71.
18. Лятиф Маммад. Мидийцы в этногенезе курдского народа // "Дружба" (Dostani), № 12. Москва: Админинстратор, 2001. s. 35-37.
19. Мурзаев Э.М. География в названиях. Москва: Наука, 1979, 168 с.
20. Naxçıvan bu gün: islahatlar perspektivlər (Beynəlxalq simpoziumun materialları). Bakı: Nurlan, 2008, 548 s.
21. Naxçıvan: ilkin şəhər və Duzdağ (Beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2013, 360 s.
22. Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (Beynəlxalq simpoziumun materialları) Naxçıvan: "Əcəmi" NPB, 2012, 398 s.
23. Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. Bakı: Təhsil, 2006, 504 s.
24. Naxçıvan tarixi I c. Naxçıvan: "Əcəmi", 2013, 452 s.
25. Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2009, 300 s.
26. Piriyev V.Z. "Giran" yoxsa "Gilan" // Elmi əsərlər, Bakı: AMEA Tarix İnstitutu, 2008, s. 16-23.
27. Rzayev. F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c., Naxçıvan: "Əcəmi" NPB, 2014, 448 s.
28. Rzayev F.H.. Naxçıvan ərazisindəki prototürk tayfalarının tədqiqi istiqamətləri // Naxçıvan muxtariyyəti tarixi nailiyyətdir.(04-05 iyul 2014-cü ildə keçirilmiş Beynəlxalq konfransın materialları). Naxçıvan: "Əcəmi" NPB, 2015 s. 220-227.
29. Rzayev F.H. Nuh adı ilə yaranmış qədim türk tayfası "naxərlər / Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2012 s. 300-308.

30. Рзаев Ф.Г. Протоэтносы Асы в этногенезе Азербайджанцев. (На основе Нахчыванских этноойконимов) // Актуальные проблемы гуманитарных и естественных наук. Москва: Литера, 2012, №3 (38), ISSN 2073-0071, с. 132-136.;
31. Рзаев Ф.Г. Племена Нахары в тногенезе древних Нахчыванцев // Етнична Iсторiа Народiв Европи. № 41, ISSN 2309-9356. Киев. Папiр Офсет, 2013 с. 132-136.
32. Səfərli F. Tarixi mənbələrdə Nuh peyğəmbər. Naxçıvan: "Əcəmi" NPB, 2015, 160 s.
33. Səfərli F. Gəmiqaya abidələri // Naxçıvan jurnalı, 2000, № 2, s. 32.
34. Tarixi adlara qarşı soyqırımı. Bakı: Təhsil, 2006, 91 s.
35. Вагапов Я.С. Проблема происхождения нахского этноса в свете данных лингвистики // Сб. Проблемы происхождения нахских народов. Махачкала- СМОМПК, 1996, s. 174-182.
36. Всемирная история. Т. I, Москва: Госиздат,1956, 746 s.
37. Yusifov Y. B. Qədim şərq tarixi. Bakı: Bakı Universitet, 1993, 496 s.
38. www. Drevniy mir.academic.ru/5382/Субарту.
39. www. chronologia.org/xpon5/17.html.

**Fəxrəddin Eylazov**
AMEA Naxçıvan Bölməsi
E-mail: eylazov.f@gmail.com

# AMEA NAXÇIVAN BÖLMƏSİ ƏLYAZMALAR FONDUNDA SAXLANILAN NAXÇIVANLI MÜƏLLİFLƏRİN ƏLYAZMALARINA BİR BAXIŞ

Azərbaycan xalqı min illərlə ölçüyə, qiymətə sığmayan böyük mənəvi sərvət yaratmışdır ki, bugünkü və gələcək nəsillərin duyğu və düşüncəsinin, dünyagörüşünün formalaşması üçün ən əhəmiyyətli vasitələrdən biridir.

Dünyanın qədim mədəniyyət ocaqlarından biri olan Azərbaycanda da bu yolla yaranmış minlərlə əlyazma Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

Təməli ümummilli liderimiz H.Əliyev tərəfindən qoyulan AMEA Naxçıvan Bölməsi və onun tərkib hissəsi olan Əlyazmalar Fondu bu ənənəni davam etdirmiş və qısa zaman kəsiyində Fondun profilinə uyğun 451 adda əlyazma toplaya bilmişdir. Toplanılan əlyazmalar arasında Naxçıvanın tarixi və mədəniyyəti ilə bağlı bir sıra tədqiq olunmamış əlyazma, qədim kitab və məktublar vardı ki, bunlardan Mirzə Məhəmməd Haşim ibn Müseyib Naxçıvaninin (Həqaiqi-ət-tarix), Məhəmməd Həsən Ordubadinin (Astronomiya), Məhəmməd Tağı Sidqinin (Məktub), Molla Məhəmməd Naxçıvaninin (Səhabəd-dumu), Hatif İsfahani və Fazil Naxçıvaninin (Tibbinamə) əsərlərini göstərmək olar. Fondda toplanılan əlyazmaların mövzu müxtəlifliyini ümumi şəkildə aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

a) Tarix, dil və ədəbiyyat;
b) Məntiq və fəlsəfə;
c) Təfsir və hədis;
d) Fiqh və ilahiyyat;
e) Həndəsə və asrtonomiya

Fondda mühafizə olunan "Qürrətül-əbsar" əsərinin müəllifi h.q. 1268-ci (1847) ildə anadan olmuş naxçıvanlı Molla Məhəmməd Naxçıvanidir. Molla Məhəmməd Naxçıvani Azərbaycan mərsiyyə ədəbiyyatında digər şairlər kimi Kərbəla hadisəsi və şəhidlərin necə şəhadətə çatdıqlarından bəhs edən və "Səhabəd-dumu" " Buludlar göz yaşı" adlı, azərbaycan dilində üç cildlik əsərini yazmışdır. Birinci cild "Qürrətül-əbsar" əsəri, Həzrəti Məhəmməd (s), İmam Əli (ə), Fatimə (ə) İmam Həsən və İmam Hüseynin (ə) həyatları haqqındadır. H.q. 1316-cı (1895) ildə şairin sağlığında Təbrizdə çap olunmuşdir. İkinci cild "Dürrətül-əbrar" adlandırılmışdır ki, Kərbəla hadisəsi barəsindədir. Üçüncü cild isə "Məzahirül-ənvar fi əqaidul-əxyar" adı ilə adlandırılıb. Bu kitabda əqidə və imanın əsaslarından bəhs olunur. Molla Məhəmməd Naxçıvani özünün bu əsərində ərəb və fars şeirlərinə də yer vermişdir (Şəkil 1). Molla Məhəmməd Naxçıvani hicri tarixi ilə 1334-cü (1913) ildə 66 yaşında Kərbəlada vəfat etdiyi qeyd edilir. Qəbri Nəcəfi-Əşrəfdə yerləşir [1, s. 6].





*Şəkil 1*

Müseyib Naxçıvaninin Fondda saxlanılan əsərinin adı Həqaiqi-əl-Tarix olduğu ehtimal olunur. Əsərin sonunda götərilən tarixdən (hicri qəməri 1226 (1805)) və möhürdən bu qənaətə gəlmək mumkündür ki, Mirzə Məhəmməd Haşim ibn Müseyib Naçıvani XVII əsrinin ikinci yarısı, XVIII əsrin əvvəllərində yaşamışdır.

Əsərin əvvəlindən bir qədər düşdüyündən onun adını dəqiq müəyyən etmək çətindir. Əsər mövzu etibari ilə islam tarixini əhatə edir. Ərəb-fars dilində yazılmış bu əsərdə Şərq paginasiya (vərəqləmə) üsuluna tam əməl olunmuş, yəni sonrakı vərəqin ilk sözü əvvəlki vərəqin aşağı hissəsində yazılmışdır (bu cür vərəqləmə üsulu "kustod" adlanır) [1, s. 64]. Mövcud əsərin həcmi 338 vərəq, mətnin yazılı hissə 23x13sm, vərəqin ölçüsü 28x20sm, hər səhifədəki sətrin sayı 23-ə bərabərdir (Şəkil 2).

İslam tarixini əhatə edən bu əsər 20 məclisdən ibarətdir. Başlıqlar qırmızı rənglə verilmiş, aşağısından xətt çəkilmişdir (2, s. 13).



*Şəkil 2*

AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda mühafizə olunan qədim kitab və əlyazmalar arasında digər qaynaqlarla yanaşı tibb tarixi və təbabətin digər sahələrini əhatə edən əlyazma nüsxələri də qorunub saxlanılır. Bunlardan biri h.q. 1302 (1880 miladi) ilində çap olunmuş "Böyük Qarabaddin" əsəridir. 24 babdan (bölmədən), 61 fəsildən ibarət olan nüsxə 416 səhifədən ibarətdir. Nüsxənin mətn yazılı hissəsi 24.5x16 sm, vərəqi 31.5x20.5 sm, hər vərəqdə sətrin ümumi sayı 25-ə bərabərdir. Nüsxə fars dilində nəstəliq xətti ilə çap olunmuşdur. Nüsxənin müqəddimə hissəsində göstərilən məlumatda əsərin müəllifinin Əzəm xan olduğunun və Məhəmməd Əbdürrəhman xan tərəfindən tərtib olunaraq çap olunduğu qeyd edilir. Nüsxənin sonunda verilən cədvəl şəkilli xülasənin (Şəkil 3) Fazil Naxçıvani tərəfindən işləndiyi müəyyən olunmuşdur. Müxtəlif qaynaqlarda Fazil Naxçıvani müəllif, katib və şərhçi olduğu qeydlərinə rastlansa da, onun həyatı və yaradıcılığı haqqında əldə olan qaynaqlardan tam məlumat əldə etmək mümkün olmamışdır. Yalnız onu qeyd etmək mümkündür ki, Fazil Naxçıvaninin belə bir mükəmməl əsərə haşiyə və ya xülasə yazması, ən azından onun həmin sahəni əsaslı şəkildə qavramış bir şəxsiyyət olmasını sübuta yetirir. Fazil Naxçıvani haqqında M.Tərbiyyət "Daneşməndane Azərbaycan" əsərində çox kiçik həcmdə bilgi verərək onun bir sıra əsərlərə haşiyə və xülasələr yazdığını göstərir [3, s. 321].





*Şəkil 3.*

Naxçıvan Muxtar Respublikası ərazisində əlyazma və qədim kitabların toplanılması zamanı Ordubad şəhərindən əldə etdiyimiz əlyazmalar arasında üz qabığı düşmüş, əvvəl və son səhifələri çürümüş şəkildə bir nüsxə diqqətimizi daha çox çəkdi. Nüsxə ilə yaxından tanış olduqda onun tibbə aid əsər olduğu müəyyən olundu. İlkin araşdırma zamanı yuxarıda göstərilən səbəblərdən müəllif və katibi müəyyən etmək mümkün olmamışdır. Bu nüsxə tərəfimizdən yenidən tədqiqata cəlb edilərkən müəllif haqqında çatışmayan məlumatların tamamlanmasına çalışmışıq. Nüsxənin sonunda yerləşən oval şəkilli möhür içərisində ərəb qrafikası ilə verilmiş yazıda "Hatif əl-Katib" sözünü oxumaq mümkündür. Nüsxə fars dilində nəstəliq xətti ilə yazılmışdır. Əldə olan nüsxənin həcmi 95 səhifə, ölçüsü 22x17.5sm-dən ibarətdir. Nüsxənin tərtibatı digər tibbinamələrdən fərqlidir. Belə ki, əsərdə ilk öncə ümumi şəkildə hansı isə bir üzvün xəstəliyinə aid başlıq şəklində məlumat verilir. Sonrakı mərhələdə həmin üzvə aid xəstəliklərin ardıcıl şəkildə adı, təbiəti (quru və rütubət), yaş dövrləri (uşaq, cavan, qoca) ilin fəsilləri (qış və yay), cəhətləri (şimal və cənub), təhlükəlilik dərəcəsi (qorxulu, qorxusuz), səbəbi, əlaməti, müalicə üsulu padşahanə (padşah sayağı) və dərvişanə (dərviş sayağı) şəkildə şərh edilmişdir [4, s. 64].

Nüsxənin digər səhifəsində xəstəliyə uyğun əczaçılıq və dərmanların tətbiq qaydaları göstərilir (Şəkil 4, 5).



*Şəkil 4.*



*Şəkil 5.*

Əlyazma nümunələri toplanılan zaman üzə çıxan digər qiymətli əsər Məhəmməd Həsən Ordubadi tərəfindən yazılmış "Astronomiya" əsəridir. Əsər hicri-qəməri 1281 (1860) tarixində yazılmışdır. Müəllifin Naxçıvanın dilbər guşələrindən biri olan Ordubad şəhərindən olduğu aşkarlanmışdır. Əsərin sonunda göstərilən tarixə əsasən Məhəmməd Həsən Ordubadinin XIX əsrin birinci yarısında, təqribən 1810-1860-cı illərdə yaşadığını və fəaliyyət göstərdiyini təxmin etmək olar. O bir alim, maarifpərvər ziyalı kimi öz dövrünün görkəmli şəxsiyyətlərindən biri olmuşdur. M.H.Ordubadi şərq dillərini öyrənmiş və bir sıra nəzər sahibləri ilə fikir mübadiləsi etmişdir. Müəllifin əlimizdə olan əsəri ərəb dilində, həcmi 73 səhifə, ümumi ölçüsü 21x15.5 sm, mətnin ölçüsü 14x8.5 sm, nəstəliq xətti ilə yazılmışdır. Əsərin həm əvvəlindən, həm də sonundan bir hissəsinin düşməsi səbəbindən onun adını müəyyən etmək mümkün olmamışdır. Bu səbəbdən əsər bütöv deyil. Bununla belə müəllifin astronomiyadan (göy və səma cisimlərindən) bəhs edən bu əsəri istər öz dövrü üçün, istərsə də özündən sonrakı dövrlər və bu gün üçün əhəmiyyətli xarakter kəsb etməkdədir. Əsərin müqəddiməsindəki açıqlamadan məlum olur ki, həmin dövrdə Ordubad şəhərində Əl-Həqiqət adlı məşhur elm mərkəzi olmuşdur. Məhəmməd Həsən Ordubadi bu mərkəzin ən görkəmli aparıcı simalarından biri kimi fəaliyyət göstərmişdir. Tərtib olunmuş bu əsər isə həmin elm mərkəzində, təlim və tədris vasitəsi kimi nəzərdə tutulmuşdur. Əsər mövzu baxımından dəqiq və hümanitar elmləri əhatə edərək Astronomiya, həndəsi fiqurların fəza nəzəriyyəsi,



Riyaziyyat və Coğrafiyanın müxtəlif sahələrinə aiddir. Müəllif müqəddimədə özündən əvvəl və dövrünün bir neçə aliminin adını çəkmiş, Ömər Xəyyam, Sufi Əbdulrəhman, Bəhmənyar, Əbu Əli Sina, Ptolomey və onların nəzəriyyələrinin qarşılıqlı təhlilindən bəhs etmiş, həmçinin özünün bu nəzəriyyələrə münasibətini bildirməklə obyektiv nəticə çıxarmağa çalışmışdır [3, s. 11].



*Şəkil 6.*

Fondda saxlanılan digər qiymətli əlyazma Məhəmməd Tağı Sidqi tərəfindən yazılmış məktubdur. Məktubun həcmi 20 səhifədən ibarətdir, sadə, kərpici dəftər vərəqində, ərəb əlifbası ilə, nəstəliq xətlə, Azərbaycan dilində tərtib edilmişdir. Məktubun yazılma tarixini orijinalda olduğu kimi qeyd etmək istərdim. "Bədə ədayı vacib əleyna ümumi hüzzari məclisin xidməti valalarına ərz və izhar edirəm. Bu gün ki, tarix Məshiyyənin 1896-cı ilin may ayının 14-ü ki, tarixi-hicrət nəbəviyyənin 1313-cü ilinin zilhəccə ayının 13-cü gününə mütabiqdir" [4, s. 2]. Məktubda toxunulan mövzular, məktəb və pedoqoji fikir tariximizi özündə ehtiva edən çox dəyərli qaynaqdır. Bir daha əlyazmaya müraciət edək. "Əlhasil məktəbdir ki, ətfali-xırdəsali ki, hədiqeyi millətin novnəhalı mənziləsindədir. Bağban tərbiy vasitəsilə abrəvan mərifətlə havayi insaniyyətində xaki adəmiyyətin pərvərişi ilə nəşvi-nüma etdirib sayədar və bari vər ağaclar kimi dərəceyi təkmilə yetirir.



*Şəkil 7.*

Məktəbdir ki, sədə dil sibyanı vüqar-pudi daneş və bineşindən ari olan uşaqları ənvai ülum və rəngarəng fünunilə pornəqşi və nigar edib ləffafe mərifətlə piçiləndirib bazari insaniyyətdə dükkani kəmalatın qəfəsinə qoyur!

Be hər hal bizlər imdi ki, o qunə məktəblərin təsisindən məhrum və ülume məzkurənin təhsilindən binəsibik, pəs ümumən əhaliye müsliminə, xüsusən, Qafqaz qitəsində sakin olan müsəlmanlara təqazeye əsrə görə lazımdır ki, hər şəhərdə və bəlkə hər qəriyyədə "Məktəbi ədəb" namında yəni təhsil-i ədəbiyyat üçün be ibarət axırı təlim qəvaidi lisaniyyə üçün müntəzəm surətdə "Usuli-cədid" üzrə milli məktəblər bina olunub, o məktəblərdə türki, farsi, ərəbi, rusi, dillərinin təhsil və tərbiyəsinə davam olunsun" [5, s. 5-7].

M.T.Sidqi bu məktubu 1898-ci ildə Naxçıvan şəhərinin mötəbər, nüfuzlu qazisi Axund Hacı Molla Məhəmməd Naxçıvaniyə bir xatirə yadigar olaraq vermişdir.



## ƏDƏBİYYAT


1. Naxçıvani M. Səhabəd-dumu. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, Təbriz, 1895, 473 s.
2. Naxçıvani M.H. Həqaiqi-ət Tarix. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1805, 338 s.
3. Fazil Naxçıvani. Tibbinamə. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1805, 41 s.
4. Hatif İsfəhani. Tibbinamə. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1860, 99 s.
5. Ordubadi M.H. Astronomiya. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1860, 73 s.
6. Sidqi M.T. Dilimiz və məktəbimiz haqqında. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, 1896, 20 s.

**Əkrəm Hüseynzadə**
AMEA Naxçıvan Bölməsi, fəlsəfə doktoru
E-mail: ekrem.h@mail.ru

## NAXÇIVAN FOLKLORUNUN İNKİŞAF MƏRHƏLƏLƏRİ (1991-2015-ci illər)

Naxçıvan qədim və zəngin mədəniyyətə malik olmaqla, bəşər sivilizasiyasının, şəhər mədəniyyətinin ilk beşiklərindən biri kimi həmişə regionun mədəni, iqtisadi həyatında mühüm yer tutmuş və özünün zəngin arxeoloji, etnoqrafik, xüsusilə folklor qaynaqları ilə tədqiqatçıların diqqətini cəlb etmişdir.

Naxçıvan diyarının qədimliyi, ümumtürk mədəniyyəti ilə sıx bağlılığı, özünəməxsus zəngin mədəniyyəti, tarixi və ədəbiyyatı bölgə folklor mətnlərində öz parlaq əksini tapmışdır. Deyə bilərik ki, ötən on il ərzində xalqın ilkin mədəniyyəti, mənəviyyatı, düşüncə tərzi, dünyaya, həyata baxışları folklor nümunələrindən başlayır və bu nümunələr də öz müdrik ifadəsini tapır. Azərbaycan folklorunun tərkib hissəsi olan Naxçıvan folkloru öz zənginliyi, qədimliyi ilə həm filoloji, həm də elmi-ictimai əhəmiyyəti ilə xüsusi dəyər kəsb etməkdədir.

Naxçıvan folklorunu dərindən öyrənməyi, ciddi tədqiq etməyi Ulu Öndərimiz Heydər Əliyev bir vəzifə kimi qarşıya qoymuşdur. O, 2002-ci ildə AMEA-nın Naxçıvan Bölməsinin açılışında etdiyi çıxışında qeyd edirdi ki, "Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də, düz olardı deyim ki, heç öyrənilməyibdir... Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi - həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür" [1, s. 16- 17].

Bu baxımdan Naxçıvan folklor mühitinə məxsus mətnləri toplamaq, təhlil etmək, onu kitab halında nəşr etmək, əlbəttə, çox aktual və əhəmiyyətlidir. Bu qədim diyarın folklorunu öyrənmək, və araşdırmaq nəinki folklorşünaslığımızın zənginləşməsinə bir töhfədir, həmçinin böyük ictimai, siyasi əhəmiyyət kəsb edən bir məsələdir. Azərbaycan Respublikasının Prezidenti cənab İ.H.Əliyevin Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 illiyi münasibətilə imzaladığı sərəncamda bu barədə deyilir: "...Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycanın qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları



obyektinə çevrilən Naxçıvan tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir" [2].

Qədim Naxçıvan diyarının bütün sahələrinin, o cümlədən zəngin ədəbiyyatının, mədəniyyətinin, folklor və etnoqrafiyasının hərtərəfli, geniş və ətraflı öyrənilməsi zərurəti Naxçıvan folklor mühitinin ətraflı və sistemli tədqiqini, onun problematik şəkildə araşdırılmasını daha da aktuallaşdırmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvanın tarixinə, mədəniyyətinə, xalq yaradıcılığına, folkloruna daim xüsusi diqqət və qayğı göstərməsi və bu məsələlərlə bağlı verdiyi sərəncamlar, Naxçıvan folklorunun öyrənilməsinə diqqəti xeyli gücləndirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 7 fevral 2009-cu ildə imzaladığı Sərəncama uyğun olaraq, muxtar respublikada xalq yaradıcılığının yaşadılması ilə bərabər, milli dəyərlərin qorunması, təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində də ardıcıl tədbirlər görülür [3].

Milli dəyərlərimizin həssas, etibarlı daşıyıcısı olan folklorumuzun müstəqillik illərində milli müstəvidə araşdırılması parlaq faktdır və geniş perspektivlərə zəmin yaradan mühüm hadisələrdəndir. Az bir vaxt ərzində AMEA Naxçıvan Bölməsində "Naxçıvan folkloru antologiyası" 3 cildliyinin nəşri, Naxçıvan uşaq folklor nümunələrinin hazırlanması xalq ədəbiyyatı nümunələrinin tədqiqinə geniş perspektivlər açır.

Görülən işlər sübut edir ki, bu gün Naxçıvanda folklorşünaslıq məktəbi yaradılmışdır.

Xalq yaradıcılığına göstərilən mühüm, davamlı dövlət qayğısı naxçıvanlı folklorşünasları da daha ciddi fəaliyyət göstərməyə səfərbər edir. Bu yönümdən Naxçıvanda yaşayan folklorçuların fəaliyyətində iki istiqamət nəzəri cəlb edir:

1. Azərbaycan folklorşünaslığının ayrı-ayrı sahələri üzrə aparılan tədqiqatlar;
2. Bölgədə yayılmış mətnlərlə bağlı toplama işləri və araşdırmalar.

Son 10 ildə bölgədə folklor araşdırmaları sahəsində zəngin təcrübə, maraqlı ənənələr vardır. Bu illər ərzində bölgə folklor mühiti ilə bağlı kitab, monoqrafiyaların çap olunması və dissertasiya işlərinin müdafiə olunması bu sahədə işlərin uğurla davam etdirilməsində mühüm məsələdir. Çünki folklorşünaslıq fəaliyyəti ilk növbədə toplama işi ilə, daha sonra tədqiqatla

bağlıdır.

Son vaxtlar Məhərrəm Cəfərlinin, Rafiq Babayevin, Məhsəti İsmayılın, Sədaqət Nemətova və tədqiqatçılar araşdırmaları Azərbaycan folklorşünaslığı, xüsusilə Naxçıvan folkloru üçün sanballı töhfələrdir.

Professor Məhərrəm Cəfərlinin "Folklor və milli etnik şüur" kitabında toplanan məqalələr bütövlükdə bölgə folklor mühitinin tədqiqinə həsr olunmuşdur. Burada folklor və tarixi şüur, folklor və coğrafi şüur, miflər, bayatılar, xalq mahnıları, atalar sözü və məsəllər istiqamətlərində aparlan araşdırmalar xüsusi aktuallıq və elmi əhəmiyyət daşıyır.

Muxtar Respublikada folklorun müxtəlif problemlərinə həsr olunmuş monoqrafiya, kitab və elmi məqalələrin nəşri sistemli xarakter daşıyır.

1990-cı illərdən bu günə qədərki dövr folklorşünaslıqda yeni mərhələ kimi qeyd olunmalıdır. Belə ki, bu mərhələdə yeni fəaliyyət istiqamətləri meydana çıxmışdır. Qeyd edək ki, göstərilən dövrdə bölgə folklor mühiti ilə bağlı tədqiqatlar öz miqyasını genişləndirmiş, dünya xalqlarının folklor mətnləri ilə aparlan müqayisələr mühüm elmi qənaətlərin əldə olunmasına meydan açmışdır.

Naxçıvanlı folklorşünasların elmi yaradıcılığında yeni istiqamətlərdən biri də tematika üzrə araşdırmaların formalaşmasıdır.

AMEA Naxçıvan Bölməsinin Xəbərlərində, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" jurnalında, eləcə də Bakıdakı müxtəlif elmi nəşrlərdə çap olunan məqalələrdə şifahi ədəbiyyatın müxtəlif sahələrinə dair aktual problemlər qaldırılır və mühüm elmi nəticələr əldə olunur.

İnformasiya bazasının yeni tədqiqatlarla zənginləşməsi mühüm şərtdir, elmi-mədəni əlaqələrin möhkəmlənməsi işində zəngin biblioqrfik baza həlledici faktorlardan biridir. Odur ki, aparılmış tədqiqatların nəticələrinin ingilisdilli, rusdilli mütəxəssislərə çatdırılması vacibdir.

Yeni zaman müasir dövrün folklorşünaslığının qarşısında yeni vəzifələr qoyur. Bunlardan turizm folkoru xüsusi aktuallıq kəsb edir. Bu sahədə qarşıda mühüm vəzifələr durur.

Son illər çoxlu toplama mətnləri meydana çıxsa da, bölgəmizdə hələ qeydə alınmamış folklor nümunələri çoxdur. Bu baxımdan informatorlardan yeni mətnlərin toplanması, Naxçıvan folkloru antologiyasının növbəti cildlərinin hazırlanması ciddi vəzifələrdəndir.

## ƏDƏBİYYAT

1. Əliyev H.Ə. Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə giriş nitqi (səh. 16-22) /Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi. Bakı: Nurlan, 2005, 156 s.
2. Əliyev İ.H. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 illiyi



münasibətilə verdiyi sərəncam. "Azərbaycan müəllimi" qəzeti, 13-19 fevral, 2004.
3. http://www.alimeclis.az/index.php?option=com_content&view=article&id=81:naxcvan-muxtar-respublikasnda-xalq-yaradcl-guenlrinin-kecirilmsi-haqqnda&catid=38:srncamlar&Itemid=89

**Aytəkin Qəhrəmanova**
M.S.Ordubadi adına Naxçıvan Muxtar
Respublika Kitabxanası,
tarix üzrə fəlsəfə doktoru

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KİTABXANALARIN İNKİŞAFI

Xalqımızın əsrlər boyu yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi fəlsəfi irsin qorunub saxlanılmsaında, bəşər mətəniyyətinin əldə etdiyi uğurların gələcək nəsillərə çatdırılmasında və cəmiyyətin intellektual-mənəvi potensiallarının artırılmasında qiymətli bilik xəzinəsi olan kitabxanalar mühüm rol oynayır.

Araşdırmalar nəticəsində belə qənaətə gəlmək olur ki, Naxçıvanda ilk kitabxanalar İslam dini qəbul edildikdən sonra məscid və mədrəsələrin nəzdində meydana gəldi və kitab mədəniyyəti geniş yayılmağa başladı.

XIII əsrdə Naxçıvanda təhsil sisteminin əsasını mədrəsələr təşkil edirdi. Təhsildə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris edilirdi. Naxçıvanada "Mədrəseyi Bəhtaniyyə" və "Mədrəseyi İrşadiyyə" adı ilə fəaliyyət göstərən mədrəsəlrdə dini dərslərlə yanaşı, dünyəvi fənlərin də tədrisinə geniş yer verilirdi. Həmin dövrdə mədrəsələrdə tədris olunan dərsliklər üç yerə ayrırmaq olar: Azərbaycanda çap olunanlar, Azərbaycandan kənarda çap olunanlar və başqa dillərdə çap olunanlar [1, s. 266]. Dərslikləri qorumaq, onları tələbələrin istifadəsinə verilməsi üçün o mədrəsələrin nəzdində kitabxanalar yaradılır, fəaliyyət göstərirdi. Kitabxanalarda işləyən işçilərə "xazin", "mübadil" kimi [2, s. 126] xüsusi adlar verilirdi.

IX əsrin əvvəllərindən etibarən müsəlman Şərqində olan elmi ədəbyyatın xarici dildən ərəbcəyə tərcümə edilməsi elmlərin inkişafı ilə yanaşı, o ədəbiyyatların qorunub saxlanılması, həmçinin mədrəsələrdə təhsil alan tələbələrin tədris proqramına uyğun dərsliklərin və elmi ədəbiyyatın mühafizə olunması üçün kitabxanaların sayı da artmışdır. Hətta IX əsrdə Azərbaycan şairləri haqqında "ədiblərin əlifba göstəricisi" də tərtib olunmuşdur.

Tarixdə XII əsr Azərbaycan mədəniyyətinin "qızıl dövrü", "intibah dövrü" hesab edilir. Naxçıvan şəhərinin əvvəlcə Naxçıvanşahlığın sonra isə Azərbaycan Atabəyləri dövlətinin mərkəzinə çevrilməsi şəhərin siyasi və mədəni inkişafı üçün şərait yaratmışdır [1, s. 213]. Bu zaman Naxçıvanda ruhani məhəllə məktəbləri, təkiyələr mövcud idi. Eldənizlərin hakimiyyəti dövründə Naxçıvan şəhərində iki mədrəsə tikilmiş və dini xeyriyyə idarəsinə məxsus vəqf kimi fəaliyyət göstərmişdir. Bu mədrəsələrin



nəzdində kitabxanalar yaradılmışdır. Naxçıvan tarixinə istinadən deyə bilərik ki, Naxçıvan mədrəsələri Möminə xatun və Yusif Küseyiroğlu türbələri ilə əlaqəli olmuşdur. Bu da təsadüfi deyil. Çünki müsəlman Şərqində hökmdar türbələri nəzdində mədrəsə, kitabxana, və sair ictimai müəssisələr olmuş və bu ənənə Azərbaycan Atabəyləri dövründə də davam etmişdir [1, s. 213]. Demək kitaxanalar hələ qədim dövrlərdən etibarən ictimai müəssisə kimi fəaliyyət göstərmişdir.

Qeyd etmək lazımdır ki, XVIII əsrdə təkcə Naxçıvanın özündə deyil, digər bölgələrində, xüsusən də Ordubadda mükəmməl mədrəsələr fəaliyyət göstərirdi ki, bunlardan Zəhir-əd-Dövlə Məhəmməd İbrahim mədrəsəsi nəinki Naxçıvan bölgəsində, eyni zamanda Azərbaycanda əhəmiyyətli tədris müəssisələrindən birinə çevrilmişdi. Bu mədrəsələrin nəzdində olan kitabxanaların fondu zəngin olmuşdur, çünki bu kitabxanalarda dini ədəbiyyatla yanaşı, dünyəvi ədəbiyyatlar da var idi.

Tarixi mənbələrdən əldə edilən məlumatlardan aydın olur ki, kitabxanlar qədim dövrdən etibarən yaranmağa başlamış və həmişə xalqa xidmət etmiş, diqqət mərkəzində olmuşdur. Xalqımızın tarixi keçmişinə, mədəniyyət tarixinə nəzər saldıqda belə bir həqiqət aşkar olur ki, Azərbaycan xalqı tarixən kitaba və kitabxanaya böyük hörmət etmiş, onu qoruyub saxlamış və günümüzə qədər gətirib çatdırmışdır.

Tarixdən məlumdur ki, dünyanın görkəmli dövlət elm və mədəniyyət xadimləri kitabxanalar haqqında çox qiymətli, mühüm elmi, mədəni əhəmiyyət kəsb edən fikirlər söyləmişlər. Mübağiləsiz demək olar ki, Heydər Əliyevin böyük fəlsəfi əhəmiyyət kəsb edən fikirləri dünya mədəniyyəti tarixində kitabxanaya verilən ən müdrik qiymətdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir". Ulu öndərin kitabxananı müqəddəs bir yer-ilahi qüvvəyə malik, toxunulmaz, sarsılmaz, pak, təmiz bir yer adlandırması kitabxanaların cəmiyyətin mənəvi tərbiyəsində böyük məsuliyyət daşımasını ön plana çəkir. Həmçinin kitabxanaların mənəviyyat, bilik, zəka mənbəyi kimi xarakterizə edilməsi, onun cəmiyyət qarşısındakı elm, informasiya, mədəniyyət, təhsil, tərbiyə kimi çox mühüm sosial funksiyaları yerinə yetirmək vəzifələrini elmi cəhətdən əsaslandılır. Bütün cəmiyyətlərdə kitab mədəniyyətin silahı, sivilizasiyanın bünövrəsi, biliyin mənbəyi, təhsil, tərbiyə və informasiyanın əsas aparıcı vasitəsi kimi çıxış edir.

Keçmiş sosializm cəmiyyətindən müstəqil Azərbaycan dövlətinə kitabxana işi sahəsində o qədər də ürəkaçan irs qalmamışdır. Doğrudur, həmin illərdə, xüsusilə 70-ci illərdə və 80-ci illərin əvvəllərində kitabxana quruculuğu sahəsində xeyli işlər görülmüş, geniş kitabxanalar şəbəkəsi yaradılmış, əhaliyə kitabxana xidmətinin təşkili istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, 1990-cı ilin əvvəllərində respublikada 120 milyondan

artıq kitab fondu olan 10.000-ə yaxın kitabxana fəaliyyət göstərirdi. Bütün bunlara baxmayaraq əhaliyə kitabxana xidmətinin təşkili dövrün tələblərinə cavab vermirdi.

1993-cü ildə görkəmli dövlət xadimi, dünyamiqyaslı siyasətçi, Heydər Əliyevin yenidən siyasi hakimiyyət qayıdışı Azərbaycan xalqının gələcək taleyində, dövlətçiliyimizin möhkəmləndirilməsində mühüm tarixi hadisəyə çevrildiyi kimi mədəniyyətimizin mühüm tərkib hissəsi olan kitabxana işinin yenidən qurulmasında və inkişafında da yeni mərhələnin başlanğıcı oldu.

Müstəqillik illərinin əvvəllərində ölkə rəhbəri tərəfindən Azərbaycan dövlətçiliyi ilə yanaşı, kitabxanaların dövlət mülkiyyəti, ümumxalq sərvəti kimi qorunub saxlanılması haqqında qərarlar qəbul edildi, sərəncamlar və fərmanlar verildi.

1995-ci ildə "Azərbaycan Respublikasında 1995-1998 illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" [3, 1995, 12 noyabr] Azərbaycan Respublikasının Qanunu ilə bağlı fərman imzalandı. Bu qanunda özəlləşdirilməsi qadağan olan müəssisə və obyektlərin siyahısında kitabxanalar da var idi. Bu fərmanın imzalanması kitabxanaların qorunub saxlanılmasına şərait yaratdı. Kitabxanalar müstəqil dövlətimizin əsas atributlarından biri kimi dövlət müəssisəsi statusuna malik oldu. 1996-cı ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti "Kitabxana işi haqqında" qərar qəbul etdi. Müstəqillik əldə edildikdən sonra cəmiyyətin bütün sahələrində baş verən demokratikləşmə işinə başlandı ki, bu da öz növbəsində kitabxana işinə öz təsirini göstərdi. 1998-ci ildə Milli Məclis ölkəmizin tarixində ilk dəfə olaraq "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Bu qanun ölkəmizdə kitabxana işi sahəsində dövlət siyasətinin əsasını təşkil etməklə, keçid dövründə kitabxanaların qarşısında çox mühüm, mahiyyətcə yeni vəzifələr qoydu. Bu vəzifələrin sırasında kitabxana işinin demokratikləşdirilməsi, milliləşməsi və azərbaycançılıq kimi böyük elmi-nəzəri və ideoloji əhəmiyyətə malik olanları ön planda idi.

Blokada şəraitində yaşayan Naxçıvan həmin illər ərzində mərdliklə, dözümlülükə yaşayaraq bütün çətinliklərə sinə gərdi və Azərbaycanda ilk dəfə olaraq iqtisadi islahatlar muxtar respublika ərazisində başlandı.

Naxçıvan Muxtar Respublikasının müstəqillik illərində sosial-iqtisadi inkişafı böyük inkişaf və tərəqqi illəri, inkişafdan intibaha gedən yol kimi səciyyələndirilir [4, 2010, 14 yanvar]. Bu illərdə muxtar respublikada gedən quruculuq, abadlıq işlərinin, iqtisadiyyatda, mədəni həyatda, insanların güzəranında baş verən dəyişikliklərin kökündə bir tərəfdə Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, ikinci tərəfdə isə düzgün idarəetmə dayanır.



Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyev yolunu, uğurla davam etdirilməsi nəticəsində Naxçıvan tamamilə dəyişilmiş, yenidən qurulmuş, alınmaz qalaya çevrilmişdir. Ali Məclis Sədrinin umummilli liderimizin dövlətçilik ideyalarına sədaqəti, ardıcıl və yorulmaz fəaliyyəti sayəsində regionda əldə edilmiş mühüm nəticələr əslində Azərbaycanın tərkibində yeni bir Naxçıvan ərsəyə gətirmişdir [5, s. 109]. Mətbuatda Naxçıvanın indiki sürətli inkişafı "Naxçıvan möcüzəsi adlandırılır" [6, 2009, 29 dekabr, 2010, 14 yanvar]. "Naxçıvan möcüzəsinin əldə edilməsini Ali Məclisi Sədrinin özü belə xarakterizə edir: "Yol düzgün seçiləndə, milli maraqlara, dövlətçiliyə sədaqət olanda, adamların qayğı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar" [6, 2009, 29 dekabr].

Naxçıvan Muxtar Respublika rəbərliyinin yorulmaz və gərgin əməyi nəticəsində Naxçıvan ən müasir şəhərə çevrildi. Müstəqillik illərində muxtar respublikada ən müasir infrastruktur yaradılmış, sosial obyektlərin tikintisi geniş vüsət almışdır. Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirilməsinə səbəb oldu.

Qədim tarixə, zəngin mədəniyyətə malik olan Naxçıvan Muxtar Respublikasının sürətli inkişafı mədəniyyət sahəsində də özünü göstərir. Tarixi-mədəni irsin qorunması və təbliği, mədəni potensialın daha da inkişaf etdirilməsi son illər ərzində diqqət mərkəzində saxlanılmış, mədəniyyət obyektlərinin inşası və yenidən qurulması davamlı xarakter almışdır.

Muxtar respublikanin mədəni-maarif müəssisələri arasında kitabxanaların xüsusi yeri vardır. Belə ki, muxtar respublika ərazisində 237 kitabxana fəaliyyət göstərir ki, onların da fondunda 3 milyona qədər çap məhsulu mühafizə olunub oxucuların istifadəsinə verilib. Bu kitabxanalar hər il 150-160 min oxucuya xidmət edir. Pezidentin müvafiq sərəncamı ilə 2006-cı ildə 139293, 2007-ci ildə 46650 nüsxə latın qrafikalı kitab və digər çap məhsulları alınmış və kitabxanalara paylanmışdır. 205 kitab müəssisəsində əhalinin asudə vaxtının səmərəli təşkilini yaxşılaşdırmaq, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği sahəsində ardıcıl işlər aparılır.

İlk növbədə dövlətçiliyimizin möhkəmləndirilməsi, milli ideologiyanın yaranması və təbliği kitabxana işinin əsas mahiyyətini təşkil edir. Kitabxana fondunun təkmilləşməsində, ədəbiyyatın təbliğində milli ədəbiyyat fondunun yenidən təşkili, tarixi soykökümüzə, adət-ənənlərimizə qaydış ön plana çəkilirdi.

Müstəqillik illərində dövlət tərəfindən kitabxana işinin yaxşılaşdırılması sahəsində xeyli iş görülmüşdür. Muxtar respublika ərazisində fəaliyyət göstərən kitabxanaların fondları ideoloji cəhətdən lazımsız olan ədəbiyyatdan: marksizm-leninizm klassiklərinin əsərlərindən, Sov. İKP tarixinə dair əsərlərdən, hər cür siyasi makulaturadan azad edildi, kitabxanaların milli ədəbiyyatla təmin edilməsinə şərait yarandı. Ölkə prezidentinin "Azərbay-

can dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı [7, 2004, 13 yanvar] ilə nəşr olunan kitabların ölkə kitabxanalarına hədiyyə edilməsi nəticəsində kitabxanalara oxucu gəlişi bərpa olundu.

Ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında Mədəniyyət Nazirliyinin kitabxana şəbəkəsində əsas yeri rayon mərkəzləşdirilmiş kitabxana sistemləri tutur. Zamanın sınağından keçmiş bu suistem müstəqillik illərində də özünü doğrultdu. Rayon mərkəzlərində və kənd yerlərində Azərbaycan mədəniyyətinin dayaq bazası kimi kənd əhalisinə kitabxana xidmətinin təşkilini uğurla apara bildi. Xüsusilə keçid dövrünün çətinliyi şəraitində, həmçinin muxtar respublikanın blokada şəraitində yaşadığı ən ağır vaxtlarda belə, kənd kitabxanalarını qoruyub saxlamaq və yeri gəldikdə onların işini yaxşılaşdırmaq muxtar respublika pəhbərliyinin diqqət mərkəzində olmuşdur.

Qeyd etmək lazımdır ki, bu gün Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Naziliyinin tabeliyində iki böyük: M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası, A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası, bir Naxçıvan şəhər mərkəzləşdirilmiş kitabxana Sistemi, səkkiz rayon mərkəzləşdirilmiş kitabxana sistemi, 224 kənd filialları fəaliyyət göstərir.

Muxtar respublikada yeganə elmi-metodik məkəz olan M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında hazırda 10 şöbə, 4 bölmə fəaliyyət göstərir. Fondu 163005 nüsxə, oxucularının sayı 24.946 nəfərdir. Kitabxana dövlət qayğısı ilə tam şəkildə əhatə olunub. 2007-ci ildə əsaslı şəkildə təmir olunub və kompüterləşdirilib. Elə həmin ilin 31 iyul tarixində Naxçıvan Muxtar Respublika Nazirlər Kabinetinin 62 nömrəli qərarı ilə Respublika əhəmiyyətli kitabxana statusunu alıb. Azərbaycan Milli Kitabxanasından sonra Azərbaycanda yüksək statusa malik olan ikinci dövlət kitabxanasıdır. Bu kitabxananın qazandığı ən böyük uğur, muxtar respublika rəhbərliyinin kitabxanalara göstərdiyi ən böyük qayğının bariz nümunəsidir.

2007-ci ildə kitabxana əsaslı təmiri və yenidənqurma işlərindən sonra istifadəyə verilən zaman açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: "Bu kitabxananın xidmətindən indiyədək yüz minlərlə oxucu istifadə edib. Naxçıvan şəhərində yerləşən ali məktəblər, orta ixtisas məktəbləri, orta ümumtəhsil məktəbləri, muxtar respublikamızda yaşayan insanlar kitbxanalardan daim istifadə ediblər və zaman-zaman onun bəhrəsini görüblər. Kitabxanada lazım olan ədəbiyyat qorunub saxlanmış, nəsildən-nəslə keçmişdir. Deməli, bir kitab bir neçə nəslə bəhrə verir. Ona görə də kitabxana işi vacib sahələrdən biridir." [8, 2007, 18 sentyabr] Dövlət qayğısı ilə əhatə olunan bu kitabxanaya 1995-ci ildən 2015-ci ilədək



33936 mindən çox çap məhsulu daxil olmuşdur ki, bunlardan da 20419 nüsxə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən verilmişdir.

Kitabxana sosial institut olmaqla ideoloji bir müəssisədir. Onlar cəmiyyətin üzvlərinə ilk növbədə dövlətçilik və Azərbaycançılıq ideyalarını aşlayır, xüsusən də gənclərimizi vətənpərvərlik ruhunda tərbiyə edib, onları təhsilləndirir. Bunun üçün məhz kitabxanaçılar öz ixtisasları ilə yanaşı bütün elmləri də lazımi qədər bilməlidirlər. Təsadüfi deyil ki, Azərbaycanın, eləcə də dünyanın ən qədim kitabxanalarında alimlər çalışmışlar. 2007-ci ildə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublikası Kitabxanasının əsaslı təmir və yenidənqurma işlərindən sonra açılışı zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: "Kitabxanada işləmək sadəcə günün müəyyən saatlarını burada keçirmək deyil. Kitabxanada çalışanların hər biri vaxtdan səmərəli istifadə etməli, elmi işlərlə məşğul olmalıdırlar... Kitabxana işinin zənginləşməsi, yüksəldilməsi kitabxana işçilərindən asılıdır" [8, 2007, 18 sentyabr].

Son illər muxtar respublikada gedən mədəni yüksəliş kitabxanalara da təsir etmiş, fəaliyyət göstərən kitabxanalar, o cümlədən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası da dövlət qayğısı ilə əhatə olunmuşdur. 2012-ci il aprel ayının 19-da "Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sərəncamı imzalanmış [8, 2012, 20 aprel], bununla yanaşı kitabxananın fondu nəzdində elektron kitabxana yaradılması nəzərdə tutulmuşdur. 2012-ci ilin dekabr ayının 3-də kitabxananın 90 illik yubileyi, elktron kitabxananın açılış mərasimi, həmçinin tarixi romanlar müəllifi M.S.Ordubadinin 140 illik yubileyi qeyd olundu.

Az bir müddət ərzində elektron kitabxananın məlumat bazasına 5000 min kitab və "Şərq qapısı" qəzetinin gündəlik nömrələri işlənmiş, oxucuların istifadəsinə verilmişdir. Onu da qeyd edək ki, indi elektron kitabxanaya nəinki muxtar respublika ərazisindən, eyni zamanda Azərbaycanın digər bölgələrindən, həmçinin xarici ölkələrdən də kitabxananın elektron poçtuna məktublar daxil olub kitab sifarişləri verirlər. Vaxtilə məsafələr qət edib kitabxanaya gələn oxucular, artıq virtual xidmətdən istifadə edib, kitabxanaya elektron poçt vasitəsilə sifarişlər də verirlər.

Öz qayğısını kitabxanadan əsirgəmiyən muxtar respublika rəhbərliyi elektron kitabxananın açılışı zamanı kitabxanaya 224 adda kitab hədiyyə etmişdir ki, bunların da əksəriyyəti dərsliklər idi. Kitabxanalara dövlətin qayğısı hər an hiss olunur. Təkcə onu demək kifayətdir ki, bu ildə dövlət yolu ilə kitabxanaya ayrı-ayrı elm sahələri üzrə oxucu sorğusu əsasında 1196 nüsxə çap məhsulu daxil olmuşdur.

Naxçıvanda fəaliyyət göstərən ikinci böyük kitabxana A.Babayev adına Naxçıvan Muxtar Respublika Kitabxanasıdır ki, fondunda 173.005 nüsxə kitab mühafizə olunur. Oxucularının sayı isə 12874 nəfərdir. Rayon (şəhər) mərkəzləşdirilmiş kitabxana sistemlərinin fondları və oxucu gəlişləri müstəqillik illərində aşağıdakı kimi olmuşdur:

-Şərur rayon mərkəzləşdirilmiş kitabxana sistemi fondu filialları ilə birgə 316 min 143 nüsxədir. Oxucularının sayı 13.058-dir.

-Sədərək MKS fondu filialları ilə birlikdə 31.114 nüsxədir.

-Şahbuz rayon MKS fondu filialları ilə birlikdə 199.382-dir.

-Babək rayonu MKS fondu filialları ilə birlikdə 281.260 nüsxədir.

-Ordubad rayon MKS fondu filialları ilə birlikdə 294.136 nüsxədir.

-Culfa rayon MKS fondu filialları ilə birlikdə 300.467 nüsxədir.

-Kəngərli rayon MKS fondu filialları ilə birlikdə 60.680 nüsxədir.

Rəqəmlərdən göründüyü kimi müstəqillik illərində mərkəzləşdirilmiş kitabxana sistemlərinin fondu mükəmməl komplektləşdirilmişdir. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublika Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kitabxanalarının fondlarında çap məhsulunun sayı 1.872.197 nüsxəyə çatmışdır.

Son iyirmi ildə sosial-iqtisadiyyatın sürətli inkişafı kitabxanaların da inkişafına təsir göstərmişdir. İnformasiya bazası olan kitabxanalar bu gün dünya standarlarına uyğun olaraq modernləşdirilir. Artıq müasir informasiya cəmiyyətində kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti o qədər artmışdır ki, kitabxanasız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir. Kitabxanalar cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi yaxından iştirak etməklə ən çox istifadə olunan müəssisəyə çevrilmişdir.

Keçmiş ABŞ prezidenti Corc Buş kitabxanaların fəaliyyəti haqqında deyir: "Qüvvətli texnika ilə təchiz edilmiş Amerika kitabxanaları ABŞ-ın iqtisadiyyatında və demokratiyada dünya liderliyinin əsasıdır".

Bu gün Naxçıvanda itisadiyyatın sürətli inkişafı nəticəsində informasiya cəmiyyətinin qarşıya qoyduğu vəzifələr və texnoloji tərəqqi nəticəsində, ümumiyyətlə kitabxana quruculuğunda, həmçinin fondların formalaşması prosesində ciddi islahatların baş verdiyi ortaya çıxır. Bunların ən mühümü kitabxanaların elektronlaşdırılmasıdır. Bu proses Naxçıvanda da müvəffəqiyyətlə həyata keçirilir.

2004-cü ildə Azərbaycanda ilk dəfə elektron kitabxana məhz Naxçıvanda NDU-nun kitabxanasında yaradıldı. Yuxarıda qeyd etdiyimiz kimi, sonra M.S.Ordubadi adına Naxçıvan MR Kitabxanasında, Naxçıvanşünaslıq Mərkəzində və AMEA-nın Naxçıvan Bölməsində elektron kitabxana öz fəaliyyətinə başladı.



Onu da qeyd edək ki, son iyirmi ildə muxtar respublikanın demək olar ki, bütün kəndlərində sosial obyektlər tikilib istifadəyə verilmişdir ki, onların nəzdində də kitabxanalar fəaliyyət göstərirlər.

Ən qədim peşə sayılan kitabxanaçıların da əməyi indi dövlət tərəfindən layiqincə qiymətləndirilir. Təkcə onu demək kifayətdir ki, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının əməkdaşlarından biri "Fəxri Mədəniyyət İşçisi" döş nişanı, digəri isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşlar. Bu adların verilməsi dövlətin kitabxaçılara olan böyük qayğısının nəticəsidir. Təsadüfi deyil ki, NDU-nun kitabxanaçılıq fakültəsi bu ixtisas üzrə hər il mütəxəssis hazırlayıb, istehsalata buraxır.

Nəticə olaraq qeyd etmək olar ki, müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında təhsil, elm, səhiyyə və mədəni-maarif sahəsində ciddi uğurlar əldə edilib. Onların inkişafına dövlət qayğı göstərirır, maddi-texniki bazası möhkəmləndirilir. Mədəniyyət abidələri qorunur, bərpa edilir. Kitabxanalar, muzeylər, mədəniyyət evləri yenidən qurulur. Naxçıvan sürətlə və dinamik inkişaf edən bir diyara çevrilir.

## ƏDƏBİYYAT


1. Naxçıvan tarixi. Üç cilddə. I cild. Naxçıvan: "Əcəmi" NPB, 2013, 451 s.
2. Piriyev V.Z. Naxçıvanın tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı: Müəllim, 2004, 126 s.
3. "Azərbaycan" qəzeti, 1995, 12 noyabr
4. "Azərbaycan" qəzeti, 2010, 14 yanvar
5. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: "Əcəmi" NPB, 271 s.
6. "Xalq qəzeti". 2009, 29 dekabr, 2010, 14 yanvar
7. "Xalq qəzeti". 2004, 13 yanvar
8. "Şərq qapısı" qəzeti, 2007, 18 sentyabr, 2012, 20 aprel

**Qadir Əkbərov**
AMEA Naxçıvan Bölməsi, doktorant
E-mail: qadir1976@inbox.ru

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MƏDƏNİYYƏT SİYASƏTİ VƏ MƏNƏVİ DƏYƏRLƏRİN İNKİŞAFI (1995-2015-ci illər)

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğu, demokratik prinsiplərin inkişaf etdirilməsi, bazar iqtisadiyyatına keçidin təmin olunması kimi həyati əhəmiyyətli tədbirlərlə yanaşı mədəni tərəqqiyə və milli-mənəvi dəyərlərin qorunub yaşadılmasına da diqqət artırıldı. Suveren Azərbaycan dövlətində bu məsələ hökumət və dövlət rəhbərlərinin diqqət mərkəzində yer almışdı. Mədəniyyətlə bağlı həyata keçirilən dövlət siyasətinin tərkib hissəsi olan mənəvi mədəniyyətimiz Azərbaycanın hər yerində, o cümlədən Naxçıvan Muxtar Respublikasında yüksək səviyyədə qorunub yaşadılmışdır. Mənəvi mədəniyyəti özündə yaşadan mədəni-maarif müəssisələrinin təşkili, mövcud olan bu kimi mədəniyyət obyektlərinin əsaslı şəkildə təmir edilib yenilənməsi, milli mədəniyyətimizin yaradıcıları və yaşadanları olan yazıçı və şairlərimizin ev muzeylərinin yaradılması 1996-2015-ci illərdə geniş vüsət almış və dövlətin qayğısı ilə əhatələnmişdir. Müstəqilliyimizin son iyirmi ilində respublikamızın bütün bölgələrində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da ümummilli lider Heydər Əliyevin mədəniyyət sahəsindəki siyasəti davam etdirilmiş, mənəvi mədəniyyətin inkişafı diqqət mərkəzində saxlanılmışdır.

Mənəvi mədəniyyətimizin əsas yaşadıcılarından olan tarixi abidələr, onların qorunması, bərpaya ehtiyacı olan memarlıq komplekslərinin restavrasiyası Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xüsusi vüsət almışdır. 1996-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında bu sahəyə ayrıca diqqət yetirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Vasif Talıbovun muxtar respublikaya rəhbərlik etdiyi bu dövrdə özündə əsrlərin, min illərin tarixini yaşadan mədəniyyət abidələrimizin qorunmasında mühüm işlər görülmüşdür. Ali Məclis Sədrinin bölgəmizin tarixinə, milli-mənəvi dəyərlərinə diqqəti özünü 1996-cı ildə Naxçıvanın tarixi inkişafının bütün mərhələlərinin real tarixi mənbələr əsasında öyrənilməsini, elmi əsaslar üzrə işlənib hazırlanmasını və nəşrini təşkil etmək məqsədi ilə "Uluslararası qaynaqlarda Naxçıvan" mövzusunda beynəlxalq simpozium keçirilməsi haqqında verdiyi Sərəncam mühüm əhəmiyyət daşımışdır [6, s. 4]. Beynəlxalq simpoziumda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mənəvi dəyərlərin yüksək tutulmasının xalq və dövlət qarşısındakı əhəmiyyətini,



dövlətin mədəniyyət sahəsində müəyyən etdiyi siyasi istiqamət barəsində öz fikirlərini belə ifadə etmişdir: ***"Fikrimizcə, bu istiqamətlər içərisində tariximizə, dilimizə, ədəbiyyatımıza, folklorumuza, arxeologiya və etnoqrafiyamıza dair araşdırmalar ön mövqeyə çəkilməlidir. Çünki müstəqillik dövrünə keçidin əsas xüsusiyyətlərindən biri olan milli-mənəvi özünüdərketmə prosesinin dərinləşməsi və sağlam əsaslar üzrə inkişaf etdirilməsi, ilk növbədə xalqın öz tarixi keçmişinə, dilinə, milli ənənələrinə bələd olmasına, yiyələnməsinə ciddi zərurət doğurur. Bu vəzifələri həyata keçirmək üçün xalqımızın və dövlətimizin, dilimizin və mədəniyyətimizin tarixi yazılıb, nəşr edilib xalqımıza çatdırılmalıdır"*** [6, s. 5].

Həmin simpoziumdan sonra Naxçıvan Muxtar Respublikasında milli dəyərlərin bərpası, qorunması, inkişaf etdirilməsi, təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər çərçivəsində 60-dan artıq memarlıq abidəsi bərpa və ya təmir edilmiş, "Naxçıvan abidələri ensklopediyası", "Naxçıvan folkloru antologiyası", "Naxçıvan milli geyimləri" kitabları və s. nəşr olunmuşdur [7, s. 127].

Qeyd olunduğu kimi qədim yurd yeri olan Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarı mənəvi mədəniyyətimizi özündə mühafizə edən tarixi abidələrlə zəngindir. Ulu babalarımızın yadigarı olan bu abidələr bizə keçmişimizdən xəbər verməklə yanaşı, məxsus olduğu dövrün mədəni mühitini, sənətkarlarımızın iş xüsusiyyətlərini, təfəkkür və düşüncə tərzini özündə yaşadır. Azərbaycanda siyasi rəhbərliyinin bütün mərhələlərində mədəniyyət abidələrimizin mühafizəsi və bərpası işini həmişə nəzarətdə saxlayan ümummilli lider Heydər Əliyev bu qəbildən olan mədəniyyət nümunələrinin tədqiqi və təbliği işinə böyük qayğı göstərmişdir. Məhz onun uğurlu siyasi fəaliyyəti nəticəsində, Azərbaycan 1997-ci ildə Avropa Mədəniyyət Konvensiyası və Tədqiqi Mərkəzinin üzvü seçilmiş, 1999-cu ildə isə "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına qoşulmuşdur [8].

Ümummilli lider Heydər Əliyevin mədəniyyət sahəsində müəyyən etdiyi siyasi kurs Naxçıvanda uğurla həyata keçirilir. Bu istiqamətdə ən uğurlu işlərdən biri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 6 dekabr 2005-ci ildə imzaladığı "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncam və bu rəsmi sənəd əsasında həyata keçirilən tədbirlər olmuşdur [6, s. 172]. Görülən işlər nəticəsində 2006-2014-cü illərdə muxtar respublika ərazisində 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır.

Xalq və dövlət tərəfindən həmişə diqqət mərkəzində saxlanılan qədim mədəniyyət nümunələri olan tarix və mədəniyyət abidələri maddi sübut

olmaları ilə bərabər həm də mənəvi mədəniyyətimizin yaşadıcıları olmuşlar. İlkin yaşayış məskənlərindən olan, Qədim Daş dövrünün orta mərhələsini əhatə edən Qazma mağarasının, Eneolit və Tunc dövrü yaşayış məskənləri olan Ovçular təpəsinin, I və II Kültəpələrin və s. Naxçıvan ərazisində yerləşməsi bölgənin zəngin tarixindən xəbər verir. Naxçıvan ərazisində, eyni zamanda, orta əsrlərə aid çoxlu memarlıq abidələrinin olması və bu mədəniyyət nümunələrinin özlərində Azərbaycan sənətkarlığını, mənəvi dünyasını yaşatdığını nəzərə alan muxtar respublika rəhbərliyi bu qəbildən olan abidələrin öyrənilməsi və təbliğinə xüsusi diqqət göstərmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sərəncamları əsasında muxtar respublikanın rayonlarında tariximizi, mədəniyyətimizi təbliğ edən bir sıra muzeylər yaradılmış, bununla da yerli və xarici ziyarətçilərə bölgəmizin mədəniyyəti, milli-mənəvi dəyərləri barədə lazımi məlumatların çatdırılması təmin edilmişdir. Bu sahənin inkişafı ilə bağlı Ali Məclis Sədrinin 19 dekabr 2014-cü il tarixli " Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamı mühüm əhəmiyyət kəsb etmişdir [1].

Muxtar respublika ərazisində yerləşən, qədim tarixə malik özünəməxsus yeri olan, hər daşında, hər qayasında xalqın milli, dini və əxlaqi dəyərlərini əks etdirən "Əshabi–Kəhf" ziyarətgahı da xalqımız və dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılan mədəniyyət obyektlərindəndir. Haqqında müqəddəs Qurani-Kərimdə bəhs olunan bu ziyarət obyektinin tarixi mahiyyətini nəzərə alan muxtar respublika rəhbəri 9 fevral 1998-ci ildə "Əshabi-Kəhf" ziyarətgahının bərpası və qorunması tədbirləri haqqında" Sərəncam imzalamışdır [6, s. 27]. Sonrakı illərdə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu qəbildən olan mənəviyyat abidələri haqqında mühüm qərarlar vermişdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq ideologiyasının əsl qoruyucusu, inkişaf etdiricisi olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 26 aprel 2001-ci il tarixli "Ordubad rayonunun Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında", 11 iyul 2002-ci il tarixli "Naxçıvan şəhərindəki Əcəmi seyrangahında "Açıq Səma altında muzey" yaradılması haqqında", 28 iyun 2006-cı il tarixli "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında", 10 fevral 2009-cu il tarixli "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında, 2010-cu ildə "Xan sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında" və bu qəbildən olan digər mühüm tədbirlərlə əlaqədar imzaladağı sərəncamlar bu ideolgiyanın inkişaf etdirilməsində mühüm rol oynamışdır [7, s. 60].

Ümumiyyətlə 1996-2015-ci illərdə muxtar respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması ilə yanaşı, onların



bərpası da diqqət mərkəzində olmuşdur. Bu illərdə milli xüsusiyyətləri özündə yaşadan Möminə-xatın türbəsi, Qarabağlar Memarlıq Kompleksi, Yusif Küseyr oğlu türbəsi, Nuh türbəsi, Came məscidi, Xan sarayı, İmamzadə, Buzxana abidələri, Zaviyə mədrəsə binası, İsmayılxan hamamı, Culfa rayonu ərazisindəki Xanəgah Kompleksi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə və s. abidələr əsaslı şəkildə təmir və bərpa edilmişdir. Naxçıvan şəhərində Dədə Qorqudun, Koroğlunun abidələri ucaldılmış, onların yerləşdiyi meydanlar yenidən qurulmuş, "Ana dili" abidəsi qoyulmuşdur [2, s. 179]. Naxçıvan şəhərindəki Naxçıvanqala və digər abidələr bərpa olunmuş, mədəniyyətimizin əsas təbliğat obyektlərinə çevrilmişdir. Sözsüz ki, bu tədbirlər mədəniyyət siyasətinin tərkib hissəsi, mənəvi dünyamızın zənginləşməsində və nəsildən-nəslə keçərək yaşadılmasında atılan çox mühüm addımlardır.

Əsrlər boyu yaranan mənəvi və maddi-mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların təbliği milli-mənəvi dəyərlərin yenidən xalqımıza qaytarılmasında mühüm rol oynamışdır. Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığının inkişafı və qorunub saxlanması istiqamətində bir sıra işlər görülmuşdür ki, bunlardan biri də Ali Məclis Sədrinin 2009-cu il fevralın 7-də imzaladığı "Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamdır [6, s. 399]. İmzalanan bu sənəd xalq yaradıcılığının inkişafı və qorunub yaşadılması işində əhəmiyyətli dərəcədə mühüm rol oynamışdır.

Milli dəyərlərimizə böyük diqqət, qayğı, hörmət və ehtiramla yanaşan, onun inkişafı üçün çox əhəmiyyətli işlər görən, lazımi şərait yaradan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2012-ci ili "Milli dəyərlər" ili elan etmişdir. IV çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 29 dekabr 2011-ci ildə keçirilən IV sessiyasında hörmətli Sədr yekun nitqində: "Milli dəyərlərin bərpası, qorunması və gələcək nəsillərə çatdırılması ilə bağlı əvvəlki illərdə başlanmış tədbirlər 2012-ci ildə daha geniş miqyasda davam etdiriləcəkdir",-söyləməklə əsl vətənpərvər olmasını bir daha təsdiq etmiş, milli-mənəvi dəyərlərə nə dərəcədə yüksək qiymət verdiyini göstərmişdir [7, s. 126].

Xalqımızın qədim adət-ənənələrinin, dunyagörüşünün, yaşam tərzinin mükəmməl tərzdə ifadə olunduğu möhtəşəm ədəbi abidə olan "Kitabi-Dədə Qorqud" dastanının alman dilinə tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 fevral 2015-ci ildə imzaladığı Sərəncama uyğun olaraq, ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da mühüm işlər görülmüşdür [3]. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun bu münasibətlə təsdiq etdiyi "Tədbirlər planı"na əsasən 26-27 oktyabr 2015-ci ildə Naxçıvan şəhərində "Naxçıvanda Dədə Qorqud"

beynəlxalq elmi simpoziumu keçirilmişdir. Mənəvi mədəniyyətimizin şah əsəri olan tarixi eposun tədqiqi və təbliğində bu elmi tədbirin böyük əhəmiyyəti olmuşdur.

Hər bir insanın mənəvi kamilliyində onun düşdüyü mühitin, mənən qidalandığı elmi, bədii ədəbiyyatların, teatr tamaşalarının, səhnələşdirilmiş ekran əsərlərinin rolu əvəzsizdir. Azərbaycanlıların da ruhun qidası hesab etdikləri sənət əsərləri dünyaca məşhur olan klassiklərimizin və müasir dövr yazıçılarımızın və şairlərimizin yaratdıqları mənəviyyat xəzinələri olmuşdur. Mədəniyyət tariximizdən məlum olduğu kimi Naxçıvan diyarı özünün yetirdiyi siyasət, elm və sənət adamları ilə nəinki təkcə Azərbaycanda, eləcə də bütün Şərqdə tanınmışdır. Öz dövrünün və həmçinin sonrakı nəsillərin mənəvi kamillik dərəcəsinə yüksəldilməsində əvəzsiz xidməti olan ziyalılardan biri də Naxçıvan torpağının layiqli yetirməsi Məhəmməd Tağı Sidqi olmuşdur. Görkəmli maarifçi, böyük mütəfəkkir Məhəmməd Tağı Sidqi xalqımızın maariflənməsi uğrunda mübarizə aparan ilk fədailərdən biridir. Dahi mütəfəkkirin savadlı, sağlam düşüncəli azərbaycanlı gənclərin yetişməsindəki xidmətləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqət mərkəzində olmuşdur. Azərbaycan realist ədəbiyyatının inkişafındakı müstəsna rolu, məktəb, teatr və mətbuat sahəsindəki xidmətləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin 150 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında 11 mart 2004-cü il tarixli Sərəncam imzalamışdır [6, s. 141]. Görkəmli pedaqoqun yaradıcı irsinin tədqiqi sonrakı illərdə də davam etdirlimiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi ilə əlaqədar olaraq 20 avqust 2014-cü ildə imzaladığı Sərəncamla Ordubad şəhərində ev muzeyi yaradılmışdır [4].

Klassik ədəbiyyatımızın ən yaxşı ənənələrini davam və inkişaf etdirmiş, lirik şeirlərin, poemaların, ədəbiyyatımızda ilk mənzum faciənin müəllifi olan Hüseyn Cavidin həyat və yaradıcılığı bu illərdə də tədqiq edilmiş, yaradıcılıq gecələri keçirilmişdir. Dahi şair, Azərbaycan dramaturgiyasında yeni mərhələnin əsasını qoymuş Hüseyn Cavidin anadan olmasının 130 illik yubileyinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 fevral 2012-ci il Sərəncamının icrasını təmin etmək məqsədi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 20 fevral 2012-ci il tarixli Sərəncam imzalamış, yubiley tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq tədbirlər planı təsdiq etmişdir [6].

Bəşər mədəniyyətinə zaman-zaman dəyərli töhfələr vermiş, məşhur dahilər bəxş etmiş Naxçıvanın iyirminci əsrdə yetirdiyi ən böyük ziyalılardan biri də söz-sənət sahibi Məmməd Araz olmuşdur. Xalq şairi Məmməd Arazın anadan olmasının 80 illik yubiley tədbirlərinin keçirilməsi



ilə əlaqədar olaraq 2013-cü ildə silsilə tədbirlər keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 8 iyun 2013-cü ildə imzaladığı "Xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında" və iyun ayının 28-də imzaladığı "Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında" Sərəncamları əsasında muxtar respublika ərazisində yerləşən təhsil, elm və mədəniyyət müəssisələrində geniş tədbirlər keçirilmiş, Naxçıvan şəhərindəki küçələrdən birinə onun adı verilmişdir [5].

Göründüyü kimi mədəniyyət sahəsində əldə olunan uğurların təməlində düşünülmüş dövlət siyasəti, qəbul edilmiş mühüm qərarlar və onların icrası durmuşdur.

## ƏDƏBİYYAT


1. Allahverdiyev F. Muzeylər ziyarət olunur. // "Şərqin səhəri" qəzeti, 2 sentyabr 2015-ci il
2. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: "Əcəmi" NPB, 2011, 272 s.
3. Həşimli H. Əbədiyaşar ədəbi abidə. // "Şərq qapısı" qəzeti, 1 sentyabr 2015-ci il.
4. İsmayılova N. Məhəmməd Tağı Sidqinin pedaqoji və ədəbi irsini öyrənmək bütün dövrlər üçün aktualdır. // "Şərq qapısı" qəzeti, 26 sentyabr 2014-cü il.
5. Məmmədov S. Vətən daşı olan vətəndaş şair. // "Şərq qapısı" qəzeti, 14 oktyabr 2014-cü il.
6. Rəsmi sənədlər. (1996-2011-ci illər). Naxçıvan, 2012.
7. Səfərli F. Heydər Əliyev irsi - əbədiyaşar təlim. Naxçıvan. "Əcəmi" NPB, 2014, 200 s.
8. "Şərq qapısı" qəzeti, 18 aprel 2015-ci il.

**Əli Rzayev**
Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI VƏ BƏRPASI

Müasir dövrümüzdə gedən proseslər bütün sahələrdə olduğu kimi milli-mənəvi dəyərlər sistemində də özünü göstərir. Milli-mənəvi dəyərlər sistemi tarixi inkişafda adət-ənənələr, inanclar, əxlaq normaları, humanitar dəyərlər və s. nəsildən-nəslə ötürülür. Milli-mənəvi dəyərlər özünəməxsusluğunu hər zaman göstərir. Tarix boyu milli şüuru yüksək olan xalqlar öz milli dəyərlərini qoruyub saxlayırlar. Həqiqətən də sivilizasiyalar bir-biri ilə nə qədər əlaqədə olsalar da, hər bir millət öz milli dəyərlərini və adət-ənənələrini qoruyub saxlamalıdır.

Qədim dövlətçilik tarixinə malik Azərbaycan xalqı hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması bu gün öz aktuallığını qoruyub saxlayır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Müasir Azərbaycan cəmiyyətində zəruri və mühüm amillərdəm biri də insanların tərbiyəsi və tərbiyə prosesində milli-mənəvi dəyərlərdən düzgün istifadədir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli-mənəvi dəyərlərimizin dövlət quruculuğundakı əhəmiyyətini dəfələrlə qeyd edərək deyirdi: **"Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir"** [1. s. 102].

Ulu öndər milli-mənəvi dəyərləri nəzəri və ideoloji məsələlər kimi irəli sürərək deyirdi: **"Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Biz heç vaxt öz milli dəyərlərimizi unitmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq, həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir"** [2, s. 1].

Müstəqillik illərində milli-mənəvi dəyərlərin yaşadılması, təbliğ edilməsi, gələcək nəsillərə ötürülməsi bu mənada xüsusi önəm kəsb edir.

Naxçıvan Muxtar Respublikasında müstəqilliyimizin 20 ili ərzində milli-mənəvi dəyərlərə qayğı, bu dəyərlərin yaşadılması həmişə prioritet məsələ olmuş, mühüm dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir. Bəs milli dəyərlər deyəndə nə başa düşülməlidir? Milli ideologiya, milli tarix,



milli dil, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə və əxlaqi münasibətlər, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, folklorumuz... Qısası əcdadlarımızın bizə miras qoyduğu milli-mənəvi dəyərlər sistemi. Təbii ki, humanitar elmlərin hər bir sahəsi bu sahəyə aid olan dəyərləri öyrənir, təbliğ və tədqiq edir. Müasir kulturologiya milli-mənəvi dəyərləri bir neçə qrupa bölərək öyrənir:

Humanitar dəyərlər.
Maddi dəyərlər.
Mənəvi dəyərlər.
Davranış dəyərləri.
Adət-ənənələr.

Son 20 ildə qədim Naxçıvan torpağında bütün sahələrdə gedən inkişaf və tərəqqi bu sahələrin hər birində özünü göstərir. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1995-2015-ci illər ərzində görülən işlərin, milli-mənəvi dəyərlər sisteminin hərəkətverici qüvəyyə çevrilməsi haqqında aydın təsəvvür yaratsın. Milli mədəni irsin qorunması, dinimizə münasibət, inanc yerlərinə münasibət, maddi dəyərlərimiz olan tarixi abidələrə münasibət, görkəmli şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsi, yubileylərinin qeyd edilməsi, qədim adət-ənənələrimizin dirçəldilməsi və yaşadılması, xalq yaradıcılığına münasibət, muxtar respublikanın yaşlı və ahıl insanlarına qayğı.... Vətən ata-ana, el-oba, yurd yeri, doğma ocaq sevgisi, vətənpərvərlik, böyük-kiçik, ədəb-ərkan, etik dəyərlər, unudulmaz inam və inanclarımız, müqəddəs milli adət-ənənələrimiz ümumən milli mentalitemizin nəhək daşıdır. Keçmişimiz tariximizin həm də ibrət dərsləridir. Bu baxımdan keçmişimiz eyni zamanda sabahımızın müəllimidir. Gənc nəslin azərbaycançılıq ideyaları ruhunda tərbiyəsi xalqımızın qələbələrinin, uğurlarının təminatçısıdır. Əsrlər boyu xalqımızın böyük mənlik şüuru, əxlaqi-mənəvi dəyərlərə sədaqəti sayəsində, bütün təsirlərə baxmayaraq öz dilini, dinini, milli adət-ənənələrini qoruyub saxlaya bilmiş, onu xüsusilə sovetlər dövrünün ideoloji ehkamlarından aşılanmağa imkan verməmişdir. Gənclərimizi düzgün istiqamətlərə yönəltmək, mənəvi tərbiyə aşılamaq, ailələrin, təhsil müəssisələrinin, söz sahibi olan insanların, ağsaqqalların, xüsusilə ziyalıların imkanlarını, təsir gücünü artırmağa zəmin yaratmışdır. Son 20 ildə muxtar respublikada mənəvi dəyərlərimizin saflığı, qorunması istiqamətində də görülən işlər haqqında ətraflı söhbət açmaq olar. Təbii ki, deyilənləri bir qədər də artırmaq olar. Təkcə bu illərdə Ali Məclis Sədri tərəfindən bu sahələrə aid 100-dən çox sərəncamın imzalanması dediklərimizi sübut edir.

Bütün bunları deməkdə məqsədim odur ki, biz xalqımızın yaratdığı milli-mənəvi dəyərlər sistemini bir neçə sahə ilə təcrid edə bilmərik. Azərbaycan xalqının milli-mənəvi dəyərləri başqa xalqlara da nümunə ola

bilər ki, o dünyadan təcrid olunmuş bir xalqın yox, dünyaya açıq bir xalqın milli-mənəvi dəyərləridir.

Son 20 ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində milli-mənəvi dəyərlər sisteminin bütün sahələrində uğurlu nəticələr və görülən işlər bunun bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Əshabi – Kəhf Ziyarətgahının bərpası və qorunması tədbirləri haqqında", "Naxçıvan şəhərində "Dədə Qorqud Meydanı"nın salınması haqqında", "Naxçıvan Muxtar Respublikasında tarixi abidələrin bərpası fondunun yaradılması haqqında", "Naxçıvan ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında", "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında", "Ordubad rayonundakı "Gəmiqaya" abidəsinin tədqiq edilməsi haqqında", sərəncamlar tarixi abidələrimiz, maddi-mənəvi dəyərlərimizə, inanc yerlərinə diqqət və qayğının bariz ifadəsidir. Bu gün Muxtar Respublikada 1200-dən çox tarix və mədəniyyət, dini abidə qeydə alınıbdır. Son illər Ali Məclis Sədri tərəfindən imzalanmış "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında", "Gülüstan" türbəsinin bərpası və tədqiq edilməsi haqqında" sərəncamlar bu sahədə işlərin ardıcıllığını və davam etdirildiyini göstərir.

Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 7 fevral 2009-cu il tarixli Sərəncamı xalq yaradıcılığının müasir dövrümüzdə inkişafına və təbliğinə yeni üfüqlər açmışdır. Sərəncamda deyilir: **"Hər bir xalqın tarixində xalq yaradıcılığı onun milli-mənəvi dəyərlərinin və dünyagörüşünün, təşəbbüskarlıq və novatorluğunun təzahürü formalarından biridir. Tarixi-mədəni irsimizin daşıyıcısı olan Azərbaycan xalq yaradıcılığı əsrlər boyu formalaşaraq və inkişaf edərək günümüzədək gəlib çıxmışdır.**

**Azərbaycanın qədim Naxçıvan torpağında yayılmış el sənəti nümunələri böyük və zəngin bir tarixi mərhələni, mədəni inkişaf dövrünü əhatə edir. Qədim sivilizasiyalara və müasir mədəni inkişafa layiqli töhfə olan bu yaradıcılıq nümunələri xalqımıza xas milli xüsusiyyətləri və xarakteri, adət-ənənələri, həyat və məişət tərzini özündə cəmləşdirərək müasir dövrdə parlaq şəkildə nümayiş etdirir"** [3, s. 399].

Qeyd edək ki, muxtar respublikamızda xalq yaradıcılığı ənənələri yaşatmaq və təbliğ etmək sahəsində də genişmiqyaslı işlər görülmüşdür. 2008-ci ilin aprelin 26-da Heydər Əliyev Muzeyinin qarşısında keçirilən "Xalq yaradıcılığımız bu gün" muxtar respublika festivalını buna misal göstərmək olar. Bu sərəncam isə zəngin xalq yaradıcılığının, milli-mənəvi



dəyərlər sisteminin əsas daşıyıcısı olan xalq yaradıcılığının bütün sahələrini yaşatmaq, gələcək nəsillərə çatdırmaq baxımından dəyərlidir. Bu gün muxtar respublikada xalq yaradıcılığına qayğı və diqqət öz bəhrəsini vermişdir. 2009-cu ildə muxtar republikada Aşıqlar Birliyi yaradılmışdır. Sərəncam imzalandıqdan sonra Naxçıvanda ilk dəfə olaraq Novruz bayramında "Xalq yaradıcılığı günləri" keçirilmişdir. Həmin tədbirlərdə xalq sənətkarlarının əl işlərini, Azərbaycan xalqının tarixi dövrlərini özündə əks etdirən müxtəlif əşyalar, muzey eksponatları, milli mətbəx nümunələri nümayiş etdirilmiş, xalq oyunlarını və musiqisini, yallıları, xalq rəqslərini, sujetli rəqsləri, toy adətləri, aşıq musiqisini repertuarına daxil edən folklor kollektivləri tərəfindən çıxışlar olmuşdur. Sərəncamdan sonra muxtar respublikamızın bütün bölgələrində xalq yaradıcılığının müxtəlif sahələrinə yeni həyat verilir. Xalq sənətinin ağacişləmə, xalçaçılıq, papaqçılıq, dülgərlik, toxuculuq, dəmirçilik, zərgərlik, misgərlik sahələrini özündə əks etdirən sahələr inkişaf etdirilir. Bu gün qədim diyarda yüzlərlə insan xalq yaradıcılığının müxtəlif sahələrini yaşadır. Naxçıvan Regional Peşə Tədris Mərkəzində qədim xalq sənətimizin nümunələrini özündə yaşadan kurslar təşkil olunur, xalq sənətkarlarının əl işləri satış-sərgilərə çıxarılır. 2012-ci il muxtar respublikamızda "Milli dəyərlər" ili kimi yadda qalmışdır. 2012-ci ilin iyulun 7-də "Milli dəyərlərimiz-milli sərvətimizdir" muğam və folklor müsabiqəsi keçirilmiş, 2012-ci ilin dekabrında Duzdağ otelinin tədbirlər zalında "Milli dəyərlər" ilinə həsr olunmuş böyük tədbir təşkil olunmuşdur. Bu gün Muxtar Respublikada milli-mənəvi dəyərlərin yaşadılması və gələcək nəsillərə çatdırılması bir ənənəyə çevrilmişdir. Bu il oktyabrın 5-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında qadınların əl işlərindən ibarət sərgi təşkil olunmuşdur. Bu sərgidə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: **"Milli dəyərləri yaşatmaq xalqın tarixini yaşatmaq deməkdir. Əgər hər bir xalq öz kimliyini ortaya qoymaq istəyirsə, ilk növbədə milli dəyərlərinə istinad etməlidir. Milli dəyərləri olmayan xalqın keçmişi olmadığı kimi, gələcəyi də yoxdur. Gələcək keçmiş üzərində qurular. Bu gün milli dəyərlərimizin yaşadılması da keçmişimizə hörmət və gələcəyimizə qayğı kimi mühüm bir məqsədə xidmət edir"** [4, s. 1, 2].

Muxtar respublikamızda milli-mənəvi dəyərlərin yaşadılması üçün görülən işlər, mövcud şərait, bu sahədə çalışan insanlara diqqət və qayğı bunu deməyə əsas verir. Bu tədbirdən bir ay sonra noyabrın 4-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzeyi Kompleksində təşkil olunan xalq yaradıcılığı sərgisi bunu deməyə əsas verir. Bu sərgiyə 37 el sənətkarı tərəfindən oyma, xəttatlıq, duluzçuluq, papaqçılıq, ağac üzərində yandırma, bədii tikmə və digər xalq sənətkarlığı sahələri üzrə 600-ə yaxın əl işi, rəsm əsərləri, məktəbdənkənar tərbiyə müəssisələrinin müəllim və şagirdləri

tərəfindən hazırlanan 120 bədii tikmə və toxuma nümunələri, sağlamlıq imkanları məhdud şəxslərin və qadınların əl işləri çıxarılmış, muxtar respublikanın müxtəlif rayonlarında fəaliyyət göstərən folklor və yallı kollektivlərinin çıxışları olmuşdur. Xalq yaradıcılığı sahəsindəki səmərəli fəaliyyətinə görə 8 nəfər mükafatlandırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov xalq yaradıcılığı sərgisinin açılışında demişdir: **"Milli dəyərlərə bağlılıq, milli-mənəvi irsin qorunmasından başlanır. Biz bu gün tarixi abidələri tədqiq və bərpa etməklə, milli dəyərləri yaşatmaqla, bir tərəfdən keçmişimizə və gələcəyimizə ehtiramımızı bildiririk, digər tərəfdən isə xalqımızın əsrlər boyu formalaşmış sənətkarklıq mədəniyyətini, həyat tərizini, məişətini, bir sözlə mili dəyərlər sistemini yaşadırıq"** [4, s. 1, 2].

Son 20 ildə muxtar respublikada milli-mənəvi dəyərləri yaşatmaq sahəsində görülən işlərin miqyası olduqca genişdir. Görülən işlər bir də onu göstərir ki, bütün bu işlər kompleks şəkildə, düzgün düşünülmüş sistem şəklində davamlı həyata keçirilir. Milli-mənəvi dəyərlərimizlə bağlı həyata keçirilən çoxsaylı tədbirlər, nəşr olunan kitablar, çəkilən filmlər hörmətli Ali Məclis Sədrinin bu sahəyə xüsusi önəm verməsinin nəticəsində mümkün olmuşdur. Qazanılan bütün uğurlar Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində həyata keçirilmişdir. Son illər yüksək şəkildə nəşr olunan, nəfis tərtibatla işıq üzü görmüş "Naxçıvan milli geyimləri", "Naxçıvan tikmələri", "Naxçıvan folkloru" (3 cildlik), "Naxçıvan xalçaçıları", "Azərbaycan xalçaları: Naxçıvan qrupu", "Naxçıvan mətbəxi", "Naxçıvan-Şərur el yallıları" və başqa kitablar milli-mənəvi dəyərlər sistemimizin təbliği və tədqiqi baxımından da dəyərli nəşrlərdir.

Xalqımızın yaratdığı milli-mənəvi dəyərlər sistemi genişdir. Təbii ki, bu sahədə görülən işlər də geniş və əhatəli olmalıdır.

Tarixən sənət adamları Şərur torpağını yallıların beşiyi adlandırırlar. Yallı təkcə musiqi və rəqs deyil. O qədim oğuz-türk tarixinin başlıca möhürlərindən olmaqla, tariximizi yaşadır. Muxtar respublikamızda yallıların yaşadılması istiqamətində görülən işlər də təqdirəlayiqdir. "Yallı" kompakt diskinin hazırlanması, Şərur "Yallı" Xalq Ansamblının bu illərdə Misirdə, Moskvada, Türkiyədə, Azərbaycanın müxtəlif bölgələrdə çıxışları təşkil edilmişdir.

Kiçik bir çıxışla muxtar respublikada həyata keçirilən tədbirləri əhatə etmək imkan xaricindədir. Qeyd etmək lazımdır ki, bu işlər, milli-mənəvi dəyərlərin yaşadılması istiqamətində həyata keçirilən tədbirlərin kiçik bir hissəsidir. Bu sahədə görülən və görüləcək işlərin miqyası genişdir. Bu işlər davamlı və ardıcıl aparılır. Bu sahədə ziyalılarımızın, alimlərimizin, xalq sənətkarlarının üzərinə mühüm vəzifələr düşür. Xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: **"Milli dəyərlər daim**



**qorunmalı və yaşadılmalıdır. Çünki milli dəyərlər bizim varlığımızdır"** [5, s. 157].

Milli-mənəvi dəyərlər sistemi çox geniş məzmun və mahiyyətə malikdir. Milli-mənəvi dəyərlər xalqımızın əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur. Mədəniyyətimiz kimi milli-mənəvi dəyərlərimiz də çoxçalarlıdır. Bu müxtəlifliyi qorumaq və gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur. Bu müxtəliflik milli və ümumbəşəri səviyyələrə yüksəldikcə daha sabit və dayanıqlı olur. Milli-mənəvi dəyərlər sistemimizin tolerantlığı onu bəşəri dəyərlərə yaxınlaşdıran amillərdəndir. Ona görə də son 20 ildə muxtar respublikada milli-mənəvi dəyərlərin inkişafını və yaşadılması istiqamətində işlərin davam etdirməsi üçün əlimizdən gələni etməliyik.

## ƏDƏBİYYAT


1. Seyidov M., Rzayev M. Zamanı qabaqlayan dahi. Bakı: Vektor, Bakı, 2008.
2. "Şərq qapısı" qəzeti, 5 dekabr 2015.
3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəsmi Sənədləri (1996-2011), Naxçıvan: "Əcəmi" NPB, 2012.
4. Naxçıvanda Xalq yaradıcılığı sərgisi keçirilir. "Şərq qapısı" qəzeti, 6 noyabr 2015
5. Heydər Əliyev və mənəvi dəyərlər. Bakı: Səda, 2003.
6. Muasir şəxsiyyət (Sosial- fəlsəfi təhlil). Naxçıvan: "Əcəmi" NPB, 2015.

**Ramil Orucəliyev**
Heydər Əliyev Muzeyi

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MUZEYLƏR: DURĞUNLUQDAN ELMİ-MƏDƏNİ İNTİBAHA

Hər bir insan öz vətəninin keçmişini öyrənməli və onu yaddaşına əbədi həkk etməlidir. Bu baxımdan muzeylər maddi-mənəvi irsin qorunub saxlanılmasında və gələcək nəsillərə çatdırılmasında əvəzsiz elmi-mədəni müəssisələrdir. Ümummilli lider Heydər Əliyev tariximizin, milli-mənəvi dəyərlərimizin öyrənilməsində çox mühüm missiyanı yerinə yetirən bu mədəniyyət ocaqlarına yüksək qiymət verərək deyirdi: "Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır" [2, s. 6].

Azərbaycanda ilk muzeyin yaradılması görkəmli yazıçı Cəlil Məmmədquluzadənin adı ilə bağlıdır. 1896-cı ildə o, Nehrəm kənd məktəbində muzey yaratmaq təşəbbüsü ilə Xalq Məktəbləri İdarəsinə yazılı müraciət etmiş və buna nail olmuşdur. Azərbaycanda rəsmi qaydada yaradılan ilk muzey 1919-cu il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin nəzdində yaradılan "İstiqlal" muzeyidir. Naxçıvan Muxtar Respublikasında ilk muzey isə Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 30 oktyabr 1924-cü il tarixli qərarı ilə yaradılan Tarix-Etnoqrafiya Muzeyi olmuşdur [4, s. 5].

Azərbaycanda muzeylər şəbəkəsinin yaradılması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın böyük oğlu Azərbaycana rəhbərliyinin birinci dövründə respublikamızda muzeylərin, xüsusilə tarix-diyarşünaslıq muzeylərinin yaradılması, onların fondlarının zənginləşdirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirmişdir. Ulu öndər Heydər Əliyev tarix-diyarşünaslıq muzeylərinin əhəmiyyətini qeyd edərək demişdir: "Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzinə çevrilmişdir. Muzeylər söz yox ki, hər bir vətəndaşın öz diyarının, kəndinin tarixinə bələd olması üçün də vacibdir. Bir sözlə, tarix-diyarşünaslıq muzeyləri təşkil etməyin zəruriliyi göz qabağındadır" [2, s. 6].

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra həyatın bütün sahələrində olduğu kimi, muzey işi də öz inkişafının yeni mərhələsinə qədəm



qoymuşdur. Ulu öndərin təşəbbüsü ilə 1994-cü ildə "Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında" qərar qəbul edilmişdir. Azərbaycana rəhbərliyinin birinci dövründə olduğu kimi ulu öndər müstəqillik illərində də Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin fəaliyyətlərinə yüksək qiymət verərək onların adını əbədiləşdirdi. Ümummulli lider Heydər Əliyev 1999-cu il 13 oktyabrda görkəmli yazıçı-publisist və dramaturq Cəlil Məmmədquluzadənin Naxçıvanda Ev muzeyinin açılış mərasimindəki nitqində 70-ci illərdə Azərbaycanda görkəmli şəxsiyyətlərin ev muzeylərinin yaradılması haqqında deyirdi: "...Xatirimdədir, mən 70-ci illərdə Bakıda bizim bir neçə ədəbiyyat, musiqi, mədəniyyət xadimlərinin ev muzeylərinin açılması haqqında qərarlar qəbul edərkən Cəlil Məmmədquluzadənin Bakıda ev muzeyinin açılması haqqında da qərar qəbul etdim. Orada işlədiyim dövrdə bir neçəsini mən yarada bildim. Üzeyir Hacıbəyovun, Səməd Vurğunun ev muzeylərini yaratdım... Amma gedəndən sonra işlərim yarımçıq qaldı" [1, s. 262].

Ümummilli lider Heydər Əliyev 1982-ci ildən Moskvaya daha böyük vəzifəyə irəli çəkildikdən sonra Onun vətəndə olmaması səbəbindən yarımçıq qalmış arzularını, işlərini müstəqillik illərində davam etdirərək qətiyyətlə başa çatdırdı və muzey işinin gələcək inkişafına böyük töhfələr verdi. 24 mart 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Beş fəsil, 28 maddədən ibarət qanun ölkədə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi, iqtisadi əsaslarını tənzimləmişdir. Qanunda muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri, muzeylərin hüquqları, muzey fondları, onların uçotu və mühafizəsi, muzeylərə dövlət qayğısı və nəzarəti, muzey işçilərinin sosial müdafiəsi, bu sahədə beynəlxalq əməkdaşlıq kimi əhəmiyyətli məsələlər öz əksini tapmışdır.

Azərbaycanda muzeylərin yaradılması sahəsində böyük layihələr 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Prezident İlham Əliyev tərəfindən 6 mart 2007-ci il tarixdə "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" Sərəncam imzalanmışdır. Sərəncamda deyilir: "Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə

zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır. Bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş şəbəkəyə malik olub, respublikamızın bütün bölgələrini əhatə edir" [3, 2007, 7 mart]. Bu Sərəncamda muzey işinə mühüm əhəmiyyət verilərək muzeylərin milli-mənəvi dəyərlərimizin, tarixi yaddaşımızın gələcək nəsillərə çatdırılması istiqamətindəki xidmətlərinə toxunulmuş, Azərbaycanın dövlət maraqlarının təbliğ edilməsi və azərbaycançılıq məfkurəsinin qorunması istiqamətindəki gələcək fəaliyyət istiqamətləri müəyyən edilmişdir. Bundan başqa Prezidentimizin 22 may 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı" bu sahənin hüquqi bazasının təkmilləşməsinə, dünyanın nüfuzlu muzeyləri ilə əlaqələrin genişlənməsinə səbəb olmuşdur.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ümummilli liderimizin siyasi kursu bu gün layiqincə davam etdirilir, muzeylərin yaradılmasına və inkişafına dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir, 1995-ci ildən başlayaraq muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkəsinin genişləndirilməsi sahəsində mühüm işlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində Naxçıvanda yeni muzeylər yaradılmış, fəaliyyətdə olan muzeylər təmir olunmuş və yeni eksponatlarla zənginləşdirilmişdir. Yeni yaradılan muzeylərdə ən müasir tələblərə cavab verən səviyyədə kompozisiya, dizayn, işıq və ornament tərtibatı göz oxşayır. Bu tədbirlər maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsi və təbliğ olunmasına geniş şərait yaradır.

Muxtar respublikamızda yaradılan muzeylər içərisində Heydər Əliyev Muzeyi öz təyinatına görə xüsusi əhəmiyyət kəsb edir. Görkəmli ictimai-siyasi xadim, dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin adını daşıyan muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 18 fevral 1999-cu il tarixdə imzaladığı sərəncam əsasında Naxçıvan şəhərində yaradılmışdır. Heydər Əliyev Muzeyi ümummilli liderin ictimai-siyasi və həyat fəaliyyətinə dair



materialların toplanmasını, komplektləşdirilməsini, mühafizəsini, tədqiq və təbliğini həyata keçirən elmi-tədqiqat müəssisəsidir. Muzey ulu öndər Heydər Əliyevin həyat fəlsəfəsinin, ictimai-siyasi fəaliyyətinin, elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliğ edilməsi və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm missiyanı yerinə yetirir.

"Xan Sarayı" Dövlət-Tarix Memarlıq, Möminə xatın və Açıq Səma Altında Muzey Kompleksi, Naxçıvan Dövlət Xalça Muzeyi, Bəhruz Kəngərli Muzeyi, Xatirə Muzeyi, Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Şahtaxtinskilər Muzeyi, Cəlil Məmmədquluzadənin ev-muzeyi muxtar respublikada son 20 ildə yaradılan mədəniyyət ocaqlarıdır.

Bu illər ərzində muxtar respublikamızda müxtəlifprofilli muzeylərin yaradılması, yeni binalarla təmin edilməsi və əsaslı təmir olunması uğurla davam etdirilmişdir. Belə ki, 2013-2015-ci illərdə muxtar respublikada "Gəmiqaya" Tarix-Bədii Qoruğu və muzeyi, Şahbuz rayonunun Nursu kəndində xalq şairi Məmməd Arazın ev-muzeyi, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi , Xatirə Muzeyi, Şərur rayonunda Cəlilkənddə C.Məmmədquluzadənin Xatirə Muzeyi qapılarını tamaşaçıların üzünə açmışdır. "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri tərəfindən 17 sentyabr 2014-cü il tarixdə Sərəncam imzalanmışdır. Sərəncama əsasən böyük maarifçi və ədibin doğulub boya-başa çatdığı Ordubad şəhərində ev muzeyi yaradılmış, 25 avqust 2015-ci il tarixdə açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 fevral 2014-cü il tarixli "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncamına uyğun olaraq qalada bərpa işləri davam etdirilir və burada "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin yaradılması nəzərdə tutulmuşdur. Həmçinin "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" 7 oktyabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq Culfa rayonunun Gülüstan kəndi yaxınlığında yerləşən dünya əhəmiyyətli Gülüstan türbəsində bərpa işləri aparılır.

Görülən işlərin nəticəsidir ki, 1997-ci ilədək 13 muzeyin fəaliyyət göstərdiyi muxtar respublikamızda hazırda 28 müxtəlifprofilli muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir. Muzeylərin 13-ü paytaxt Naxçıvan şəhərinin payına düşür. Babək rayonunda 2, Culfada 1, Kəngərlidə 2, Ordubadda 5, Sədərəkdə 1, Şərurda 2, Şahbuzda 2 muzey

fəaliyyət göstərir.

Faktlar göstərir ki, muxtar respublikamızda bu sahədə işlər davamlı və ardıcıl olaraq həyata keçirilir və muzey şəbəkəsi genişləndirilir. Naxçıvanın bütün rayon və şəhərlərində yaradılan muzeylər bütövlükdə muxtar respublikamızın milli-mənəvi, maddi-mədəni sərvətlərinin və dəyərlərinin üzə çıxarılması, toplanması, elmi cəhətdən araşdırılması, tədqiq edilməsi, hazırki və gələcək nəsillərə çatdırılması işində faydalıdır və böyük əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yeni yaradılan muzeylərin açılış mərasimində şəxsən iştirak edərək muzeylərin fəaliyyəti ilə bağlı iş prinsiplərinin müasir tələblər səviyyəsində qurulması istiqamətində muzey işçilərinə həmişə dəyərli tövsiyələr vermişdir. 2010-ci il martın 19-da Naxçıvan Dövlət Xalça Muzeyinin yeni binasının açılış mərasimində iştirak edən Ali Məclis Sədrinin muzey işçiləri qarşısında qoyduğu tələblər muzey işinin müasir tələblər səviyyəsində yenidən qurulması istiqamətində böyük stimul yaratmışdır. Məktəblilərin muzeylərə cəlb edilməsi, bir sıra dərslərin muzeylərdə keçirilməsi, muzeylərin təbliği üçün kütləvi informasiya vasitələrinin imkanlarından istifadə olunması barədə verilən tapşırıqlar muzey işinin canlanmasına, muzeylərə tamaşaçı cəlb edilməsinə böyük təkan vermiş oldu. Açılış mərasimində Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: "...Muzeylər şəbəkəsinin yaradılması, onların fəaliyyətinin təşkili ölkəmizdə vacib sahələrdən biridir. Hələ ulu öndərimizin ölkəmizdə rəhbərlik etdiyi dövrdə Azərbaycanın bütün regionlarında tarix-diyarşünaslıq muzeyləri, böyük şəxsiyyətlərə aid muzeylər və digər mədəniyyət obyektləri yaradılaraq istifadəyə verildi. İndi isə bu işlər hörmətli Prezidentimiz tərəfindən davam etdirilir. Yeni xatirə muzeyləri yaradılır, mövcud muzeylər isə bərpa olunur, yeni eksponatlarla zənginləşdirilir və xalqımızın, ölkəmizə gələn qonaqların istifadəsinə verilir... Lakin iş muzeylərin yaradılması ilə bitmir, onların daim zənginləşdirilməsinə, tamaşaçıların muzeylərə cəlb olunmasına da ciddi diqqət yetirilməlidir" [5, 2010, 20 mart].

Ali Məclis Sədrinin 19 dekabr 2014-cü il tarixli "Muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq muxtar respublikanın dövlət, hökumət orqanlarının, nazirlik, komitə və agentliklərin muzeylərə kollektiv gedişi təmin edilmişdir. Bu tədbirlərin həyata



keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə şərait yatarmış və artıq bir ənənə halını almış, insanlarda mənəvi-əxlaqi, bədii-estetik tərbiyənin, elmi dünyagörüşünün formalaşmasına müsbət təsir göstərmişdir.

Ölkəmizin zəngin tarixini, mədəniyyətinin, tarixi inkişaf yolunu əks etdirən muzeylərimiz mədəni irsimizin qorunması və təbliğində böyük əhəmiyyətə malikdir. Bu vəzifələrin yerinə yetirilməsi məqsədilə muzeylərdə açıq dərslərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. 20 iyun 2014-cü il tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkili və elektron təhsil texnologiyalarının səmərəli istifadəsi üçün mühüm addımlar atılmış, muzeylərdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi başa çatmış, muzeylərin məktəb-muzey şəbəkəsinə qoşulması istiqamətində işlər yekunlaşdırılmışdır.

Hazırda muxtar respublikamızda fəaliyyət göstərən muzeylərdə mühafizə olununan eksponatlar böyük tamaşaçı marağına səbəb olmuşdur.Yerli və xarici tədqiqatçıların müzeylərdə elmi axtarışları, Naxçıvanın heyranlıq doğuran qədim tarixi, mədəniyyəti və adət-ənənələrini istər Azərbaycanda, istər də onun hüdudlarından kənarda tanıdılmasına şərait yaratmışdır.

Naxçıvanda həyatın bütün sahələrində olduğu kimi, 1995-2015-ci illər ərzində fasiləsiz dövlət qayğısı sayəsində muzeylər də özünün intibah dövrünü yaşamışdır. Bu dövrdə muzeylərin əsasnamələri yenidən hazırlanmış, eksponatlara dair məlumatların Azərbaycan dili ilə yanaşı, xarici dillərdə də yazılması təmin edilmiş, bələdçi mətnləri yenidən işlənərək xarici dillərə tərcümə olunmuşdur. Mövcud eksponatların inventarizasiyası aparılmış, muzey sərvətlərinin uçotu mövcud qaydalar əsasında təşkil olunmuş, fondların komplektləşdirilməsi işi daim diqqət mərkəzində saxlanılmış, əksər muzeylərin internet saytı yaradılmışdır.

Muzey ekspozisiyalarının yüksək peşəkarlıqla təqdim edilməsi vacib şərtdir. Öz üzərində daim çalışan bələdçilər muzeylərimizdə Azərbaycan, rus və ingilis dillərində ekskursiyalar aparırlar. Eyni zamanda muzey

bələdçiləri üçün vahid geyim formaları hazırlanmışdır. Muzey işçilərinin Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülməsi onların əməyinə verilən yüksək qiymətin ifadəsidir.

Muzeylərdə olan hər bir eksponat ehtiramla tədqiq edilərək mənəvi dəyərlər kimi qorunub saxlanılmalı və böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması işində istifadə edilimalidir. Bu gün sadə peşə adamından tutmuş rəhbər işçiyədək hamı Azərbaycanın dövlətçilik tarixini, milli-mənəvi dəyərlərini, xalqımızın görkəmli ictimai-siyasi və dovlət xadimlərinin irsini öyrənməli, onlardan birmənalı şəkildə bəhrələnməlidir. Bu məqsədə nail olmağın ən təsirli yollarindan biri məhz muzeylərimizdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muzeylərin tarixi keçmişimizin öyrənilməsi və müasir həyatımızdakı əvəzsiz rolunu qeyd edərək demişdir: "Muzeylər Azərbaycan xalqının tarixini, böyük şəxsiyyətlərinin həyatlarını, yaradıcılıqlarını, fəaliyyətlərini özündə əks etdirir. Xalqın tarixi həm kitablarda yazılmaqla, həm də muzeylərdə qorunmaqla gələcək nəsillərə çatdırılır. Muzeylər bizim keçmişimizi özündə yaşadan, gələcəyə daşıyan yerlərdir" [7, 2015, 16 may].

## ƏDƏBİYYAT


1. Əliyev H. Müstəqilliyimiz əbədidir. 22-ci kitab. Bakı: Azərnəşr, 2007, 527 s.
2. Kəngərli S.F. Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır. Naxçıvan: "Əcəmi" NPB, 2003, 89 s.
3. "Respublika" qəzeti.
4. Rəhimov N. Naxçıvan Muxtar Respublikası Dövlət Tarix Muzeyi. Naxçıvan: "Əcəmi" NPB, 2002, 57 s.
5. "Şərq qapısı" qəzeti.




# TƏBİƏT, TƏBİƏTİ MÜHAFİZƏ VƏ EKOLOGİYA

**Tariyel Talıbov**
AMEA Naxçıvan Bölməsi, akademik
E-mail: t_talibov@mail.ru

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TƏBİƏTİ MÜHAFİZƏYƏ DÖVLƏT QAYĞISI

Yer kürəsi sanki canlı bir varlıqdir, lakin təəssüf ki, canlı varlıqlar əbədi deyildir. Yerin əmələ gəlməsi və təkamülü, həmçinin formalaşması haqqında çoxlu nəzəriyyələr mövcuddur. Lakin elm adamlarını ən çox digər bir məsələ, planetimizin həyat üçün çoxmu yararlı olacağı düşündürür. Sergey Laskovun fikirinə görə (İzvestie qəzeti, 16.02.2007) hətta bütün əhali "Yaşıllar" cəmiyyətinə qoşulsalar belə, təbiəti nə qədər qorusalarda Yer kürəsində həyatın məhvi labüddür. Fizika- riyaziyyat elmləri doktoru Sergey Novikovun məlumatına görə hər bir əsr dövründə gün uzunluğu 0,0023 saniyə artır və nəticədə Yer kürəsi Ay ilə birlikdə Günəşdən ildə 22,6 metr olmaqla aralanır. Eyni zamanda Ay da Yer kürəsindən uzaqlaşır. Bu məlumatlar yüksək dəqiq lazer ötürücüləri vasitəsi ilə peyklərin izlənilməsi nəticəsində bir daha təsdiqlənmişdir. Günəş sisteminin modelləşdirilməsi və rekonstruksiyası nəticəsində hesablanılmışdır ki, Yer kürəsi 3 milyard il əvvəl qeyri-normal halda, həm də sutka uzunluğu 19 saat olmaqla fırlanırmış. Təqribən 100 milyon ildən sonra isə gün uzunluğu təqribən 25 saata çatacaqdır. Dünya okeanında suyun səviyyəsi artır. Baykal gölünün (şirin su ehtiyatına görə ən böyük göl) sahili ildə 2 sm genişlənir. Bu həcmi sadəcə təsəvvür etmək çox da çətin deyildir, həcm böyükdür.

Hesablanılmışdır ki, ulduzlarətrafı dumanlıqlardan ildə bir milyard ton toz Yer kürəsinə çökür ki, bunun hesabına da Yer kürəsi öz radiusunu 1mm, həcmini isə 515 km$^3$ olmaqla artırır. Bir inandırıcı hipotez də mövcuddur ki, təqribən 65 milyon il əvvəl Yer kürəsinin həcminin böyüməsi nəticəsində planetdə güclü vulkanik proseslər baş vermiş və qitələr parçalanaraq dreyf etməyə başlamışdır. Nəhayət Yer kürəsində baş verən kəmiyyət dəyişiklikləri yeni keyfiyyət dəyişikliklərinə səbəb ola biləcəkdir. Güman olunur ki, həcmin kritik həddə çatması zamanı planetin mərkəzində kolasal miqdarda təzyiq yaranar ki, bu da nəticədə zəncirvari reaksiyanın getməsinə səbəb ola bilərək, hidrogen bombası kimi güclü partlayışa və çox yüksək, Günəşdəki temperatura uyğun bir mərhələyə dönə bilər. Kormilsev-Butusov ideyasına görə bu zaman Yer adlı yeni bir ulduz meydana gələ bilər. Venera və ya Ayda həyatın formalaşa biləcəyi isə proqnozlaşdırılması bir az çətin olan məsələdir. Hal-hazırda Günəş sisteminin ən iri planeti olan Yupiter günəşdən uzaqlaşmaqda davam edir. Onun səthində artıq temperatur 1000



dərəcəyə çatmışdır. Çox güman ki, ilk olaraq bu planet öz 12 peyki ilə yeni bir planet sisteminə çevriləcəkdir. Alimlər onun Avropa adlandırılan peykində gələcəkdə həyatın mümkünlüyü məsələsini iddia edirlər.

Beləliklə, ekoloji fəlakətlərin qarşısının alınması, ətraf mühitin qorunması, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi və qlobal ekoloji problemlərin həlli yolları bu gün bəşəriyyətin, eləcə də ölkəmizin ən vacib problemlərindən biridir. Sənayenin sürətli inkişafı, urbanizasiyanın artması və əhalinin gündən-günə çoxalması, təbii resursların, torpaqların aramsız istismarı planetimizdə zəncirvari ekoloji fəlakətlərə səbəb olub. Meşə örtüklərinin, yaşıllıqların sürətlə məhv edilməsi, hidrosfer təbəqəsinin çirklənməsi və atmosferə atılan zəhərli maddələr - bir sözlə, təbiətə vurulan bütün zərbələr bumeranq kimi qayıdaraq bəşəriyyətin özünə dəyir. İnsanla təbiət arasında balansın pozulması hər iki tərəf üçün qaçılması mümkün olmayan böyük itki və faciələrə səbəb olur, bu baxımdan da planetin aqibəti istisnasız onu elmi surətdə necə qorumağımızdan asılıdır.

Beynəlxalq Təbiəti Mühafizə İttifaqının təqribi hesablamalarına görə insanın yaranmasına qədər Yer kürəsində 1000 ildə bir növ məhv olurdusa, 1850-ci ildən 1950-ci ilədək bu interval 10 ilə qədər azalmış, müasir dövrdə isə hər gün bir növün məhv olduğu göstərilir. Yenə də nisbi hesablamalara görə 2000-ci ildən başlayaraq növlərin məhv olma sürəti artaraq hər saata bir növün düşdüyü güman edilir. Antropogen faktorların təsir dairəsi artdığından, mütəxəssislərin fikrincə, yaxın gələcəkdə ən azı 10 faizə qədər bitki və heyvan növü məhv olacaqdır. Məhv olan növlərə çox təəssüf ki, ən gözəl və insanla heç cür "barışa bilməyən", xüsusilə də iri həcmli heyvanlar, həmçinin gözəl görünüşlü və qida kimi istifadə edilən bitkilər aiddir. Əksinə yüksək uyğunlaşma qabiliyyəti qazanan növlər isə insanın öz həyat fəaliyyəti dövründə ən az istifadə etdiyi, insanla birgə yaşamağa uyğunlaşmış (sinantrop), bəşəriyyətin "boz kölgəsi" hesab edilən siçovullar, ala qarğa, dam sərçəsi, qaradöş sərçə və s., böyük əksəriyyət həşaratlar, zəhərli və zərərli (alaq otları) bitkilərdir. Əksinə yüksək dekorativ və qida əhəmiyyətli bitki və iri həcmli heyvanların antropogen landşaftlarda məhsuldarlığı aşağı düşür, insanın bilavasitə köməyi olmasa həmin növlər məhv olurlar.

Ötən əsrdə qlobal müharibələr, nüvə silahlarının saysız hesabsız sınaqları, meşələrin qırılması, təbii ehtiyatların talan səviyyəsində istismarı planetlə birlikdə bizim sivilizasiya üçün də təhlükəli fəlakətlərə rəvac verib. Bu gün aramsız olaraq davam edən qlobal fəlakətlər məhz insan məsuliyyətsizliyinə təbiyyətin kəskin cavabıdır. Hələ ötən əsrdə təbiətşünaslar yazırdı ki, insan nə qədər təbiəti, landşaftı dəyişməyə cəhd edirsə, təbiət də bir o qədər sərtliklə nəinki bir ərazini, hətta qövmləri dəyişmək, Yer üzündən silmək gücünə qadirdir. BMT-nin Baş Katibinə

85 ölkədən müraciət edən 300-dən artıq nüfuzlu alim planetin bütün təbəqələrində ötən əsrin 90-cı illərindən qlobal energetik sıçrayışların baş verdiyini bildirir. Məruzədə bu sıçrayış təbii kataklizmlərin: zəlzələ, vulkan, sunami, daşqınlar, tornado, qasırğa və meşə yanğınlarının, yerin seysmik və vulkanik aktivliyinin artmasına səbəb olduğu göstərilir. Son 10 ildə zəlzələlərdə həlak olanların sayı əvvəlki 50 ilə nisbətən 8,6 dəfə artmışdır. 2010-cu ilin birinci beş ayında püskürən vulkanların sayı son 110 ildəki vulkanların orta illik sayından artıqdır. 1999-2009-cu illərdə sunamilər zamanı həlak olanların sayı əvvəlki 100 ildə həlak olanlardan 10 dəfədən çoxdur. ABŞ-da son beş ildə daşqınların vurduğu ziyan əvvəlki 20 ildən artıqdır. 2004-cü ildə İndoneziyzda baş verən zəlzələ Yerin oxunun və sutkanın uzunluğunun nisbətən dəyişməsinə səbəb olmuşdur. 2010-cu il fevralın 27-də Çilidə baş verən zəlzələ zamanı mərkəzi ox öz simmetriyasını 8 santimetr dəyişmiş, Yer sutkasının uzunluğunu azaltmışdır. Bütün bunlarla yanaşı gözlənilən fəlakətlərin əsas katalizatoru planetdə hərarətin durmadan artmasıdır. Amerikanın Okean və Atmosfer üzrə Milli Admistrasiyasının məlumatına görə son 100 ildə Yerdə hərarət orta hesabla 0,85$^0$ S artmışdır. Üstəlik ən istil illərin hamısı bizim yaşadığımız dövrə - XXI əsrin əvvəllərində qeyd olunub. Səbəb istilikxana effekti yaradan sənaye və kənd təsərrüfatı müəssisələrinin atmosferə buraxdığı tullantılardır. Planetdə atmosferin istilikxana effektinin 2$^0$S-dən yuxarı qalxması yolverilməzdir, ona görə də karbohidrogensiz enerjiyə aparan yol seçilməli, bərpaolunan enerjiyə üstünlük vürilməlidir. 2010-2011-ci illərin qış aylarında bütün planetdə heyvanların kütləvi müəmmalı ölümü qeydə alındı. 2010-cu ildə İngiltərənin sahillərində 25 min yengəc özünü dənizdən sahilə ataraq öldü. Sonrakı il onların sayı 40 minə çatdı. Arkansazda minlərlə qara ağacdələn yeni il ərəfəsində donaraq öldülər. Ölən quşlar haqqında məlumatlar İsveç, İtalya, Türkiyə və Kanadadan da gəlib. Onların Ümumi sayı 2 milyondan artıq olub. Özlərini sahilə atıb öldürən balıqlar, balina və delfinlər dəniz sakinlərinin müəmmalı ölümünə aiddir. Dünyanın bir sıra ölkələrində arılar kütləvi surətdə məhv oldular. Məsələn, ABŞ-da 2010-cu ildə 1 milyon arı ailəsi qırıldı. Bu fəlakətləri də alimlər planetimizdə baş verən qlobal dəyişikliklər və ekoloji balansın pozulması ilə izah edirlər.

Meşələrin kütləvi qırılması, böyük torpaq sahələrinin aramsız istismarı, çayların axın istiqamətinin dəyişdirilməsi, torpaqların deqradasiyası, geni modifikasiya olunmuş ərzaq məhsullarının yetişdirilməsi digər çatışmazlıqlarla bərabər insanların sağlıq durumunda da ciddi problemlər yaradır. Müalicəsi çətinləşən xəstəliklər artır, sonsuzluq, yeni doğulan körpələr arasında şikəstlik, fiziki və əqli inkişafdan geri qalma halları çoxalır. Təbiətlə ədavətdə və onu anlamadan, qayğısını çəkmədən yaşayan bəşər övladında xəstəliklər də "cavanlaşır". Ümumdünya Səhiyə Təşkilatının



məlumatlarına görə xərçəng xəstəliyinin yaranmasının 70 faizi ətraf mühitin çirklənməsi ilə bağlıdır. Bir çox ekoloji tədbirlər, məsələn "Yer günü" ABŞ-da 1970-ci ildən keçirilməyə başlayıb. Keçmiş Sovet İttifaqında da hər il aprelin 22-də iməcilik keçirirlər, ağaclar əkilərdi. "Beynəlxalq Yer Kürəsi Günü" və ya "Ana Torpaq Günü" əksər ölkələrdə, həmçinin Azərbaycanda hər il qeyd olunan kütləvi ekoloji aksiyadır. Məqsəd ətraf mühütün qorunması, flora və faunanın zənginləşdirilməsi, ekoloji problemlərin həll olunması üçün cəmiyyətin bütün təbəqələrini maarifləndirmək, yaşından asılı olmayaraq hamını fəallığa istiqamətləndirməkdir.

Bütün sadalanan bu fərziyyə, iddia və ya elmi konsepsiyların nə dərəcədə reallaşacağını düşünməsək belə, hal-hazırda təbiətin ciddi qayğıya ehtiyacının olduğu aşkardır. Dünya üzrə adətən ətraf mühitin mühafizəsi başlıca olaraq seçilən və yaradılan aşağıdakı 7 formada qruplaşdırılır: Qoruqlar; Milli Parklar; Təbiət Parkları; Təbiət abidələri; Yasaqlıqlar; Nəbatat bağları və ya Dendroparklar; Müalicə-sağlamlıq mərkəzləri və kurortlar.

Azərbaycan Respublikası müstəqilliyini elan etdikdən sonra ən mühüm islahatların aparıldığı sahələrdən biri də ekologiya oldu. Ölkəmizdə əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasına uyğun olaraq ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən iqtisadi inkişaf məqsədilə səmərəli istifadə olunması sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Bu sahə hələ ötən əsrin 70-ci illərində Ümummilli liderimiz Heydər Əliyev tərəfindən diqqət mərkəzində saxlanılmış, ilk qanunvericilik bazası yaradılmış, qanun və qərarlar qəbul edilmişdir. Qısa müddətdə Azərbaycan Respublikası Prezidenti tərəfindən aşağıdakı vacib sərəncamlar verildi, bir sıra qanunlar qəbul edildi, ekoloji mühütün qorunması, bərpası üçün ciddi maliyyə vəsaitləri ayrıldı, yeni qoruqlar, yasaqlıqlar yaradıldı:

1. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında *(4 avqust 1998-ci il)*

2. Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Ətraf Mühitin Mühafizəsi üçün Təxirəsalınmaz İnvestisiya Layihəsi üzrə Yaponiya Hökumətinin Qrantı haqqında Məktub-Sazişin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyətinin verilməsi barədə *(1 dekabr 1998-ci il)*

3. "Kökünün kəsilməsi təhlükəsi olan fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyaya qoşulmuş (CITES) digər tərəflər və Katiblik ilə əlaqə saxlamaq üçün onun Azərbaycan Respublikasında inzibati orqanının təyin edilməsi barədə *(8 iyul 1999-cu il)*

4. "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya" üzrə Azərbaycan Respublikasının elmi orqanının təyin edilməsi barədə *(15 iyul 2000-ci il)*

5. "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nın təsdiq edilməsi haqqında *(2 mart 2001-ci il)*

6. Azərbaycan Respublikasında kənd içməli su kəmərlərinin istismarının yaxşılaşdırılması tədbirləri haqqında *(21 dekabr 2001-ci il)*

7. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında *(30 may 2002-ci il)*

8. Azərbaycan Respublikasında ekologiyaya dair "Milli Proqramlar"ın təsdiq edilməsi haqqında

9. Azərbaycan Respublikasının Şahbuz Dövlət Təbiət Qoruğunun və Ordubad Milli Parkının yaradılması haqqında *(16 iyun 2003-cü il)*

10. "Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında *(22 may 2004-cü il)*

11. Azərbaycan Respublikasında su təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında *(11 iyun 2004-cü il)*

12. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Maliyyə Əməkdaşlığı (KfW) təşkilatı arasında "Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı"nın hazırlanması üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə *(23 avqust 2004-cü il)*

13. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondu arasında Azərbaycan Respublikası ərazisində təbiəti mühafizə sahəsində əməkdaşlıq haqqında Qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə *(14 sentyabr 2004-cü il)*

14. "Bioloji müxtəliflik haqqında" Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokolu"nun icrasının təmin edilməsi barədə *(23 mart 2005-ci il)*

15. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İqlim Dəyişmələri və Ozon Mərkəzinin "Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasına dair Kioto Protokolu" üzrə Azərbaycan Respublikası tərəfindən milli səlahiyyətli orqan təyin edilməsi barədə *(1 aprel 2005-ci il)*



16. Azərbaycan Respublikasında bioloji müxtəlifliyinin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planının təsdiq edilməsi haqqında *(24 mart 2006-cı il)*

17. "Azərbaycan Respublikasında Ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında *(28 sentyabr 2006-cı il)*

18. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında *(20 iyun 2007-ci il)*

19. Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında *(13 iyun 2008-ci il)*

20. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında *(20 noyabr 2008-ci il)*

*21.* Əhalinin su təminatının yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında *(25 iyun 2009-cu il)*

22. Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında *(15 dekabr 2015-ci il)*

Azərbaycanda 13 qoruq, 4 milli park və 16 yasaqlıq vardır ki, onlar da Azərbaycan Respublikasının 5,3%-ni tutur. *Qoruqlarda* antropogen fəaliyyətə icazə verilmir, ərazidə olan bütün təbii landşaftlar qorunur və elmi təcrübə mərkəzi kimi istifadə edilir. *Milli parklarda* insanların istirahət etməsinə icazə verilir. *Yasaqlıqda* isə təbiətin bir və ya bir neçə komponenti mühafizə edilir və çoxaldılır. Yasaqlıqlarda bir sıra təsərrüfat işləri aparmaq olar [18]. Respublikada meşələrin ümumi sahəsi təqribən 1,021 milyon hektardır və hər il min hektarlarla yeni meşə zolaqları salınır, tingliklərdə milyonlarla şitil yetişdirilir. Xatırladaq ki, ümumilikdə respublika ərazisinin 8 faizdən çoxu indi mühafizə olunan təbiət əraziləridir. Bircə o faktı demək kifayətdir ki, Xəzəryanı dövlətlərdən, yalnız Azərbaycan bu dənizin ekosisteminin qorunması üçün böyük maliyə vəsaitləri tələb edən ciddi tədbirlər həyata keçirir. Dövlətimiz digər sahələrlə bərabər, ətraf mühütün mühafizəsi, ekoloji tarazlığın qorunması istiqamətində də müstəqil siyasətini formalaşdırdı. 1995-ci ilin noyabrında qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində ilk dəfə olaraq hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ təsbit edildi. Azərbaycan Respublikasının Milli Məclisi ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən istifadə olunması ilə bağlı bu maddəyə əlavə olaraq müfaviq qanunlar qəbul etdi. Eyni zamanda, 1999-cu il 8 iyunda "Ətraf Mühütin Mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 sentyabr 2006-cı il taixli "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planı"nın təsdiq edilməsi

haqqında sərəncamında ümumi ekoloji problemlərin çözülməsi ilə bərabər, tədris müəssisələrində ekoloji təbliğat və maarifləndirmə tədbirlərinin gücləndirilməsi, ekoloji təhsilə daha geniş yer ayrılması və bu sahə üzrə kadrların hazırlanması məsələsi də öz əksini tapıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi: **"Biz iqtisadi cəhətdən möhkəmlənirik. Azərbaycanın uğurlu iqtisadi inkişafı artıq gerçəklidir, faktdır və gələcəkdə bizə böyük imkanlar gətirəcəkdir. Ancaq insanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su-bütün bunlara biz çox böyük diqqət göstərməliyik"** fikirləri də ölkə başçısının bu sahəyə necə həssaslıqla yanaşdığından xəbər verir. Aparılan sürətli və dinamik inkişaf sözsüz ətraf mühitə də təsirsiz ötüşmür, bu baxımdan ölkə rəhbəri yenə öz çıxışlarında: **"Azərbaycanda elə bir sahə yoxdur ki, sürətli inkişaf etməsin... bunula bərabər təbii ki, sürətli inkişaf istər-istəməz ətraf mühitə təsir göstərə bilir. Məhz buna görə də biz çalışırıq ki, öz ekoloji tədbirlərimizi geniş konteksdə həyata keçirək"** kimi amillərin nəzərə alınmasını tövsiyyə edir. Naxçıvan Muxtar Respublikasında nazirliklər və elmi qurumların dəstəyi ilə silsilə tədbirlər keçirilir, ekoloji siyasətin faydalı olması üçün KİV-in geniş imkanlarindan istifadə edilir. Məlumdur ki adətən təbii landşaftların antropogen "təkamülü" aşağıdakı formada gedir:

1. Təbii landşaftlar - ərazidə insanın təsərrüfat tədbirləri yox dərəcəsindədir;

2. Modifikasiya edilmiş landşaft - burada insanın təsərrüfat tədbirləri qismən dəyişikliklər yaratmasına baxmayaraq, ərazi öz xarakter təbii xüsusiyyətlərini hələ saxlayır;

3. Transformasiya edilmiş landşaftlar - bu landşaftda insan fəaliyyəti nəticələri ərazinin təbii xüsusiyyətlərini tam dəyşmişdir. Təbii landşaftlardan otlaq, biçənək kimi istifadə etməklə, həmin ərazidəki ağac və kolların doğranması (modifikasiya), sonra isə həmin ərazidə tarla, bağ və üzümlüklərin salınması (transformasiya) antropogen "təkamülün" keçdiyi qısa sxemdir. Ona görə də biosferdə baş verən antropogen transformasiyaların ekoloji indikatorlarla öyrənilməsi, qiymətləndirilməsi və proqnozlaşdırılması ekoloji monitorinqin əsası hesab olunur [1, 2].

Naxçıvanda ərazi landşaftlarının əsas dəyişilmiş formalarından biri modifikasiya edilmiş landşaftlardır. Bu landşaftlara yaz və qış otlaqları, biçənəklər, meşə, kolluq zonalar daxildir. Yüksək dağ zonasının əksəriyyəti yay otlaqları və biçənəklərdir.

Respublikamız müstəqillik əldə etdikdən sonra ekoloji təhlükəsizliyin təmin edilməsi, bu sahədə ölkədaxili və beynəlxalq ekoloji siyasətin hüquqi tənzimlənməsini təmin edən Azərbaycan Respublikasının Əsas Qanunu - Konstitusiyada 3 maddə təsbit edilmiş, bu sahədə mühüm qanunlar: "Ətraf



mühitin təhlükəsizliyi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Heyvanat aləmi haqqında", "Meşə məcəlləsi haqqında", "Su məcəlləsi haqqında" qəbul olunmuşdur.

Planetin bir hissəsi olan ölkəmizdə dünyanı narahat edən qlobal ekoloji problemlərin aradan qaldırılması, təbiətin mövcud vəziyyətinin olduğu kimi qorunub saxlanılması məqsədilə 20-dən çox Beynəlxalq konvensiyalara qoşulmuş, Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Üzrə Proqramı (YUNEP), Beynəlxalq təbiəti mühafizə və təbii resursların qorunması ittifaqı, BMT-nin nəzdində ümumdünya sərvəti hesab olunan təbiət abidələrinin uçotu və mühafizə olunmasının, elm, təhsil, mədəniyyət idarəsi (YUNESKO) və digər ekoloji təşkilatlarla fəal əməkdaşlıq qurulmuşdur. **"Ekoloji məsələlərə diqqət, münasibət, eyni zamanda, ölkənin ümumi siyasətinin, ümumi mədəniyyətinin təzahürüdür"**- deyən Ümummilli Liderimiz tərəfindən ölkəmizdə ekoloji siyasəti həyata keçirəcək vahid dövlət idarəetmə strukturunun yaradılması haqqında qərar qəbul edildi. 2001-ci il 23 may tarixdə Azərbaycanda yeni struktur olan Ekologiya və Təbii Sərvətlər Nazirliyi və qanunvericiliyə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 25 may tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması bugünkü uğurlu ekoloji siyasətin əsasını müəyyənləşdirdi. "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Dövlət Proqramı", "Azərbaycan Respublikası meşələrinin bərpa edilməsi və artırılmasına dair Milli Proqram" təsdiq edildi. 2003-cü il 16 iyun tarixli qərarla ölkəmizdə akademik Həsən Əliyev adına Ordubad Milli Parkı və Şahbuz Dövlət Təbiət Qoruğu yaradıldı.

**"Azərbaycanda elə bir sahə yoxdur ki, sürətli inkişaf etməsin...Bütövlükdə ölkəmiz yeniləşir, müasirləşir, zənginləşir. Bununla bərabər təbii ki, sürətli inkişaf istər-istəməz ətraf mühitə təsir göstərə bilir, məhz buna görə də biz çalışırıq ki, öz ekoloji tədbirlərimizi geniş konteksdə həyata keçirək"**- deyən ölkə prezidenti cənab İlham Əliyevin siyasi kursunda bu sahəyə xüsusi diqqət yetirilir. Ötən illərdə bu sahənin inkişafı məqsədilə ölkə başçısının sədrliyi ilə ekoloji məsələlərə dair müşavirələrin keçirilməsi, 2010-cu ilin "Ekologiya ili" elan edilməsi, 2010-2014-cü illərdə Bakı şəhərində Beynəlxalq Ekologiya sərgilərinin keçirilməsi bu sahədə inkişafın bariz nümunələridir. Bu sahənin inkişafı məqsədilə mühüm dövlət proqramları, o cümlədən, "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında Bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı" və digər layihələr qəbul edilmişdir.

Ölkəmizdə həyata keçirilən dövlət ekoloji siyasətinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında da mövcud ekoloji problemlərin həll edilməsi, əlverişli ekoloji mühitin yaradılması sahəsində tədbirlər inkişafla davam etdirilir. Bu sahənin inkişafı məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri tərəfindən dövlət proqramları, o cümlədən, "Naxçıvan Muxtar Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqram"ları qəbul edilmiş, "Arazboyu", "Arpaçay" Dövlət Təbiət Yasaqlıqlarının yaradılması, yaşıllaşdırma tədbirlərinin keçirilməsi və digər ekoloji sahələrin inkişaf etdirilməsi məqsədilə sərəncam və qərarlar imzalanmışdır.

Muxtar respublika ərazisində ən vacib ekoloji amil kimi meşələrin mühafizəsi və artırılması sahəsində mühüm işlər görülmüşdür. Ötən əsr 90-cı illərin əvvəllərindəki məlum hadisələr (müharibə şəraiti), sosial-iqtisadi vəziyyət təbiətə də mənfi təsirini göstərmişdir. Ancaq 1993-cü il 2 aprel tarixində Ulu Öndərimiz tərəfindən qəbul edilmiş tarixi qərarla yaşıllıqların artırılması, yeni meşə massivlərinin, meyvə bağlarının salınması tədbirlərinin həyata keçirilməsi bu sahədə bugünki uğurların əldə edilməsinə şərait yaratdı və sonrakı illərdə bütün ölkə ərazisində inkişafla davam etdirildi. Bu illər ərzində muxtar respublika ərazisində 14 min hektardan çox sahədə meyvə bağları və meşə massivləri salındı.Təbii meşə ehtiyyatlarının və digər təbiət ərazilərinin mühafizəsi sahəsində görülən işlər nəticəsində yaşıllıq ehtiyyatları dəfələrlə artdı. İndi muxtar respublikanın ümumi ərazisinin 12 faizə qədəri yaşıllıqlarla əhatə olunmuşdur. Kontinental iqlim şəraiti olan regionumuzda meşə ehtiyyatlarının 12 dəfə artması muxtar respublikamızda bu sahəyə göstərilən qayğının və düzgün ekoloji tədbirlərin nəticəsidir. Muxtar respublika ərazisində flora və fauna ehtiyyatlarının qorunması və artırılması tədbirlərinin nəticəsi olaraq 2001-ci ildən başlayaraq ova qadağalar qoyulmuşdur ki, bu da biomüxtəlifliyin mühafizəsi baxımından mühüm bir qərardır.

2003-cü ildə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Meşə Tingliyi Müəssisəsinin yaradılması hesabına ting yetişdirilməsinə şərait yaradıldı, eyni zamanda AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Nəbatat bağının yenidən qurulması hesabına, regionun torpaq-iqlim xüsusiyyətlərinə uyğun yeni introduksiya olunan ağac və kolların yetişdirilərək əraziyə yayılması da yaıllaşmanın keyfiyyətinə həlledici təsir göstərdi. Əkin tədbirlərinin elmi-təcrübəyə uyğun aparılması, görülən aqrotexniki tədbirlər, xüsusilə yeni müasir damcılı suvarma sistemlərinin qurulması da bu sahədə əsas amillər



olmuşdur. Muxtar respublikamızda aparılan yaşıllaşdırma tədbirlərində ekoloji əhəmiyyətlə bərabər, iqtisadi səmərəlilik də əsas götürülərək meyvə bağlarının salınmasına da üstünlük verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq min hektardan çox ərazidə meyvə bağları salınmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: **"Ekoloji təhlükəsizliyin təmin olunmasında meşə fondunun zənginləşdirilməsi mühüm rol oynayır. Son dövrlər muxtar respublikanın artan sənaye potensialı, yeni istehsal sahələrinin yaradılması həyata keçirilən ekoloji siyasətin əsas istiqaməti kimi yaşıllaşdırma tədbirlərinin əhəmiyyətini daha da artırır"**. Qeyd edilən dəyərli fikirlər meşələrin ekoloji əhəmiyyətinin nə qədər böyük olduğunu bir daha təsdiq edir. Bu müddətdə tərəfimizdən "Naxçıvan Muxtar Respublikası florasının çılpaqtoxumlu bitkiləri", "Naxçıvan Muxtar Respublikası florasının yabanı alma və armud növləri", "Naxçıvan Muxtar Respublikasının Ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının gilas və albalı sortları", "Naxçıvan Muxtar Respublikasında alma genefondu" kitabları yazılaraq işıq üzü gördü [3, 4, 5, 6].

Muxtar respublika ərazisində əlverişli ekoloji mühitin yaradılmasında mühüm amillərdən biri də təbii mühit unikallığının, bitki və heyvan ehtiyyatlarının qorunması və bərpa edilməsidir ki, bunun da əsasını xüsusi mühafizə olunan təbiət əraziləri təşkil edir. Naxçıvan Muxtar Respublika Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli sərəncamı ilə ərazisi 9118 ha olan Arazboyu Dövlət Təbiət Yasaqlığı, 2009-cu il 22 iyun tarixli sərəncamı ilə isə ərazisi 68911,18 ha olan Arpaçay Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasında əsas məqsədlərdən biri də mövcud ekoturizm potensialından səmərəli istifadə olunmasıdır. Bu baxımdan milli park statuslu təbiət obyektlərinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Ölkə prezidentinin 2009-cu il 25 noyabr tarixli sərəncamı ilə sahəsi 42787 ha olan akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması təbiəti mühafizə ilə bərabər ekoturizmin inkişafına da şərait yaradır. Haliyədə Naxçıvanın ümumi ərazisinin 27 faizdən çoxu xüsusi mühafizə olunan təbiət ərazilərinə daxildir. Qeyd edək ki, inkişaf etmiş, təbiətə xoş münasibət göstərilən ölkələrdə bu göstərici yalnız10-15 faizə bərabərdir. Muxtar respublika ərazisindəki xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 1995-ci illə müqaisədə 3,7 dəfədən çox artmışdır. Haliyədə muxtar respublikanın 27 faizə qədəri xüsusi mühafizə olunan təbiət ərazilərdir ki, bu da mühüm ekoloji faktor olmaqla, inkişaf etmiş ölkələrdən belə yüksəkdir.

Naxçıvan Muxtar Respublikası təbiəti mühafizə sahəsində ilk dəfə olaraq nadir və nəsli kəsilmək təhlükəsi olan bitki və heyvan növlərinin qeydiyyatının aparılması və xüsusi mühafizə olunması məqsədilə Ali Məclis Sədrinin 2006-cı il 15 avqust tarixli sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair II cilddən ibarət Qırmızı Kitablar hazırlanmışdır. Eyni zamanda "Naxçıvan Muxtar Respublikasının heyvanlar aləmi", "Naxçıvan Muxtar Respublikasının bitkiliyi (Bitkiliyin tipoloji vahidləri)", "Naxçıvan Muxtar Respublikasının nadir bitkiləri" xəritələri işlənilmiş, "Azərbaycanda Asiya muflonu və bezoar keçisinin qorunma strategiyası. Сратегия сохранения Азиатского муфлона и безоарового козла в Азербайджане (İngilis dilində xülasə)" kitabı tərəfimizdən nəşr edilmişdir [7, 8, 9, 10, 11].

Muxtar respublika ərazisində ən xarakterik, xüsusi gözəlliyi ilə seçilən təbiət guşələri, şəlalələr, mağaralar, nadir geoloji obyektlər, yüzillik ağaclar və digər elmi, təcrübi, tarixi əhəmiyyətə malik olan təbii komplekslər təbiət abidələri kimi qeydiyyata alınmış, daha yaxşı mühafizə olunması üçün xüsusi pasportları və "Naxçıvan abidələri ensiklopediyası. The encyclopaedia of Nakhchivan monuments" kitabı hazırlanmışdır. Qoruq və milli parkların fəaliyyət funksiyasına uyğun olaraq ərazilərin flora və fauna ehtiyyatlarına dair elmi tədqiqatlar aparılmış, "Şahbuz Dövlət Təbiət Qoruğunun flora və bitkiliyinin ekoloji qiymətləndirilməsi" mövzusunda dissertasiya işi müdafiə edilmiş və uyğun kitabı nəşr edilmişdir.

Ölkəmizdə sosial-ekoloji siyasətə xüsusi önəm verən Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 iyun tarixli "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" sərəncamına əsasən muxtar respublikanın tələbat olan kəndlərində əhalinin ekoloji təmiz, standartlara uyğun içməli su ilə təmin etmək üçün modul tipli su təmizləyici qurğular tikilib istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublika hökuməti ilə Asiya İnkişaf Bankı arasında bağlanmış sazişə əsasən qəbul edilmiş layihə çərçivəsində müasir su və kanalizasiya sistemləri qurulmuşdur. "Çoxtranslı Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərində şəhərdaxili kanalizasiya və su şəbəkəsi yenidən qurulmuşdur. Son illər muxtar respublikada həyata keçirilən irimiqyaslı layihələr region sakinləri tərəfindən insan amilinə göstərilən qayğı kimi dəyərləndirilir. Naxçıvanın şəhər və rayonlarında içməli su sistemlərinin və kanalizasiya xətlərinin yenidən qurulması istiqamətində layihə çərçivəsində işlər davam etdirilir. Bu məqsədlə Naxçıvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması məqsədilə həyata keçirilən "Şəhər su təchizatı və kanalizasiya" layihəsi mövcud problemlərin aradan qaldırılması məqsədi daşıyır. Layihə çərçivəsində 2,88 km uzunluğunda su qəbuledici qurğunun,



Babək rayonunun Şıxmahmud kəndi ərazisində hər birinin su tutumu 10000 $m^3$ olan 2 və digərlərinin su tutumu 5000 $m^3$ olan su anbarının tikintisi, suqəbuledicidən su anbarına qədər 6,35 km boru xəttinin, su anbarlarından Naxçıvan şəhərinə qədər uzunluğu 7,5 km olan qoşa boru xətləri çəkilmiş, 45,2 km uzunluğunda kanalizasiya, 45 km su xəttinin tikintisi başa çatmışdır.

Naxçıvan şəhər əhalisinə verilən suyun dünya səhiyyə təşkilatının standartlarına cavab verən halda təmizlənməsi məqsədilə Uzunoba su anbarında dünyada az sayda ölkələrdə olan sutəmizləyici qurğular kompleksi tikilib istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikasında kəhrizlərin yenidən bərpa olunması məqsədilə mühüm tədbirlər həyata keçirilmiş, Kəhrizlər İdarəsi yaradılmışdır. Ötən illərdə görülən işlər nəticəsində muxtar respublikada içməli su və təsərrüfat əhəmiyyətli 100-dən artıq kəhriz bərpa edilmiş və yenidən qurularaq əhalinin istifadəsinə verilmişdir. Əhalinin istifadə etdiyi yeraltı suların bir təzahürü də təbii bulaqlardır. Qeyd etməliyik ki, bu bulaqların kimyəvi tərkibi çıxdığı ərazinin geoloji quruluşundan, süxurların tərkibindən, suyun temperaturundan, qidalanma sahəsinin xüsusiyyətindən asılı olaraq müxtəlifdir. Belə ki, burada təmiz və şirin sulu bulaqlarla yanaşı şor, cod və mineral bulaqlara da rast gəlinir.

Muxtar respublikamızda ətraf mühitin, torpağın, suyun, atmosferin mühafizəsi tədbirləri davam etdirilmiş, ekoloji-monitorinqlər aparılmışdır. Kənd təsərrüfatının inkişaf etdiyi regionumuzda xüsusilə torpaqların münbitliyinin qorunması, çirklənməsinin qarşısının alınması tədbirləri görülmüşdür. Xüsusilə otlaq və biçənəklərin geobotaniki tərkibinin qorunması, suvarılan torpaqların meliorativ tərkibinin yaxşılaşdırılması, eroziyaya və şoranlaşmaya qarşı mübarizə tədbirləri həyata keçirilmişdir. Yüksək meyilli ərazilərdə salınan yaşıllıqlar, damcılı suvarma sistemlərinin quraşdırılması, bol sulu çayların sahillərində qoruyucu yaşıllıqların salınması, kollektor-drenaj şəbəkəsinin yaradılması bu sahədə əlverişli tədbirlər olmuşdur. Torpaqların məişət və sənaye tullantıları ilə çirklənməsinin qarşısının alınması məqsədilə poliqonların yaradılması, çəpərlənmə işlərinin aparılması və xüsusilə yaşayış məntəqələrində xüsusi təmizlik qutularının yerləşdirilməsi öz müsbət nəticələrini verməkdədir. Muxtar respublika ərazisində atmosferi normadan artıq çirkləndirən mənbə yoxdur. Bu normalar daxilində isə atmosferi əsas çirkləndirən mənbələrdən biri avtomobil nəqliyyatıdır. Son vaxtlar nəqliyyat sistemində aparılan islahatlar, istismar müddəti keçmiş, texniki nasaz nəqliyyat vasitələrinin istifadəsinə məhdudiyyətlərin qoyulması, benzin yanacağının keyfiyyətinin yüksəldilməsi, yeni standartların qəbul edilməsi və digər tədbirlər bu sahədə də müsbət nəticələr əldə edilməsinə şərait yaratmışdır.

Muxtar respublika ərazisində xüsusi gözəlliyi ilə seçilən təbiət guşələri; şəlalələr, mağaralar, geoloji nadir çıxıntılar, palentoloji qalıqlar, təbiət kompleksləri və digər elmi, tarixi-mədəniyyət obyektləri əsas ekoturizm bazasını formalaşdırır. Ərazidəki təbiət abidələri, o cümlədən: Gəmiqaya, İlanlı dağ, Əshabi-kəhf mağarası, Kilid mağarası, Dərəşam vadisi, Əlincə dağ, yaşı 100 illərlə ölçülən Şərq çinarı, tut ağacı, "Biçənək meşəsi" kompleks təbiət abidəsi, "Üzən ada" kompleksi, ərazilərimizin relyef müxtəlifliyi, mineral bulaqlar, dərman bitkiləri, əlverişli ekoloji mühit və ən başlıcası xalqımızın qonaqpərvərliyi bu diyarın turizm potensialını zənginləşdirən amillərdir. Müasir dövrümüzdə təbiətin qorunması və ekoturizm üçün istifadə edilməsi məqsədilə Milli Park statuslu xüsusi qorunan ərazilərin yaradılmasına üstünlük verilir. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli sərəncamı ilə yaradılmış, sahəsi 12139 ha olan akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, 2009-cu il 25 noyabr tarixli qərarla ərazisi daha da artırılmaqla,ümumi sahəsi 42787 ha olan akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılmışdır. Ekoturizm inkişaf etdirilməsində digər əsas amillər infrastruktur layihələrin həyata keçirilməsi, xüsusilə istirahət və sağlamlıq əhəmiyyətli obyektlərin tikilib istifadəyə verilməsidir ki, bu işlər də muxtar respublikamızda uğurla aparılır. Duzdağ, Darıdağ təbii müalicəvi mərkəzlərin, 250-ə qədər mineral bulaqların varlığı, təmiz hava, su, gözəl təbiətimiz muxtar respublikamızın ekoturizm potensialını daha da artırır.

Muxtar respublika ərazisində mövcud olan təbii zənginliklərin, flora və fauna ehtiyyatlarının qorunması, təbii sərvətlərdən səmərəli istifadənin təmin olunması məqsədilə həyata keçirilən bütün ekoloji tədbirlərin əsasını elmi tədqiqat və elmi təcrubi işlər təşkil edir. 2002-ci ildə Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü və bilavasitə qayğısı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması bu sahədə gələcəkdə görüləcək işlərin bazasının yaradılmasına əsas oldu. AMEA Naxçıvan Bölməsinin Bioresurslar və Təbii Ehtiyyatlar İnstitutları ilə birgə muxtar respublikamızın ekologiyası və təbii ehtiyyatlarına dair elmi ədəbiyyatlar hazırlanmışdır. Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilidlik Qırmızı kitab, "Naxçıvan Muxtar Respublikasının florasının taksonometrik spektri", Naxçıvan Muxtar Respublikasının florası: Zəngçiyəyikimilər, Qıjılar və Mamırlara aid nəşr edilən monoqrafiyalar, eyni zamanda muxtar respublikanın nadir heyvanlarına dair aparılan tədqiqat işləri Qafqaz ekoregionunda yüksək qiymətləndirilmişdir. Muxtar respublikada Kotam-Kilit ərazisində aşkar edilən dünya təbiətinin nadir növlərindən olan bəbir ailəsinə Arazboyu Dövlət Təbiət Yasaqlığın Dərəşam ərazisində yeni bir fərdi də əlavə olunmuşdur. Muflon, bezoar keçisi, vaşaq, çöl pişiyi, ayı və digər beynəlxalq əhəmiyyətli nadir növlərin təbiətdəki



müasir vəziyyəti müəyyənləşdirilmiş, onların başlıca yayıldığı zonalar qeyd edilmişdir. Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyindən alınan fotótələlər vasitəsi ilə monitorinqlər yerinə yetirilmişdir [12, 13, 14, 15, 16, 17].

Torpağın, suyun və atmosferin mühafizəsi, çirklənməsinin öyrənilməsi məqsədilə laborator təhlillərin aparılması, ting yetişdirilməsində bitkilərin biologiyasının öyrənilməsi və vegetativ inkişafın təhlil edilməsi, əkiləcək ərazilərin torpaq münbitliyinin öyrənilməsi üçün birgə elmi tədqiqat işlərinin aparılması təmin edilir. Nəşr edilən "Naxçıvan Muxtar Respublikası torpaqlarının ekoloji qiymətləndirilməsi" monoqrafiyası da mühüm əhəmiyyət daşıyır. Bu sahədə peşəkar kadrların hazırlanması mühüm məsələdir. Əvvəllər bu sahədə işləmək üçün biologiya və coğrafiya ixtisaslarına üsyünlük verilirdi, haliyədə isə ali təhsil məktəblərində "Ekologiya" ixtisası üzrə kadrlar hazırlanılır ki, bu da gələcəkdə ekoloji tədbirlərin daha etibarlı şəkildə həyata keçiriləcəyinə ümid verir.

Məlumdur ki, təbiəti təkcə ekoloji tədbirlərlə, inzibatçılıqla qorumaq mümkün deyil. Böyük təbiətşunas alim akademik Həsən Əliyev deyirdi ki, təbiətin keşiyində durmaq üçün sözün gücündən istifadə etmək lazımdır. Əgər insan bilsə ki, təbiətə vurduğu ziyan hansı fəlakətlərə səbəb olur, onda bu işləri heç vaxt görməz. Bu mühüm sahənin idarə olunması üçün "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" xüsusi qanun da qəbul edilmişdir. Maarifləndirmə işlərində əsasən gənclərin bu sahədə məlumatlandırılması, təbiəti qoruması, onu öyrənməsi və sevməsi lazımdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qeyd etdiyi kimi: **"Təbiəti sev ki, onu qoruya biləsən, təbiəti sevmədən onu qorumaq olmaz".** Gənclərin maarifləndirilməsi məqsədilə məktəbdənkənar ekoloji dərnəklər də fəaliyyət göstərir. Ali və orta təhsil məktəblərində sərgi-seminarlar, elmi konfranslar, təbiətə dair rəsm və inşa yazı müsabiqələri keçirilir. Naxçıvanın təbiəti, həyata keçirilən ekoloji tədbirlər haqqında təbiət verilişləri, məqalələr hazırlanır və digər təbliğat vasitələrindən istifadə edilir.

Naxçıvan Muxtar Respublikası ərazisində havanın normadan artıq çirkləndirmə mənbələri yoxdur və salınan qoruyucu yaşıllıqlar bu təsirləri minimuma endirir. Muxtar respublika ərazisində əlverişli ekoloji mühit ekoloji təmiz məhsulların yetişdirilməsi üçün mühüm amil olmaqla, əhalinin sağlamlığının qorunmasında əsas şərtlərdən biridir. Müasir Naxçıvanda təbiəti mühafizə sahəsində görülən işlər Beynəlxalq Ekoloji Təşkilatların da hər zaman diqqətini cəlb edir və görülən işlərin nümunə olduğu göstərilir.

## ƏDƏBİYYAT


1. Səfərov Y.B.,Talıbov T.H. Naxçıvan MSSR-də biosferin mühafizəsi. Bakı: Azərnəşr, 1983, 97 s.
2. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması. Bakı: Elm, 2001, 192 s.
3. Hacıyev V.C., Talıbov T.H. Naxçıvan Muxtar Respublikası bitkiliyi (Bitkiliyin tipoloji vahidləri). Naxçıvan MR Torpaq və Xəritəçəkmə Komitəsi. Naxçıvan, 2005 (Xəritə)
4. Talıbov T.H. Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı, Onurğalılar üzrə. Cild 1. Naxçıvan: "Əcəmi" NPB, 2006, 211 s.
5. Talıbov T.H., İbrahimov Ə.M. Naxçıvan Muxtar Respublikası florasının yabanı alma və armud növləri. Naxçıvan: "Əcəmi" NPB, 2007, 48 s
6. Talıbov T.H., Vəlisoy A.N. Naxçıvan Muxtar Respublikası florasının çılpaqtoxumlu bitkiləri. Bakı: "MBM" mətbəəsi, 2007, 72 s.
7. Talıbov T.H.,Veynberq P.İ., Məmmədov İ.B., Məmmədov E.N., Talıbov S.T. Azərbaycanda Asiya muflonu və bezoar keçisinin qorunma strategiyası. Сратегия сохранения Азиатского муфлона и безоарового козла в Азербайджане (İngilis dilində xülasə). Naxçıvan: "Əcəmi" NPB, 2007, 72 s.
8. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər üzrə). Naxçıvan: "Əcəmi" NPB, Cild II, 2010, 678 s.
9. Azərbaycan Respublikasının Qırmızı Kitabı. İkinci nəşr. Nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri. Red. heyətinin üzvləri: Hacıyev R.V., Musayev S.H., Hacıyev V.C., Talıbov T.H.,Ələkbərov İ.X.,Əlizadə V.M. və b. Bakı: Şərq-Qərb nəşriyyatı, 2013, 676 s.
10. Azərbaycan Respublikasının Qırmızı Kitabı. İkinci nəşr.Nadir və nəsli kəsilməkdə olan heyvan növləri. Redaksia heyətinin üzvləri: Hacıyev R.V., Musayev S.H., Hacıyev V.C., Talıbov T.H., Ələkbərov İ.X., Əlizadə V.M. və b. Bakı: Şərq-Qərb nəşriyyatı, 2013, 680 s.
11. Məmmədov T.S., İsgəndər E.O., Talıbov T.H. Azərbaycanın nadir ağac və kol bitkiləri. Bakı: Elm, 2014, 380 s.
12. Talıbov T.H., İbadullayeva S.J., Salayeva Z.K. Some rare species of geophytes of Nakhchivan AR, Azerbaijan. IV International Conference of Young Scientists "Biodiversity. Ecology. Adaptation. Evolution", Dedicated to 180$^{TH}$ anniversary from the birth of famous physiologist İvan Sechenov. Odessa, September 16-19, 2009
13. Talibov T.H.,Weinberg P.İ., Mammadov İ.B., Mammadov E.N., Talibov S.T. Conservation Strategy of the Asiatic Mouflon (*Ovis* [*orientalis*] *gmelini* Blyth) and the Bezoar Goat (*Capra aegagrus* Erxleben) in Azerbaijan. Status and protection of globally threatened species in the





Caucasus. CEPF Biodiversity Investments in the Caucasus Hotspot 2004-2009. Tbilisi: CEPF, WWF. Contour Ltd., 2009, 232 pp. (p. 46-52)

14. Tariyel Talibov, Batur Avqan, Abbas Ismayilov, Parviz Fatullayev, Elshad Askerov, Urs Breitenmoser. Frist hard evidence of leopard in Nakhchivan. IUCN SSC, CAT NEWS, № 57, I AUTUMN, 2012, CAT SPECIALIST GROUP
15. Tariyel Talibov, Ibrahimov Anvar. Rare and Threatened Species of Dendroflora of Nakhchivan Autonomic Republic (Azerbaijan). International Conference. Environmental Changes Conservation of Plant Diversity. 21-23 april 2013, Baku, Azerbaijan, p.67
16. Талыбов Т.Г., Ибрагимов А.М. Хозяйственно-полезные древесные растения Нахчыванской Автономной Республики Азербайджана и перспективы их использования. HORTUS BOTANICUS Международный электронный журнал ботанических садов XX / 2015 ISSN 1994-3849 Эл № ФС 77-33059 от 11.09.2008
17. Talibov Tariyel, Askerov Elshad, Zazanashvili Nugzar, Fatullayev Parviz & Heidelbergg Aurel. South-Eastern Lesser Caucasus: the most important landscape for conserving the Leopard (*Panthera pardus*) in the Caucasus region (Mammalia: Felidae). Zoology in the Middle East. Cross Mark status information for this content will be available soon. Published online: 08 Apr 2015
18. http://kayzen.az/blog/Azərbaycan-coğrafiyası/1899/azərbaycanda-qoruq-və yasaqlıqlar.html

**Əliyar İbrahimov**
AMEA Naxçıvan Bölməsi, professor
E-mail: aliyaribragimov@mail.ru

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ƏRAZİSİNDƏ YAYILMIŞ DƏRMAN BİTKİLƏRİNİN ÖYRƏNİLMƏSİ

Naxçıvan Muxtar Respublikasının əlverişli relyef şəraiti, özünəməxsus torpaq-iqlim xüsusiyyətləri, günəşli günlərin çoxluğu, bütövlükdə Qafqaz ekoregionunda ancaq Naxçıvan Muxtar Respublikasına xas olan quru, kontinental (K) və kəskin kontinental (KK) iqlim burada kserofit tipli bitkilərin inkişafına, onlarda bir sıra fizioloji, biokimyəvi proseslərin güclənməsinə və kimyəvi tərkiblərinin bioloji fəal maddələrlə zəngindəşməsinə səbəb olmuşdur. Ərazi florasında 3006 ali sporlu, çılpaqtoxumlu və ali bitki növünün olduğu öyrənilmişdir. Regionun ərazisində yayılmış dərman bitkiləri növ sayına, kimyəvi tərkibinə və bioloji fəal maddələrin miqdarına görə Azərbaycan Respublikasının digər bölgələrinin dərman bitkilərindən üstündür. Öyrənilmişdir ki, ərazi florasında müxtəlif xəstəliklərin: bədxassəli şişlər, şəkərli diabet, ateroskleroz, nevrogen mənşəli ürək ağrıları, hipertoniya, hipetoniya, tramboflebit, venaların varikoz genişlənməsi, mədə-bağırsaq, qara ciyər, öd yolları, əsəb, böyrək daşları, bronxit, bronxial astma və onlarla digər xəstəliklərin müalicəsində istifadə olunan çox qiymətli dərman bitkiləri vardır. Belə bitkilərə: adi boymadərən, adi dazıotu, adi qaraqınıq, qatlı solmazçiçək, avropa gücotu, hündür andız, iri atpıtrağı, aci yovşan, aptek bədrənci, böyük bağayarpağı, çətirli qizilçətir, qırmızıbaş qırxbuğum, quş qızılcığı, adi quşəppəyi, ağ dalamaz, ürək şirquyruğu (damotu), adi dəvədabanı, dərman qulançarı, dərman xəşənbülü, dərman şahtərəsi, avropa qurşunçiçəyi, ağ küstüşam, koçi kəklikotu, təpəlik kəklikotu, kiçik qifotu, ikievli gicitkan, gürcü boyaqotu, mavi güləvər, işlətmə murdarçası, su bibəri və ya babasil otu, çöl qatirquyruğu, erkək səhləb, tüksüz biyan, yarpaqsız öldürgən və b. misal ola bilər [8, s. 62-70]. Dərman bitkilərindən elmi əsaslarla, düzgün və tətbiqi istiqamətdə səmərəli istifadə etməklə muxtar respublikada bir sıra sənaye sahələri: kimya-əczaçılıq, ətriyyat, yeyinti, boyaq, gön-dəri, likyor-araq, kosmetika, qənnadı və b. yaratmaq və inkişaf etdirmək mümkündür. Bu yolla əhalini dərman preparatları, qida məhsulları üçün zərərsiz təbii boyaqlar, aramatizatorlar, spirtsiz müalicə əhəmiyyətli içkilər, dərman bitki yığıntıları, şampunlar, diş pastaları, kosmetik məhsullar istehsal etməklə təmin etmək olar. Dərman bitkilərinin bir çoxu "Qırmızı kitab"lara düşmüşdür - sərtkənaryarpaq baldirğan, görkəmli çiriş, ətirli cacıx, çılpaq dorema, qaragat rəvəndi, oşe lələklivəsi, turnefor qundeliyasi kimi bitkiləri



qorumaq, təbii bərpasını təmin etmək və introduksiya yolu ilə artırıb geniş plantasiyalarını yaratmaqla istifadə etmək olar. Ən vacib problem məsələlərdən biri ərazi florasının tədqiq olunmuş dərman bitkiləri zənginliyindən, dərman bitki xammalının bolluğundan yararlanaraq, ayrı-ayrı xəstəliklərin profilaktikası və müalicəsində tətbiq oluna bilən dərman preparatlarının istehsalına başlanılmasıdır.

Bitkilərin müalicəvi xüsusiyyətləri insanlara qədim zamanlardan məlumdur. Onlar min illər ərzində bitkilərdən qida, sığınacaq, müalicə və digər məqsədlərlə istifadə etmişlər. Eramızdan 6-8 min il əvvəl Şumerlərin, Vavilonların və Assuriyalıların dərman bitkiləri haqqında çoxlu məlumatları olmuşdur. Daha sonra bu məlumatlar Misirlilər, Yunanlar, Romalılar, Çinlilər və Tibetlilər tərəfindən mənimsənilmişdir. Qədim Roma, Çin, Yunanıstan, Misir və Şərq həkimləri tərəfindən dərman bitkilərinin öyrənilməsi və müxtəlif xəstəliklərin müalicəsində istifadəsinə dair dəyərli əsərlər yazılmışdır. Roma həkimləri Qalen, Çels, Pliniy, Dioskorid və Əby Əli İbn Sina bu sahədə dünya şöhrəti qazanmışlar. Dünya xalqları bitkilər aləmi ilə daha çox təmasda olduqca ayrı-ayrı bitkilərin məlum olmayan faydalı cəhətlərini də öyrənmiş və türkəçarə müalicə işlərində tətbiq etmişlər. Müasir dövrdə Naxçıvan Muxtar Respublikası ərazisində 1986-1997-ci illərdə dərman bitkilərinin öyrənilməsi ilə Dəmirov İ.A., Şükürov C.Z., İslamova N.A., İbrahimov H.H., Kərimov Y.B., Əliyev N.İ. və b. məşğul olmuşlar. Naxçıvan Muxtar Respublikası ərazisində dərman bitkilərinin tədqiq edilməsi 1995-ci ildən başlayaraq bu günə kimi Talıbov T.H., İbrahimov Ə.Ş., İbrahimov Ə.M., Nəbiyeva F.X., Ələkbərov R.Ə., İsmayılov A.H., Quliyev V.B., Abbasov N.K., Ibadullayeva S.C., Salayeva Z.K., Qasımov H.Z. və b. tərəfindən yerinə yetirilir.

Ərazi florasının 1000-ə yaxın bitki növünü elmi təbabətdə və xalq təbabətində geniş istifadə olunan dərman bitkiləri təşkil edir. Onların 132-si müxtəlif illərdə Dövlət Farmakopeyasına daxil edilmiş rəsmi (offisinal) dərman bitkiləridir [12]. Ərazidə 30 böyük faydalı bitki qrupları: yem, bal verən, qida, aşı maddəli, boyaq əhəmiyyətli, bəzək-bağçılıq üçün yararlı, lifli, kitrəli, qətranlı, dərman, efir yağlı, qlükozidli, alkaloidli, saponinli, flavonoidli, vitaminli, kosmetik və s. faydalı bitki qrupları mövcuddur. Onlardan dərman bitkiləri xüsusi əhəmiyyət kəsb edir.

Müasir təbabətdə dünya miqyasında dərman bitkilərindən istifadəyə çox ciddi fikir verilir. Hazırda, tibbi dərman preparatlarının 50%-dən çoxu bitki mənşəlidir. Muxtar respublikada geniş yayılmış, ehtiyatı bol olan bitkilər diqqəti cəlb edir. Onlardan vacib dərman preparatları istehsal oluna bilər. Məsələn: *Rubia tinctorum* L.- Gürcü boyaqotundan "Sistenal", *Polygonum aviculare* L. - Quş qızılcığından "Avikulyarin", *Datisca cannabina* L. - Adi çətənədən "Datiskan", *Ephedra procera* Ficsh. - Boylu

acılıqotundan "Efedrin", *Crataegus pentagyna* Waldst. - Beşyuvalı yemişandan "Kratemon" və "Kardiovalen", *Vinca minor* L. - Kiçik qıfotundan "Vinkapan" və "Devinkan", *Anabasis aphylla* L. - Yarpaqsız öldürgəndən "Anabazin" və "Anabazin - hidroxlorid", *Datura stramonium* L. - Adi dəlibəngdən "Asmatol", *Helichrysum plicatum* DC. - Qatlı solmazçiçəkdən "Flamin" və "Arenarin", *İnula helenium* L. – Hündür andızdan "Alanton", *Tymus* L. - Kəklikotu cinsinə aid olan növlərdən "Pertussin", *Althaea officinalis* L. - Dərman bəlğəmotundan "Mukaltin", *Leonurus cardiaca* L. - Ürək damotundan "Leonurin", *Astracantha microcephala* Podelch - Xırdabaşlıqlı astracantadan kitrə, *Glicirrhiza glabra* L. - Tüksüz biyandan "Qlisiram", "Qlisirenat", "Bioqastron", "Bioqastron - duedonal", "Likviriton" və "Flakarbin", *Salvia hydrangea* DC. ex Benth. - İlanbaş sürvədəm "kamfora" və s. istehsal edilə bilər ki, bu da tibb müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirməyə kömək etməklə bərabər, dövlət büdcəsinə də yüz minlərlə manat maliyyə vəsaiti gətirər [1, s. 45-120; 3, s. 36-147; 5, s. 17-23].

Regionda müxtəlif dərman preparatları: mürəkkəb tərkibli bitki yığıntıları, cövhərlər, sulu dəmləmələr, briketlər, tozlar, mazlar, lasyonlar, şampunlar, kosmetik preparatlar, biokremlər, pastalar, həblər və s. istehsal edən müəssisələr yaratmaqla dərmana olan ehtiyacı aradan qaldırmaq, əhalinin sağlamlığını qorumaq olar. Bunun üçün reğionda ayrı-ayrı dərman bitkilərinin hansı orqanlarından (yarpaq, gövdə, çiçək, kök, kökümsov və s.) istifadə olunacağını, ilin hansı fəslində toplanılacağını, xammalının tərkibində hansı bioloji fəal maddələrin olduğunu, miqdarını, Farmakopeyanın tələbləri nə uyğun olub-olmadığını və hansı xəstəliklərin müalicəsində tətbiq olunacağını bilmək zəruri şərtdir. Ərazidə yayılmış dərman bitkilərinin öyrənilməsi prosesində bu cəhətə ciddi fikir verilmişdir. Məsələn, müəyyən


Tüksüz biyan


Dərman bəlğəmotu


Koçi kəklikotu



edilmişdir ki, Adi boymadərənin - *Achillea millefolium* L. otunda (Herba) və çiçəklərində (Flores) olan efir yağı, seskviterpenoidlər - axillin, kvayan, üzvi turşular, taninlər yerli və uşaqlıq qanaxmalarında, babasildə, iştah artırmada, Adi qaraotun (qaraqınıq) - *Origanum vulgare* L. otunda olan efir yağı (timol, karvakrol, n - simol, mirsen, osimen, kariofillen, alfa - pinen, borneol və b.), taninlər, sistestrinlər, vitamin C, mineral duzlar və s. həzm prosesinin yaxşılaşdırılmasında, bağırsaq atoniyasında, öskürəyə qarşı, sidikqovucu və tərlədici; Adi quşəppəyinin - *Capsella bursa pastoris* (L.) Medik. otundakı fenol qlikozid - qisopin, flavonoidlər, və fenolturşuları, taninlər, xolin törəmələri daxili qanaxmalarda xüsusən, mamalıqda; Adi dağtərxununun - *Tanacetum vulgare* L. ciçəklərində toplanan flavonoid (aksetin və diosmetin), efir yağı (tuyon, borneol, kafur və b. terpenlər) qurdqovucu, qaraciyər, hepatit, xolosistid, bağırsaq xəstəlikləri; Adi şirquyruğunun - *Leonurus cardiaca* L. otunda olan rutin, apigenin qlükozidləri, leonukardin alkaloidi ürək nevrozu, hipertoniya, sinir sisteminə sedativ təsir; Qirmızıbaş qırxbuğumun - *Polygonum persicaria* L. ciçəkli yerüstü hissəsindəki hiperozid, kversitrin, K vitamini, babasil; Acı yovşanın - *Artemisia absinthium* L. otunda toplanan efir yağı (felandren, xamazulen, tuyon, sineol, seskviterpenlər), seskviterpen laktonlar (absintin, anabsintin, abzindiol və s.), yarpaqlarında (Folium) toplanan flavon-artemizin iştah artırıcı, həzm prosesini yaxşılaşdırıcı, öd qovucu; At əvəliyinini - *Rumex confertus* Willd. köklərində (Radix) oksimetilantraxinon törəmələri (xrizofanol reum - emodin), K vitamini, aşı maddələri (piroqallol və pirokatexin törəmələri), oksalat turşuları, yarpaqlarında - flavonoidlər (rutin, hiperozid), vitamin C kolit, enterekolit, babasil, mədə - bağırsaq, qanazlığı zamanı (kiçik dozada büzücü, böyük dozada işlədici), qaraciyər xəstəlikləri; Qara batbatın - *Hyoscyamus niger* L. yarpaqlarındakı alkoloidlər (L - hiossiamin, atropin, skopolamin) astma, spastik öskürək, bronxial astma, oniki barmaq bağırsaq yaralarında, miozitdə, nevralgiyada, oynaq ağrılarında, ürək döyünməsində, şişlərdə, qulaqağrısı və mastitdə, Gürcü boyaqotunun - *Rubia tinctorum* L.Kökümsov gövdə və köklərində (Radix et risoma) trioksiantraxinon qlikozidləri: rubertin turşusu, purpurin [1, 2, 4] - trioksiantraxinon), psevdopurpurin - 3 - karbon turşusu, purpurksantin, rubiadin, rubiadin - 3 -qlikozid, leinistin (purpuroksantin karbon turşusu), flavonoid, eritrozim (enzim), limon, alma, çaxır və xlorogen turşuları, pektinlər, şirələr, zülal maddələri böyrək xəstəliyində (böyrək və öd kisəsində daş olan zaman), boyaq və qiymətli dərman kimi; Su bibərinin - *Polygonum hydropiper* L. otunda flavonoidlər (rutin, ramnazin, hiperozid, kversetin, kversitrin, kempferol), poliqopiperin qlikozidi, pirokatexin qrupu, aşı maddələri, efir yağı, qarışqa, valeriyan, sirkə turşuları, C, K vitaminləri, karotinaxili qanaxmalar və babasil xəstəliyi; Çılpaq biyanın - *Glycyrrhiza*

*glabra* L. kökündə triterpenoidlər: qlisirrizin turşusu, hidrolizatda qlisirret, hidroksiqlisirret turşuları; steroidlər: beta - sitosterin, 22, 23 – dihidrostikmasterin, estriol kumarinlər, likyukumarin, herniarin, hidrolizatda, umbelliferon və s. zəif işlədici, bəlğəmgətirici, öskürəyə qarşı, mədə xorası; Hündür andızın - *İnula helenium* L. kökümsov gövdəsində efir yağı, seskviterpen laktonlar (allantolakton, dihidroalanktolakton, izoallantolakton), inulin (45%), triterpinlər (fridelin, damaradienol), E vitamini və başqaları öskürək, bəlğəmgətirici, mədə-bağırsaq xəstəlikləri iltihabında; Zəif (adi, qoyunqıran) dazının - *Hypericum perforatum* L. otunda qırmızı flüoresensiya edici maddə - hiperisin, psevdohiperisin flavonoidləri, rutin, 10%-ə qədər pirokatexin, vitamin C və s. bağırsaq, ağız boşluğu xəstəliklərində, yanıqlarda və stomatit, kinkivit, diş dibi xəstəliyində antiseptik və büzüşdürücü kimi; Qumlu solmazçiçəkdə - *Helichrysum arenarium* (L.) Moench. ciçəklərində flavonoid (Salipurpozid, apigenin, kempferol, naringenin və b.), K vitamini, efir yağları böyrək, mədə, öd yolları, qara ciyər, öd qovucu; Aşı sumağının - *Rhus coriaria* L. yarpaq və meyvəsində tanin, mirisitran qlikozidi və qall turşusu isitmə, qarın ağrısı, qanlı ishalda; Kiçik qıfotunun - *Vinca minor* L. yarpaq və otunda alkaloid, indol qruplu 25 alkaloid (vinkamin, vinkapan və s.), aşı maddələri (5%), efir yağı, acı qlikozid, rutin, hiperozid flavonoidləri, üzvi turşular hipertoniya, iflic, nevrit, əzələ zəifliyi tonizə edici, qan təzyiqini artıran; Aptek gücotunun - *Agrimonia eupatoria* L. çiçəkli yerüstü hissəsində limon, alma, qall, çaxır, benzoi, kumarin, K və B qrup vitaminləri büzücü, iltihab əleyhinə, öd kisəsi, öd yolları, qara ciyər, öd daşları, mədə-bağırsaq, yaraları, ağız -boğaz ağrısı, dizenteriya, ağızın selikli qişası və diş ətinin iltihabı xəstəliklərində tətbiq olunurlar.

Bitkilərin kimyəvi tərkibində fermentlərin (enzimlərin) olması mühüm əhəmiyyətə malikdir. Bitki və heyvan orqanizmlərində biokatalizator vəzifəsini yerinə yetirən fermentlər mürəkkəb üzvi birləşmələrdir. Onların cüzi miqdarı bitki hüceyrələrində yüksək katalitik təsir göstərərək qısa zaman ərzində mürəkkəb kimyəvi birləşmələri öz tərkib hissələrinə parçalayır, hidroliz edir, yaxud sadə maddələrdən zülal kimi maddələrin sintezini kataliz edir. Canlı orqanizmlərdə fermentlərin iştirakı olmadan heç bir kimyəvi reaksiya baş vermir.

Naxçıvan MR florasında tərkibində tibbi əhəmiyyətli fermentlər olan bitkilər də vardır. Belə dərman bitkilərinə - *Allium sativum* L. - Sarımsaq soğan, *Ficus carica* L. - Adi əncir, *Plantago mojor* L. - İri bağayarpağı və b. misal ola bilər [7, s. 87-108]. *Allium sativum* L. - Sarımsaq soğan insan orqanizmində bir çox prosesləri nizama salan pespektiv bitkidir. Sarımsaqdan müasir tibb təcrübədə ateroskleroz, hipertoniya, mədə-bağırsaq xəstəliklərinin müalicəsində, iştahın artırılmasında, mədə şirəsi və öd ifrazının tənzimlənməsində işlədilir. Ondan - "Allilsatum", Alliofil", "Alliostabil", "Allium sativum-Starth", "Starth-50", "Alliocaps" preparatları alınmışdır və "Alloxo" kompleks preparatlarının da tərkibinə daxildir. Ağ küstüşamın köklərində qlikozidlər: brionin, brionidin, brionol, brin, aşı maddələri, nişasta, likopin, fermentlər, efir yağı, kukurbitasin, toxumlarında 25%-ə qədər piyli yağlar vardır. Likopin qan təzyiqinin artırılmasında, ürək əzələlərinin tonusunun tənzimlənməsində, yaraların sağaldılmasında, oynaq revmatizmində, radikulomiozitdə, neyromiozitdə, xərçəng xəstəliyində (kanser) və iflicdə (paralic) tətbiq olunur.



Dərman bitkilərinin tərkibindəki kimyəvi maddələr, süni yolla alınmış dərmanların kimyəvi maddələrindən kəskin fərqlənir. Belə ki, süni yolla alınmış dərmanlar tibb, yeyinti və toxuculuq sənayesində özünü doğrultmur. Onlar bir tərəfdən müəyyən xəstəliyi müalcə edirsə, digər xəstəliklərin də orqanizmdə yaranmasına səbəb olurlar. Vətən və xarici ölkə alimlərinin tədqiqatları nəticəsində məlum oldu ki, süni boyaqlarla boyanmış toxuculuq materiallarından hazırlanmış paltarlar, yatacaq dəstləri, xalçalar və yeyinti məhsulları insan orqanizmdə ciddi xəstəliklərin: mədə-bağırsaq, ürək-damar, qaraciyər, öd yolları, böyrək xəstəlikləri, boğaz ağrısı, müxtəlif şişlər, həmçinin xərçəng kimi qorxulu xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Odur ki, 1956-1964-cü illərdə İtaliyanın paytaxtı Roma şəhərində keçirilmiş Beynəlxalq simpoziumların qərarları ilə bir çox süni boyaqların "Sudan-3", "Sarı Naftol", "Sarı Tartrazin", "İndiqokarmin", "Amaqant" və başqalarının yeyinti məhsullarının boyanmasında istifadəsi qadağan edilmişdir. Həmin simpoziumlarda yeyinti məhsullarında ancaq təbii boyaq bitkilərindən alınan aromatlaşdırıcı, rəngləyici təbii vasitələrdən istifadə edilməsi qərara alınmışdır. Ona görə də sintetik preparatların üzvi birləşmələrlə zəngin olan bitki mənşəli preparatlarla əvəz edilməsi ciddi problem kimi qarşıda durur. Son dövrlərə qədər Naxçıvan MR-də bu sahədə mühüm işlər görülmüşdür. Naxçıvan MR Səhiyyə Nazirliyi nəzdnində yaradılmış "Loğman" Dərman Bitkiləri Elmi İstehsalat Kooperativində istehsal olunan dərman bitki yığıntıları və "Loğman" biokremi keçmiş SSRİ-nin Ticarət Sənaye Palatasının müsbət rəyi ilə istehsal olunmuş, Naxçıvan, Bakı, Moskva, Stavropol, Sankt-Peterburq və b. şəhərlərdə satılmış, dövlət büdcəsinə gəlir gətirmişdir. Yalançı zəfərandan - *Carthamus tinctorius* L., Nizami dərgülündən - *Rosa nizami* Sosn., Azərbaycan dərgülülündən - *Rosa pulverulenta* Bieb. (*R. Azerbajdzhanica* Novopokr. et Rzazade) (33 növ Rosa) təbii yeyinti boyaqları, Adi zirincdən - *Berberis vulqaris* L., Armud cinsinin - *Pyrus* L. yabanı növlərindən (9 növ), Aşı sumağından - *Rhus coriaria* L., həmçinin dərgül növlərindən təbii meyvə şirələri istehsal olunurdu. "İdrak" kiçik müəssisəsi dərgüldən hazırlanan təbii meyvə şirələrinə "Patent" almışdır. Bitki dərman preparatlarından istifadənin əhəmiyyətini nəzərə alıb, respublikamızın çox

yerində, o cümlədən Naxçıvan şəhərində "Yaşıl aptek"lər yaradılmışdır. Ərazidə dərman bitkilərinin öyrənilməsi nəticəsində hazırda Şahbuz şəhərində "FarmŞah" dərman bitkiləri müəssisəsi fəaliyyət göstərir. "Yaşıl aptek"lər və əczaxanalar təbii dərman bitkiləri ilə əhalinin təmin olunmasında mühüm rol oynaya bilər. Bu tibb müəssisələrinin dərman bitkilərinin əhəmiyyətini təbliğ etmək və əhaliyə satışını təşkil etmək sahəsində səy göstərmələri çox vacibdir. Tərkibində yapışqan və selik maddələri olan dərman bitkilərinə aptek gülxətmi, iri bağayarpağı, adi zəyərək, xırdabaşlıqlı astrakanta böyük təbii ehtiyatı ilə diqqəti cəlb edir. Geniş yayılmış dərman bitkisinin xammal ehtiyatıtına nəzər salaq: Cədvəldə göstərilən 23 dərman bitkisinin bioloji ehtiyatı 85651,03 ton təşkil edir. Bu miqdarın 52271, 84 tonu istismar ehtiyatı, 24496,86 tonu isə illik tədarük həcmidir [12, s. 260-400]. Muxtar respublikada 1000-ə yaxın dərman bitkisindən 23-nün belə yüksək təbii ehtiyatı ilə müqayisə etdikdə region ərazisinin dərman bitki xammalı ilə nə qədər zəngin olduğunu təsəvvür etmək olar.

Muxtar respublika ərazisində yayılmış bəzi dərman bitkilərinin təbii ehtiyatı

Cədvəl

| № | Dərman bitkilərinin adı | Təbii ehtiyatı | | |
|---|---|---|---|---|
| | | Bioloji ehtiyatı | İstismar ehtiyatı | İllik tədarük həcmi |
| 1. | *Equisetum arvense* L. - Çöl qatırquyruğu | 1054,4 | 421,80 | 105,45 |
| 2. | *Persicaria hydropiper* (L.) Spach.- Qırmızıbaş subibəri | 1792,71 | 717,09 | 179,27 |
| 3 | *Polygonum aviculare* L. - Quş qızılcığı | 2546,81 | 1018,73 | 254,68 |
| 4. | *Althaea officinalis* L. - Dərman bəlğəmotu | 87,41 | 34,96 | 8,74 |
| 5. | *Crataegus monogina* L. - Biryuvalı yemişan | 17363,67 | 10418,20 | 5209,10 |
| 6. | *Malus orientalis* L. - Şərq yemişanı | 30436,92 | 18208,15 | 9104,08 |
| 7. | *Prunus divaricata* L. -*Alça-gavalı* | 20425,64 | 12255,03 | 6127,51 |
| 8. | *Rosa canina* L. - İt itburnu | 1877,33 | 4726,40 | 2363,20 |
| 9. | *Astracantha microcephala* (Willd.) Podlech - Xırdabaılıqlı a. | 1500,51 | 600,20 | 150,05 |
| 10. | *Glycyrrhiza glabra* L. - Çılpaq biyan | 255,19 | 102,08 | 25,52 |
| 11. | *Melilotus officinalis* L. - Dərman xəşənbülü | 1854,26 | 741,70 | 185,43 |
| 12. | *Peganum harmala* L. - Adi üzərlik | 1588,62 | 635,45 | 158,86 |
| 13. | *Rhamnus cathartica* L. - İşlətmə murdarçası | 163,82 | 98,29 | 49,15 |
| 14. | *Arctium lappa* L. - İri atpıtrağı | 527,08 | 210,83 | 52,71 |
| 15. | *Artemisia absinthium* L. - Acı yovşan | 1801,15 | 720,46 | 180,11 |
| 16. | *Inila helenium* L. - Uca andız | 391,89 | 156,76 | 39,19 |
| 17. | *Lepidotheca suaveolens* (Pursh.) Nutt. - İyli lepidoteka | 612,78 | 245,11 | 61,28 |
| 18. | *Taraxacum officinale* Wiss. - Dərman zəncirotu | 1161,65 | 454,66 | 116,16 |
| 19. | *Datura stramonium* L. - Adi dəlibəng | 54,81 | 21,83 | 5,48 |
| 20. | *Hyosciamus niger* L. - Qara batbat | 55,17 | 22,67 | 5,52 |
| 21. | *Plantago major* L. - İri bağayarpağı | 471,57 | 188,63 | 47,16 |
| 22. | *Leonurus cardiaca* L. - Adi şirquyruğu | 322,86 | 129,14 | 32,29 |
| 23. | *Origanum vulgare* L. - Adi qaraqınıq | 359,18 | 143,67 | 35,92 |
| | Cəmi: | 85651,03 | 52271,84 | 24496,86 |



Naxçıvan MR-in təbii bitki ehtiyatlarından biri də meyvə və giləmeyvə bitkiləridir. Əvvəllər muxtar respublika ərazisindən küllü miqdarda yabanı meyvə-giləmeyvə Naxçıvan Kooperativlər İttifaqı tərəfindən tədarük olunurdu. Təkcə 1988-ci ildə muxtar respublikadan 83,3 ton itburnu meyvəsi, 82,1 ton yemişan meyvəsi, 157 ton yabanı alma və armud, 56,3 ton kəklikotu və s. tədarük edilmişdir.

Muxtar Respublikanın dərman bitkiləri ehtiyatları içərisində bal və çiçək tozu istehsalı üçün yararlı olan çox sayda dərman bitki növləri mövcuddur: Qırmızı, baştüklü, şübhəli üçyarpaq yonca növləri, gürcü poruğu, qırçınlı sürvə, ənbər sürvə, naxçıvan qantəpəri, koçi qantəpəri, ala acıyonca, adi qaraqınıq, yumrukök odotu, trautvetter pişiknanəsi, iriçiçək poruq, fişer güləvəri, dəyişkən lərgə, zərif lərgə, qafqaz qurdotu, zaqafqaziya xaşası, buynuzcuqlu xaşa, koçi kəklikotu, təpəlik kəklikotu, ağ dalamaz və b. Hesablanmışdır ki, 1 hektar sahədə olan *Chamaenerium angustifolium* L. - Daryarpaq ivançay bitkisindən - 480-500 kq, əlverişli illərdə isə 1000 kq-a qədər, *Melilotus officinalis* L. - Dərman xəşənbülü bitkisindən 80-200 (500) kq, *Lamium album* L. - Ağ dalamaz bitkisindən 500 kq, *Onobrychis transcaucasica* Grossh. - Zaqafqaziya xaşası bitkisindən 120 kq, *Salvia sclarea* L. - Ənbər sürvə bitkisindən 700 kq və s. ekoloji təmiz bal istehsal etmək mümkündür. Bu təbii sərvətdən səmərəli və davamlı istifadə etmək üçün regionun gül-çiçəkli səfalı yaylaqlarında arıçılıq təsərrüfatını inkişaf

etdirmək imkanları böyükdür. Yeyilən yabanı dərman bitkilərinin bir çoxu qiymətli içkilərin hazırlanması üçün yararlıdır, xüsusilə adi zirinc, yabanı albalı, təpəlik keşnişi, dağınıq çöl nanəsi, mahaleb gilası, adi zoğal, şərq alması, erkək səhləb, adi qaraqınıq, yabanı alça və armud, biberşteyn qarağatı, gürcü böyürtkəni növləri və s. bunlar sərinləşdirici içkilərin hazırlanmasına imkan verir. Tərkibində efir yağları olan bitkilər efir yağlarının tərkibinə görə bir neçə qrupa ayrılırlar. Tərkibində alifatik sıra efir yağı olan bitkilərə oraqmeyvə karapodium, pişik nanəsi, Zaqafqaziya kəklikotu ənbər sürvə və s. aiddir. *Carapodium platycarpum* L. – Oraqmeyvə karapodiumda 0,7-2,5% efir yağı vardır ki, onun da 84%-i linalooldur. Qeyd edək ki, oraqmeyvə karapodium Azərbaycanda ancaq Naxçıvan MR ərazisində yayılmışdır. Ondan səmərəli istifadə etməklə bir sıra yeni yeyinti məhsulları, spirtsiz içkilər, aromatlaşdırılmış müalicəvi çay növləri istehsal edilə bilər.

Tərkibində terpenlər və onların törəmələri olan efir yağlı bitkilər içərisində də perspektivli növlər az deyildir. Bu qrupa sallaq tozağacı, ləkəli badyan, şüvərənyarpaq pişikotu, cökəyarpaq pişikotu, hündür andız, kirəmitvari süsən, iyli tərə, adi ardıc, çoxmeyvəli ardıc, ağıriyli ardıc növləri, nazik dağ nanəsi, uzunyarpaq yarpız, boymadərənyarpaq dağ tərxunu, lerxian (ətirli) yovşan, acı yovşan, dağ razyanası, dağ zirəsi, adi boymadərən və digər boymadərən növləri bu qrupa daxildir. Dağ razyanasının toxumunda 3,2-4,8%, çoxmeyvəli ardıcın meyvələrində 1,3-1,5%, lerxian yovşanın yerüstü hissəsində 1,5-2% efir yağı vardır. Keçmiş SSRİ vaxtında kamfora almaq üçün ancaq Sibir ağ şamından xammal kimi istifadə edilirdi. Kamforaya olan böyük tələbatı aradan qaldırmaq məqsədilə, kamfora ilə zəngin bitki xammal axtarışına başlanıldı. Bu qiymətli maddə ilə zəngin olan bitki növlərinin axtarışı, onların Naxçıvan MR ərazisində aşkar olunması ilə nəticələndi. Onlardan ilanbaş sürvə, lerxian yovşanı, balzamin birəotu və santolin yovşanı daha çox əhəmiyyətlidir. İlanbaş sürvə Vəlidağda, Ardıcdağda, Duzdağda, Sirab, Badamlı, Şada, Nəhəcir, Göynük, Qazançı, Kolanı, Külüs, Keçili və b. kəndlərin ərazisində böyök təbii xammal ehtiyatına malik olub, sənaye əhəmiyyətlidir. Tərkibində aromatik sıra efir yağları olan bitki növləri də Naxçıvan MR ərazisində diqqəti cəlb edir. Bu qrupdan olan bitki sərvətləri içərisində dərman xəşənbülü, ağ xəşənbül, xəzər xəşənbülü, adi qaraqınıq, sibtorp exinoforası, şərq qərənfili, çay çınqılotu, süpürgə yovşan, zaqafqaziya kəklikotu sənaye əhəmiyyətlidir. Butun bunlarla bərabər bəzi efiryağlı bitkilərin tərkibi hələ də öyrənilməmiş qalır. Bir sıra bitki növləri güclü köpük əmələ gətirir ki, onlardan pivə istehsalı sənayesində, spirtsiz və sərinləşdirici içkilərin hazırlanmasında müvəffəqiyyətlə istifadə etmək olar. Belə növlərə tüksüz biyan, ikirəngli çoğan aiddir ki, onların da böyük təbii ehtiyatları vardır.



Dərman bitkiləri içərisində becərilən elə vacib növlər də vardır ki, onlara yabanı halda rast gəlinmir: dərman gülümbaharı, ətirli kərəvüz, əkin keşnişi, adi xardal, istiot nanəsi, bostan reyhanı, əkin yerkökü, əkin kahısı, əkin cəfərisi, adi razyana, adi cirə, ətirli qızılgül, bostan reyhanı, həqiqi lavanda, əkin artişoku (ənginar), ətirli şüyüt, ətirli cəfəri, qara turp, adi qıtıqotu (xardal), adi soğan, tərxun yovşanı, bağ məzrəsi, adi zəyərək, hind küncütü, ağacşəkilli əzvay, yapon saforası, sarımsaq soğan, adi söyüdgülü, qara çörəkotu, boyaq sarıçiçəyi (yalançı zəfəran), əkin zəfəranı, məxmərgülü və b. belə bitkilərdəndir.

Bəzi dərman bitkiləri isə regionun ərazisində ümumiyyətlə bitmir. Lakin, onların dərman preparatlarının tərkibində iştirakı zəruridir. Onlara adi xanımotu, böyük dəmrovotu, dərman pişikotu, dərman sincanotu, dərman çəpişotu və başqalarını misal çəkmək olar. Hər iki qrupa daxil olan dərman bitkiləri əkilib becərilməli və geniş plantasiyaları salınmaqla tələbata görə artırılmalıdır.


İlanbaş sürvə


İrikasacıqlı novruzgülü

Dərman bitkilərinin genetik fonduna göstərilən ciddi mənfi təsirlərdən biri faydalı bitkilərin əhali tərəfindən heç bir qayda-qanun gözləmədən istifadə olunmasıdır. Hazırda bazarlarda görkəmli çiriş, kəklikotu, andız kökü, adi qazayağı, baldırğan, bostan pərpərəni, adi dazıotu və b. ilə yanaşı "Qırmızı kitab"lara daxil edilmiş nadir, itmək təhlükəsi olan, endemik, relikt, arealı kiçilən bitkilər də satılır. "Qırmızı kitab"da olan *Prangos acaulis* (DC.) Bornm. - Gövdəsiz çaşır, *Orchis mascula* (L.) L. - Erkək səhləb, *Puschkinia scilloides* Adams. - Zümrüdçiçəyi ələyəz, tülpan növləri (soğanları ilə birlikdə) çox istifadə olunur. *Rheum ribes* L. - Qarağat rəvəndi "Uşqun", *Dorema glabrum* Fisch.et C.F.Mey. - *Hamar dorema* "Bolu", *Bryonia alba* L. - Ağ küstüşam "Yer adamı", *Qundelia tournofortii* L. -

Turnefor qundeliyası "Kəngər", *Smyrniorsis aucheri* L. - Oşe lələklivəsi "Manda" adı ilə satılır. Naxçıvan MR-in "Qırmızı Kitabı"na daxil edilmiş 202 bitki növündən 82-si dərman bitkiləridir. Həmin bitkilərin sistematik tərkibini 41 fəsilə, 56 cins və 82 növ təşkil edir [5, 10, 11, 12]. Onlardan 48 növ təbii ehtiyatı tükənmiş, məhv olmaq təhlükəsi altında olan nadir növlərdir. Bura: venera saçlı adiant, dərman seteraxtı, erkək ayıdöşəyi, soviç vaxtsızotu, erkək səhləb, gözəl zəfəran, yabanı birdənli buğda, təkdənli buğda, nordman danaayağı, botte zəravəndi, qıvrım mahmızçiçək, ağıriyli mahmızçiçək, nazikyarpaq pion, qırxbuğum cuzğun, qarağat rəvəndi, əyilən tozağacı, üçrəng bənövşə, adi it xiyarı, adi əncir, qafqaz dağdağanı, adi nar, qafqaz alışanı, jujuba innabı, çılpaq dorema, ağacvari yovşan, sarımsaqyarpaqlı pişikotu, gövdəsiz yumaqotu, sarmat kəndiri, adi yergiləsi, mehri kəklikotu, oval girdəyarpaq və yabanı püstə daxildir. Qalan 34 növ isə ehtiyatı tükənən, arealı kiçikən və say dinamikası azalan nadir dərman bitkiləridir. Onlar: adi ardıc, ağıriyli ardıc, qazax ardıcı, çəhrayı acılıq, tatar iksiolirionu, görkəmli çiriş, zümrüdçiçəyi ələyəz, iran quşüzümü, burunlu akonit, bənövşəyi güləbətin, zərif buynuzlalə, kürd yerköpüyü, lessinq kafirotu, irikasacıqlı novruzgülü, cənubi qafqaz canavargiləsi, şərq yemişanı, mahaleb meşə albalısı, nizami itburnu, rapin itburnu, ciréyarpaq itburnu, gürcü böyürtkəni, aşı sumağı, anadolu südotu, avropa gərməşovu, böyük titrəmərcan, alp asteri, enliyarpaq keçiqulağı, dəfnəotu və nazik dağ nanəsi aiddir [14, s. 19-23; 11, s. 370-495; 12]. İşlədici təsirə malik dərman bitkiləri qrupundan olan qiymətli növ çin rəvəndi hesab olunur. Naxçıvan MR florasında olan *Rheum ribes* L. - Qarağat rəvəndi və *Rheum turkestanicum* Janisch. - Türkmənistan rəvəndi bu cəhətdən olduqca əhəmiyyətlidir. Ona görə də qeyd olunan rəvənd növlərinin mədəni kulturaya keçirilməsi və çin rəvəndinin əvəzedicisi kimi istifadə olunması perspektivlidir. Vaxtilə bu bitkilərdə olan aşı maddələri hesabına Babək rayonunun Cəhri kəndində yaradılmış gön-dəri aşılayan sexdə anoloqu olmayan əla keyfiyyətli padoş, vilyur və digər dəri məhsullar hazırlanmışdır.



Anadolu südotu



Lerxian yovşanı (ətirli yovşanı)



Bəlğəmgətirici təsirə malik olan bitki qrupunda ən təsirli bitkilər ölkəmizdən kənarda yayılmış ipekakyana və seneqa südotu növləridir. Hər iki bitkinin vətəni Amerikadır. Naxçıvan MR ərazisində inkişaf etmiş *Polygala anatolica* Boiss. et Heldr. - Anadolu südotu növünün kökü botaniki-morfoloji əlamətlətinə, kimyəvi tərkibinə görə amerika seneqasından az fərqlənir. Tərkibində kifayət qədər saponin və salisil turşusunun metil efiri olduğu aşkar edilmişdir. Anadolu südotunda hemolitik indeks - 770, ancaq amerika seneqasında - 952-yə bərabərdir. Bu miqdar onun həmin bitkilərin əvəzedicisi kimi istifadə olunmasını təmin edir. Muxtar respublika ərazisində öyrənilmiş xarici seneqanın əvəzedicilərindən biri də 1587 hemolitik indekslə fərqlənən *Primula macrocalyx* Bunge - İrikasacıqlı novruzgülü bitkisidir.

Farmakopeya nəşrlərinə və Beynəlxalq Farmakopeyalara daxil edilmiş rəsmi dərman bitkilərinin araşdırılması nəticəsində müəyyən olunmuşdur ki, Naxçıvan MR florasında 48 fəsilə, 105 cinsə mənsub olan 132 ali sporlu, cılpaqtoxumlu və örtülütoxumlu bitki növləri vardır. Onlar 33 sıra, 36 fəsilə və 69 cinsdə cəmlənmişlər [13]. Yabanı növlərin 11-i məhv olmaq təhlükəsinə məruz qalan növlərdir. Bir qrup dərman bitkisinin: xırdabaşlıqlı astrakanta, adi üzərrik, dərman xəşənbülü, adi boymadərən, acı yovşan, qatlı solmazçiçək, şöl qatırquyruğu, it itburnu, adi itotu, quş qızılcığı, dərman sahtərəsi, ikievli gicitkan, və b. sənaye ehtiyatı vardır. Regionun dərman bitkilərindən 8 növ: adi mollabaşı, adi ardıc, qara bat-bat, adı dəlibəng və b. Farmakopeyanın bütün nəşrlərində saxlanılmaqla 137 ildən artıq müddətdir ki, tibbi müalicədə istifadə edilir. *Hippophae ramnoides* L. - Adi və ya murdarçaya bənzər çaytikanı 1-3; 4-5 m hündürlüyü olan kol və ya ağacdır. Regionun ərazisində ona Lizbirt dərəsində, Tillək meşəsində, Biçənək, Külüs, Parağa, Nəsirvaz, Tivi, Xurs və Nürgüt kəndləri ətrafında rast gəlinir. Qiymətli dərman bitkisidir. Yağının əsas təsiri yarasağaldıcıdır. Bu yağın tərkibində bir sıra qiymətli bioloji fəal maddələr vardır. Bura sterinlər, fosfolipidlər, xolin, betain, fitoxinon, yaxud K, E vitaminləri və karotinlər daxildır. Çaytikanı yağı elmi təbabətdə şüa, texniki və kimyəvi yanıqlarda, stomatitdə, trofik yaralarda, pulpit və peridontitdə, tənəffüs yolları xəstəliklərində, kəskin və xroniki qaymaritdə, göz xəstəliklərində, ekzema, şiş və qadın xəstəliklərində işlədilir.

Gülçiçəklikimilər - *Rosaceae* Dumort. fəsiləsi ərazi florasında 23 cins, 117 ağac və kol bitkiləri ilə təmsil olunur [6, s. 12-14]. Onlarım əksəriyyəti bioloji fəal maddələrlə zəngin dərman bitkilərdir. İtburnu (Dərgül, Ağgül, Həmərsün) növlərinin də regionun ərazisində sənaye ehtiyatı vardır. Dərgil meyvələrində C, $B_1$, $B_2$, $K_1$ və P vitaminləri, 4% aşı maddəsi, 18%-ə qədər şəkər, 3,7% limon və alma turşuları və s. toplanır. Meyvələrini dəmləmə, konsentrat, şərbət, mürəbbə şəklində avitaminoz, skorburt, raxit, qızılyel, qanazlığı, vərəm, öd xəstəliklərdə istifadə olunur. Digər tərəfdən

ateroskleroz, pnevmaniya, bronxial astma, nefritlər, hemorragik diatez, hemofiliya, xəstəliklərində dərgülün preparatları məsləhət görülür. Dərgül meyvələrinin toxumlarından çıxarılan piyli yağ (Oleum kosal) dermatitin müalicəsində geniş tətbiq olunur. Bu yağdan rentgen şüaları ilə müalicə aparanda da istifadə olunur. Dərgül meyvələrindən hazırlanan ekstrakt Xolososun tərkibinə də daxil edilir və qaraciyər xəstəliyndə istifadə olunur. Toxumları həm də sidikqovucu kimi geniş istifadə olunur. Təbabətdə *Viola odorata, V. arvensis* istifadə olunur. Elmi təbabətdə çöl bənövşəsinin otundan öskürəyə qarşı istifadə edilir. Dəmləməsi bronxial vəzilərin sekresiyasını artırır, sinə yumşaldıcı təsir göstərir. Xalq təbabətində otundan hazırlanmış çay sarılıq xəstəliyində, revmatizmdə və podaqrada işlənir. Ətirli bənövşə köklərindən və otundan dəmlənmiş çay xalq təbabətində ishala və dizenteriyaya qarşı istifadə edilir. Bundan əlavə köklərindən, yarpaq və çiçəklərindən çay dəmləyib öd yolları xəstəliyində, qıcolmada, epilepsiyada, bronxial astmada və əsəb xəstəliyində istifadə olunur.

Kişik Qafqazın ən uca dağları və zirvələri ilə əhatələnmiş Naxçıvan Muxtar Respublikasının ekoloji təmiz havası, müalicəvi suları, zəngin şəfaverici bitkilərinin olması burada bir sıra rekrasion imkanlar yaradır. Bu istiqamətdə insanların sağlamlığını, istirahətini təmin etmək, əmək qabiliyyətini yüksəltmək üçün müalicə turizmini, kurort və istirahət mərkəzləri şəbəkəsini daha da gemişləndirmək məqsədəuyğundur [4, s. 25-26, 56-57]. Naxçıvan Muxtar Respublikasının olduqca əlverişli təbii şəraiti burada çox qiymətli yabanı və becərilən tərəvəz bitkilərinin də inkişafına imkan yaratmışdır. Burada insanların il boyu istifadə etdikləri müxtəlif tərəvəz bitkiləri qida və müalicə əhəmiyyətli olmaqla sağlamlıq mənbəyidir. Yaxşı olar ki, muxtar respublikanın xəstəxanalarında bitkilərlə müalicə - fitoterapiya mərkəzləri yaradılmasına və əczaxanalarda yerli dərman bitkilərinin satışına üstünlük verilsin, bu işin təşkili ancaq dərman bitkilərini tanıyan və istifadə qaydalarını bilən tədqiqatçı mütəxəssislər tərəfindən aparılması təmin edilsin.

Müasir dövrdə tətbiqi ekologiya və botanikanın inkişafı, təbii mühit komponentləri üzərində uzunmüddətli qlobal, regional miqyasda proqnozlaşdırma və nəzarətin təşkili xüsusi yer tutur. Belə ki, insanların təbiətə qarşı yönələn antropogen təsirləri nəticəsində torpaq-bitki örtüyünün və landşaftların təbii quruluşunun kəskin dərəcədə pozulması eroziya proseslərini daha da gücləndirmişdir. Bu səbəbdən Naxçıvan florasının qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması üçün qoruqların, yasaqlıqların və milli parkların yaradılması xüsusi Dövlət Proqramı ilə həyata keçirilir. Dərman bitkilərinin tanıdılması, səmərəli istifadə edilməsi məqsədilə təbii şəraitdə çəkilmiş fotoşəkillər, hər bir bitkinin botaniki



xarakteristikası, çiçək və meyvəvermə vaxtları, ekoloji şəraiti, coğrafi tipi və yayılması öyrənilmişdir [2, 5, 9, 12, 15, 17].

Araşdırılmış elmi mənbələrə görə dünyada ayrı-ayrı vaxtlarda 150 fəsilədə, 1000 cinsdə birləşən 5000-ə yaxın bitki növündən istifadə edilmişdir. Orta əsr Azərbaycan təbabətində 387 bitki növündən istifadə olunmasına baxmayaraq, yalnız onların 135 növü rəsmi dərman bitkisi kimi qəbul olunmuşdur. Hazırda xalq təbabətində 300-ə qədər bitkidən istifadə edilir. XX əsrin sonuna yaxın dərman bitkiləri ilə müalicə 30-40% olduğu halda, müasir dövrdə bu göstərici 50%-dən çox təşkil edir. 2000-ci ildən başlayaraq, Azərbaycan florasının dərman bitkiləri pasportlaşdırılmış və kompyüter məlumatları bazasına daxil edilmişdir. Hazırda onlardan 500-dən çoxu Avropa kompüter məlumat bazasına daxil edilmiş və toxumları Mərkəzi Genbankında saxlanılır. Tibb mütəxəssisləri Azərbaycanın dərman, qida və aromatlı bitkiləri haqqında Bitki Genetik Ehtiyatları üzrə Avropa Əməkdaşlıq Proqramında Mərkəzi Asiya və Cənubi Qafqaz Regional Şəbəkəsində "Dərman, aromalı, yabanı qida bitkilərinin öyrənilməsi və qorunması" mövzusu üzrə Beynəlxalq tədbirlərdə məruzələrlə çıxış etmişlər. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Beynəlxalq Biomüxtəliflik İnstitutunun Beynəlxalq Konvensiyanın Azərbaycan və regionlar üzrə hesabatlarında dərman bitkilərindən istifadənin vacib istiqamətlərindən biri olan etnobotaniki tədqiqatlara xüsusi diqqət verilmişdir. Müstəqillik illərində dərman bitkilərinin elmi əsaslarla öyrənilməsinə və tətbiqi istiqamətə yönəldilməsinə əlverişli şərait yaradılmış və Dövlət dəstəyi göstərilmişdir. Dərman bitkilərinin toplanılması, qurudulması, tədarükü və saxlanılması qaydaları, vegetasiya fazasından asılı olaraq orqanlarından istifadə üsulları və tətbiqi, botaniki təsviri haqqında ilkin və vacib anlayışlar da tədqiq edilmiş, farmakopeyada qəbul olunan dərman bitkiləri son nomenklatur olan *APG II* və *APG III* sistemlərinə uyğun verilməklə yayılması və müalicəvi xüsusiyyətləri ətraflı öyrənilmişdir. Ərazidə dərman bitkilərinin arealı, tərkiblərindəki bioloji fəal maddələrin farmakoloji təsiri, ehtiyat bazası, bitki xammalının standartlaşdırılması, normativ sənədləri, analiz üsulları, xammalın qablaşdırılması, markalaması, daşınması, dərman məqsədilə istifadə edilən bitki orqanlarının analizi, dərman bitki xammalından preparatların hazırlanması və istifadəsi məsələləri tədqiq olunmuşdur.

Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış dərman bitkilərinin növ tərkibi tədqiqatlar zamanı yeni aşkar etdiyimiz müalicəvi əməmiyyətli bitki növləri ilə ilbəil zənginləşdirilir. Yeni aşkar olunmuş belə dərman bitkilərinə: *Sium sisaroideum* DC. - Sucaq suçətiri, *Albizzia julibrissin* Durazz - İpək akasiyası (Lənkaran akasiyası), *Astragalus dasianthus* Pall. - Tüklü paxladən, *A, lunatus* Pall., *A. alexandrii* Charadze., *A. contortuplicatus*

L. *Pimpinella affinis* - Qohum yalançı cirə, *P. aromatica* - Ətirli yalançı cirə, *Hedypnois cretica* - Kpit hedipnoisi, *Humulus lupulus* - Maya sarmaşığı, *Hibiscus esculentus* L. - Yeyilən bamiyə, *Carpesium cernuum* - Əyilən karpesiyum, *Momordica charantia* L. - Çin acı qovunu və ya Qüdrət narı, *Silybum marianum* (L.) Gaertn - Alaqanqal və b. daxildir. Alaqanqal qida, yem, dərman və bəzək bitkisidir. Elmi təbabətdə və xalq təbabətində meyvə, yarpaq və kökündən istifadə olunur. Qaraciyərin serrozunda, kəskin və xroniki hepatitlərdə, sarılıqda, öd yollarının xəstəliklərində, kolitlərdə *Cardui mariae fructus* adı ilə tətbiq edilir. Çiçəkləyənə qədər mal-qara tərəfindən yeyilir. Saplağı ilə birlikdə cavan yarpaqlarından hazırlanmış (sirkə və yağla) xörəklərdən baş ağrısı, əzələ revmatizmi, diz şişləri xəstəliklərində, çayı isə venaların varikoz genişlənməsində istifadə olunur. Cavan şirəli gövdələri çiy halda yeyilir (xüsusilə İranda). Toxumlarında 32%-ə qədər piyliyağ (yod ədədi 114, 68), 12,53% proteyin, 22,71% zülal, efir yağı (0,08%), qatran, selik, biogen aninlər (tiramin, histamin), həmçinin silibin, silidianin, silixristin və makroelementlər vardır. Bu bitkidən alınan "Kapsil" preparatı qaraciyər xəstəliklərində işlədilir. *Silybum marianum* (L.) Gaertn. bitkisinin aseton - spirt çıxarışı və 1%-li spirt məhlulu qadın xəstəliklərində tibbi praktikada çox qiymətli sayılan çovdar mahmızının əvəzedcisi kimi tətbiq oluna bilər [18, s. 426-427; 14, s.19-23; 15, s. 33-39; 16, s. 52-57; 17, s. 1-7].

Muxtar respublika ərazisində yayılmış dərman bitkilərinin öyrənilməsi və əhəmiyyəti qeyd olunanlarla məhdudlaşmır. Müstəqillik illərində bu sahədə öyrənməyə başladığımız müxtəlif istiqamətli işlər, yeni dərman bitkilərinin axtarışı, onların xammal mənbələri, təbii ehtiyatı və effektli istifadəsi üzrə tədqiqatlar davam etdirilir.

Çoxillik tədqiqatlar zamanı qazanılan mühüm elmi və elmi-təcrübi nəticələr bir daha subut edir ki, Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri sayca çox, kimyəvi tərkibi bioloji fəal maddələrlə zəngin olmaqla bərabər, dərman xammal ehtiyatı da tükənməzdir. Bu sərvətdən səmərəli istifadə etmək, onu introduksiya yolu ilə artırmaq və mühafizə etmək əsas prioritet vəzifəmiz olmalıdır.

## ƏDƏBİYYAT


1. Dəmirov İ.A., Hüseynov D.Y., Şükürov C.Z. Bitkilər və təbabət. Bakı: Gənclik, 1992, 126 s.
2. Ələkbərov R.Ə., İbadullayeva S.C. Dərman bitkiləri (*Etnobotanika və Fitoterapiya*). Medicial plants (*Ethnobotany and Phytoterapya*). Bakı: Təhsil EİM, 2013, 331 s.
3. Əliyev N.İ. Azərbaycanın dərman bitkiləri və fitoterapiya. Bakı: Elm, 1998, 344 s.





4. İbrahimov Ə.Ş. Dərman bitkilərindən istifadə etməklə müalicə turizminin yaradılması və tibbi preparatların istehsalı. Naxçıvan Muxtar Respublikasının tarixi, siyasi, iqtisadi bələdçisi kitabı (Azərb. dilində s. 25-26; ingilis dilində s. 56-57). Naxçıvan: Qeyrət, 1998, 64 s.
5. İbrahimov Ə.Ş. Nəbiyeva F.X., Abbasov N.K. Paxlalılar fəsiləsinin dərman bitkiləri // Az.Resp.Təhsil Nazirliyi Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Təbiət elmləri və tibb seriyası. Naxçıvan, 2009, № 1(26), s. 17-23
6. İbrahimov Ə.Ş., Piriyev M.Z., Qənbərov D.Ş. Naxçıvan Muxtar Respublikasında gülçiçəklikimilər fəsiləsinin ağac və kolları (Metodik vəsait). Bakı: Victoriy, 2012, 93 s. 12-14
7. İbrahimov Ə.Ş., Piriyev M.Z., Qənbərov D.Ş., Hüseynov H.T. Fermentlər. Naxçıvan: Victoriy, 2014, 160 s.
8. İbrahimov Ə.Ş. Böyrək daşları xəstəliklərində işlədilən dərman bitkiləri və onlardan istifadə qaydaları. AMEA Nxçıvan Bölməsinin Xəbərlər jurnalı. Təbiət və texniki elmlər seriyası. Naxçıvan, Tusi. Cild II. 2015. s.62-70
9. Mustafayeva İ.R., İbadullayeva S.C., Ələkbərov R.Ə., İsmayılov A.H., Qasımov H.Z., Qasımova Ş.S. Farmakoqnoziya botanikanin əsaslari ilə (Dərslik). Naxçıvan: "Əcəmi" NPB, 2015, 648 s.
10. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər). Naxçıvan: "Əcəmi" NPB, 2008, 364 s.
11. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər). Cild 2. Naxçıvan: "Əcəmi" NPB, 2010, 678 s.
12. Talıbov T.H., İbrahimov Ə.Ş., İbrahimov Ə.M., Ələkbərov R.Ə., İsmayılov A.H., Quliyev V.B., Qurbanov Ə.K. Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri. Naxçıvan: "Əcəmi" NPB, 2014, 466 s.
13. Государственная фармакопея Российской федерации. Издание 11-12, 1987-2007
14. Ибрагимов А.Ш., Набиева Ф.Х., Пирийев М.З. Акация шелковая - *Albizzia julibrissin* Durazz. новый вид флоры Нахчыванской Автономной Республики Азербайджана // Международной научно-практической конф., "Естественно-научные исследования и народное хозяйство", Воронеж, 2015, s. 19-23
15. Ибрагимов А.Ш. Материалы переиздания флоры Азербайджана // IX Международная научно-практическая конференция Актуальные проблемы науки на современном этапе развития, г. Екатеринбург, 2015,. с. 33-39

16. Ибрагимов А.Ш., Набиева Ф.Х. *Silybum marianum* (l.) Gaertn. - новый вид Флоры Нахчыванской Автономной Республики // http://ucom.ru/doc/conf/2015.04.30.02.pdf Наука и образование в жизни современного общества: сб. науч. тр. по мат-лам Межд. науч.-практ. конф. Часть 2. Тамбов, 2015, с.52-57
17. Ибрагимова А.М., Набиева Ф.Х., Ибрагимов А.Ш. Новые таксоны для флоры Нахчыванской Автономной Республики Азербайджана // Jurnal "Austrian Journal of Technical and Natural Sciences" Австрия, Вена, 2015, с. 1-7
18. Ganbarov D.Sh., Ibrahimov A.Sh. *Astragalus dasyanthus* L. (Fabaseae) a New Species to the Flora of Azerbaijan // Impact Factor: 3.762 International Journal of Multidisciplinary Research and Development 2015; 2(1): p. 426-427



**Sahib Hacıyev**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: sahib-haciyev@mail.ru

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TORPAQLARIN ÖYRƏNİLMƏSİ

2015-ci il Azərbaycanda, həmçinin Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı ili adlandırılmışdır. Məhz, buna görə də muxtar respublikada əhalini etibarlı kənd təsərrüfatı məhsulları ilə təmin etmək və torpaq münbitliyini artırmaq məqsədilə müstəqillik illərində aparılan torpaq tədqiqatlarının öyrənilməsi aktuallıq kəsb edir.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra torpaqdan istifadə formalarının dəyişməsi ilə əlaqədar olaraq tədqiqatların istiqaməti də dəyişmişdir. Tədqiqat işlərinin yeni istiqamətləri ərazidə xüsusilə torpaqların bonitirovkası, torpaq kadastrı, bioekoloji yanaşma, hüquqi tənzimat məsələləri üzrə olmuşdur. Tədqiqatların istiqamətinin yeniləşməsi muxtar respublikanın tarixinə bir inqilabi dövr kimi daxil olmuşdur. Torpaqların özəlləşdirilməsi üzrə aparılan tədbirlər Azərbaycanın başqa regionlarına nisbətən ilk dəfə olaraq muxtar respublikanın torpaqlarında həyata keçirilmişdir [4, s. 3-88].

Məhz, Heydər Əliyev bu dövrdə Azərbaycanda aqrar sektorun simasını dəyişmiş torpaq islahatlarının hazırlanması və həyata keçirilməsinin, 1996-cı ildə qəbul olunmuş "Torpaq islahatı" haqqında qanunun və bununla bağlı bütöv bir sıra inzibati hüquqi aktların qəbul edilməsinin başlıca təşəbbüskarı olmuşdur.

Bu dövrdə Heydər Əliyevin rəhbərliyi və daimi nəzarəti altında qısa müddət ərzində alimlər tərəfindən Azərbaycan Respublikasının "Torpaq kodeksi və torpaq-kadastr rayonlaşdırılmasının yeni sistemi" işlənib hazırlanmış, Azərbaycan təbii-aqrar vilayətlərinin yeni xarakteristikasına uyğun olaraq mövcud rayonlar dəqiqləşdirilmiş və yeni yarımrayonlar ayrılmışdır.

Ölkımizdə bu tədqiqatların istiqamətlərinin yeniləşməsi muxtar respublikanın tarixinə də bir inqilabi dövr kimi daxil olmuşdur. Müstəqillik dövründə ölkəmizdə dünyada analoqu olmayan torpaq haqqında aparılan bu islahatlar Azərbaycan Dövlət Torpaq Komitəsinin və yerli hökumətin dəstəyi ilə Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq Komitəsinin və onun yerlərdəki rayon torpaq şöbələri əməkdaşlarının fədakar işlərinin nəticəsində ilk dəfə olaraq muxtar respublikanın ərazisində həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq Komitəsinin əməkdaşları tərəfindən 2002-ci ildə 01 oktyabrda torpaq payı almaq hüququ olan 71535 ailəyə Dövlət aktları verilmiş, bunlar 243445 nəfəri əhatə etmişdir.

Beləliklə, rəsmi sənədlər yəni dövlət aktları üzrə torpaqların vətəndaşlara paylanması torpaq islahatlarının birinci mərhələsinin başa çatması kimi qiymətləndirilmişdir. Bu mərhələdən sonra Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq Komitəsinin qarşısında torpaqların alqı-satqısı, girov qoyulması, dövlət və bələdiyyə torpaqlarından istifadəyə nəzarət edilməsi və digər məsələlərin həll olunması üçün tapşırıqlar verilmişdir.

Bu dövrdə qeyd olunanlarla bərabər, muxtar respublikada yerquruluşu və yer istifadəsi sahələrində elmi və istehsalat işlərinin texniki təchizatı keyfiyyətcə yeni səviyyəyə çatmışdır. Naxçıvan Muxtar Respublikası Torpaq Komitəsi strukturları güclü kompyuter texnikası və yeni avadanlıqlarla təchiz olunmuşdur. Muxtar respublikanın vahid torpaq fonduna aid olan bütün məlumatın toplanması və sistemləşdirilməsi üçün xüsusi torpaq məlumat bankı yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Torpaq Komitəsi Naxçıvan Muxtar Respublikasında dövlət idarəetmə strukturunun təkmilləşdirilməsi məqsədi ilə 20.05.2015-ci il tarixdən Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin əsasında Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi kimi fəaliyyət göstərir.

Ölkəmizdə bu mərhələdə əldə olunmuş uğurlar dünyanın alimləri arasında böyük maraq doğurmuşdur. Göstərilən bu uğurlarda muxtar respublikanın yerli kadrlarının da əməyi əvəzedilməzdir.

2002-ci ildən sonra Naxçıvan Muxtar Respublikasında elmin müxtəlif istiqamətlərdə daha da inkişaf etdirilməsi üçün ümummilli lider Heydər Əliyevin 07 avqust 2002-ci il tarixli fərmanına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və onun nəznində 6 Elmi Tədqiqat İnstitutlarının yaradılmasından sonrakı illəri əhatə edir. AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu təsis olunduğu gündən regionda öz iş planına uyğun olaraq, ətraf mühitin qorunması və bərpa olunması üçün yerli kadrlar hesabına müxtəlif istiqamətlərdə kompleks tədqiqatlara başlamışdır.

Bu dövr muxtar respublikada ətraf mühitin lazımi səviyyədə qorunması və bərpa olunmasında ən önəmli bir dönüş nöqtəsi olmuşdur. Bu tədqiqatlarda ətraf mühitin qorunması istiqamətində əsas ehtibarilə ərazinin torpaq, bitki və heyvanlar aləmi kompleks şəkildə öyrənilməyə başlanılmışdır.

Bu məqsədlə Naxçıvan Muxtar Respublikasında torpaqlardan maksimum dərəcədə səmərəli istifadə etmək üçün ilk öncə qeyd olunan tədqiqatlarla bərabər, əraziyə müəyyən olunmuş istiqamətlərdə 50-dən çox ekspedisiyaya gedilmişdir. Ekspedisiya müddətində seçilən sahələrin fiziki-coğrafi şəraiti, o cümlədən torpaq örtüyü strukturunun daha ətraflı öyrənilməsi üçün 100-ə yaxın torpaq kəsimi qoyulmuşdur.



Apardığımız tədqiqatlar əsasında torpaqəmələgəlmə prosesini nəzərə alaraq torpaqlar təbii zonalar üzrə 4 qrupda (yarımsəhra-friqanoid, çöl-dağ kserofit, dağ-meşə və subalp-alp) birləşdirilərək, torpaqların ayrı-ayrılıqda aşağıda tir və yarımtirlər haqqında müəyyən qədər məlumat verilir [1, s. 23-85; 2, s. 9-59; 3, s. 26-291; 6, s. 25-163 ].

**Yarımsəhra və friqanoid zonasının torpaqları.** Bu zonanın iqlimi öz quraqlığı ilə fərqlənir. Burada torpaqəmələgəlmə iki fazalı bioloji mərhələdə gedir. Fəal faza yaz və payız dövrlərini əhatə edir ki, bu dövrdə torpaqda humus toplanılması intensivləşir, torpaq daxili aşınma sürətlənir, gilli minerallar artır, dəmir birləşmələri çoxalır. İkinci fazada isti yay dövründə karbonatların torpaqda çökməsi artır, ellüvial karbonat qatı formalaşmaqda davam edir və aşınma prosesi nisbətən dayanır.

Bu zonada əsasən boz, boz-çəmən, boz-qonur, qəhvəyi (şabalıdı), bataqlıq-çəmən və şoran torpaqlar yayılmışdır.

**Boz torpaqlar.** Muxtar respublikanın düzənlik sahəsində boz torpaqlar geniş sahə tutur. Boz torpaqlar əmələgəlmə şəraitindən asılı olaraq narın torpaq qatının qalınlığına, süxurların xarakterinə, yuyulma dərəcəsinə, duzluluğuna görə ayrı-ayrı növ müxtəlifliklərinə ayrılır. Dağətəyi sahələrdə boz torpaqlar az da olsa eroziya proseslərinə məruz qalmışdır.

**Qədimdən suvarılan-boz torpaqlar.** Naxçıvan Muxtar Respublikasında boz torpaqların öyrənilməsinə fikir verilərək, onların yarım tipləri müəyyən olunmuş, hansı ki, müxtəlifliyi ilə digər tiplərdən fərqlənir. Orta Asiyada belə torpaqları (Rozanov, 1981) boz torpaqların yarım tipləri kimi təyin etmiş və qədimdən suvarılan çəmən boz torpaqlar arasında 2-ci yarım tip kimi ayırmışdır.

**Allüvial-boz torpaqlar.** Naxçıvan Muxtar Respublikasında boz torpaqlar arasında allüvial torpaq əmələgəlmədə allüvial-boz torpaqlar formalaşır. Tipik, belə torpaqlara Sədərək, Şərur düzündə, Arpaçay çayı və başqa çayların aşağı axarlarında rast gəlinir.

**Gəcli-boz torpaqlar.** Naxçıvan Muxtar Respublikasında boz torpaqlar arasında inkişaf etməmiş müxtəlifliyə rast gəlinir. Belə torpaqlar Sədərək, Şərur və Böyükdüz düzlərində rast gəlinir. İbtidai-boz torpaqları Xok kəndində İ.A. Çxenkeli və V.A. Ambokadze (1935) tərəfindən tədqiq edilmiş və açıq-boz torpaqlara aid olunmuşdur.

**Boz-qonur torpaqlar**. Bizim tədqiqatlar göstərir ki, boz-qonur torpaqlar regionda əsasən Şərur və Naxçıvan düzənliyinin mərkəz, şimal hissəsində formalaşmış və ayrı-ayrı ləkələr şəklində isə dağətəyi zonada müşahidə olunur. Bu torpaqlar şaquli zonallıq üzrə açıq-şabalıdı torpaqlardan aşağıda yayılmışdır.

**Açıq-qəhvəyi (şabalıdı) torpaqlar.** Bu torpaqlar muxtar respublikanın dağətəyi və düzənlik hissələrində qəhvəyi (şabalıdı) torpaqlardan aşağı

yayılmışdır. Bunların relyef şəraiti qəhvəyi torpaqlar yayıldığı sahələrə nisbətən az meyillidir. Bitki örtüyü əsasən efemerlərin hesabına formalaşır. Arazboyu maili düzənliyinin bəzi sahələrində açıq-qəhvəyi torpaq suvarılma normasının müxtəlifliyi müşahidə olunur.

**Qədimdən suvarılan açıq-qəhvəyi torpaqlar.** Bu torpaqların düzənlik hissələrdə hələ də münbitliyindən Maxta kəndinin təsərrüfatlarında istifadə olunur. Bu torpaqlar müxtəlif aqrotexnika və suvarma nəticəsində mədəni bitkilər altında istifadə olunur. Belə sahələrə ən çox Şərur rayonunda Maxta, Mahmudkənd, Yuxarı Daşarx, Dəmirçi, Kəngərli rayonunda Xıncab, Təzəkənd, Babək rayonunda Nehrəm, Payız və başqa kəndlərin ərazilərində rast gəlinir.

**Qəhvəyi (şabalıdı) torpaqlar.** Muxtar respublikanın ərazisində qəhvəyi (şabalıdı) torpaqlar hamar dağətəyi zonada və başlıca olaraq dağarası çökəkliklərdə yayılmışdır. Çox vaxt enli olmayan zolaq dağarası çökəkliklərdən yuxarı dağlıq istiqamətlərə doğru uzanır. Bu torpaqların əlverişli relyef şəraiti ilə əlaqədar qədimdən suvarma əkinçiliyi üçün istifadə olunur.

**Çəmən tipli torpaqlar.** Bu tipli torpaqlar əsasən muxtar respublika ərazisinin düzənlik, dağətəyi və dağarası çökəkliklərdə yayılmaqla, nisbətən rütubətlənmə və yeraltı suların səthə yaxın olan sahələrində formalaşmışdır. Bəzi hallarda bu torpaqlara orta dağlıq, yüksək dağlıq və çay sahillərinin hamar və meyilli sahələrində təsadüf olunur.

**Çəmən torpaqlar.** Regionun düzənlik hissədə çəmən torpaq çox sahəni tutur və bir sıra növmüxtəlifliklərinə (çəmən-boz, çəmən-allüvial, çəmən-şoran, çəmən-bataqlıq, karbonatlı və b.) bölünür. Bütün hallarda onların formalaşmasında səthə yaxın qrunt suları (çox vaxt 100-150 sm dərinlikdə) və səth suları iştirak edir. Kapliyarla yuxarı laya qalxaraq su çəmən bitkilərinin inkişafı üçün əlverişli şərait yaradır.

**Çəmən-boz torpaqlar.** Naxçıvan Muxtar Respublikasında boz torpaqlar yayılan rayonlarda çəmən-boz torpaqlar geniş yer tutur, profilin müxtəlif dərinliklərində rütubətin artması nəticəsində formalaşan köhnə torpaqların izi aşkar edilmir. Sonuncu subasar-delta şəraitində yerləşən torpaqlardır.

**Suvarılan boz-çəmən torpaqlar.** Şərur, Naxçıvan və digər düzlərdə çəmən torpaqlar ilkin əlamətləri saxlamaqla zəif çöl mərhələsinə keçməyə məruz qalır. Bu torpaqlar yayılan rayonlarda qrunt suları 2 m dərinlikdə yerləşir. Onların səviyyəsini suvarılan sular tamamlayır. Qeyd edilən torpaqlar morfoloji əlamətlərinə görə tipik-çəmən torpaqlara yaxındır. Burada bitki örtüyündə çəmən ot qrupu vacib rol oynayır və boz torpaqlar üçün xarakterikdir.

**Bataqlıq torpaqlar.** Bataqlıq torpaqlar relyef formalarının çökəklik və alçaq hissələrində olan axmaz sahələrdə artıq rütubətlənmə şəraitində



əmələ gəlir. Bataqlıq torpaqların meydana çıxması və inkişafı artıq miqdarda rütubətlənmə ilə əlaqədardır.

**Çəmən-bataqlıq torpaqlar.** Bu torpaqlar muxtar respublikada əsasən çay deltalarının çökəkliklərində, alçaq çay terraslarında artıq rütubətlənmə şəraitində çəmənəbənzər bitkilər altında əmələ gəlir və geniş sahəni tutur. Çəmən-bataqlıq torpaqlar yayılan sahələrdə qrunt suyunun səviyyəsi səthə yaxın olmaqla (0,50-0,70 sm), quraq dövrlərdə nisbətən aşağı qatlara yenir (1,0-1,5 m).

**Şoran torpaqlar.** Muxtar respublikanın ərazisində şoran torpaqlar əsasən Arazboyu sahələrdə, Duzdağ ətrafında və keyfiyyətsiz tikilmiş su obyektlərinin kənarlarında müşahidə olunur. Şoranların əmələgəlməsi şorlaşmış qrunt sularının səthə yaxınlığı, buxarlanmanın yağıntılara nisbətən üstünlüyü ilə əlaqədar yaranır. Şoranlar üçün yüksək qələvilik və udma tutumunda maqnezium 50%, natriumun isə 20% olması səciyyəvidir.

**Çəmən-şoran torpaqlar.** Regionun düzənlik hissəsində çəmən torpaqlar arasında müxtəlif dərəcəli duzlaşmaya rast gəlinir. Onların laylarda maksimal duz saxlaması müxtəlif dərinliklərdə qeyd edilir. Ən çox da 25-30 sm dərinlikdə qeyd edilir. Bu tip torpaqlar düzənliklərin alçaq və digər şəraitdən fərqli olan rütubətin artıq olduğu yerlərdə formalaşır.

**Allüvial-çəmən torpaqlar.** Belə torpaqlar 100-150 sm dərinlikdə qrunt suları yerləşən Araz çayının vadisində qeyd edilir. Çəmən tipli torpaq əmələgəlmədə Arazla və b. çaylarla gətirilən allüvial çöküntülər aydın görünür. Bütün profil üzrə xüsusən də aşağı 0,5 metr qalınlıqda sarımtıl və tünd göy ləkələr aydın müşahidə edilir. Arazın bol sulu axarında ayrı-ayrı qatların mexaniki tərkibinin qumlu olması allüvial çöküntü üçün tipik əlamətdir.

**Allüvial çəmən-meşə torpaqlar.** Bu torpaqlar Araz çayının və onun qollarının yataqlarında səth və qrunt sularının təsirilə rütubətlənmə şəraitində formalaşmışdır. Torpaqəmələgəlmə çəmən və kol bitkilərinin təsiri altında gedir. Qalın çim qatı, mexaniki tərkibin müxtəlifliyi və təbəqələşmiş qatların olması ilə səciyyəvidir.

**Çöl və dağ kserofit zonasının torpaqları.** Əvvəldə qeyd etdiyimiz kimi torpaqəmələgəlmə prosesində dağlıq zonanın torpaqları kəskin surətdə düzənlik zonasından fərqlənir. Dağlarda relyefin kəskin parçalanması səthi axımın sürətlənməsi denudasiya proseslərinin yüksək dərəcədə inkişafına şərait yaradır.

**Açıq dağ-qəhvəyi (şabalıdı) torpaqlar.** Bu torpaqlar düzənlik zonanın qəhvəyi torpaqlarından şimal hissədə orta yüksəkli dağların (Ardıc, Nəhəcir, Ashabi-kəhf, Darıdağ və b.) sənub və şərq yamaclarında yayılmışdır.

**Dağ-qəhvəyi torpaqlar.** Ərazidə dağ-qəhvəyi torpaqlar orta dağlıq zonasında yayılan açıq-qəhvəyi torpaqlardan yuxarıda yayılmışdı.

Onların əsas tipik hissələri relyefin hamar hissələrində, səthi az meyilli yamaclarda inkişaf etmiş və burada əsasən dənli bitkilər əkilir. Şumlanmış sahələrin müxtəlifliyindən asılı olaraq kök sistemlərindən məhrum olan ot bitkiləri olan sahələr yuyulmaya məruz qalmışdır. Bu torpaqlar açıq rəngə və yüngül mexaniki tərkibə malikdir. Tipik dağ-qəhvəyi torpaqları maili yamaclarda tünd boz rəngdə olub, düzən sahələrdə isə yuxarı qatlarda qonur rəngdə olur. Relyefin çökək sahələrində 10-20 sm dən aşağıda rəng tündləşir və aşağıya doğru sarımtıl boz torpaqəmələgətirən süxurların rəngində olur.

**Dağ-qəhvəyi (şabalıdı) şumlanan torpaqlar.** Orta dağlıq zonanın aşağı zolağında xususilə Zəngəzur silsiləsinin cənub-mikro yamaclarında əlverişli relyef şəraitində şumlanan dağ-qəhvəyi torpaqları dənli bitkilərin əkilməsi üçün istifadə olunur.

Burada əkilən sahələr azdır, nisbətən düz relyef formaları və ya az meyilli yamacları əhatə edən torpaqlar hətta yay dövründə belə normal rütubətli şəraitdə olur. Hələ mənimsənilməmiş ayrı-ayrı sahələrdə təbii çəmən-çöl bitkiləri yaxşı inkişaf etmiş və torpaqların genetik qatları yaxşı aydın görünür. Üst qatların şumlanması nəticəsində çim qatı məhv edilir, yuyulma artır, aşağıda yerləşən az humuslu qatlar yerin səthinə çıxır.

**Dağ-qara torpaqları.** Muxtar respublikada talalar şəkilində, əksərən dağ-çəmən çöl torpaqları ilə birlikdə və ayrı-ayrı sahələrdə yayılmışdır. Tipik nümunəsi Badamlı, Keçili kəndləri ətrafındakı düzənliklərdə və Bərdik-Yarpaqlı dağarası çökəkliklərində yayılmışdır.

Apardığımız tədqiqatlar əsasında müəyyən olmuşdur ki, bu torpaqların rəngi qaramtıl, strukturası dənəvər, humus qatı xeyli qalın, skeletli, mexaniki tərkibi isə ağır gilli və ağır gillicəlidir. Dağ-qara torpaqları üzvü maddələrlə zəngin olub, humusun miqdarı 5-7%-ə çatır.

**Dağ-meşə zonasının torpaqları.** Muxtar respublika ərazisində meşə torpaqları orta, aşağı dağlıq və çay sahillərində (600-2000) yayılmışdır. Dağ meşə zonası bitki örtüyünün geobotaniki tərkibindən, bioiqlim xüsusiyyətlərindən və rütubətlənmə şəraitindən asılı olaraq 2 yarımzonaya ayrılır.1. Mezofit meşələr; 2. Kserofit seyrək meşələr.

Mezofit meşələr altında yüksək rütubətlənmə şəraitində əsasən qonur torpaqlar, seyrək, nisbətən quraq meşələr altında isə qəhvəyi torpaqlar əmələ gəlmişdir. Bioiqlim və torpaqəmələgətirən amillərin müxtəlifliyi nəticəsində meşə zonasında müxtəlif tip və yarımtip torpaqlar əmələ gəlmişdir. Burada dağ meşə-qəhvəyi, dağ meşə-çəmən, dağ çəmən-meşə torpaqları formalaşmışdır. Meşə zonasının üst sərhədində 2000-2100 metrdə ensiz zolaq şəkilində dağ meşə-çəmən torpaqları yayılmışdır.

**Dağ meşə-qəhıəyi torpaqlar.** Naxçıvan Muxtar Respublikasının ərazisində bu torpaqlar 2000 metrdən yüksəklikdə quraqlıq olan sahələrdə



yerləşərək, digər dağlıq vilayətlərin şəraitindən fərqlənir. Belə güman edilir ki, burada keçmişdə meşələr geniş əraziləri tutmuşdur.

Burada bütün dağ-meşə torpaqlarının profilində illüvial karbonatlı qatlar vardır. Beləliklə, torpaq qatı çox qalın, tipik dağ meşə-qəhvəyi torpaqlar regionun şimal və şimal-qərb yamaclarında dağ-çəmən zonasından aşağıda yayılmışdır. Hazırda burada meşə massivləri bütün zonanı təşkil etmir.

Muxtar respublikada Şahbuz rayonu ilə yanaşı Culfa rayonunun dağlıq hissəsində relyefin düzənlik sahələrində meşə və ot bitkiləri qrupları altında tam inkişaf etməmiş dağ-meşə qəhvəyi torpaqları formalaşmışdır. Bunların əvvəlki zonadan fərqli cəhəti, profilin qalın olmaması və genetik qatın zəif inkişaf etməsidir. Ümumiyyətlə rəngi əsasən qəhvəyi, yarım metrdən sonra süxurların aşınma materiallarının hesabına qonur sarı rəngə keçir. Qozvarı struktura zəif və çox yerdə kəsəkli strukturaya malikdir. Bərkdir, bərkvaridir, bütün profil boyu tipik qatlarla müqayisədə çox quru vəziyyətdədir. Tam inkişaf etməmiş dağ meşə-qəhvəyi torpaqlar əsasən üst qatlarda orta və ağır gillicəlidir. B qatında mexaniki tərkibin ağırlaşması müşahidə olunur ki, burada alt və üst qatlardakı fiziki gilin miqdarının fərqi 8% təşkil edir.

**Dağ çəmən-meşə torpaqlar.** Biçənək meşəsindən Batabat gölünə qalxdıqca meşə bitkiləri azalaraq, çəmən-meşə bitkiləri isə artır. Onlar əsasən Zəngəzur silsiləsinin cənub və cənub-qərb yamaclarında talalar şəklində və ayrı-ayrı sututar dərələrdə geniş yayılmışdır.

Adətən belə bitkilər dağ-çəmən zonaları ilə meşə massivləri arasında sərhəd zolağını təşkil edir. Müsbət relyef formalarında meşə bitkiləri az-çox dərəcədə örtüldüyü yerlərdə torpaqəmələgəlmə prosesi nisbətən yüksək rütubətli şəraitdə gedir. Dağ çəmən-meşə torpaqlarının genetik qatları dağ-çəmən çöl və hətta dağ çəmən-çimli torpaqlardan çox aydın surətdə seçilir.

**Dağ meşə-çəmən torpaqlar.** Meşələrin yuxarı sahələrində 2100-2200 m hündürlüyündə parçalanmış relyef şəraitində yayılmışdır.

Dağ-meşə çəmən torpaqlarının yayıldığı bütün landşaft elementlərində meşə-çəmən qurşağına keçid xüsusiyyətləri aydın görünür, əyri meşə ağacları, bəzən də hündür ot örtüyünə malik talalarla növbələşən meşələrlə təmsil olunur. Meşə-çəmən torpaqları muxtar respublikada məhdud sahələrdə Dərələyəz və Zəngəzur silsilələrinin cənub-qərb-şərq yamaclarında yayılmışdır. Torpaqəmələgətirən süxurlar ellüvi və dellüvidən ibarətdir.

**Subalp və alp zonanın torpaqları.** Muxtar respublika ərazisində subalp və alp zonasının torpaqları dəniz səviyyəsindən 2400-3600 metrə qədər olan sahələri əhatə etməklə, burada əsasən dağ çəmən-çimli, zəif torflu çınqıllı dağ-çəmən, çimli-torflu dağ-çəmən, qaramtıl dağ-çəmən, dağ-çəmən, dağ-çəmən bozqır və ibtidai dağ-çəmən torpaqları yayılmışdır.

**Dağ-çəmən çimli.** Yüksək dağlıq zonanın tipik torpaq növüdür. Subalp qurşağın geniş ərazisini əhatə edərək, dəniz səviyyəsindən 2600-3000 metrə qədər yüksək sahələri əhatə edir.

Torpağı rütubətli sahədə talalar şəklində subalp tipli çəmənlər və müəyyən sahədə torf qabıqları əmələ gəlir. Yaxşı inkişaf etmiş kök sisteminə malik olan zəngin müxtəlif dənli bitkilər və nisbətən yumşaq iqlim narın çim qatın inkişafına malikdir, bu da dağ çəmən-çimli torpaqların morfoloji quruluşunun xarakterik xüsusiyyətindən biridir. Daşlı-çınqıllı yamaclarda narın torpaqlarda kəklikotlu-gəvən-topal otlu bozqırla geniş sahəni əhatə edir. Torpağı rütubətli sahədə talalar şəklində subalp tipli çəmənlər və müəyyən sahədə torf qabıqları əmələ gəlir.

**Zəif torflu çınqıllı dağ-çəmən torpaqlar.** Öz inkişafını yuxarı alp qurşağında tapmış və suayrıcı yamaclarının yuxarı hissələrində yayılmışdır. Səthin böyük bir hissəsi çınqıl və qırıntılardan ibarət aşınma məhsulları ilə örtülmüşdür. Bu materialların üzərində ibtidai dağ-çəmən torpaqları inkişaf edir.

**Dağ-çəmən torpaqlar.** Naxçıvan Muxtar Respublikasının yüksək dağlıq zonasında 2350-3000 metrədək olan sahədə subalp və alp zonasına rast gəlinir. Alp zonası bitkilərinin isə boyları qısa olur. Çünki onlara nəmli və soyuq yamaclarda rast gəlinir (alp xalıları, alp çəmənləri). Onlar yüksək dağlıq zonanın geniş ərazilərini əhatə edir. Yayıldığı ərazilər Küküdağ, Qapıcıq, Batabat gölü ətrafında çox nəmli alçaq çökəkliklərdə, nəmli və soyuq yamaclarda rast gəlinir.

**Dağ-çəmən bozqır torpaqlar.** Dəniz səviyyəsinin 2400-3000 metr arasındakı subalp və alp zonaları yayılmışdır. Bu torpaq yüksək dağlıq zonanın xeyli quraq, yüksək drenajlı, əsməyə və səthi axıma malik olan rayonlarını əhatə edir. Onlar Dərələyəz dağlarının şərq, Zəngəzur silsiləsində orta və cənub-qərb hissələrində yayılmışdır. Bu rayonların iqlim şəraiti bir qədər quraq keçməsi ilə xarekterizə olunur və burada orta illik temperatur 1,0-3,5$^0$ C, orta illik yağıntı 475-550 mm, nəmlənmə əmsalı 0,7-1,0 arasında dəyişir.

**Dağ tundra torpaqlar.** Muxtar respublikanın yüksək dağlıq zonası dəniz səviyyəsindən 2400-2500 metrdən 3500-3600 metrə qədər yüksəklikdə yerləşir. Yüksək dağlıq landşaftının ümumi sahəsi 990 km$^2$ olub, bu da muxtar respublika ərazisinin 18%-ni təşkil edir.



Geomorfoloji cəhətdən zona Dərələyəz və Zəngəzur silsilələrinin yüksək hissələrini əhatə edir. Yüksək dağlıq zona üçün zirvələrdən ara-sıra yaxşı saxlanmış buzlaq relyef formalarına rast gəlinir.

Burada həm də kobud aşınma materialları və kiçik gətirmə konusları yayılmışdır. Buzlaq relyef formaları əsasən Zəngəzur silsiləsində az-az da olsa Dərələyiz silsiləsində Küküdağ, Keçəldağ, Ağdaban dağlarının şimal yamaclarında buzlaq relyef formalarına da rast gəlinir.

Torpaqəmələgəlmə prosesi yuyulma su rejimi, istilik çatışmamazlığı və yüksək nəmlik şəraitində gedir. Ekoloji şəraitin bu xüsusiyyəti mikrofloranın kasıblığına və alçaqboylu ot örtüyünün əmələ gəlməsinə səbəb olur.

Tədqiqat işində torpaqların rənginə təsir göstərən kimyəvi birləşmələrə də diqqət yetirilmişdir [5, s. 113-157]. Torpaqda dəmir üç hidroksid birləşmələri ($Fe_2O_3nH_2O$) olduqda qırmızı rəng əmələ gəlir. Dəmir üç hidroksidin miqdarı dəyişildikdə torpağın rəngi də dəyişir. Qırmızı, pas, qırmızı qonur rənglər də olur. Torpaqda dəmir üç hidroksidin miqdarı çox azaldıqda, onun rəngi sarı, yaxud narıncı rəngdə olur. Silisium ($SiO_2$), alüminium hidroksid ($Al_2O_3nH_2O$), kaolin ($H_2Al_2Si_2O_8H_2O$), kalsium karbonat ($CaCO_3$), bu maddələr hər hansı birinin torpağın tərkibində onun miqdarının az və yaxud çox olması nəticəsində torpaq ağ rəngə çalır. Torpaqda rütubət çox olub, havanın miqdarı az olduqda ikivalentli dəmir ($FeOnH_2O$) brləşmələri əmələ gəlir ki, bunun da təsiri ilə torpaqda sürmə rəngi əmələ gəlir. Sürmə rəngli torpaq qatlarına qleyli (qleyləşmiş) qat adı verilmişdir.

Beləliklə, ərazinin təbii zonaları üzrə apardığımız tədqiqatlar əsasında torpaqların aqroekoloji, fiziki, kimyəvi və morfoloji xüsusiyyətləri təhlil olunaraq relyef xüsusiyyətləri nəzərə alınmaqla, müasir tələblərə cavab verən Naxçıvan Muxtar Respublikasının 1:150 000 miqyasında yeni torpaq xəritəsi çəkilmişdir.

Nəticədə müasir tələblərə cavab verən tərtib olunmuş yeni xəritə əsasında torpaq istifadəçiləri (fermer və şəxsi təsərrüfatlar) ərazidə torpaqlardan dəqiq, dolğun və kompleks şəkildə səmərəli istifadə etmək üçün şərait yaradır. Bu da Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına, xüsusilə aqrar sektorun inkişafına böyük təsir göstərir.

## ƏDƏBİYYAT

1. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 226 s.
2. Hacıyev S.Ə. Naxçıvan Muxtar Respublikası torpaqlarının eko-coğrafi şəraiti. Bakı: MBM, 2009, 108 s.
3. Hacıyev S.Ə. Naxçıvan Muxtar Respublikasında torpaqların aqroekologiyası. Metodik vəsait. Bakı: Elm, 2000, 40 s.
4. Məmmədov Q.Ş. Azərbaycanda torpaq islahatı. Bakı: Elm, 2002, 411s.
5. Şəfibəyov Ə.B. Torpaq və bitkilərin analiz üsulları. Bakı: Azərnəşr, 1964, 204 s.
6. Алиев Г.А., Зейналов А.К. Почвы Нахичеванской АССР. Баку: Азернешр, 1998, 235 с.



**Varis Quliyev**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: varisquliyev@mail.ru

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AQRAR SEKTORUN DİNAMİK İNKİŞAFI

Müasir dövrdə Naxçıvan Muxtar Respublikasının son 20 ildə dinamik inkişafı sosial ədalətə söykənən mükəmməl demoktarik idarəetmə sistemi, əhalinun intellektual səviyyəsinin artması, müasir elmi biliklərə, texnologiyaya, makroiqtisadi sabitliyə, yüksək ərzaq istehsalı və ehtiyatına malik olması, həmçinin əmək və sosial xidmətlərin insanların tələbatına uyğun uzlaşdırılması və s. əhalinin daim yüksələn həyat tərzi ilə müşayət olunur. Muxtar respublikada çoxşaxəli dinamik inkişaf, makroiqtisadi və siyasi-iqtisadi sabitlik, əhalinin etibarlı ərzaq təminatı, sosial dayanıqlığın başlıca meyarıdır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyev tərəfindən dövlət quruculuğunun və inkişafının elə bir modeli yaradılmışdır ki, bu siyasət qısa tarixi dövr ərzində inkişaf etmiş dövlətlər sırasına daxil olmaq istiqamətini götürmüşdür. Azərbaycan Respublikasında ayrı-ayrı regionların inkişafına dair qəbul edilən Dövlət Proqramları məhz bu amala xidmət edən mühüm dövlət sənədləridir. Belə bir yüksəlişi isə regionların iqtisadi və sosial inkişafı şərtləndirməkdədir. Buna müvafiq olaraq son 20 ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət Proqramları qəbul olunmuşdur. Qəbul olunmuş "Dövlət Proqramları"nda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı daim diqqət mərkəzində olmuşdur.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubleyinə həsr olunmuş təntənəli çıxışında Azərbaycan Respublikasının Prezidenti görülən işlərə yekun vuraraq demişdir: "Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülmüşdür. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır".

Öz tarixi ənənələri və coğrafi mövqeyi ilə daim diqqəti cəlb edən Naxçıvan Muxtar Respublikasının rəhbərliyi dövlətçilik ənənələrini müasir dövrün tələbatına uyğun inkişaf etdirərək regiondakı təbii və əmək ehtiyatlarından səmərəli istifadə olunmaqla, ardıcıl olaraq Azərbaycan Respublikasının sürətli inkişafına xidmət edir. Belə ki, 1995-ci ildə Naxçıvan Müxtar Respublikasında Ümumi Daxili Məhsul 43721,7 manat, 2000-ci ildə 84862,4 manat, 2005-ci ildə 305796,5 manat, 2010-cu ildə 1171305,7 manat, 2014-cü ildə bu rəqəm 2013-cü illə müqayisədə 1.3 faiz

artaraq 2 milyon 388 milyon manatdan çox olmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikasında istehsal olunan sənaye məhsulunun 93 faizi emal müəssisələrinin payına düşür. 2014-cü ildə 2013-cü ilə nisbətən 6 faiz çox, yəni 255 milyon manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. 2015-ci ilin yanvar-iyul aylarında 2014-cü ilin müvafik dövrünə nisbətən 9.4% çox, yəni 110 milyon 870 min manat həcmində kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. 2015-ci ilin ötən dövrü ərzində 38 milyon 563 min ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur. Cari ildə kənd təsərrüfatı sübyektlərinə ümumilikdə 10661,3 min manat məbləğində kreditlər verilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 26,9 faiz çoxdur [2].

Azərbaycan Prezidentinin sərəncamı ilə 2015-ci il Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan edilmişdir. Sərəncama uyğun olaraq ölkənin aqrar sektorunda mühüm dövlət tədbirlərinin həyata keçirilməsinə start verilmişdir. Naxçıvan Muxtar Respublikasında da sərəncamdan irəli gələn əsas işlərin yerinə yetirilməsində əsas məqsəd regionda aqrar sektorun infrastrukturunun dünya standartları tələblərinə uyğun uzlaşdırılması, yeni texnologiyanın tədbiqinin genişləndirilməsi və modernləşdirilmənin sürətləndirilməsi, torpaq - iqlim şəraitinə görə aqrar sektorun müxtəlif aparıcı sahələri üzrə regionların ixtisaslaşdırılması, rayonlarda dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunmaqla çoxsaxəli istehsalçı - emal sənayesi - son məhsulun satışı kimi prioritet sahələrin gələcək inkişafını təmin edən müasir aqroparkların baza əsasının yaradılmasıdır. Blokada vəziyyətində olan muxtar respublikada kənd təsərrüfatı əhalini ərzaq məhsulları və emal sənayesini xammalla təmin etdiyindən regionda mühüm iqtisadi, sosial, siyasi əhəmiyyət kəsb etməklə, əhalinin əsas məşğulluq sahələrindəndir. Regionda əhalinin məşğulluğunun artması dövlət siyasətinin mühüm tərkib hissəsidir. Buna müvafiq olaraq 2014-cü ildə muxtar respublikada 3523 yeni iş yerləri acılmış, əmək bazarında tələb və təkliflərə uyğun mühüm tədbirlər həyata keçirilmişdir [3].

Bölgədə çoxlu sayda müasir tələblərə uyğun gələn sənaye müəssisələri yaradılsada, muxtar respublikanın coğrafi mövqeyi aqrar bölmənin inkişafına çox uyğun gəldiyindən bu sahəyə daha çox diqqət yetirilir. Aqrar islahatların nəticəsi kimi kənd təsərrüfatında tələbata uyğun strateji istiqamətlərin dəqiq müəyyənləşdirilməsi, meyvəçilik və tərəvəzçilik sahəsində dünya standartlarına cavab verə biləcək ilkin emal və istehsal müəssisələrinin yaradılması, yerli istehsalın artırılması ilə onların idxalının tədricən azaldılması və digər problemlərin həlli üçün uzunmüddətli proqramların hazırlanmasına ciddi ehtiyac duyulduğu bir vaxtda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci ildə



"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və 8 fevral 2016-cı ildə "2016-2020-ci illərdə "Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqındakı sərəncamı hazırkı dövrdə əhalinin artan tələbatına uyğun olaraq meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişafı üçün qəbul edilmiş mühüm dövlət sənəti olmuşdur. Bu sərəncamla muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafında yeni bir mərhələnin əsası qoyulmuşdur. Bu Dövlət Proqramında muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını stimullaşdırmaq, 2015-ci ildə ümumi meyvə istehsalının 45 min tona çatdırılmasını bir vəzifə olaraq qarşıya qoymuşdur. Bu sərəncama müvafiq olaraq muxtar respublikada aqrar sektorunda meliorasiya və irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, istixana komplekslərinin, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının inkişafına əlverişli şərait yaratmışdır. Nəticədə, yeni meyvə bağları salınmış, tərəvəz əkini sahələri genişləndirilmişdir. Statistikaya nəzər salsaq görərik ki, muxtar respublikada 1995-ci ildə meyvə və giləmeyvə üzrə əkin sahəsi 1103 hektar, ümumi məhsul yığımı 214 ton, məhsuldarlıq bir hektardan 2,8 sentner, 2000-ci ildə əkin sahəsi 2243 hektar, ümumi məhsul yığımı 28444 ton, məhsuldarlıq bir hektardan 141,8 sentner, 2010-cu ildə əkin sahəsi 3956,2 hektar, ümumi məhsul yığımı 2899,6 ton, məhsuldarlıq bir hektardan 131,9 sentner, 2013-cü ildə isə əkin sahəsi 4327,6 hektar, ümumi məhsul yığımı daha çox, 43276,2 ton, məhsuldarlıq bir hektardan 135,4 sentner olmuşdur. 2014-cü ildə 95 milyon ABŞ dollarından çox kənd təsərrüfatı məhsulları, xüsusilə meyvə və tərəvəz məhsulları xarici bazarlara çıxarılmışdır. 2015-ci ilin altı ayı ərzində muxtar respublikada meyvə istehsalının həcmi bir il öncəsi göstəriciyə nisbətən 0,3 faiz, tərəvəz istehsalı isə 2,1 faiz artmışdır. 2012-2015-ci illərdə muxtar respublikada 751 hektar ərazidə 660 minə yaxın meyvə yingi əkilmişdir. 2016-2020-ci illərdə meyvə, tərəvəz və üzüm istehsalının artırılması davam etdiriləcəkdir. Bu illərdə meyvə istehsalı həcminin 62 min tona, üzüm istehsalını isə 30 min tona çatdırılması nəzərdə tutulmuşdur.

Qeyd edək ki, muxtar respublikada iqtisadiyatın bütün sahələri üzrə sürətli inkişafı təmin olunmaqla aqrar sektorun dinamik inkişafı üçün son 20 ildə mühüm infrastrukturlar yaradılmışdır. Belə ki, ən ucqar yaşayış yerlərinə müasir tələbata cavab verən yollar çəkilmiş, kəndlərdə müasir tələblərə cavab verən inzibati binalar, yeni məktəblər tikilərək istifadəyə verilmiş, kəndlərin su təhcizatı yaxşılaşdırılmışdır. Kənd yerlərində heyvandarlıq genişləndirilmiş, meyvə, tərəvəz məhsullarının istehsali artırılmış, taxılçılıq artan dinamika üzrə inkişaf etdirilmişdir. Hazırda muxtar respublikada istehsal olunan sənaye məhsulunun 93 faizi emal sənayesinin

payına düşür. Bu isə emal müəssisələrinin xammal təhcizatında mühüm rola malik olan kənd təsərrüfatının əhəmiyyətini xeyli artırmaqla 2014-cü ildə müxtar respublikada ötən illə müqayisıdə 6 faiz çox, kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Strateji əhəmiyyətli taxılçılıq kənd təsərrüfatının aparıcı sahəsi kimi diqqətdə saxlanılmaqla keçən il 35 min 750 hektar sahədən 103 min 70 ton məhsul toplanılmışdır. Hər il olduğu kimi kartofçuluğun da inkişafı qayğısana qalınmış, 2962 hektar sahədə əkin aparılmaqla 41 min 406 ton məhsul tədarük edilmişdir. 2014-cü ildə sahələrdən 66 min 731 ton tərəvəz, 36 min ton meyvə toplanılmışdır. Ötən il muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalçılarına 4 milyon 920 min manat yardım və subsidiyalar ödənilmişdir. Bütün bunlar aqrar sektorun dinamik inkişafı təmin etməklə 2014-cü ildə kənd təsərrüfatı üzrə ümumi məhsulun dəyəri 355 milyon 157 min manat olmuşdur.

Naxçıvan Muxtar Respublikasında kənd yerlərində meyvəçilik və tərəvəzçilik əhalinin əsas məşğulluq sahələrindəndir. Regionda torpaq-iqlim şəraiti müxtəlif giləmeyvə, meyvə ağaclarının tez böyüməsi, inkişafı, bol və yüksək keyfiyyətli məhsul verməsi üçün olduqca əlverişlidir. Düzən, dağətəyi və dağlıq ərazilərdə alma, armud, ərik, şaftalı, gavalı, alça, badam, üzüm, qoz və s. meyvə bağlarının salınması üçün əlverişli ekoloji mühit mövcuddur. Tarixən bu ərazidə müxtəlif genetik xüsusiyyətləri ilə fərqlənən meyvə, tərəvəz və üzümün zəngin genofondu yaradılmışdır. Regionda 100-dən çox meyvə sortları, 150-dən çox üzümün sort və formalarından ibarət meyvə və üzüm kolleksiya bağı salınmışdır [5]. Kolleksiya bağında bu bitkilər qorunub artırılmaqla üzərində elmi-tədqiqat işləri aparılmış aqrobioloji, biomorfoloji, morfogenetik və biokimyəvi xüsusiyyətləri öyrənilmişdir. Bu genofonddan istifadə edərək düzən, dağətəyi və dağlıq ərazilərdə müxtəlif vaxtlarda yetişən ayrı-ayrı tumlu, çəyirdəkli, qoz və giləmeyvələrin aborigen sortlarından ibarət plantasiyalarının salınması, ilkin mərhələdə bioloji və fitosanitar baxımdan təmiz, yüksək məhsuldar, meyvəçiliyin davamlı olaraq inkişaf etdirilməsi, keyfiyyətli və ucuz başa gələn yerli sortların əldə edilməsi, rengionumuzun təbii iqlim şəraitinə uyğun meyvə tinglərinin yetişdirilməsi məqsədilə meyvə-tingçilik təsərrüfatının yaradılması zərurətini ortaya qoymuşdur. Muxtar respublikada 2015-ci ildə meyvə istehsalı həcminin 45-50 min, strateji əhəmiyyətli kartof istehsalının 45 min, pomidor istehsalının 125 sentner/hektara, soğan istehsalında məhsuldarlığın 130 sentner/hektara, sarımsaq istehsalının 90 sentner/hektara, yerkökü istehsalının 90 sentner/hektara yüksəldilməsi, müxtar respublikada əhalinin maddi-rifah halının yüksəldilməsində və yeni iş yerləri ilə təmin olunmasında mühüm rolu olacaqdır [4, 6, 7].

Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində və ərzaq təminatının yaxşılaşdırılmasında dövlət ehtiyatlarının yaradılmasında anbar və saxlama



kameralarının yaradılması strateji əhəmiyyət kəsb edir. Buna müvafiq olaraq muxtar respublikada 2004-2014-cü illərdə ümumi tutumu 12 min 250 ton olan soyuducu anbarlar, tutumu 27 min ton olan uzunmüddətli və 43 min 400 ton olan qısamüddətli taxıl ehtiyatı anbarları, 17 taxıl emalı müəssisəsi, 222 heyvandarlıq, 64 quşçuluq, 94 arıçılıq, 12 balıqçılıq, 68 bağçılıq və üzümçülük təsərrüfatı istifadəyə verilmişdir. 2015-ci ilin birinci yarımilində 4 istixana təsərrüfatı yaradılmışdır. Hazirda muxtar respublikada ildə 352 növdə məhsul istehsal olunur və 336 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilməkdədir. Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın genişləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Bu ilin birinci yarısında bu sahəyə 8313,8 min manat kredit verilmişdir. 2015-ci il yanvar-iyul aylarında muxtar respublikada diri çəkidə 11115,7 ton ət, 46304,8 ton süd istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq göstəricisinə nisbətən 5,9 və 1,2 faiz yüksəkdir.

Azərbaycan Prezidentinin 2014-cü il 16 yanvar tarixli "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamında Kənd Təsərrüfatı Nazirliyinə fermerlərə informasiya-məsləhət xidmətinin səmərəli təşkili sahəsində müvafiq tədbirlər görülməsi barədə tapşırıqlar verilmişdir. Aqrar sektorun müasir tələblərə cavab verəcək sürətli inkişafı informasiya-məsləhət xidmətlərinin fəaliyyətindən daha çox asılıdır. Bu istiqamətdə muxtar respublikada lazımi tədbirlər həyata keçirilir, fermerlərə ən müxtəlif informasiya-məsləhət xidmətləri göstərilir. Müasir dövrdə Azərbaycan Respublikasında kənd təsərrüfatı üzrə hər bir rayonda ixtisaslaşmanın aparılmalması, belə məhsullarla eyni zamanda Dünya Ticarət Təşkilatına üzvlüyə hazır olmaq və rəqabətədavamlı məhsulların beynəlxalq bazarlara çıxarılması üçün strateji istiqamət müəyyənləşdirilmişdir. Buna müvafiq olaraq ölkə Prezidenti tərəfindən kənd təsərrüfatının innovativ üsullarla inkişaf etdirilməsi və ixrac potensialımızın çoxşaxəli olması barədə tapşırıqlar vermişdir.

Muxtar respublikada da aqrar sektorun daim yeniləşməsi, kənd təsərrüfatı məhsullarının becərilməsinin, istehsalının və emalının innovatlv üsullar əsasında təşkili müasir dövrün tələbidir. Muxtar respublikada əsas kənd təsərrüfatı məhsulların istehsalı üzrə bölgələrin ixtisaslaşması daha çox işçi qüvvəsindən səmərəli istifadə olunmasına şərait yaradar, müxtəlif yerli kənd təsərrüfatı məhsullarının xaricə ixrac edilməsinə zəmin yaratmış olar. Kənd təsərrüfatı üzrə kadr hazırlağı, bitki və heyvan mənşəli məhsulların istehsalında ixtisaslaşmanın aparılması ilə paralel olaraq muxtar respublikada da dünyanın qabaqcıl ölkələrində olduğu kimi müvafiq kooperativlərin və digər iri təsərrüfatların təşkili, aqroparkların və çoxşaxəli

klasterlərin yaradılması aqrar sektorun daha da sürətli inkişafına xidmət etmiş olar.

Hazırda muxtar respublikada daha müasir idarəemə sisteminə malik olan təsərrüfat formalarının yaradılması üçün siyasi iradə nümayiş etdirilir. Qeyd edək ki, bu istiqamətdə muxtar respublikada bir sıra tədbirlər həyata keçirilmişdir. 2014-cü il fevralın 9-da ilin yekunları və qarşıda duran vəzifələrə dair Naxçıvan Biznes Mərkəzində keçirilən müşavirədə Ali Məclisin Sədri demişdir: "2015-ci il "Kənd təsərrüfatı ili" elan olunmuşdur. Əhalinin ərzaq məhsulları ilə təmin olunması, emal müəssisələrinin xammal təchizatındakı rolu, eləcə də əhalinin əksər hissəsinin kəndlərdə məskunlaşması və aqrar sektorda çalışması nəzərə alınaraq kənd təsərrüfatının inkişafı hər zaman diqqət mərkəzində saxlanılmışdır. Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən edilmişdir. Bununla yanaşı, müvafiq qurumlar da kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün məhsul istehsalçılarına yaxından köməklik göstərməli və mütəxəssis məsləhətləri verməlidirlər. Əkinə yararlı torpaq sahələrindən səmərəli istifadə etmək üçün Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları bitkiçilik məhsullarının rayonlar üzrə yerli şəraitə uyğun əkilməsi, növbəli əkin sisteminin tətbiqi və torpaqların münbitliyinin artırılması ilə əlaqədar yerlərdə mütəmadi olaraq maarifləndirici tədbirlər təşkil etməlidirlər. Sənayedə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların tətbiqi təşviq edilməlidir. Yeni texnologiyaların, suvarma və əkin üsullarının, qabaqcıl təcrübənin kənd təsərrüfatında tətbiqinə diqqət göstərilməli, keyfiyyətli toxum sortlarından istifadə olunmalı, ümumi daxili məhsul istehsalında kənd təsərrüfatının payı artırılmalıdır" [1].

Regionda aqrar sektorun inkişaf etdirilməsi istiqamətləri "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı"nda da öz əksini tapmışdır. "Dövlət Proqramı"nda kənd əhalisinin maddi-sosial dürümünün daha da yüksəldilməsi üçün müxtar respublikada əsas kənd təsərrüfatı məhsulları üzrə bölgələrin ixtisaslaşdırılması, istehsal olunan ərzaq məhsullarının toplanmasında və satışının təşkilində dövlət dəstəyinin artırılması, müasir aqroparkların yaradılması, məhsulul becərilməsində stimullaşdırıcı tədbirlərin və innovativ texnologiyanın tədqiqi, bir-biri ilə əlaqəli iri, xırda və orta müəssisələr qrupunun, habelə onların fəaliyyəti ilə bağlı olan təşkilatların bölgədə cəmləşməsinin (klasterləşmə) həyata keçirilməsi, fermerlərə müvafiq informasiya-məsləhət xidməti şəbəkəsinin fəaliyyətinin artırılması, nəticədə rəqabətədavamlı ərzaq məhsulları istehsalının artırılması üçün strateji istiqamətlər müəyyənləşdirilmişdir.



## ƏDƏBİYYAT


1. Doqquzuncu çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sesiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun məruzəsi. "Şərq qapısı" qəzeti, № 249. 28 dekabr 2014-cü il.
2. 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı. "Şərq qapısı" qəzeti, № 182, 18 sentyabr 2008-cü il.
3. Quliyev V. Sosial dayanıqlıq. "Azərbaycan" qəzeti, 28 aprel 2015.-ci il
4. Quliyev V. Son 20 ildə aqrar sektorun dinamik inkişafı. "Nuh yurdu" qəzeti, № 39, 24 oktyabr 2015-ci il
5. Bağırov O., Talıbov T. Naxçıvan Muxtar Respublikasının gilas və albalı genofondu. Bakı: Elm və təhsil, 2016, 179 s.
6. Talıbov T., Bayramov L. Naxçıvan Muxtar Respublikasında alma genofondu . Bakı: Afpoliqraf 2013, 156 s.
7. Talıbov T., Babayeva S. Ərik. Bakı: Elm, 1997, 92 s.

**Pərviz Fətullayev**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: p-fatullaev@mail.ru

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA DƏNLİ-TAXIL, PAXLALI VƏ TEXNİKİ BİTKİLƏRİN SELEKSİYASI

Muxtar respublika üçün bu gün ən mühüm məqsədlərdən biri iqtisadi inkişafın kənd yerlərinə daha çox yayılmasını təmin etməkdir. Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatı neft və tikinti sahələrindən sonra üçüncü ən iri sahə olmaqla iş yerləri ilə təminatda ən böyük pay sahibidir. Eyni zamanda bu sahə həm də kənd yerlərində yoxsulluğun azaldılmasına əsaslı təsir edən sahədir. 1995-ci ildən uğurla həyata keçirilən aqrar islahatlar nəticəsində ölkə iqtisadiyyatında bazar münasibətlərinin qurulmasına, torpaq və əmlakdan səmərəli istifadə edilməsi, aqrar bölmənin sahə strukturunun təkmilləşdirilməsi, sahibkarlığın formalaşmasına, kəndin simasınının dəyişdirilməsinə ciddi təsir göstərmişdir. Kənd təsərrüfatının sosial və sahəvi tərkibində əsaslı dəyişikliklər baş vermişdir. İri təsərrüfat formalarının əvəzində müxtəlif mənsubiyyətli çoxsaylı təsərrüfat subyektləri yaradılmış, geniş miqyaslı özəlləşdirmə siyasətinə uyğun olaraq, kənd təsərrüfatına yararlı torpaq sahələri, mal-qara, istehsal və qeyri-istehsal obyektləri, kənd təsərrüfatı texnikası üzərində dövlət mülkiyyət forması fərdi (şəxsi) mülkiyyətlə əvəz edilmişdir.

Keçən əsrin 90-cı illərinin ortalarından Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə başlanmış demokratik dövlət quruculuğu sahəsində geniş miqyaslı islahatlar nəticəsində ölkədə iqtisadi və siyasi sabitlik təmin edilmiş, Beynəxalq aləmdə Azərbaycan Respublikasının nüfuzu əhəmiyyətli dərəcədə yüksəlmiş, iqtisadiyyatın dinamik inkişafının əsası qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikasında aqrar islahatlar nəticəsində son illər kənd təsərrüfatı yüksələn xətt üzrə inkişaf edir. Belə ki, əgər taxıl istehsalı 1999-cu ildə 22,1 ton təşkil edirdisə, 2009-cu ildə 80,4 min ton, 2015-ci ildə isə 106,282 min tona çatmışdır. Hazırda muxtar respublikada 26746 hektarda buğda becərilmişdir ki, bu sahədən də 79140 ton buğda əldə edilmişdir. Buğda bitkisi üzrə orta məhsuldarlıq 29,35 s/ha təşkil etmişdir.

Ulu öndər Heydər Əliyev 16 iyun 2000-ci ildə "Taxıl haqqında Azərbaycan Respublikasının qanunu"nu imzalamışdır. Bu qanun 17 maddədən ibarət olub, taxıl haqqında qanunvericiliyin məqsəd və vəzifələrini, taxılın elmi təminatı, onun maliyyələşdirilməsi kimi bir çox məsələlərin əsas istiqamətlərini özündə əks etdirmişdir. Bu qanunda qeyd edilir: "Fövqəladə hallarda istehlakçıların tələbatını ödəmək, dövlət taxıl ehtiyatını



formalaşdırmaq, Beynəlxalq öhdəlikləri yerinə yetirmək və lazım gəldikdə daxili taxıl bazarında kəskin qiymət dəyişmələrinin qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikasında Dövlət Taxıl Fondu yaradılır". Dövlət Taxıl Fondu əsasən taxıl birjası vasitəsi ilə yerli istehsal, zəruriyyət yarandıqda isə idxal hesabına formalaşır.

Bu sərəncamın məntiqi nəticəsi olaraq Azərbayçan Respublikasının prezidenti İlham Əliyev 25 avqust 2008-ci ildə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət Proqramı"-nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 17 sentyabr 2008-ci ildə "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"-nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Proqramda ərzaq təminatı sahəsində dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapmışdır. Bu Sərəncam muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasını stimullaşdırmaq və əhalinin ərzaq məhsulları ilə təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədi daşıyır.

"2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda qeyd edilir ki, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Ona görə də muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının daha dolğun ödənilməsi, ərzaq bazarının idxaldan asılılığın minimuma endirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi və nəticə etibarilə ərzaq istehsalında ciddi artıma nail olunması günün aktual məsələlərindəndir.

2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (12 yanvar 2015-ci il) bu sahədə dinamik inkişafı üçün zəmin yaratmışdır.

Bu sərəncamlardan irəli gələn vəzifələri yerinə yetirmək üçün Naxçıvan MR-də taxılçılığın və onunla bağlı sənaye istehsalının inkişaf etdirilməsi, məhsuldar, yüksək keyfiyyətli, xəstəlik və zərərvericilərə qarşı davamlı, təsərrüfat qiymətli xüsusiyyətlərə, yüksək iqtisadi səmərəliliyə malik olan perspektivli sortların seçilməsi, onları fermerlərə, özəl təsərrüfatlara təklif etmək, seçilmiş sortlar üzərində seleksiya işləri apararaq, yerli torpaq-iqlim şəraitinə uyğun sortlar yaratmaq bu günümüz üçün aktual məsələlərdəndir. Bunun üçün də Naxçıvan Muxtar Respublikasının torpaq-iqlim şəraitini nəzərə almaqla, bu bölgəyə uyğun adaptiv xüsusiyyətlərə malik sortların alınması vacibdir. Bu problemin həlli yollarından biri də kolleksiya materiallarının genetik potensialından səmərəli istifadə etmək, yerli və dünyanın müxtəlif ölkələrində alınmış sortların məhsulvermə, stres

amillərə davamlı, keyfiyyət və digər göstəricilərini müəyyənləşdirərək onlardan seleksiya işlərində səmərəli istifadə etməkdir. Buna görə də muxtar respublikanın kəskin kontinental iqlim şəraiti üçün müxtəlif mənşəli sort, forma və hibridlərdən ibarət genofondun toplanılması, öyrənilməsi və yerli torpaq-iqlim şəraiti üçün daha məhsuldar, adaptiv xüsusiyyətli başlanğıc materialların seçilməsi və onlar üzərində seleksiya işlərinin aparılması vacibdir.

Naxçıvan yaxınlığında aparılan "Kültəpə" qazıntıları zamanı 4,65 m dərinlikdən kömürləşmiş buğda və arpa dənləri tapılmışdır ki, bu da buğda bitkisinin regionda becərilməsinin 4-5 min il tarixə malik olduğunu sübut edir [2].

Naxçıvan Muxtar Respublikasında buğdaların elmi əsaslarla öyrənilməsi Həsən Əliyev adına "Araz " EİB tərəfindən aparılmış "Kəhrəba", "Sirab" və "İstiqlal" kimi yerli buğda sortları yaradılmışdır [3]. Burada İ.Y.Mehdiyev, Q.V.Qalkin, Ə.Ə.Cəfərov, B.H.Zeynalov, A.M.Kudlay, A.F.Abdullayev, A.D.Yeqorova, Ə.Q.Nağıyev və başqa tədqiqatçılar buğda bitkisinin öyrənilməsinə böyük əmək sərf etmişlər.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunda 2004-cü ildən başlayaraq dənli-taxıl, paxlalı və texniki bitkilər üzərində seleksiya işləri aparılır. Bu illər ərzində yumşaq buğdanın 4 növmüxtəlifliyinə (*Graecum* (Koern.) Mansf., *Lutescens* (Alef.) Mansf., *Erythrospermum* (Koern.) Mansf. və *Ferrugineum* (Alef.) Mansf. növmüxtəliflikləri) aid 497 sort nümunəsi, bərk buğdanın 20 sortu, arpa bitkisinin 180 sortu, noxud bitkisinin müxtəlif mənşəli 27 sortu, tərəvəz lobyasının 16 sortu, 3 ətirli tütün sortu və qarğıdalı bitkisinin 16 sortu üzərində tədqiqat işləri aparılmışdır. Təcrübələr AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun təcrübə sahəsində suvarılan boz torpaqlar şəraitində yerinə yetirilmişdir. Tarla şəraitində yuxarıda göstərilən bitkilərin öyrənilməsi, bu sahədə mövcud olan müasir metodik göstəricilər rəhbər tutulmaqla yerinə yetirilmişdir [1, 4, 5, 6, 7, 8, 9, 10].

Arpa bitkisi üzrə aparılan tədqiqatların nəticəsi olaraq bir yeni "Qılçıqlı-85" sortu alınmış (Şəkil 1) və bir sort isə Respublikanın sort-sınaq məntəqələrinə göndərilməsi üçün hazırlanır.





**QILÇIQLI - 85**

Şəkil 1. "Qılcıqlı-85" arpa sortu

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 19 may tarixli 51 nömrəli Qərarı ilə Kənd Təsərrüfatı Nazirliyinə verilən səlahiyyət əsasında yeni seleksiya nailiyyətinə 00169 nömrəli "Qılcıqlı-85" arpa sortuna AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutuna patent və müəlliflik şəhadətnaməsi alınmışdır. Sortun müəllifləri: T.H.Talıbov, R.V.Əmirov, Z.A.Məmmədov, P.Ü.Fətullayevdir.

Sortun mənşəyi: Sort 2004-2005-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutuna İCARDA-dan introduksiya olunmuş IB-CB-WT (payızlıq arpanın məhsuldarlığının sınağı üzrə beynəlxalq pitomnik) pitomnikindən olan entry 119/N-H nümunəsindən Naxçıvan Muxtar Respublikası Babək rayonu Hacıvar (Şornav) kəndində yerləşən İnstitutun təcrübə sahəsində kütləvi, Nəbatat bağının təcrübə sahəsində fərdi seçmə yolu ilə yaradılmışdır.

Ümumi xarakteristikası: Sort payızlıqdır, çoxcərgəlidir və tezyetişəndir boyu 100-115 sm, yatmaya, dənin tökülməsinə davamlı, asan döyüləndir, kollanması yüksəkdir. Bitkiləri kollanma fazasında yerəyatan, yarpaqları tüksüz və rəngi tünd yaşıldır. Vegetasiya müddəti orta hesabla 186 gün, sünbülləri orta uzunluqda (7,5-8,5 sm) açıq sarı rəngdə və orta sıxlıqdadır. Bir sünbüldə dənlərin sayı orta hesabla 60-65 ədəddir. Qılcıqları açıq sarı rəngdə, uzun və zəif dişciklidir. Dəni orta irilikdə, açıq sarı və uzunsovdur. Müsabiqəli sort sınağı və ilkin artırma pitomniklərində məhsuldarlığı 60-75 s/ha olmuşdur ki, bu da "Naxçıvan dəni" sortuna nisbətən hər hektardan 15-20 sentner çoxdur.

Dənin keyfiyyəti: 1000 dənin kütləsi 49-50 qram, dəndə zülalın miqdarı 14,81 faizdir. Xəstəliklərə və ekstremal amillərə davamlılığı: Təbii və həmçinin süni sirayətlənmə fonlarında qonur pas, unlu şeh və toz sürmə xəstəliklərinə qarşı davamlıdır. Sort Naxçıvan Muxtar Respublikasınln

kəskin kontinental iqliminə, sərt şaxtalara davamlı olmaqla yerə yatmayandır. Sünbüldə dənin cücərməsi müşahidə edilməmişdir.

Becərmə bölgələri və sələfləri: Naxçıvan Muxtar Respublikasının bütün suvarılan ərazilərində və nəmliklə təmin olunmamış dəmyə şəraitinə malik dağlıq və dağətəyi bölgələrində becərilməsi məsləhət görülür. Ən yaxşı sələfi şəkər suğunduru, kartof və paxlalılardır.

Səpin norması: Səpin norması optimal səpin müddətində (oktyabr ayının üçüncü ongünlüyü) cücərən toxum hesabı ilə hektara 3,0-3,5 mln. ədəd (150-170 kq) məsləhət görülür. Gecikmiş səpinlərdə səpin normasını 10-15 %-ə qədər artırmaq məqsədə müvafiqdir.

Gübrə normaları: Yüksək və keyfiyyətli dən məhsulu almaq üçün hər hektara təsiredici maddə hesabı ilə 90 kq fosfor, 90 kq kalium və 60 kq azot gübrəsi tətbiq olunması məsləhət görülür.




Şəkil 2. "Qaraca-85" noxud sortu

Noxud bitkisi üzrə aparılan tədqiqatların nəticəsi olaraq bir yeni "Qaraca-85" sortu alınmışdır (Şəkil 2).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 19 may tarixli 51 nömrəli Qərarı ilə Kənd Təsərrüfatı Nazirliyinə verilən səlahiyyət əsasında yeni seleksiya nailiyyətinə 00171 nömrəli "Qaraca-85" noxud sortlarına patent və müəlliflik şəhadətnaməsi alınmışdır. Sortun müəllifləri: T.H.Talıbov, R.V.Əmirov, İ.M.Hacıməmmədov, P.Ü Fətullayevdir.

Sortun mənşəyi: Noxudun yeni yaradılmış "Qaraca-85" sortu beynəlxalq İCARDA elmi mərkəzindən alınmış Flip 03-115C genetik mənbələrindən fərdi və kütləvi seçmə metodları ilə yaradılmışdır.

Ümumi xarakteristikası: Sort dənlik istiqamətlidir və ərzaq üçün qiymətlidir. Vegetasiya müddəti 115-130 gündür. Bitkiləri tünd yaşıl rəngdədir. Cücərmə fazasında sürətlə boy atır. Çiçəkləri ağdır. Paxlaları və samanı sarı



rəngdədir. Yetişmə dövründə paxlaları tökülmür. Dəni açıq-çəhrayı rəngdə olub, kabulu tiplidir. Köklərində çoxlu sayda (70-100 ədəd) azotfiksasiya edən kökyumrucuqları vardır. Bu yumrucuqlar bitkiləri təbii azotla təmin etməklə yanaşı torpağı da bu elementlə zənginləşdirir. Suya və torpağa az tələbkardır. İlkin paxlalar yer səthindən 25-30 sm hündürlükdə yerləşir və sort mexaniki səpinə, becərməyə və yığım üçün yararlıdır. Hektardan potensial məhsuldarlığı 25 sentnerdən çoxdur. Sortun bitkiləri askoxitoz xəstəliyinə qarşı davamlıdır (1 bal). Bitkilərin boyu 90-95 sm-ə çatır.

Dənin keyfiyyəti: 1000 dənin kütləsi 380-390 qramdır. Dəndə zülalın miqdarı 29%-ə qədərdir. Hektardan zülal toplumu 623 kq-dır.

Becərmə bölgələri və sələfləri: Naxçıvan Muxtar Respublikasının bütün suvarılan ərazilərində və nəmliklə təmin olunmamış dəmyə şəraitinə malik dağlıq və dağətəyi bölgələrində becərilməsi məsləhət görülür. Sortun ən yaxşı sələfi tərəvəz və taxıllardır. "Qaraca-85" noxud sortunun səpin müddəti Naxçıvan Muxtar Respublikasının bütün inzibati rayonlarında mart ayının 20-dən aprel ayının sonuna qədərdir. Səpin norması, 25-30 kq/ha, səpin üsulu cərgə arası 70 x 20 sm olmaqla mexaniki səpin, şum altına təsiredici maddə hesabı ilə hektara 90 kq fosfor, 90 kq kalium verilməlidir.

Yumşaq buğdanın 4 növmüxtəlifliyinə aid 497 sort nümunəsi ətraflı tədqiq edilmiş bərk sürmə xəstəliyinə qarşı *Graecum* növmüxtəlifliyinə aid 7, *Lutescens* növmüxtəlifliyinə aid 21, *Erythrospermum* növmüxtəlifliyinə aid 20, *Ferrugineum* növmüxtəlifliyinə aid 10 (cəmi 58); pas xəstəliklərinə qarşı isə *Graecum* növmüxtəlifliyinə aid 23, *Lutescens* növmüxtəlifliyinə aid 20, *Erythrospermum* növmüxtəlifliyinə aid 20, *Ferrugineum* növmüxtəlifliyinə aid 10 (cəmi 73) davamlı nümunələr aşkarlanmış, zərərvericilərə qarşı nisbətən davamlı *Graecum* növmüxtəlifliyinə aid 27, *Lutescens* növmüxtəlifliyinə aid 16, *Erythrospermum* növmüxtəlifliyinə aid 14, *Ferrugineum* növmüxtəlifliyinə aid 3 (cəmi 60) nümunələr müəyyənləşdirilmiş, qışadavamlı 61 sort nümunəsi, quraqlığa davamlı 31 sort nümunəsi, 82 yüksək məhsuldar nümunə və kompleks təsərrüfat qiymətli əlamətlərə görə numunələrin texnoloji göstəriciləri analiz edilmiş və 10 nümunənin yüksək keyfiyyət göstəricilərinə malik olduqları aşkar edilmişdir. Nəticədə yeni məhsuldar sortların yaradılması üçün qiymətli başlanğıc materiallar seçilmiş və bu nümunələr arasında müxtəlif kombinasiyalı hibridləşdirmə işləri aparılmış, çoxlu hibrid bitki əldə edilmişdir. Əldə olunan 112 müxtəlif kombinasiyalı hibridlər içərisində öz müsbət göstəricilərinə görə fərqlənən bir yumşaq buğda (Eskina-8 X 6507 İran) ) hibridi secilərək Respublikanın sort-sınaq məntəqələrinə göndərilməsi üçün hazırlanır (Şəkil 3).



*Şəkil 3. Yumşaq buğda hibridi*



*Şəkil 3. Bərk buğda hibridi*

Bu hibridin nəzarət pitomnikindəki göstəriciləri: Hibridin sünbülünün uzunluğu orta hesabla 11 sm, sünbüldəki dənin sayı 55 ədəd, sünbüldəki dənin çəkisi 2,5 qram, 1000 dəninin kütləsi 46 qram, məhsuldarlığı 788 q/m$^2$, bitkinin hündürlüyü 110-115 sm, qışadavamlılığı isə yüksəkdir.

Bərk buğdanın 53 hibridi və bu hibridlərdən seçilmiş 53 müxtəlif əlamətlərə malik ailələrin məhsuldarlıq elementləri öyrənilmişdir. Öyrənilən bərk buğda hibridləri içərisində öz müsbət göstəricilərinə görə fərqlənmiş hibrid Əlincə-84 X Zatino olmuşdur. Hibridin sünbülünün uzunluğu 9 sm, bir sünbüldəki dənlərinin sayı 63 ədəd, bir sünbüldəki dənin çəkisi 3,25 qram, 1000 dənin kütləsi 49 qram, bitkinin hündürlüyü 95 sm, məhsuldarlığı 779,4 q/m$^2$, yatmaya və şaxtaya davamlıdır. Hibrid Respublikanın sort-sınaq məntəqələrinə göndərilməsi üçün hazırlanır (Şəkil 4).

Ətirli tütün sortlarından Zaqatala-Dübeki, Amerikan- 2 və Samsun-155 üzərində tədqiqatlar aparılmış, qida sahəsindən və azot gübrəsinin müxtəlif normalarından asılı olaraq məhsuldarlıqları, məhsulun keyfiyyəti öyrənilmiş, fermer və kəndli təsərrüfatlarına tövsiyələr verilmişdir.



## ƏDƏBİYYAT

1. Musayev Ə.C., Hüseynov H.S., Məmmədov Z.A. Dənli taxıl bitkilərinin seleksiyası sahəsində tədqiqat işlərinə dair tarla təcrübələrinin metodikası. Bakı, 2008, 88 s.
2. Mustafaev İ.D. Mustafayev İ.D. Azərbaycan bir çox buğda növlərinin vətənidir. Bakı: Azərnəşr, 1964, 44 s.
3. Naxçıvan ensiklopediyası: 2 cilddə, I c., Naxçıvan, 2005, 356 s.
4. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər) Naxçıvan: "Əcəmi", NPB, 2008, 364 s.
5. Беляев И.М., Горленко М.В., Дьяков Ю.Т. Вредители и болезни полевых культур. М.: Россельхозиздат, 1970, 229 с.
6. Доспехов Б.А. Методика полевого опыта. М.: Агропромиздат, 1985, 351 с.
7. Кожушко Н.Н. Методические указания по изучению засухоустойчивости мирового генофонда яровой пшеницы для селекционных целей. Л.: ВИР, 1991, 90 с.
8. Международный классификатор СЭВ рода *Triticum* L. Л.:, 1984, 84 с.
9. Методические указания по изучению мировой коллекции пшеницы / Под ред. В.Ф.Дорофеева. Л.: ВИР, 1977, 27 с.
10. Хохряков М.К., Доброзракова Т.Л., Степанов К.М., Летова М.Ф. Определитель болезней растений. Лань, 2003, 592 с.

**Akif Bayramov**
AMEA Naxçıvan Bölməsi, dosent
E-mail: akifbayramov@mail.ru

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA APARILMIŞ ZOOLOJİ TƏDQİQATLAR

Qədim Naxçıvan torpağı həm florasının, həm də faunasının növmüxtəlifliyinə görə Kiçik Qafqazın ən zəngin təbiət rayonudur. Təbii-coğrafi şəraiti, iqlim xüsusiyyətləri, relyefi, torpaq-bitki örtüyü, biotop müxtəlifliyi və s. ilə Azərbaycanın digər bölgələrindən kəskin şəkildə fərqlənən bu ərazidə tarixən özünəməxsus bitki və heyvanlar aləmi formalaşmışdır. Heç təsadüfi deyil ki, Azərbaycan təbiətinin bilicisi, akademik Həsən Əlirza oğlu Əliyev bu torpağın zənginliyi haqqında aşağıdakı fikirləri söyləmişdi: "Azərbaycanda yerin altı tükənməz xəzinə, üstü canlı muzeydir". "Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın təbiəti son dərəcə füsunkardır. İlk baxışda muxtar respublikanın ərazisi nə qədər çılpaq və quru görünsə də, daxilən bir o qədər zəngin və rəngarəngdir. Geniş ərazi, münbit torpaq, saf su, təmiz hava, bol günəş şüası, qüdrətli insan qüvvəsi! Bütün bunlar təbii zənginlik deyilmi?!"

Muxtar respublika ərazisini həqiqətən çoxlu endemik, relikt və nadir heyvan növlərinin məskəni hesab edirlər. Elə buna görə də təbiətin maraqlı güşəsi kimi bu bölgə hələ orta əsrlərdən xarici ölkə alimlərinin, təbiyyatşünaslarının və kolleksiyaçılarının diqqətini həmişə özünə cəlb etmişdir. Faunamız haqqında ilk yazılı elmi məlumatlar 19-cu əsrin 50-ci illərinə təsadüf edir.

Ölkə mütəxəssisləri tərəfindən müxtəlif sahələri əhatə edən əsaslı zooloji tədqiqatlara elə muxtariyyətin ilk illərindən, daha doğrusu, 1926-cı ildən başlanılmışdır. Ötən müddət ərzində Azərbaycanın elmi müəssisələri tərəfindən Naxçıvanda xüsusi məqsədlərlə aparılmış tədqiqat işlərinin nəticələri əsasında elmi-praktiki, iqtisadi əhəmiyyət daşıyan xeyli təklif və tövsiyələr hazırlanmışdır.

Respublika prezidenti Heydər Əliyevin 04 yanvar 2001-ci il tarixli fərmanı ilə 1945-ci ildən fəaliyyət göstərən və dünya elminə sıx inteqrasiya edən Azərbaycan Elmlər Akademiyası "Milli Elmlər Akademiyası" statusunu qazandı. Bu, ali dövlət elm təşkilatının fəaliyyətinə verilən ən yüksək qiymət idi. 70 il müddətində dövlətin elm siyasətini layiqincə həyata keçirən Elmlər Akademiyasının fəaliyyətində muxtar respublika faunasının müxtəlif sahələri üzrə problemlərin araşdırılması və həlli məsələləri həmişə diqqət mərkəzində olmuşdur.



Təəssüflə qeyd etmək lazımdır ki, keçən əsrin 90-cı illərinin əvvəlində ölkədə baş vermiş ictimai-siyasi hadisələr bütün sahələrdə olduğu kimi, elmin fəaliyyətinə də öz mənfi təsirini göstərdi. Dövlət başçısının tükənməz siyasi iradəsi və dövlətçilik bacarığı nəticəsində Azərbaycanda yaranan yeni iqtisadi-siyasi vəziyyət və sabitlik elmin dirçəlişinə güclü təkan verdi.

Həmin illərdə bölgənin sututarlarında hidrofaunanın elmi, həm də iqtisadi əhəmiyyəti ilə fərqlənən balıq faunası və hidrobioloji rejimin tənzimlənməsində, balıqların əksər növlərinin qidalanmasında üstün rol oynayan dib faunası və zooplankton faunası öyrənilirdi [10]. Mövcud imkanlar daxilində balıqçılıq təsərrüfatı kimi muxtar respublikanın sosial-iqtisadi həyatında müstəsna əhəmiyyəti olan Naxçıvan (Araz su qovşağı) su anbarında aparılan hidrobioloji tədqiqat işlərinə üstünlük verilirdi.

Artıq 20-ci əsrin sonuna doğru Naxçıvan Muxtar Respublikasında yerli mütəxəssislərdən ibarət, kifayət qədər potensiala malik olan elmi mühit formalaşmışdı. O dövrdə ümummilli lider H.Ə.Əliyev haqlı olaraq muxtar respublika tarixinin, arxeologiyasının, etnoqrafiyasının, mineral xammal ehtiyatının və bioloji sərvətlərinin öyrənilmə səviyyəsini qənaətbəxş hesab etmirdi. Bu boşluğu doldurmaq və mövcud elmi potensialdan səmərəli istifadə etmək məqsədi ilə ölkə prezidentinin 07 avqust 2002-ci il tarixli xüsusi sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi yaradıldı. Bu elm təşkilatı dövlətin üstünlük verdiyi sahələr üzrə elmi-tədqiqat işlərinin aparılması üçün nəzərdə tutulmuşdu. Onun tərkibində ilk günlərdən hərtərəfli dövlət qayğısı ilə əhatə olunan, zəngin maddi-texniki baza ilə təmin edilən Bioresurslar İnstitutu da fəaliyyətə başladı. Çoxprofilli institutda labüd olaraq bölgə fauna biomüxtəlifliyinə daxil olan heyvanlar aləminin tədqiqi, onun genofondunun qorunması və səmərəli istifadə imkanlarının araşdırılması məqsədi ilə Zooloji tədqiqatlar şöbəsi də təşkil edildi.

Şöbə 2003-cü ildə tərkibində cəmi 2 biologiya elmləri namizədi olmaqla 6 nəfər elmi işçi ilə fəaliyyətə başlamışdı. Bu illər ərzində muxtar respublika rəhbərliyinin diqqəti və institutda formalaşmış yaradıcı mühit sayəsində şöbə əməkdaşlarından iki nəfər biologiya üzrə elmlər doktoru, 4 nəfər isə biologiya üzrə fəlsəfə doktoru dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmişdir. Bu və ya digər dərəcədə xalq təsərrüfatı əhəmiyyətli məsələləri əhatə edən dissertasiya işləri, həm də yüksək elm tutumu ilə fərqlənmişlər. Tədqiqat işlərinin nəticələrinə əsasən hazırlanmış əməli təkliflər müvafiq hökümət orqanlarına təqdim edilmiş və müsbət rəylər alınmışdır. Hazırda zooloqların hamısı həm də dosent elmi adını daşıyırlar.

Şöbənin əməkdaşları ölkəmizdə və bir çox xarici ölkələrdə (Türkiyə, Gürcüstan, Qazaxıstan, Ukraina, Rusiya Federasiyası, Bolqarıstan, Rumıniya, Çexiya, Polşa və s.) keçirilən nüfuzlu Beynəlxalq elmi konfranslarda və

simpoziumlarda maraqlı məruzələrlə iştirak etmiş, çoxlu beynəlxalq ekspedisiyaların fəal üzvü olmuşlar. Zooloqların dərc etdirdiyi hər iki məqalədən biri xarici ölkələrdə rus, türk və ya ingilis dillərində dərc olunmuşdur, nəşrlərin coğrafiyası kifayət qədər geniş olub, Asiya, Avropa və Amerika ölkələrini əhatə etmişdir.

Əməkdaşların müəllifliyi ilə monoqrafiyalar, xeyli sayda kitablar və metodik vəsaitlər dərc olunmuşdur. "Промысловые рыбы Нахчыванской Автономной Республики", "Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitabı" (Onurğalılar)", "Azərbaycanın Mühüm Ornitoloji Əraziləri" 2 cilddə, "Azərbaycan Respublikasının "Qırmızı Kitabı" (Nadir və nəsli kəsilməkdə olan fauna növləri)" II nəşr, "Asiya muflonu və bezoar keçisinin Azərbaycanda qorunma strategiyası", "Kənd təsərrüfatı heyvanlarında helmintozların profilaktikası", "Naxçıvan Muxtar Respublikasının onurğasızlar faunasının taksonomik spektri", "Latın dili (qrammatika və terminologiyanın əsasları)", "Mühüm Ornitoloji Ərazilər. Naxçıvan", "Naxçıvan Muxtar Respublikasının zəhərli ilanları", "Çay sularında üzvi çirklənmənin bioloji analizinin sadə üsulları", "Naxçıvan Muxtar Respublikasında çəyirdəkli meyvə ağaclarının zərərverici həşəratları və onların entomofaqları", "Naxçıvan Muxtar Respublikasının arıkimilər (*Hymenoptera, Apoidea*) faunası", "Kənd təsərrüfatı heyvanları və ev quşlarının sarkosporidiozlarında profilaktikanın tətbiqi", "Naxçıvan Muxtar Respublikasının herpetofaunası" və s. monoqrafiyalar və kitablar mütəxəssislər tərəfindən yüksək qiymətləndirirlmişdir.

Şöbə əməkdaşlarının ayrı-ayrı sahələr üzrə əldə etdiyi əsas nəticələr haqqında qısa məlumatları konfrans iştirakçılarının nəzərinə çatdırmaq istərdik:

Sarkosporidiozlar heyvandarlıq sahəsində fermer və fərdi təsərrüfatlara böyük iqtisadi zərər vuran protozooz xəstəliklərdir. Bunu nəzərə alaraq Naxçıvan MR şəraitində ilk dəfə olaraq kənd təsərrüfatı heyvanlarında və ev quşlarında parazitlik edən törədicilərin-təkhüceyrəli orqanizmlər olan *Eimeria* və *Sarcosistys* növlərinin tədqiqinə üstünlük verilmişdir. Törədicilərin növ tərkibi, yüksək virulentli parazit növlər, onların müxtəlif ekoloji mühitlərdə xəstəlik törətmə qabiliyyəti, sahib mənsubiyyəti və başqa bioloji, ekoloji xüsusiyyətləri araşdırılmışdır. Bölgə şəraitində ilk dəfə olaraq iri və xırdabuynuzlu heyvanların, ev quşlarının özünəməxsus parazit faunası, xəstəliklərinin kliniki gedişi, onların cinsi məhsuldarlığa təsiri, hemotoloji dəyişiklikləri və s. müəyyən edilmişdir. Müəllif tərəfindən 3 koksidi növü Cənubi Qafqazın ibtidailər faunasına ilk dəfə əlavə olunmuşdur. 2015-ci ildə İsmayıl Məmmədovun "Naxçıvan Muxtar Respublikası şəraitində kənd təsərrüfatı heyvanlarının və quşların koksidiozları, onların orqanizmində fizioloji göstəricilərə təsiri" mövzusunda elmlər doktoru alimlik



dərəcəsi almaq üçün müdafiə etdiyi dissertasiya işi mütəxəssislər tərəfindən elmi və iqtisadi əhəmiyyətinə görə yüksək qiymətləndirilmişdir [7].

Muxtar respublikada gövşəyən heyvanlar arasında geniş yayılmış, ağır gedişli anoplosefalyatozların törədiciləri (6 növ) və onların aralıq sahibləri – ayaqquyruqlular və otlaq gənələri ərazinin düzənlik, orta dağlıq, dağlıq və yüksək dağlıq otlaqları şəraitində ilk dəfə olaraq ətraflı tədqiq edilmişdir. İlk dəfə keçilərdə Naxçıvan MR-in parazit faunası üçün yeni olan bir növ anoplsefalyat qurdu aşkar olunmuşdur. Helmintoloq Məmmədov Etibar Nəsrulla oğlu 2013-cü ildə biologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün elmi və praktiki əhəmiyyəti ilə seçilən "Naxçıvan Muxtar Respublikasında gövşəyən heyvanların anoplosefalyatozları və onların törədicilərinin, aralıq sahiblərinin bioekoloji xüsusiyyətləri" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir [6]. Doktor hazırda Naxçıvan Dövlət Universitetində Magistratura fakültəsinin dekanı vəzifəsində çalışır.

Kompleks təyinatlı Naxçıvan su anbarında hidrofaunanın əsas tərkib hissələrindən biri olan dib faunası tədqiq edilmişdir. Müasir hidrobioloji metodlarla dib faunasının kəmiyyət göstəriciləri, onun formalaşdırdığı təbii yem bazası, dib orqanizmlərinin vətəgə əhəmiyyətli balıq növlərinin qidalanmasındakı rolu öyrənilmiş, yemin enerji tutumu, qidalılıq əmsalı və həmin orqanizmlərin suların bioloji özünütəmizləmə proseslərindəki fəaliyyəti dəyərləndirilmişdir. 2008-ci ilin yanvar ayında "Naxçıvan su anbarının zoobentosu" mövzusunda namizədlik dissertasiyası müdafiə edilmişdir [1]. Hazırda muxtar respublikada içməli suyun əsas mənbəyini təşkil edən çayların dib faunası, onun əsas sistematik qrupları, biosenozları araşdırılır. Hələlik bölgə hidrofaunasında 66 növ ibtidai, 300 növ infuzor, 185 növ zooplankton orqanizm, 580 növ dib onurğasızı və 32 balıq növü aşkar edilmişdir.

Muxtar respublika bağçılığında geniş yer tutan çəyirdəkli və tumlu meyvə ağaclarının zərərverici həşəratları (59 növ) və onların təbii düşmənləri (56 növ) ətraflı öyrənilmişdir. Tədqiqatçı tərəfindən xeyli zərərverici və faydalı həşərat növləri Azərbaycan və muxtar respublika faunası üçün ilk dəfə göstərilmişdir. Araşdırmalar zamanı zərərli və faydalı həşəratların bioekoloji xüsusiyyətlərinin, onların fəaliyyətinə təsir göstərən ekoloji amillərin, sahib-parazit münasibətlərinin öyrənilməsinə üstünlük verilmişdir. 13 növ parazit və yırtıcının zərərvericilərin sayının məhdudlaşdırılmasındakı rolu və təsərrüfat əhəmiyyəti daha geniş araşdırılmışdır. Gələcəkdə təsərrüfat əhəmiyyətli entomofaqların süni şəraitdə çoxaldılaraq bioloji mübarizə tədbirlərində istifadə edilməsi tövsiyə olunmuşdur. Araşdırıcı Aqil Qadir oğlu Qasımov 2009-cu ildə biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Naxçıvan Muxtar Respublikasında

çəyirdəkli meyvə ağaclarına zərər verən cücülər və onların entomofaqları" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir. Entomoloq tərəfindən meşə ağac və kollarının zərərli və faydalı həşərat komplekslərinin öyrənilməsi nəzərdə tutulmuşdur [3].

Muxtar respublika ərazisində ətraflı aparılmış entomoloji tədqiqat işləri nəticəsində təbiətdə və kənd təsərrüfatında çiçəkli bitkilərin çarpaz tozlanmasında, onların məhsuldarlığının yüksəlməsində müstəsna fəaliyyəti ilə fərqlənən arıkimilər faunasında ilk dəfə olaraq 335 arı növü aşkar edilmişdir. 223 arı növü Naxçıvan MR və Azərbaycan faunası üçün ilk dəfə qeydiyyatdan keçmişdir. *Apoidea* fəsiləüstünə mənsub olan bütün növlərin ekoloji-faunistik xüsusiyyətləri, zoocoğrafi mənşəyi, 4 yüksəklik qurşağı üzrə yayılması, qida əlaqələri, yuvalama yerləri və uçuş fenologiyası haqqında dəyərli nəticələr alınmışdır. Bu həşəratların bölgə florasında üstünlük verdikləri və zəngin növmüxtəlifliyi ilə fərqlənən bitki fəsilələri müəyyən edilmişdir. Faunanın 15 zoocoğrafi faunistik kompleksə mənsub olmasının sübut edilməsi və təhlilinin nəticələri gənc mütəxəssislər üçün etibarlı mənbə rolunu oynaya bilər. Araşdırıcı 2009-cu ildə "Naxçıvan Muxtar Respublikasının (*Hymenoptera, Apoidea*) arıkimiləri" mövzusunda biologiya üzrə fəlsəfə doktoru dissertasiyasını müdafiə etmişdir [4]. M.M.Məhərrəmov tərəfindən təbiət komplekslərinin əvəzsiz ünsürləri olan hörümçəklərin növmüxtəlifliyi araşdırılmış, faunamızın maraqlı tərkib hissəsi kimi iynəli zarqanadlıların öyrənilməsi nəzərdə tutulmuşdur.

İxtioloq-tədqiqatçı T.M.Məmmədov tərəfindən bölgə sututarlarında yayılmış 32 balıq növü ətraflı tədqiq edilmiş, onların morfometrik əlamətləri, bioloji xüsusiyyətləri, boy, çəki artımı, cinsi məhsuldarlığı, çoxalma ekologiyası, qidalanma xüsusiyyəti və ehtiyatı yüksək səviyyədə öyrənilmişdir. Nəticədə müəllif ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası faunası üçün 8 yeni balıq (Kür uzunburunu, Azərbaycan külməsi, Ağ amur, Ağ qalınalın, Yastıqarın, Gümüşü dabanbalığı, Çay sıfı və Qafqaz çay xulu) növünü göstərmişdir. Müqayisəli təhlillərlə aşkar edilmişdir ki, Naxçıvan su anbarında yaşayan bentofaq balıqlar böyümə və kütlə artımına görə Azərbaycanın digər sututarlarında yayılmış eyni növün balıq fərdlərindən xeyli üstündür. Onun su anbarlarının balıq ehtiyatını yüksəltmək və ondan daha səmərəli istifadə etmək üçün bioloji əsaslara söykənən təklifləri müvafiq hökümət orqanlarına təqdim edilmişdir [8].

T.M.Məmmədov 2010-cu ildə "Naxçıvan su anbarının vətəgə əhəmiyyətli balıqları və onların ehtiyatından səmərəli istifadə olunması yolları" mövzusunda biologiya üzrə fəlsəfə doktoru dissertasiyasını müdafiə etmişdir. O, Naxçıvan Muxtar Respublikasının sututarlarında yayılmış vətəgə əhəmiyyətli balıq növlərinin morfobioloji xarakteristikasının tədqiqinə və onların ehtiyatından səmərəli istifadə yollarının araşdırılmasına



həsr olunmuş bir monoqrafiyanın həmmüəllifidir. Balıq növlərindən *Abramis brama orientalis*-çapaq ixtiofaunamız üçün ilk dəfə akademik T.H.Talıbov, *Pseudorasbora parva* - Amur enlibaşı, *Rhodeus seruceus* - Adi kərgə növləri isə gənc mütəxəssis N.C.Mustafayev tərəfindən göstərilmişdir [2, 9, 11].

İnstitutun fəaliyyət göstərdiyi illər ərzində qədim Naxçıvan torpağının ornitofaunası ilk dəfə olaraq əsaslı şəkildə tədqiq edilmişdir. Bölgədə 253 növ quşun yaşadığı müəyyən olunmuşdur. Naxçıvan Muxtar Respublikasında quşlar faunasının qorunması üçün xüsusi, beynəlxalq əhəmiyyət kəsb edən 7 Mühüm Ornitoloji Ərazi (MOƏ) aşkar edilmiş və onların müasir tələblərə uyğun müfəssəl xarakteristikası verilmişdir. Azərbaycan və Naxçıvan MR faunasına xeyli yeni sistematik taksonlar əlavə olunmuşdur. Hazırda ornitologiya üzrə mütəxəssis, həmkarları arasında yaxşı tanınmış tədqiqatçı 2008-ci ildə biologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsini almaq üçün "Naxçıvan Muxtar Respublikasının Mühüm Ornitoloji Ərazilərinin indikator növləri" mövzusunda dissertasiya işini uğurla müdafiə etmişdir [5].

Hazırda A.F.Məmmədov tərəfindən bölgə faunasının xususi qorunma statusuna malik olan digər onurğalı heyvan növləri, onların biotop mənsubiyyəti, ekoloji xüsusiyyətləri və qorunmasının əsas kateqoriyaları müəyyən edilir və eyni zamanda biologiya üzrə elmlər doktoru dissertasiyası üzərində işlər aparılır.

Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) qrant layihəsi üzrə aparılan uzunmüddətli axtarışlarla Zəngəzur dağ silsiləsinin cənub-qərb yamaclarında bəbir (*Panthera pardus*), cüyür (*Capreolus capreolus*) ailələrinin və digər nadir məməli heyvan növlərinin normal yaşam şəraitinin bərpa olunduğu yüksək keyfiyyətli fototələlər və video çəkilişlərlə sübut edilmişdir. Həmin fondun "Asiya muflonu və bezoar keçisinin Azərbaycanda qorunma strategiyası" mövzusunda qrant layihəsinin yerinə yetirilməsi nəticəsində yeni elmi nəticələr əldə olunmuşdur.

## ƏDƏBİYYAT


1. Bayramov A.B. Naxçıvan su anbarının zoobentosu: Biol. elmləri nam. diss... avtoreferatı, Bakı: 2007, 22 s.
2. Bayramov A.B., Məhərrəmov M.M., Məmmədov T.M., Axundov A.H. Naxçıvan Muxtar Respublikasında aparılmış hidrobioloji və ixtioloji tədqiqat işlərinin nəticələri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, təbiət və texniki elmlər seriyası, 2014, cild 10, № 4, s. 189-197.
3. Qasımov A.Q. Naxçıvan Muxtar Respublikasında çəyirdəkli meyvə ağaclarına zərərverən cücülər və onların entomofaqları. Naxçıvan: "Əcəmi" NPB, 2015, 166 s.

4. Məhərrəmov M.M. Naxçıvan Muxtar Respublikasının arıkimilər (*Hymenoptera, Apoidea*) faunası. Naxçıvan: "Əcəmi" NPB, 2015, 264 s.
5. Məmmədov A.F. Mühüm Ornitoloji Ərazilər. Naxçıvan. Naxçıvan: Tusi, 2014, 150 s.
6. Məmmədov E.N. Naxçıvan Muxtar Respublikasında gövşəyən heyvanların anoplosefalyatozları və onların törədicilərinin, aralıq sahiblərinin bioekoloji xüsusiyyətləri: Biol. elmləri dokt. diss... avtoreferatı. Bakı, 2013, 46 s.
7. Məmmədov İ.B. Naxçıvan Muxtar Respublikası şəraitində kənd təsərrüfatı heyvanlarının və quşların koksidiozları, onların orqanizmində fizioloji göstəricilərə təsiri: Biol. elmləri dokt. diss... avtoreferatı. Naxçıvan, 2015, 46 s.
8. Məmmədov T.M. Naxçıvan su anbarının vətəgə əhəmiyyətli balıqları və onların ehtiyatından səmərəli istifadə olunması yolları: Biol. elmləri nam. diss... avtoreferatı. Bakı, 2010, 20 s.
9. Talıbov T.H. Naxçıvan Muxtar Respublikasında nadir heyvan növləri və onların genofondunun qorunması. Bakı: Elm, 1999, 102 s.
10. Мамедов Р.А. Зоопланктон Нахичеванского водохранилища: Автореф. дисс..., канд. биол. наук, Минск, 1990, 21 с.
11. Мамедов Т.М., Кулиев З.М. Промысловые рыбы Нахчыванской Автономной Республики. Баку: Араз, 2001, 51 с.



**Orxan Bağırov**
AMEA Naxçıvan Bölməsi, fəlsəfə doktoru
E-mail: orxan_bagirov@mail.ru

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MEYVƏÇİLİYİN İNKİŞAFI

Bitkilərin inkişafı üçün olduqca əlverişli torpaq–iqlim şəraitinə malik olan Naxçıvan Muxtar Respublikasında meyvəçilik müstəqillik dövründə uğurla inkişaf etdirilmişdir. Muxtar respublika rəhbərliyinin kənd təsərrüfatının digər sahələri ilə yanaşı meyvəçiliyin inkişafı üçün də həlli vacib tədbirlər haqqında imzaladığı müvafiq sərəncamların, proqram və layihələrin icrası belə deməyə əsas verir.

1985-ci ildən başlayaraq düşünülməmiş qəbul edilən qərarlar qısa zamanda kənd təsərrüfatının mühüm sahələrindən biri olan meyvəçiliyə çox ağır zərbələr vurdu. Meyvəçilikdə durğunluq və tənəzzül yarandı, becərilmiş bağları dağıdıldı, "Naxçıvan sortları" adı ilə məhşur olan onlarla sort məhv edildi. O dövrdə Naxçıvan meyvəçiliyi haqqında fundamental kitabların yoxluğu və meyvəçi alimlərin neytral mövqedə durmaları, sərvətimizə Ermənilər tərəfindən olan təcavüzlərə səbəb oldu.

1993-cü ildə Azərbaycanın iqtisadi tənəzzülü dövründə hakimiyyətə gələn ulu öndər Heydər Əliyevin yüksək idarəçiliyi sayəsində böhran vəziyyətindən çıxış yolları müəyyənləşdirildi və köklü islahatlar aparıldı. 1995-ci ildə ümummilli lider Heydər Əliyevin layiqli davamçısının Naxçıvan Muxtar Respublikasına rəhbər seçilməsi digər sahələr kimi kənd təsərrüfatının da inkişafında həlledici amil oldu. Muxtar respublikada kənd təsərrüfatının mühüm sektorlarından olan meyvəçiliyin inkişafının uğurlu mərhələsi başlandı. Belə ki, 1996-cı ildə muxtar respublikada meyvə istehsalı 1991-ci illə müqayisədə 8 dəfə artaraq 18845 ton olmuşdur [17]. Ölkə Prezidentinin 1999-cu il 9 noyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı"nın icrası sayəsində muxtar respublikada meyvəçilik üzrə göstəricilər yüksələn xətt üzrə müşahidə edilmişdir. 2000-ci ildə muxtar respublikada meyvə bağlarının ümumi əkin sahəsi 2243 ha çatdırılmışdır ki, bu bağlardan 28444 ton məhsul tədarük edilmişdir. Bağların hər hektarından orta hesabla 141,6 sentner meyvə tədarük edilmişdir. 2001-ci ildə meyvə bağlarında hektardan məhsuldarlıq 154,7 sentner olmaqla ötən illərə nisbətən ən yüksək göstərici kimi qeyd edilmişdir.



Qrafik 1. Naxçıvan Muxtar Respublikasında meyvə bağlarının sahəsi (ha)

Həyata keçirilən uğurlu proqram və layihələr meyvəçiliyin digər regionlar kimi Naxçıvan Muxtar Respublikasında da inkişaf etdirilməsinə yönəldilmişdir. Ölkə Prezidenti İlham Əliyevin 11 fevral 2004-cü il tarixli Sərəncamı ilə 2004-2008-ci illər üzrə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" təsdiq edilmişdir. Dövlət Proqramlarının müvafiq müddəalarına uyğun olaraq muxtar respublikada meyvəçiliyin inkişafının təmin edilməsi məqsədilə intensiv tipli yeni bağlar salınmışdır. Proqramın icrasının ilk ilində Naxçıvan Muxtar Respublikasında 33,6 hektar sahədə yeni meyvə bağları salınmışdır. 2005-ci ildə meyvə bağlarından 36432 ton meyvə yığılmışdır ki, bu da 2004-cü illə müqayisədə 19799 ton çox olmuşdur. 2008-ci ildə Naxçıvanın meyvə bağlarının ümumi sahəsi 3573 hektara çatdırılmışdır ki, bu bağlardan 37517 ton meyvə tədarük edilmişdir. Meyvə bağlarının bir hektarından 139,3 sentner məhsul yığılmışdır. Proqramın icrası dövründə məhsul istehsalçılarının texnikaya olan tələbatının ödənilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 yanvar 2005-ci il tarixli Sərəncamına əsasən "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır ki, bu yolla müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası Naxçıvan Muxtar Respublikasına gətirilərək istifadəyə verilmişdir. Sonrakı illər Ölkə Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilən 2009-2013 və 2014-2018-ci illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə təsdiq edilən 2009-cu il 28 may tarixli "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və 2014-cü il 1 sentyabr tarixli "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın



icrası növbəti mərhələdə muxtar respublikada meyvəçiliyin inkişafında mühüm rol oynamışdır. Dövlət Proqramlarının müvafiq bəndlərinə əsasən kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü və emalı sahələrində sahibkarlıq fəaliyyətinin dəstəklənməsi ilə əlaqədar muxtar respublikda kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan bir sıra yeni müəssisələr yaradılmışdır. Proqramlarda qoyulmuş məqsədə çatmaq üçün muxtar respublikada meyvə məhsulunun saxlanılması üçün soyuducu anbarların yaradılması, meyvə bağlarının, əkin sahələrinin bərpası və genişləndirilməsinin, aqroservis xidmətləri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsi kimi bir sıra mühüm tədbirlərin icrası da müəyyən edilmişdir. Bu baxımdan 2009-cu ildə muxtar respublikada ümumi əkin sahəsi 3727 hektara çatdırılan meyvə bağlarının 2869 hektarı bar verən yaşda olmuşdur. Bar verən sahədən il ərzində 37782 ton meyvə tədarük edilmişdir. 2009-2013-cü illər Dövlət Proqramının icrası dövründə muxtar respublikanın meyvə bağlarının əkin sahəsi 601 hektar genişləndirilərək 4328 hektar olmuşdur. Mövcud bağlardan tədarük edilən meyvə 43276 ton olmaqla digər illərlə müqayisədə ən yüksək həddə çatdırılmışdır. Qrafikdən göründüyü kimi hər il meyvə bağlarının əkin sahələri artırılmışdır ki, bu da öz növbəsində istehsalının həcminin artması ilə yanaşı, idxaldan asılılığın aradan qaldırılmasına da müsbət təsir göstərmişdir.

Zamanla aqrar sahəni sabit inkişaf etdirmək üçün kənd təsərrüfatının, o cümlədən meyvəçiliyin inkişafını və ərzaq təhlükəsizliyini təmin etməyə yönəlmiş müvafiq tədbirlərin işlənməsi zəruriyyəti ortaya çıxmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Üçüncü Çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Səkkizinci Sesiyasındakı çıxışında demişdir: ***Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi, emal müəssisələrinin xammalla təchiz olunması, istərsə də məşğulluğun təmin olunmasındakı xüsusi çəkisinə və əhəmiyyətinə görə kənd təsərrüfatı hər zaman muxtar respublika iqtisadiyyatında öncül mövqeyə malik olmuşdur.***



Qrafik 2. Naxçıvan Muxtar Respublikasında meyvə istehsalı və məhsuldarlıq

Qrafik 2-dən göründüyü kimi, 1996-2015-ci illərdə muxtar respublikanın meyvə bağlarında istehsal 10000 tondan, hektardan məhsuldarlıq isə 1997-ci il və 2004-cü il istisna olmaqla 100 sentnerdən yuxarı olmuşdur. Ölkə Prezidentinin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı (2008-2015-ci illər)"na müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planına əsasən geni dəyişdirilmiş orqanizmlərin dövriyyəsinə nəzarət gücləndirilmiş, biomüxtəlifliyin qorunması, saxlanması və istifadəsi, meyvə bağlarının bərpası və yenilərinin salınması, meyvə ixracının təşviq edilməsi yönündə işlər aparılmışdır. Belə ki, muxtar respublikasında məhsul istehsalının artırılmasında yeni istiqamətlər müəyyənləşdirilmiş, xammal istehsalı və emal sahələrinin əlaqəli inkişafının təmin olunması, rəqabətədavamlı məhsul istehsalının stimullaşdırılması, xaricdən gətirilmiş geni dəyişdirilmiş meyvəni bazardan sıxışdırması üçün kənd təsərrüfatı istehsalçılarının ekoloji təmiz məhsul becərməsi və əhalini il boyu meyvə ilə təmin edəcək iri tutumlu saxlama kameraları yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.




Qrafik 3. Naxçıvan Muxtar Respublikasında adam başına düşən meyvə (kq)

Dövlət Proqramına dair sərəncamda 2015-ci ilə qədər əhalinin müxtəlif meyvə məhsullarına olan tələbatını adam başına 88,5 kiloqrama çatdırılması bir vəzifə olaraq qarşıya qoyulmuşdur ki, bu da BMT-nin Ərzaq



və Kənd Təsərrüfatı Təşkilatı ekspertlərinin qiymətləndirmələrinə görə "Dünya ərzaq təhlükəsizliyi"nin vəziyyətinin iki mühüm göstəricisindən birini (adam başına düşən istehsal səviyyəsi) özündə əks etdirir. Qrafik 3-dən göründüyü kimi, Dövlət Proqramında il ərzində muxtar respublikada bir nəfər üçün qeyd edilən tələbat 2015-ci ildə layiqincə yerinə yetirilərək 115,6 kq-a çatdırılmışdır. Həmçinin ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatında, o cümlədən meyvəçilikdə məhsul istehsalının stimullaşdırılmasında mühüm əhəmiyyətə malik ümumi tutumu 12 min 730 ton olan 22 soyuducu anbar istifadəyə verilmişdir ki, buda əhalinin il boyu meyvə ilə təmin olunmasında mühüm faktordur [1, s. 7].

2011-ci il 13 dekabr tarixli "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Qanununun tətbiqi barədə Respublika Prezidentinin Fərmanı [16] və "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda aborigen meyvə sortlarının tədqiqi xüsusi bənd olaraq qeyd olunması muxtar respublikada xalq seleksiyası tərəfindən yaradılan meyvə sortlarının qorunmasında, daim təkmilləşdirilməsində və istehsalında böyük nəzəri əhəmiyyət daşımışdır. Bunun nəticəsidir ki, son illərin muxtar respublikada meyvəyə olan tələbatın əsasən yerli məhsullar hesabına ödənilməsi bu sahədə istehsal həcminin ildən-ilə artmasına səbəb olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, 2011-ci ildə 4107,2 hektar olan meyvə bağlarının sahəsi 546,3 hektar artırılaraq 2015-ci ildə 4653,5 hektar olmuşdur. Hektardan yığılan məhsuldarlıq 2014-cü ilə nisbətən 25,2% artaraq 127,3 sentner olunmuşdur.

İcrası uğurla başa çatdırılan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikada kənd təsərrüfatının, o cümlədən meyvəçiliyin inkişafında olduqca böyük əhəmiyyətə malikdir. Dövlət Proqramında muxtar respublikada yüksək keyfiyyətli və məhsuldar meyvə bağlarının salınması, unudulmaqda olan meyvə sortlarının bərpası, genefondun müəyyənləşdirilməsi, ərazilər üzrə müvafiq meyvə sortlarının əkininə dair tövsiyələrin hazırlanması, əhalinin fasiləsiz olaraq meyvə ilə təmin edilməsi məqsədilə əlaqəli sahələrin inkişafının dəstəklənməsi, meyvə məhsullarının ixracının stimullaşdırılması öz əksini tapmışdır. Dövlət Proqramının icrası Naxçıvanda uzun illərdən bəri təbii şəraitin, uzun müddət becərilmə və introduksiya olunmuş sortların hesabına xalq seleksiyası nəticəsində formalaşmış yüksək məhsuldarlığa malik yerli meyvə sortlarının bərpasına və seleksiya işlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Mövcud bar verən meyvə bağlarının ümumi sahəsi 2012-ci ildə 3143 hektardan artırılaraq 2015-ci ildə 4013,4 hektara

çatdırılmışdır. Bunun nəticəsində 2015-ci ildə istehsal edilən məhsul 2014-cü illə müqayisədə 41% artmışdır [1, s. 7]. Ümumiyyətlə, 1991-ci ilə nisbətən 2015-ci ildə meyvə bağlarının sahəsi 120%, bar verən meyvə bağlarının sahəsi 90,8%, meyvə istehsalı 21,7 dəfə, hektardan məhsuldarlıq 11,4 dəfə, adam başına düşən meyvə 4,6 dəfədən çox artmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Dördüncü Çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Onuncu Sessiyasındakı çıxışında demişdir: ***2015-ci ildə muxtar respublikada tarixən formalaşmış təsərrüfatçılıq ənənələri inkişaf etdirilməli, əhalinin ərzaq məhsulları ilə təminatı davamlı xarakter almalı, emal müəssisələri xammalla fasiləsiz təchiz edilməlidir. Muxtar respublikanın ərzaq təhlükəsizliyi və meyvə-tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarının icrası da kənd təsərrüfatına xüsusi diqqət yetirilməsini tələb edir.***

2015-ci il "Kənd təsərrüfatı ili" elan etməklə muxtar respublika rəhbərliyi kənd təsərrüfatının mühüm sahələrindən biri olan meyvəçilikdə də uzaqgörənliklə həyata keçirdiyi davamlı və kompleks islahatlar strategiyasını daha da dərinləşdirərək intensiv texnologiya istiqamətində elmi əsaslı, perspektivli inkişaf yolunu müəyyən etmiş oldu. Naxçıvanda kənd təsərrüfatı sektoru yeni iqtisadi münasibətlər və beynəlxalq inteqrasiya şəraitində meyvəçilik üzrə tədqiqatlar sisteminin inkişaf strategiyasının işlənib hazırlanmasında istinad nöqtəsi və bazis rolunu oynamaqla bu sahədə elmi-texniki fəaliyyətin planlaşdırılması, təşkili və əlaqələndirilməsinin mühüm istiqamətlərini əhatə edir.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında 2002-ci il 7 avqust tarixində imzaladığı sərəncamla ümummilli lider Heydər Əliyev Naxçıvanda bir çox sahələr kimi meyvəçiliyin də elmi əsaslarla inkişaf etdirilməsini əsasını qoymuş oldu. Ümummilli lider Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədəki çıxışında demişdir: ***Naxçıvanın özünə məxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir.*** Ulu öndərin bu fikri əsas götürülərək AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Rspublikasının meyvə bitkiləri elmi əsaslarla öyrənilməyə başlanılmışdır.

İlk olaraq 2003-cü ildə akademik Tariyel Talıbov elmlər doktoru elmi dərəcəsi üzrə "Naxçıvan MR-in flora biomüxtəlifliyi, onun səmərəli istifadəsi və qorunması" mövzusunda təqdim etdiyi dissertasiyada Naxçıvan MR-in mədəni flora nümayəndələrindən, xüsusi olaraq xalq seleksiyaçıları tərəfindən yaradılan meyvə sortlarını, onların mühafizəsinin vacibliyini geniş şəkildə şərh etdi [15]. 2005-ci ildə AMEA Naxçıvan Bölməsində keçirilən "Azərbaycan elminin inkişafı və regional problemlər" elmi konfransında



(Naxçıvan, 28 fevral-1 mart, 2005) mütəxəssislər muxtar respublikada meyvələrin növ, sort və formaları haqqında məruzələrlə çıxış edərək, meyvə bitkilərinin sistemli tədqiqi, onlardan seleksiya işlərində istifadəsi ilə yeni məhsuldar, xəstəliklərə davamlı keyfiyyətli sortların yaradılması tədqiqatların əsas istiqaməti kimi qeyd edildi. 2008-ci ildə biologiya üzrə fəlsəfə doktoru Ənvər Mehdiyev "Naxçıvan Muxtar Respublikası florasının yabanı alma və armud növlərinin bioekoloji xüsusiyyətləri, istifadə imkanları" mövzusunda dissertasiya müdafiə edərək yabanı alma və armudun növ və variasiyalarının təhlilini verdi və Azərbaycan florası üçün iki növü ilk dəfə təqdim etdi. Eyni zamanda aqrar elmlər üzrə fəlsəfə doktoru Cabbar Nəcəfov "Naxçıvan Muxtar Respublikasında az yayılmış qiymətli üzüm sortlarının biomorfoloji və texnoloji-təsərrüfat xüsusiyyətlərinin öyrənilməsi" mövzusunda dissertasiya müdafiə edərək ərazidəki 178 üzüm sortunu öyrənmiş və perspektivlərini təsərrüfatlara tövsiyə etmişdir [12, 14]. 2010-cu ildə aqrar elmlər üzrə fəlsəfə doktorları Loğman Bayramov "Naxçıvan Muxtar Respublikasında alma sort və formalarının genofondunun toplanılması və qiymətləndirilməsi" və Orxan Bağırov "Naxçıvan Muxtar Respublikasının gilas və albalı sortlarının genofondunun qiymətləndirilməsi" mövzularında dissertasiya müdafiyə edərək ərazidə almanın 104, gilas və albalının isə 87 sort formasının genefondunu müəyyənləşdirmiş, bioloji və pomoloji göstəricilərini tədqiq edərək təkliflər irəli sürmüşlər [11, 10]. 2012-ci ildə aqrar elmlər üzrə elmlər doktoru Varis Quliyev "Naxçıvan Muxtar Respublikasında üzümün genofondunun tədqiqi, qiymətləndirilməsi və seleksiyası" mövzusuna müraciət edərək ərazidə ilk dəfə olaraq üzüm genofondunun kompleks şəkildə tədqiqinə nail olmuş və "Naxçıvan MR-də aborigen üzüm sortlarının rəqəmsal ampeloqrafik təyini" üsulunu yaratdı [13].




Qrafik 4. Naxçıvan Muxtar Respublikasının meyvə bitkilərinin genetik tərkibi

Qrafik 4-dən göründüyü kimi muxtar respublikada bütün qruplar üzrə meyvə bitkiləri becərilir və çəyirdəkli meyvə bitkiləri digər qruplara nisbətən üstünlük təşkil edir. Tədqiqat nəticəsində aydınlaşdırılmışdır ki, ərazidə becərilən çəyirdəkli meyvə bitkilərinin genetik tərkibinə görə 74,3%-ni aborigen sortlar təşkil edir. Ərazidəki çəyirdəkli meyvə sortlarının 46,3% tətbiq istiqamətinə görə geniş şəkildə becərildiyi müəyyən edilmişdir. Ötən dövr ərzində AMEA Naxçıvan Bölməsində Naxçıvanda becərilən çəyirdəkli, tumlu, giləmeyvəli və s. meyvə bitkilərinə dair geniş tədqiqatlar aparılmış, onların sistematik tərkibi dəqiqləşdirilmiş, genefondu qiymətləndirilmiş, zərərvericiləri öyrənilmişdir [2, 3, 4, 5, 6, 7, 8, 9]. Hazırda Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşları tərəfindən "Naxçıvan Muxtar Respublikasının meyvə bitkiləri" kitabı üzərində işlər davam etdirilir. İnstitutun "Üzüm genofondu" və "Meyvə genofondu" təcrübə sahələri yaradılmış və muxtar respublikanın meyvə genofondunun qorunması və seleksiya işlərində istifadə üçün meyvə bitkiləri planauyğun olaraq əkilərək, onlar üzərində elmi araşdırmalar yerinə yetirilir.

Ümumiyyətlə, müstəqillik illərində Naxçıvan meyvəçiliyinin inkişafındakı ilkin uğurları və nailiyyətləri belə qiymətləndirmək olar:

- Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin perspektivli inkişafı üçün elmi və hüquqi-normativ baza yaradılmış;
- İlk dəfə olaraq "Meyvə genofondu" və "Üzüm genofondu" təcrübə sahələri yaradılmaqla Naxçıvanın aborigen meyvə sortlarının mütərəqqi üsullarla aparılan tədqiqatlar əsasında, sistemli şəkildə öyrənilməsinə nail olunmuş;
- Naxçıvan Muxtar Respublikasında ekoloji təhlükəsiz və rəqabətədavamlı məhsul istehsalının stimullaşdırılmasında rol oynayan yeni intensiv tipli meyvə bağları salınmış;
- Muxtar respublika əhalisinin keyfiyyətli yerli meyvə ilə təminatına imkan verən yüksək tutumlu soyuducu anbarların və dünya standartlarına uyğun istehsalı təmin etmək üçün yeni texnoloji prinsiplərə əsaslanan meyvə emalı müəssisələrinin yaradılması ilə bu sahədə innovasiya potensialının səmərəliliyi reallaşdırılmışdır.

## ƏDƏBİYYAT


1. 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: "Əcəmi" NPB, 2016, 71 s.
2. Bağırov O.R., Talıbov T.H. Naxçıvan Muxtar Respublikasının gilas və albalı genofondu. Bakı: Elm və təhsil, 2013, 180 s.





3. Qasımov A.Q. Naxçıvan Muxtar Respublikasında çəyirdəkli meyvə ağaclarına zərərverən həşəratlar və onların entomofaqları. Naxçıvan: "Əcəmi" NPB, 2015, 144 s.
4. Quliyev V.M. Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası. Naxçıvan: "Əcəmi" NPB, 2012, 585 s.
5. Nəcəfov C.S. Naxçıvan Muxtar Respublikasında yüksək üzüm məhsulu yetişdirilməsi texnologiyası. Naxçıvan: "Əcəmi" NPB, 2006, 32 s.
6. Talıbov T.H., Bayramov L.Ə. Naxçıvan Muxtar Respublikasında alma genofondu. Bakı: Afpoliqraf, 2013, 156 s.
7. Talıbov T.H., İbrahimov Ə.M. Naxçıvan Muxtar Respublikasının yabanı alma və armud növləri. Naxçıvan: "Əcəmi" NPB, 2007, 40 s.
8. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər). Naxçıvan: "Əcəmi" NPB, 2008, 364 s.
9. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitab"ı. II cild. Naxçıvan: "Əcəmi" NPB, 2010, 677 s.
10. Bağırov O.R. Naxçıvan Muxtar Respublikasının gilas və albalı sortlarının genofondunun qiymətləndirilməsi: Aqrar elmlər üzrə fəlsəfə doktoru ... dis. avtoref. Gəncə, 2010, 21 s.
11. Bayramov L.Ə. Naxçıvan Muxtar Respublikasında alma sort və formalarının genofondunun toplanılması və qiymətləndirilməsi: Aqrar elmlər üzrə fəlsəfə doktoru ... dis. avtoref. Bakı, 2010, 20 s.
12. İbrahimov Ə.M. Naxçıvan Muxtar Respublikası florasının yabanı alma və armud növlərinin bioekoloji xüsusiyyətləri, istifadə imkanları: Biologiya üzrə fəlsəfə doktoru ... dis. avtoref. Bakı, 2008, 22 s.
13. Quliyev V.M. Naxçıvan Muxtar Respublikasında üzümün genofondunun tədqiqi, qiymətləndirilməsi və seleksiyası: Aqrar elmlər üzrə elmləri doktoru ... dis. avtoref. Bakı, 2012, 45 s.
14. Nəcəfov C.S. Naxçıvan Muxtar Respublikasında az yayılmış qiymətli üzüm sortlarının biomorfoloji və texnoloji-təsərrüfat xüsusiyyətlərinin öyrənilməsi: Aqrar elmlər üzrə fəlsəfə doktoru ... dis. avtoref. Bakı, 2008, 20 s.
15. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyi, onun səmərəli istifadəsi və qorunması: Biologiya üzrə elmləri doktoru ... dis. avtoref. Bakı, 2003, 63 s.
16. http://www.president.az/articles/4301
17. http://statistika.nmr.az

## MÜNDƏRİCAT


**Müstəqillik əsl sərvətdir: bu sərvət qorunmalı və inkişaf etdirilməlidir ..... 4**

**Famil Seyidov**
Naxçıvan Muxtar Respublikası yeni inkişaf mərhələsində ........................ 7

**Natəvan Qədimova**
Naxçıvan Muxtar Respublikasında mədəniyyətin inkişafı ........................15

**İsmayil Hacıyev**
Naxçıvan Muxtar Respublikasında elmin inkişafı (1991-2015-ci illər). . . .24


### *İQTİSADİYYAT*


**Asif Şirəliyev**
Mğasirləşən Naxçıvan iqtisadiyyatı. . . . . . . . . . . . . . . . . . . . . . . . . 36

**Nazim Əhmədov**
Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyi və onun sosial-iqtisadi inkişafa təsiri imkanları. . . . . . . . . . . . . . . . . . . . . . . . 44

**Mehdi Bağırov**
Mğasir mərhələdə aqrar sahənin inkişafı: problemlər, mğqayisələr və təhlillər. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52

**Cavadxan Qasımov**
Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı müstəqillik illərində: inkişafdan modernləşməyə doğru. . . . . . . . . . . . . . . . . . . . . . . 61

**Sevinc Cabbarova**
"Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında Naxçıvan iqtisadi rayonunun əmək ehtiyatlarından istifadə və perspektiv inkişaf meyilləri. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 67

**Mehriban İmanova**
Naxçıvan sənayesi mğstəqillik illərində: iqtisadi islahatlar, nəticələr və perspektiv hədəflər. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 74

**Həsən Məmmədov**
Naxçıvan Muxtar Respublikasının davamli inkişafına infrastruktur siyasətinin təsiri (1995-2015-ci illər). . . . . . . . . . . . . . . . . . . . . . . 81

**Asəf Qəribov**
Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələrinin inkişafı, təhlğkəsizliyi və ixtisaslaşma istiqamətləri. . . . . . . . . . . . . . . . . . . . . 86





**Dilsuz Qasımov**
Naxçıvan: aqrar sahədə yeniləşmə və dinamik inkişaf. . . . . . . . . . . . . . . 99

**Əli Cabbarov**
Naxçıvan Muxtar Respublikasında turizm: getmə turizmdən sosial turizmədək keçilən yol. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .104

**Həvva Adıgözəlova**
Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişaf və sosial perspektivlər (1995-2015). . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 108


### *TARİX*


**Fəxrəddin Səfərli**
Naxçıvanda tarix elmi: nailiyyətlər, vəzifələr. . . . . . . . . . . . . . . . . . . 114

**Qadir Qədirzadə**
Milli dəyərlərimiz yeni inkişaf mərhələsində. . . . . . . . . . . . . . . . . . . 122

**Vəli Baxşəliyev**
Müstəqillik illərində Naxçıvanda arxeoloji tədqiqatlar. . . . . . . . . . . . . . 127

**Bəhlul İbrahimli, Toğrul Xəlilov**
Xaraba Gilan ətrafında aparılan arxeoloji tədqiqatlar (1991-2015-ci illər). . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .134

**Musa Quliyev**
Naxçıvan Muxtar Respublikasında görkəmli şəxsiyyətlərin xatirələrinin əbədiləşdirilməsi sahəsində keçirilən tədbirlər . . . . . . . . . . . . . . . . . 142

**Zeynəb Quliyeva**
Naxçıvanın neolit və eneolit abidələrində aparılmış arxeoloji tədqiqatlar (1991-2015-ci illər) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 150

**Asəf Orucov**
Naxçıvan şəhərində sosial-mədəni münasibətlər yeni inkişaf mərhələsində. . . . 164

**Emin Şıxəliyev**
Türkiyə-Azərbaycan münasibətlərində Naxçıvanın yeri (1991-2015-ci illər). . . . . . . . . . . . . . . . . . . . . . . .170

**İlhami Əliyev**
Tarixi abidələrin bərpası və mühafizəsi sahəsində həyata keçirilən tədbirlər. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .176

**Sevinc Abbasova**
Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 182

**Xəzər Hüseynov**
Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (1991-2015-ci illər)....... 194
**Emin Məmmədov**
Naxçıvanın Şərur bölgəsində aparılmış arxeoloji tədqiqatlar (1995-2015)...203

## *MƏDƏNİYYƏT*

**Əbülfəz Quliyev**
Müstəqillik dövründə Naxçıvan dialekt və şivələrinin öyrənilməsi məsələləri....... 210
**Adil Bağırov**
Müstəqillik illərində Naxçıvanda yer adlarının tədqiqi....... 218
**Fərman Xəlilov**
Naxçıvan ədəbi və mədəni mühitini öyrənən elmi mərkəz....... 229
**Əli Qəhrəmanov**
Naxçıvan teatrı müstəqillik illərində....... 238
**Ramiz Qasımov**
Müstəqillik dövründə Naxçıvanda yaranan elmi məktəblər....... 248
**Firudin Rzayev**
Müstəqillik illərində Naxçıvanda prototürklərlə bağli oykonimlərin tədqiqi istiqamətləri....... 254
**Fəxrəddin Eylazov**
AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda saxlanılan Naxçıvanlı müəlliflərin əlyazmalarına bir baxış....... 266
**Əkrəm Hüseynzadə**
Naxçıvan folklorunun inkişaf mərhələləri (1991-2015-ci illər)....... 274
**Aytəkin Qəhrəmanova**
Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında kitabxanaların inkişafı.278
**Qadir Əkbərov**
Naxçıvan Muxtar Respublikasında mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişafı (1995-2015-ci illər)....... 286
**Əli Rzayev**
Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında milli-mənəvi dəyərlərin qorunmasi və bərpasi....... 292



**Ramil Orucəliyev.** Naxçıvan Muxtar Respublikasında muzeylər: durğunluqdan elmi-mədəni intibaha....... 298

## *TƏBİƏT, TƏBİƏTİ MÜHAFİZƏ VƏ EKOLOGİYA*

**Tariyel Talıbov**
Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında təbiəti mühafizəyə dövlət qayğısı....... 306
**Əliyar İbrahimov**
Naxçıvan Muxtar Respublikasının ərazisində yayılmış dərman bitkilərinin öyrənilməsi....... 322
**Sahib Hacıyev**
Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında torpaqların öyrənilməsi....... 339
**Varis Quliyev**
Naxçıvan Muxtar Respublikasında aqrar sektorun dinamik inkişafı....... 349
**Pərviz Fətullayev**
Naxçıvan Muxtar Respublikasında dənli-taxil, paxlali və texniki bitkilərin seleksiyası....... 356
**Akif Bayramov**
Naxçıvan Muxtar Respublikasında aparılmış zooloji tədqiqatlar....... 364
**Orxan Bağırov**
Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin inkişafı....... 371

**Naxçıvan müstəqillik illərində:**
**hədəflər, inkişaf, nəticələr**
*(3-4 dekabr 2015-ci ildə keçirilmiş*
*elmi konfransın materialları)*

Yığılmağa verilmiş 22.04.2016.
Çapa imzalanmış __.06.2016.
Formatı 70X100 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 24,0 ç.v.
Sifariş № ___. Tiraj ___ nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.

15m

Az 2016/845











